Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

TOFİQ MƏMMƏDOV

QAFQAZ ALBANİYASI İLK ORTA ƏSRLƏRDƏ

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU

T.M.MƏMMƏDOV

QAFQAZ ALBANİYASI İLK ORTA ƏSRLƏRDƏ

«TƏHSİL» NƏŞRİYYATI
BAKI–2006

Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

Redaktor:
Y.M.Mahmudov, *t.e.d., professor, əməkdar elm xadimi*

Rəyçilər:
K.H.Əliyev, *t.e.d.*,
F.L.Osmanov, *t.e.n.*

Məmmədov T.M.
M52 Qafqaz Albaniyası ilk orta əsrlərdə. Bakı, «Təhsil», 2006, 400 səh.

Kitabda ilk dəfə ilk orta əsr yazılı qaynaqlarından geniş istifadə edilərək, ölkə və dünya tarixçilərinin tədqiqatlarına tənqidi yanaşılaraq, arxeoloji və etnoqrafik materiallar təhlil edilərək, ilk orta əsrlər Albaniyasının sərhədləri, ərazisi, əhalisi, etnik tərkibi, etnik prosesləri, ilkin feodalizm dövrünün iqtisadi həyatı, ticarəti, şəhərləri, dövlət quruluşu, suverenliyi, mədəniyyəti, dini, alban kilsəsi, ölkənin yadelli işğalçılara qarşı mübarizəsi, müdafiə tikintiləri tədqiq edilərək araşdırılmışdır.

Monoqrafiya elmi işçilər, müəllimlər, tələbələr və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

M $\frac{1805080000}{053}$ 2006

© «Təhsil», 2006

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

I FƏSİL

İLK MƏNBƏLƏRİN VƏ ƏDƏBİYYATIN QISA XÜLASƏSİ

İlk müəllimlərim – anam Zəhra Bağır bəy qızına və atam Məhəmməd Nağı bəy oğluna ithaf edirəm.

Müəllif

Azərbaycan tarixi müxtəlif qaynaqlar əsasında tədqiq olunur və həmin qaynaqlar iki hissəyə bölünür: arxeoloji və yazılı qaynaqlar. Arxeoloji tədqiqatlar göstərir ki, yurdumuzun bir milyon beş yüz ildən artıq tarixi vardır. Ardıcıl olaraq bəşərin bütün ictimai-iqtisadi mərhələlərini keçmiş məmləkətimiz dünya sivilizasiyasının mərkəzlərindən biridir (256 a, 256 b). Bu baxımdan yurdumuz çox qədim dövlətçilik ənənələrinə də malikdir. Məmləkətimizin ərazisində yerləşən ən qədim dövlətlərdən biri də Qafqaz Albaniyası dövləti olmuşdur. Azərbaycanın bu qədim dövləti eradan əvvəl IV–eramızın VII əsrlərində min yüz ildən artıq fəaliyyət göstərmişdir.

Qədim yazılı qaynaqların azlığı, digər tərəfdən, uzun illərdən bəri mövcud olan bu qaynaqların saxtakarlıqla, birtərəfli araşdırılması, Azərbaycanın və o cümlədən Qafqaz Albaniyasının tarixinin subyektiv, qərəzli izahına gətirib çıxarmışdır. Qafqaz Albaniyasının ilk orta əsr tarixinin qaranlıq və mübahisəli, öyrənilməmiş məsələləri, problemləri çoxdur. Albaniyanın ilk orta əsr tarixinə aid qərəzli, saxtakar fikir və mülahizələr uzun illərdən bəri ümumdünya və Azərbaycan tarixşünaslığında möhkəm kök salmışdır.

Qafqaz Albaniyasının erkən orta əsrlər tarixi son zamanlar, əsasən keçmiş sovetlər dövründə müəyyən qədər araşdırılmış, az da olsa sovet tarixşünaslığında öz əksini tapmışdır. Albaniyanın ilk orta əsr tarixinin bəzi sahələri, problemləri üzrə elmi araşdırmalar aparılmış, az sayda olsa da, monoqrafiyalar və elmi məqalələr yazılmışdır (291). Bu tədqiqatların, araşdırmaların əsas xüsusiyyəti bundan ibarət olmuşdur ki, bu əsərlərin müəllifləri öz əsərlərində bütün yazılı qaynaqlardan küll halında, kompleks şəkildə istifadə deyil, yalnız bir dil qrupuna daxil olan yazılı

qaynaqlar əsasında araşdırmalar aparmışlar. Eyni zamanda onu da qeyd etmək lazımdır ki, ilkin orta əsr Qafqaz Albaniyasının tarixini tədqiq edərkən araşdırıcılar, yurdumuzun tarixinin bəzi sahələrinə səthi toxunmuş və bəzi məsələlərinə, problemlərinə isə tamamilə toxunmamışlar.

Onu da xüsusilə qeyd etmək lazımdır ki, son vaxtlara qədər Albaniyanın ilk orta əsr (IV-VII əsrlər) dövr tarixinə dair ayrıca sanballı, böyük tədqiqat əsəri yazılmamışdır. İlk orta əsrlər Albaniya tarixinin müxtəlif sahələri: etnik problemləri, siyasi, iqtisadi, dini, mədəniyyəti və digər mühüm problemləri küll halında ümumiləşdirilməmiş, tədqiq olunmamış və öyrənilməmişdir. Bu sahədə müəyyən qədər boşluğu bu sətirlərin müəllifi tərəfindən ilk dəfə yazılmış «Qafqaz Albaniyası» (IV-VII əsrlərdə) monoqrafiyası doldurmuşdur (342 a). Bu haqda aşağıda daha ətraflı bəhs olunacaq.

Bu boşluq isə ilk orta əsrlərə aid müxtəlif dillərdə olan ziddiyyətli yazılı qaynaqların, ilk orta əsr Albaniyasına dair məlumatların birtərəfli qaydada, sistemsiz istifadə edilməsindən, digər tərəfdən, lazımi tənqidi səviyyədə araşdırılmamasından irəli gəlmişdir. Digər tərəfdən, arxeoloji tədqiqatların artması və onların da yeni tarixi həqiqət baxımından araşdırılmasından meydana çıxmışdır.

Bizim fikrimizcə, məhz bu baxımdan Qafqaz Albaniyasının erkən orta əsrlər dövrünün bu xronoloji çərçivədə, III-VII əsrlərdə daha dərin, dəqiq və əsaslı elmi araşdırılmasını dövr özü bir daha tələb edir. Bizim eranın III əsrdən başlayaraq Qafqaz Albaniyasında ilkin feodal münasibətlərinin yaranması və inkişafı dövrünün başlanğıcı olduğunu nəzərə alaraq, biz bu dövrdən yurdumuzun tarixini araşdırmağı qarşımıza məqsəd qoymuşuq. İlkin orta əsrlərin sinxron yazılı qaynaqların, az da olsa arxeoloji materialların araşdırılması bizə imkan verir qeyd edək və göstərək ki, məhz bu dövrdən Qafqaz Albaniyasında iqtisadiyyat, şəhərlər, mədəniyyət daha da inkişaf edir, xarici əlaqələr genişlənir. İlkin orta əsrlər dövründə Qafqaz Albaniyası Qafqazda və Zaqafqaziyada ən böyük, qüdrətli, yüksək mədəniyyətə malik olan dövlət idi.

İlkin orta əsr Azərbaycan tarixinin və o cümlədən Alban dövlətinin tarixinin araşdırılması və onun tarixi həqiqətinin xal-

qa, gənclərə çatdırılması, onlarda vətənə, yurda olan məhəbbətinin artırılmasında böyük əhəmiyyətə malikdir. Digər tərəfdən, bu da özlüyündə günün vacib amili kimi tarixçilərimizin qarşısında bir ümdə vəzifə kimi durur.

Onu da qeyd etmək lazımdır ki, Albaniyanın ilk orta əsrlər tarixi dövrü arxeoloji cəhətdən az öyrənildiyi üçün, xalqımızın tarixinin bir sıra məsələləri həll edilməmiş halda qalır. Yuxarıda qeyd etdiyimiz kimi, Albaniyanın ilkin orta əsrlər dövrünün tarixinin bu gün də tam, yetkin, dərin təhlilə və araşdırmalara, tədqiqata ehtiyacı vardır. Çünki tarixçilərimizin tədqiqatlarının nəticələri tamamilə bitkin hesab edilə bilməz, hələ aşkara çıxarılmamış yazılı qaynaqların məlumatlarını, arxeoloji, maddi mədəniyyət abidələrini toplamaq, araşdırmaq və qarşıda onları təhlil edərək tarixi həqiqətləri üzə çıxartmaq kimi böyük, çox ağır işlər durur. Lakin bu heç də o demək deyildir ki, tarixçilər Qafqaz Albaniyasının ilkin orta əsrlər tarixinin bu və digər məsələlərinin, aspektlərinin araşdırılması ilə məşğul olmamış, bu sahədə az da olsa onlara toxunmamışlar.

Bu barədə tədqiqatçıların bizi maraqlandıran məsələlərə bu və ya digər dərəcədə toxunan ən mühüm araşdırmalarının qısa xülasəsini aşağıda verdiyimiz qısa tarixşünaslıq xülasəsindən görmək olar. Biz onları xronoloji ardıcıllıq çərçivəsində deyil, monoqrafik, problemlər və tematik planda verməyi məqsədəuyğun hesab etmişik.

Ümumiləşdirilmiş əsərlərdə Albaniyanın ilk orta əsr tarixinin bəzi məsələlərinə toxunulmuşdur. «Azərbaycan tarixi» (1-4, 291, c.I s.85 və digər mənbələrdən ixtibazsız), «Dağıstanın tarixi» (293, c.I, s.105-117), «Dağıstanın tarixi oçerkləri» (401, s.40 və s.) kimi ümumiləşdirici əsərlərdə Albaniyanın ilk orta əsr tarixi, ərazisi, təsərrüfat həyatı, şəhərləri, ictimai quruluşu, xarici siyasəti və digər məsələləri barəsində ümumi məlumatlar verilmiş və əks olunmuşdur.

Keçmiş Sovet tarixçiləri içərisində Qafqaz Albaniyasının antik və ilk orta əsr tarixini öyrənən və araşdıran tarixçilər içərisində mühüm yer tutan alim K.V.Treverdir. K.V.Treverin «Qafqaz Albaniyasının tarixi və mədəniyyəti haqqında oçerklər» monoqrafiyası ilk ümumiləşdirici əsərdir (451). Bu əsər e.ə. IV

əsrdən başlayaraq eramızın VII əsrinə qədərki dövrdə Albaniyanın tarixinin bütün problemlərinə, mədəniyyətinə həsr olunmuş əsərdir. K.V.Trever bu əsərdə çoxsaylı qədim yazılı qaynaqlara və az da olsa arxeoloji tədqiqatlara əsaslanaraq Qafqaz Albaniyasının antik dövrünün tarixinin çox mühüm müxtəlif məsələlərini, problemlərini araşdırır və tədqiq edir. Bu əsərdə K.V.Trever alban tayfaları, onların məskunlaşdığı yerlər, ölkənin iqtisadiyyatı, sosial-iqtisadi məsələləri, siyasi tarixi, alban hökmdarları, onların xarici siyasəti, şəhərləri, hərbi istehkamları, dini, mədəniyyəti, ideologiyası ilə əlaqədar məsələləri və digərləri araşdırır. Bu əsərin ikinci hissəsi Qafqaz Albaniyasının ilk orta əsrlər dövrünün tarixinə həsr olunmuşdur. Əsərin bu hissəsi bir sıra çatışmazlıqlara, nöqsanlara malikdir. Bu əsərdə ilk orta əsrlər dövrünün iqtisadiyyatı, ticarəti, şəhərləri, siyasi dövlət quruluşu, dini, etnik tərkibi, ərazisi və digər məsələləri zəif işıqlandırılmışdır. K.V.Trever öz əsərində Qafqaz Albaniyasının, səhv və yanlış olaraq, qonşu dövlətlərlə müqayisədə geridə qaldığını iddia edir (451, s.84, 87, 93, 144, 150, 154, 176, 185, 354 və s). Lakin bu zaman bir dənə də olsun əsaslı, inandırıcı dəlil-sübut gətirmir. K.V.Trever öz əsərində səhv olaraq ilk orta əsrlərdə Qafqaz Albaniyasının əhalisinin guya qonşular tərəfindən tamamilə assimilyasiya edilməsini qeyd edir. Albaniyanın sərhədləri və tarixi coğrafiyası məsələlərinə gəlincə isə müəllif erməni tarixçilərinin təsiri altına düşərək onların səhv və yanlış mülahizələrindən çıxış edir (451, s.58). K.V.Trever xarici siyasət hadisələrilə bağlı məsələləri araşdırarkən Ermənistan tarixinə daha çox yer ayırmış, Albaniyanın tarixini isə bir növ həmin nöqteyi-nəzərdən kiçildərək işıqlandırmışdır (451, s.188, 198-199). K.V.Trever ilk orta əsrlərdə Qafqaz Albaniyasında mərkəzləşmiş şah hakimiyyətinin mövcudluğunu, onun fasiləsiz olmasını, vərəsəlik yolu ilə davam etməsi, müstəqil dövlət olması məsələlərinə əhəmiyyət verməmişdir. Bununla bərabər xüsusi olaraq bir məsələni də qeyd etmək lazımdır ki, K.V.Treverin yuxarıda adı çəkilən əsəri 1959-cu ildə nəşr olunmuşdur və o vaxtdan bu günə qədər Albaniyanın ilk orta əsr tarixinin öyrənilməsində bəzi irəliləyişlərə nail olunmuşdur. Bu bir tərəfdən yazılı qaynaqların araşdırılması, öyrənilməsi bazasının genişlən-

məsi, digər tərəfdən 40 ildən artıq vaxtda elmə məlum olmayan materialların, xüsusilə arxeoloji tapıntıların aşkar edilməsi ilə də əlaqədardır.

Bir xüsusi məsələni də qeyd etmək lazımdır ki, K.V.Trever öz əsərində qədim erməni yazılı qaynaqlarına istinad edərkən orijinaldan deyil, tərcümədən istifadə etmişdir. Biz isə mərhum tədqiqatçı K.V.Treverdən fərqli olaraq çoxlu qədim erməni yazılı qaynaqlarını tərcümədən deyil, orijinaldan istifadə edib ilk orta əsrlər Alban tarixinin araşdırılmasına tətbiq etmişik. İlk orta əsr sinxron yazılı qaynaqlarında olan materiallara müqayisəli, tənqidi yanaşaraq, onları arxeoloji tədqiqat materialları ilə kompleks şəklində öyrənib tədqiq etməklə Qafqaz Albaniyasının ilk orta əsrlər dövrünün həll olunmamış bəzi problemlərinə, bizcə, yenidən baxmaq, tarixi həqiqəti daha dürüst üzə çıxartmaqla, əsaslı nəticələr əldə etmək mümkündür və bu, dövrün vacib amilidir. Onu da bir daha qeyd etmək lazımdır ki, ilk orta əsr Albaniya tarixinin bir sıra məsələləri, problemləri lazımınca dərin tədqiq olunmamış və bu günə qədər bir sıra məsələlər mübahisəli olaraq qalmaqdadır.

K.V.Treverin əsərinə aid rəy (441, s.117 və s.) nəşr olduğunu nəzərə alaraq onun digər nöqsanları, çatışmazlıqları üzərində ətraflı dayanmaq istəmirik. Lakin onu da qeyd etmək lazımdır ki, yuxarıda gətirilən nöqsanlara, bir sıra nəticələrin mübahisəli olmasına, əsərin nəşrindən 40 ildən artıq bir müddətin keçməsinə baxmayaraq, K.V.Treverin bu kitabı Qafqaz Albaniyasının tarixi ilə maraqlananlara, onunla məşğul olmaq istəyənlərə lazımi kömək göstərə bilən bir əsərdir.

Görkəmli azərbaycan alimi Z.M.Bünyadov özünün «Azərbaycan VII-IX əsrlərdə» (185) monoqrafiyasında yurdumuzun sosial-iqtisadi inkişafını, siyasi tarixinin bir sıra məsələlərini çoxsaylı yazılı qaynaqlara əsaslanaraq ilk dəfə ətraflı işıqlandırmışdır. Z.M.Bünyadovun monoqrafiyası Azərbaycanın VII-IX əsrlərinə həsr olunmuş ümumiləşdirilmiş ilk ciddi əsər olmaqla Azərbaycan tarixşünaslığına qiymətli hədiyyədir. Müəllif tədqiq etdiyimiz ilk orta əsrlər tarixinin təsərrüfat, şəhərlər, siyasi tarix, din və etnik tərkib məsələlərinə aid yazılı qaynaqlara əsaslanaraq özündən qabaqkı tədqiqatçıları tənqid edərək tədqiq et-

mişdir. Z.M.Bünyadov bu monoqrafiyasında VII əsrin sonu – VIII əsrin əvvəllərində erməni katolikosluğunda Ərəb Xilafəti ilə ittifaqa girərək alban katolikosluğunun erməni kilsəsindən asılı vəziyyətə salınması, iki katolikosluq arasında gedən mübarizəni, Albaniyada yaşayan əhalinin bir hissəsinin qriqoryanlaşdırılması və digər bir hissənin müsəlmanlaşdırılması məsələlərini dəqiq qoymuş və düzgün tədqiq etmişdir (185, s.86-102). Lakin bu monoqrafiyada bir sıra çatışmazlıqlar da mövcuddur. Müəllif öz əsərində yanlış olaraq Sasanilər dövründə Alban dövlətinin müstəqil olmasına qarşı çıxış edir, onun Sasanilər dövlətindən vassal asılılığında olduğunu iddia edir (185, s.57). Digər tərəfdən, müəllif etnik tərkib məsələlərinə toxunan zaman türk mənşəli tayfaların yurdumuza gəlmə olduğunu da iddia edir.

Z.M.Bünyadov digər əsərlərində də yazılı qaynaqlara əsaslanaraq Qafqaz Albaniyasının ən mühüm xarici siyasət məsələləri üzərində dayanmış və onları tədqiq etmişdir (186, s.21-27; 189, s.149-166). Bu əsərlərdə eyni zamanda bəzi tayfaların Albaniya ərazisində yayılması məsələsi də müəllif tərəfindən araşdırılmışdır.

Görkəmli azərbaycan alimi T.A.Bünyadov öz əsərlərində, monoqrafiyalarında yazılı qaynaqlara, arxeoloji və etnoqrafik materiallara əsaslanaraq əkinçilik və maldarlıq məsələlərini geniş tədqiq edib və işıqlandırıbdır. Müəllifin əsərlərində, xüsusilə əkinçilik təsərrüfatında istifadə edilən kənd təsərrüfatı alətlərinə, onlardan istifadəyə, süni suvarmaya, taxılın saxlanmasına, bağçılığa və bostançılığa dair fikirləri böyük elmi əhəmiyyət kəsb edir. Müəllif dəqiq, konkret materiallara əsaslanaraq taxılçılıq mədəniyyətini və taxıl növlərini öz əsərində hərtərəfli araşdırır, tədqiq edir (190; 193). T.A.Bünyadov zəngin materiallara əsaslanaraq, maldarlıq formaları üzərində hərtərəfli dayanaraq, onları tədqiq edir, iribuynuzlu və xırdabuynuzlu mal-qaranın, atçılığın, dəvəçiliyin inkişafını təhlil edir, ilk dəfə olaraq hərtərəfli, dəqiq işıqlandırır (191; 192). T.A.Bünyadovun əsərləri Azərbaycan tarix elminin qiymətli səhifələrindəndir.

Mərhum arxeoloq R.M.Vahidov öz əsərlərində, əsasən arxeoloji materiallara əsaslanaraq, Mingəçevir əhalisinin ilk orta əsrlərdə dinini, onların sənətkarlıqla, ticarətlə və digər peşələrlə məşğul olmasını öyrənmişdir (196; 201; 202; 203).

Görkəmli Azərbaycan tarixçisi, Qafqaz Albaniyasının ilk tədqiqatçılarından biri mərhum Z.İ.Yampolskinin yurdumuzun tarixinin araşdırılmasında böyük xidmətləri olmuşdur. Z.İ.Yampolski antik və ilk orta əsr yazılı qaynaqlara əsaslanaraq Qafqaz Albaniyasının ictimai-iqtisadi quruluşunu (494; 501), ərazisini, etnik tərkibini (497, s.100-118; 496, s.62-64) ilk dəfə tədqiq etmişdir. Z.İ.Yampolski digər bir əsərində ilk dəfə olaraq Azərbaycan tarixşünaslığında Zaqafqaziya ərazisindən Kaspi dənizi, Kür və Rioni çayı vasitəsi ilə Qara dənizə gedən beynəlxalq ipək yolunun, suquru ticarət yolunun olmasını hərtərəfli tədqiq etmişdir (502, c.II, s.161-180). Z.İ.Yampolski qədim yazılı qaynaqlara, arxeoloji və etnoqrafik materiallara, məlumatlara əsaslanaraq Qafqaz Albaniyasının çoxsaylı dini məsələlərini öz əsərlərində hərtərəfli tədqiq etmiş və öyrənmişdir (495; 498).

Zaqafqaziya feodalizmin genezisi problemlərinin, məsələlərinin öyrənilməsində tarix elmi müəyyən dərəcədə nailiyyətlər əldə etmişdir. A.P.Novoseltsev yazılı qaynaqlara əsaslanaraq öz ümumiləşdirilmiş əsərində Zaqafqaziyada feodalizmin keçdiyi yolu və onun genezisini tədqiq etmişdir (387, s.9-122; 389). Qafqazşünas A.P.Novoseltsev bizim ilk orta əsrlər tarixinə dair tədqiq etdiyimiz bəzi etnik tərkib, ərazi, ictimai-iqtisadi məsələlərinə öz əsərlərində toxunmuş və araşdırmışdır (387; 388; 389). A.P.Novoseltsev albanların yazı mədəniyyətinə, ərəb istilasından sonra Albaniyada həyata keçirilən qriqoryanlaşdırma və islamlaşdırma məsələlərinə də öz əsərində toxunmuşdur (387, s.42). A.P.Novoseltsev Qafqaz Albaniyasının ilkin orta ərazi məsələsinə toxunarkən, düzgün olaraq göstərir ki, o zaman Albaniyanın ərazisi müasir Azərbaycan Respublikasının, eləcə də Ermənistanın, indiki Dağıstanın bir hissəsini və Şərqi Gürcüstanın indiki ərazisini əhatə edirdi (389a, s.186).

Dağıstanın tədqiqatçı alimlərindən R.M.Maqomedovun (325; 326), A.R.Şuxsaidovun (476; 477, c. III, s. 54-55), X.X.Ramazanovun (430) əsərlərinin paraqraflarında ilk orta əsrlərdə Albaniyanın təsərrüfatı, şəhərləri, dini və s. haqqında ümumi məlumatlar əks olunmuşdur.

İlk orta əsr yazılı qaynağı M.Kalankaytuklunun «Alban tarixi» əsərinə əsaslanaraq F.C.Məmmədova (343; 345; 346) Al-

baniyanın ilk orta əsrlər dövrünün sosial-iqtisadi və siyasi-ictimai məsələlərini araşdırmağa cəhd göstərmişdir. Müəllif öz əsərində iqtisadi-ictimai terminlərin varlığı məsələlərini, əməkçilərin, hakim zümrənin hüquqi məsələsini və digərləri araşdırmağa cəhd göstərmişdir. Onu da qeyd etmək lazımdır ki, bu araşdırıcı ermənilər tərəfindən mənimsənilmiş mənşəcə pəhləvi iqtisadi, siyasi, sosial-ictimai terminlərini əlində heç bir əsaslı dəlili olmadan, onları dəyişmədən, ilk orta əsr Albaniya ictimai, iqtisadi mühitinə olduğu kimi, səhv olaraq tətbiq edir (343; 344; 345; 346). Bir mühüm məsələni də qeyd etmək lazımdır ki, bu müəllif öz işində alban tarixçisi M.Kalankaytuklunun əsərinin əvvəllər alban dilində yazılması və onun mənşəcə kim olması məsələsi üstündən tam sükutla keçir (344; 346). F.C.Məmmədovanın digər «Qafqaz Albaniyasının siyasi tarixi və tarixi coğrafiyası» (346 a) adında olan işinə mənfi (119 v) və eyni zamanda müsbət rəylər (119 q) olduğuna görə onun haqqında geniş söhbət açmaq fikrindən uzağıq. Lakin qısa da olsa bu haqda bəzi mülahizələrimizi bildirməyi özümüzə borc bilirik. Bu iş ilk baxışdan antik və ilk orta əsr yazılı qaynaqlardan istifadə edilərək, Albaniyanın antik və ilk orta əsrlər dövrünün ictimai-siyasi, sosial-iqtisadi, ideologiya, mədəniyyət məsələlərinə toxunulmuş təsiri bağışlayır. Digər tərəfdən, siyasi-inzibati, etnik, dini, kilsə məsələlərinə toxunulmuş təsiri yaradır. Əslində, bizcə, müəllif bu işdə yuxarıda sadaladığımız məsələləri istər Albaniyanın antik dövrü, istərsə də ilk orta əsrlər dövrü baxımından araşdırmağa, tədqiq etməyə «cəhd göstərmişdir». Lakin müəllif bu işində bunun heç biri-nə nail ola bilməmişdir. Biz «cəhd göstərmişdir» ifadəsini ona görə işlədirik ki, əslində buna heç ehtiyac da qalmır, çünki bu məsələlər və problemlər ondan çox-çox öncə çoxsaylı tədqiqatçılar tərəfindən, ondan da dürüst, ətraflı tədqiq edilmişdir. Albaniyanın həm antik, eyni zamanda ilk orta əsrlər dövrünün siyasi tarixi bu müəllifdən əvvəl də bir sıra tədqiqatçılar– K.V.Trever, M.İ.Artamanov, S.T.Yeremyan, Z.M.Bünyadov, T.M.Məmmədov və b. tərəfindən araşdırılmış, tədqiq olunmuşdur.

Müəllif çox halda elmə məlum olan, tədqiqatçılar tərəfindən sübuta yetirilən, araşdırılan məsələləri yenidən araşdırmağa cəhd göstərir və sübut olunmuş məsələləri, problemləri öz adına

çıxır. Bu baxımdan, tarixi coğrafiya problemləri həm antik dövrü, eyni zamanda ilkin orta əsr dövrü A.Yanovski, B.Dorn, İ.Şopen, Q.Xyubsman, İ.Markvart, Tomaşek, V.F.Minorski, B.N.Leviatov, K.V.Trever, S.T.Yeremyan, Z.İ.Yampolski, K.Q.Əliyev, A.P.Novoseltsev, V.Qukasyan, A.Ş.Mnatsakanyan, D.L.Musxelişvili, T.M.Məmmədov və b. tərəfindən araşdırılmış və öyrənilmişdir.

Albaniyanın ilk orta əsrlər dövrünün etnik tərkibi, ideologiyası, dini, iqtisadi-ictimai quruluşu, mədəniyyəti və digər məsələləri bu müəllifdən çox-çox öncə Z.İ.Yampolski, K.V.Trever, Z.M.Bünyadov, R.B.Göyüşov və digərləri, xüsusilə daha ətraflı T.M.Məmmədov tərəfindən araşdırılmış və tədqiq olunmuşdur.

İlk baxışdan bu iş sanki iki elmi araşdırma: tarixşünaslıq və mənbəşünaslıq formasında qurulmuşdur. Lakin bu iki elmi araşdırma metoduna da axıra qədər əməl olunmamış və başa çatdırılmamışdır. Məhz bunların hər ikisi yarımçıq olduğundan, bu əsər sanki rəy və arayışlardan tərtib olunmuş bir iş kimi nəzər-diqqəti cəlb edir (s.4, 8-10, 11-21, 22-31, 33-37, 116-127, 128-150, 169-183, 184-186). Bu işin adı onun məzmununa, xronologiyasına tamamilə uyğun deyil. Digər tərəfdən, müəllif işində xronoloji ardıcıllığa əməl etmir, çox vaxt ondan kənara çıxır və bəzən də onu əhatə etmir (1-3, 8, 21-31, 89-100, 151-162, 215-216, 236-237, 238-239). Daha mühüm bir məsələni də qeyd etmək lazımdır ki, bütün iş boyu hər vəchlə hələ sübuta çox ehtiyacı olan səhv bir fikri, Albaniyada İran mənşəli tayfaların, etnosların ağalıq etdiyi məsələsini əsassız olaraq yazır, lakin yerli türkmənşəli tayfaların varlığını inkar edir (s.5, 68, 92, 103, 101, 164-168, 195-196 və s.).

Bu iş çoxlu mənbələrə və materiallara, faktlara əsaslanmayan, elmi tədqiqatdan, araşdırmadan uzaq olan hazır nəticələrlə doludur. Məhz buna görə də bu baxımdan bu nəticələr sanki havadan asılı vəziyyətdədir. Bu işdə yeniliklərin yox dərəcəsində olduğuna və digər yuxarıda qeyd etdiyimiz qeydlərə əsaslanaraq demək olar ki, bu iş yalnız kompilyasiyadan ibarətdir (bax: s.4, 7-10, 32, 38-42, 46-47, 52, 55, 59-60, 63-65, 78, 81, 90-106, 117, 114, 149, 165-167, 173, 187, 194, 196-197, 203-204, 211-215, 217-222, 226, 229-230, 232, 241-246, 260).

Bir məsələni də xüsusilə qeyd etmək lazımdır ki, bu işin müəllifi F.Məmmədova çoxlu elmə məlum olan problemləri və məsələləri nəşr olunmuş, vaxtilə çap edilməmiş monoqrafiyalardan, məqalələrdən (K.V.Treverin, Z.İ.Yampolskinin, S.Aşurbəylinin, K.Q.Əliyevin, R.Göyüşovun, V.Qukasyanın və xüsusilə T.M.Məmmədovun) köçürmüşdür (bax: s. 5, 7, 10, 36-42, 44-46, 51-54, 60, 79-80, 82, 89, 90-106, 116, 121, 124, 126, 145, 148-163, 164-166, 117-187, 187-213, 217, 223-225, 228-232, 235-237, 240-245, 256, 258-295, 262). Əziz, hörmətli oxucu, bu göstərilən səhifələri vaxtı ilə bizim tərəfdən öncə yazılmış əsərlərlə (xüsusilə 341, 341a, 341b, 342, 342a) tanış olub, oxuyub və müqayisə etsəniz, bizim tənqidi mülahizələrimizin əsassız olmadığı sizə bir daha aydın olar. F.Məmmədovanın nəşr olunmuş «Qafqaz Albaniyası və albanlar» adlı «işi» elmdən kənar, elmə zidd, heç bir yeniliyə malik olmayan, tarixi həqiqətlərdən uzaq, Azərbaycan tarixinin bayağılaşdırılmasının və saxtalaşdırılmasının mücəssəməsindən ibarətdir. Bu «işə» dair dövri mətbuatda çoxlu tənqidi məqalələr, rəylər nəşr olunduğuna görə biz onun haqqında geniş söhbət açmaq fikrindən uzağıq (bax: 346 a).

A.A.Akopyan (119a) öz monoqrafiyasında elmə zidd olan, yalnız inkar etmək metodikasını, prinsipini cəm halında öz qarşısına bir məqsəd kimi qoymuşdur. Bu müəllifin bir məqsədi vardır, o da ondan ibarətdir ki, hər bir qeyri-elmi yolla, hər bir cəhdlə «öz konsepsiyasını» sübuta yetirmək (heç bir sübut yoxdur!) «cəhdindən» ibarətdir. Onun elmi tədqiqatlardan çox uzaq, qeyri-elmi cəfəngiyyat fikirlərinə və cəhdinə görə Albaniya müstəqil əraziyə, özünün müstəqil siyasətinə, mədəniyyətinə, etnik mənsubiyyətinə, müstəqil kilsəsinə, müstəqil dövlətinə malik olmamış – o, yalnız Şərqi Ermənistanın bir hissəsidir. Biz «cəhd göstərir» ifadəsini ona görə işlədirik ki, əslində bunun üçün onun əlində heç bir elmi sübut yoxdur və ola da bilməz. Çünki bütün əski və ilk orta əsr yazılı qaynaqların (o cümlədən qədim erməni) çoxsaylı dəyərli məlumatları, faktları və tədqiqatçıların araşdırmaları onun saxtakar fikrinin tam əsassız olduğunu göstərir və sübuta yetirirlər.

Bu sətirlərin müəllifi öz əsərlərində ilk orta əsr Qafqaz Albaniyasının bir çox məsələlərini, aspektlərini, problemlərini

çoxsaylı sinxron yazılı qaynaqlar, arxeoloji, etnoqrafik və digər materiallar əsasında geniş işıqlandırmışdır. O, çoxsaylı birdilli (qədim erməni) ilk orta əsr yazılı qaynaqlarına əsaslanaraq və onları biri-biri ilə, digər tərəfdən isə onları alban tarixçisi M.Kalankaytuklunun əsəri ilə müqayisə etmişdir. Digər tərəfdən isə onlara tam tənqidi yanaşaraq, öz əsərlərində (məqalələrində və monoqrafiyasında) ilk dəfə olaraq ilk orta əsrlər Qafqaz Albaniyasının çoxsaylı məsələlərini: təsərrüfat həyatını, şəhərlərini (333; 340; 341, s.17-25), ictimai-sosial həyatını, dövlət quruluşunu, albanların hökmdarlarını, dövlət müstəqilliyini, siyasi tarixini (334; 332; 341, s.25-46), yazısını, mədəniyyətini (330; 338; 341 s. 42-46), dinini, alban kilsəsinin, katolikosluğunun tam müstəqilliyini (341, s.47-74), xarici siyasətini (329; 341, s.75-96), müdafiə istehkamlarını (341, s.98-101), etnik tərkibini (334; 335; 342), ərazisini, ərazi bölgüsü və tarixi coğrafiyasını (341, s.35-41 292, s.51-52) tədqiq etmişdir. Müəllif digər monoqrafiyasında (342a) isə çoxsaylı ilk orta əsr yazılı qaynaqlarına (yunan, bizans, qədim erməni, suriya, qədim gürcü, ərəb və digər) tənqidi yanaşaraq və onlardan geniş istifadə edərək, həmçinin ölkə və xarici tarixçilərin ən yeni tədqiqatlarına tənqidi yanaşıb dərc olunmuş arxeoloji, etnoqrafik materialları cəlb edərək Qafqaz Albaniyasının IV-VII əsrlər dövrünün çoxsaylı məsələlərini, problemlərini ilk dəfə tədqiq etmişdir. Bu monoqrafik əsərdə ilk dəfə olaraq Qafqaz Albaniyasının IV-VII əsrlərdə sərhədləri, ərazi bölgüsü, əhalisi, etnik prosesləri, türk mənşəli etnosların yerli olması (342a, s.28-45) tədqiq edilmiş və öyrənilmişdir. İlk dəfə vahid tədqiqat çərçivəsində bu regionun ilkin feodalizm şəraitində iqtisadi həyatının hərtərəfli təhlili verilmişdir. Qafqaz Albaniyasının o dövrünün şəhərlərinin tarixi və onların iqtisadiyyatda rolunun dəyişilməsi göstərilmiş, ticarət yolları, ticarətin xüsusiyyətləri, inkişaf dinamikası aşkar və tədqiq edilmişdir. (342a, s.45-77). İlk dəfə Qafqaz Albaniyasının IV-VII əsrlərdə ictimai-siyasi münasibətləri, dövlət quruluşu, strukturu, alban şahlarının, hökmdarlarının varisliyi, alban dövlətinin suverenliyinin əsas əlamətlərini tədqiq etmişdir (342, s.86-99). İlk dəfə olaraq Albaniyanın IV-VII əsrlər dövründə mədəniyyətinin (əlifba, yazı, ədəbiyyat, elm və s.) inkişaf xüsu-

siyyətləri geniş tədqiq edilmişdir (342a, s.100-115). Onun əsərində ilk dəfə olaraq ölkədə hökmranlıq edən din və dini görüşlər hərtərəfli araşdırılmış, alban kilsəsinin, dini icmasının və katolikosluğunun müstəqilliyi tədqiq edilmişdir (342a, s.116-142). Yeri gəlmişkən xatırlatmaq istərdik ki, bu monoqrafiya ilk nəşrindən (1993-cü il) 20 il öncə yazılıb başa çatdırılmışdır. Lakin onun nəşri əsasən subyektiv səbəblər üzündən gecikdirilmişdir.

Qafqaz Albaniyasının IV-VII əsrlərdə dinini araşdırarkən mərhum R.B.Göyüşovun monoqrafiyasını və bir sıra məqalələrini xüsusi olaraq qeyd etmək lazımdır. O, arxeoloji materiallar əsasında ilk orta əsrlər dövrünün xristian dininin bir sıra məsələlərinə toxunmuşdur. Onun tərəfindən bir çox kilsə məbədləri, sövmələr, monastırlar aşkar edilmiş və arxeoloji cəhətdən tədqiq edilmişdir (220; 222; 224; 226; 227; 229).

Qafqaz Albaniyasında dinin bir sıra cəhətlərinə ümumi halda A.A.Ələsgərovun (132), İ.M.Cəfərzadənin (225), İ.İ.Meşşaninovun (367), İ.P.Petruşevskinin (419) əsərlərində də toxunulmuşdur. Albaniyada ilk orta əsrlərdə şəhərlərin tarixinə eyni zamanda S.B.Aşurbəylinin (156), Y.A.Paxovnovun (408; 409), Q.M.Əhmədovun (154) və A.A.Kudyarsevin (317) əsərlərində toxunulmuşdur.

Q.Ə.Hacıyev tərəfindən bu yaxınlarda nəşr olunmuş «Bərdə şəhərinin tarixi» əsərini xüsusi qeyd etmək lazımdır. Bu əsərdə antik dövrdən başlayaraq XVIII əsrədək əski yazılı qaynaqlara, ar-xeoloji, etnoqrafik materiallara əsaslanaraq Bərdə şəhərinin iqtisadi, siyasi və mədəni tarixi tədqiq edilmişdir (211a).

Lakin onu da qeyd etmək lazımdır ki, Qafqaz Albaniyasının IV-VII əsrlər dövrü şəhərləri və şəhər həyatı ən mürəkkəb, az öyrənilmiş məsələlərdən və problemlərdən biri olaraq qalmaqdadır. Bu bir tərəfdən yazılı qaynaqlarda ilkin orta əsrlər dövrünə dair şəhərlər haqqında məlumatların az olmasından irəli gəlirsə, digər tərəfdən isə arxeoloji cəhətdən ilk orta əsr Albaniya şəhərlərinin çox az tədqiq olunması və araşdırılmaması ilə əlaqədardır.

Tədqiqatımızda ilk dəfə olaraq Qafqaz Albaniyasının şəhərlərinin tarixinin araşdırılması məqsədilə imkanımızda olan ilkin

orta əsrlər yazılı qaynaqlardan, demək olar ki, hamısından və nəşr olunmuş arxeoloji tədqiqatlardan geniş istifadə edilmişdir. İlkin orta əsr yazılı qaynaqları Qafqaz Albaniyasının araşdırdığımız dövrünün şəhərlərinin quruluşu və strukturuna dair olduqca cüzi məlumatlara malikdirlər. Bu məsələnin araşdırılması və tədqiqi üçün bizə gələcəkdə ilkin orta əsrlərə aid Qafqaz Albaniyası ərazisində yerləşən şəhərlərdə aparılan, araşdırılan arxeoloji materiallar verməlidir. Lakin çox təəssüflə qeyd etmək lazımdır ki, ilk orta əsrlərə aid şəhərlərin çox hissəsi, demək olar ki, arxeoloqlar tərəfindən çox az öyrənilmişdir. Yalnız Qafqaz Albaniyası ərazisində yerləşən şəhərlərin arxeoloji cəhətdən geniş, ardıcıl tədqiqi və onlardan əldə olunmuş arxeoloji materialların sistemləşdirilməsi, araşdırılması, eyni zamanda əlimizdə olan yazılı qaynaqların məlumatlarının cəlb olunmasından sonra, bizcə, bu problemi hərtərəfli tədqiq etmək və öyrənmək mümkün olar. Məhz yuxarıda qeyd etdiyimiz çətinliklər və çatışmazlıqlarla əlaqədar olaraq Qafqaz Albaniyasının ilkin orta əsrlər şəhərlərinin quruluşunu, strukturunu, tipologiyasını öyrənmək, müəyyən etmək olduqca çətin və məhduddur.

Y.A.Manandyan öz əsərində ilkin orta əsr qədim bizans, erməni yazılı qaynaqlarına əsaslanaraq, bizans imperatoru İraklinin Zaqafqaziya, o cümlədən Qafqaz Albaniyasının ərazisindən keçən həmləsinin istiqamətinin yolunu və bizans imperatoru İrakli ilə birlikdə IV-VII əsrlərdə xəzərlərin Albaniyaya yürüşlərini araşdırır (354, s.133-153).

Qafqaz Albaniyasının qədim və ilk orta əsrlər tarixinin öyrənilməsi ilə ilk dəfə məşğul olmağa başlayan qafqazşünas, albanşünas, ermənişünas, görkəmli erməni tarixçisi S.T.Yeremyanın tədqiqatları mühüm yer tutur və özünəməxsus əhəmiyyət kəsb edir. O, yazılı qaynaqlara əsaslanaraq Azərbaycan tarixinin bir çox məsələlərinə, problemlərinə öz tədqiqatlarında toxunmuş və araşdırmalar aparmışdır. S.T.Yeremyan sasanilər dövründə ticarət yollarına həsr olunmuş araşdırmasında (264) Qafqaz Albaniyası ərazisindən keçən ticarət yolları və onun Albaniya üçün əhəmiyyəti məsələsinə toxunmuşdur. O, eyni zamanda bu əsərində bir sıra yaşayış məskənlərinin lokallaşdırılmasını araşdırmışdır.

Digər bir işində S.T.Yeremyan qədim erməni yazılı qaynaqlarına və eyni zamanda ilkin orta əsr alban yazılı qaynağına

əsaslanaraq, Qafqaz Albaniyasının VII əsr siyasi tarixinin bir mühüm məsələsi üzərində dayanır (275, c.VII s.123-125). O, bu işində alban hökmdarı Varaz-Trdat tərəfindən Xəzər xaqanı Alp-İlitverə göndərdiyi səfirliyinin keçdiyi yolu araşdırır və eyni zamanda bir sıra yaşayış məntəqələrinin lokallaşdırılması, bir çox tayfaların Albaniya ərazisində yerləşməsi, yayılması məsələlərinə toxunmuş və araşdırmışdır.

Zaqafqaziya xalqlarının, o cümlədən albanların V əsrdə Sasani imperiyasına qarşı azadlıq mübarizəsi məsələsi erməni tarixşünaslığında mühüm yer tutur. Bu problemin araşdırılması baxımından S.T.Yeremyanın V əsrdə Zaqafqaziya xalqlarının Sasani zülmünə qarşı azadlıq mübarizəsinə həsr etdiyi iş xüsusi əhəmiyyət kəsb edir (269, s.41-60). O, ilk orta əsr yazılı qaynaqlarına əsaslanaraq Zaqafqaziya xalqlarının və o cümlədən albanların yadelli işğalçılara qarşı mübarizədə geniş xalq kütlələrinin aktiv iştirak etməsini göstərir.

Digər bir işini də S.T.Yeremyan Sasanilər dövründə Qafqaz keçidinin qorunması məsələsinə həsr etmişdir (271, s.33-41). Bu işdə S.T.Yeremyan Qafqaz keçidinin Sasanilər tərəfindən qorunmasında onların rolunu və eyni zamanda, yazılı qaynaqlara əsaslanaraq Qafqaz Albaniyası ərazisində yerləşən müdafiə istehkamlarının inşası məsələsinə də toxunmuşdur.

S.T.Yeremyanın daha bir işi də Qafqaz Albaniyasının VII əsr siyasi tarixinə həsr olunmuşdur (272, s.27-30). Bu əsərində müəllif Bizans imperatoru İraklinin ordusunun Zaqafqaziya və eyni zamanda Albaniya ərazisindən keçdiyi yolu, digər tərəfdən isə yazılı qaynaqlara və toponimik materiallara əsaslanaraq Albaniyanın ərazisində olan bir sıra yaşayış məskənlərinin yerləşməsi məsələsinə də toxunmuşdur.

S.T.Yeremyan «SSRİ tarixi»nin iki cildində (268, s.201-207 və s.) və «SSRİ tarixinin oçerkləri»ndə (402, s. 437 və s., 267, s.303-330) Qafqaz Albaniyasının tarixinin bir sıra məsələlərinə toxunmuşdur. Bu ümumiləşdirilmiş işlərində S.T.Yeremyan əski yazılı qaynaqlara və eyni zamanda arxeoloji materiallara əsaslanaraq bizim e.ə. I minilliyin birinci yarısından başlayaraq eramızın VIII əsrinə qədərki Qafqaz Albaniyasının tarixinin bəzi məsələləri, problemləri üzərində dayanır. O bu işlərində,

dar bir çərçivədə Qafqaz Albaniyasında tayfalar, onların yerləşdiyi yerlər, tarixi coğrafiyası, ictimai-iqtisadi münasibətlər, ictimai-sosial quruluş, siyasi tarix, alban şahlarının, hökmdarlarının xarici siyasəti, şəhərlər, din, ideo-logiya, katolikosluq, mədəniyyət və digər məsələləri araşdırır. S.T.Yeremyanın bu bölmələrində və digər araşdırmalarında, işlərində əsas amalı, məqsədi Alban dövlətini, onun tarixini kiçiltmək, digər tərəfdən isə onun Ermənistanın ayrılmaz bir hissəsi kimi qələmə vermək və Ermənistanın tarixini şişirtmək məqsədi daşıyır (268, s.310-314; 324-328). S.T.Yeremyan əski yazılı qaynaqların düzgün məlumatlarına məhəl qoymadan və onları bəzi halda bayağılaşdıraraq, səhv olaraq 387-ci ildən Albaniyanın Sasani canişinləri–mərzbanları tərəfindən idarə olunduğunu iddia edir (268, s.314). Əslində Albaniyada mərzban rejimi yalnız qısa bir dövrdə, alban şahı Vaçenin hakimiyyətdən acıq edib getməsindən sonra, 463-487-ci illərdə mövcud olmuşdur. Digər bir tərəfdən, S.T.Yeremyan əski yazılı qaynaqları saxtalaşdıraraq, onlara bəzən məhəl qoymadan Qafqaz Albaniyasının sasanilərdən çox asılı olduğunu səhv və yanlış olaraq izah edir (268, s.324).

S.T.Yeremyan özünün tarixi coğrafiya əsərlərində (285; 520) Qafqaz Albaniyasının tarixi coğrafiyası və onun sərhədləri məsələsinə nəzər yetirir. Bu işlərində S.T.Yeremyan yazılı qaynaqlara əsaslanaraq alban çaylarının və yaşayış məskənlərinin yerləşməsi məsələlərinə toxunur. S.T.Yeremyan özündən qabaqkı sələflərinin səhv və yanlış fikrinə uyaraq yazılı qaynaqlarda olan tarixi faktları bayağılaşdıraraq Albaniyanın sağsahil ərazisi–Arsax, Uti, Paytakaran nahiyələrinin guya altı yüz il ərzində Ermənistanın tərkibinə daxil olduğunu iddia edir (265; 520).

Digər bir işində (273, s.47-59) S.T.Yeremyan Qafqaz Albaniyasının ərazisində yaşayan və məskunlaşan bir sıra tayfalar məsələsinə diqqət yetirir. Müəllif bu tayfaların yerləşdiyi yerlər və yayılması məskənlərini araşdırır, Albaniya ərazisində yerləşən bir sıra yaşayış məntəqələrinin yerləşdiyi yer-ərazi məsələlərinə nəzər yetirir.

Qafqaz Albaniyasının tarixinin bir sıra məsələlərinə, aspektlərinə toxunan və araşdıran erməni tarixçilərindən biri də L.M.Melikset-Bekdir. O, yazılı qaynaqlara əsaslanaraq öz əsər-

lərində Qafqaz Albaniyasının ərazisində yaşayan hun tayfaları (360, s.709-713), udin tayfaları (306, s.25-53), xəzərlər (365, s.112-118) haqqında və digər tayfa birləşmələri (363, s.521-548) məsələlərinə, Albaniyanın bir sıra toponimiyasına (530) toxunmuş və nəzər-diqqət yetirmişdir.

T.İ.Ter-Qriqoryan öz əsərində orta əsr yazılı qaynaqlara əsaslanaraq Zaqafqaziya xalqlarının, o cümlədən albanların Sasani işğalçılarına qarşı azadlıq mübarizəsi məsələsinə toxunmuşdur (446). O, çap olunmamış əsərlərində Moisey Kalankaytuklu və onun «Alban tarixi» (445) əsərini, «Alban tarixi»nin nəşr olunmamış səhifələrinin (444) məsələlərini araşdırmışdır. Onun çap olunmamış digər əsərində (447) isə Qafqaz Albaniyasının siyasi tarixi və xristian dini haqqında maraqlı məlumatlar vardır.

M.Barxudaryan qədim erməni yazılı qaynaqlarına əsaslanaraq və onları bir daha saxtalaşdıraraq, bayağılaşdıraraq Qafqaz Albaniyasının siyasi tarixi və kilsə tarixinə nəzər yetirmiş, eyni zamanda sərhədlər məsələsinə toxunmuşdur (519; 175; 176). M.Barxudaryanın bu işləri olduqca köhnəlmişdir. Onun digər bir işi Qafqaz Albaniyasının nahiyələrindən olan Arsaxa həsr olunmuşdur (518). Bu işdə müəllif tərəfindən Arsaxın tarixi-coğrafi xarakteristikası verilir. Onun digər «Albaniya ölkəsi və onun qonşuları» (517) adlı bir işində isə M.Barxudaryan Qafqaz Albaniyasının vilayətlərinin sərhədləri, onun qonşuları, dili məsələlərinə diqqət yetirmişdir.

Qafqaz Albaniyasının yazı məsələsi problemi çətin və həll olunmamış tarixi problem olaraq qalmaqdadır. Qeyd etmək lazımdır ki, bu problemin araşdırılmasında öz tədqiqatlarında akademik A.Q.Şanidzenin (476; 468; 469; 471), İ.Abuladzenin (114; 115; 116), L.M.Melikset-Bekin (367) böyük xidmətləri olmuşdur. Bu aspektdə digər tədqiqatçıların – V.Qukasyanın (235; 237; 238; 240), A.Q.Perixanyanın (418, s.126-127), Q.A.Klimovun (310; 311; 312) və başqa müəlliflərin gördükləri işlər də böyük əhəmiyyət kəsb edir.

Bir sıra digər erməni tarixçiləri M.Abeqyan (107, c.I, s.311-312), Q.Açaryan (513, s.3-11; 516, s. 133; 514, s.46), Sevan (432), A.Melik-Ağacanyan (40), X.Kurdyan (549, s.80-83), A.Anasyan öz işlərində alban yazısının meydana gəlməsi və

mədəniyyət məsələlərinə toxunmuşlar. Bütün yuxarıda adlarını çəkdiyimiz tədqiqatçılar ilk orta əsr yazılı qaynaqlarına tənqidi və obyektiv yanaşmayaraq, yazılı qaynaqlarda olan faktları bir qədər də bayağılaşdıraraq, yanlış olaraq V əsr alban yazısının yaranmasını mifik bir şəxs olan Mesrop Maştosun adı ilə əlaqələndirirlər və ona şamil edirlər.

Erməni tədqiqatçısı A.Q.Abramyan öz işlərində (505; 112) və xüsusilə öz monoqrafiyasında (110) alban yazısı məsələsinə nəzər-diqqət yetirmiş və digər tərəfdən isə alban yazısının udin dili əsasında açılmasına təşəbbüs göstərmiş, lakin çox təəssüflər olsun ki, o, buna nail olmamışdır (236, s. 392-400; 238, s.52-74).

N.Akinyan öz işlərində, məqalələrində alban tarixçisi M.Kalankaytuklunun «Alban tarixi» əsəri və onun müəllifi haqqında məsələlərə toxunaraq tarixi həqiqətləri təhrif etməyə çalışır (120). N.Akinyan digər bir işində isə alban katolikosu Vironun fəaliyyətinə toxunmuşdur (121). Başqa bir işində alban əlifbasının, yazısının yaranması məsələsinə nəzər salmışdır. O ilk orta əsr yazılı qaynaqlarda olan məlumatlara çox halda məhəl qoymayaraq, digər tərəfdən isə onları daha da saxtalaşdıraraq, onlara subyektiv yanaşaraq səhv və əsassız olaraq belə bir fikir yürüdür ki, albanlar yazıya malik olmamışlar (511, s. 315-320). N.Akinyan, eyni zamanda digər bir işində erməni kilsəsi ilə alban katolikosluğu, kilsəsi arasında dini-kilsə mübahisələrinə toxunmuşdur (120).

N.Akinyan və A.İoanisyan ilk orta əsr yazılı qaynaqlarda olan məlumatları, faktları təhrif edərək, çox halda onlara məhəl qoymayaraq, tamamilə səhv, yanlış olaraq albanların müstəqil kilsəyə malik olmamasını və kilsədə hətta ibadətin yalnız erməni dilində aparılmasını əsassız olaraq göstərirlər və tarixi həqiqətləri hər vəchlə təhrif etməyə çalışırlar (511, s.315-320; 120; 286, v. I, s. 129). N.Akinyanın yanlış, tarixi həqiqətdən çox uzaq olan fikrincə M.Kalankaytuklu «Alban tarixi» əsərində olan hadisələri erməni tarixçilərinin əsərlərindən sadəcə olaraq köçürmüş və buna görə həmin yazılı qaynaq tam əhəmiyyətsiz bir işdir (120).

Digər bir erməni tarixçisi Leo (A.Q.Babaxanyan) yazılı qaynaqları saxtalaşdıraraq, onlara tənqidi yanaşmayaraq və çox halda hətta məhəl qoymayaraq, tarixi həqiqəti təhrif edərək,

tamamilə səhv olaraq iddia edir ki, «V əsrin axırlarında Albaniya ölkəsinin yalnız yarı hissəsi öz milli müstəqilliyini qoruyub saxlamış, digər bir hissəsi isə artıq ermənilərşmiş və ya tamamilə ermənilərşməyə yaxın vəziyyətdə idi» (552; 523, s.333-334).

A.Q.Sukiasyan ermənistanın ictimai-siyasi quruluşuna həsr olunmuş əsərində (442), eyni zamanda Albaniyanın ictimai-siyasi quruluşuna toxunmuş və Aquen qanunnaməsi məsələsi üzərində də müəyyən qədər dayanmışdır (442, s. 116-117).

A.Ş.Mnatsakanyan «Qafqaz Albaniyası haqqında» monoqrafiyasında (374; 532) Albaniyanın siyasi tarixi, alban yazısı, ədəbiyyatı, mədəniyyəti məsələləri üzərində dayanmışdır. O, yazılı qaynaqları və tədqiqatları saxtalaşdıraraq hər vəchlə əsassız olaraq alban yazısının, ədəbiyyatının olmamasını sübut etməyə çalışır (374, s.106-107 və. s.). Yazılı qaynaqlarda olan məlumatları bayağılaşdıraraq, saxtalaşdıraraq, əsassız olaraq o, alban şairi Davdakı Ermənistandan gəlmə erməni şairi hesab edir (374, 132-134). O, ilk orta əsr yazılı qaynaqlarını saxtalaşdıraraq V əsrin əvvəllərində meydana gəlmiş alban yazısını, əsassız olaraq, mifik bir şəxsiyyət olan Mesrop Maştosun adı ilə bağlayır (374, s. 67-73). V.Qukasyan tərəfindən A.Ş.Mnatsakanyanın monoqrafiyasında onun yanlış nöqteyi-nəzərləri hərtərəfli tənqid edildiyinə və bu işin elmdən nə qədər uzaq olduğu təhlil edildiyinə (235, s. 85-100) görə biz onun bu monoqrafiyası üzərində daha ətraflı dayanmaq istəmirik.

Albanşünaslıq elminin bizim respublikada 60-70-ci illərdə müəyyən qədər inkişafa çatmasından sonra, 70-80-ci illərdə erməni tarixçiləri öz saxtakar sələflərindən bir az da uzağa gedərək özlərinin ilk yazılı qaynaqlarını, eyni zamanda özlərindən qabaqkı bəzi tarixçilərin tədqiqatlarını daha da saxtalaşdıraraq A.Ş.Mnatsakanyandan sonra B.Ulbabyan (451b), Q.X.Svazyan (443 a), A.Ayvazyan (5, 6, 7) və digərləri bir-birinin ardınca öz işlərini nəşr etdirməyə başladılar. Həmin müəlliflərin əsərlərinin adları müxtəlif olsa da, məqsədləri birdir. Bu müəlliflərin hamısının məqsədi Albaniyanın ərazi, etnik siyasi-inzibati, mədəni və mənəvi cəhətdən Ermənistanın bir hissəsi olmasını sübut etməyə «cəhd göstərməkdən» ibarətdir. Əslində isə bu müəlliflərin əlində heç bir tarixi fakt və dəlil yoxdur ki, bu cəfəngiyyat, saxtakar fikirlər sübuta yetirilsin.

Qafqaz Albaniyasının ərazisi, sərhədləri, tarixi coğrafiyası ölkənin ən çətin, mürəkkəb və mübahisəli məsələlərindəndir. Yuxarıda qeyd etdiyimiz monoqrafiyalardan əlavə, A.Yanovski (503, h. 52, s. 97-203), B.Dorn (260), A.Y.Krımski (319), S.V. Yuşkov (487), V.N.Leviatov (321), K.Q.Əliyev (123, 124, 125), İ.Şopen (478), A.P.Novoseltsev (388), Q.Xyubşliman (546), V.F.Minorski (372), D.L.Musxelişvili (377, s. 8-14; 378, s. 25, 26), T.Q.Papuaşvili (417, s.9) və digərləri kimi tədqiqatçılar ərazi, tarixi coğrafiya, sərhədlər məsələlərinə toxunmuş və araşdırmışlar.

Bununla bərabər onu da qeyd etmək lazımdır ki, Qafqaz Albaniyasının ərazisi, tarixi coğrafiyası, sərhəd məsələsi bu gün də az öyrənilmiş, mürəkkəb və digər tərəfdən isə mübahisəli olaraq qalmaqdadır. Bu problemə, sahəyə həsr olunmuş tarixşünaslıqla tanış olduqdan, ona nəzər-diqqət yetirdikdən sonra aydın olur ki, antik dövrün sərhədləri, ərazisi müəyyən qədər bir sıra tədqiqatçılar tərəfindən az da olsa araşdırılmışdır. Lakin Albaniyanın ilk orta əsr dövrünün ərazisi, sərhədləri problemi məsələsi xüsusi olaraq ayrıca tədqiq obyektinə çevrilməmişdir. Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, bu məsələyə dair nəşr olunmuş yanlış, əsaslandırılmamış belə bir səhv fikir də mövcuddur ki, Qafqaz Albaniyasının IV-VII əsrlərdə ərazisi, sərhədləri kiçilmişdir (123, s.5).

Qafqaz Albaniyasının etnik tərkib məsələsi də çox mürəkkəb, az öyrənilmiş və digər tərəfdən isə mübahisəli problem olaraq Azərbaycan tarixşünaslığında, Albaniyanın tarixində mühüm amil kimi durur. Yuxarıda qeyd etdiyimiz monoqrafiyalardan əlavə, aşağıdakı müəlliflər də öz əsərlərində bu məsələyə müəyyən qədər toxunmuşlar. Onlardan A.Bakıxanovu (165), V.Minorskini (552; 102), İ.Q.Əliyevi (131), Qalus Ter-Mkrtıçyanı (Miaban) (531, s. 923-934), A.Payzatı (508), L.Ovsenyanı (534), V.Lalayanı (521, s.155-171;320, s.37-47), A.Artyunovu (140, s. 73-95), K.Q.Əliyevi (123;126;127), T.Papuaşvilini (417, s.9) və digərlərini göstərmək olar. Bir daha qeyd etmək lazımdır ki, qədim Azərbaycan ərazisində etnik proseslərin və bu problemin araşdırılması, tədqiqi ən çətin, mürəkkəb, mübahisəli, digər tərəfdən isə öyrənilməsi çox vacib olan bir məsələ kimi yurdu-

muzun tarixçiləri qarşısında durur. Bu problemi tədqiq edərkən, ona kompleks şəkildə yanaşmaq, bütün bu sahəyə aid materialları – arxeoloji, antropoloji, dilçilik, onomastik, toponimik, numinaztik və digərlərini cəlb etmək lazımdır. Beləliklə, bu mürəkkəb problemi hərtərəfli, dəqiq, obyektiv tədqiq etmək, araşdırmaq üçün bir-birinə yaxın bir sıra elm sahələrinin mütəxəssislərinin: tarixçilərin, arxeoloqların, etnoqrafların, filoloqların, dilçilərin, incəsənətşünasların, coğrafiyaşünasların və digərlərin birgə səyi çox vacibdir. Lakin bu böyüklükdə, digər tərəfdən çox mürəkkəb olan problemi bir monoqrafiyanın fəslində tədqiq etmək, aydınlaşdırmaq, həyata keçirmək olduqca çətindir. Digər tərəfdən isə onu da qeyd etmək lazımdır ki, bir fəslin bölməsində əsas məqsəd ilk orta əsr yazılı qaynaqları əsasında Qafqaz Albaniyasının IV-VII əsrlərdə etnik tərkibini araşdırmaqdır. Bu problem üzrə nəşr olunmuş elmi işlərdə bir sıra yanlış – yerli Albaniya əhalisinin çoxunun ilk orta əsrlərdə ermənilər tərəfindən assimilyasiyası, türk mənşəli tayfaların yurdumuza gəlmə olması kimi səhv, yanlış fikirlər mövcuddur (bu haqda bax II fəsilə).

İlkin orta əsr Qafqaz Albaniyasının təsərrüfat, şəhərlər, digər bir sıra məsələlərini araşdırmaq və işıqlandırmaq məqsədi ilə biz, eyni zamanda bir çox arxeoloqların, tarixçilərin: S.M.Qazıyev (296; 297; 298; 299; 360; 301; 302; 305), D.Şərifov (472; 473; 474). İ.İ.Meşşaninov (368, 369), Y.N.Qummel (249), A.A.İyessen (284; 279; 280; 282), A.A.Yakobson (488; 90), Q.M.Aslanov (143; 144; 146; 147; 148; 149; 384), Ö.Ş. İsmizadə (20), Q.İ.İone (287;288), C.A.Xəlilov (457; 458; 459; 460; 461), İ.V.Minkeviç-Mustafayeva (380; 381; 382), V.Q.Əliyev (130), A.B.Nuriyev (390; 391; 392; 394), A.Ş.Orucov (397, 398, 399, 400), A.A.Haqverdiyev (150) və digər müəlliflərin əsərlərindən, tədqiqatlarından bəhrələnmişik.

Beləliklə, XVIII əsrin axırları, XIX-XX əsrlərdə formalaşmış, yaranmış müasir tarixşünaslıq və bu dövrün tarixçiləri öz siyasi baxışlarından asılı olaraq, demək olar ki, hamısı bizim yurdumuzun tarixinin mühüm problemlərini, o cümlədən onun etnik tərkibini, etnogenez məsələsini saxtalaşdırmışlar. Bu yazarlar antik, ilk orta əsrlər yazılı qaynaqlarının materiallarını

daha da saxtalaşdıraraq, çox halda onlara tənqidi yanaşmayaraq, yurdumuzun çox minillik tarixini tarixi həqiqətdən uzaq, ona uyğun olmayan halda yazmışlar və hal-hazırda da yazmaqda davam edirlər.

Qafqaz Albaniyasının tarixi müxtəlif qaynaqlar, yəni ilkin mənbələr əsasında tədqiq olunur və həmin qaynaqlar iki hissəyə bölünür: arxeoloji və yazılı qaynaqlar. Bizim tədqiq etdiyimiz monoqrafiyanın əsas faktik bazasını müxtəlif dilli, çoxsaylı, dövrlə sinxron yazılı qaynaqlar təşkil edir. İstifadə edilən çoxdilli yazılı qaynaqlar içərisində dövrlə sinxron əski erməni yazılı qaynaqları xüsusilə fərqlənir. Bu yazılı qaynaqlar Qafqaz Albaniyasının ilkin orta əsrlər dövrünün müxtəlif sahələrini: əkinçiliyi, maldarlığı, sənətkarlığı, suvarmanı, şəhərləri, yaşayış məntəqələrini, Alban dövlətinin ictimai-iqtisadi məsələsini, dövlət quruluşunu, ordusunu, tarixi coğrafiyasını, sərhədlərini, dinini, alban şahlarını, hökmdarlarını və onların xarici siyasətini, əhalinin etnik tərkibini, ölkənin ərazisində olan müharibələri, yadellilərə qarşı əhalinin mübarizəsini və digərləri haqqında daha geniş və qiymətli məlumatlar verirlər. Qədim və erkən orta əsrlərə aid bütün yazılı qaynaqlar kimi, erməni yazılı qaynaqları da çox qərəzlidir, ona görə də onlardan istifadə zamanı onlara olduqca tənqidi yanaşmaq, çox ehtiyatlı istifadə etmək lazımdır. Digər tərəfdən isə onu da nəzərə almaq lazımdır ki, bu yazılı qaynaqların əlyazmaları orijinaldan çox vaxt, zaman – 600-700 il keçdikdən sonra bizim dövrə gəlib çıxmış və uzun bir dövr ərzində bu əlyazmaların üzü dəfələrlə köçürülmüş, məkrli məqsədlərlə onlarda müxtəlif terminlər: (ictimai-iqtisadi) siyasi, coğrafi, ictimai-inzibati və dini məsələlər dəyişdirilmiş və onlarda dövrə uyğun müxtəlif dəyişikliklər aparılmışdır. Bu yazılı qaynaqlar dəyişdirilərək, əlavələr edilərək, saxtalaşdırılaraq bizə orta əsrlər əlyazması halında gəlib çatmışdır. Zaman keçdikcə bu yazılı qaynaqlar redaktə olunmuşdur. Beləliklə, tarixi həqiqət baxımından hər bir yazılı qaynağa, o cümlədən erməni yazılı qaynaqlarına son dərəcədə diqqətlə, tənqidi yanaşmaq lazımdır və vacibdir.

Bizim qələmə aldığımız bu monoqrafiyada ilk orta əsr yazılı qaynaqları – Aqafanqel, Koryun, Favstos Buzandasi, M.Xorenasi, Yeqişe Vardanet, Lazar Parpesi, Ananiya Şirakasi, Se-

beos, Qevond Vardanet və digərlərinin orijinallarından istifadə olunmuşdur. Eyni zamanda qədim erməni yazılı qaynaqlarına əsaslanan bir sıra bəzi orta əsr erməni yazılı qaynaqlarını da əsərimizə cəlb etmişik.

Öz məzmununa, qədim yerli alban ənənəsinə, mənəviyyatına, hisslərinə malik olan, VII əsr əsas yerli yazılı qaynağı olan, çoxdan tədqiqatçılar tərəfindən alban olduğu müəyyən edilmiş tarixçi M.Kalankaytuklunun «Alban tarixi» əsəri qədim erməni yazılı qaynaqları ilə müəyyən qədər əlaqəli olmuşdur.

Yerli alban tarixçisi M.Kalankaytuklunun əsərinin erməni yazılı qaynaqları ilə əlaqəli olduğunu nəzərə alaraq, həmin erməni müəlliflərin Albaniya haqqında verdikləri məlumatlarının tarixi dürüstlüyünü aydınlaşdırmaq, təyin etmək məqsədi ilə alban tarixçisinin əsərindən olan məlumatlar bütün əsər boyu tutuşdurulmuş, müqayisə edilmiş, yoxlanılmış və yeri gəldikcə bir sıra məsələlərdə ondan əlavələr edilmişdir. Bir növ alban tarixçisi M.Kalankaytuklunun «Alban tarixi» əsəri, bizə erməni tarixçilərinin əsərlərində alban tarixinə dair məlumatlarının dürüstlüyünü müəyyən edən, yoxlayan qiymətli bir mənbə və vasitə olmuşdur.

Aqafanqel ən qədim erməni müəlliflərindən biri hesab edilir (65). Onun haqqında dəqiq bioqrafik məlumat yoxdur. XIX əsrin birinci yarısına qədər mənbəşünaslığa aid olan ədəbiyyatda belə fikir mövcud olmuşdur ki, Aqafanqel Romadan Ermənistana gəlib, erməni şahı Trdatın (III-IV əsrlər) yanında katiblik edib və özünün gördüklərini o zaman qələmə alıb. O zaman belə bir fikir də mövcud idi ki, o, şahın əmri ilə «Erməni tarixi»ni yazmağa başlayıb (107, v.1, s.141). Daha sonralar XIX əsrdə belə bir fikir bərqərar olundu ki, Aqafanqel şah Trdatın müasiri olmamış və onun əsəri V əsrdə meydana gəlmişdir (107, v.1, s.142). Aqafanqeldə Koryunun əsərindən gətirilmiş sitatlar mövcud olduğuna görə bir sıra filoloqlar səhv olaraq Aqafanqel və Koryunun eyni adamlar olduğunu ehtimal etmişlər (107, v,1, s.142). Elmdə daha bir səhv, yanlış bir fikir mövcuddur ki, «Tarix» əsərinin müəllifi guya Mesrop olmuşdur.

Aqafanqelin «Tarix» əsəri müxtəlif yazılı qaynaqlar əsasında tərtib olunub yazılmışdır. Bu əsərdə çoxlu əsl, qiymətli mate-

riallarla bərabər, eyni zamanda çoxlu mifik xarakterli məlumatlar da mövcuddur. Aqafanqelin «Tarix» əsərinin ərəb versiyasında Qafqaz albanlarının xristian dinini qəbul etmələri haqqında bir sıra məlumatlar mövcuddur. Aqafanqelin «Tarix» əsərinin ərəb versiyası N.Marr tərəfindən rus dilinə tərcümə edilmişdir (8, 134, s.10-26). Bu versiyada «alanlar» etnonimi «albanlar» mənası kəsb edir.

Aqafanqel öz əsərində, eyni zamanda, Albaniyanın şəhərləri (Xal-xal, Paytakaran), ictimai-siyasi tərkibi, feodal və ruhani iyerarxiyası, siyasi tarixi, siyasi quruluşu, ərazisi, inzibati bölgüsü, Qafqaz Albaniyasının etnik tərkibi haqqında bizə məlumat verir.

Digər erməni tarixçisi, V əsərdə yaşamış Koryundur. O, Mesrop Maştosun şagirdi hesab edilir. O, təhsil almaq üçün Yerusəlim və Bizansa göndərilmiş, təhsil aldıqdan sonra 431-ci ildən gec olmayaraq öz yoldaşları ilə Ermənistana qayıtmışdır (107, s.137). Koryun tərəfindən «Maştosun həyatı» əsəri yazılmışdır (69). Bu əsərin yazılma tarixi dəqiq deyildir (106, s.96). Belə ehtimal edilir ki, o, bu əsəri 443 və ya 444-cü illər arasında yazmışdır (107, v.I, s.138; 106, s.96). Koryun bir müddət müəllimlik etmiş və eyni zamanda tərcüməçiliklə də məşğul olmuşdur (106, s.139). Onun yazdığı «Maştosun həyatı» əsəri qısa bir dövrün tarixini əks etdirməklə bərabər, eyni zamanda Koryun bu əsərində öz müəllimi Mesrop Maştosun tərcümeyi-halını yazaraq, onu mədh edir.

Koryunun əsərində Albaniyada Mesrop Maştosun tələbələrinin maarifçilik və vaizlik fəaliyyətləri haqqında bir sıra məlumatlar mövcuddur. O öz əsərində, eyni zamanda, V əsrin əvvəllərində meydana gəlmiş alban əlifbası barədə məlumat verir. Digər tərəfdən isə Koryun Albaniyanın əhalisinin sosial-siyasi tərkibi, ruhani və feodal iyerarxiyası, siyasi quruluşu, ictimai-inzibati bölgüsü, dini, dini cəmiyyətləri, etnik tərkibi barədə məlumatlar verir. Koryunun «Maştosun həyatı» əsəri rus dilinə Ş.V.Smbatyan və K.P.Melik-Oqanacanyan tərəfindən tərcümə edilmişdir (40).

Digər erməni tarixçisi Favstos Buzandasidir. O, «Ermənistan tarixi» əsərini V əsrin ikinci yarısında yazmışdır (87, onun haq. bax: 538, s.625). Onun tərcümeyi-halı haqqında dəqiq bilgi

yoxdur. Erməni tarixçiləri içərisində ilk dəfə Favstos Buzandasi haqqında V əsrdə Lazar Parpesi məlumat verir. Favstos Buzandasinin əsərinin I, II kitabları bu günə qədər bizə gəlib çıxmamış, yalnız onun əsərinin III, IV, V və VI kitabları bizə gəlib çıxmışdır (107, v.I, s.150). Favstos digər erməni tarixçilərindən fərqli olaraq, erməni tarixini üçüncü şəxs kimi öz əsərində qələmə alır. Məhz buna əsaslanaraq bir sıra tədqiqatçılar Favstos Buzandasinin yunan və ya Suriyalı olduğunu, IV əsrdə yaşamasını, öz əsərini yunan dilində yazdığını, sonralar yalnız V əsrdə bu əsərin yunancadan erməni dilinə tərcümə olunduğunu qeyd edirlər. Digər tədqiqatçılar isə Favstos Buzandasinin erməni olmasını və öz əsərini yunan dilində IV əsrin sonunda yazmasını göstərirlər (107, v.I,s.151). Digər bir tədqiqatçı M.Abeqyanın qəti fikrincə «Ermənistan tarixi»nin müəllifi Favstos V əsrdə əsərini erməni dilində yazmış ermənidir (107, v.I, s.152). L.S.Xaçikyan da «Ermənistan tarixi»nin müəllifinin Favstos Buzandasi olduğunu və onun öz əsərini V əsrin 70-ci illərində yazdığını hesab edir (28, s. VIII).

Favstos Buzandasinin kitabı 4 hissəyə bölünür və Ermənistanın V əsr tarixinin 29 ilini – II Xosrovun hakimiyyəti dövründən başlayaraq Ermənistanın Roma və Sasani imperiyaları tərəfindən 387-ci ildə bölünməsinə qədərki dövrünü əhatə edir. Bu əsərdə dini tarix, kilsə tarixi, Qriqorun və onun oğlu Aristakesin ölümündən başlayaraq katolikos Vrtanes və ondan sonrakı sələfləri haqqında dövr qələmə alınır və məlumat verilir. Favstos Buzandasinin kitabı Ermənistanın bütöv tarixini yaratmaq sahəsində ilk addım sayılır. Onun yazdığı bu tarixi kitabda ermənilərin daxili həyat tərzi, xüsusilə kübarların siyasi həyatı, adət-ənənələri, sosial həyat tərzləri və kilsə tarixi şişirdilmiş, bəzi tarixi hadisələr isə qərəzli halda verilmişdir. Favstos Buzandasinin kitabında bəzi tarixi hadisələr eposa bənzər və epos formasında qələmə alınmışdır. Məhz buna görə də bu əsərdə onun tərəfindən verilən bütün tarixi məlumatları tamamilə dürüst hesab etmək olmaz. Bu əsərdə olan tarixi məlumatlara tənqidi baxımdan yanaşmaq lazımdır. Vaxtilə bu əsər haqqında erməni tədqiqatçısı M.Abeqyan belə yazmışdır: «Bu tarix rəiyyət ruhunda, xronologiyaya uyğun olmadan yazılmış, özü də hədsiz

şişirtmələrlə doludur» (107, c.I, s.230). Bununla belə, Favstos Buzandasinin «Ermənistan tarixi» əsərində Albaniyanın siyasi-iqtisadi tarixinə dair qiymətli məlumatlar vardır. Favstos Buzandasinin «Ermənistan tarixi» kitabı qədim erməni dilindən rus dilinə tərcümə edilmişdir (28; onun haq. bax: 134, s.96-106; 119, c. VI, bur. III, s.235-266; 318, c.X, s.203-207).

Favstos Buzandasinin bu əsərində Albaniyanın mühüm siyasi tarixinə dair qərəzli olsa da məlumatlar vardır. O, IV və V kitablarında Ermənistanla Sasani şahı I Şapur (309-379-cu illər) arasında gedən müharibələr, bir sıra Alban vilayətlərinin – Arsax, Qardman və Utinin erməni çarlarından ayrılıb Sasani şahının tərəfinə keçmələrindən, Alban şahı Urnayrın isə ermənilərlə mübarizəsindən bəhs edir. Favstos Buzandasi bu əsərində Qafqaz Albaniyasının şəhərləri (Paytakaran, Qanzak), sosial-siyasi quruluşu, inzibati ərazi bölgüsü, tarixi coğrafiyası, sərhədləri, kilsə inzibati bölgüsü, dini, xarici siyasəti, müharibələri, eyni zamanda etnik tərkibi haqqında müəyyən qədər məlumatlar verir.

Moisey Xorenasi qədim erməni tarixçiləri içərisində ən görkəmli tarixçi olduğuna görə onu «Ermənistan tarixinin atası» adlandırırlar. Onun tərcümeyi-halı haqqında dəqiq və səhih məlumat yoxdur. Onun tərcümeyi-halına aid erməni tarixşünaslığında olan məlumatlar əsasən M.Xorenasinin özünün yazdığı «Ermənistan tarixi» əsərindən götürülmüşdür. O, Taron nahiyəsinin Xoronk kəndində anadan olmuşdur. Doğma kəndinin adını özünə təxəllüs götürmüşdür və Xorenasi olmuşdur (108, s.17). Onun anadan olduğu il elmə dəqiq məlum deyildir. Lakin bir sıra faktlara əsaslanaraq tədqiqatçılar ehtimal edirlər ki, o, V əsrin əvvəllərində anadan olmuşdur (108, s.18).

Bir sıra Avropa alimləri–La-Kroze, A.Qutşmidt, A.Kariyer və başqaları, eyni zamanda, ermənişünaslar – A.Qaraqaşyan, A.Daqbaşyan, Q.Xalatyans və digərləri onun V əsrdə yaşamasına şübhə ilə yanaşırlar. Lakin onun əsərlərinin tədqiqatçılar tərəfindən tədqiq edilməsi, araşdırılması onu göstərir ki, həqiqətən o, V əsr müəllifidir (328; 105; 106; s.22; 466; 373, s.9; 108, s.30). M.Xorenasi ilk təhsilini yerli məktəbdə almış, sonralar isə 15 yaşında ikən ilk təhsilini yerli məktəbdə bitirdikdən sonra o zamankı Ermənistanın paytaxtı Vaqarşapata getmiş, özünün

təhsilini orada davam etdirmişdir. Orada 5 il oxuduğu zaman dini mövzudan əlavə, təbiət, fəlsəfə elmlərini, eyni zamanda yunan və suriya dillərini öyrənmişdir (375, s.30). Daha sonra isə 431-ci ildə M.Xorenasi öz yoldaşları ilə oxumaq üçün İsgəndəriyyə şəhərinə getmişdir. Onlar orada 5-6 il qaldıqdan sonra 440-cı ildə Ermənistana qayıtmışlar (108, s.22). Samvel Anasinin məlumatına görə, Xorenasi 493-cü ilə yaxın bir vaxtda vəfat etmişdir (108, s.23).

M.Xorenasinin özünün bir sıra müstəqil əsərləri və tərcümələri vardır. Ən yaxşı əsəri isə «Ermənistanın tarixi» əsəridir (75; 76). Tədqiqatçıların fikrinə görə, bu əsər 481-482-ci illərdə erməni knyazı Saak-Baqratuninin sifarişi və xahişi ilə yazılmışdır (108, s.36). M.Xorenasinin «Ermənistan tarixi» əsəri üç kitabdan ibarətdir. O bu əsərində lap qədimdən erməni xalqının, dövlətinin, müxtəlif knyaz nəsillərinin, dövlət quruluşunun ləğv edildiyi dövrə qədər ermənilərin tarixini qələmə alır. O, ermənilərin tarixini məşhur qədim xalqların – Babilistanın, Assuriya, Midiya, sasanilərin, parfiyalıların, makedoniyalıların və rumların tarixi ilə paralel verir. Onun bu əsərində əsas məramı və amalı keçmişdə fars və roma şahlarından geri qalmayan güclü, müstəqil erməni şahlığının olduğunu sübut etmək cəhdi olmuşdur. Ondan sonra gələn erməni tarixçiləri ölkənin tarixini qələmə alarkən, ona tapınaraq, ondan iqtibaslar gətirərək onun yolunu öz əsərlərində davam etdirmişlər.

Moisey Xorenasinin «Ermənistan tarixi» əsəri Albaniyanın tarixinin öyrənilməsində böyük əhəmiyyətə malikdir və mühüm yazılı qaynaqlardan biridir. M.Xorenasi erməni tarixçiləri içərisində ilk dəfə olaraq Albaniyanın ilk siyasi tarixi, ilk alban şahları haqqında çoxlu faktlar, mühüm əhəmiyyət kəsb edən məlumatlar verir. O, Albaniyada xristianlığın yayılmasından, Alban knyazlarından və ölkədə V əsrin əvvəllərində alban əlifbasının yaranmasından söhbət açır və məlumat verir. M.Xorenasi Qafqaz Albaniyasının tarixi coğrafiyası, təbii coğrafiyası, şəhərləri (Paytakaran, Xunaraket), əhalinin sosial tərkibi, siyasi quruluşu, inzibati-ərazi bölgüsü, dini, kilsəsi, dini-inzibati bölgüsü, siyasi sərhədləri, xarici siyasəti, müharibələri, müdafiə tikililəri, etnik tərkibi haqqında bilgi verir. Moisey Xorenasinin «Erməni tarixi» əsəri N.O.Emin tərəfindən rus dilinə tərcümə edilmişdir (25; 26; 27).

Qədim erməni tarixçilərindən biri də Yeqişedir. Onun tərcümeyi-halı haqqında biz dəqiq məlumata malik deyilik. Yeqişe Vardapet V əsrin əvvəllərində Ermənistanda anadan olmuşdur (34; Ön söz, s.XX). O, oxumaq və təhsil almaq üçün Yunanıstana göndərilmişdir. Təhsil alıb qayıtdıqdan sonra Amatunu knyazının mülkündə kilsənin başçısı təyin edilmişdir (34; Ön söz, s.XX). Sonralar isə sərkərdə Vardan Mamikonyanın yanında onun katibi olmuş və Avarayr vuruşunda iştirak etmişdir (388; s.25-40). 541-ci ildən sonra Yeqişe Mok nahiyəsinə getmiş və orada ədəbi yaradıcılıqla məşğul olmuşdur. O, Ruştinik vilayətində vəfat etmişdir (106, s.242).

Alban tarixinə dair onun birinci «Vardan və erməni müharibəsi haqqında» (68) kitabı xüsusi əhəmiyyət kəsb edir. Məlumata görə, o bu əsərini Davud Mamikonyan adlı ruhaninin xahişi ilə yazmış-dır. Yeqişenin bu əsəri 35 illik erməni tarixinin Arşakuni sülaləsinin 464/465-ci illərdə süquta uğramasına qədərki dövrünü əhatə edir. Yeqişenin bu tarix əsəri qədim erməni dilində yeddi bölmədən ibarətdir. Lakin əsəri rus dilinə tərcümə edənlər onu 11 fəsildən ibarət etmişlər. Yeqişe Vardapetin bu əsərində ermənilərin, albanların, iberlərin və digər Qafqaz xalqlarının, bütpərəstlərin, xristianların xalq azadlıq hərəkatından və mübarizəsindən bəhs olunur. Onların haqqında bizə məlumat verir. Bu əsərdə farsların, ermənilərin V əsrdəki adət-ənənələri təsvir olunur, zorastrizmin ehkamları tənqid olunur, xristian dini tərifləmərək onun yüksək zirvəsi təsvir və məhd olunur. Yeqişe Zaqafqaziya xalqlarının sasanilərə qarşı mübarizəsini ətraflı təsvir edir və onu doğuran səbəbləri göstərməyə çalışır. Lakin o, üsyanın əsas səbəblərini–iqtisadi, siyasi zülmü, sasanilərin yeritdiyi mədəni-ideoloji assimilyasiya siyasətini və digər tərəfdən sasanilərlə Bizans arasındakı münasibətlərə Ermənistanın, Gürcüstanın (İberiyanın), Albaniyanın üstündə olan mübarizə kimi deyil, yalnız dini faktorlar baxımından (zərdüştlüyün yayılması, xristianlığın təqib olunması siyasəti) yanaşır, xristianlığı tərifləyir.

Yeqişe bu əsərində eyni zamanda albanların qədim dini haqqında məlumat verir. Bundan əlavə, onun əsərində Albaniyanın tarixi coğrafiyası, təbii-coğrafi vəziyyəti, şəhərləri, sosial-siyasi

tərkibi (feodal, ruhani iyerarxiyası), siyasi quruluşu (dövləti, şahları, ordusu), inzibati-ərazi bölgüsü, müdafiə istehkamları, ilk orta əsrlərin etnik tərkibi haqqında məlumat verilir.

Yeqişenin əsəri rus dilinə Şanşiyev (34; 100) və eyni zamanda, akademik İ.A.Orbeli (20) tərəfindən tərcümə olunub.

Lazar Parpesi Ermənistanın V əsrinin ən görkəmli salnaməçilərindəndir. O, «Ermənistan tarixi» və «Erməni hökmdarı Vahan Mamikonyana məktub»un (74) müəllifidir. L.Parpesi (443-510-cu illər) Araqasoti vilayətinin Parpi kəndində anadan olduğuna görə özünə Parpesi ləqəbi götürmüşdür (106, s.262). İlk təhsilini Lazar Aşuşda almışdır. Sonra isə o təhsilini V.Mamikonyanın dayısı Ahan Arsurinin yanında davam etdirmişdir. Çox gənc ikən rahibliyi qəbul etmiş, bir neçə il Bizansda təhsil almışdır. V.Mamikonyanın başçılıq etdiyi üsyan vaxtında Parpesi Şirakda yaşayırdı (106, s.264). Sonra o oradan Suyikiyə getdi və orada 2 il zahid həyat tərzi keçirdi. Lazara düşmən olan rahiblər onu monastırdan qovdular, bütün əmlakını, o cümlədən kitablarını da əlindən aldılar (106, s.265).

Vahan Mamikonyanın göstərişi ilə Lazar Parpesi «Ermənistan tarixi» əsərini yazdı (106, s.265). Bu əsər III hissədən və paraqraflardan ibarətdir. Birinci hissə 19 paraqrafdan, ikinci hissə 39, üçüncü hissə isə 42 paraqrafdan ibarətdir. Birinci hissə erməni dövlətinin təsviri ilə başlanır, Arşakuni sülaləsinin süqutu ilə bitir. İkinci hissə isə Yeqişenin əsərində olan tarixi hadisələrlə çox vaxt eynilik təşkil edir. Burada Parpesi çox vaxt tarixi hadisələri Yeqişenin ruhuna uyğun qələmə alır. V.Mamikonyanın istəyi ilə Lazar Parpesi əsərinin orta hissəsini sənədlərlə və müasirlərinin dediklərinə əsaslanaraq sasanilərə qarşı Zaqafqaziya xalqlarının üsyanı haqqında olan məlumatlarla daha da zənginləşdirir və qələmə alır. Əsərin III hissəsi əsasən Mamikonyanlar nəsli, xüsusilə V.Mamikonyan və onun qardaşları ətraflı, geniş şəkildə təsvir və tərif olunurlar.

Bu əsər Albaniya tarixi üçün ona görə qiymətlidir ki, həmin dövrdə Albaniya, İberiya və Ermənistan ərazisində yaşayan xalqların birlikdə sasanilərə qarşı azadlıq mübarizəsi, onlar arasında yadellilərə qarşı yekdillik, fəaliyyət birliyi, müttəfiqlik münasibətləri tez-tez yada salınır (74).

Bundan əlavə, Lazar Parpesi öz əsərində Qafqaz Albaniyasının tarixi coğrafiyası, təbii-coğrafi vəziyyəti, şəhərləri, sosial-siyasi tərkibi (feodal iyerarxiyası), siyasi quruluşu (dövləti, ordusu), dini, müharibələri, müdafiə istehkamları və etnik tərkibi haqqında bizə məlumat verir.

Erməni müəlliflərindən biri də Ananiya Şirakasidir. O, ilk erməni riyaziyyatçısı, kosmoqrafı, xəritəçisi və cədvəl bilicisi idi. Belə ehtimal olunur ki, o, VII əsrin ikinci yarısında Şirakavanda və ya Şirak vilayətinin Ani kəndində anadan olmuşdur (106, s.314-315; 440, s.29-32). Gənc yaşlarında təhsil almaq üçün Yunanıstana getmişdir. Ananiya Tirapezunda Tyuhik adlı riyaziyyatçı müəllimi tapır və onun yanında 8 il oxuyur (106, s.314-315; 440, s.31). Təhsil aldıqdan sonra o, Ermənistana qayıdır (106, s.316; 109). A.Şirakasi bir sıra coğrafiya, kosmoqrafiya, riyaziyyat, tarixi hesablamaya aid əsərlərin müəllifidir. Onun «Coğrafiya» əsəri bizə iki redaksiyada: geniş (66) şəkildə və ixtisar olunmuş (77) formada gəlib çıxmışdır. Əvvəllər səhv və yanlış olaraq onun əsərini M.Xorenasiyə aid edirdilər (528, s.217; 98, c. II, s. 301-394; 97; 101; 355, c.I, s.127-143). Lakin sonralar tədqiqatçılar tərəfindən 40-dan artıq «Coğrafiya»nın əlyazması araşdırıldıqdan, tədqiq edildikdən sonra məlum oldu ki, bu əsərin müəllifi Ananiya Şirakasidir (108, s.30; 111; 270; 515, s.426; 526, s. 24; 507, s.384; 525, s. 117).

Ananiya Şirakasinin əsərinin elmi-tədqiqi nəşri A.Q.Abramyana məxsusdur (504). «Coğrafiya» əsəri quruluşuna görə girişdən, iki hissədən ibarətdir: birinci hissədə ərazilərin coğrafi xüsusiyyətləri, ikinci hissədə Avropa, Liviya, Yaxın Şərqdə ona məlum olan ayrı-ayrı ölkələr təsvir olunur. «Coğrafiya» əsəri müəllifə məlum olan ölkələrin, xüsusilə Zaqafqaziyanın tarixi coğrafiyasının öyrənilməsində qiymətli mənbədir və eyni zamanda, böyük əhəmiyyət kəsb edir.

Ananiya Şirakasinin əsəri Albaniya tarixi coğrafiyasının öyrənilməsində böyük əhəmiyyətə malikdir. «Coğrafiya» əsərində Albaniyaya ayrıca fəsil ayrılmış və 26 nömrə ilə işarə olunmuşdur. Burada Albaniyanın sərhədləri, nahiyələrin, vilayətlərin adları sadalanır. Arazla Kürün qovuşduğu yerdən yuxarıda 20 Alban vilayətinin yerləşdiyi qeyd edilir. Ananiya Şirakasi, eyni

zamanda, Albaniyanın tarixi coğrafiyası, təbii-coğrafi vəziyyəti (təbii sərvətləri, çayları, dənizi, gölləri, münbit torpaqları, heyvanat aləmi), mədəniyyəti, kənd təsərrüfatı, pambığı, zeytun ağacları, bağları, taxılçılığı, üzümçülüyü, ipəkçiliyi, bağları, şəhərləri (Partav–Bərdə, Qandzak), ictimai ərazi bölgüsü, müdafiə istehkamları və Qafqaz Albaniyasının etnik tərkibi haqqında bizə məlumat verir.

Ananiya Şirakasinin «Coğrafiya» əsəri P.Patkanyan tərəfindən rus dilinə tərcümə edilmişdir (11).

İstifadə etdiyimiz yazılı qaynaqlardan biri də VII əsrin yeganə erməni müəllifi Sebeosdur. Bu müəllif haqqında bioqrafik məlumat çox azdır və onun barəsində olan məlumatlar mübahisəlidir. Sebeos Baqratuni knyazların mülkündə yepiskop olmuşdur. O bir vaxt sasani şahı Xosrovun sarayında yaşamışdır. 646-cı ildə Dvin dini məclisində iştirak etmişdir. Onun yazdığı «Tarix» əsərindən aydın olur ki, o bu əsəri öz istəyilə deyil, göstərişlə (106, 372), 661-ci ildə yazmışdır (327, s.100; 104, s.4). Sebeosun yazdığı bu «Tarix» əsəri Ermənistanın ilk dövründən başlayaraq 661-ci ilə qədərki dövrü əhatə edir. Bu əsər üç bölmədən ibarət olmuşdur. Bəzi erməni tədqiqatçıların fikrincə yalnız üçüncü bölmə Sebeosa məxsusdur. Bu bölmə də «İmperator İraklinin tarixi» adı ilə adlanır (29; Ön söz, s.VI; bax: 405, s.36-37). Öz növbəsində üçüncü bölmə 38 fəsildən və III bölmədən ibarətdir.

Birinci bölmədə Sebeos Haykdan, onun nəslindən, parfiyalıların sasanilərə qarşı üsyanından və ilk erməni şahı Arşak Arşakunidən bəhs edir. Bu bölmənin sonunda yunan və sasani şahlarının süqutuna qədər olan dövrünün şəcərəsi verilir.

İkinci bölmədə Sebeos müasiri olduğu dövrün tarixindən, Sasani və Bizans arasında gedən dağıdıcı müharibələr haqqında yığcam məlumat verir, Sasanilərin Bizansla bu müharibədə qələbəsindən bəhs edir.

Sebeosun «Tarix» əsərinin üçüncü bölməsində ərəblərin ilk dəfə tarix meydanına çıxması, onlar tərəfindən Sasani dövlətinin məhv edilməsi, Xilafət tərəfindən Mesopotamiyanın, Fələstinin, Suriyanın, Ermənistanın işğal olunması təsvir olunur. Əsər Xilafət ordusu içərisində rəqabətin başlanması, bu mü-

barizədə Müaviyyənin dəstəsinin qələbəsi, onun 661-ci ildə hakimiyyət başına gəlib Xəlifə olması ilə əlaqədar olan hadisələrin təsviri ilə bitir.

Sebeosun «Tarix» əsəri (81) Albaniyanın ilk orta əsrlər tarixinin öyrənilməsi nöqteyi-nəzərindən böyük əhəmiyyət kəsb edir. VII əsr erməni müəllifinin bu əsərində qısa, yığcam bir halda Sasanilərlə Bizans arasında Zaqafqaziya ölkələrini bölüşdürmək uğrunda gedən uzun sürən dağıdıcı müharibələr dövründə Albaniyanın siyasi və hərbi vəziyyətinin də öz əksini tapması baxımdan böyük əhəmiyyətə malikdir və eyni zamanda ölkədə yaranmış real vəziyyəti dərk etməkdə son dərəcə əhəmiyyətlidir. Sebeos, eyni zamanda, Albaniyanın təbii-coğrafi vəziyyəti, şəhərləri (Paytakaran, Qandzak), sosial-siyasi tərkibi (feodal, ruhani iyerarxiyası), inzibatı-ərazi bölgüsü, dini, xristianlığı, yadelli işğalçıların (Bizans, Sasani, Xilafət) ordularının Zaqafqaziya (İberiya, Ermənistan, Albaniya) ölkələrinə hücumları və onlara qarşı Zaqafqaziya xalqlarının mübarizəsi, müdafiə istehkamları, ölkənin etnik tərkibi haqqında bizə məlumat verir. Sebeosun əsəri rus dilinə iki dəfə tərcümə edilmişdir (29;31).

Tədqiqatımız üçün əhəmiyyətli yazılı qaynaqlardan biri də Gevondun yazdığı «Xəlifələrin tarixi» əsəridir (82). Onun həyat və yaradıcılığı haqqında məlumatlar azdır. Belə hesab edirlər ki, o xristian ruhani silkinə mənsub olmuş və VIII əsrdə yaşamışdır. Onu «Vardapest» və ya ruhani adlandırırdılar (106, s. 363). Gevondun əsərindən aydın olur ki, o, əsərlərini Şapux Baqratuninin xahişi ilə yazmışdır. Gevond əsərini 661-ci ildən başlayaraq 788-ci ilədək davam etdirmişdir. O, əsərinin son hissələrində olan tarixi hadisələri öz gözləri ilə görən bir müəllif kimi qələmə almışdır (106, s.364). Onun yalnız bir əsəri bizim dövrə gəlib çıxmışdır. Gevondun bu əsəri yeddi fəsilə bölünüb. Onun bu tarix əsəri Məhəmməd peyğəmbərin ölümü ilə başlanır. Birinci üç fəsildə, birinci üç xəlifə dövründə Fələstinin, Suriyanın, İranın işğal olunması, üç dəfə ərəblərin Zaqafqaziyaya–Ermənistana, Albaniyaya hücumları və bu zaman ərəblər tərəfindən Albaniyanın talan edilməsi, dağıdılması, əhalinin əsir edilməsindən bəhs edilir. Daha sonra Gevond öz əsərində xəlifə Müaviyyədən (661–680-ci illər) başlayaraq xəlifə Harun-ər-Rəşidə qədər olan

xəlifələrin siyahısını və onların hər biri haqqında qısa məlumat verir. Gevond öz əsərində yunanların, ərəblərin və xəzərlərin müdaxiləsi zamanı Zaqafqaziya ölkələrinin çox ziyan çəkməsindən, onlara qarşı bu ölkələrin xalqlarının müqavimət göstərmələrindən, yadellilərə qarşı baş vermiş üsyanlardan bəhs edir.

Gevondun «Xəlifələrin tarixi» (82) əsəri Alban tarixinin VII-VIII əsrlərinin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. O, bu əsərində Xəzər xaqanlığının və Ərəb Xilafətinin ordusunun Albaniyaya yürüşləri haqqında geniş məlumat verir. Gevondun məlumatına görə Albaniyanın o dövrünün sərhədlərini müəyyən etmək mümkündür. O, eyni zamanda Qafqaz Albaniyasının şəhərləri, sosial-siyasi tərkibi (feodal, ruhani iyerarxiyası), tarixi coğrafiyası, inzibati-ərazi bölgüsü, alban dili, dini, xristian dini, hərbi müdafiə istehkamları, ilk orta əsr Albaniyanın etnik tərkibi haqqında bizə məlumatlar verir.

Gevond Vardapetin «Xəlifələrin tarixi» əsəri rus dilinə K.Patkanov tərəfindən tərcümə edilmişdir (35).

Yuxarıda göstərdiyimiz qədim erməni mənbələrindən əlavə, tədqiqatımızda orta əsr erməni tarixçiləri Asoqikin (84), M.Ayrivanesin (78), Vardanın (73) və digərlərinin əsərlərindən müəyyən qədər istifadə etmişik. Orta əsr erməni yazılı qaynaqlarından bizim tərəfdən tədqiqatımızda ona görə müəyyən qədər az istifadə edilmişdir ki, onlar ilk orta əsr dövrünün tarixi hadisələrini verdikləri zaman dövr etibarı ilə özlərindən qabaqkı tarixçilərin verdikləri məlumatları olduğu kimi təkrar edirlər, digər tərəfdən isə onlar tərəfindən ilk orta əsr dövrünün mühüm tarixi faktları, hadisələri qısaldılır və ya çox halda təhrif olunmuş halda verilir.

Qafqaz Albaniyasının bütün dövr tarixini və digər qonşu xalqların tarixini öyrənmək baxımdan böyük əhəmiyyət kəsb edən yerli alban ənənəsinə malik yeganə VII əsr yazılı orijinal qaynağı Moisey Kalankaytuklunun «Alban tarixi» əsəridir (79, 33; 99). Bu yerli alban yazılı qaynağının – M.Kalankaytuklunun və onun əsərinin öyrənilməsi XIX əsrdə bir sıra tarixçilərin, filoloqların – V.Sen-Martenin, F.Brossenin, K.Patkanyanın, E.Kuninin, A.Neymanın, eyni zamanda, XX əsrin müasir tədqiqatçıları Q.A.Manandyanın, S.T.Yeremyanın, T.İ.Ter-Qriqoryanın, Manuk Abeqyanın, Z.M.Bünyadovun, Z.İ.Yampol-

skinin, T.M.Məmmədovun, V.Qukasyanın və digər müəlliflərin tədqiqatlarında, əsərlərində öz əksini tapmışdır. M.Kalankaytuklunun «Alban tarixi» (79) əsəri əfsuslar olsun ki, yazıldığı alban dilində deyil, tərcümə edilmiş qədim erməni dilində – «qrabar»da bizə gəlib çıxmışdır. «Alban tarixi» əsərinin müəllifinin tərcümeyi-halı haqqında bizdə dəqiq məlumat yox dərəcəsindədir. M.Kalankaytuklunun «Alban tarixi» əsəri haqqında orta əsr erməni yazılı qaynaqlarından Stepanos Orbelyan (85; 91, s.13), Uxtanes (86, s.121-122), Mxutar Ayrivanetsi (78, s.15), alban tarixçisi Mxitar Qoş (49, s.8) və digərləri məlumat verirlər. «Alban tarixi» əsərinin müəllifinin kim olması məsələsi dəqiqləşdirilmişdir. Bir sıra tədqiqatçılar «Alban tarixi»nin müəllifinin M.Kalankaytuklu (33; Ön söz, s.7-9; 500, s.150, 106, s.52), digərləri isə onun Moisey Dasxuranatsi olduğunu göstərirdilər (2001, s.30; 99, s.XIX). Z.İ.Yampolski isə «Alban tarixi» əsərinin əsas müəlliflərindən birini müasir Qarabağın Kalankaytuk kəndindən olan Adrian olduğunu ehtimal edir (500, s.15). M.Kalankaytuklunun şəxsiyyəti və onun «Alban tarixi» haqqında daha dəqiq tədqiqat əsəri T.İ.Ter-Qriqoryana məxsusdur. O, doğru olaraq bu fikirdədir ki, «Alban tarixi» əsərinin müəllifi iki nəfər olmuşdur: birincisi, VII əsrə qədər baş verən tarixi hadisələri qələmə alan, bir və ikinci kitabların müəllifi M.Kalankaytukludur, ikincisi, III kitabın tərtibçisi və bu əsərə əlavə edənin müəllifi isə M.Dasxuranatsidir (445, l.91). T.İ.Ter-Qriqoryanın bu fikri ilə vaxtilə Z.M.Bünyadov da öz növbəsində razılaşmışdır (185, s.11). Biz də bu fikirlə tam razıyıq və ona qoşuluruq.

«Alban tarixi» əsərinin nə vaxt yazılması məsələsinə gəldikdə elmdə tədqiqatçılar arasında fikir müxtəlifliyi mövcuddur. Bəzi tədqiqatçılar «Alban tarixi»nin 10-cu yüzilliyin sonunda olan tarixi hadisələrin təsviri ilə bitdiyinə görə, bu əsərin hər üç kitabını yanlış olaraq X əsrin əsəri hesab edirlər (536; 33, s.VII-X; 551, s.22; 358, s.70-72; 161, s.370-374; 136, s.50; 106, s.390-391; 120, s.30).

Tədqiqatçıların digər qismi isə haqlı olaraq bu yazılı qaynağın ilk iki kitabının VII yüzillikdə olan tarixi hadisələrin əlamətlərini öz gözləri ilə görmüş müəllif tərəfindən qələmə alındığını nəzərə alaraq, bu əsərin ilk I və II kitabının hissələrinin

VII yüzillikdə yazıldığını göstərir və onları VII əsrin əsəri hesab edirlər (555, s.44; 553, s.1-16; 92; 278, s.442-433; 117; 118, s.291-292; 445, s.91; 275, s.9; 403, c.II, s.305; 500, s.150, 151; 451, s.15-16; 185, s.11, 25; 336; 337, s.48; 257, s.3).

Bu fikirlərdən əlavə, tam əsaslandırılmamış belə bir fikir də mövcuddur ki, I və II kitab, III kitabın əvvəli VII əsrin sonu və VIII əsrin əvvəllərində qələmə alınmışdır (334, s.15; 237, s.192).

«Alban tarixi» əsərinin əlyazmasının bizə qədim erməni dilində – «qrabar»da gəlib çıxmasına baxmayaraq, tam qətiyyətlə, şübhə doğurmadan demək olar ki, əvvəllər bu əsər alban dilində yazılmış və sonralar qədim erməni dilinə – «qrabar»a tərcümə edilmişdir (500, s.149-159; 337, s.48; 235, s.94; 185, s.97-98; 445, l.4). «Alban tarixi»nin mətnini dərindən izləyərkən burada bir sıra hallar, göstəricilər tədqiqatçılara və bizə qeyd etməyə əsas verir ki, bu əsər alban dilini və ya qrabarı çox pis bilən şəxs tərəfindən alban dilindən qədim erməni dilinə tərcümə olunmuşdur (337, s.48; 237, s.194; 235, s.94). Yuxarıda qeyd etdiyimiz kimi, bu əsərin alban dilində olan əlyazması bizə gəlib çatmamışdır. «Alban tarixi»nin alban dilində olan əlyazmasının bizə çatmamasının bir çox səbəbləri vardır. Onlardan birincisi ondan ibarətdir ki, Alban dövlətinin 705-ci ildə Xilafət tərəfindən tam işğalından, süqutundan sonra alban kilsəsi, katolikosluğunun tamamilə erməni kilsəsinin təsiri altına düşməsi nəticəsində alban kilsəsi öz müstəqilliyini itirib qriqoryanlaşdı, bunun nəticəsində Albaniyanın xristian əhalisinin çox hissəsi müsəlman dinini qəbul etdi. Digər azlıqda qalan Albaniya əhalisinin xristian hissəsində tədricən qriqoryanlaşma başlandı və bu isə nəticədə alban kilsəsində dini ibadətin erməni dilində aparılmasına gətirib çıxartdı. Bu eyni zamanda alban dilində olan dini kitablar və digər kitabların, o cümlədən «Alban tarixi» əsərinin də qədim erməni dilinə çevrilməsinə, tərcüməsinə səbəb oldu. Məhz bu və ya digər səbəblərdən də «Alban tarixi» əsəri bizə alban dilində gəlib çatmamışdır. Bu haqda aşağıdakı fəsillərdə daha ətraflı qeyd olunacaqdır.

Bizim tədqiqatımız üçün «Alban tarixi»nin hər üç kitabı çox böyük əhəmiyyət kəsb edir və olduqca maraqlıdır. Bu əsərdə ilk orta əsrlər Albaniyasının iqtisadi, siyasi vəziyyəti, mədəniyyəti,

bütün digər problemləri, məsələləri haqqında olduqca zəngin materiallar vardır. «Alban tarixi» əsərində Albaniya dövlətinin meydana gəlməsi, onun inkişafı, ərazisi, etnosu, siyasi, dini və mənəvi həyatı, onun alban Arşakilər və Mehranilər sülaləsi, şah hakimiyyətinin varisliyi, arasıkəsilməzliyi və digər məsələlər öz əksini tapmışdır.

Bu yazılı alban qaynağı yuxarıda qeyd etdiyimiz kimi üç kitabdan ibarətdir. «Alban tarixi» əsəri xronoloji cəhətdən «Bibliya» dövründən başlayıb 999-cu ilə qədərki tarixi hadisələri əhatə edir. Birinci kitab «Bibliya» tarixindən başlanıb 552-ci ilə qədərki tarixi hadisələri əhatə edir. İkinci kitab isə 552-ci illərin tarixi hadisələrindən başlayıb 711-ci illərin tarixi hadisələrinin təsviri ilə bitir. Üçüncü kitab ərəblərin tarix meydanına gəlməsinə həsr olunmuşdur. Üçüncü kitab alban şahlarının, katolikoslarının siyahısı ilə bitir.

Bəzi tədqiqatçılar səhv, əsassız və haqsız olaraq «Alban tarixi» əsərini lazımınca qiymətləndiməyərək, onun erməni dilində olan müxtəlif yazılı qaynaqlardan köçürmə, uydurma məlumat və materiallar məcmusundan ibarət olduğunu göstərirlər (551, s.10-12; 120, s.1-31; 161-175, 321-349, 552-556; 1955, s.309-329; 1957, s.38-41, 525; 1958, s.149-151). Lakin bir sıra tədqiqatçılar – H.Y.Marr (358, s.70-72), K.Patkanov (33, bax: Ön söz), K.Şahnazaryan (79, bax: müqəddiməyə) və digər tədqiqatçılar «Alban tarixi» əsərindəki materialları gürcü və erməni dillərində olan müvafiq yazılı qaynaqlarla müqayisə etməklə, «Alban tarixi» əsərində şərh edilən tarixi hadisələrin tamamilə səhih, mötəbər mənbə olmasını haqlı olaraq israr edirlər.

Onu da qeyd etmək lazımdır ki, başqa tarixi əsərlərdə olduğu kimi, «Alban tarixi»nin müəllifləri də öz əsərlərini yazarkən bir sıra yazılı qaynaqlardan, o cümlədən ilk orta əsr erməni mənbələrindən istifadə etmişlər. Bizim tərəfdən «Alban tarixi» əsərində müəlliflər tərəfindən istifadə olunan materiallar, faktlar, bütün ilk orta əsr erməni dilində yazılmış yazılı qaynaqlarda olan materiallar, faktlarla müqayisəsi göstərir ki, bu materiallar, faktlar istifadə olunan zaman, müəlliflər onlara bir tərəfdən alban tarixi nöqteyi-nəzərdən və digər tərəfdən isə onlara tənqidi yanaşaraq istifadə etmişlər (337, s.48; 336; 334). Bizim tərəf-

dən «Alban tarixi» əsərində olan bütün tarixi materialların (faktlar, məlumatlar) ilk orta əsrlər qədim erməni dilində olan yazılı qaynaqlarda olan tarixi materiallar ilə müqayisəsi və qarşı-qarşıya qoyulub araşdırılması, tədqiqi nəşr etdirdiyimiz monoqrafiya (334) və məqalələrimizdə (336; 337) öz əksini ətraflı tapılıb verildiyinə görə burada onun üzərində daha ətraflı dayanmaq fikrindən yan keçirik.

«Alban tarixi» əsərində və ilk orta əsr erməni tarixçilərin əsərlərində gətirilən eyni tarixi hadisələrin təsvirinə aid materiallar və faktlarda olan bəzi eyniliklərin və oxşarlıqların biz tərəfdən nəşr olunmuş əsərlərin də tədqiqi bizə əsas verir ki, aşağıdakı nəticələrə gələk. Onlar bunlardır: 1. İlkin orta əsr erməni yazılı (V-VII əsr) qaynaqları və «Alban tarixi» əsəri biri digəri ilə bilavasitə və ya digər yazılı qaynaqlardan istifadə etmək vasitəsilə əlaqədar olmuşdur. 2. «Alban tarixi»nin müəllifləri Alban tarixinə bilavasitə aid olan tarixi hadisələri, ilk orta əsr qədim erməni yazılı qaynaqlarından fərqli olaraq, onlara məlum olmayan çoxlu faktları daha ətraflı, daha dərindən verərkən alban tarixinə, həqiqətinə uyğun olmayan, əhəmiyyətsiz faktlardan, məlumatlardan yan keçərək onları öz əsərlərinə cəlb etmişlər. «Alban tarixi»nin müəllifləri tərəfindən gətirilən, istifadə edilən bu dəlillər, faktlar isə qədim erməni mənbələrinin müəlliflərinə məlum olmayan dəlillər, faktlar, tarixi məlumatlar, yerli (yazılı və şifahi) alban ənənəsinə mənsub olan qaynaqlardan götürülmüş və istifadə edilmişdir. Beləliklə, bir daha qeyd etmək lazımdır ki, «Alban tarixi» əsəri Albaniyanın ilk orta əsrlər dövrünün tarixinə dair qiymətli, mühüm və əvəzedilməz bir yerli orijinal yazılı qaynaqdır. M.Kalankaytuklunun «Alban tarixi» əsəri ilk orta əsrlər erməni yazılı qaynaqlarının müəlliflərinin alban tarixinin ilk orta əsrlərə aid verdikləri materiallarının, məlumatlarının düzgünlüyünü müəyyən etməkdə, araşdırmaqda, tədqiq etməkdə bizim tədqiqatımız üçün əvəzsiz rol oynayır və digər tərəfdən mühüm əhəmiyyətə malikdir.

M.Kalankaytuklunun «Alban tarixi» əsəri ayrı-ayrı hissələrlə, bütünlüklə bir çox dillərə tərcümə olunmuş və nəşr edilmişdir. Bu yazılı alban qaynağı ilk dəfə hissələrlə 1848-ci ildə fransız tədqiqatçısı E.Bore tərəfindən nəşr edilmişdir (92). Bir neçə

il keçdikdən sonra akademik M.Brosse M.Kalankaytuklunun əsərindən müəyyən hissələri fransız dilinə tərcümə edib nəşr etmişdir (536). 1860-cı ildə alban tarixçisinin əsəri qədim erməni dilində H.Emin tərəfindən Moskvada nəşr olunmuşdur (79). Həmin ildə erməni tədqiqatçısı K.Şaxnazaryan bu əsəri Parisdə qədim erməni dilində nəşr etdirmişdir (79a). Bunun üstündən bir il keçəndən sonra Peterburqda K.Patkanov tərəfindən rus dilinə tərcümə edilib nəşr olunmuşdur (33). Bu əsər Londonda Ç.Dovset tərəfindən 40-a yaxın əlyazmasının biri digərilə tutuşdurulmuş mətnlərindən istifadə edərək ingilis dilində nəşr etdirmişdir (99). 1969-cu ildə V.Arakelyan Yerevanda M.Kalankaytuklunun «Alban tarixi» əsərini qədim erməni dilindən müasir erməni dilinə tərcümə edib nəşr etdirmişdir (79b). M.Kalankaytuklunun «Alban tarixi» əsəri ingilis dilindən Azərbaycan dilinə tərcümə edilib nəşr olunmuşdur(33a). Lakin onu da qeyd etmək lazımdır ki, «Alban tarixi» yazılı qaynağının bütün əlyazmalarından istifadə olunan tənqidi nəşri bu günə qədər hazırlanmamışdır və o öz həllini gözləməkdədir.

Albaniyanın ilk orta əsrlər tarixinin öyrənilməsində gürcü yazılı qaynaqlarından da tədqiqatımızda istifadə edilmişdir (bax:361). Lakin Albaniyanın IV-VII əsrlər dövrünə aid gürcü yazılı qaynaqlarının məlumatları çox azdır.

Bu yazılı qaynaqlardan biri təxminən VII–IX əsrlərdə tərtib olunmuş «Kartlis Tsxovreba» salnamə külliyyatıdır (5b). Bu qaynağın Albaniya tarixinə dair əhəmiyyəti ondan ibarətdir ki, ötəri halda olsa da şəhərlər, vilayətlər, eyni zamanda xəzərlərin, hunların Albaniyada və Zaqafqaziya ərazisində olması haqqında məlumat verir. Gürcü yazılı qaynaqları içərisində çox əhəmiyyət kəsb edən Mroveli Leontinin «Kartli şahlarının həyatı», Cavanşirin «Vaxtanq Qorqaşlının həyatı» (50) əsərləridir. Tədqiqatçılar belə hesab edirlər ki, Mroveli Leonti bu əsəri XI–XII əsrlərdə yazmışdır (18, s.171-184; 50, s.8-10). Bu əsərlərin Albaniyanın ilk orta əsrlər tarixinə dair əhəmiyyəti, bu əsərlərdə xəzərlərin və hunların hücumları, eyni zamanda şəhərlər, vilayətlər haqqında bizə müəyyən qədər məlumatlar verməsindən ibarətdir.

Qafqaz Albaniyasının tarixinə dair bir sıra maraqlı və qiymətli məlumatları gürcü agioqrafik abidələr də özlərində saxla-

mışlar (51; 53; 17; 18;). Bunlardan da bizim tədqiqatımızda müəyyən qədər istifadə olunmuşdur.

Yuxarıda qeyd etdiyimiz yazılı qaynaqlardan əlavə, Albaniyanın ilkin orta əsrlər dövrünün tədqiqi zamanı müəyyən qədər Suriya və Bizans yazılı qaynaqlarından tədqiqatımızda istifadə olunmuşdur. Bizim tərəfdən çoxlu miqdarda mühüm məlumatlar Suriya yazılı qaynaqlarının bilicisi N.V.Piqulevski tərəfindən edilmiş tərcümələrdən və eyni zamanda onun tədqiqatlarından istifadə olunmuşdur (421; 422; 423).

Tədqiqatımızda biz tərəfdən Albaniya tarixinin ilk orta əsrlər tarixinə, mütəxəssislər tərəfindən bizans yazılı qaynaqların rus dilinə tərcümə edilmiş çoxlu məlumatlarından istifadə olunmuşdur. (9; 16; 46).

Tədqiq etdiyimiz dövr üçün əhəmiyyətli yazılı qaynaqlardan biri də ərəb coğrafiyaçılarının yazılı qaynaqlarıdır. Onlar Albaniyanın (Arran) iqtisadi və siyasi tarixinə dair müxtəlif məlumatlar saxlamışlar (315; 206).

Ərəb yazılı qaynaqlarının müəlliflərinin hamısı ilk orta əsr Albaniyasında baş verən hadisələri öz gözləri ilə görməmiş və dövrün şahidləri olmamışlar. Lakin buna baxmayaraq, ölkə haqqında onlar müəyyən məlumatlar verirlər. Ərəb coğrafiyaşünasları öz əsərlərini yazarkən «dünyanın yaranması» tarixindən başlayaraq özlərinin yaşadıqları günə qədər olan tarixi hadisələri öz əsərlərində müəyyən qədər təsvir edirlər.

Ərəb yazılı qaynaqları bizim tədqiq etdiyimiz dövr üçün ona görə əhəmiyyətli və qiymətlidir ki, onlar ilk orta əsr yazılı qaynaqlardan (erməni, suriya, bizans, gürcü və s.) müəyyən qədər fərqli olaraq Albaniyanın ilk orta əsr iqtisadi həyatı haqqında daha geniş məlumat verirlər, bununla da digər yazılı qaynaqlarda olan boşluğu bir növ doldurmuş olurlar. Lakin onu da qeyd etmək lazımdır ki, ərəb yazılı qaynaqları Albaniyada olan tarixi hadisələri təsvir edərkən çox vaxt biri digərini təkrar edir.

Ərəb yazılı qaynaqlarından bizim tədqiq etdiyimiz dövr üçün əhəmiyyətli olanlardan biri Abdullah İbn Xordadbehin (820–913-cü illər) «Yollar və dövlətlər haqqında kitab» adlı coğrafi əsəridir (24; onun haq. bax: 315, c.IV, s.147-150; 185, s.19-21). O, poçt rəisi olmuşdur (451, s.22; 185, s.20). Tədqiqat-

çılar onun əsərinin digər ərəb coğrafiyaçılarının əsərlərindən fərqləndiyini və çox qiymətli əsər olduğunu göstərirlər (60, s.11; 184, s.127-136). İbn Xordadbehin əsərində Albaniyanın şəhərləri, yolları, iqtisadi həyatı, kənd təsərrüfatı, ticarəti, vergiləri, Albaniyanın tarixi coğrafiyası haqqında məlumatlar verilir.

Digər ərəb coğrafiyaçısı Bəlazuridir. Onun «Ölkələrin fəthi kitabı» (13; onun haq. bax: 181, c.I, s.18-19; 315, c.IV, s.35, 154-156, 158, 161, 206, 208, 302, 330, s.56; 185, s.16) bizim tədqiqatımız üçün qiymətli yazılı qaynaqdır. Bu əsərin Albaniyanın ilk orta əsr tarixinə dair əhəmiyyəti ondan ibarətdir ki, burada ərəblərin Albaniyaya hərbi yürüşləri və eyni zamanda şəhərləri haqqında məlumat verilir.

Albaniyanın tarixinə dair məlumat verən mənbələrdən biri də IX əsr müəllifi Yaqubinin «Tarix» əsəridir (63; 64; onun haq.bax: 315, c.IV, s.151-154; 185, s.18).

X əsrin ərəb coğrafiyaşünaslarından biri də Məsudidir. O, «Qızıl təmizləmə yerləri və əlvan daş mədənləri», «Xəbərdarlıq və təkrar yoxlama kitabı» coğrafi əsərlərin müəllifidir (47; onun haq.bax: 315, c.IV, s.171-184). Məsudi öz əsərlərində Albaniyanın şəhərləri, ticarət yolları və əhalisi haqqında müəyyən qədər məlumat verir.

Digər X əsr ərəb coğrafiyaçısı İstəxri «Dövlətlərin yolları haqqında» kitabın müəllifidir (30; 315, c.IV, s.194-198). O bu əsərinə coğrafi xəritələr atlasını da daxil etmişdir. İstəxrinin əsərinin Albaniya tarixinə dair verdiyi məlumatların əhəmiyyəti ondan ibarətdir ki, o, Albaniyanın (Arranın) sərhədləri, şəhərləri, yolları və onların məsafələri, istiqamətləri haqqında ətraflı məlumat verir və eyni zamanda Xəzər dənizini ətraflı təsvir edir.

Digər X əsr ərəb coğrafiyaçısı İbn Hövqəl (21; onun haq. bax: 185, s.20-21) İstəxrinin yuxarıda göstərilən əsərini yenidən işləmiş və ora yeni xəritə tərtib edib salmışdır. O, eyni zamanda buraya Albaniyanın (Arranın) o zamankı ərazisini də daxil etmişdir. O öz əsərində Albaniyanın tarixi coğrafiyası, təsərrüfatı, şəhərləri, yolları, bazarları və s. haqqında müfəssəl məlumat verir.

Albaniyanın ilk orta əsrləri haqqında bizə məlumat verən X əsrin ortalarında yaşamış ərəb coğrafiyaçılarından biri də Müqəddəsidir. Müqəddəsi (946/47-1000-ci illər) «İqlimləri dərk

etmək üçün ən yaxşı bölgü» əsərinin müəllifidir (48; onun haq. bax: 315, c.IV, s.211; 185, s.21-22). Ərəb coğrafiyaçısı Müqəddəsi Albaniyanın şəhərləri, əhalisi, təsərrüfat həyatı, ticarəti və ticarət yolları haqqında bizə nisbətən geniş bilgi verir.

X əsrin ortalarında yaşamış ərəb coğrafiyaçılarından biri də İbn əl-Fəqihdir. O, «Ölkələr haqqında» kitabın tərtibçisidir (22; onun haq. bax: 315, c.IV, s.124-127; 185, s.2). O öz əsərində Albaniyanın (Arranın) şəhərləri haqqında bizə müəyyən qədər məlumat verir.

IX əsrin sonu – X əsrin əvvəllərində yaşamış ərəb coğrafiyaşünaslarından biri də İbn Rustadır (892-902-ci illər). O, «Qiymətli sərvətlər» kitabının müəllifidir (23; onun haq.bax: 315, c. IV, s.159-160; 185, s.22-23). İbn Rusta öz əsərində Albaniyanın şəhərləri, ticarəti, əhalisi və ticarət yolları haqqında da söhbət açmışdır.

X əsrin ortalarında yaşamış digər bir ərəb müəllifi Kudamadır (922-948-ci illər). Kudama əvvəllər nəzarət idarəsinin müdiri, ömrünün sonlarında isə poçt müdiri olmuşdur. O, «Xərəc və katiblik sənəti haqqında» adlı kitab yazmışdır (43; onun haq. bax: 315, c.IV, s.160-162; 185, s.23). Bu əsəri yazarkən o, daha çox Bəlazurinin və İbn Xordadbehin əsərlərindən istifadə etmişdir (451, s.23; 185, s.23). Ərəb coğrafiyaçısı Kudama əsərində Albaniyanın (Arranın) şəhərləri, ticarət yolları, etnik tərkibi haqqında da yazmışdır.

Digər ərəb coğrafiyaçısı və səyyahı Yaqut Həməvidir (1179-1229-cu illər). Onun yazdığı «Ölkələrin əlifba sırası ilə siyahısı» (62, 61; onun haq.bax: 437, c.IV, s.191; 315, c.IV, s.370; 185, s.24) əsəri Albaniyanın (Arran) öyrənilməsi üçün son dərəcə mühüm mənbədir. Bu əsəri yazarkən Yaqut Həməvi özündən qabaqkı müəlliflərin əsərlərindən geniş istifadə etmişdir (185, s.23). Yaqut Həməvi bizə Albaniyanın şəhərlərindən, ticarətindən, ticarət yollarından və əhalisi haqqında dəyərli məlumatlar verir.

Yuxarıda göstərilən əsərlərdən göründüyü kimi, bizim bu günümüzə gəlib çıxan antik, ilk orta əsr yazılı qaynaqlarının, demək olar ki, hamısı və onların əlyazmaları yadelli işğalçılara məxsus yazılı qaynaqlarıdır. Bu yazılı qaynaqların orijinallarının hamısı əsrlər boyu əldən-ələ keçərək, üzü köçürülərək, dəyişdirilərək, əlavələr edilərək, saxtalaşdırılaraq bizə orta əsr əlyazmaları halında gəlib çatmışdır. Onlardan olduqca ehtiyatlı və tənqidi istifadə etmək lazımdır.

II FƏSİL

ƏRAZİ VƏ ETNİK MÜNASİBƏTLƏR

Qafqaz Albaniyasının ərazisi, dövlətin siyasi sərhədlərinin (qədim və ilk orta əsrlər) araşdırılması ən mürəkkəb, çətin və eyni zamanda mübahisəli problem olaraq ölkənin tarixinin öyrənilməsində son dərəcə mühüm əhəmiyyətə malikdir. Bir sıra tədqiqatçılar, o cümlədən A.Yanovski, B.Dorn, M.Barxudaryan, V.Tomaşek, A.Y.Krımski, S.V.Yusikov, V.N.Leviatov, K.V.Trever, Z.İ.Yampolski, S.T.Yeremyan, K.Q.Əliyev, A.P.Novoseltsev, A.Ş.Mnatsakanyan, B.Ulubabyan, T.Q.Papuaşvili, D.L.Musxenişvili, T.M.Məmmədov (bu haqda I fəslə bax) və digərləri yadelli işğalçıların əski yazılı qaynaqlarına istinad edərək, bəzən onu öz süzgəclərindən keçirərək, bəzən də onları saxtalaşdıraraq Albaniyanın antik dövrlərdə və ilkin orta əsrlərdə ərazisi, sərhədləri məsələlərinə öz əsərlərində toxunmuşlar və araşdırmışlar.

Bir sıra digər tədqiqatçılar, o cümlədən İ.Şopen, Q.Hüyubsiman, V.F.Minorski öz əsərlərində (bu haq. I fəsilə bax), həmçinin Qafqaz Albaniyasının sərhədləri və ərazisi məsələlərinə toxunmuşlar.

Bununla bərabər onu da qeyd etmək lazımdır ki, Albaniyanın ilk orta əsrlər ərazisi, sərhədləri məsələsi az öyrənilmiş, digər tərəfdən isə mürəkkəb və mübahisəlidir. Bundan əlavə, bir sıra tədqiqatçılar yadelli işğalçıların yazılı qaynaqlarına istinad edərək, əsassız olaraq belə iddia edirlər ki, Albaniyanın ilkin orta əsrlərdə ərazisi kiçilir və sıfıra enir (123, s.5; 129, s.44-48). Bununla əlaqədar onu da qeyd etmək lazımdır ki, bu tədqiqatçılar ilkin orta əsr Albaniyanın ərazisi haqqında yuxarıdakı yanlış, əsassız fikir yürüdərkən antik dövrün saxtalaşdırılmış yazılı qaynaqlarına istinad edirlər. Onu da qeyd etmək yerinə düşərdi ki, antik dövrün yazılı qaynaqları Albaniyanın III-VII əsrlər dövrünün sərhədləri və ərazisi haqqında hər hansı məlumatlara malik ola bilərdilərmi? Xeyr, heç bir məlumatlara malik ola bilməzdilər. Beləliklə, Albaniyanın ilkin orta əsrlər sərhədləri, ərazisi haqqında tədqiqatçıların saxtakarlığı və yanlış, səhv fikirləri

ilə razılaşmaq qeyri-mümkündür. Əgər biz ilkin orta əsr yazılı sinxron qaynaqlarına müraciət etsək və onlara düzgün, tənqidi yanaşsaq, o zaman tarixi həqiqət tam aydınlıqla meydana çıxar, məsələ aydınlaşar.

İlkin orta əsr yazılı qaynaqları Albaniyanın ilkin orta əsr ərazisi, dövlətin siyasi sərhədləri haqqında müxtəlif məlumatlar saxlamışlar. İlkin orta əsr yazılı qaynaqları – Favstos Buzandasi (87, k.IV, fəs. 24, 50), Yeqişe (68, fəs.III), M.Xorenasi (76, k.II, fəs.8, 12, 51), Ananiya Şirakasi (11, s.17) və ilk orta əsr alban tarixçisi M.Kalankaytukludan (79, k.I, fəs.4, 5) aydın olur ki, Qafqaz Albaniyasının ərazisi şimalda Böyük Qafqaz dağlarının ətəklərinə qədər uzanaraq, hətta Sarmatiya ilə birləşirdi (342a, s.28, 184).

İlkin orta əsr yazılı qaynaqları Favstos Buzandasi (87, k.III, fəs. 6), M.Xorenasi (76, k.II, fəs.6), Ananiya Şirakasi (11, s.19) və eyni zamanda, alban tarixçisi M.Kalankaytukludan (79, k.I, fəs.4, k.II, fəs.21) aydın olur ki, Qafqaz Albaniyasının ərazisi Araz çayının yuxarılarına qədər, onun sol sahil hissəsi də daxil olmaqla uzanırdı (342a, s.28, 29, 84). İlkin orta əsr yazılı qaynağı Favstos Buzandasi IV əsr hadisələrindən bəhs edərkən Haband vilayətini və Amaras şəhərini Albaniya ilə Ermənistan arasında olan sərhəddə – Albaniyanın ərazisində yerləşdirir (87, k.III, fəs.6; 342a, s.29).

İlkin orta əsr yazılı qaynaqları Favstos Buzandasi (87, k.V, fəs.12, 13, 14), L.Parpesi (74, fəs.33) və Ananiya Şirakasidən (11, s.17, 19, 20) aydın olur ki, Qafqaz Albaniyasının ərazisi cənubda Araz çayı ilə Kür çaylarının qovuşduğu yerə qədər, Mil, Muğan düzü və Paytakaran daxil olmaqla uzanırdı (342a, s.29, 184).

İlkin orta əsr yazılı qaynağının məlumatından bəlli olur ki, Qafqaz Albaniyasının ərazisi şərqdə Kaspi dənizinə qədər uzanırdı (11, s.17; 342a, s.29, 184).

İlkin orta əsr yazılı qaynaqları Yeqişe (68, fəs.II), M.Xorenasi (76, k.II, fəs.8) və eyni zamanda alban tarixçisi M.Kalankaytukludan (79, k.II, fəs.2, XXI k.I, fəs.4) aydın olur ki, qərb tərəfdə Qafqaz Albaniyası İberiya ilə həmsərhəd olub. Albaniyanın IV–VII əsrlərdə sərhədi Ağstafa çayının Kür çayına töküldüyü yerdən, indiki Zaqatala rayonunun ərazisi, Andiy da-

ğının ətəklərinə qədər yerlər daxil olmaqla keçirdi (342a, s.29, 184-185). O, eyni zamanda, Alazan çayının orta və aşağı sahilini də əhatə edirdi.

İlkin orta əsr yazılı qaynağı Favstos Buzandasidən bizə aydın olur ki, Albaniya, eyni zamanda, Atropatena ilə də həmsərhəd olmuşdur (87, III fəs. 6; 342a, s.29).

Həmən ilkin orta əsr yazılı qaynağı Favstos Buzandasi təsdiq edərək məlumat verir ki, alban şahı Urnayrın dövründə – IV əsrdə «Uti, Şakaşena, Girdiman (Qardmanzor) (87, k.V, fəs.13), Arsax (87, k.V, fəs. 19), Kaspilərin vilayəti, o cümlədən Paytakaran (87, k.V, fəs.14) Alban dövlətinin tərkibinə daxil idi (342a, s.29)».

İlkin orta əsr yazılı qaynaqlarının məlumatlarından aydın olur ki, 371-ci ildə erməni şahı Papın sərkərdəsi Muyşeq Mamikonyan öz ordusu ilə Alban dövlətinin ərazisinə daxil olub Arsaxı dağıtdıqdan sonra «Uti, Şakaşen, Qardmandzor (Girdiman–*T.M.*) vilayətlərini, Kolt, onunla sərhəd vilayətləri» onların əlindən aldı (87, k.V, fəs.12,13; bax: 403, t.II, s.312; 451, s.200; 342a, s.29). Lakin bu istila uzun sürmədi. Sasani dövləti ilə Bizans dövləti arasında 387-ci il müqaviləsinə əsasən Arsax, Uti nahiyələri, Kaspi, Şakaşena vilayətləri və Paytakaran şəhəri Ermənistandan geri alınaraq Albaniya dövlətinə qaytarıldı və onunla birləşdirildi (11, s.17; bax: 101, s.110, 230; 403, fəs. t. II, s.312; 451, s.201; 527, s.240-241; 342 a, s.29). Beləliklə, buradan bir daha aydın olur ki, bu torpaqlar, ərazilər lap əvvəllərdə də Albaniya dövlətinin tərkibinə daxil olmuşdur.

Bir qrup tədqiqatçıların – N.Adons (118, s.230), İ.Markvart (101, s.118), St.Kananyan (524, s.154), S.T.Yeremyan (403, t.2, s.312; 520, s.120), A.Manandyan (527, s.240, 241), A.Ş.Mnatsakanyan (374, s.15-33) və başqalarının saxtakar fikirlərinə və mühakimələrinə görə Arsax, Uti, Şakaşena, Girdiman, Paytakaran IV əsrə qədər Alban dövlətinin tərkibinə daxil olmamışdır.

Yuxarıdakı bir qrup saxtakar tədqiqatçıların əksinə olaraq, digər bir qrup tədqiqatçılar, o cümlədən A.Y.Krımski (319, s.289), B.F.Minorski (372, s.27-28), K.B.Trever (451, s.58), K.Əliyev (125, s.11; 123, s.3-4; 124, s.130-133), B.Qukasyan (239, s.122-127) və başqaları yunan, latın və digər yazılı qaynaqlara

əsaslanaraq Qafqaz Albaniyasının ərazisini, sərhədlərini araşdıraraq sübut edirlər ki, yuxarıda göstərilən əyalət və vilayətlər IV əsrdən çox-çox qabaqlar da Qafqaz Albaniyasının tərkibinə daxil olmuşdur (342a, s.29).

Sonrakı əsrlərdə, yəni ərəblərin Zaqafqaziyanın istilasına qədərki dövrdə də yuxarıda göstərilən vilayətlərin, nahiyələrin əraziləri Albaniya dövlətinin tərkibinə daxil olmuşdur. İlkin orta əsr Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatlardan aydın olur ki, alban şahı III Vaçaqanın hakimiyyəti dövründə Kür çayının sol və sağ sahillərində olan ərazilər Albaniya dövlətinə məxsus idi (79, k.I, fəs 16-17; bax: 319, s.290). Həmən Albaniya tarixçisi Albaniya şahı Cavanşir haqqında bəhs edərkən göstərir ki, VII əsrdə, Albaniyanın şahı Cavanşirin hakimiyyəti dövründə Albaniya dövlətinin ərazisi İberiya hüdudlarından hun darvazalarına və Araz çayınadək uzanırdı (79, k.II, fəs.21; 342a, s.30).

Beləliklə, yuxarıda ilkin orta əsr yazılı qaynaqlarının araşdırılmasından aydın olur ki, III-VII əsrlərdə Qafqaz Albaniyası dövlətinin ərazisi çox geniş olmuşdur. Albaniya dövlətinin, şahlığının ərazisi Böyük Qafqaz sıra dağlarının şimalından başlayaraq, cənubda Kür-Araz çaylarının aşağı qovşağına qədər, indiki Muğan və Mil düzləri daxil olmaqla, Paytakaran, Uti, Arsax nahiyələri, Girdiman (Qardman), Şakaşena, Kambisena, Çola, Lpin və s. vilayətləri daxil olmaqla, qərbdə İberiyayadək, şərqdə Xəzər dənizinədək geniş bir ərazini tuturdu.

Albaniyanın ilk orta əsrlər inzibati-ərazi bölgüsü haqqında ilk orta əsr yazılı qaynaqları bizə məlumat verir. İlkin orta əsr yazılı qaynaqları Aqafanqel, Ananiya Şirakasi, M.Xorenasi, Gevonddan və digərlərindən aydın olur ki, IV-VII əsrlərdə Albaniya inzibati-ərazi baxımından nahiyələrə, əyalətlərə və vilayətlərə bölünürdü. Yuxarıdakı ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarını, eyni zamanda alban tarixçisi M.Kalankaytuklunun bir daha verdiyi məlumatlar da bunu təsdiq edir (65, s.115; 11, s.17, 19, 20; 82, fəs.21; 76, k.II, fəs. 74, fəs.III, fəs.54; 79, k.I, fəs. 27, 29, k.II, fəs. 10, 11, 14, 17, 22, 36, 37; 341, s.35). Qafqaz Albaniyasının ilk orta əsrlərdə şimal vilayətlərindən biri Çola (Cora, Çor, Çol) idi. Bu vilayət ərazi və Çola (Cora) və ya

Dərbənd keçidindən cənuba doğru–Baş Qafqaz sıra dağlarının şərq qolunun Kaspi dənizinə lap yaxınlaşdığı yerədək olan dənizsahili zolağını, Sumqayıt çayına qədər olan ərazini əhatə edirdi (87, k.IV, fəs.50; 68, fəs.III; 79, k.II, fəs. 14; 76, k.II, fəs.51, k.III, fəs.12). Onu da qeyd etmək lazımdır ki, Çopa (Cora, Çol) sözünün Qafqaz və ya İran mənşəli söz olduğunu iddia edənləri haqlı olaraq tənqid edərək, toponomiklər, dilşünaslar onun türk mənşəli sözdən ibarət olduğunu təsdiqləyir və bu sözü düzgün olaraq türk tayfası olan Çol (çul) adı ilə bağlayırlar (217b, s.111-114; 304a, s.370).

Qafqaz Albaniyasının bu şimal vilayətində tabasaranlar, albanlar, çilbilər (silvlər), leqlər, maskutlar, şiçbilər, xəzərlər, hunlar yaşayırdılar (tayfalar haqqında bax aşağıya). Bu vilayətdə o dövrün görkəmli şəhərləri Çora (Coğa), Dərbənd və Siri yerləşirdi (şəhərlər haqqında aşağıdakı fəsilə bax).

İlkin orta əsrlər dövründə Qafqaz Albaniyasının vilayətlərindən biri də Lpin idi (68, fəs. I, VII; 79, k.II, fəs. 14). Bu vilayət Çolanın şimal-qərbində, Çola ilə Şəki arasında yerləşirdi. Lpin vilayəti Ağstafa çayının Kür çayına töküldüyü yerdən, indiki Zaqatala rayonunun Andiy dağının ətəklərinə qədər olan ərazisini əhatə edirdi. Lpin vilayəti, eyni zamanda Alazan çayının orta və aşağı hissəsində olan ərazini də əhatə edirdi (68, fəs.III, 76, k.II, fəs.8; 79, k.II, fəs.2, 21; bax: 265, I hissə V–VII əsr xəritələri). Bu vilayətdə lpinlər, albanlar, saklar və başqa etnik qruplar yaşayırdılar (tayfalar haq. bax aşağıya). Bu vilayətdə Xalxal və Xunarakert kimi şəhərlər yerləşirdi. (Şəhərlər haqqında aşağıdakı fəslə bax).

Albaniyanın ilk orta əsrlərdə ən böyük vilayətlərindən biri də yunan müəlliflərində Kambisena, erməni müəlliflərində isə Kambeçan idi. Bu vilayət Albaniyanın şimal-qərbində Qafqaz sıra dağlarının ətəklərindən başlayaraq Albaniyanın İberiya ilə sərhədində yerləşirdi. Bu vilayət şimal-qərbdə Alazan və İori çaylarının orta axarından, cənubda Kür çayınadək, şərqdə isə Alazan, İori və Kür çaylarının qovşağınadək olan ərazini əhatə edirdi (87, k. V,13; 76, ka. II, fəs.50; XI s.17). Bu vilayətin şimalındakı hissəsində xeçmatanlar, iymaxlar, qliyarlar, quqarlar, yeqersanlar, qatlar və digərləri, cənubda düzənlik hissəsində

albanlar, hunlar, saklar və digər tayfalar yaşayırdılar (tayfalar haqqında bax aşağıya). Bu vilayətdə Qəbələ, Sirxar şəhərləri yerləşirdi (şəhərlər haqqında aşağıda növbəti fəslə bax).

Qafqaz Albaniyasının sağsahil hissəsi inzibati baxımdan üç böyük əyalətə bölünürdü: Uti, Paytakaran, Arsax. Qafqaz Albaniyasının ilkin orta əsrlərdə ən böyük əyalətlərindən biri də Paytakaran idi. Paytakaran, Kaspk, Kazbk (qədim erməni qaynaqlarında), Kaspiana (yunan, latın yazılı qaynaqlarında), Balasakan (erməni, fars, ərəb yazılı qaynaqlarında), Kaspi dənizinin cənub-qərb sahillərində yerləşərək, Mil və Muğan düzlərinin bir hissəsini, Kür çayının aşağı hissəsində olan ərazini tutur, şərqdə isə Kaspi dənizinədək uzanırdı (11, s. 17, 19; 341, s.37).

İlk orta əsr yazılı qaynağı Ananiya Şirakasi Paytakaran haqqında məlumat verib onun əyalət olduğunu qeyd edərək, tərkibində 12 vilayət olduğunu göstərir. Həmin vilayətlər aşağıdakılardan ibarətdir: Hrokot-Peroj, Vardanakert, Jetiparakiyan-Baqinik, Rotiboqo, Bahanrot, Araspijan, Qani, Atli, Baqavan, Spandaran-Peroj, Ormiz-Peroj, Alevan (11, s.19; 341, s.37). Bu əyalətdə albanlar, kaspilər, qellər, balasiçilər, hunlar, xəzərlər və digər tayfalar yaşayırdılar (tayfalar haqqında bax aşağıya). Bu əyalətdə Paytakaran, Beyləqan şəhərləri yerləşirdi (şəhərlər haqqında növbəti fəslə bax).

Qafqaz Albaniyasının ən böyük əyalətlərindən biri də Utidir. Tarixi əyalət olan Uti, Utik (qədim ermənicə), Otena (qədim yunanca) Kür çayının sağ sahilində yerləşirdi. İlkin orta əsr yazılı qaynağı M.Xorenasi Uti haqqında məlumat verərək onun vilayət olduğunu qeyd edir (76, k.II, fəs.55, 74). Bunu, eyni zamanda, ilkin orta əsr alban tarixçisi M.Kalankaytuklu da öz növbəsində təsdiq edərək, Utini Albaniyanın vilayəti adlandırır (79, k.I, fəs.6, 27; k.II, fəs. 10, 17, 36, 37). İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasi Utinin vilayət deyil, əyalət olduğunu qeyd edərək, eyni zamanda onun aşağıdakı vilayətlərdən ibarət olduğunu göstərir: Aranrot, Tri, Rotpasian, Aque, Tuçkatak, Qardman, Şakaşen (11, s.20; 341, s.36). Alban əyaləti Uti Araz çayından şərqdə, Arsax ilə Kür çayının arasında yerləşirdi (11, s.20; 341, s.36). Bu əyalətdə VI əsrin ikinci yarısından Alban dövlətinin paytaxtı Bərdə (Partav) və Xalxal şəhərləri yerləşirdi

(şəhərlər haqqında növbəti fəslə bax). Uti əyalətində albanlar, savdeylər, utilər, saklar və digər tayfalar yaşayırdılar (tayfalar haqqında bax aşağıya).

İlkin orta əsr yazılı qaynaqlarının məlumatlarına görə, Qafqaz Albaniyasının ilk orta əsr dövrünün ən mühüm əyalətlərindən biri də Arsax (Artsak) olmuşdur (87, k.IV, fəs. 50; 341, s.37). Toponimiklərin, dilçilərin, etimoloqların araşdırmalarına görə, Arsax (Artsak) toponiminin erməni dili ilə heç bir əlaqəsi yoxdur. Artsak sözü türkcə art – «dağlıq ərazi», «yüksəliş» və «sak» sözlərindən ibarətdir, «sakdağlıq ərazisi» mənasını verir (304a, s.331, 338).

Bu əyalətin ərazisi qərbdə Əkərə çayına (müasir Həkərə çayı) və Qarabağ dağının ətəklərinə qədər, cənubda isə Araz çayına, şimalda isə Murov dağına qədər yerləri əhatə edirdi. Buraya dağlıq hissədən əlavə Mil və Muğan düzlərinin bir hissəsi də daxil idi (11, s.19; 341, s.37). İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasi Arsaxı (Artsak) əyalət adlandıraraq, onun 12 vilayətdən ibarət olduğunu qeyd edir. İlkin orta əsr yazılı qaynağına görə, onlar aşağıdakılardan ibarət idi: Myus-Haband, Vakunik, Beradzor, Böyük-Kuanı, Böyük İrank, Harqlank, Muğank, Pisank, Panskanak, Sisakan, Kusti-Payner və Kolt (11, s.19, 341, s.37). Arsax əyaləti cənub-qərbdə Sünik ilə həmsərhəd idi (11, s.19, 341, s.37). Arsaxın əhalisini albanlar, qarqarlar, hunlar, xəzərlər və barsilər təşkil edirdilər (tayfalar haqqında bax aşağıya).

İlkin orta əsr Qafqaz Albaniyasının ən mühüm və böyük, sağ sahildə yerləşən vilayətlərindən biri də Girdiman idi (79, k. II, fəs. 17, 22; 341, s.36).

Yazılı qaynaqlarda bu vilayət Qardman (qədim erməni dilində), Girdiman (qədim fars dilində) və Qardabani (qədim gürcü dilində) adı ilə verilirdi. Girdiman Kürün sağ sahilində yerləşən bir vilayət kimi Uti əyalətinə daxil idi (79, k.II, fəs. 17, 22; k. III, fəs. 23; 341, s.36). İlkin orta əsr yazılı qaynaqları Girdiman haqqında məlumat verərkən müxalif fikir yürüdürlər. İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasi Girdimanı vilayət adlandırır (11, s.17; 341, s.36), bunu eyni zamanda alban yazılı qaynağı M.Kalankaytuklu da təsdiq edir (79, k.II, fəs. 17; 22;

341, s.36). Lakin VII əsr erməni coğrafiyaçısı A.Şirakasi tarixi faktları saxtalaşdıraraq Girdiman vilayətini Ermənistanın ərazisində yerləşdirir (11, s.17; 341, s.36). Lakin digər ilkin orta əsr yazılı qaynağı Favstos Buzandasi (87, k.V, fəs. 13; 341, s.36), alban tarixçisi M.Kalankaytuklu (79, k.II, fəs. 22, k.III, fəs. 23; 341, s.36) orta əsr tarixçisi Vardan (73, s.40; 341, s.36) Ananiya Şirakasinin tam əksinə olaraq Girdiman vilayətinin Albaniyanın tərkibində yerləşdiyini qeyd edirlər. Bu vilayətdə alban şahı III Vaçaqan dövründə Cəsur Vaçaqan hakimlik edirdi (79, k.I, fəs. 26). Digər ilkin orta əsr yazılı qaynağı M.Xorenasinin məlumatına görə isə Mesrop Maştosun dövründə Girdimanın Xurs adlı hökmdarı var idi və o alban yazısının ölkədə yayılmasında Mesrop Maştosa kömək göstərirdi (76, k.III, fəs.60). Bu vilayətin lokallaşdırılması haqqında müxtəlif fikirlər mövcuddur. Bu vilayəti lokallaşdırarkən bəzi tədqiqatçılar yanlış olaraq Ağsu və Girdiman çayları rayonunda (İ.Əliyev, F.Osmanov, 131a), bəziləri isə müasir Qazax rayonunun ərazisində (267, s.319), bir qismi isə yanlış olaraq Şəmkir çay hövzəsi ətrafında və Gədəbəy rayonunda (189 a) yerləşdiyini iddia edirlər. İlkin orta əsr yazılı qaynağının məlumatına görə Girdiman bir vilayət kimi Uti əyalətinin tərkibində idi və bu vilayət Gəncəçay və Zəyəmçay arasında olan ərazidə yerləşirdi (79, k. II, fəs. 19, 23; k.III, fəs. 23). Cənubda bu vilayət Murov dağının ətəkləri ilə həmsərhəd idi (11, s.20, 17; bax; 518, s.33). Bu vilayətdə Aran nəslindən olan tayfalar– utilər, qarqarlar və s. yaşayırdılar (tayfalar haqqında aşağıya bax).

İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasinin məlumatına görə, Albaniya aşağıdakı əyalətlərə bölünür: Yehin, Beh, Kambeçan, Şake, Bostani-Mərsipan, Dəşti Balasakan. İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasi daha sonra qeyd edir ki, bunlardan əlavə albanlar Ermənistandan Şakaşen, Qardman, Kolt, Zare və daha 20 vilayəti, Araz çayının Kürə töküldüyü yerə qədər yerələşən əraziləri geri qaytardılar (11, s.17; 341, s.37).

Beləliklə, yuxarıda ilkin orta əsr yazılı qaynaqlarında qeyd edilən əyalətlər, vilayətlər Qafqaz Albaniyasının tərkibinə daxil olaraq III-VII əsrlərdə ümumi Albaniya adlı dövlətin adı ilə adlanırdı.

Yuxarıdakı ilkin orta əsr yazılı qaynaqların məlumatlarının araşdırılması göstərir ki, Qafqaz Albaniyasının III-VII əsrlərdə ərazisi olduqca geniş olmuşdur. Albaniya dövlətinin, şahlığının ərazisi şimalda Böyük Qafqaz sıra dağlarının şimalından başlayaraq, cənubda Kür və Araz çaylarının aşağı qovşağına qədər, Muğan və Mil düzənlikləri daxil olmaqla, ölkənin ərazisi uzanırdı. Albaniya dövlətinin III-VII əsrlərdə ərazisinin tərkibinə Uti, Arsax, Paytakaran və s. nahiyələri, Çora, Lpiniya, Qardman, Kambisena, Şakaşen və digər vilayətlər daxil idi.

Beləliklə, ilkin orta əsr yazılı qaynaqların məlumatlarının araşdırılması göstərir ki, Qafqaz Albaniyası şimalda Böyük Qafqaz sıra dağlarının şimal ətəklərində yerləşən Sarmatiya ilə birləşərək, onunla həmsərhəd idi. Cənub-qərbdə isə Albaniyanın ərazisi Araz çayının yuxarı hissəsi və bu çayın sol sahil hissəsi də daxil olmaqla, cənubda isə Araz çayı ilə Kür çayının qovuşduğu yerə, Muğan və Mil düzənliklərinin–Paytakaran daxil olmaqla ərazisi uzanırdı. Albaniya dövləti şərqdə Kaspi dənizi ilə, qərbdə isə İberiyə ilə həmsərhəd idi.

Qafqaz Albaniyasının etnik tərkibi ən az öyrənilmiş, olduqca çətin və eyni zamanda həll olunmamış mübahisəli məsələlərindən biri olaraq qalmaqdadır. Bir sıra tədqiqatçılar – A.A.Bakıxanov, M.Barxudaryan, V.Minorski, S.T.Yeremyan, İ.Q.Əliyev, Z.İ.Yampolski, K.Q.Əliyev, Z.M.Bünyadov, L.M.Melikset-Bek, T.M.Məmmədov, A.P.Novoseltsev, T.Q.Papuaşvili və digərləri bu məsələyə müəyyən qədər öz əsərlərində toxunmuşlar. (Bu haqda daha ətraflı bax I fəsilə). Bu bölmədə əsas vəzifə ilkin orta əsr yazılı qaynaqlarının Albaniyanın etnik tərkibi haqqında daha müfəssəl məlumatlarını araşdırmaqdan ibarətdir.

Albaniyanın ilk orta əsr etnik tərkibinin öyrənilməsi məsələsinin həm elmi və həm də siyasi tərəfi vardır. Elmi tərəfi ondan ibarətdir ki, müasir Azərbaycanda bəzi etnik qrupların ölkəmizdə qədimlərdə yerli, köklü tayfalarla, xalqlarla qardaşlıq ailəsində əsrlər boyu yaşaması və onlarla qaynayıb qarışması danılmaz bir faktdır. Bu tayfalardan az bir hissənin bu günə qədər ölkəmizdə yaşaması buna əyani sübutdur. Digər siyasi tərəfi isə ondan ibarətdir ki, son zamanlar bəzi «mütəxəssislər» düşmən dəyirmanına su tökərək, tarixi yazılı qaynaqları saxtalaşdıraraq,

yerli, köklü etnosları özgələşdirərək, gəlmələrin, yadelli işğalçıların tör-töküntülərini bizə güclə ulu baba saymasını (əyani şəkildə) yanlış olaraq göstərməkdən ibarətdir.

Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılar: S.T.Yeremyan (403, c.II, s.304, 328-329), K.V.Trever (451, s.11), A.Ş.Mnasatakanyan (374, s.15-25) və digərləri qədim dövrlərdə, ilkin orta əsrlərdə Albaniyanın yerli əhalisinin qonşular tərəfindən assimilyasiya olunduğunu səhv olaraq göstərirlər. Erməni tarixçisi Leo (A.Q.Babaxanyan) yazılı qaynaqları, tarixi həqiqəti saxtalaşdıraraq, tamamilə düzgün olmayaraq iddia edir ki, «V əsrin axırlarında Albaniya ölkəsinin əhalisinin yalnız yarısı öz milli mənsubiyyətlərini saxlamış, digər qalan hissəsi ermənileşmiş və yaxud ermənileşmə prosesində idi» (522-523, s.333-334). Bu saxtakar və bayağılaşdırılmış fikirlərlə heç cür razılaşmaq mümkün deyildir və olmaz da.

Digər tərəfdən bir məsələni də qeyd etmək lazımdır ki, Albaniyanın (Azərbaycanın) etnik proseslərini araşdıran tədqiqatçılar, demək olar ki, hamısı yanlış olaraq bir ağızdan türkmənşəli tayfaların gəlmə olmasında israr edirlər.

Azərbaycanın (onun tərkibinə Atropatena və Qafqaz Albaniyasının torpaqları daxil idi) qədim və ilk orta əsrlər dövrünün etnik tərkibi haqqında bir sıra erməni müəllifləri məlumat saxlamışdılar (334, s.40-41; 335, s.12-13; 342, s.58-61). Onların bu məsələ ilə bağlı məlumatlarının Albaniyanın ilk orta əsr yazılı qaynağının müəllifi M.Kalankaytuklunun bu məsələ ilə əlaqədar məlumatlarının müqayisə edilməsi çox böyük əhəmiyyət kəsb edir və bizə kömək göstərir (79). Qədim Azərbaycanın etnik tərkibi haqqında eyni zamanda bizə yunan-bizans yazılı qaynaqları (9, 16; 46; 58 və s.), qədim suriya (421; 422; 423; bax: 510), qədim gürcü yazılı qaynaqları (51; 53; 56; 17; 364, s.131-132) və ərəb coğrafiyaçıları (13; 21; 22; 23; 24; 47; 48; 64; 30) məlumat verirlər. Albaniyanın ən böyük, ən qədim yerli avtoxton tayfalarından ən birincisi albanlar idi. Bu etnik tərkib haqqında bizə ilkin orta əsr yazılı qaynağı Aqafanqel və M.Xorenasi məlumat verirlər (65, s. 117; k.II, fəs.85, s.58 k.III, fəs.3.6). Lakin onu da qeyd etmək lazımdır ki, Aqafanqel özünün ərəb variasiyasında, çox güman ki, təsadüf nəticəsində, al-

banları «alanlar» adlandırır (8, s. 117, 342). Alban etnik tərkibi haqqında bizə eyni zamanda ilkin orta yazılı qaynaqları L.Parpesi (74, fəs. 25, 26, 33, 75), Asoqik (84, k.II, fəs.1), Suriya yazılı qaynağı Zəkəriyyə Ritor (421, s.109, 114; 423, s.165) və alban yazılı qaynağının müəlifi M.Kalankaytuklu məlumat verir (79, k.III, fəs.5. k.I fəs.2.3). Albanlar haqqında eyni zamanda IV əsr yunan yazılı qaynaqlarında bilgi verirlər (45, s.222, 260, 264, 280, 283, 291, 241). Bəzi tədqiqatçılar yazılı qaynaqlara əsaslanaraq albanların lokallaşdırılması məsələlərinə toxunmuşlar. Tədqiqatçılar yazılı qaynaqlara əsaslanaraq albanları Araz çayının sol sahilində, müasir Qarabağ və Mil düzlərində lokallaşdırırlar (402, c. I, s. 224, 403, c. II, s. 303). Onlar Kür çayından şimalda və Kür çayının düzən hissəsində olan ərazilərdə yaşayırdılar (451. s-44; 127, s.16), digər hissə Kambiçena (127, s. 16), Alazan və İori çayı hövzəsində (403, c. II, s. 304; 127, s. 16) və Kaspi dənizi sahillərində yayılıb yaşayırdılar (451, s. 46; 127, s. 16). Tədqiqatçıların bəziləri albanların Albaniyanın yerli qədim tayfası olduğunu qeyd edərək, onların İber-Qafqaz dil qruppuna aid olduğunu göstərirlər (402, c. I, s. 224, 263, s. 23, 131, s. 67). Lakin elmdə belə bir fikir də mövcuddur ki, albanlar dil cəhətdən qafqaz dil qrupuna daxil deyildir. Bir sıra tədqiqatçılar toponimik, anomastik və digər məlumatlara əsaslanaraq daha düzgün və həqiqətə uyğun olaraq, onları türkmənşəli, türk dilləri qrupuna (217, s. 109-114, 217 a. s. 17-20. 27-29, 127-125, 129. s. 55-57) aid olduğunu israr edirlər. Biz də tədqiqatçıların bu fikrilə tam razı olduğumuzu bildirir və onları dəstəkləyirik (342 a. s. 33).

Beləliklə, yuxarıdakı yazılı qaynaqların məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, albanlar Kür çayının şimalında, çaysahili düzənliyində, bir hissəsi Kambiçennada, Kiçik Qafqaz dağının ətəklərində, Kaspi dənizinin sahillərində, indiki Qarabağ və Mil düzənliyində yayılıb yaşamışdılar.

Yeri gəlmişkən daha bir mühüm məsələyə də – «Alban» sözünün mənşəyi məsələsinə də toxunub öz fikrimizi bildirmək istərdik. Yuxarıda göstərildiyi kimi «Alban» sözü iki mənada – həm etnos, həm də ölkə, dövlət mənasında yazılı qaynaqlarda işlədilir.

Antik və ilk orta əsr yazılı qaynaqlarda, yunan və latın dillərində, «Albaniya», qədim erməni dilində «Alvanık», «Alvan»

şəklində verilmişdir. Alban sözünün etimoloji təhlilinə bir sıra tədqiqatçılar da vaxtilə öz əsərlərində toxunmuşlar (166, s.9. 451, s.4). Lakin bu sözün mənası bu günə qədər qeyri-müəyyən və açılmamış qalmışdır. Bir sıra tədqiqatçılar Alban (Albus) sözünün ağ (166, s. 9; 451, s. 4-5), digərləri isə «dağlar ölkəsi» mənasını verdiyini qeyd etmişlər (451, s.5; 304, s. 353-364). Hər iki halda tədqiqatçılar alban sözünün etimoloji təhlilini qədim yunan-latın dili kontekstində aydınlaşdırmağa çalışmışdılar. Digər tədqiqatçılar alban sözünün türkmənşəli olduğunu, türkcə «cəsur», igid mənasını verdiyini göstərirlər (304 a. s. 354-355). Bu günə qədər bu sözlər bizim ana dilimizdə, azərbaycan dilində aydınlaşdırılmamışdır. Lakin «Albaniya», «Alvank», «Alvan» şəklində bizə gəlib çıxan sözlər bizim ana dilimizdə – Azərbaycan dilində aydınlaşdıqda başqa mənzərə alınır.

Qədim Latın-yunan dillərində yazılı qaynaqlardan bizə gəlib çıxan «Albeniya»-«Albus» sözünü iki hissəyə – Al-ban-ya böldükdə onun birinci hissəsi azərbaycan dilində «Al»-qırmızı, gözəl, qəşəng mənalarını kəsb etdiyini görərik. Azərbaycan dilinin qrammatik qanunlarına uyğun olaraq bu sözün «Ban hissəsində «b» samitinin «m» samiti ilə əvəz olunmasını qanunauyğun hesab edəriksə, «Ban» hissəsini «Mən» oxumuş olarıqsa «Alban» sözü azərbaycan dilində «Al-mən» formasında oxunar. Bu da özlüyündə ölkə məfhumunda və mənasında işlətdikdə «gözələm», «qəşəngəm» – ölkəyəm mənası vermiş olur. Albaniyanın həm təbii mühitinə və sərvətlərinə görə çox gözəl ölkə olmasını, olduqca əlverişli coğrafi bir bölgədə yerləşməsini nəzərə alsaq yuxarıdakı məna tamamilə özünü doğrultmuş olur. Bu «Al-mən» sözünü eyni zamanda başqa bir etnos və ya insan mənasında işlətdikdə isə gözəl, qəşəng insan mənası verdiyini görürük. Onu da nəzərə almış olarıqsa ki, yazılı qaynaqlarda albanlar boyca hündür, ağbəniz, gözəl, alagöz olmuşlar, bu mənada özünü bir daha doğruldur.

Beləliklə, Albaniya–«Al-mən» şəklində oxunan söz ana dilimizdə (Azərbaycan türkcəsində) «gözəl ölkə», «qəşəng ölkə» və ya «gözəl, qəşəng insan» mənasını kəsb etdiyini görürük.

İlk orta əsr yazılı qaynaqlarında (qədim erməni dilində) bizə gəlib çıxan «Alvank» və ya «Alvan» şəklində olan sözlərə və məfhumlara gəldikdə isə qeyd etməliyik ki, bunlar da indiyədək

düzgün izah olunmamışdır. Bu hər iki yuxarıdakı sözləri biz azərbaycan dilinin kontekstində aydınlaşdırmağa çalışacağıq. Qədim erməni dilində bizə gəlib çıxan «Alvank» sözü üç hissəyə bölünür. «Al-van-K». Bu sözdə birinci hissə ana dilimizdə gözəl, qırmızı, qəşəng mənalarını kəsb etdiyini aydınca görürük. Birinci və ikinci hissəni birlikdə oxuduqda «Alvan» şəklini alır ki, bu da özlüyündə azərbaycan dilində gözəl, qəşəng, əlvan mənaları verdiyini görürük. O ki qaldı «Alvan» hissəsindəki birinci «a» saitinə, onun dilimzin qrammatik qanunlarına uyğun olaraq «ə» saiti ilə əvəz olunmasını qanunauyğun hesab edəriksə «Alvan» hissəsi o zaman «Əlvan» oxunaraq azərbaycan dilində eyni məna kəsb edər. Bu sözün sonunda işlədilən «K»-ya gəldikdə isə, o qədim erməni dilində cəm şəkilçisidir, sözlərin sonunda işlədilərək cəmliyi göstərir. Beləliklə, yuxarıdakı izahdan aydın olur ki, qədim erməni dilində bizə gəlib çıxan «Alvank» sözünü azərbaycan dilində aydınlaşdırdıqda və izah etdikdə «Əlvan» və «Əlvanlar» şəklində oxunur. Bu da ana dilimizdə əlvan, əlvanlar, gözəl, qəşəng, qırmızı mənalarını kəsb edir. Bunu eyni zamanda ölkə və ya etnos-insan mənalarında işlətsək o zaman «Əlvan ölkə», «Əlvanlar ölkəsi», gözəl insan, gözəl adam kimi oxunar. Eyni zamanda yuxarıda qeyd etdiyimiz kimi Albaniyanın gözəliklərə, zəngin təbii sərvətlərə malik olmasını, dünyada 11 iqlim qurşağından 9 iqlim qurşağını özündə cəmləşdirən, dünyanın ən gözəl bir guşəsində yerləşən ölkə olduğunu və orada yaşayan insanlar, xalqlar öz ölkələrini məhz belə – yəni əlvanlar ölkəsi, «əlvan ölkə» adlandırmaları tamamilə qanunauyğundur.

Beləliklə, yuxarıdakı araşdırmadan aydın olur ki, qədim latın- yunan dillərində «Albaniya» şəklində, ilkin orta əsr qədim erməni dilində «Avank» və «Alban» şəklində bizə gəlib çıxan sözlər Azərbaycan dili kontekstində aydınlaşdırılarkən və izah olunarkən «Alvaniya» – «Gözəl ölkə», «Qəşəng ölkə» mənasını, «Alvank» və «Alvan» sözləri isə «Əlvan ölkə», «Əlvanlar ölkəsi» kimi izah olunur və açılır. Digər tərəfdən araşdırma göstərir ki, bu sözlər mənşəcə türk dili ailəsinə məxsus olan sözlərdir və bunlar bizim ana dilimizdədir.

Qafqaz Albaniyasının ən qədim yerli (avtoxton) tayfalarından biri də utilər idi. Qədim ilk orta əsr yazılı qaynaqları Aqa-

fanqel, Favstos Buzandasi, L.Parpesi, Yeqişe, M.Xorenasi, erməni coğrafiyaçısı Ananiya Şirakasi, (65, s. 20-21, 441; 8 s. 115, 117, 87, k. V, f. 13; 74, k. II, fəs. 35, 68, fəs. III, 76. k. II, fəs. 8. 44, 45, 11. s. 51, 342, s. 59), «Göndərişlər» kitabı (67, s. 61), İoani Drasxanakertsi (80, s. 127, 140, 161, 178, 199, 218, 219, 225, 256, 301, 304, 309, 320, 321), Asoqik, Vardan və ilk orta əsr alban yazılı qaynağının müəllifi M.Kalankaytuklu (84, k.I, fəs. 2. 73, s.39, 79, k. I, fəs. 4, 6, 8, 23, 25, 29, 30, k. II fəs. 10, 11, 14, 15, 19, 25, 32, 33, 34, 342, s. 59) Qafqaz Albaniyasının ən böyük tayfalarından biri olan utilər haqqında bizə məlumat verirlər.

Albaniyanın ərazisində yaşayan etnoslardan biri olan utilər haqqında eyni zaman da ərəb coğrafiyaçıları da məlumat vermişlər (13, s. 13). Saxtalaşdırılmış mənbələrə və faktlara əsaslanaraq bir sıra tədqiqatçılar, o cümlədən A.Şifner (55 b), V.Fon, Erkert (542), A.Dirr (261, bax: 539, s. 60-72), L.P.Zaqurski (277, s.9), L.Q.Lopatinski (323, s.4), M.Q.Djanaşvili (19 s. 83), N.Y.Marr (357), N.Yakovlev (492, s.28-29), B.Lalayan (521, s.155-171), İ.Q.Əliyev (131, s. 65, 67) və başqaları Albaniya ərazisində məskunlaşan utilər etnosuna diqqət yetirərək, bu etnosun İber-Qafqaz qrupuna aid olduğunu iddia edirlər. Bunlardan əlavə, Q.Ter-Mkrtçyan (Miaban) (531, s. 923-934) və A.Payazat (508) kimi tədqiqatçılar əsassız və səhv olaraq hətta utilərin dilini xalq dili ilə qohumluq əlaqəsində olduğunu da iddia edirlər. Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, elmdə belə bir doğru, həqiqətə uyğun fikir də mövcuddur ki, utilər etnosu dil cəhətcə İber-Qafqaz qrupuna aid deyildir. Onu da qeyd etmək lazımdır ki, bir sıra tədqiqatçılar qədim, ilk orta yazılı qaynaqlarına, toponimik və digər faktlara əsaslanaraq utilərin dil cəhətcə türk dilləri qrupuna aid olduğunu qeyd edir və onları türkmənşəli hesab edirlər (159, 60-61; 129, 57-58, 552 a, s. 161; 304 a, s, 348-351). Biz də həmçinin bütünlüklə bu fikirlə razıyıq və onu dəstəkləyirik (342 a, s.34).

Onu da qeyd etmək lazımdır ki, elm aləmi utilər ilə bilavasitə 200 ilə yaxındır ki, maraqlanır və onları öyrənir. Hələ XIX əsrin birinci yarısında 1834-1835-ci illərdə E.İ.Eyxvald utiləri udmiyrtlarla eyniləşdirmiş, udelərlə (udegeylərlə) qohum olduğunu qeyd etmiş və onları türkmənşəli hesab edərək, utilərin

fin-uqor dil qrupu tayfalarından olduğunu qeyd etmişdir (137 a, s. 93-94).

İlkin orta əsr yazılı qaynaqları utilərin lokallaşdırılması haqqında məlumat saxlamışlar. Erməni coğrafiyaçısı Ananiya Şirakasi öz əsərində utiləri Sevan (Göyçə) gölü ilə Araz çayı arasında, digər tərəfdən Kür çayı və Arsax arasında qeydə alaraq, orada məskunlaşdıqlarını göstərir (11, s.51). İlkin orta əsr yazılı qaynağı M.Xorenasi, utiləri albanların mifik əcdadı olan Aran hakiminin nəslindən olduğunu qeyd edir (76, k. II, fəs. 8; 451, s. 46-47; 275, s.148). Bu yazılı qaynaqda olan məlumatı eyni zamanda ilk orta əsr yazılı qaynağı M.Kalankaytuklu da təsdiqləyir (79, k. I, fəs. 4). Bu isə öz növbəsində utilərin Albaniya dövlətinin ərazisində yaşayan ən qədim yerli (avtoxton) tayfalardan biri olduğunu göstərir və dəlalət edir.

Yazılı qaynaqların məlumatlarına əsaslanaraq tədqiqatçılar utiləri Albaniyanın ərazisində müxtəlif yerlərdə yerləşdirir və məskunlaşdırırlar. Y.A.Lalayan göstərir ki, utilər yaşadıqları ərazilərin yerli əhalisi deyildir, onlar indiki yaşadıqları yerlərə son zamanlarda gəlmişlər (320, c. V, s. 37-47). Y.A.Lalayandan əvvəl də bir sıra tədqiqatçılar bu fikirdə olmuşlar. Görkəmli ermənişünas İ.Q.Adons belə fikir irəli sürmüşdür ki, «əvvəllər utilər Azərbaycandan cənubda, sonralar isə şimalda yaşayırdılar» (118, s.420). Görkəmli Azərbaycan tarixçisi A.A.Bakıxanov da belə fikirdə olduğunu bildirmişdir. Onun fikrincə, utilər yaşadıqları Nuxa (Şəki) rayonunda aborigen olmamış, onlar sonradan gələrək burada məskunlaşmışlar (166, s.13). Utilərin yaşadıqları yerlərə gəlmə olduqlarını İ.İ.Meşşaninov da öz əsərində qeyd edir (371, s.35; 36; 370, s.39). İ.Q.Əliyev öz əsərində göstərir ki, utilər Albaniyaya köçürülənə qədər Araz çayından cənubda yaşayırdılar (131, s.65-67). A.Yanovski isə utiləri indiki Şəki rayonunda yerləşdirir (503, s.166). Digər bir tədqiqatçı B.F.Minorski utilərin indiki Gəncə, Şəmkir (Şamxor) və Tovuz ərazisində məskunlaşdıqlarını qeyd edir (552, s.372-373). Q.Kanansyan onların Kür və Araz çaylarının cənubunda məskunlaşdığını göstərir (306, s.19, 20, 69). S.T.Yeremyan isə utiləri Kür və Tərtər çaylarının aşağı hissələrində yerləşdirir (268, I hissə, s.208). Bu yerlərdə utiləri eyni zamanda K.V.Trever (451,

s.46), K.Q.Əliyev də (127, s.17) məskunlaşdırırlar. Tədqiqatçılardan Q.S.Fedorov və Y.A.Fedorov isə utiləri Dağıstanın ərazisində, Kaspi dənizinin sahillərində yerləşdirirlər. Onlar eyni zamanda onu da qeyd edirlər ki, utilər bura Şimali Azərbaycandan gəlmişlər (454, k.II, c.19 , s.174). Ümumiləşdirilmiş «Dağıstan tarixi» əsərində utiləri Şərqi Qafqazın dəniz sahillərində yerləşdirirlər (293, c.I, s.106).

Beləliklə, ilkin orta əsr yazılı qaynaqların və tədqiqatçıların materiallarının araşdırılması göstərir ki, Qafqaz Albaniyasının yerli (avtoxton) uti tayfası Sevan (Göyçə) gölü və Araz çayı arasında, Kür çayı və Arsax arasında, Tərtər və Kür çaylarının aşağı hissəsində və indiki Şəki rayonu ərazisində məskunlaşmışdılar.

Onu da qeyd etmək lazımdır ki, bir sıra «tədqiqatçılar», «mütəxəssislər» antik, ilk orta əsr yazılı qaynaqlarını saxtalaşdıraraq və tarixi həqiqətə məhəl qoymayaraq, ondan yan keçərək, tarixi faktları və tədqiqatları öz süzgəclərindən təhrif olunmuş şəkildə keçirərək utiləri «kutilər», «skif xalqı udiləri», «uzurlar», «udlar», «utilər» «albandır» ifadələrilə indiki Azərbaycan Respublikasının Qəbələ rayonunun (keçmiş Qutqaşen) Nic kəndində, qismən Mirzəbəyli kəndində, habelə Oğuzda (keçmiş Vartaşen), Gürcüstan Respublikasının ərazisində, keçmiş Zinobiani, (indiki Oktemberi) kəndində yaşayan indiki udinlərlə eyniləşdirərək, heç bir fərq qoymadan onların nəslindən olduğunu səhv və yanlış olaraq iddia edirlər (234a, s.14-21 23-24, 26-27, 79; 245a, s.14, 15, 251; 241, s.3, 45, 46, 50, 52, 53). Bu mütəxəssislər elmə zidd, yanlış, səhv fikirlər yürüdürdülər. Onlar udin dili əsasında 52 hərfdən ibarət əlifba yaradılmasını, alban kilsəsinin qədim dilinin udi dili olmasını, alban dilinin qədim udi dili əsasında yaradılmasını, albanların etnos kimi mövcud olmamasını iddia edirlər. Bu «tədqiqatçılar» yazılı qaynaqlardakı faktları saxtalaşdıraraq heç bir əsas olmadan qədim albanları qədim utilərlə, digər tərəfdən isə indiki udinlərlə qədim utiləri, o biri tərəfdən isə alban və arran dillərini indiki udin dili ilə eyniləşdirirlər (234 a, s. 14-21 23-24, 26-27, 79, 245a, 14, 15, 251, 241 s. 3, 45-46, 50, 52, 53,). Bəzi tədqiqatçılar antik və ilk orta əsr tarixi yazılı qaynaqları saxtalaşdıraraq və öz süzgəclərindən keçirərək, tarixi həqiqətdən uzaqlaşaraq «utiqur», «utidors»

tayfalarını qafqaz mənşəli udinlərlə, bir tərəfdən də utiləri udinlərlə, o biri tərəfdən də udinlərlə albanları eyniləşdirirlər. Onlar heç bir əsas olmadan hətta alban dilini, qarqar dilini udi dili ilə eyniləşdirirlər, alban və qarqar dilinin udi dili olduğunu iddia edirlər (304 a, s. 343-351).

Bir sıra tədqiqatçılar isə haqlı olaraq yazılı qaynaqlardakı faktları əsassız olaraq saxtalaşdırıb, heç bir əsas olmadan qədim alban etnoslarını, qədim utilərlə, digər tərəfdən isə indiki udinlərlə qədim uti etnosları ilə, o biri tərəfdən isə alban dilini qarqar dililə, arran dilini udin dili ilə eyniləşdirənlərə qarşı çıxaraq, onları tutarlı faktlarla, dəlillərlə tənqid edir, onların fikrinin səhv, yanlış olduğunu göstərir və araşdırırlar (304 a, 343-351). Biz də öz növbəmizdə bu tədqiqatçıların fikri ilə tam razılaşır və onları dəstəkləyirik. Biz də bu fikirdəyik ki, uti etnosu və indiki udinlər arasında, eyni zamanda türkmənşəli utilərlə indiki qafqaz mənşəli udinlər arasında heç bir əlaqə yoxdur.

Digər bir tədqiqatçı Q.A.Qeybullayev isə antik və ilk orta əsr yazılı qaynaqlarını müqayisəli təhlil edərək utilərin Atropatena və Albaniyanın müxtəlif yerlərində məskunlaşdığını qeyd edərək, bu tayfaları mənsubiyyət və dil cəhətdən iki hissəyə bölür. Onların bir hissəsinin dil cəhətdən qafqaz mənşəli, digər hissəsini türkmənşəli hesab edir (217 b, s. 142-151). O, qafqaz mənşəli uti tayfalarını isə öz növbəsində indiki Azərbaycan Respublikasının Qəbələ rayonunun (keçmiş Qutqaşen) Nic kəndində, qismən Mirzəbəyli kəndində, habelə Oğuzda (keçmiş Vartaşendə), Gürcüstan Respublikasının ərazisində keçmiş Zinobiani (indiki Oktemberi) kəndində yaşayan udinlərin əcdadı hesab edir (217 b, s. 142-151). İndiki Azərbaycan və Gürcüstanda yaşayan udinlərin utilərin nəslindən olduğunu vaxtilə K.V.Trever və A.Q.Şanidze də öz əsərlərində qeyd etmişlər (451, s.47, 469, s.59).

Onu da qeyd etmək lazımdır ki, utilər tayfasının öyrənilməsi tarixi 165 ildən artıq olmasına baxmayaraq, hələ də hər şey aydınlaşmamış, müəyyənləşməmiş, həll olunmamışdır. Xüsusilə onların hansı dil qrupuna mənsub olması məsələsi mübahisəli olaraq qalmaqdadır. O ki qaldı müasir Azərbaycan və Gürcüstan dövlətlərinin ərazisində hal-hazırda yaşayan udinlərə, bizcə, onlar çox ehtimal ki, dil cəhətdən qafqaz mənşəli qeyri-

müəyyən, məlum olmayan tayfalarından birinin qalıqlarıdır, onlar Albaniya dövlətinin 705-ci ildə süqutundan sonra indiki udin adını qəbul etmiş və özlərini udin adlandırmışlar.

Qafqaz Albaniyasının ənənəyə görə ən qədim yerli (avtoxton) tayfalarından biri də kaspilər idi. Bu tayfalar haqqında bizə ilkin orta əsr yazılı qaynaqları da məlumat verirlər. İlkin orta əsr yazılı qaynaqları Favstos Buzandasi və Ananiya Şirakasi kaspi tayfaları haqqında məlumat verirlər (87, k.V, fəs. 14; 11, s.6). İlkin orta əsr yazılı qaynağı Favstos Buzandasi Albaniyanın Kür və Araz çaylarının aşağı qovşağında yerləşən torpaqları kaspilərin yerləşdiyi yer və ərazisi adlandırır (87, k.V, fəs. 14; 342, s.59), digər tərəfdən bu torpaqlarda «pars (fars)»ların yaşadıqlarını göstərir. Bu kaspilərdə, antik yazılı qaynaqlarda əks olunan kaspi tayfalarının nəslindən olanları görmək lazımdır (54, k.XI, fəs. 4, 5; 342a, 185). İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasinin məlumatından aydın olur ki, kaspi tayfaları Araz çayının cənub-şərq hissəsindəki mənsəbində olan ərazidə yerləşmişdilər (11, s.6; 342, s.59).

O ki qaldı «parslara» – buna nəzər-diqqət yetirən tədqiqatçı S.T.Yeremyan, Strabon (54, k.XI, fəs.7; 342a, 185) tərəfindən qeyd edilən bu tayfaların qədim farslar olduğunu iddia edir (28, s.220). Kaspi tayfaları haqqında bizə eyni zamanda IV əsr yunan-bizans qaynaqlarında məlumat verirlər (45, s.222, 270, 272, 321).

Bir sıra tədqiqatçılar kaspi tayfalarının lokallaşdıqları yerlər məsələsinə də öz əsərlərində toxunmuşlar. Y.A.Paxomov öz tədqiqatında kaspi tayfalarının Kür və Araz çayları arasında məskunlaşdıqlarını qeyd edir (409, s.17). «SSRİ tarixinin oçerkləri»nin müəlliflərinin (402, s.224), S.T.Yeremyanın (268, I hissə, s.208; 403, s.303) və İ.Q.Əliyevin (131, s.106) fikirlərinə görə kaspi tayfaları indiki Talış ərazisində, Mil-Muğan-Qarabağ zonasının ərazisində məskunlaşmışdılar. Digər tədqiqatçı K.V.Trever isə kaspi tayfalarının Kür çayının aşağı və sol sahillərində məskunlaşdığını qeyd edir (451, s.45). S.V.Yuşkovun fikrincə isə kaspi tayfaları Kür çayının cənubunda Kaspi dənizi sahilində məskunlaşmışdılar (487, s.131). Digər tədqiqatçı K.Q.Əliyev isə kaspi tayfalarını Kür və Araz çaylarının qovşağının cənubunda yerləşdiklərini qeyd edir (127, s.16). Kaspi tayfalarının

dil mənsubiyyəti məsələsinə də bir sıra tədqiqatçılar öz əsərlərində toxunmuşlar.

İ.Q.Əliyevin fikrincə, kaspi tayfaları Midiya, Albaniya və başqa yerlərdə yaşayırdılar, dil cəhətcə iran dil qrupuna daxil deyildilər. Tədqiqatçı onların «Kaspi» ailə qrupuna daxil olduğunu göstərir (161, s.79, 106). Bu məsələyə toxunan KQ.Əliyev kaspi tayfalarını dil cəhətcə kassit-elam qrupuna aid edir və eyni zamanda göstərir ki, kaspilər Ön Asiya xalqlarına dil cəhətdən qohum idilər(127, s.16).

Digər tədqiqatçılar, o cümlədən ümumiləşdirilmiş «Dağıstan tarixi»nin müəllifləri isə onların Dağıstan tayfalarına aid olduğunu iddia edirlər(293, c.I, s.103).

Bəzi tədqiqatçılar isə yazılı qaynaqlara və toponimik materiallara əsaslanaraq kaspi tayfalarının dil cəhətdən türk mənşəli tayfalara yaxın olmasını ehtimal edirlər (217b, s.191-193). Biz də bu fikirlə tam şərik olduğumuzu qeyd edirik.

Bir sıra tədqiqatçılar kaspi tayfalarının hansı antropoloji tipə mənsub olması məsələsinə də dolayısı ilə toxunmuşlar. Görkəmli Azərbaycan antropoloqu R.B.Qasımova uzun, gərgin axtarışlarına əsaslanaraq, gəlmə antropoloji tiplərin təsirinə məruz qalmayan, dəyişməyən qədim Azərbaycan xalqının əsasını təşkil edən yerli antropoloji tip – yəni «kaspi» antropoloji tipin qədim Azərbaycanda olduğunu sübut etmişdir (305a, s.14, 43, s.47). R.B.Qasımova qədim və müasir Azərbaycan xalqının əsasını təşkil edən «kaspi» antropoloji tipini Qafqazın, Zaqafqaziyanın şimal-şərqində yerləşən eneolit dövrünə aid paleoantropoloji qalıqlarla müəyyən etmişdir (305a. s.14 ,43, 47). Beləliklə, yuxarıdakı antropoloji materiallar bizə bunu deməyə imkan verir ki, qədim Albaniyanın digər yerli tayfaları kimi, avtoxton kaspi tayfaları da, çox ehtimal ki, «kaspi» antropoloji tipə məxsus olmuşlar.

Beləliklə, yuxarıdakı araşdırmalar, tədqiqatlar bizə imkan verir ehtimal edək ki, kaspi tayfaları dil və mənşəcə türk ailə qrupuna daxil olmuş, antropoloji cəhətdən «kaspi» antropoloji tipinə mənsub olmuş, yerli (avtoxton) Albaniya dövlətinin ərazisində yaşayan tayfalarından biri olmuşdur.

Yuxarıdakı ilkin orta əsr yazılı qaynaqların məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, kaspi tay-

faları Araz çayının cənub-şərq hissəsində, Kür və Araz çayı arasında, Kür çayının aşağı hissəsində, Muğan düzü zonasında məskunlaşmışlar.

Qafqaz Albaniyasının ilkin orta əsrlər dövrünün tayfalarından biri də çilblər idi. Qədim yunan yazılı qaynaqlarında bu tayfalar silvlər adlanır (451, s.47, 127, s.17). Çilblər (silvlər) haqqında ilk orta əsr yazılı qaynaqları Favstos Buzandasi, Yeqişe, Aqafanqel, Ananiya Şirakasi məlumat verirlər (87, k.III, fəsil 7; 68, fəs.IV, VIII; 1 .1 , s.6; 342, 59; 451, s.47). İlkin orta əsr alban yazılı qaynağı M.Kalankaytuklu da çilblər tayfası haqqında bizə məlumat verir (79, k.II, fəs.10). Bir sıra tədqiqatçılar öz əsərlərində çilblərin (silvlər) məskunlaşdıqları yerlər məsələsinə toxunmuşdular. M.Barxudaryan çilblərin Dəvəçi çayı və Quba kəndi arasında vaxtilə məskunlaşdığını göstərir (517,s.76). Digər araşdırıcı A.Yanovski çilbləri Alazan vadisində yerləşdirir (503, s.164). K.V.Trever isə çilbləri Dağıstan ərazisində Andiy Koysusunun yuxarı hissəsində məskunlaşdırmışdır (451, s.192). Tədqiqatçı S.T.Yeremyanın fikrinə görə, çilblər Böyük Qafqaz dağlarının cənub ətəklərində yaşayırdılar. (275, s.148, 270, xəritə–V-VII əsrlər). K.Q.Əliyev öz tədqiqatında göstərir ki, çilblər Samur çayının cənubunda yaşayırdılar (127, s.17). Digər tədqiqatçı T.Q.Papuaşvili isə çilblərin Böyük Qafqaz dağlarının cənub ətəklərində və Alazan çayının yuxarı axarında yerləşdiyini qeyd edir (417, s.8). Tədqiqatçı Q.A.Qeybullayev toponimik və digər materiallara əsaslanaraq çilblərin (silvləri) mənşəcə qafqaz dil qrupuna daxil olduğunu qeyd edir (217, s.154-155).

Beləliklə, yuxarıdakı yazılı qaynaqların məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, çilblər (silvlər) Böyük Qafqaz dağlarının cənub ətəklərində, Alazan çayının yuxarı axarında, Samur çayının cənubunda, Andiy Koysusunun yuxarı hissəsində yaşayırmışlar və onlar mənşəcə qafqaz dil qrupuna daxil idilər.

Qafqaz Albaniyasının ən qədim tayfalarından biri də lipinlər (yunanca lupenlər) idi. Bu etnik qrup haqqında bizə ilk orta əsr yazılı qaynaqları məlumat saxlamışlar. Onlar haqqında ilkin orta əsr yazılı qaynaqları Aqafanqel, Yeqişe və alban tarixçisi M.Kalankaytuklu məlumat verirlər (68, f.I, II, IV, VII, 79, k-II,

f.23, 342; s.58; 451, s.48). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumata görə lipinlər Dağıstanın dağlıq hissəsində silvlərlə (çilblər) qonşuluqda yaşayırdılar (79, k-II, f.23).

Bir sıra tədqiqatçılar öz əsərlərində lipinlərin məskunlaşdığı yerlər məsələsinə toxunmuşdur. S.V.Yusikov lipinlərin Samur çayının yuxarı axarında və mərkəzi hissələrində məskunlaşdığını qeyd edir (487, s. 138-139). A.M.Barxudaryan isə lipinləri Dəvəçi və Sumqayıt çayları arasında yerləşdiyini qeyd edir (519, s.145).

S.T.Yeremyan lipinləri alban etnonimi ilə eyniləşdirərək, onları yanlış, səhv olaraq alban adalandırır (275, s.148-149, 270 karta V-VII əsrlər). S.T.Yeremyan lipinləri Qafqaz dağlarının cənub ətəklərində Alazan çayının vadisində qərar tutduqlarını qeyd edir (275, s.149). Digər tədqiqatçı K.V.Trever haqlı olaraq S.T.Yeremyanın lipin etnoniminin alban etnonimi ilə eyniləşdirilməsi əleyhinə çıxararaq, onunla razılaşmadığını qeyd edir (451, s.48). K.Q.Əliyev öz tədqiqatında lipinləri Böyük Qafqaz dağlarının ətəklərinin qabaq hissəsində, Alazan çayı vadisində və onun şərq hissəsində yaşadıqlarını göstərir (127, s.18). Digər tədqiqatçı T.Q.Papuaşvili isə lipin-ləri Böyük Qafqaz dağlarının yuxarı axarında yaşadıqlarını qeyd edir (417, s.8). Onların mənşə məsələsinə toxunan Q.A.Qeybullayev toponomik dəlillərə əsaslanaraq, lipinləri mənşəcə qafqaz dil qrupuna aid olduğunu göstərir (127b, s.151-154).

Beləliklə, ilk orta əsr yazılı qaynaqların məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, lipinlər Böyük Qafqaz dağlarının cənub ətəklərində və Alazan çayının yuxarı axarındakı hissələrdə yaşayırdılar.

Qafqaz Albaniyasının ən qədim yerli (avtoxton) tayfalarından biri də qarqarlardır. Bu yerli qədim tayfa haqqında bizə ilkin orta əsr yazılı qaynaqları M.Xorenasi, Asoqik, Vardan və alban tarixçisi M.Kalankaytuklu məlumat verirlər (76, k.II, fəs. 8; 84, k.I, fəs.2;73, s. 39;79, k.I, fəs.27,k.II, fəs.21;342, s.59). Qarqar tayfaları haqqında bizə eyni zamanda antik yazılı qaynağı Strabon da məlumat verir (54, k.I, fəs.5;45, s.244, 317). İlkin orta əsr yazılı qaynaqlarının məlumatlarına görə qarqarlar tayfası albanların mifik əcdadı olan Aran nəslindən olanlardan biridir (76, k. II, fəs. 8; 79, k.I, fəs.4).

İlkin orta əsr yazılı qaynaqları qarqar tayfalarının lokallaşması məsələsinə də öz əsərlərində toxunmuşlar. İlkin orta əsr yazılı qaynağı M.Xorenasi qədim qarqar tayfaları və onların yerləşdiyi yer haqqında məlumatla bərabər, qarqar etnosunun dili haqqında da bizə məlumat verərək yazır «…çoxlu boğaz səsləri ilə zəngin idi..» (76, k.III, fəs.54). İlkin orta əsr erməni tarixçisi M.Xorenasi qeyd edir ki, qarqar tayfaları Qarqar düzündə (indiki Dağlıq Qarabağda), Kür çayının cənubunda və Qarqar çayı hövzəsində yaşayırdılar (76, k.II ql. 85).

Qafqaz Albaniyasının ən qədim yerli tayfalarından biri olan qarqarların məskunlaşdıqları yerlər məsələsinə bir sıra tədqiqatçılar öz əsərlərində toxunmuşlar.

Tədqiqatçı K.V.Trever yazılı qaynaqları araşdırarkən qarqarlar tayfasının Qafqaz Albaniyasının ən qədim yerli tayfalarından biri olduğunu qeyd edərək, onları indiki Qarabağın düzən hissələrində yerləşdirir (451, s.48-49). Digər tədqiqatçı K.Q.Əliyev qarqar tayfalarının Kür çayının cənubunda və Qarqar çayı hövzəsində məskunlaşdığını göstərir (127, s.17). S.T.Yeremyan onların Qarqar düzündə – indiki Mil düzündə məskunlaşdığını göstərir (403, c.I, s.303). Q.A.Qeybullayev isə Kür çayının aşağısında, Arsaxda, Şimal-Şərqi Albaniyada və Şimal-Qərbi Albaniyada – indiki Qəbələ (keçmiş Qutqaşen) rayonunun ərazisində məskunlaşdığını qeyd edir (217b, s.80).

Bir sıra tədqiqatçılar tarixi faktları və yazılı qaynaqları bir daha saxtalaşdıraraq qarqar tayfalarının dil cəhətcə İber-Qafqaz dil qrupuna aid olduqlarını iddia edirlər (469, s.174; 485, s.25; 207, s.154). Onu da qeyd etmək lazımdır ki, elmdə belə bir düzgün fikir də mövcuddur ki, qarqar tayfaları dilcə İber-Qafqaz dil qrupuna daxil olmamışlar. Bir sıra tədqiqatçılar ilkin orta əsr yazılı qaynaqların məlumatlarına, əsasən toponimik və digər qiymətli məlumatlara əsaslanaraq, düzgün, haqlı olaraq qarqar tayfalarının dil cəhətcə türk dil qrupuna aid olduğunu əsaslandırırlar (129, s.58-59; 217, s.115, 116; 217a, s.29-30; 548a, 115-116; 304a, s.358-359). Biz də yuxarıdakı bu fikirlərlə tam şərik olduğumuzu bildirir, onlarla razılaşır və bu fikrə haqq qazandırırıq (342a, s.37).

Beləliklə, ilkin orta əsr yazılı qaynaqların məlumatlarının və tədqiqatçılarının əsərlərinin araşdırılması göstərir ki, qədim yerli qarqar tayfaları Qarqar düzündə (indiki Dağlıq Qarabağda), Kür çayının cənubunda, Qarqar çayı hövzəsində, Şimal-Qərbi Albaniyada–indiki Qəbələ rayonu ərazisində məskunlaşıb yaşayırdılar.

Qafqaz Albaniyasında məskunlaşmış tayfalardan biri də leqlərdir. Bu tayfa haqqında ilkin orta əsr yazılı qaynağı Ananiya Şirakasi məlumat verir (11, s.6). Ananiya Şirakasi başqa tayfalarla birlikdə leqlərin Sarmatiyada yaşadıqlarını göstərir (11, s.6). Leqlər tayfası haqqında ilkin orta əsr yazılı qaynağı M.Xorenasi də məlumat verir (76, k.III, fəs. 37, 38). Albaniyada məskunlaşan leqlər tayfası haqqında qədim gürcü yazılı qaynaqları da məlumat verərək onları «Lekos» və ya «Lekan» adlandırırlar (18, s.9; 50, s. 21).

Qədim gürcü yazılı qaynaqları leqlər tayfasının «Dərbənd (Kaspi) dənizinədək Lomeni (Terek) çayına və böyük xəzərlərin çayı (Volqaya) qədər olan» ərazidə yerləşdiyini qeyd edirlər (18, s.9; 50, s.21).

Yazılı qaynaqlara əsaslanaraq bir sıra tədqiqatçılar Albaniyada yaşayan leqlər tayfasının məskunlaşması məsələsinə toxunmuşlar.

Tədqiqatçı A.Yanovski leqlərin albanlardan şimala doğru – Qafqaz dağlarında yerləşdiyini qeyd edir (503, s.196). Digər tədqiqatçı P.K.Uslar isə leqləri müasir ləzgilər (453, s.539-540) və həmçinin indiki laklar ilə eyniləşdirir (453, s.43). Digər tədqiqatçı Q.Xalatyan isə belə hesab edir ki, kazıkumuklar – «özlərini indi laklar» adlandıranlar leqlərin nəslindəndir (456, s.264). İ.Q.Əliyev də həmçinin leqləri laklarla eyniləşdirərək (131, s.104-105), eyni zamanda onların irandilli olmadığını qeyd edir (131, s.102-103). Görkəmli albanşünas alim Z.İ.Yampolski öz növbəsində kadisilərin leqlər adlandırıldığını göstərir (497, s.105).

N.Y.Marr isə leqlər tayfasını mıüasir ləzgilər ilə eyniləşdirir (359, s.35). Q.B.Yuşkov leqlər tayfasını Dərbənddən cənuba doğru, Samur çayı boyunca yerləşdirir (487, s.145). S.T.Yeremyan da həmçinin leqlər tayfasını müasir ləzgilərlə eyniləşdirərək, onları Samur çayı vadisində yerləşdirir (268, s.208). K.V.Trever

leqlər tayfasının utilərdən, albanlardan şimalda – «Samur çayının hövzəsinin dağlıq hissəsində» məskunlaşdığını qeyd edir (451, s.47). K.Q.Əliyev isə leqlər tayfasını «Cənubi Dağıstanda Samur çayından cənubda» olan ərazidə yerləşdirir (127, s. 16).

Dağıstanın tədqiqatçısı M.İ.İxilov isə leqlər tayfasını müasir «Kudyal və Samur çayları vadisində» yerləşdirir (294, s.68-106). «SSRİ tarixi oçerkləri»nin müəllifləri leqlər tayfasını müasir ləzgilər ilə eyniləşdirir və onların Böyük Qafqaz dağlarının ətəklərində yaşadıqlarını qeyd edirlər (402, c.I, s.225).

Beləliklə, ilkin orta əsr yazılı qaynaqların və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, leqlər müasir ləzgilərin, lakların əcdadlarıdırlar. Onlar Samur və Qudyal çayları hövzəsinin dağlıq hissəsində məskunlaşıb yaşayırdılar.

İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasi, digər tayfalarla bərabər, qellər tayfası haqqında da məlumat verərək, onları, eyni zamanda, «dellər» adlandırır (11, s.6; 342, s.60). İlkin orta əsr erməni coğrafiyaçıları qelləri cənub-şərqdə Kaspi dənizinədək Araz çayına qədərki ərazidə yerləşdirir (11, s.6; 342, s.60). Digər ilkin orta əsr yazılı qaynağı M.Xorenasi həmçinin qellər tayfası haqqında məlumat verir (76, k.II, fəs. 12).

Qellər haqqında bu məlumatları qeyd edərkən onu da ehtimal etmək olar ki, onlar «talların» və indiki talışların əcdadı olmuşlar.

Bir sıra tədqiqatçılar yazılı qaynaqlara əsaslanaraq qellər tayfasının lokallaşdırma məsələsinə toxunmuşlar. Tədqiqatçı K.V.Treverin fikrincə, qellər tayfası albanlardan şimalda, eyni zamanda «Kaspinin cənub-qərbində» (Qilyan vilayətində) yaşayırdılar (451, s.47). İ.Q.Əliyev də öz növbəsində onları Kaspi dənizinin cənub-qərb sahilində lokallaşdırır (131, s.104). K.Q.Əliyev qellər tayfasını Dağıstanın cənubunda Qudyal çayı ərazisində yerləşdirir (127, s.17). Z.İ.Yampolski isə qellər və kadusilər etnonimlərinin eynilik təşkil etdiyini qeyd edir (497, s.105).

Beləliklə, ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, qellər tayfası indiki talışların əcdadı olub, Kaspi dənizinin cənub-qərbində yaşayırdılar və iran dili qrupuna daxil idilər.

Albaniyanın ən qədim yerli (avtoxton) tayfalarından biri də savdeylər idi. Albaniyada yaşayan bu etnos haqqında bizə ilkin orta əsr yazılı qaynaqları M.Xorenasi, Asoqik, Vardan və alban tarixçisi M.Kalankaytuklu məlumat verirlər (76, k. II, fəs. 8; 84, k.I, fəs.2, 73, s.39; 79, k. I, fəs.27, 28, k.II, fəs. 21, 342, s.59). İlkin orta əsr yazılı qaynağı Yeqişe də savdeylər tayfası haqqında bizə məlumat verir (68, fəs.II). M.Xorenasi və alban tarixçisi M.Kalankaytuklu savdeylər tayfasının albanların mifik əcdadı olan Aran hakiminin nəslindən olduğunu qeyd edirlər (76, k.II, fəs. 8; 79, k. I fəs. 4). Albaniyada yaşayan bu yerli etnosun lokallaşdırılması məsələsinə gürcü alimi T.Q.Papuaşvili öz əsərində toxunaraq İori çayının orta hövzəsində yerləşdirir və onları eyni zamanda sodcey adlandırır (477, s-8). Q.A.Qeybullayev toponimik materiallara əsaslanaraq savdey tayfalarını türkmənşəli etnos adlandırır (217, 123-124). Biz də bu fikirlə tam razılaşır və onu dəstəkləyirik.

İlkin orta əsr yazılı qaynaqları Albaniyada məskunlaşan yerli qardman tayfası haqqında bizə məlumat verirlər. Albaniya dövlətinin ərazisində yaşayan bu qədim yerli qardman tayfası haqqında ilkin orta əsr yazılı qaynaqları – M.Xorenasi, Asoqik, Vardan və alban tarixçisi M.Kalankaytuklu məlumat verir (76, II, fəs.8, 84, k.I, fəs.2; 73, s.39; 79, k.I, fəs.27, 28, k.II, fəç.21,342, s.59). İlkin orta əsr yazılı qaynaqları – M.Xorenasi, Asoqik, Vardan və alban tarixçisi M.Kalankaytuklu öz əsərlərində qardman tayfasının Aran nəslindən olduğunu göstərirlər (76, k.II, fəs.8; 84, k.I, fəs.2, 73, s.39, 79, k.I, fəs.4, 27, 28). Bu məlumatın özündən bir daha aydın olur ki, qardman tayfası başlanğıcından Albaniyanın avtoxton–yerli tayfası olmuşdur. İlkin orta əsr yazılı qaynaqları Yeqişe, Favstos Buzandasi, L.Parpesi Qafqazda daha on bir dağlı tayfanın yaşadığını (68, fəs.X, 87,k.III, fəs.7, 74, s.66, 342,s.60) və onların on bir şahlara malik olduğunu qeyd edirlər (87, k.III, fəs, 7, 68, fəs.10).

İlkin orta əsr yazılı qaynaqları Favstos Buzandasi (87, k.III, fəs.7) və Yeqişe (68, fəs.IV) Qafqazın və Albaniyanın ərazisində bir sıra digər etnik qrupların, o cümlədən tavasparların, xeçmatakların, iymaxların, qluarların, qatların, quqarların, şiçbilərin, balasiçilərin, yeqerevanların və digər köçəri tayfaların adlarını

qeyd edirlər. İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasi də, həmçinin yuxarıda qeyd edilən etnoslardan bəziləri – şiçblər, tavasparlar, xeçmataklar haqqında bizə məlumat verir (11, s.6; 342, s.59). Görkəmli albanşünas alim K.V.Trever bu etnonimlərin bəzilərinin dil mənsubiyyətinə öz əsərlərində toxunmuşdur. K.V.Trever öz əsərində belə hesab edir ki, tavasparlar, xeçmataklar, quqarlar, qatlar qafqaz mənşəli etnoslardır (451, s.192) Digər bir tədqiqatçı Q.A.Qeybullayev toponimik məlumatlara əsaslanaraq qatları müasir xınalıqların əcdadı hesab edir (217b, s. 156-158). Bundan əlavə elmdə belə bir fikir də vardır ki, iymaxlar tayfası türk dil qrupuna daxil idilər (129, s.59-60; 217, s.116; 217a, s. 29; 217b, s.117-118). Bu fikirlə biz də şərik olduğumuzu bildiririk. K.V.Trever tavasparları Dağıstanın cənubunda, Samur çayının aşağı axarında, sol sahildə lokallaşdırır (451, s.192). Digər etnonim – balasiçiləri isə K.V.Trever «Araz və Kür çaylarının sağ sahilindən aşağıda yerləşdirir» (451, s.192). K.V.Treverin fikrincə, xeçmataklar tayfası Samur çayından yuxarıda yaşayırdı (451, s.192).

Beləliklə, ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, tavasparlar Samur çayının aşağı axarında, sol sahilində yaşayırdılar, balasiçi tayfaları isə Araz və Kür çayının aşağı hissəsində, digər tayfalar – xeçmataklar isə Samur çayının yuxarı hissəsində yaşayırdılar.

Qafqaz Albaniyasının ərazisində ilkin orta əsrlər dövründə yaşayan tayfalardan biri də maskutlar idi. Maskutlar tayfası haqqında ilkin orta əsr yazılı qaynaqları Aqafangel, Favstos Buzandasi və Ananiya Şirakasi məlumat verirlər (65, s.153; 87, k.III, fəs.7; 11, s.6; 451,s.193). İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasi maskutları Kaspi dənizinin şimal-qərb hissəsində yerləşdirərək onlar haqqında belə yazır: «Verkan dənizi (Kaspi dənizi–*T.M.*) şimal-qərbdə Maskut ölkəsi ilə həmsərhəd idi» (11, s.6).

Maskut tayfaları haqqında ərəb coğrafiyaşünasları da məlumat verirlər (24, s.17). Onlar maskutları Dərbəndin arxasında lokallaşdırırlar (24, s. 17). Maskut tayfası haqqında, eyni zamanda, ilkin orta əsr alban yazılı qaynağının müəllifi, alban ta-

rixçisi M.Kalankaytuklu da məlumat verir (79, k.I, fəs.14). Alban tarixçisi maskut tayfalarının Albaniya ərazisində yerləşən Haband vilayətində məskunlaşdıqlarını qeyd edir (79, k.I, fəs.14). İlkin orta əsr yazılı qaynağı Aqafangel maskut tayfalarını Quqark və Qoqaren (yunanca), İndiki Axalkalaki və Borçalı rayonlarının ərazisində yerləşdiyini qeyd edir (65, s.153).

Maskut tayfalarının Qafqaz Albaniyasının ərazisində lokallaşdırılması məsələsinə bir sıra tədqiqatçılar da öz əsərlərində toxunmuşlar. M.Barxudaryan maskutların Dərbənd ilə Kaspi dənizi arasındakı ərazidə və Kiçik Qafqaz dağlarının ətəklərində lokallaşdıqlarını qeyd edir (517, s.77). S.T.Yeremyan maskutları Kaspi dənizinin sahilində, Albaniyanın şimal hüdudlarına qədər yerlərdə məskunlaşdığını göstərir (268, s.208). Digər tədqiqatçı K.V.Trever isə bu haqda belə yazır: «Maskutlar Kaspi dənizinin şimal-qərb sahilində, Samur çayının cənuba doğru mənsəbində, V əsrdə Çor-Çol adlanan ərazidə yaşayırdılar» (451, s.122).

Bir sıra tədqiqatçılar maskut tayfalarının dil və mənşəcə iran dili qrupuna daxil olduğunu iddia edirlər. Lakin elmdə belə bir fikir də mövcuddur ki, maskut tayfaları içərisində dil cəhətdən türk dili qrupuna daxil olan tayfalar da mövcud idi (217, s.108; 212, s.61-64; 129, s.49-50; 119b, s.183-186; 217a, s.98-99; 217b, s.173-178). Biz də bu fikirlə tam həmfikir olduğumuzu bildirir və bu fikri dəstəkləyirik.

Beləliklə, ilkin orta əsr yazılı qaynaqların məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, maskutlar Qafqaz Albaniyasının Haband vilayətində, Kaspi dənizinin şimal-qərbində, Samur çayının cənuba doğru mənsəbində yaşayırdılar.

Albaniya ərazisində məskunlaşan tayfalardan biri də saklar tayfasıdır. İlkin orta əsr yazılı qaynaqları həmçinin saklar tayfası haqqında da bizə məlumat verirlər. İlkin orta əsr yazılı qaynağı, alban tarixçisi M.Kalankaytuklu alban vilayətləri içərisində Şakaşen (yunan mənbələrində Sakasena) vilayətinin olduğunu qeyd edir (79, k.II, fəs.2). İlkin orta əsr erməni coğrafiyaçısı Ananiya Şirakasi həmçinin öz əsərlərində Albaniyada Şakaşena vilayətinin olduğunu qeyd edir (11, s.45, 51). İlk orta

əsr yazılı qaynağı Ananiya Şirakasi eyni zamanda, Şakaşena vilayətinin Kür çayı və Arsax vilayəti arasında yerləşdiyini və Uti nahiyəsinin tərkibində olduğunu qeyd edir (11, s.51).

Bir sıra tədqiqatçılar Sakasena vilayətinə və saklar tayfasının Albaniya ərazisində lokallaşdırılması məsələsinə öz tədqiqatlarında toxunmuşlar. Tədqiqatçı İ.Markvart Sakasena vilayətinin Uti nahiyəsinin tərkibində olduğunu qeyd edir (101, s.121). Digər tədqiqatçı K.V.Trever isə Şakaşena vilayətinin Kür çayının sağ sahilində, İori və Alazan çaylarının ona töküldüyü ərazidə yerləşdiyini qeyd edir (451, s.49). «SSRİ tarixi»nin müəllifləri isə saklar tayfasının Kür çayının sol sahilində, Şəki, Gəncə ərazisi hissəsində yerləşdiyini qeyd edirlər (268, s.225). «SSRİ tarixi oçerkləri»nin müəllifləri də Sakasenanı Kür çayı vadisində, indiki Gəncə ərazisində lokallaşdırırlar (402, c.I, s.225). Digər bir tədqiqatçı K.Q.Əliyev həmçinin Sakasenanın indiki Gəncə şəhərinin ərazisində lokallaşdığını qeyd edir (127, s.17).

Bir çox tədqiqatçılar saklar tayfasının dil və mənşə məsələsinə də nəzər-diqqət yetirmişlər. Bir sıra tədqiqatçılar tarixi faktları, yazılı qaynaqları öz süzgəclərindən keçirərək, onları saxtalaşdıraraq, saklar tayfasını səhv və yanlış olaraq mənşəcə iran dili qrupuna daxil və aid olduğunu iddia edirlər (104a, s.121; 232b, s.3; 263a, s.15, 400a, 12, 439a, s.138). Lakin bundan başqa, elmdə digər bir fikir də mövcuddur ki, saklar tayfasının müəyyən hissəsi türkmənşəli olmuş, onlar türk ailə qrupuna daxildirlər (371a, s.117-136; 183a, s.89; 293a, s.40; 232a, s.103; 284a, s.171; 140a, s.63, 64; 259a, s.9; 451a, s.221; 230a, s.113, 217, 245; 217a, s.20-27; 217b, s.82-101; 140b, s.220, 320; 232b, s.79; 173a, s.33; 284a, s.51-72, 94, 113, 118-119, 149-150; 119b, s.166-183; 304a, s.322-333). Biz də yuxarıdakı tədqiqatçıların bu fikri ilə tam şərik olduğumuzu və onları dəstəklədiyimizi bildiririk.

Beləliklə, ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarının və tədqiqatçılarının əsərlərinin araşdırılması, tədqiqi göstərir ki, saklar tayfası Qafqaz Albaniyasının ərazisində, Kür çayının sol sahilində, indiki Şəki və Gəncə şəhərlərinin yerləşdikləri ərazidə yaşayırdı.

İlkin orta əsr yazılı qaynaqları Qafqaz Albaniyasında məskunlaşmış kəngərlər tayfası haqqında bizə məlumat verirlər.

İlkin orta əsr yazılı qaynağı, V əsr erməni tarixçisi Lazar Parpesi Zaqafqaziya xalqlarının yadelli işğalçılara – Sasani ordusuna qarşı mübarizəsindən bəhs edərkən kəngərlər tayfası haqqında bizə məlumat verir (74, s.132; 309, s.175). O, Kür çayının yaxınlığında, Ermənistan, Gürcüstan sərhədlərinə yaxın, indiki Naxçıvan, Cənubi Azərbaycan və onlara yaxın ərazilərdə kəngərlər tayfasının məskunlaşdığını qeyd edir, onların yaşadıqları ərazini «kəngərlər torpağı», orada yerləşən dağları isə «kəngərlər dağı» adlandırırdı (74, s.132; 309, s.175). İlkin orta əsr yazılı qaynağı Ananiya Şirakasi kəngərlər tayfasının Gürcüstanla (İberiya) Albaniya arasında məskunlaşdığını qeyd edir (11, s.51). Onlar haqqında, eyni zamanda, qədim suriya yazılı qaynağı da məlumat verərkən, kəngərlər tayfasının şimal tərəfdən Ermənistan və Gürcüstan arasında sərhəddə yerləşdiyini qeyd edir (424, c.5, s.77). Tədqiqatçı S.T.Klyaştornı kəngərlər tayfasını «Sevandan şimalda Albaniya ilə İberiya sərhədində» lokallaşdırır (309, s.175).

Bir sıra tədqiqatçılar kəngərlər tayfasını haqlı olaraq mənşəcə və dil cəhətdən türk xalqlarının dil qrupuna aid olduğunu qeyd edirlər (129, s.58-59; 486, s.77-78; 217, s.120-121; 217a, s.30-31; 217b, s.102-103). Biz də öz növbəmizdə bu fikirlə tam şərik və həmfikir olduğumuzu bildirir, bu nöqteyi-nəzəri dəstəkləyirik.

İlkin orta əsr yazılı qaynaqları – qədim erməni, qədim yunan-bizans, suriya, qədim gürcü və ərəb yazılı qaynaqları Qafqaz Albaniyası ərazisində III-VII əsrlərdə yaşamış, mənşəcə türk ailə qrupuna daxil olan, türk dili tipində danışan etnik birləşmələr haqqında bizə geniş məlumatlar saxlamışdır.

Qafqaz Albaniyasının etnik proseslərində ilkin orta əsrlər dövrü həlledici bir mərhələ olmuşdur. Bu onunla əlamətdardır və onunla xarakterizə olunur ki, Qafqaz Albaniyasına müxtəlif yeni türkmənşəli tayfaların ardıcıl halda gəlişi nəticəsində türk dil qrupuna daxil olan tayfaların sayı bu dövrdə daha da artmışdır və onlar ölkədə tam çoxluq təşkil etmişdilər.

Basillərin, xəzərlərin, hunların mənşə cəhətdən türk ailə qrupuna aid olmasını görkəmli tədqiqatçılar – İ.Markvart (101, s.56, 73, 96, 119), M.A.Artmanov (137, s.52-54; 57-20, 116, 124-

127, 124-148, 181-183), A.N.Qumilyov (248, s.15-24), B.F.Minorski (372, s.34-35; 114-115, 196), N.B.Piqulevski (423, s.78, 138, 150, 165-166; 421, s.109, 110, 114, 115), L.M.Melikset-Bek (360; s.709-713; 365, s.112, 118), N.A.Baskakov (178, s.235, 316, 320), A.B.Qadlo (210, s.26-30, 86-92, 133-136, 138-142), A.M.Dəmirçizadə (252, s.15, s.15, 48-58), T.İ.Hacıyev (209, s.34, 66-82) və başqaları tərəfindən araşdırılmış və sübuta yetirilmişdir.

İlkin orta əsr yazılı qaynaqları Qafqaz Albaniyası ərazisində hun tayfaları haqqında bizə məlumat verir. İlkin orta əsr yazılı qaynağı IV əsrin ikinci yarısında Qafqaz Albaniyasında hun tayfalarının olmasını qeydə almışdır (87, k.III, fəs.6, 7; 234, s.189). Qafqaz Albaniyası ərazisində hun tayfalarının olmasına dair daha bir sübut, Zaqafqaziya xalqlarının 450-ci ildə sasanilərə qarşı üsyanı zamanı hun tayfa birləşmələrinin üsyançılar ilə müttəfiq olmaları. Bu haqda ilk orta əsr yazılı qaynaqları– Lazar Parpesi, Yeqişe və alban tarixçisi M.Kalankaytuklu bizə məlumat vermişlər (74, k.II, fəs. 36; 68, fəs.III, VII; 79, k.II, fəs.2). İlkin orta əsr yazılı qaynaqları – Yeqişe və alban tarixçisi M.Kalankaytuklu (68, fəs.10; 79, k.II, fəs.10-11), V əsrin ikinci yarısında Alban şahı II Vaçenin sasanilərə qarşı üsyanı zamanı hun tayfalarının Albaniya ərazisində olduqlarını qeydə almışlar. Digər tərəfdən isə alban tarixçisi M.Kalankaytuklu VI əsrdə Hun tayfalarının Albaniyaya hücumunu öz əsərində qeydə almışdır (79, k.I, fəs.29, 30).

İlkin orta əsr yazılı qaynaqları – Lazar Parpesinin, Sebeosun, Gevondun, Asoqikin məlumatlarından bizə aydın olur ki, Albaniyanın ərazisində hun tayfaları yaşayırdılar (74, k.II, fəs.35; 81, kn.III, fəs.6, 36; 82, fəs. 7; 84,s. 96; 342, s.60). Sobeosa görə hun tayfaları Kaspi qapıları ərazisində yaşayırdılar (81, his.III, fəs. 36; 342, s.60). İlkin orta əsr yazılı qaynaqları – Gevond və Asoqikin məlumatlarına görə isə hun tayfaları Dərbənd və onun ətrafında yaşayırdı. Eyni zamanda, yazılı qaynaqların məlumatlarına görə hunlar burada ordu da saxlayırdılar (82, fəs.VIII; 84, s.95; 342, s.60). İlkin orta əsr yazılı qaynaqları Yeqişe və Sebeos Kaspi qapılarını «hun qapıları» adlandırırlar (68, fəs.III; 81, his.III, fəs. 36; № 342, s.60). Lakin Yeqişe və

M.Xorenasi, eyni zamanda, Kaspi qapılarını «alan qapıları da» adlandırırlar (68, fəs.7; 76, k.II, fəs. 86; 342, s.60). İlkin orta əsr yazılı qaynağı – Yeqişe Beşbarmaq Səddini «hunlara qarşı müdafiə» istehkamı da adlandırır (68, fəs.VII; 342, s.60). L.Parpesi bu müdafiə istehkamının divarlarını «…albanlar və hunlar arasında salınmış istehkam…» olduğunu qeyd edir (74, k.II, fəs.35; 342, s.60).

İlkin orta əsr yazılı qaynaqları – F.Buzandasi, L.Parpesi, Yeqişe, M.Xorenasi, A.Şirakasi və alban tarixçisi M.Kalankaytukluya görə hun tayfaları çox ehtimal ki, türk ailə qrupuna daxil olan tayfalardan biri idilər (87, k. III, fəs.7; 74, k.II, fəs.35; 68, fəs.7; 76, k.III, fəs.9; 11, s.16; 79, k.I, fəs. 12; 342, s.60). Bu məsələyə toxunan görkəmli tədqiqatçı, türkoloq M.Seyidov öz əsərlərində hun tayfalarını, haqlı olaraq, türk ailə qrupuna daxil olan tayfa hesab edir (434, s.205-216). İlkin orta əsr yazılı qaynağı – Yeqişe, «haylandurlar» tayfası haqqında bizə məlumat verir (68, fəs.1, 7, 10; 342, s.60). Tədqiqatçılar – İ.Markvart (101, s.96), Z.M.Bünyadov (185, s.180) öz növbəsində onları hun tayfaları ilə eyniləşdirirlər. Tədqiqatçı M.Seyidovun fikrincə, «haylandurlar» türkmənşəli tayfaların birliyinə daxil olan etnoslardan biri idi və onlar Zaqafqaziyaya IV-V əsrlərdə köçmüşlər (433, s.84-93).

İlkin orta əsrlərin digər yazılı qaynaqları kimi, bizans yazılı qaynaqları da Qafqaz Albaniyası ərazisində hun tayfalarını V əsrdə Muğanda və VI əsrdə isə Şakaşena vilayətində (indiki Gəncədə) qeydə almışlar (16, s.411-412; 418-420; 234, s.183; 185, s.179). Hun tayfalarının IV-VII əsrlərdə Albaniya ərazisində mövcud olmasını, eyni zamanda, qədim suriya yazılı qaynaqları da öz əsərlərində əks etdirirlər (426, s.86; 423, s.78, 138, 150, 166; 421, s.109-110, 114-115). Qafqaz Albaniyasının ərazisində, V-IX əsrlərdə hun tayfalarının mövcud olmasını qədim gürcü yazılı qaynaqları da öz əsərlərində qeyd edirlər (56, s.1, 5, 6, 51, s.21; 18 s.13; 360, s.709-711; 234, s.189).

Hun tayfalarının V-VII əsrlərdə Albaniya ərazisinə hücumları və həmlələri haqqında ilkin orta əsr yazılı qaynaqları qiymətli məlumatlar saxlamışdır. Bu haqda «Yadelli işğalçılara qarşı mübarizə» fəslində ətraflı və geniş bəhs olunur (bax: VII fəsil).

İlkin orta əsr yazılı qaynaqları müxtəlif formada hun tayfalarını Qafqaz Albaniyası ərazisində lokallaşdırır. İlkin orta əsr erməni coğrafiyaçısı Ananiya Şirakasi hun tayfalarını Dərbənd keçidindən şimala doğru ərazidə lokallaşdırır (11, s.16; bax: 406, s.31). Lakin qədim suriya yazılı qaynağı isə VI əsrdə hun tayfalarını Dərbəndin arxa hissəsində lokallaşdırır (423, s.165; 421, s.114).

Bir sıra tədqiqatçılar hun tayfalarının Albaniya ərazisində lokallaşdırma məsələsinə öz əsərlərində toxunaraq, müxtəlif fikirlər irəli sürmüşlər. Dağıstan tədqiqatçıları R.M.Maqomedov (325, s.34, 56), A.R.Şixsaidov (476, s.42) və «Dağıstan tarixinin oçerkləri»nin müəllifləri hun tayfalarını Dağıstanın şimal hissəsində və dəniz sahillərində yerləşdirirlər (401, c.I, s.30, 35). Dağıstan tədqiqatçılarının bu fikirlərini arxeoloqlar Dağıstanın Xəzərsahili hissəsindən əldə olunmuş maddi mədəniyyət qalıqlarıyla (401, c. I, s.30, 35; bax: 194, s.46-47), eyni zamanda toponimik və onomastik materiallarla təsdiq edirlər (476, s.43-44).

Bir sıra tədqiqatçılar–M.Melikset-Bek (360, s.710-711), M.A.Artmanov (136, s.54), R.A.Hüseynov (234, s.189-190), Z.M.Bünyadov (185, s.179) öz əsərlərində hun tayfalarının Kür və Araz çayları arasında yerləşdiklərini qeyd edirlər.

Beləliklə, ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, hun tayfaları indiki Dağıstanın şimal hissəsində, Dərbənd rayonu ərazisində, Kür və Araz çayları arasındakı ərazilərdə məskunlaşıb yaşayırdılar.

İlkin orta əsr yazılı qaynaqları II əsrdən başlayaraq VIII əsr daxil olmaqla Qafqaz Albaniyası ərazisinə tez-tez hücum edən basillər, xəzərlər tayfa ittifaqları haqqında məlumat verirlər. Bu haqda daha ətraflı və geniş VII fəsildə izah olunmuşdur. Xəzər tayfaları tutduqları Albaniya ərazisində oturaq həyat tərzinə keçib burada məskunlaşırdılar (76, k.II, fəs.65. 84-85; 84, k.II, fəs.1; 73, s.43; 186, s.21-27; 185, s.180; 137, s.142-156; 342, s.61). Bu tayfa birləşməsinin tərkibində türk dil qrupunun daşıyıcıları var idi. Xəzər tayfa birləşmələrinin Qafqaz Albaniyası və Zaqafqaziya ərazisində mövcud olmasının ilkin orta əsr yazılı qaynaqları – M.Xorenasi (76, k.II, fəs.65; 456, s.102; t342,

s.60), Ananiya Şirakasi (11, s.35-37; 406, s.28-29; 113, s.347; 97, s.36; 365, s.114), Gevond (82, fəs.4, 5; 342, s.60), Uxtanes (86, fəs. 46), Asoqik (84, k.I, fəs. 5, k.II fəs. 6; 365, s.116; 342, s.60-61), K.Qandzakesi (83, s.51; 41, s.35), Vardan (73, s.43; 342, s.60), Stepanos Orbelyan (85, fəs. 64 (65), 65 (66), 69 (70)) və alban yazılı qaynağının müəllifi M.Kalankaytuklu tərəfindən qeydə alınmışdır (79, k.II, fəs. I, 11, 15, 23; bax: 358, s.74-76; 342, s.60).

İlkin orta əsr bizans (46, s.229, 231, 235, 267; 16. s.411, 412; 9, k.VIII, 88), suriya (421, s.110, 114), gürcü (56, s.44, 127-129, 131-132; 51, s.49; 19. s.10, 11, 19, 23; 50, s.38-39) yazılı qaynaqları Zaqafqaziya, o cümlədən Qafqaz Albaniyası ərazisində xəzər tayfalarının mövcud olmasını göstərir və qeydə alırlar.

Öz növbəsində qeyd etmək lazımdır ki, ərəb coğrafiyaçıları Bəlazuri, Yaqubi, İbn əl-Fəqih, İbn-Xordadbeh, Yaqut Həməvi (13, s.16, 17, 18; 64, s.57-59; 24, s.13, 17; 61; 62, s.295, 340-344; 22, s.11-23) və digərləri Qafqaz Albaniyası ərazisində xəzər tayfalarının mövcud olmasını qeyd edir və eyni zamanda Albaniya ölkəsinin bir hissəsini «xəzərlər ölkəsi» adlandırırlar (13, s.5, 17; bax: 185, s.180).

İlkin orta əsr yazılı qaynaqları xəzərlərin lokallaşdırılması məsələsinə toxunaraq, ona müxtəlif halda yanaşır və baxırlar. İlkin orta əsr yazılı qaynağı M.Xorenasi xəzər və basil tayfalarının Böyük Qafqaz dağlarının ətəklərində yaşadıqlarını qeyd edir (76, k.II, fəs. 84; 342, s.61). Bu yazılı qaynağa görə xəzərlər və basillər Qarqar düzündə də yaşayırdılar (76, k.II, fəs.85; 342, s.61). M.Xorenasinin basillərin Qarqar düzündə yaşaması və məskunlaşması məlumatlarını digər yazılı qaynaqlar: Asoqik və Böyük Vardan da təsdiq edirlər (84, k.II, fəs. 1, 73, s.51, 52; 185, s.180; 342, s.61). İlkin orta əsr yazılı qaynağı, coğrafiyaçı Ananiya Şirakasi onların Sarmatiya ərazisində yerləşdiklərini qeyd edir (11, s.35-37; 97, s.36; 315, s.114).

İlkin orta əsr suriya yazılı qaynağı xəzər tayfalarının Dərbənddən şimalda yerləşdiyini qeyd edir və onları orada məskunlaşdırır (421, s.14). Qədim gürcü yazılı qaynağı isə xəzərlər tayfasının Kür çayının hövzəsi ərazisində yerləşdiyini göstərir (18, s.8-11). Bizans yazılı qaynağı onların Kür və Araz çayları ara-

sında, Kür çayının şimal-qərb sahilində olan ərazilərdə yerləşdiklərini qeyd edir (16, s.411, 412). Ərəb coğrafiyaçıları isə xəzərlərin Beyləqan, Qəbələ, Bərdə (13, s.5; 61, s.14), Dərbənd (13, s.17) şəhərlərində, Samur və Şabran arasındakı ərazilərdə yerləşdiklərini qeyd edirlər (13, s.18).

Bir sıra Dağıstan tədqiqatçıları xəzər tayfalarının lokallaşdırılması məsələsinə öz əsərlərində toxunmuşlar. Tədqiqatçı R.M.Maqomedov xəzər tayfalarının Dağıstanın şimal hissəsində və Dağıstanın cənubunda – dağətəyi ərazilərdə yerləşdiklərini qeyd edir (325, s.50). Digər tədqiqatçı A.R.Şixsaidov isə xəzər tayfalarının Dərbənd şəhəri daxil olmaqla Dağıstanın şimal hissəsində olan ərazidə yerləşdiklərini göstərir (476, s.45). «Dağıstan tarixinin oçerkləri»nin müəllifləri isə Dağıstanın şimalında yerləşən düzən hissəsini, Dərbəndin dəniz sahilini və Şimali Azərbaycanı Xəzər Xaqanlığının tərkibinə daxil edirlər (401, c.I, s. 40). Z.M.Bünyadov xəzər tayfalarının Şimali Azərbaycan ərazisində yerləşdiyini göstərir (186, s.21-27; 185, s.180).

Beləliklə, ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması, tədqiqi göstərir ki, basillər, xəzər tayfaları Böyük Qafqaz dağlarının ətəklərində, müasir Azərbaycanın mərkəzində, Qarqar düzündə məskunlaşmışdılar. Bundan əlavə, xəzər tayfaları Dərbənd, Kür çayı hövzəsində, Kür və Araz çayları arasında olan ərazilərdə, Qəbələ, Beyləqan şəhərlərində, Samur ilə Şabran arasında olan ərazilərdə, Albaniyanın digər yerlərində məskunlaşıb yaşayırdılar.

Yuxarıda qeyd edilən bizans, qədim erməni, suriya, gürcü, ərəb ilkin orta əsr yazılı qaynaqlarının III-VII əsrlərdə Qafqaz Albaniyası ərazisində türk ailə qrupuna daxil olan tayfalarının yaşaması və onların daha da artması məlumatlarını, toponimik (bax: 485, s.23-31; 128, s.119-123; 129, s.52-61; 212, s. 61-64; 213, s.6-11; 214, s. 94-98; 215, s.77-83; 216, s.87-91; 217, s.109-129; 217a, s. 29-34, 39-46; 217b, s. 73-76, 77-82, 83-101, 102-103, 111-114, 117-118, 123-124, 125-127, 127-129, 138-142; 159, s.21-22, 55-65) və dilşünaslıq tədqiqatları bir daha təsdiq edir (252, s.48-58, 82; 178, s.316, 320; 486, s.77-78; 241, s.12-45; 242, s.30-31; 243, s.23-24; 244, s.10-21; 245, s.22-33; 209, s.34, 66-82: 304a, s.364-373).

Bir sıra tədqiqatçılar ilkin orta əsr yazılı qaynaqlarda bizə gəlib çıxan çoxlu miqdarda Alban etnonim, toponim, hidronim və antroponimlərinin onlar tərəfindən düzgün, hərtərəfli araşdırılması, tədqiqi, onların mənşə etibarı ilə türk dillərinə aid olduğunu və digər tərəfdən isə ilk orta əsrlərdə ölkənin əhalisinin əsas hissəsinin türkmənşəli tayfalardan ibarət olduğunu göstərirlər (217b, s.176-193; 304a, s.379-187).

Beləliklə, yuxarıda qeyd edilən ilk orta əsr yazılı qaynaqlarının məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması, tədqiqi göstərir ki, ilkin orta əsrlərdə Qafqazın və Qafqaz Albaniyasının əhalisinin tərkibində əvvəllər olduğu kimi qafqaz mənşəli, türkmənşəli, iran mənşəli komponentlər mövcud olmuşdur. Bunu, eyni zamanda, paleoantropoloji və antropoloji (somatoloji) tədqiqatlar da bir daha sübuta yetirir və təsdiq edir (305a, s. 13, 14, 43, 47). Görkəmli tədqiqatçı antropoloq-alim R.M.Qasımova apardığı tədqiqatlar əsasında bu haqda belə yazır: «Eneolit dövründən (e.ə. VI-IV minilliklər) Qafqazın bütün qəbirlərində uzunbaşlılar, darüzlülər, ümumiyyətlə, qratisün antropoloji komponentlər üstünlük təşkil etməyə başlayır» (305b, s.81). Mərhum elmlər doktoru R.M.Qasımova aparıdığı tədqiqatlar əsasında daha sonra öz fikrini bu cür ifadə edir: «Bütövlükdə azərbaycanlılar Qafqazın digər xalqları kimi böyük tipavropoid irqinin Hind-Aralıq dənizi qollu xalqları ilə oxşardılar. Azərbaycan xalqını xarakterizə edən iki əsas antropoloji tip bu yerdə təşəkkül tapmışdır və azərbaycanlılar Şərqi Zaqafqaziyanın ən qədim əhalisinin varisləridir» (305b, s.82).

Yuxarıda qeyd edilən ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarının və eyni zamanda, toponimik, dilşünaslıq, antropoloji materialların və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, qədim dövrlərdə və ilkin orta əsrlərdə (III-VII) Qafqaz Albaniyasının əhalisinin etnik tərkibinin başlıca tərkib hissəsini türk ailə qrupuna daxil olan türkmənşəli tayfalar təşkil edirdi.

Beləliklə, qədim erməni, yunan-bizans, suriya, gürcü və ərəb yazılı qaynaqlarının məlumatlarının araşdırılması və tədqiqi göstərir ki, Qafqaz Albaniyasının yerli (avtoxton) tayfaları albanlar, utilər, lipinlər, kaspilər, çilblər, savdeylər, qarqarlar, leqlər, qardmanlar və digərləri olmuşlar. Qafqaz Albaniyasının

bu yerli tayfalarının az bir hissəsi «qafqaz» deyilən dil qrupuna daxil idilər, onların çox hissəsi türkmənşəli tayfalardan ibarət idi.

İlkin orta əsr yazılı qaynaqları Qafqaz ərazisində eyni zamanda daha bir sıra etnik birləşmələrin: tavasparların, xeçmatakların, iymaxların, qatların, qluarların, şiçbilərin, balasiçilərin, yeqersvanların və digər etnosların adlarını da qeyd edirlər. İlkin orta əsr yazılı qaynaqları yerli (avtoxton) etnoslarla bərabər, Qafqaz Albaniyasının ərazisində türkmənşəli sakları, maskutları və digər mənşəli (qelləri) etnosların olmasını da qeyd edirlər.

Beləliklə, ilkin orta əsr yazılı qaynaqların məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması, tədqiqi göstərir ki, Qafqaz Albaniyası ərazisində elə etnik birləşmələr, etnoslar mövcud idi ki, onlar türk dilləri qrupuna daxil olan dildə və ya ləhcələrdən birində danışırdılar, eyni zamanda onlar türkmənşəli tayfalar idilər. Onlar albanlar, qarqarlar, utilər, kəngərlər, savdeylər, iymaxlar, saklar, maskutlar, basillər, sabirlər, xəzərlər, hunlar və digər etnoslardan ibarət idilər.

Qeyd edilən ilkin orta əsr yazılı qaynaqların məlumatlarının, toponimik, dilşünaslıq, antropoloji və s. materialların və tədqiqatçıların əsərlərinin araşıdırılması, tədqiqi göstərir ki, ilkin orta əsrlərdə Qafqaz Albaniyasının ərazisində yaşayan əhalisini dörd əsas qrupa bölmək və aşağıdakı kimi ümumiləşdirmək olar: 1. Yerli (avtoxton) qafqaz mənşəli: lpinlər, leqlər, çilblər (silvlər), tavasaparlar və s. 2. Yerli (avtoxton) türkmənşəli: albanlar, utilər, qarqarlar, kaspilər, savdeylər, iymaxlar və s. 3. E.ə. VIII– b.e. VII əsrlərində gəlmə türk mənşəli: maskutlar, saklar, kəngərlər, çollar, savarlar, sabirlər, balasiçilər, hunlar, xəzərlər və s. 4. İran mənşəli: qellər, farslar, ərəblər və s. tayfalar.

Beləliklə, yuxarıdakı ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması, tədqiqi, bir sıra saxtakar tarixçilərin, guya Albaniyanın yerli əhalisinin (etnosların, tayfaların) III-VII əsrlərdə qonşuluqda yaşayan tayfalar tərəfindən assimilyasiyaya məruz qalması fikrinin tam əsassız, yanlış və uydurma olduğunu bizə qəti israr etməsi imkanı verir. Onu da qeyd etmək lazımdır ki, araşdırdığımız dövrdə Qafqaz Albaniyasının daxilində assimilyasiya prosesi güclə

və zorakılıqla deyil, təbii şəkildə cərəyan edir və gedirdi. Bu proses bir neçə istiqamətlərdə cərəyan edirdi: 1.Yerli tayfalar arasında (qafqaz mənşəli, qafqaz dilli və türkmənşəli, türk qruplu dillilər), 2. Gəlmə tayfalar arasında, 3. Gəlmələr (iran mənşəlilər, iran dillilər və türkmənşəlilər, türk dillilər) və yerli tayfalar (qafqaz dilli, türk dili qrupuna daxil olan) arasında.

Yuxarıda göstərilən proseslər nəticəsində, araşdırdığımız dövrdə ölkədə iki əsas istiqamətlərin getdiyi müşahidə olunur: yerli türk mənşəli tayfaların gəlmə türk qrupuna daxil olan tayfalarla qarışması, birləşməsi, qovuşması və türkmənşəli, türk qrupuna daxil olan tayfalar tərəfindən, təbii şəkildə qafqaz mənşəli və iran dilli tayfaların assimilyasiyaya uğraması, bu proses nəticəsində araşdırdığımız dövrdə türkmənşəli, türk dili qrupuna daxil olan tayfaların dillərinin Albaniyada, nəhayət tam qələbəsi ilə nəticələndiyini, müşahidə olunduğunu görürük. Yuxarıdakı tədqiqatlar, araşdırmalar bir daha göstərir ki, ölkənin etnik tərkibində türk dilli qrupuna daxil olan etnoslar və etnik daşıyıcılar mövcud idi və onlar gəlmə deyildilər.

Beləliklə, ilkin orta əsrlərdə Albaniyada yerli türk mənşəli, digər tərəfdən gəlmə türk və yerli qafqaz mənşəli etnosların vahid xalq kimi birləşməsi prosesi başa çatmışdır.

III FƏSİL

ALBANİYANIN
İLK ORTA ƏSRLƏRDƏ İQTİSADİYYATI

§1. Əkinçilik, bağçılıq, üzümçülük və digər təsərrüfat sahələri

İlk orta əsrlər Qafqaz Albaniyasının inkişaf tarixinin öyrənilməsində ayrı-ayrı təsərrüfat sahələrinin təhlili iqtisadiyyatın başlıca məsələlərindən biridir. İlk orta əsrlər Albaniyasının təsərrüfat sahələri yazılı mənbələr (qədim erməni, gürcü, suriya, ərəb və digər) və arxeoloji materiallar əsasında kompleks halında ardıcıl və geniş şəkildə öyrənilməmişdir. İlk orta əsrlər Albaniyasının təsərrüfatının bəzi sahələrinə ümumi şəkildə «Azərbaycan tarixi»nin I cildində, «Dağıstanın tarixi», «Dağıstanın tarixi oçerkləri»ndə, tədqiqatçılardan S.B.Aşurbəylinin və Z.M.Yampolskinin məqalələrində, Z.M.Bünyadovun, K.V.Treverin, T.M.Məmmədovun, T.A.Bünyadovun, R.M.Vahidovun və başqalarının monoqrafiyalarında toxunulmuşdur. (Bu haqda daha ətraflı I fəsilə bax.)

Məhz buna görə də Albaniyanın ilk orta əsrlərdə yerli əhalisinin iqtisadiyyatının – müxtəlif təsərrüfat sahələrinin inkişafını müxtəlif dilli yazılı mənbələr, arxeoloji və etnoqrafik materiallar əsasında kompleks halda, ardıcıl, geniş tədqiqinə ehtiyac duyulur.

Qədim ölü dildə olan yazılı mənbələrdə Albaniyanın ilk orta əsrlərdə təbiəti və təsərrüfat həyatına dair ətraflı məlumatlar vardır. Yazılı mənbələrdən məlum olur ki, Albaniya geniş gömgöy düzənliklərə (79, k.I, fəs.16. 341, s.17), sıx meşəliklərə (68, f.37,79, k. I, f.28) gözəl bağ və bağçalara, yüksək zirvələri daima qarla örtülmüş dağlara, coşqun çaylara (79, k.II, f.10, 341, s.17) malik bir ölkə olmuşdur.

Yazılı mənbələrdən məlum olur ki, ilk orta əsrlərdə Qafqaz Albaniyası əkinə yararlı münbit və geniş torpaq sahələrinə malik bir ölkə idi. Münbit geniş əkin sahələri haqqında ilk orta əsr yazılı mənbələri, o cümlədən VII əsr erməni coğrafiyaçısı A.Şirakasi (11, s.17; 341, s.17) və alban tarixçisi (79, k-II, 14, 341, s.17) bu məlumatı verir. Bu münbit əkin sahələri və geniş əkin

zəmiləri haqqında eyni zamanda ərəb coğrafiyaçıları–İbn Haukal, (21, s 86, 88, 92) İstəxri (30, s.41) və Yaqut Həməvi də (62, s.16) məlumat verirlər.

Əkinçilik Albaniyada ilk orta əsrlər dövründə təsərrüfatın əsas sahələrindən birini və daha doğrusu, onun əsasını təşkil edirdi. Albaniyada təbii-coğrafi mühit qədimdən əkinçilik təsərrüfatının geniş inkişafı üçün gözəl imkan yaratmışdır. Tədqiq edilən dövrdə feodal istehsal münasibətlərinin yaranması və möhkəmlənməsinə, inkişafına və bərqərar olmasına səbəb oldu. Bu da öz növbəsində onun bərəkətli torpaqlarının daha da geniş şəkildə becərilməsi və istifadə edilməsinə imkan yaratdı. Albaniyada bu dövrdə əkinçiliyin inkişafını ilk orta əsr yazılı mənbələri – A.Şirakasi (11, s.19; 341, s.20), alban tarixçisi M.Kalankaytuklu (79. k. 1 f.5, 26, 341, s.20) və ərəb coğrafiyaçıları İbn Haukal, (21, s.86, 88, 92), Yaqut Həməvi (62, s-18), İstəxri (30, s.11) öz məlumatları ilə təsdiq edirlər.

İlk orta əsr yazılı mənbələrindən məlum olur ki, Kür və Araz çaylarının vadilərində (79, k-1, f.5), Mil və Muğan düzlərində (11, s.15) və Albaniyanın başqa yerlərində, yaşayan sakinlər əkinçiliklə məşğul olurdular. Bunu, eyni zamanda, etnoqrafik müşahidələr də təsdiq edir (201, s.67-68; 190.s. 10-13). Bu dövr yazılı mənbələri əkinçilikdə yerin şumlanmasında və becərilməsində istifadə olunan əmək alətləri haqqında bizə heç bir məlumat vermir. Lakin bu barədə geniş arxeoloji və etnoqrafik tədqiqatlar nəticəsində aşkar olunmuş maddi mədəniyyət qalıqları, o cümlədən müxtəlif əmək alətləri və s. Qafqaz Albaniyasında əkinçilik təsərrüfatının inkişafı haqqında bizdə aydın təsəvvür yaradır. Arxeoloji və etnoqrafik müşahidələrdən məlum olur ki, bu dövrdə Albaniyada yerin şumlanması geniş yayılmışdır (201, s.67-68; 190, s.10-13). Arxeoloji və etnoqrafik tədqiqatlardan aydın olur ki, əkin sahələri dəmir gavahınlı xışla şumlanmışdır (201, s.67-68; 190, s-10-13). Qədim əkinçilik alətlərindən hesab edilən ağır xışın bərpası və istifadə edilməsi etnoqrafik müşahidələrlə də mümkündür (190, s. 12-13). Mingəçevirdə Kürün sol sahilində 2№-li yaşayış yerinin ilk orta əsrlərə aid ikinci mədəni təbəqəsindən bir ədəd dəmir gavahın tapılmışdır. (201, s. 68, ş. 14; 190, s 11, ş.2). Burada ilk orta əsrlərə

aid arxeoloji qazıntılar nəticəsində əhalinin iqtisadi həyatında mühüm rol oynayan əkinçiliyə və əkinçilik təsərrüfatına aid müxtəlif materiallardan (dəmir, daş, saxsı, ağac və s.) hazırlanmış iş əmək alətləri də aşkar edilmişdir (190, s.10-13). Əkinçilikdə əsas proseslərdən biri də toxumun səpilməsidir. Bu barədə ilk orta əsr mənbələrində məlumatın yoxluğu və daha doğrusu, bizə gəlib çatmaması, digər tərəfdən, arxeoloji və etnoqrafik məlumatların tam azlığı məsələnin hərtərəfli şərh edilməsinə imkan vermir. İlk orta əsrlərdə sadə səpin qaydasını yalnız etnoqrafik müşahidələrə istinad edərək təsəvvürə gətirmək və bərpa etmək mümkündür (190, s.17-19).

Yetişmiş taxılın biçilməsi əkinçilikdə növbəti iş mərhələsini təşkil edir. Taxılın biçilməsi prosesinin öyrənilməsi də əkinçiliyin əsas şərtlərindəndir. Bu haqda ilk orta əsr mənbələrində heç bir məlumata malik deyilik. Lakin taxılın biçilməsi və bu prosesdə ilk orta əsrlərdə işlədilən əmək alətləri haqqında əlimizdə xeyli miqdarda arxeoloji və etnoqrafik (190, 26-33) material vardır. İlk orta əsr yaşayış yerlərindən və küp qəbirlərdən Mingəçevirdə R.M.Vahidov tərəfindən dəmir oraqlar aşkar edilmişdir (201, s.69, c.XV, 190 s-29). Mingəçevirdə eramızın I-VII əsrlərinə aid katakomba qəbirlərdən çoxlu miqdarda dəmir oraqlar tapılmışdır (149, s.71; 147, şi, 190, s.29). Mingəçevirdə 2 və 3 №-li ilk orta əsr yaşayış yerlərindən də xeyli miqdarda oraq aşkar edilmişdir (201, s.69, 190, s.30-31). Buradan tapılmış oraqlar içərisində eramızın VI-VII əsrlərinə aid olan bir ədəd dəmir oraq böyük olub, demək olar ki, müasir oraqlarla eynilik təşkil edir (201, s.69, 190, s.30).

İlk orta əsr Mingəçevir 3 №-li yaşayış yerinin VI-VII əsrlərinə aid mədəni təbəqəsindən dəmir dəryaz aşkar edilmişdir (201,s.69). Etnoqrafik müşahidələrdən aydın olur ki, bu dəryaz öz quruluşu etibarı ilə hazırda ot biçini zamanı dağlıq yerlərdə işlədilən dəryazlara çox oxşayır (190, s.30-31). Yeri gəlmişkən qeyd etmək lazımdır ki, biçin prosesində işlədilən iki ədəd sümük barmaqlıq da burada tapılmışdır. Sümük barmaqlıq lülə sümüyündən hazırlanmışdır (201, s. 69; 190, s-30). Sümük barmaqlıq arxeoloji qazıntılar zamanı hələlik Azərbaycanda və demək olar ki, bütün Qafqazda ilk dəfə olaraq Mingəçevirdə aşkar edilmişdir (201,

s.69, 190, s.30). Etnoqrafik və arxeoloji müşahidələrə əsasən bu barmaqlıqların biçin zamanı tutduqları mövqeyi aydınlaşdırmaq da mümkündür (201, s. 69, 190, s.30).

Beləliklə, arxeoloji qazıntılar nəticəsində əldə edilmiş, əkinçilikdə istifadə edilən çoxlu miqdarda əmək alətləri albanların və Albaniyada yaşayan tayfaların ilk feodal dövründə əkinçilik mədəniyyətinin yüksək inkişafını tam aydınlığı ilə gözə çarpdırır və əmək məhsuldarlığının xeyli artımını göstərir.

Hər hansı bir ölkədə iqtisadi inkişaf tarixini öyrənərkən onun əkinçilikdə xüsusi rola malik olan suvarma sistemindən danışmaq lazımdır. İlk orta əsrlərdə Qafqaz Albaniyasında mövcud olmuş suvarma sistemi haqqında yazılı mənbələrdə az da olsa məlumat vardır.

Albaniyada əkin üçün yararlı münbit torpaqlar ölkədə olan çoxlu miqdarda çaylar, iri arxlar, kəhrizlər və süni suvarma kanalları vasitəsi ilə suvarılırdı. İlk orta əsr mənbələri Albaniyada çoxlu çayların olduğunu qeyd edir (11, s.17. 341, s. 17). Bu yazılı mənbələrin fikirlərini təsdiq edən Alban tarixçisi M.Kalankaytuklu ölkənin çoxlu çaylar və su mənbələrilə zəngin olduğunu qeyd edir (79, k.II, f. 14). Albaniyanın bütün ərazisindən keçən, ölkənin ən başlıca suvarma əkinçiliyinin inkişafına kömək edən Kür çayı haqqında ilk orta əsr mənbələri – Yeqişe, M.Xorenasi, Şirakasi, L.Parpesi, Sebeos (68, f.3; 76, k.2, f.8; 11, s.6, 74, k.2, f.35; 81, k.3, f.6; 341, s.17) və orta əsr mənbələri – Asoqik, Ayrivanesi (84, k.1, f.5; 78, s.54; 341, s.18), həmçinin gürcü mənbələrində məlumat verilir (50, s.21-22, 23, 24, 38; 50,s.81, 86; 18, s.8; 17, s.53).

Qafqaz Albaniyasının ərazisindən keçən və suvarma əkinçiliyində heç də az əhəmiyyətə malik olmayan Araz (11, s.6, 15;81, k. III, b.26; 341, s.18; 50 s.22; 18, ç.8), Lopnas (68, f.3; 341, s.18), Tərtər (79, k.2, f-10), Arsani (81, k.3, f.35) və s. çayları haqqında yazılı mənbələr məlumat verirlər. Yazılı mənbələrdən məlum olur ki, ilk orta əsrlərdə Albaniyanın suvarma əkinçiliyinin inkişafında ölkənin ən böyük və başlıca su mənbəyi olan Kür çayı çox böyük əhəmiyyət kəsb edibdir. Kür çayının vadilərində olan süni suvarma şəbəkələri əkinçiliyin inkişafına çox kömək edirdi (79, k.1, f.5; 341, s.17; 333, s.70).

Albaniyanın münbit əkin zəmiləri yalnız çaylar vasitəsi ilə deyil, eyni zamanda süni kanallar, kəhrizlər vasitəsi ilə də suvarılırdı. Albaniyada dağətəyi və aran düzənliklərində isti iqlimlə əlaqədar olaraq, ölkənin əkin zəmilərini su ehtiyatı ilə kifayət qədər təmin olunmadığından, süni suvarmaya xeyli ehtiyac duyulurdu. Məhz buna görə də Yaxın və Orta Şərqin başqa dövlətlərində olduğu kimi, Albaniyada da süni suvarma sistemi geniş yayılmışdı və qədim tarixə malikdir (22, s.31; 13, s.20; 368; 404, s.185-187; 451, s.70-71; 190, s.19-26). Albaniyada ilk orta əsrlərdə fəaliyyət göstərən belə süni suvarma kanallarından biri də Govurarx adı ilə tanınan suvarma sistemidir (451, a.70.71; 190, s.19-26). Tədqiqatçılardan T.S.Passek (404, s.85-187), V.N.Leviatov (322, s.76), T.A.Bünyadov (190, s.19-23) süni suvarma sistemi olan Govurarxın eramızdan əvvəl VI-V əsrlərdə çəkilməsini qeyd edirlər. İ.İ.Menşaninov isə arxeoloji materiallara əsaslanaraq Mil və Muğan düzlərindən keçən və öz başlanğıcını Araz çayından götürən, 100 kilometr uzanan Govurarx süni suvarma sistemini eramızın IV-VI əsrlərinə aid edir (368, s.31). Arxeoloji materiallara və yazılı mənbələrə əsaslanaraq İ.İ.Menşaninovun bu fikrinə A.A.İessen (284, s.34; 279 s. 47; 280, s. 27) və Q.M.Əhmədov (152, s.17; 55, s.63) da tərəfdar çıxırlar.

Albaniyada ilk orta əsrlərdə digər suvarma sistemini kəhrizlər vasitəsilə suvarma təşkil edirdi (249, s.66; 451, s.71; 190, s.24-25). Etnoqrafik müşahidələr göstərir ki, kəhrizlərdən Azərbaycanda Kiçik Qafqaz dağları ətəkləri ərazisində, xüsusilə Naxçıvan, Gəncə, Ağdam, Cəbrayıl və başqa ərazilərdə daha geniş istifadə edilmişdir və hal-hazırda da istifadə edilir (431 s. 39).

Beləliklə, yazılı mənbələr, arxeoloji materiallar və tədqiqatlar, etnoqrafik müşahidələr Albaniyada ilk orta əsrlər dövründə suvarma əkinçiliyinin geniş tətbiq olunduğunu və yüksək səviyyədə olduğunu göstərir.

Gözəl iqlim şəraiti, münbit torpaq, təbii və süni suvarma sisteminin geniş tətbiqi əkinçilikdə taxılçılığın inkişafına gözəl şərait yaradırdı. Albaniya da ən qədim və əsas taxılçılıq ölkələrindən biri olmuşdur. İlk orta əsrlərdə Albaniyada taxılçılıq haqqında yazılı mənbələr də məlumat verir. Eranın VII əsrində yaşamış erməni coğrafiyaçısı A.Şirakasi Albaniyanın Paytakaran

vilayətində (Mil düzü zonasında) təbii arpa becərildiyi haqda məlumat verir (11, s.19, 333, s.69, 341, s.19). Erməni coğrafiyaçısının bu məlumatına əlavə edərək alban tarixçisi M.Kalankaytuklu öz əsərində Albaniyada başqa bitkilərlə bərabər Kür çayının hər iki sahili boyunca çoxlu taxıl yetişdirildiyini (79, k.1, f.5; 341, s.20), arpa və buğda becərildiyi haqda xəbər verir (79, k.I, f.26. 451, s.178; 333, s.69; 341, s.20; 190. s.76). Yuxarıda göstərilən yazılı mənbələrin bu məlumatlarını arxeoloji materiallar da təsdiq edir. Albaniyanın ərazisindən arxeoloji qazıntılar zamanı Mingəçevirdə Kürün sol sahilində Sudağılan adlı yerdə arpa qalığı tapılmışdır (299, s.97, ş.18, s.93). Oradan ilk orta əsrlərə aid 2 və 3 №-li yaşayış yerlərindən R.M.Vahidov tərəfindən çoxlu arpa, buğda qalığı aşkar edilmişdir (203, s.129; 202, s.91, 94; 376, t.3, s. 14; 190, s.75). Yanmış taxıl–arpa və buğda qalıqları isə Xınıslı yaşayış yerindən tapılmışdır (457, s.216; 190, s.75).

Arxeoloji qazıntı materiallarından aydın olur ki, ilk orta əsrlərdə Albaniyada darı da becərilirdi (202, s.129; 201, s.72-74, tab.I; 190, s.75). Darının çoxlu miqdarda qalıqları arxeoloqlar tərəfindən Mingəçevirdə aşkar edilmişdir (202, s.129, 201, s.72-74, tab.I; 190, s.75).

Becərilmiş taxılın saxlanılması əkinçilikdə əsas amillərdən biridir. Bu barədə yazılı mənbələrdə məlumatlar olmasa da, məsələnin nisbətən şərh edilməsinə az da olsa arxeoloji və etnoqrafik materiallar imkan verir. İlk orta əsr yazılı mənbələrindən aydın olur ki, toplanılmış taxıl növləri dərin qazılmış irihəcmli quyularda saxlanılırdı (76, k. 3, f.22; 333, s.69). Bu məlumatı arxeoloji qazıntılar zamanı tapılmış təsərrüfat quyuları da təsdiq edir.

Albaniyanın Mingəçevir yaşayış yerindən ilk orta əsrlərə aid çoxlu miqdarda taxıl saxlanılan təsərrüfat quyuları aşkar edilmişdir (202, s.129; 201, s.26,73,74,190, s.42-44). Bu quyulardan bəzilərinin içərisində buğda, arpa, darı və un saxlanıldığı müəyyən edilmişdir (202, s. 129; 201, s. 26, 73, 74; 190, s. 42-44).

Burada taxılın, eyni zamanda, iri təsərrüfat küplərində saxlandığı müəyyənləşdirilmişdir (202, s.129; 201, s.26, 73, 74; 190, s.44). İlk orta əsrlərə aid təsərrüfat quyuları Beyləqanda (154, s.47) aşkar edilmişdir. Tədarük edilmiş taxılın saxlanılması üçün aşkar edilmiş təsərrüfat quyuları və küpləri Xınıslıda da tapıl-

mışdır (457, s.213). Taxıl saxlamaq üçün istifadə edilən bu cür təsərrüfat quyuları Albaniyanın ərazisinə daxil olan Dağıstanın ilk orta əsrlər yaşayış yerlərində də aşkar edilmişdir (293, c.1, s. 109; 476, s.45). Etnoqrafik müşahidələrdən məlum olur ki, tədarük edilmiş taxıl, un və s. məhsulların saxlanılması üçün təkcə küplərdən deyil, eyni zamanda heyvan dərisindən düzəldilmiş dağar, çuval, torba və bu kimi məişət qablarından istifadə olunmuşdur (190, s.45, 46). Ancaq bunlar müəyyən müddət keçdikdən sonra torpaqda çürümüş və qazıntılar zamanı aşkar edilməmişdir.

Yazılı mənbələrdə əkinçiliyin ən mühüm pillələrindən biri olan taxıldöymə prosesi haqqında Albaniyada tədqiq etdiyimiz dövrə aid yazılı qaynaqlarda heç bir məlumat yoxdur. Albaniyada tədqiq edilən dövrdə taxıldöymənin gedişini və onunla əlaqədar olan alətləri arxeoloji və etnoqrafik materiallara əsaslanaraq bərpa etmək mümkündür. Arxeoloji qazıntılar zamanı Mingəçevirdə ilk orta əsr mədəni təbəqəsindən taxılın döyülməsində istifadə edilən vəl aşkar edilmişdir (201, s.70; 190, s.37-39). Etnoqrafik müşahidələr taxılın döyülməsində işlədilən bu əmək alətinin bərpasını və ondan Albaniyada ilk orta əsrlərdə geniş istifadəsini göstərir (190, s. 38; 193, s.44). Etnoqrafik müşahidələrdən aydın olur ki taxıl eyni zamanda ağac dəyənəklə (193, s.33-34) və heyvanların dırnaqları ilə də döyülürmüş (193, s.35-36). Albaniyada III-VIII əsrlərdə becərilmiş taxılı dəndaşı və əl dəyirmanı vasitəsi ilə üyütmüşlər. İlk orta əsrlərdə Albaniyada dənin üyüdülməsi prosesində işlədilən çoxlu miqdarda sadə dən daşları, sürtgəclər, kirkirələr (əl dəyirmanları) arxeoloji qazıntılar zamanı Mingəçevirdə 2 və 3 №-li yaşayış yerlərindən aşkar edilmişdir (202, s.91; 203, s.137; 201, s.70-71; 193, s.48-53).

Belə dən daşlarından bu yaxınlara qədər müasir Azərbaycanın bəzi kəndlərində istifadə olunurdu (193, s.53; 201, s.72). Gözəl coğrafi mühit, münbit torpaq, geniş suvarma şəbəkəsi hələ qədimlərdən Albaniyada yaşayan yerli əhalinin texniki bitkilərin becərilməsi ilə də məşğul olmasına imkan yaradırdı. İsti iqlim sevən və suvarma ilə sıx bağlı olan pambıqçılıq rayonu Albaniyanın ərazisi olmuşdur. Bəzi tədqiqatçılar heç bir əsas olmadan Albaniyada olan pambıqçılığı Ermənistana aid edirlər (488, s.566). Lakin yazılı mənbələr bu fikrin doğru olmadığını

göstərir. Tədqiq etdiyimiz dövrdə eramızın VII əsrində yaşamış erməni coğrafiyaçısı A.Şirakasi özünün «Erməni coğrafiyası» adlı əsərində Albaniyanın Paytakaran vilayətində çoxlu miqdarda pambıq becərildiyini göstərir (11, 19; 333, s.69; 341, s.20; 190, s.87; 185, s.61). Erməni coğrafiyaçısı A.Şirakasinin bu məlumatını Alban tarixçisi M.Kalankaytuklu öz əsərində təsdiq edərək göstərir ki, Albaniyada yaşayan yerli əhali Kür çayının hər iki sahili boyu pambıq becərilməsi ilə məşğul olur və hesabagəlməz dərəcədə pambıq yetişdirirlər (79, k.I, f.5; 201, s.74, 333, s.69; 341, s.20; 190, s.87).

Yazılı mənbələrin bu məlumatlarını arxeoloji qazıntılar zamanı aşkar edilmiş materiallar da təsdiq edir. Mingəçevirdə ilk orta əsr yaşayış yerində aparılan arxeoloji qazıntılar nəticəsində ilk orta əsrlər mədəni təbəqəsindən bir sıra qiymətli bitki qalıqları ilə bərabər, xeyli miqdarda çiyid dənələri (pambıq toxumu) əldə edilmişdir (201, s.74; 190, s.88). İlk orta əsrlərə aid olan bu pambıq toxumları ilə mütəxəssislərin ilk tanışlığı nəticəsində müəyyən edilmişdir ki, onlar Azərbaycanda becərilən müasir pambıq növlərinə çox yaxındır (201, s.74; 190, s. 88). Digər arxeoloji tapıntı yenə də qədim Mingəçevirdə katakomba qəbirlərindən aşkar edilmişdir. Burada Q.M.Aslanovun apardığı qazıntılar nəticəsində eramızın V-VII əsrlərinə aid edilən katakomba qəbirlərinin bəzilərindən pambıq kələfi tapılmışdır (149, s.68; 190, s.88).

Beləliklə, yazılı mənbələrdən, arxeoloji və etnoqrafik müşahidələrdən aydın olur ki, ilk orta əsrlərdə Albaniyada yaşayan yerli əhali texniki bitkilər, o cümlədən ölkənin aran bölgələrindəki geniş sahədə pambıq becərirmiş.

Albaniyanın ərazisinin coğrafi şəraiti hələ qədim zamanlardan bağçılıq və bostançılığın inkişafı üçün çox əlverişli olmuşdur. Alban tarixçisi M.Kalankaytuklu Albaniyada bağçılığın çox inkişaf etdiyini öz əsərində göstərir (79, k.I, f.26, k.II, f.25,333, s.70, 341, s.17, 20). Yazılı mənbələr ilk orta əsrlərdə Albaniyada geniş və gözəl meyvə bağlarının olması (79, k.2, f.10, 341, s.17-20), bostançılığın xeyli inkişaf etməsi haqqında məlumat verir (79, k.2, f.25). Eramızın ilk orta əsrlərində Albaniyada bağçılığın geniş inkişafı haqqında ərəb coğrafiyaşünasları da qeyd edirlər (30, s.7,18, 19,21, s.85, 92,48, s.15,75). Bağçı-

lığın ilk orta əsrlərdə inkişafını arxeoloji qazıntılar da təsdiq edir. Arxeoloji qazıntılar zamanı ilk orta əsr mədəni təbəqəsindən çoxlu miqdarda meyvə (üzüm, şaftalı, albalı, gavalı, zoğal, ərik, nar, qoz, fındıq, badam) (201, s.75, 76; 154, s.38; 291, c.I, s.85), tərəvəz (balqabaq, qarpız, xiyar) və s. külli miqdarda tumları tapılmışdır (201, s.74; 190, s.99).

Arxeoloji qazıntılar zamanı Albaniyada ilk orta əsrlərdə bağçılıq və bostançılıqda istifadə edilən çoxlu əmək alətləri də aşkar edilmişdir. Mingəçevirdə qazıntılar zamanı III-VIII əsrlərə aid qədim yaşayış yerindən tapılan bir ədəd dəmir toxa (201, s74, 190, s.99) əsas etibarı ilə bağ və bostanlarda torpağı yumşaltmaq üçün işlədilmişdir. Burada oraqvarı bıçaqlar da (qayçılar) tapılmışdır, onlar ağacların və tənəklərin qol-budağını kəsmək və başqa məqsədlər üçün də işlədilmişdir (201, s.75; 190, s.124).

Beləliklə, ilk orta əsrlərə aid təbəqələrdən arxeoloji qazıntılar zamanı əldə olunmuş, bağçılıq və bostançılıqda istifadə edilən əmək alətləri Albaniyada bu dövrdə bağçılığın və bostançılığın xeyli inkişaf etdiyi və yüksək səviyyədə olduğunu göstərir.

Albaniyada qədim zamanlardan bəri becərilən mədəni bitkilərdən biri də zeytundur. Bu bitkinin ilk orta əsrlərdə də Albaniyada geniş şəkildə becərildiyini yazılı mənbələr məlumat verir. VII əsr erməni coğrafiyaçısı A.Şirakasi «Erməni coğrafiyası» adlı əsərində qeyd edir ki, Uti vilayətində zeytun və sitrus bitkiləri becərilirdi (11, s.20; 451, s.178; 333, s. 69-70; 190, s.106, 341, s.19). Zeytunun Albaniyada becərilməsinə aid məlumat alban tarixçisi M.Kalankaytuklunun əsərində də öz əksini tapmışdır. Onun verdiyi məlumatdan aydın olur ki, Albaniyada həddindən artıq zeytun ağacı (79, k.1, f.5, k.2, f.25; 451, s.178; 333, 69-70) bitmiş və becərilmişdir. Yazılı mənbələrin zeytun bitkisi haqqında məlumatları arxeoloji qazıntılar zamanı tapılmış materiallar da bir daha təsdiq edir. Arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid mədəni təbəqələrdən zeytun bitkisinin qalıqları tapılmışdır (457, s.217; 313, s.703). Beləliklə, yuxarıda göstərilən yazılı mənbələrdən və arxeoloji tapıntılardan aydın olur ki, ilk orta əsrlərdə Albaniyada zeytundan məişətdə geniş istifadə edilmişdir.

Albaniyada ilk orta əsrlərdə becərilən mədəni bitkilərdən biri də əncirdir. Bu meyvənin ilk orta əsrlərdə Albaniyada becə-

rildiyini yazılı mənbələr məlumat verir. Əncir bitkisinin Albaniyada becərilməsinə aid məlumat alban tarixçisi Kalankaytuklunun əsərində də öz əksini tapmışdır. Onun verdiyi məlumatdan aydın olur ki, Albaniyada həddindən artıq əncir yetişdirilirmiş (79, k.II, f.25). Bu haqda ərəb coğrafiyaçısı İstəxri də məlumat verir. O öz əsərində göstərir ki, «əncir Bərdəyə Lasubadan gətirilir və o ən yaxşı növ meyvə hesab olunur» (30, s.7).

Albaniyada ilk orta əsrlərdə becərilən mədəni bitkilərdən biri də üzümdür. Albaniya ən qədim üzümçülük ölkələrindən biridir. Burada üzümün yetişməsi və inkişafı üçün əlverişli coğrafi şərait olmuşdur. Albaniyada ilk orta əsrlərdə üzümün geniş şəkildə becərildiyini yazılı mənbələr məlumat verir. Üzümçülüyə aid məlumat alban tarixçisi M.Kalankaytuklunun əsərində də öz əksini tapmışdır (79, k.I, f.26, k.II, f.25; 341, s.20). Onun verdiyi məlumatdan aydın olur ki, Albaniyada IV-VII əsrlərdə həddindən artıq üzüm yetişdirilirdi (79, k.1, f.26, k.II, f.25; 341, s.20). Albaniyada üzümçülük haqqında ərəb coğrafiyaçısı Müqqəddəsi məlumat verir. Öz əsərində qeyd edir ki, əl-Rihab adlı vilayətdə çoxlu meyvə və üzüm yetişdirilirdi (48, s.75). Yazılı mənbələrin üzümçülük haqqında məlumatını arxeoloji qazıntılar zamanı tapılmış materiallar da bir daha təsdiq edir. Arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid yaşayış yerindən üzüm tumları tapılmışdır (420, s.71). Üzüm tumları ilk orta əsrlərə aid mədəni təbəqələrdən – Mingəçevirdən (303, s.30; 201, s.75; 190, s.130.131), Beyləqandan (154, s.38) və ilk orta əsrə aid Çir-Yurt (Dağıstan) kəndinin yaxınlığında olan qəbir abidələrindən tapılmışdır (401, c.I, s.41-42).

Yuxarıda qeyd etdiyimiz kimi, arxeoloji qazıntılar zamanı Albaniyada ilk orta əsrlərdə üzümçülükdə istifadə edilən əmək alətləri də tapılmışdır. Bu alətlər Mingəçevirdə tapılmış (201, s.74; 190, s.25) və oraqvarı bıçaqlardan (qayçılar) ibarətdir (201, s.75, 190, s.124).

Tədqiq edilən dövrdə Albaniyada üzümdən müxtəlif məhsullar hazırlayırdılar. Bu haqda bizə yazılı mənbələr məlumat verir. Alban tarixçisi M.Kalankaytuklunun məlumatına görə ilk orta əsrlərdə Albaniyada yerli əhali üzümdən şirə (gağsu) (79, k.1. f.26) hazırlayırdılar.

Bu barədə məlumatı arxeoloji və etnoqrafik materiallar da təsdiq edir. Arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid üzümü əzib şirə almaq üçün işlədilən daş alət (201, s.76;190, s.117) və saxsı təknə tapılmışdır (190, s.116). Etnoqrafik və arxeoloji müşahidələr vasitəsi ilə bu alətləri bərpa etmək və onlardan üzüm şirələri və şərab hazırlamaq qaydalarını öyrənmək mümkündür (190, s.114-115, 117-118).

Albaniyada ilk orta əsrlərdə üzümçülüyün inkişafı şərabçılıq üçün geniş imkan və şərait yaradırdı. Yazılı mənbələrdən məlum olur ki, ilk orta əsrlərdə Albaniyada şərabçılıq da inkişaf etmişdir. Bu haqda bizə alban tarixçisi M.Kalankaytuklu məlumat verir. Onun məlumatına görə ilk orta əsrlərdə Albaniyada çoxlu miqdarda şərab hazırlanırdı (79, k.1, f.5; 333, s.69-70; 341, s.20; 201, s.75; 190, s.131) və şərabçılıq çox inkişaf etmişdi (79, k.1, f.26, 333, s.70, 341, s.20).

Albaniyada tədqiq etdiyimiz dövrdə şərabçılığın inkişafını arxeoloji materiallar da təsdiq edir və tamamlayır. Şərabçılığın geniş yayılmasını göstərən əhəmiyyətli dəlillərdən biri də tədqiq olunan dövrdə arxeoloji abidələrdən şərab və su saxlanılan gil kuzələrin tez-tez tapılmasıdır. Bu cür tipdə olan kuzələrin bir hissəsini Alazan vadisində tədqiq edən Q.Nioradze (386, s.107) və Albaniyanın digər yerlərində onları araşdıran T.A.Bünyadovun (190, s.129-130) fikrincə bu qabların bir hissəsində şərab saxlanılırdı. Bu cür tipdə kuzələr arxeoloji qazıntılar zamanı Albaniyanın ərazisindən – Alazan vadisindən (386, s.76, s.15-66) başqa, Yaloylutəpədən (472, s.7, 13, 14; 223, s.11 və13), Mil düzündən (386, s.76, s. 66a), Mingəçevirin küp qəbirlərindən (287, s.435, s.8-9) tapılmışdır. Mingəçevirdə arxeoloji qazıntılar zamanı ilk orta əsr yaşayış yerlərindən çoxlu miqdarda yarıya qədər xam torpağa bir-birinin yanında basdırılmış iri təsərrüfat küpləri tapılmışdır (204, s.10; 201, s.76; 190, s.129). T.A.Bünyadov bu küplərin müəyyən qismində şərab saxlanıldığını ehtimal edir (190, s.129, 130). Buradan, ilk orta əsrlərə aid yaşayış yerlərindən və qəbirlərdən xeyli miqdarda dəri tuluğun qalıqları tapılmışdır. Bu tuluqların çoxunun içərisində daşlaşmış şərab çöküntüsü aşkar edilmişdir (201, s.76; 190, s.130).

Etnoqrafik müşahidələr göstərir ki, ilk orta əsrlərdə üzümdən yalnız şirə və şərab deyil, ləzzətli içki–turşu-şirin (boza), sir-

kə, qoraba, abqora və yemək şeyləri – doşab, riçal, kişmiş və başqa şeylər hazırlanaraq geniş istifadə edilmişdir (190, s.134).

Beləliklə, yazılı mənbələr, arxeoloji materiallar və etnoqrafik müşahidələr göstərir ki, ilk orta əsrlərdə Albaniyada üzümçülük, şərabçılıq yüksək şəkildə inkişaf etmiş və üzümçülük əkinçilik təsərrüfatının ayrıca bir sahəsi olaraq Albaniyada olan yerli əhalinin iqtisadi həyatında mühüm rol oynamışdır.

Ərəb coğrafiyaşünasları tədqiq etdiyimiz dövrə aid bağçılığa və meyvəçiliyə dair çoxlu məlumatlar verirlər. İstəxri yazır ki, Bərdədə çoxlu böyük, dadlı qoz yetişir, onlar Səmərqənd qozlarından yaxşıdır (30, s.7; 451, s.179). O, sözünə davam edərək burada şabalıd yetişdiyini, onların Suriya şabalıdından üstün olmasını, ondan böyük, dadlı və çoxlu bar verməsilə seçildiyini qeyd edir (30, s.7; 451, s.179). O, sözünə davam edərək ən gözəl növdə zoğal meyvəsi yetişdiyini də qeyd edir (30, s.7; 451, s.179). Bu ərəb müəllifinin verdiyi məlumatları digər ərəb coğrafiyaçısı İbn Haukal da təsdiq edərək yazır ki, Bərdə şəhərində və onun ətrafında gözəl, geniş bağlar yerləşir (21, s.86). Bu bağlarda şabalıd yetişdiyini və onun Suriya şabalıdından üstün olmasını, ondan böyük, dadlı olması və çoxlu bar verməsilə seçildiyini qeyd edir (21, s.86). O, sözünə davam edərək burada zoğal da yetişdiyini söyləyir (21, s.86). Zoğal haqqında digər ərəb coğrafiyaçısı Müqəddəsi də məlumat verir (48, s.15).

Bu ərəb coğrafiyaçılarının məlumatlarını arxeoloji qazıntılar zamanı əldə olunmuş materiallar da təsdiq edir. Albaniyanın ilk orta əsrlərə aid olan mədəni təbəqəsindən – Mingəçevir yaşayış yerindən qazıntılar zamanı nar, qoz qalıqları (300, s.45; 301, s.147; 201, s.75-76; 291,c.1. s.85), şaftalı və üzüm tumları tapılmışdır (201, s.75-76).

Ərəb müəllifləri İstəxri, İbn Haukal və Müqəddəsi daha bir mədəni bitki olan zəfəran haqqında bizə məlumat verirlər (30, s.11; 21, s.89; 48, s.14). İstəxri bu mədəni bitki haqqında məlumat verərək qeyd edir ki, zəfəran Dərbənddə və onun yaxınlığında becərilirdi (30, s.11). Bu haqda məlumat verən digər ərəb müəllifi göstərir ki, çoxlu miqdarda zəfəran Dərbənddə və onun ətrafında becərilir (21, s.89). Digər ərəb müəllifi Müqəd-

dəsi göstərir ki, Dərbənddə becərilən zəfəran o qədər çox idi ki, başqa ölkələrə də ixrac olunurdu (48, s.14).

Albaniyanın ilk orta əsrlərdə geniş, çoxlu və yaxşı biçənəklərə malik olmasını yazılı mənbələr də qeyd edir. Yazılı mənbələrdən məlum olur ki, bu biçənəklər o qədər yaxşıymış, hətta qonşu ölkələrdən çobanlar öz mal-qarası ilə bura qışlamağa gəlirdilər (79, k. II, v.26; 333, s. 70; 341, s. 21). Ərəb coğrafiyaçıları Albaniyada yetişdirilən daha bir texniki bitki haqqında bizə məlumat verir. Bu, rəngləmədə geniş işlədilən marena bitkisidir. Onun haqqında bizə məlumatı İbn Haukal (21, s.98), İstəxri (30, s.39), Müqəddəsi (48, s.6) verir. İbn Haukal bu bitkinin Albaniyanın çox yerində – Bərdədə, Dərbənddə, Varsanda yetişdirildiyini qeyd edir (21, s.98; 451, s. 180). O, sözünə davam edərək onun burada çox və yüksək keyfiyyətə malik olmasını və onun quru və su yolları ilə xarici ölkələrə ixrac olunmasını söyləyir (21, s.98). İbn Haukal və İstəxri bu texniki bitkinin Hindistana və başqa ölkələrə ixrac olunduğunu qeyd edirlər (21, s.98; 30, s.25).

Alban tarixçisi M.Kalankaytuklu öz əsərində Kür çayının hər iki sahili boyu çoxlu miqdarda tut ağacları becərildiyini göstərir (79, k.1, f.5). Alban tarixçisinin bu məlumatını ərəb coğrafiyaçıları İbn Haukal və İstəxri təsdiq edir və tamamlayırlar (21, s.87, 30, s.7). İbn Haukal bu haqda bəhs edərək yazır: «…Bərdədə ipəkdən müxtəlif növdə əşyalar tikilir, demək olar ki, burada tut ağacları hamıya məxsusdur, «onların sahibi yoxdur və onları nə satıb və nə də alırlar» (21, s.87, 451, s.180). Ərəb coğrafiyaçısı İstəxri isə yazır: «Bərdədən çoxlu ipək ixrac olunur. İpəkqurdlarını heç kimə məxsus olmayan tut ağacları yarpağı ilə bəsləyirlər. Oradan İrana, Xuzistana çoxlu miqdarda ipək göndərilir…» (30, s.7).

Erməni coğrafiyaçısı A.Şirakasi Albaniyada çay kənarlarında çox miqdarda qamış bitkisinin yetişdirildiyi haqda məlumat verir (11, s.17, 451, s.180, 341, s.17).

Ərəb coğrafiyaçılarından İbn əl-Fəqih Albaniyada çoxlu miqdarda tozağacının becərildiyindən və ondan hazırlanan müxtəlif əşyalar barədə məlumat verir (22, s.39). Ərəb müəlliflləri Bərdə ətrafında yerləşən meşələrdə çoxlu tozağacı və digər ağacların olmasını və onların kəsilib sənətkarlar tərəfindən gözəl əşyalar hazırlanmasını göstərirlər (22, s. 39; 30 s. 39).

Beləliklə, yuxarıda göstərilən materiallardan aydın olur ki, ilk orta əsrlərdə Albaniyada iqtisadiyyat çox geniş şəkidə inkişaf etmişdi.

Yazılı mənbələrin, arxeoloji materialların və etnoqrafik müşahidələrin araşdırılması ilk feodalizm dövründə Albaniyada əkinçiliyin çox yüksək inkişaf etdiyini göstərir. İlk orta əsr yazılı mənbələrin, arxeoloji materialların və etnoqrafik müşahidələrin öyrənilməsi göstərir ki, gözəl, münbit, geniş torpaqlarda Albaniyanın əhalisi, tədqiq edilən dövrdə, geniş miqyasda əkinçilik, bağçılıq və üzümçülüklə məşğul olurdu.

Yazılı mənbələrin və arxeoloji materialların öyrənilməsi göstərir ki, tədqiq edilən dövrdə, geniş, münbit torpaqlara malik olan Albaniya əhalisinin əsas məşğuliyyəti əkinçilik olmuşdur. Əhali əkinçiliklə Kür çayının hər iki sahili boyunda, Araz çayı boyunca, Muğan və Mil düzlərində və başqa yerlərdə məşğul olurdu. Əkinçilik də əsasən becərmə, şumlama ilə aparılırdı. Yerin şumlanmasında geniş işlədilən alətlər ağır kotan, dəmir bel və xışdan ibarət olmuşdur. Əkinçilikdə suvarmadan da geniş istifadə edilmişdir. Yazılı mənbələr, arxeoloji materiallar və etnoqrafik müşahidələr Albaniyada ilk orta əsrlər dövründə suvarma əkinçiliyinin geniş tətbiq olunduğunu və yüksək səviyyədə olduğunu göstərir. Arxeoloji qazıntılar nəticəsində əldə edilmiş əkinçilikdə istifadə edilən çoxlu miqdarda əmək alətləri albanların və Albaniyada yaşayan tayfaların əkinçilik mədəniyyətinin ilk orta əsrlər dövründə yüksək inkişafını tam aydınlığı ilə gözə çarpdırır və əmək məhsuldarlığının xeyli artımını göstərir.

Yazılı mənbələrin materiallarının araşdırılması, ilk orta əsrlərə aid mədəni təbəqələrdən arxeoloji qazıntılar zamanı əldə olunmuş, bağçılıq və bostançılıqda istifadə edilən əmək alətləri, Albaniyada tədqiq edilən dövrdə bağçılığın və bostançılığın xeyli inkişaf etdiyini göstərir. Gözəl coğrafi şərait, münbit torpağın, çoxlu çayların varlığı, habelə süni suvarma sisteminin olması – bütün bunlar çoxlu miqdarda taxılın, bostan və bağ məhsullarının yetişməsinə şərait yaradırdı. Albaniyanın əhalisi tədqiq edilən dövrdə taxıl (buğda, arpa, darı, və s.), bostan məhsulları (qarpız, qovun, balqabaq, xiyar), texniki bitkilər (zeytun, zəfəran, marena, və s.) yetişdirirdi. Bu dövrdə pambıq-

çılıqla, üzümçülüklə, bağçılıqla (zoğal, şaftalı, albalı, gavalı, ərik, nar, qoz, fındıq, badam, şabalıd, əncir) məşğul olurdular. Bu dövrdə üzümçülüyün inkişafı şərabçılığın inkişafı üçün geniş imkan yaradırdı. İlk orta əsrlərdə Albaniyada şərabçılıq çox inkişaf etmişdir. Bu dövrdə üzümdən yalnız şirə və şərab deyil, ləzzətli içki, turşu-şirin (boza), sirkə, şoraba, abqora və yemək şeyləri–doşab, riçal, kişmiş və başqa məhsullar da hazırlanaraq geniş istifadə edilmişdir.

§ 2. Maldarlıq və sənətkarlıq təsərrüfat sahələri

Ölkədə tədricən feodal istehsal münasibətlərinin, istehsal vasitələrinin inkişafı məhsuldar qüvvələrin və istehsal alətlərinin inkişafına təkan verdi. Bu da iqtisadi həyatda təsərrüfatın bütün sahələrinin, o cümlədən qədimdən maldarlıq və sənətkarlıq məmləkəti olan Albaniyada tədqiq etdiyimiz dövrdə bu təsərrüfat sahələrinin daha da genişlənməsinə və inkişafına səbəb oldu. İlk orta əsrlərdə Albaniyanın ərazisində kənd təsərrüfatının əsas sahələrindən birini maldarlıq təşkil etmişdir. Məmləkətin ərazisində maldarlığın geniş inkişafı üçün alp çəmənliklərinin və düzənliklərinin varlığı heyvanların qışlaq və yaylaq şəraitində bəslənib inkişaf etdirilməsi üçün həmişə gözəl imkan yaratmışdır. Lakin təəssüflə qeyd edilməlidir ki, Azərbaycan tarixşünaslığında Albaniyanın ilk orta əsrlərdə maldarlığın və sənətkarlığın inkişaf tarixi az tədqiq edilmiş və gələcəkdə öz tədqiqini gözləyən sahələrdən biridir. Tədqiq etdiyimiz dövrdə Albaniyanın bu təsərrüfat sahələrinə «Azərbaycan tarixi»nin I cildində (292, c.I, s.86-87), K.V.Treverin (451, s.180-184), T.A.Bünyadovun (190, s.191), S.B.Aşurbəylinin (156, s.145-150), T.M.Məmmədovun monoqrafiyalarında və məqalələrində toxunulmuşdur (333, s.69-74; 341, s.20-21; 342a, s.52-61).

Məhz buna görə də Albaniyanın ilk orta əsrlərdə, yerli əhalisinin iqtisadiyyatının mühüm sahələrindən olan maldarlıq və sənətkarlıq təsərrüfat sahələrinin inkişafını müxtəlif dilli yazılı mənbələr, arxeoloji və etnoqrafik materiallar əsasında kompleks halında, ardıcıl, geniş tədqiqinə ehtiyac duyulur.

Qədim ölü dilində olan yazılı mənbələrdə Albaniyanın ilk orta əsrlərdə əhalinin təsərrüfatında görkəmli və başlıca rola malik olan maldarlıq təsərrüfat həyatına dair məlumat vardır. Yazılı mənbələrdən məlum olur ki, ilk orta əsrlərdə Albaniyada qoyun, keçi, öküz, donuz və quşlar bəslənilirdi (68, f.III). M.Kalankaytuklu məmləkətdə ev heyvanları içərisində çoxlu miqdarda qoyun, keçi, öküz, inək, at və maralların olmasını qeyd edir (79, k.I, f.26; 341, s.19). Alban tarixçisi tədqiq etdiyimiz dövrdə Albaniyada iribuynuzlu, xırdabuynuzlu heyvanların, atçılığın (o cümlədən minik atlarının) geniş inkişaf etdiyini və artdığını göstərir (79, k.I, f.26; 341, s.21).

Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumata görə alban şahı Cavanşir Xəzər xaqanının qızı ilə evlənir və onunla sülh bağlayır. Xaqan Albaniyadan apardığı «120000 baş qoyun, 8000 öküz və atı…» geri qaytarır (79, k.II, f.26; 341, s.94). Alban tarixçisi başqa bir yerdə qeyd edir ki, İran şahı II Yezdəgerd şimaldan olan basqınların qarşısını almaq üçün Albaniyada 10 min süvari qoşun saxlayırdı (79, k.II, f.26; 341, s.21). Alban tarixçisi M.Kalankaytuklu öz əsərində ilk orta əsrlərdə, xüsusən ağ at növünün olduğunu göstərir (79, k.II, f. 21).

Albaniyada ilk orta əsrlərdə maldarlıq haqqında ərəb coğrafiyaçıları Müqəddəsi (48, s.5-6, 14, 16), İstəxri (30, s.25, 39), İbn əl-Fəqih (22, s.39), İbn Haukal (21, s.97, 102) da məlumat verirlər. Ərəb coğrafiyaşünasları ilk orta əsrlərdə ev heyvanlarının – xırdabuynuzlu və iribuynuzlu heyvanların (48, s.50; 30, s.39), atların, qatırların (48, s.14; 30, s.25; 21, s.97, 102) və uzunqulaqların (21, s.102) çoxlu miqdarda bəsləndiyini qeyd edirlər. Məmləkətdə o qədər çoxlu cins, davamlı və dözümlü qatırlar bəslənirdi ki, onların bir hissəsi hətta başqa ölkələrə də ixrac olunurdu (48, s.14; 30, s.25; 21, s.97).

Albaniyada maldarlığa dair ilk orta əsrlərdə olan yazılı mənbələrin bu məlumatlarını arxeoloji materiallar və etnoqrafik müşahidələr də təsdiq edir. Arxeoloji qazıntılar zamanı Mingəçevirdə (202, s.94, 95; 201, s.77-78, t.2; 384, s.230), Qəbələdə (290, s.68) və Torpaqqalada (143, s.33) xırdabuynuzlu (qoyun, keçi), iribuynuzlu (inək, öküz), donuz, at, uzunqulaq və digər ev heyvanlarının sümükləri aşkar edilmişdir. İlk orta əsrlərə aid

Mingəçevirin (2 və 3 №-li) yaşayış yerlərindən tapılan ev heyvanlarının sümüklərinin 29,54 faizini xırdabuynuzlu, 25 faizini isə iribuynuzlu heyvan sümüklərin qalığı təşkil edir (201, s.77; 192, s.34). Mingəçevirdə xırdabuynuzlu heyvan sümükləri IV əsrə aid katakomba və taxta qutu qəbirlərində də təsadüf edilmişdir (147, s.114-143). Arxeoloji qazıntılar zamanı Qusar rayonunun Enix kəndində ata məxsus sümüklərinin qalıqları aşkar edilmişdir (458, s.176). Mingəçevirdə 2 və 3 №-li ilk orta əsr yaşayış yerlərindən də 9,09 faiz at sümüklərinin qalıqları əldə edilmişdir (201, s.77; 102, s.89). Mingəçevirdə taxta qutu qəbirdən tapılan bıçağın dəstəyində yəhərli və qantarğalı at təsviri aydın nəzərə çarpır (147, s.138). Tapılmış qliptika üzərində öküz və maral həkk olunmuşdur (303, s.23; 145, s.100). Xırdabuynuzlu heyvanlara məxsus sümük qalıqları Beyləqanda arxeoloji qazıntılar zamanı da aşkar edilmişdir (154, s.38).

Hələ qədim dövrlərdən məlumdur ki, it heyvandarlıqda mühüm qoruyucu rol oynamaqla insanların köməyinə yaramışdır. Arxeoloji və etnoqrafik müşahidələrdən məlum olur ki, ilk orta əsrlərdə də Albaniyada maldarlıqda itlərdən qoruyucu vasitə kimi çox geniş istifadə edilmişdir (192, s.58-64). Albaniyanın ilk orta əsrlərə aid arxeoloji qazıntılarından it sümüklərinin qalıqları aşkar edilmişdir. Mingəçevirin 2 və 3 № li ilk orta əsr yaşayış yerlərindən tapılan sümüklərin 0,75 faizini it sümüklərinin qalıqları təşkil edir (201, s.77; 192, s.60). C.A.Xəlilovun Xınıslıda apardığı qazıntılar zamanı eramızın V-VI əsrlərinə aid daş qutu qəbirlərinin ikincisindən insanla birlikdə it skeleti də aşkar edilmişdir. Çox ehtimal ki, burada dəfn edilən çoban imiş (457, s.217; 192, s.63). İt sümüklərinin qalıqları qazıntılar zamanı Xucabala kəndində də aşkar edilmişdir (459, s.155).

Arxeoloji materiallar və etnoqrafik müşahidələrdən məlum olur ki, ilk orta əsrlərdə Albaniyada dəvəçilik də geniş inkişaf etmişdir (192, s.98-102). Bu dövrdə dəvələrdən həm yük daşınmasında və həm də minikdə də istifadə edilmişdir. Eyni zamanda, onun ət, süd və yunundan da istifadə olunmuşdur (192, s.99-100).

Beləliklə, yazılı mənbələrin, arxeoloji materialların, etnoqrafik müşahidələrin araşdırılması göstərir ki, ilk orta əsrlərdə Qafqaz Albaniyasının iqtisadi həyatında heyvandarlıq böyük

əhəmiyyət kəsb etmiş və inkişaf edərək durmadan artmışdır. Tədqiq olunan dövrdə maldarlıqda görkəmli yeri xırdabuynuzlu (qoyun, keçi), iribuynuzlu (inək, öküz), heyvandarlıq, atçılıq, dəvəçilik və s. tutmuşdur. Coğrafi şərait ölkənin ərazisində maldarlığın geniş inkişafı üçün alp çəmənlərinin və düzənliklərinin varlığı, heyvanların qışlaq və yaylaq şəraitində bəslənib inkişaf etməsi üçün həmişə gözəl imkan yaratmışdır.

Albaniyada maldarlığın inkişafı ilə əlaqədar olaraq yerli əhali maldarlıq məhsullarından da hərtərəfli istifadə etmişdir. Bu haqda ilk orta əsr mənbələrində heç bir məlumata malik deyilik. Bu barədə bizə arxeoloji və etnoqrafik materiallar kömək edir. Arxeoloji materiallardan və etnoqrafik müşahidələrdən aydın olur ki, III-VIII əsrlərdə, yəni feodalizmin inkişaf etdiyi bir zamanda süd məhsulları daha çox hazırlanmış və ondan geniş şəkildə istifadə edilmişdir (192, s.127-130). Arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid dövrdə mal-qaranın südünün sağılmasında işlədilən xeyli miqdarda gil sərniclərlə yanaşı, metaldan qayrılmış qablar da aşkar edilmişdir (201, s.38-39, t.4; 79, 192, s.127). Arxeoloji qazıntılar zamanı südün üzünü–qaymağını almaq üçün istifadə edilən iri xeyrələr də aşkar edilmişdir (201, s.39, t.5; 192, s.127). Bu əşyalara bənzər xeyrələrdən indi də Azərbaycanın maldarlıqla məşğul olan bəzi təsərrüfatlarında az olsa da istifadə edilir (142, s.176).

Bu dövrdə maldarlığın ümumi inkişafı süddən hazırlanan məhsulların artmasına da səbəb olmuşdur. İlk orta əsrlərdə Albaniya əhalisi müxtəlif ağartı məhsulları–yağ, pendir, qatıq, qaymaq, ayran, süzmə, qurut, şor və digər süd məhsulları hazırlayırdılar (201, s.79-80; 192, s.127). Tədqiq etdiyimiz dövrə aid arxeoloji qazıntılar zamanı Mingəçevirdən gildən hazırlanmış nehrələr aşkar edilmişdir (201, s.79-80, t.18; 192, s.128). Bu nehrələrə bənzər nehrələr müasir Azərbaycanın maldarlıqla məşğul olan bəzi təsərrüfatlarında indi də az olsa da istifadə olunur (142, s.176, t.5, 8, VII, 13). İlk orta əsrlərdə Albaniyada gil nehrələrlə yanaşı, maldar əhali ağac və dəri nehrələrdən də məişətdə işlətmişdir (193, s.113-114; 201, s.80).

Arxeoloji materiallar və etnoqrafik müşahidələrdən aydın olur ki, maldarlığın ilk orta əsrlərdə inkişafı, Albaniyada əhali-

nin yundan və dəridən məişətdə geniş şəkildə istifadə etməsinə şərait yaradırdı (202, s.91; 201, s.80; 149; 68; 192, 131-133). Mingəçevirdə III-VIII əsrlərə aid yaşayış yerlərindən və qəbirlərdən mal-qaranı qırxmaq üçün bir neçə ədəd dəmir qayçı tapılmışdır (201, s. 80; 202, s.91; 192, s.84; 192, s.134). Burada katakomba qəbirlərdən də eyni quruluşlu dəmir qırxılıqlar aşkar edilmişdir (147, s.147; 192, s.134). Belə qırxılıqlar Azərbaycanda bəzi təsərrüfatlarda az olsa da hal-hazırda istifadə olunur (201, s.80).

Arxeoloji və etnoqrafik materiallardan aydın olur ki, malqaradan əldə olunmuş yun toxuculuq üçün əvəzedilməz xammal olmuşdur (192, s.139-144; 201, s.84).

Beləliklə, yuxarıda araşdırılan yazılı mənbələrdən, arxeoloji materiallardan və etnoqrafik müşahidələrdən aydın olur ki, Albaniyada ilk orta əsrlərdə iribuynuzlu və xırdabuynuzlu heyvandarlığın inkişafı maldarlıq məhsullarının daha da artmasına və onlardan daha çox istifadəyə səbəb olmuşdur. Albaniyada yaşayan əhali feodalizmin təşəkkül tapdığı dövrdə maldarlığın ümumi inkişafına uyğun olaraq heyvandarlığın ət, süd, göndəri, yun, pendir, yağ və süd məhsullarından geniş istifadə etmiş və onlarla təmin olmuşdur. İlk orta əsrlərdə maldarlığın inkişafı öz növbəsində toxuculuqda və sənətkarlıqda xammal mənbəyinin artmasına şərait yaratmış və onu külli miqdarda xammalla təmin etmişdi. Atçılığın və dəvəçiliyin genişlənməsi isə ilk orta əsrlərdə yük daşınmasının və nəqliyyatın daha da artmasına səbəb olmuşdu.

Qeyd etmək lazımdır ki, ilk orta əsrlərdə Albaniyada yaşayan əhalinin məşğuliyyətində balıqçılıq da mühüm təsərrüfat sahələrindən birinə çevrilmişdi. Balıqçılıq Xəzər dənizi, Kür, Araz kimi böyük çayların və digər dağ çaylarının yaxınlığında yaşayan əhalinin həyatında mühüm rol oynamışdır. Yazılı mənbələrdən aydın olur ki, ilk orta əsrlərdə Albaniya əhalisi balıqçılıqla geniş şəkildə məşğul olmuşdur. Alban tarixçisi M.Kalankaytuklunun məlumatından aydın olur ki, Xəzər dənizində, Kür və Araz çaylarında çoxlu miqdarda iri və xırda balıq var idi (79, k.I, f.5; 333, s.71; 341, s.17). Alban tarixçisinin bu məlumatını eyni zamanda digər orta əsr mənbələri də təsdiq edir (78, s.54;

333, s.17). Alban tarixçisi M.Kalankaytuklunun məlumatından aydın olur ki, Kür və Araz çaylarının sahillərində yerli əhali tərəfindən balıq vətəgələri salınmışdı və yerli hakimlər bu balıq vətəgələrindən vergi alırdılar (79, k.II, f.16; 333, s.71; 341, s.22). Albaniyada balıqçılığa dair ərəb coğrafiyaçıları İstəxri (30, s.9, 25), İbn əl-Fəqih (22, s.21, 37, s.39), İbn Haukal (21, s.87) da məlumat verirlər. Ərəb coğrafiyaçısı İbn Haukalın məlumatından aydın olur ki, Kür və Araz çaylarından çoxlu miqdarda uzunburun balıq, şamayı, xanı balığı növləri tutulurdu (21, s.87). İbn Haukalın verdiyi məlumatı digər ərəb coğrafiyaçısı İstəxri də təsdiq edir (30, s.9). Şamayı balıq növü haqqında ərəb coğrafiyaçısı İbn əl-Fəqih də məlumat verir. O, qeyd edir ki, bu balıq özünün yağlılığı, dadı və ətri, ətinin çoxluğu ilə başqa balıq növlərindən fərqlənir (22, s.39). Ərəb coğrafiyaçıları İbn Haukal və İstəxrinin məlumatlarından aydın olur ki, Albaniyada o qədər çoxlu balıq ovlanırdı ki, onlar başqa ölkələrə – İraqa, Ərdəbilə və Reyə ixrac olunurdu (21, 87; 30, s.9).

Albaniyada bu dövrdə balıqçılığın olmasını arxeoloji tapıntılar da təsdiq edir. İlk orta əsrlərə aid Mingəçevir yaşayış yerindən çoxlu miqdarda daş və gildən hazırlanmış lotlar (pərsəng) tapılmışdır (202, s.91, 94-95). Daş və gil lotlar balıq torlarının aşağı hissəsinə bağlanaraq, onların müəyyən dərinliyə qədər suyun içinə çəkilməsinə səbəb olur və eyni zamanda çayda axmasına imkan vermirdi (201, s.82). Daş lotlarının uzunluğu 20-30 sm, eni 15-20 sm, qalıqlığı 7-14 sm, ağırlığı isə 2-5 kq-a qədər olurdu (201, s.82). Kiçik çarx formasında olan gil lotların ağırlığı isə 0,4-1,2 mq-a qədər olurdu (201, s.82). Qazıntılar zamanı ilk orta əsrlər yaşayış yerinin mədəni təbəqələrindən xeyli miqdarda əhalinin istifadə etdiyi balıq növləri–mərsin, uzunburun balıq, ağ balıq, sazan, naqqa, şamayı, xəşəm və s. balıq növlərinin ixtioloji qalıqları aşkar olunmuşdur (201, s.82). Balıqların ixtioloji qalıqları Beyləqan qazıntılarından da aşkar edilmişdir (154, s.38).

Beləliklə, yuxarıda araşdırılan yazılı mənbələrdən və arxeoloji materiallardan aydın olur ki, ilk orta əsrlərdə Albaniyada balıqçılıq mühüm təsərrüfat sahələrindən birinə çevrilmişdi.

Balıqçılıqla yerli əhali Xəzər dənizi, Kür və Araz kimi iri çayların və digər dağ çaylarının sahilində məşğul olurdu. Ölkə-

də ilk orta əsrlərdə balıq o qədər çox istehsal olunurdu ki, hətta onu xarici ölkələrə də ixrac edirdilər.

Albaniyada tədricən feodal istehsal münasibətlərinin, istehsal vasitələrinin inkişafı məhsuldar qüvvələrin və istehsal alətlərinin inkişafına təkan verdi. Bu da iqtisadiyyatın bütün sahələrinin, o cümlədən qədimdən sənətkarlar ölkəsi olan Albaniyada tədqiq etdiyimiz dövrdə bu təsərrüfat sahəsinin daha da genişlənməsinə və inkişafına təkan verdi. İlk orta əsrlərdə Albaniyanın əhalisinin təsərrüfat həyatında digər sahələrlə bərabər, müxtəlif sənətkarlıq sahələri də başlıca yerlərdən birini tutmuşdur. Albaniyanın təbii zənginliyi burada müxtəlif sənət növlərinin inkişafına əlverişli şərait yaratmışdır. Belə sənət sahələrindən ən qədimi və əhəmiyyətlilərindən biri də toxuculuq olmuşdur.

İlk orta əsr yazılı mənbələrindən məlum olur ki, tədqiq etdiyimiz dövrdə Albaniyada toxuculuq geniş şəkildə inkişaf etmişdi (79, k.I, f.5; 333, s.70; 341, s.21). Mənbələrdən bu da aydın olur ki, ilk orta əsrlərdə ölkədə müxtəlif rəngli ipək, kətan parçalar istehsal olunurdu (79, k.I, f.19; 333, s.70; 341, s.21). Bu parçalardan gözəl paltarlar və şahlara məxsus geyimlər tikirdilər (79, k.I, f.19; 333, s.70; 341, s.21). Alban tarixçisi M.Kalankaytuklu albanların ilk orta əsrlərdə müxtəlif çeşid və rəngli xalça toxuduqlarını da xəbər verir (79, k.I, f.5). İlk orta əsr mənbələrindən daha sonra aydın olur ki, Kür çayı boyunca yetişdirilən çoxlu tut ağacları ipəkçiliyi xammal ilə təmin edirdi (79, k.I, f.5; 341, s.21).

Maldarlığın və xüsusi ilə qoyunçuluğun ilk orta əsrlərdə Albaniyada geniş yayılması və inkişafı toxuculuq sənəti üçün əsas xammal mənbəyi yaratmışdır (192, s.139-144; 201, s.84). Məhz tədqiq etdiyimiz dövrdə Albaniyada toxuculuğun inkişafında yun xammal kimi mühüm yer tuturdu (192, s.139-144; 201, s.84). Ölkədə ilk orta əsrlərdə digər xammal mənbələrini pambıq, kətan təşkil edirdi (201, s.84).

Alban tarixçisi M.Kalankaytuklunun ilk orta əsrlərdə ölkədə toxuculuq haqqında verdiyi məlumatları ərəb coğrafiyaşünasları təsdiq edib daha da tamamlayırlar. Ölkədə ipək və kətan parçalarının geniş miqdarda və keyfiyyətli istehsalı haqqında İstəxri (30, s.7, 11), İbn Haukal (21, s.87, 89), Müqəddəsi (48, s.14), Yaqut Həməvi (62, s.23) məlumat verirlər.

Yazılı mənbələrin toxuculuğa dair məlumatlarını arxeoloji qazıntılar zamanı tapılmış materiallar da təsdiq edir. Arxeoloji qazıntılar zamanı əyiricilik və toxuculuğun inkişafını göstərən əmək alətlərinin tapılması da Albaniyada ilk orta əsrlərdə toxuculuq sənəti haqqında geniş təsəvvür yaradır. Mingəçevirdə, Dərbənddə arxeoloji qazıntılar zamanı katakomba qəbirlərindən, habelə yaşayış yerlərindən toxuculuq dəzgahlarının hissələrinin qalıqları (202, s.91, 94; 149, s.68; 201, s.86; 451, s.81; 317, s.35), gildən iy, iy başlıqları aşkar edilmişdir (202, s.91, 94; 149, s.68; 201, s.86; 451, s.81; 317, s.35). Mingəçevirdə 3 nömrəli yaşayış yerində xalçanın qalıqları (201, s.86; 192, s.144) və hananın hissələrinin qalıqları aşkar olunmuşdur (303, s.18; 192, s.141, 144).

Mingəçevirdən əlavə toxuculuq dəzgahlarının hissələrinin qalıqları qazıntılar zamanı Babadərvişdə (130, s.58) və gildən hazırlanmış iylə iy başlıqları Beyləqanda da (154, s.60) aşkar olunmuşdur. Bu cür iy və iy başlıqları az da olsa bu gün də Azərbaycanda bəzi bölgələrdə toxuculuqda istifadə olunur (298, s.117; 303, s.20; 33; 202, s.91, 94; 149, s.68; 201, s.84). Albaniyada ilk orta əsrlərdə toxuculuğun inkişafı bir sıra xırda peşələrin də meydana çıxmasına və onunla əlaqədar şəkildə inkişaf etməsinə səbəb olmuşdur. Bunlardan biri də boyaqçılıqdır. Ölkədə istehsal olunmuş parçanı, lifi, ipi, yaxud da paltarın özünü bir çox bitkilərin kök, gövdə, qabıq və çiçəyindən, habelə başqa materiallardan müxtəlif üsulla alınan cürbəcür rəngdə boyamışlar (248a, s.23-25; 190a, s.90-93). Albaniyada ilk orta əsrlərdə marena (qırmızı rəng verən bitki) kimi bitkinin boyaqçılıq məqsədi ilə yetişdirilməsi yazılı mənbələrdən bizə məlumdur (21, s.98; 30, s.39; 48, s.6). Bu bitkinin çox yerdə – Bərdədə, Dərbənddə, Varsanda yetişdirildiyi haqqında bizə yazılı mənbələr məlumat verirlər (21, s.98). Albaniyada toxuculuqda boyaq maddəsindən ilk orta əsrlərdə geniş istifadə olunmasını arxeoloji qazıntılar da təsdiq edir. Arxeoloji qazıntılar zamanı ilk orta əsr mədəni təbəqələrindən Torpaqqalada (143, s.33) və Beyləqanda (154, s.60) çoxlu miqdarda boyaq maddələrinin qalıqları aşkar olunmuşdur.

Arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid Mingəçevir yaşayış yerlərinin və katakomba qəbirlərinin mədəni təbəqələ-

rindən xeyli miqdarda müxtəlif parça (yun, ipək, kətan) qalıqları, yundan, iplikdən, pambıqdan, ipəkdən hazırlanmış sap yumaqları aşkar olunmuşdur (201, s.85; 192, s.138). Mingəçevirdə aşkar olunmuş ipək parçaların bir qismi çox güman ki, Orta Asiya və Çindən gətirilmişdir (201, s.86).

Orta əsr yazılı mənbələrindən məlum olur ki, Albaniyada ilk orta əsrlərdə toxuculuğun mərkəzləri Bərdə və Dərbənd şəhərləri idi (30, s.7, 9, 11; 21, s.87, 88, 89; 62, s.23; 48, s.14). Bunlar haqqında bizə məlumatları ərəb coğrafiyaçıları İstəxri, İbn Haukal, Yaqut Həməvi və Müqəddəsi məlumat verirlər (30, s.7, 9, 11; 21, s.87, 88, 89; 62, s.23; 48, s.14). Bərdənin ipəkçiliyi haqqında İstəxri belə yazır: «Bərdə qədər xeyli böyük, çiçəklənən və gözəl bir şəhər yoxdur. Bərdədən çoxlu ipək ixrac olunur. İpəkqurdlarını heç kimə məxsus olmayan tut ağacları yarpağı ilə bəsləyirlər. Oradan İrana, Xuzistana çoxlu miqdarda ipək göndərilir» (30, s.7, 9, 11).

Yazılı mənbələrdən məlum olur ki, toxuculuğun digər mərkəzi Dərbənd şəhəri olmuşdur. Bu haqda bizə ərəb coğrafiyaçıları İstəxri (30, s.7,9) və İbn Haukal (21, s.87) məlumat verirlər. İstəxridən məlum olur ki, Dərbənddə xüsusi kətan parçalar və onlardan tikilmiş paltarlar istehsal olunur ki, bu parçalar və paltarlar Azərbaycanın (Albaniyanın) heç bir şəhərində hazırlanmırdı (30, s.11). Bu məlumatı daha da tamamlayaraq digər ərəb coğrafiyaçısı İbn Haukal göstərir ki, kətandan hazırlanmış bu paltarlar başqa ölkələrə də ixrac edilirdi (21, s.89). Albaniyada kətandan hazırlanmış paltarlar ilk orta əsrlərdə başqa ölkələrə də çoxlu miqdarda ixrac olunurdu (30, s.11; 21, s. 89; 62, s.23).

Beləliklə, yazılı mənbələrin məlumatları, arxeoloji qazıntılardan tapılan materialların və etnoqrafik müşahidələrin araşdırılması göstərir ki, ilk orta əsrlərdə toxuculuq bir sənət olaraq xeyli inkişaf etmiş və yerli əhalinin iqtisadiyyatında mühüm yerlərdən birini tutmuşdur. İlk orta əsrlərdə Albaniyada müxtəlif növ yerli xammalın olması toxuculuğun inkişafı üçün geniş imkanlar yaratmışdı. Bu dövrdə ölkədə toxuculuq əsasən qəsəbələrdə, kəndlərdə, şəhərlərdə daha da geniş inkişaf etmişdi. Bərdə və Dərbənd şəhərləri ilk orta əsrlərdə toxuculuq mərkəzlərinə çevrilmişdi. Toxuculuq məhsulları başqa ölkələrə də ixrac olunurdu.

Metallurgiya və metalişləmə Albaniyada ilk orta əsrlərdə əhalinin həyatında əhəmiyyətli rol oynamışdır. Alban tarixçisi M.Kalankaytuklu tədqiq etdiyimiz dövrdə metallurgiyanın və metalişləmənin inkişafı haqqında bizə məlumat verir (79, k.II, f.19; 333, s.70; 340, s.21-22). Alban tarixçisi ölkədə mis, dəmir, qızıl, gümüş istehsalı ilə və onların emalı ilə məşğul olan sənətkarların və ustaların olduğunu qeyd edir (79, k.II, f.16; 333, s.70; 340, s.21-22). Onun məlumatlarından aydın olur ki, ilk orta əsrlərdə Albaniyada zinət şeyləri hazırlayan sənətkarlar–zərgərlər (79, k.II, f.16; 333, s.70; 340, s.21-22) var idi ki, onlar müxtəlif metaldan hazırlanmış qabları və əşyaları qaş-daşla, qızılla və gümüşlə bəzəyirdilər, onlar qızıldan xaçlar (79, k.I, f.21, 23), qiymətli əşyalar və qablar hazırlayırdılar (79, k.I, f.23).

Alban tarixçisinin bu məlumatlarını orta əsr ərəb coğrafiyaçısı İbn Haukal da təsdiq edir. O yazır ki, Albaniyada ustalar və sənətkarlar «zinətli əşyaların və qabların hazırlanmasında qızıldan və gümüşdən geniş istifadə edirlər…» (21 s. 104).

Yuxarıda göstərilən yazılı mənbələrdən, arxeoloji qazıntılar zamanı əldə olunmuş materiallardan da bəlli olur ki, Albaniyada sənətkarlar, ustalar, zərgərlər qızıldan, gümüşdən, misdən və digər metallardan qadınlar üçün necə gözəl bəzək şeyləri və müxtəlif əşyalar hazırlamışlar. Mingəçevirdə ilk orta əsrlərə aid materiallar arasında qızıldan hazırlanmış sırğalar (144, s.20, 22-23, t.III, ş.1, 2, 5, 6, 7; 202, s.98, ş.31, 2, 3, 4, 5; 384, s.228, t.VII, ş.9; 149, s.10), qızıl boyunbağılar (144, s.37, t.IV, ş.8), qızıldan möhür-üzüklər (144, s.37, t.VII, ş.2), qızıl asmalar (144, s.28, t.IV, ş.2), gümüşdən toqqalar (144, s.32; 202, s.98, ş.31, 3) tapılmışdır. Mingəçevirdən ilk orta əsr mədəni təbəqələrindən qızıldan (303, s.20, 29, t.III, ş.8) və gümüşdən (201, s.62; 384, s.228, t.XII, ş.8) hazırlanmış üzüklər, gümüş sırğalar, gümüş sancaqlar (149, s.68, ş.29, 1-6; 201, s.63, t.XIII, ş.18, 24; 384, s.228, t.XII, ş.8), gümüş bilərziklər tapılmışdır (299, s.397; 384, s.228, t.VI, ş.I, s.230, t.IX, ş.3). Mingəçevirdə qızıl və gümüşdən hazırlanmış bəzək şeylərindən əlavə başqa materiallardan da hazırlanmış bəzək əşyaları (149, s.68, ş.29, 10; 384, s.228, t.VII, ş.2-3, s. 232, t.X, ş.6; 201, s.58, t.XII, s.22), bilərziklər, toqqa bəndi (342a, s.57), üzüklər (342a, s.57), sırğalar (342, s.57), toqqalar (342a, s.57), toqqa bəndləri, sancaqlar (342a, s.57) tapılmışdır.

İlk orta əsrlərə aid bəzək əşyaları (üzüklər, sırğalar, bilərziklər, toqqa bəndləri, toqqalar, çoxtərəfli asma bəzəklər) Qəbələdə (209, s.68), Qusar rayonunun Enix kəndində (458, s.176, t., ş.9-11; s.177, t.ş.1,4,8,7), Xınıslıda (462, s. 37; 457, s. 217, ş. 6,8,11,12) (Şamaxı), Xucabala kəndində (459, s.159, ş.4; 1,4,5,8, s.167, ş.1,2,5) və Beyləqanda (154, s.45; 155, s.58) tapılmışdır.

Mingəçevirdə ilk orta əsrlərə aid mədəni təbəqələrdən çoxlu miqdarda (əqiq, kaolinit, oniks, litoqrafiya daşı, şüşə, şəvə, sədəf, pasta, balıqqulağı, gil və tuncdan hazırlanmış) müxtəlif biçimli muncuq və asmalar aşkar olunmuşdur (149, s. 68,71, ş. 27, 6-11, ş.29, 14, 17; 303, s. 20, 25, 26; 384, s. 228, t.VII, ş.5, 299, 231, t.XI, ş.1, s. 233, t.VII, ş.1; 201, s. 63, t. XV). Muncuqlar Qusar rayonunun Enix kəndindən (458, s.176, t. ş. 9-11), Xınıslıdan (Şamaxı) (462, s.38, t.VIII, ş.9; 457, s.217), Xucabaladan (Quba) (459, s.159), Torpaqqaladan (143, s.40, t.4, ş.6-7, s. 41, t.IV, ş.3) və başqa yerlərdən tapılmışdır (155, s.58).

Arxeoloji materialların öyrənilməsi göstərir ki, Albaniyada metal ustaları həm tökmə işi, həm də dəmirçiliyin müxtəlif növləri ilə məşğul olmuşlar. Alban sənətkarları, ustaları əlvan metalın və digər metalların emalında isti və soyuq texniki üsullardan–lehimləmə, lehimləyib yapışdırma, döymə, əritmə, zərb etmədən geniş istifadə etmişlər (144, s.9; 149, s.70, ş.1-8; 154, s.46).

Beləliklə, yuxarıda araşdırılan yazılı mənbələr və arxeoloji materiallar göstərir ki, ilk orta əsrlərdə metallurgiya və metalişləmə Albaniyada geniş və yüksək şəkildə inkişaf etmişdi. Bu sənət sahəsi tədqiq etdiyimiz dövrdə əhalinin həyatında mühüm rol oynamışdır. Yuxarıda göstərilən məlumatlardan aydın olur ki, ilk orta əsrlərdə dəmirçilik, misgərlik, zərgərlik kimi metalişləmənin ayrı-ayrı sahələri inkişaf etmişdi və onların inkişafı qonşu ölkələrin sənətkarlarının istehsalından geridə qalmırdı. Bu dövrdə hazırlanmış bəzək əşyaları çox yüksək səviyyədə olmuş və qonşu ölkələrin sənətkarlarının hazırladığı bəzək şeylərindən və əşyalarından geridə qalmamışdır.

Albaniyada ilk orta əsrlərdə yerli əhalinin məşğul olduğu sənət sahələrindən biri də dulusçuluq olmuşdur. Yazılı mənbələr ilk orta əsrlərdə Albaniyada dulusçuluq sənəti haqqında bizə məlumat verir. İlk orta əsr yazılı mənbələrdən aydın olur ki,

dulusçuluq inkişaf etmişdir (87, k.V, f.4; 333, s.70; 341, s.21; 340, s.13). Bu məlumatı alban tarixçisi M.Kalankaytuklu da təsdiq edir. O, yazır ki, alban dulusçuları «müxtəlif formada qiymətli, şahlara məxsus qablar» istehsal edirdilər (79, k.I, f.23; 333, s.70; 341, s.21), zərgərlər isə bu qabları qızıl ilə, gümüşlə və qaş-daşla bəzəyirdilər (79, k.I, f. 19). Ərəb coğrafiyaçısı İbn Haukal da dulusçu sənətkarlar haqqında bizə məlumat verir. O, bu haqda belə yazır: … «Bu ölkələrdə (Arran və Azərbaycan)… çoxlu gəlirə malikdirlər, onlar qiymətli qabları hazırlayarkən geniş şəkildə qızıldan, gümüşdən istifadə edirlər…» (21, s.99; 156.s.161).

Dulusçuluq sənətinin və istehsalının ilk orta əsrlərdə olmasını arxeoloji materiallar və qazıntılar da təsdiq edir. Mingəçevirdə (202, s.91; 149, 68, ş.26-4; 303, s.20; 384, s.229, 230; 203, s.134), Xınıslıda (Şamaxı) (457, s.217, ş. 6, 1-3), Qəbələdə (290, s. 69, 67; 297, s. 75), Torpaqqalada (143, s.33-34), Şamaxı rayonunun Dağkolanlı kəndində (460, s.115, 116, t.I, ş.1-6, II, ş. 1-2, 5-8), Qusar rayonunun Enix kəndində (458, s.176, s. 13-15, t.I, ş.1-6), Qazıməmmətdə (461, s.917, 918), Xucabalada (459, s.155-156), Beyləqanda (154, s.46, 47; 156), Örənqalada (481, s.223, 224) və başqa yerlərdə (317, s.27-28) çoxlu miqdarda ilk orta əsrlərə aid külli miqdarda dulus məmulatı (bardaqlar, sərniclər, çıraqlar, küplər, dolçalar, kuzələr, şamdanlar, bərnilər, dopular, camlar, su qabları, xeyrələr, nəlbəkilər, qapaqlar, çaynikvari qablar, zoomorf qablar, oyuncaqlar) aşkar edilmişdir.

Öz forma və tərkibi cəhətcə ilk orta əsr gil məmulatı özündən əvvəlki və sonrakı dövr gil məmulatından fərqlidir. Bu fərq əsasən onun texnologiyasında, xüsusilə formalaşmasında daha aydın hiss olunur. Belə bir vəziyyətə əsaslanan tədqiqatçıların əksəriyyəti bu dövrü dulusçuluqda düşkünlük, geriləmə dövrü kimi xarakterizə edirlər (201, s.34, 35, 84; 225, s.64). Bir qrup tədqiqatçılar tənəzzülün başlıca səbəbini ölkədə gedən müharibələrdə, köçərilərin arasıkəsilməz basqınlarında və bunun nəticəsində sənətkarların başqa ölkələrə aparılmasında (201, s.34, 35; 225, s.66), bəzi tədqiqatçılar iqtisadi dəyişiklikdə, feodal istehsal münasibətlərinin inkişafında (400, s.5), digərləri isə ilk orta əsrlərdə cəmiyyətdə baş vermiş ictimai-iqtisadi proseslərdə

dəyişiklik nəticəsində əkinçiliyin aparıcı sahəyə çevrilməsində görürlər (465, s.174; 154, s.47). Biz axırıncı iki fikri bölüşməklə müəyyən dərəcədə onlarla razılaşırıq. Lakin bununla belə qeyd etmək istəyirik ki, ilk orta əsrlərdə dulusçuluq sənətində baş vermiş bu vəziyyət əsasən istehsal qüvvələrində və münasibətlərində baş vermiş dəyişikliklərlə daha çox əlaqəli olmuşdur. Bu dövrdə ölkədə şüşə istehsalının, əlvan və digər metaldan istifadə edərək düzəldilmiş qabların artımına, digər sənət sahələrinin inkişafına şərait yaranmışdı. Bunlardan əlavə, çox güman ki, digər ictimai-iqtisadi proseslər də olmuşdur. Çünki dulusçuluq istehsalı sahəsində baş vermiş tənəzzül təkcə Albaniyada baş verməmişdir. Belə vəziyyət Zaqafqaziyanın başqa yerlərində də (138; 465, s.174), həmçinin Krımda–Tavrində (489, s. 10), Orta Asiyada (385, s.259; 449, s.248-249) və Dağıstanda da (400, s.6) aparılan qazıntılar zamanı müşahidə edilmişdir.

İlk orta əsrlərdə Albaniyada gil qabların hamısı dulus kürələrində bişirilmişdir. Belə kürələrin qalıqları qazıntılar zamanı ilk orta əsrlərə aid mədəni təbəqələrdən–Mingəçevirdən (287, s. 57-72, ş. 15-19, 22; 201, s. 83), Quba rayonunun Xucabala (459, s. 157, ş. 3), Qax rayonunun Torpaqqala (200, s.208-210) yaşayış yerlərindən tapılmışdır.

İlk orta əsrlərdə Albaniyada hazırlanan gil məmulatını dulusçular əsasən əl ilə hazırlamışlar (201, s. 36; 459, s. 155; 458, s.176; 460, s.115; 155, s. 54, 56; 154, s. 47, 400, s. 16). Məhz buna əsaslanaraq, bu dövrdə dulus istehsalat çarxının tamamilə aradan çıxdığını qeyd edirlər. Lakin ilk orta əsr abidələrindən son illərdə əldə edilmiş gil məmulatı dulusçuluqda hələ bu dövrdə az da olsa dulus çarxından istifadə edildiyini göstərir (201, s. 36; 155, s. 54, 56; 154, s. 47, 400, s.13, 16).

Beləliklə, tədqiq edilmiş yazılı mənbələr, arxeoloji materiallar göstərir ki, Albaniyada ilk orta əsrlərdə dulusçuluq istehsalında baş vermiş durğunluğa baxmayaraq, gil məmulatı əhalinin təsərrüfatında və məişətində olduqca geniş yer tutmuşdur.

Albaniyada ilk orta əsrlərdə yerli əhalinin məşğul olduğu sənət sahələrindən biri də şüşə məmulatı istehsalı kimi nisbətən incə və mürəkkəb sənət sahəsinin mövcud olmasıdır. Bunu arxeoloji qazıntılar zamanı aşkar olunmuş şüşə məmulatı da təs-

diq edir. Arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid mədəni təbəqələrdən –Mingəçevirdən (201, s. 54-58; 149, s. 68; 384, s.233), Xınıslıdan (457, s.217 391, s. 89-90), Qəbələdən (290, s.67), Torpaqqaladan (143, s.34; 200, s. 207, 210), Beyləqandan (154, s.55), Dərbənddən (317, s. 30) şüşədən hazırlanmış qablar (piyalələr, kuzələr, vazalar), bəzək əşyaları və digər məmulatlar tapılmışdır. Çox güman ki, tapılmış bu şüşə məmulatların bir hissəsi ilk orta əsrlərdə Albaniyada istehsal olunmuşdur. Mingəçevirdən və Xınıslıdan (202, s. 99; 391, s. 89-91) aşkar olunmuş cam formalı şüşə qabların yerli istehsal nümunəsi olduğunu tədqiqatçılar müəyyənləşdirmişdir. Bu sahədə daha yeni məmulatlar aşkar olunmuşdur. İlk dəfə olaraq Albaniyadan qazıntılar zamanı Torpaqqala yaşayış yerindən ilk orta əsrlərə aid mədəni təbəqədən şüşə istehsal edən emalatxana qalıqları və istehsalat çarxları aşkar olunmuşdur (200, s.210).

Beləliklə, yuxarıda göstərilən faktlar ilk orta əsrlərdə Albaniyada yaşayan ustaların şüşə istehsalı ilə məşğul olması və şüşə istehsalı sahəsində geniş məmulata malik olmasını bir daha sübuta yetirir.

İlk orta əsrlər mədəni təbəqələrindən arxeoloji qazıntılar zamanı aşkar olunmuş əmək alətləri də sənətkarlığın geniş vüsət almasına sübutdur. Mingəçevirdən ilk orta əsr mədəni təbəqələrindən kənd təsərrüfatında istifadə olunan əmək alətləri – dəmir oraqlar, dəryazlar, sümük barmaqlıqlar, dən daşları, əldəyirmanları (202, s.91, 94; 201, s.69; 149, s.71; 148, s.5; 190, s.29-31), xışlar, dəmir gavahanlı toxalar (201, s.74; 190, s.11, 99) aşkar olunmuşdur (203, s.137; 190, s.52; 201, s.70).

Dən daşları Beyləqanda (154, s.58) və Qazıməmmədli rayonunda aşkar olunmuşdur (461, s.918, t.II, ş.4). Bu cür əldəyirmanlarından hal-hazırda bəzi yerlərdə istifadə edilir (308, s.42). Mingəçevirdə ilk orta əsrlərə aid mədəni təbəqədən qazıntılar zamanı digər əmək alətləri, toxuculuqda istifadə edilən dəzgah hissələri və müxtəlif toxuculuq (iy, iy başlıqları, mil) alətləri (202, s.91; 201, s.85; 149, s.68), toxuculuq dəzgahları (hana qalıqları) (149, s.68; 201, s.86; 192, s.139), qoyunçuluqda istifadə edilən qırxılıqlar (dəmir qayçılar) (201, s.80; 192, s.84), oraqvarı bıçaqlar, digər əmək (sacayaq, vedrə, cam, dəmir çömçə, təndir

ərsini, tunc abgərdən, təknə, bıçaqların sümük və ağac sapları və s.) alətləri (149, s.68; 201, s.23, 30, 76; 190, s.67, 70) və bıçaqlar aşkar olunmuşdur (202, s.91-94; 384, s.234, t.XI, ş.7).

İlk orta əsrlərə aid dəmir bıçaqlar eyni zamanda digər yaşayış yerlərində – Xınıslıda (457, s.217, ş.6, 5-6), Xucabala kəndində (459, s.162), Torpaqqalada (143, s.36) və Beyləqanda da tapılmışdır (154, s.45).

Tədqiq etdiyimiz dövrdə Albaniyada yerli əhali silah istehsalı ilə də məşğul olunmuşdur. Arxeoloji qazıntılar zamanı ilk orta əsr mədəni təbəqələrindən, Mingəçevirdə (149, s.68; 384, s.234), Qusar rayonunun Enix kəndində (458, s.177, t. 16, 17), Xınıslıda (457, s.217), Torpaqqalada (143, s.36, t.2, ş.1-2, 6-10), Beyləqanda (154, s.45; 155, s. 58) və Muğanda (155, s.58), Dərbənddə (317, s.34) tapılmış çoxlu silah bunu təsdiq edir.

Albaniyada iri feodallar, əyanlar, zadəganlar, şahlar və azçox əmlakı olan hər bir insan özünəməxsus möhürə malik idi. Bu haqda bizə yazılı mənbələrdən məlumat verirlər. Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, alban şahları və əyanları özlərinə məxsus möhürlərə malik idilər (79, k.I, f.23). Bu möhürlər əsasən iki növdə olublar: daha çox yayılmış möhür-üzüklər və möhürlər (79, k.I, f.23). Alban tarixçisinin verdiyi məlumatdan aydın olur ki, əyanlar, şahlar və ayrı-ayrı şəxslər öz hüquqlarını təmsil etmək üçün bu möhürlərdən istifadə etmişlər. Onlar hər hansı bir sənədi qəbul və təsdiq edərkən, o sənədin altında öz möhürlərini vurmuşlar (79, k.I, f.23). Alban tarixçisi M.Kalankaytuklu öz əsərində V əsrə aid ictimai-iqtisadi hüquqi və siyasi cəhətdən çox mühüm bir sənədin qəbul olunduğu haqda məlumat verərək bu sənədin altında şahın və onun əyanlarının möhür-üzükləri və möhürləri ilə onu təsdiq etdiklərini göstərir (79, k.I, f.23). Möhür-üzüklərin və möhürlərin varlığını ilk orta əsrə aid arxeoloji tapıntılar da yazılı mənbələrin məlumatlarını təsdiq edir. İlk orta əsrlərə aid mədəni təbəqələrdən qazıntılar zamanı çoxlu möhürlər və möhür-üzüklər aşkar olunmuşdur (202, s.95; 203, s.131; 201, s.63, t.XII, ş.9-10, 12-14, 16, 17, 22, t.XIV, ş.2-9; 303, s.18-33, t.II, 384, s.228, t.XII ş.5, s.230, t.XII, s. 7, 10). Bu möhürləri tədqiqatçılar iki qrupa bölürlər: qaşında təsvir olan möhür-üzüklər

(201, s.63, t.XII, ş.9-10, 12-14, 16, 17, 22) və yanlarından batıq olan yarımkürəvi möhürlər (201, s.63, t.XII, ş.2-9). Bu möhürlərin hamısının ipdən asmaq üçün batıq tərəflərdən deşiyi vardır (201, s.63, t.XII, ş.2-9). Birinci qrupa daxil olan möhür-üzükləri, əsasən gümüş, tunc və dəmirdən hazırlamışlar (201, s.64). Həmin üzüklərin qaşlarının üzərində oyma, çərtmə, kəsmə yolu ilə insan, heyvan, bitki, quş rəsmləri və sair naməlum işarələr təsvir olunmuşdur. Bu möhür-üzüklərin qaşları əqiq və şüşədən hazırlanmışdır (201, s.63). İkinci qrup möhürlər isə xalsedon, əqiq və metaldan hazırlanmışdır. Bu möhürlərin müstəvi səthində qazma üsulu ilə müxtəlif təsvirlər (heyvan, quş, balıq, bitki növləri, döyüş və dini səhnələr) həkk olunmuşdur (201, s.64).

Mütəxəssislər Albaniyada ilk orta əsrlərdə arxeoloji qazıntılar zamanı tapılmış möhür-üzüklər və möhürlərin çoxunun yerli ustalar və sənətkarlar tərəfindən hazırlandığını göstərirlər (201, 65; 145, s.101; 392, s.73-82). Möhür-üzüklər, möhürlər ilk orta əsrlərdə Mingəçevirdən başqa, Albaniyanın digər yerlərindən də arxeoloji qazıntılar zamanı xeyli miqdarda aşkar olunmuşdur (415, s.106; 457, s.217, ş.10; 154,s.59).

İlk orta əsr mənbələri inşaat sənəti, inşaatla məşğul olan sənətkarlar – bənnalar və daş yonanlar haqqında bizə məlumat verirlər, (87, k.v.f.,4; 341, s.21). Bu məlumatları alban tarixçisi M.Kalankaytuklu (79, k.I f.23, 341, s.21) və arxeoloji qazıntılardan əldə olunmuş materillar da təsdiq edir. Arxeoloji qazıntılar zamanı Mingəçevirdən – ilk orta əsrlərə aid yaşayış yerlərindən xeyli miqdarda inşaat materialı, müxtəlif ölçülü çiy və bişmiş kərpic tapılmışdır (202, s.94, 203, s.130; 201, s.116; 196, s.80, 83, 85-87). Qazıntılardan eyni zamanda müxtəlif ölçülü, formalı (299, s.397, 398, 399, 201, s.120, 196, s.85-87) inşaat daşları, binaların damlarının üstünü örtən müxtəlif kirəmitlər, daş sütun parçaları, dekorativ daşlar və digər inşaat materialları tapılmışdır (299, s.397, 399, 403; 196, s.82-92, 201, s.117-123). Albaniyanın ilk orta əsrlərinə aid olan digər arxeoloji qazıntı yerlərindən də çoxlu miqdarda müxtəlif ölçülü çiy və bişmiş kərpiclər, müxtəlif formalı və ölçülü inşaat daşları və digər növ inşaat materialları tapılmışdır (480, s.90; 481, s.223, 224, 227-228; 479, s.42-43; 408, s.45; 135, s.129-133; 167, s.29-30; 290, s.183,

258, 284, 208, 302, 155, s.53, 55, 58, 62, 154, s.39; 285, s.228, 230, 231, 317, s.31-32).

Arxeoloji qazıntılar zamanı ilk orta əsr mədəni təbəqələrindən tapılmış nümunələr – daşlar və digər materiallar üzərində alban sənətkarlarının oyma, çərtmə, kəsmə sənətindən incə şəkildə, ustalıqla istifadəsinə, bacarıqlarına gözəl sübutdur (149, s.63, 68, 71; 203, s.133-134; 415, s.105, 107-109; 299, s.398-399; 303, s.23, 196, s.82, 90-92, 98, 201, s.63-68, 120-123, 137-139; 451, s.318-319,335-339; 154, s.58-59).

Müxtəlif rəsmlər üzərində təsvir olunmuş çoxlu miqdarda daşlar bizim dövrə qədər gəlib çıxmışdır. Bu əşyaların üzərində oyma, doğrama, çərtmə, kəsmə yolu ilə (196, s.82, ş-4) süvarinin, müxtəlif heyvanların, bitkilərin, quşların rəsmləri və müxtəlif həndəsi fiqurlar həkk olunmuşdur (196, s.82, ş-2-3 s. 90, 98); 203, s.133; 201. S.120-123-138, 299, s.398-400; 149, s.71; 415, s.105, 107, 109).

Albaniyada ilk orta əsrlərdə ağac, sümük üzərində kəsmə və doğrama ilə məşğul olan sənətkarların və sənətin olduğunu arxeoloji materiallar təsdiq edir (149, s. 68; 451, s. 183; 154, s. 59-68, 317; s. 351) .

Arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid mədəni təbəqəsindən Mingəçevirdə yaşayış yerindən daş üzərində yazılmış Alban yazısının tapılması və Dərbənd şəhərinin qala daşları üzərində pəhləvi yazılarının qalıqları tədqiq edilən dövrdə Albaniyada daş üzərində yazı həkk edən nəqqaş ustalarının və sənət növünün də varlığına gözəl sübutdur (299, s.399-400, ş.5-8; 203, s.135, ş.61; 201, s.97, 137-142 (ş.47-54); 196, s.98 (ş.21); 455, s.101-128; 182, s.128; 451, s.335-339, 346-353).

Albaniyada ilk orta əsrlərdə inşaatda çox mühüm rola malik olan bir sənət sahəsi – memarlıq və memarlar haqqında da yazılı mənbələr bizə məlumat saxlamışlar. İlk orta əsr alban tarixçisi M.Kalankaytuklu öz əsərində şəhərlər, yaşayış məntəqələri, məbədlər, saraylar və müdafiə tikintiləri inşa edən memarların olması haqqında bizə məlumat verir (79, k.II,f.11). Arxeoloji qazıntılar zamanı aşkar olunmuş memarlığa dair maddi mədəniyyət abidələri və qalıqları da bunu bir daha təsdiq edir. İlk orta əsrlərə aid memarlıq qalıqları və abidələri bizə Mingəçevir-

dən (203, s.130-132; 201, s.94-105; 196, s.80-100; 299, s.403; 451, s.297), Qax rayonunun Qum və Ləkim yaşayış yerlərindən (483, s.33, 35; 451, s.207-208; 167, s.29-30; 285, s.228-231), Dərbənd şəhərində olan Cümə məscidindən (182, s.143-145; 135, s.141-143, 451, s.300), möhtəşəm Dərbənd qalası və müdafiə tikintisi kimi abidədən və s. məlumdur (172; 170; 439; 408; 164; 326; 135; 401, c. I, s.76-77; 325, s.44-45).

Beləliklə, yazılı mənbələrin, arxeoloji materialların, etnoqrafik materialların, etnoqrafik müşahidələrin araşdırılması göstərir ki, ilk orta əsrlərdə Qafqaz Albaniyasının iqtisadi həyatında heyvandarlıq böyük əhəmiyyət kəsb etmiş və yüksək inkişaf etməklə durmadan artmışdır. Tədqiq olan dövrdə maldarlıqda mühüm yeri xırdabuynuzlu (qoyun, keçi), iribuynuzlu (inək, öküz), atçılıq, dəvəçilik tutmuşdur. Coğrafi şərait, ölkənin ərazisində maldarlığın geniş inkişafı üçün alp çəmənliklərinin və düzənliklərinin varlığı, heyvanların qışlaq və yaylaq şəraitində bəslənib inkişaf etməsi üçün həmişə gözəl imkan yaratmışdır. Yuxarıda araşdırılan materiallar göstərir ki, ilk orta əsrlərdə Albaniyada xırdabuynuzlu və iribuynuzlu heyvandarlığın inkişafı, maldarlıq məhsulunun daha da artmasına, ondan əhalinin daha çox istifadəsinə və təmin olunmasına səbəb olmuşdur. İlk orta əsrlərdə maldarlığın Albaniyada inkişafı əhalini ət, süd, gön, dəri, yun, pendir, yağ və digər süd məhsullarından geniş istifadə etməsinə və onlarla təmin olmalarına imkan yaratmışdı. Tədqiq etdiyimiz dövrdə maldarlığın inkişafı öz növbəsində toxuculuqda və digər sənətkarlıq sahələrində xammal mənbəyinin artmasına şərait yaratmış və onu çoxlu miqdarda xammalla təmin etmişdir. Atçılıq və dəvəçiliyin genişlənməsi isə ilk orta əsrlərdə yük daşınmasının və nəqliyyatın daha da artmasına səbəb olmuşdur.

Albaniyada tədricən feodal münasibətlərinin, istehsal vasitələrinin inkişafı məhsuldar qüvvələrin və istehsal alətlərinin inkişafına təkan verdi. Bu da iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sənətkarlığın daha da genişlənməsinə, inkişafına təkan verdi və şərait yaratdı.

Yazılı mənbələrin məlumatları, arxeoloji qazıntılardan tapılan materialların və etnoqrafik müşahidələrin araşdırılması gös-

tərir ki, ilk orta əsrlərdə Albaniyada sənətkarlıq və onun istehsalı xeyli inkişaf etmişdi və yerli əhalinin iqtisadiyyatında mühüm yerlərdən birini tutmuşdur. Yuxarıda göstərilən materialların araşdırılması göstərir ki, Albaniyada tədqiq edilən dövrdə müxtəlif sənət sahələrinin istehsalı–dulusçuluq, zərgərlik, toxuculuq, o cümlədən ipəkçilik, xalçaçılıq, şüşə istehsalı, metallurgiya və metalişləmə (dəmir, mis, gümüş, qızıl), daş, sümük və ağac üzərində nəqqaşlıq, əmək alətlərinin istehsalı (dəmir oraqlar, dəryazlar, xışlar, qırxıqlar, bıçaqlar, qayçılar, dəmir toxalar, xalça toxuyan dəzgahlar, toxuculuqda və əyiricilikdə işlədilən alətlər və dəzgahlar və s.), silah istehsalı (qılınc, xəncər, oxyay, dəbilqə, ox ucluqları, nizə), inşaatla məşğul olan istehsal sahələri xeyli inkişaf etmişdir.

Beləliklə, yuxarıda araşdırılan yazılı mənbələr və arxeoloji materiallar göstərir ki, ilk orta əsrlərdə Albaniyada balıqçılıq da inkişaf etmişdi və mühüm təsərrüfat sahələrindən birinə çevrilmişdi. Balıq ölkədə o qədər çox istehsal olunurdu ki, onu başqa ölkələrə də ixrac edirdilər.

Yazılı mənbələrin məlumatlarının, habelə arxeoloji qazıntılar zamanı əldə olunmuş materialların, etnoqrafik müşahidələrin araşdırılması göstərir ki, ilk orta əsrlərdə Albaniyada sənətkarlıq və onun istehsalı çox yüksək səviyyədə inkişaf etmiş və öz inkişafına görə qonşu ölkələrin sənətkarlıq istehsalından geridə qalmamış, Yaxın və Orta Şərq ölkələrinin istehsal səviyyəsində dururdu. Yazılı mənbələr və arxeoloji materialların araşdırılması göstərir ki, Albaniyada ilk orta əsrlərdə toxucular, dulusçular, zərgərlər, metalişləmə, iplə məşğul olan ustalar, şüşə istehsalı ilə məşğul olan ustalar, nəqqaşlar, əmək alətləri istehsalı ilə məşğul olan ustalar, silah istehsalı ilə məşğul olan ustalar, inşaatla məşğul olan bənnalar, daş yonanlar, memarlar və s. var idi.

§3. Ticarət və ticarət yolları

Albaniyada ilk orta əsrlərdə istehsalın və istehsal vasitələrinin inkişafı, şəhərlərin iqtisadi cəhətdən inkişafında mühüm əhəmiyyətə malik olan ticarətin, daxili və tranzit ticarətin daha da artmasına, genişlənməsinə səbəb oldu.

Zaqafqaziya və o cümlədən Albaniyanın ərazisindən keçən tranzit ticarət yolları, ümumdünya ticarətinin inkişafında çox böyük rola malik idilər. Ümumdünya ticarəti, beynəlxalq mübadilələr yolları üzərində yerləşən ölkələrin və o cümlədən Albaniyanın iqtisadi və mədəni cəhətdən daha da geniş şəkildə inkişaf etməsinə böyük təsir göstərirdi. Qədim Zaqafqaziya, o cümlədən Albaniya, ümumdünya tranzit ticarəti yolları vasitəsilə Hindistandan, Çindən tutmuş Hind okeanı sahillərinə qədər yerləşən ölkələrlə qiymətli məhsullar mübadilə edilən bir əraziyə çevrilmişdi.

İlk orta əsrlərdə Hindistandan gətirilən başlıca mallar əsasən bunlar idi: pambıqdan hazırlanmış parçalar, istiot, sarıkök, müxtəlif ədviyyat malları, qiymətli qaş-daş, mirvari, müxtəlif bəzək əşyaları, fil sümüyü, qara ağac, müxətəlif rənglər. Çindən ipək və ipək parçalar gətirilirdi. Qafqaz vasitəsilə Şərqə–bürünc, mis, qurğuşun, Misir və Suriya sənətkarları tərəfindən istehsal olunmuş, qızılı iplərlə nəqşlənmiş parçalar, İsgəndəriyyədə və Suriyada hazırlanmış şüşə qablar və digər mallar göndərilirdi.

Qədim dövrlərdə olan quru ticarət yolları ilk orta əsrlərdə də fəaliyyətdə idi. Bu yollar Kiçik Asiyanı Qara dəniz və Aralıq dənizi ilə birləşdirirdi.

Zaqafqaziyanın, o cümlədən Albaniyanın ərazisindən keçən əsas ticarət yollarının öyrənilməsində və araşdırılmasında bizə böyük kömək göstərən ən mühüm mənbələrdən biri coğrafi xəritədir. Bu, IV əsrdə yaşamış roma coğrafiyaçısı Kastoriyanın adına yazılmış «Tabula Peftinqer» adı ilə tanınan coğrafi xəritədir. Bu mühüm əhəmiyyətə malik olan əsər Konrad Miller tərəfindən yenidən gətirilib və redaktə edilib nəşr olunmuşdur (103).

Kastoriyanın bu xəritəsi Albaniyanın, İberiyanın və Ermənistanın tarixi coğrafiyasının öyrənilməsində böyük əhəmiyyətə malik bir mənbədir (349, s.7, 264, s.79).

Zaqafqaziya–Ermənistan, İberiya-Kartli, Albaniya-Arran ərazisindən keçən ümumdünya ticarət yolunun «Tabula Peftinqer» xəritəsinin materialları əsasında araşdırılıb öyrənilməsilə D.İ.Markvart (550), Y.A.Manandyan (350), S.T.Yeremyan (264, s.79 və.s.) və Z.İ.Yampolski (502) məşğul olmuşlar.

Qədim yunan və latın müəllifləri Aristobul, Eratosfen, Patrokul və s. məlumatına görə, hələ miladdan əvvəl IV-VII əsrlər-

dən başlayaraq Oks çayı (Amudərya) vasitəsilə Kaspi dənizinə, oradan da Kür çayı ilə Albaniya, İberiya və Kolxidanın ərazisindən keçərək, Rion çayı vasitəsi ilə Qara dəniz sahilindəki Fazis şəhərinə (indiki Poti şəhərinə) gəlib çatan ticarət yolu mövcud idi. (502, s.161). Albaniyanın ərazisindən keçən, iqtisadi və ticarət cəhətdən əhəmiyyətə malik bu böyük ticarət yolu ilk orta əsrlərdə də öz əhəmiyyətini itirməmişdir. Lakin buna baxmayaraq bəzi tədqiqatçılar (V.V.Bartold, Y.A.Manandyan, Tomson, V.Tarn) bu ticarət yolunun əhəmiyyətini və ümumiyyətlə varlığını heçə çıxarmağa çalışırlar (502, s. 261).

V.V.Bartold öz əsərində Pompeyin Albaniyaya olan yürüşünün iştirakçısı Feofan Mitilenskinin albanlara verdiyi xarakteristikaya əsaslanaraq hesab edir ki, Kaspi dənizi antik dövrdə və sonrakı əsrlərdə gəmiçilik üçün yararsız olmuşdur (171, s.11-12). Z.İ.Yampolski qədim yunan-latın müəlliflərindən Patrokul, Aristobul, Eratosfen, Strabon, Pompeni Mel, Plini, Yuli Solin, Mark Terenski Varron və başqalarının məlumatlarını araşdıraraq, müəyyən düzəlişlər edərək həmin yolun Albaniyadan keçəndən sonra İberiyaya və Kolxidadan keçərək Rioni çayı vasitəsilə Qara dəniz sahilindəki Fazis (indiki Poti) şəhərinə çatdığını göstərir (502, s.170, 350, s.7, 425, s.99).

İlk orta əsrlərdə Albaniyanın ərazisindən keçən Kür çayının gəmiçilik üçün yararlı olduğunu ilk orta əsrlərin mənbələri də təsdiq edir. İlk orta əsr erməni müəllifi Yeqişe (V əsr) Kür çayının sahilində yerləşən Xalxal şəhəri yaxınlığında çayı yalnız atın üstündə keçmək mümkün olduğunu göstərir (68, s.124-127). Bu məlumatı alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k.I, f. 29).

Digər ilk orta əsr müəllifi Lazar Parpesinin məlumatına görə, Xalxal şəhəri yaxınlığında Kür çayının o biri sahilinə yalnız qayıqla keçmək mümkün olurdu (74, s.110, 123). Matvey Edeskinin verdiyi məlumatdan aydın olur ki, Kür çayının bu hissəsini, o biri sahilə birləşdirən, çayın üzərində hərəkət edən, üzən körpü fəaliyyət göstərirdi (93). İlk orta əsrlər tarixçisi Sebeosun verdiyi məlumatdan aydın olur ki, Kür çayının üzərində hər iki sahili birləşdirən bərə var imiş (81, k.III, f.6).

Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan ay-dın olur ki, hun şahı alban şahı Cavanşirin görüşünə gedərkən Kür çayından keçəndə gəmidən istifadə etmişdir (79, k.II f.26). Alban tarixçisinin verdiyi məlumatdan aydın olur ki, bu yer Kür çayının Araz çayı ilə qovuşduğu yerdən çox yuxarıda yerləşirdi (79, k.II. f.26). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi digər məlumatdan aydın olur ki, Kür çayının sahilində (Uti vilayəti hissəsində) liman və bunun yanında çayın üzərində hər iki sahili birləşdirən körpü olmuşdur (79, k.I, f.30).

Akademik V.V.Bartold Zaqafqaziyadan, o cümlədən Albaniya ərazisindən keçən ticarət yolunu inkar edərkən, digər bir dəlil kimi Oks çayının qədim dövrlərdə Amudərya və Kaspi dənizinə tökülmədiyini iddia edir (173, s.19). Bunun əksinə olaraq prof. Q.K.Qozalişvili bütün yazılı mənbələrdə olan məlumatlara əsaslanaraq, öz əsərlərində inandırıcı surətdə sübut etmişdir ki, Amudərya çayı bir neçə dəfə öz yatağını dəyişməsinə baxmayaraq, qədim dövrlərdə də Kaspi dənizinə tökülmüşdür (232, s.160).

Kaspi dənizi ilə Qara dənizi birləşdirən, Albaniyanın və İberiyanın iqtisadiyyatında və ticarətində çox mühüm əhəmiyyətə malik olan bu ticarət yolunun varlığını Y.A.Manandyan da inkar edir (350, s.56-60). O, bu ticarət yolunun mövcud olduğunu qeyd edən qədim və ilk orta əsr müəlliflərinin, tədqiqatçılarının məlumatlarını öz əsərində xatırlamasına baxmayaraq, V.V.Bartoldun və Qurko-Kryajinin səhv fikirlərinə istinad edərək, dərin tədqiqat aparmadan, indiyə qədər bu yol haqqında olan məlumatların əsassız olduğunu göstərib onları inkar edir (350, s.56-60).

Digər bir tədqiqatçı, ingilis Vilyam Tarn Albaniyanın və İberiyanın iqtisadiyyatında və ticarətində 1500 ilə yaxın çox mühüm, böyük əhəmiyyətə malik olan bu ticarət yolunun varlığını incə şəkildə inkar etməyə çalışır (502, s.170-171).

Görkəmli tədqiqatçı Z.İ.Yampolski qədim yunan, latın, ərəb müəlliflərinin verdiyi məlumatlara və digər tədqiqatçıların araşdırmalarına əsaslanaraq ingilis alimini kəskin tənqid edərək ticarət və iqtisadi cəhətdən böyük əhəmiyyətə malik olan bu yolun antik, ilk orta əsrlər dövründə də olduğunu, fəaliyyət göstərdiyini sübut edir (502, s.171-172). Albaniyanın ərazisindən keçən bu quru və su yolunun varlığını eyni zamanda ərəb coğrafiyaçıları da təsdiq edirlər. (30, s.21,38,95).

Kaspi dənizi və Kür çayı vasitəsi ilə bu ticarət yolunun Albaniyanın ərazisindən keçdiyini və mövcud olmasını yazılı mənbələrdən başqa, arxeoloji materiallar və dəlillər də təsdiq edir. Mingəçevir arxeoloji ekspedisiyasının Kür çayı boyunda aparılan qazıntıları zamanı Albaniyanın ərazisində bir çox qədim və ilk orta əsr yaşayış yerlərinin – Səngər, Alpaut, Sarı Qaya, Şəhər Burunu, Torpaqqala və s.) aşkar edilməsi Kür çayının gəmiçilik üçün yararlı olmasına gözəl sübutdur (201, s.90).

Kür çayı üzərində yerləşən yaşayış yerlərindən ən görkəmlisi Mingəçevir yaşayış məntəqəsi olmuşdur. Kür çayı üzərində yerləşən bu yaşayış məntəqəsi, ümumdünya ticarətində Şərqlə Qərb arasında olan əlaqələrdə min illər boyu böyük rol oynamışdır (201, s.90). Arxeoloji qazıntılar zamanı Mingəçevir yaşayış yerlərindən və qəbirlərdən Çin ipək parça nümunələrinin tapılması həmin ticarət yolu vasitəsilə onların bura gətirilməsinə bir daha sübutdur (201, s.90).

Arxeoloji qazıntılar zamanı Mingəçevirdə tapılmış küp, taxta qutu, katakomba qəbirlərindən və yaşayış yerlərindən tapılan bəzi şüşə qablar, emalı sancaqlar, üzük-möhürlər, müxtəlif muncuqlar o zaman Yunanıstan, Roma, Bizans ilə ticarət əlaqələrinin mövcud olduğunu göstərir (201, s.90).

Arxeoloji qazıntılar vaxtı Mingəçevirdəki yaşayış yerlərindən, qəbirlərdən tapılan və mənşəyi parfiyalılara, sasanilərə aid olan müxtəlif üzük-möhürlər, digər möhürlər, muncuqlar və başqa bəzək şeyləri Albaniyanın cənub ölkələri – əsasən də Sasani dövlətləri ilə ticarət əlaqələrinin varlığına gözəl sübutdur. (201, s.91).

Albaniyada ilk orta əsrlərdə yerli əhalinin bilavasitə ticarətlə məşğul olmasını sübut edən və göstərən, xüsusi ilə böyük əhəmiyyətə malik olan Mingəçevirin 2№-li yaşayış yerinin ikinci təbəqəsindən aşkar edilmiş tunc tərəzi qollarının aşkar edilməsidir (201, s.91).

Arxeoloji qazıntılar zamanı Mingəçevir yaşayış yerlərindən, eləcə də qəbirlərdən aşkar edilmiş xeyli miqdarda arşaki, roma, sasani və ərəb sikkələri (201, s.91) burada ticarətin pul və sikkələr vasitəsilə aparılmasının və Albaniyada pul münasibətlərinin inkişafını göstərir (201,s.91).

Albaniyanın ərazisindən keçən ümumdünya əhəmiyyətinə malik tranzit ticarət yollarından biri də «Artaxata-Qobdi-Raresaka» (103, s.781-782; 350, s.159) adı ilə tanınan ticarət yolu idi. K.Miller bu ticarət yolunun istiqamətini aşağıdakı məntəqələr vasitəsilə müəyyənləşdirir: Bakı şəhəri yaxınlığında yerləşən məntəqədən – Xoydan, Mərənddən, Təbrizdən, Marağadan və Təxti-Süleymanın xarabalıqlarının yanından keçirdi (103, s.782). Lakin Y.A. Manandyan bu ticarət yolunun Xoydan keçməsini qəbul etməsinə baxmayaraq, K.Millerin bu fikri ilə tam razılaşmır (350, s.160).

Zaqafqaziyanın və o cümlədən Albaniyanın ilk orta əsrlərdə ərazisindən keçən ümumdünya əhəmiyyətli ticarət yollarından biri də dairəvi tranzit ticarət yolu olan Artaxata-Sanora-Armastika ticarət yolu idi.

Bu ticarət yolunun tədqiqi ilə bir sıra alimlər, o cümlədən D.İ.Markvart, (550), Y.A.Manandyan (350, s.160), S.T.Yeremyan (264, s. 79) kimi tədqiqatçılar məşğul olmuşlar.

K.Miller tərəfindən müəyyənləşdirilən dairəvi ticarət yolu, Azərbaycanın ərazisindən aşağıdakı şəkildə istiqamətləndirilir – Ordubaddan – Təbrizə, oradan Qandzsika–Kuropolis şəhərinə (indiki Rəşt şəhərinin yaxınlığında) və oradan da Araz və Kür çaylarının qovuşduğu yerlərdən, Lənkərandan, Astaradan, sonra isə Araz çayı boyunca hərəkət edərək Ordubad–Artaşata doğru gedirdi (103, s.655-656, 350, s.167).

Görkəmli tədqiqatçı D.İ.Markvart Pevtinqerin cədvəlində olan məlumatları anonim Ravenskinin məlumatları ilə müqayisədən sonra Armastika dayanacağını o zamanın ticarət yolu üzərində yerləşdirir və daha sonra onun yerini müəyyənləşdirir. Bu yol Artaxatdan hərəkət edərək indiki Ağstafa–Yerevan yolunun xətti boyu istiqamətində davam edərək, oradan da Zənga çayı boyu, onun Sevan gölünə töküldüyü yerə qədər gəldiyini və daha orada müasir Qomadzor kəndi yerləşdiyi yerdə Qelina (Qelama) dayanacağının olması ehtimal olunur. Daha sonra buradan da bu yol, indiki Dilicana doğru hərəkət etmişdir. Orada isə Şanora dayanacağı qovşağı yerləşirdi ki, bu yol qovşağı da iki istiqamətdə hərəkət edirdi. Onlardan birisi Ağstafa çayının uzunluğu istiqamətində hərəkət edərək Kür çayına gedib

çıxırdı. Burada Xram çayının Kürə töküldüyü yerdə Lazo adlı dayanacağın yerləşdiyi ehtimal olunur. Daha sonra bu ticarət yolu Tiflis və Mesxeti-Armaziyaya gedib çatırdı. Bu ticarət yolunun digər qolu Dilicandan Ağstafa çayının yuxarı istiqamətində, daha sonra isə bu yol Bambak çayı istiqamətində ordan da Karbi çayından keçərək, Bambak dərəsinə enərək keçmiş Kirovakan şəhərinə gəlib çıxırdı. Buradan da bu yol Debed çayı boyunca, sıldırımlı dərədən keçirdi, həmən yerdə Lala adlı dayanacaq yerləşirdi. Daha sonra bu yol Tiflisi və Mse-Msietinin yanında birinci qolla birləşdirdi (bax: 350, s.168; 264 s.82).

Bu ticarət yolu S.T.Yeremyan tərəfindən də tədqiq və təsvir olunmuşdur (264, s.81-91). O, Pevtinqerin cədvəlində olan məlumatları anonim Ravenskidə olan məlumatlarla müqayisə edib, hər bir məntəqənin ayrılıqda yerini müəyyənləşdirib öyrənməyə çalışır. O, latın, yunan, və yerli fonetikanın və paleocoğrafiyanın köməyi ilə ilkin adları bərpa etməyə çalışır. S.T.Yeremyan Lala dayanacağının Ağstafa çayı hövzəsində lokallaşdırır, D.İ.Markvartın Dilican-Kirovakan xəttinin varlığı ehtimalını heçə endirir (264, s.84-85). O, bunun əvəzində göstərir ki, bu yol İncivandan Aqstafa çayının sol sahili boyu hərəkət edərək Bahu-dərə, Lalagehdən keçərək Qazax şəhərinə gəlib çıxırdı, o birisi isə Aqadcur-Sevkar, Koxtn-Qexdən keçərək Kür çayına gəlib çatırdı (264, s.85).

Lala dayanacağı S.T.Yeremyan tərəfindən, erməni və gürcü mənbələrində Albaniyanın şahlarının qış iqamətgahı kimi tanınan Xalxal şəhəri ilə eyniləşdirilir (264, s.85).

Lala və Anonim dayanacaqlarını lokallaşdırdıqdan sonra S.T.Yeremyan dairəvi ticarət yolunu belə bir halda təsvir etməyə imkan verir: Laladan Armastikaya gedən ticarət yolu indiki Kür çayı boyu, Armazi-Mesxetidən və Tiflis çuxurundan keçən məlum yol idi; buradan bu yol Şərqə – müasir Kaxetiyə, Kizikiyə, daha sonra isə oradan da dönüb cənuba, Kür çayına gəlib çatırdı. Daha sonra bu yol qərbə doğru istiqamət götürərək, Kür çayının sağ sahili boyu ilə Sinora dayanacağına gəlib çatıb orada dairə əmələ gətirirdi (264, s.86).

Bu ticarət yolu üzərində yerləşən coğrafi məntəqələr də S.T.Yeremyan tərəfindən müəyyənləşdirilir. Zaqafqaziyanın və

eyni zamanda Albaniyanın ticarətində çox böyük əhəmiyyətli rol oynayan bu ticarət yolu aşağıdakı coğrafi məntəqələrdən keçirdi: Mesxeti və Kür çayı boyu vadisindən Tiflisə, Qazax düzündən keçərək Ağstafaya, Gəncə çayı, Qəmərli kəndi, Qarayazı kanalı, Tiflis (264, s.87-88), ikinci yarımdairə isə Xalxaldan keçərək, Tauz, Quşçu kəndi, Dzəqəm, Şamxor dəmir yolu dayanacaqlarından Gəncə şəhərinin qərbinə gəlib çıxırdı (264, s.88).

Bu dayanacaqları müəyyənləşdirdikdən sonra, S.T.Yeremyan Anonim dayanacağı arasında yerləşən daha beş məntəqəni müəyyən edir (264, s.88).

Albaniyanın qədim mərkəzi olan Qəbələ şəhəri qərblə, cənubla və şimal ilə ticarət əlaqələrinə malik idi. Qərb ticarət yolları İberiyanın ərazisindən keçirdi. Bu ticarət yolları Alazan çayı sahilində yerləşən Qarağac adlı yerin yanında yerləşən böyük şəhərə doğru gedirdi (503, s.171).

Cənub yolu isə Atropatena və Ermənistandan keçirdi. Bu ticarət yolu Qəbələyə Turyançayın yuxarı yatağı boyu gəlib paytaxta çatırdı (503, s.168).

Qəbələ şəhəri ətrafında aparılan son illərin arxeoloji tədqiqatları göstərir ki, bu şəhəri cənub-şərq tərəfdən ticarət yolları ilə əlaqələndirən yollar Əlvan (Alban) və Savalan keçidindən keçirdi (295, s.148, 211, s.7). Qəbələ şəhərindən keçən bu ticarət yoluna xalq arasında «Elçi yolu», Karvan yolu və ya «Bezirqan yolu» deyirlər (295, s.148, 211, s.7).

Səlbir qapılarının yuxarısından keçən bu ticarət yolu Şimali Qafqaz dağlarının yuxarı ətəklərinə doğru gedib çatırdı (503, 168). Hələ 1925-ci ildə D.Şərifov (474, s.17, 4) eni 5-6 m olan gözəl ticarət yolunun buradan keçdiyini və ondan indi də istifadə edildiyini göstərirdi (305, s.14). K.V.Trever (451, s. 260-261) və S.T.Yeremyan (275, s. 150) ehtimal edərək göstərirlər ki, Albaniyanın 684-cü ildə Xəzər xaqanlığına gedən elçiləri bu yol ilə getmişlər.

Albaniyanın digər bir şəhəri olan Bərdə şəhəri də Qafqazın və Yaxın Şərqin şəhərləri ilə ticarət yolları ilə bağlı idi. Bu şəhər beynəlxalq ticarət yollarının kəsişdiyi yerdə yerləşirdi. Bərdə şəhərindən müxtəlif istiqamətlərdə ticarət yolları gedirdi. Bərdə şəhərindən ilk orta əsrlərdə keçən ticarət yolları haqqında qiy-

mətli məlumatları ilk orta əsr erməni coğrafiyaçısı Ananiya Şirakasi saxlamışdır (350, s.253-258). Onun tərəfindən VI-VII əsrlərdə Bərdə şəhərindən keçən ticarət-karvan yolları aşağıdakı şəkildə təsvir olunur: «Dvindən Bertkunikə 60 mil; oradan Partava (Bərdəyə)–160; ordan da Kaspi dənizinə–90. Naxçıvandan Ərdəbilə – 200 mil, oradan da Vardanakertə – 70; oradan da Paytakarana 60; oradan da Kaspi dənizinə – 50. Dvindən Kulpa 50; oradan da Kotakvehə – 120; oradan da Tbilisiyə – 140; oradan da Hunarakertə –70; oradan da Partava (Bərdəyə) – 100» (350, s.255, 111, s.166-167).

Ticarət yolları haqqında erməni coğrafiyaçısının bu məlumatlarından əlavə, ərəb coğrafiyaşünaslarının əsərlərində də qiymətli məlumatlar vardır. Ərəb coğrafiyaçıları Bərdə şəhərindən şimala doğru – Şamaxı, Şirvan ərazisindən keçərək Dərbəndə (30, s.29-31; 21, s.101; 48, s.17; 168, s.151, 152; 270, xər. V-VII əsrə 165 s.155), cənub-şərqə doğru – Beyləqandan, Ərdəbildən keçərək İranın başqa şəhərlərinə gedən ticarət yollarını qeyd edirlər (30, s.33, 67; 21, s.101; 48, s.17; 24, s.9-13; 43, s.9-13, 25-27; 168, s.151-152; 270, xəritə V-VII əsr, 156, s.155). Digər ticarət yolu cənub-qərb istiqamətində Ermənistandan keçərək Dvinə qədər, oradan da Suriyaya gedirdi (30, s.33, 67; 21, s.101-102; 48, s.17; 24, s.11, 29; 168, s.152; 270, xər. V-VII əsr, 156, s.156, 350, s.175, 204, 248-250; 451, s. 266; 185, s.187). Başqa bir ticarət yolu – karvan yolu şimal-qərbə – Gəncəyə, Tiflisə – oradan da Qara dəniz sahillərinə gedən yol idi (30, s.31-33, 21, s.101; 148, s.17; 24, s.11; 43, s.29; 168, s.151-152, xərit. V-VIII əsr, 156, s.155, 451, s.266).

Son illərin arxeoloji tədqiqatlarının nəticələri göstərir ki, Y.A. Manandyanın ehtimal etdiyi Bərdə–Dvin karvan-ticarət yolunun istiqaməti səhv göstərilmişdir. Tədqiqatlar göstərir ki, bu ticarət yolu aşağıdakı müasir yaşayış məntəqələrindən keçmişdir. Bərdə-Tərtər-Ağdərə-Ağdam-Füzuli-Qubadlı, Yazı-Qoris-Şam-Urud-Vaqudi-Aqudi–Şaqat (Şalak)-Bazarçay-Zəngəzurçay aşırımı–Dərələyəz-Şərur-Sasadcan-Dvin (246, s.15).

Beləliklə, yuxarıda göstərilən yazılı mənbələrin, arxeoloji materialların, tədqiqatların araşdırılması göstərir ki, orta əsrlərdə qədim Zaqafqaziyanın (Albaniya, İberiya, Ermənistan) ərə-

zisindən, bu ölkələrin iqtisadiyyatında, ticarətində çox mühüm rol oynayan ümumdünya əhəmiyyətli ticarət yolları keçirdi. Albaniyanın ərazisindən ilk orta əsrlərdə Kaspi dənizi və Kür çayı vasitəsi ilə ümumdünya əhəmiyyətli ticarət yolları olan Artaxata-Qobdi-Raresaka və dairəvi ticarət yolu, Artaxata-Sanora-Armastika keçirdi. Bu yolların hamısı, demək olar ki, tranzit xarakterli idi. Bu yollar ilk orta əsrlərdə Albaniyaya Hind okeanından başlayaraq, Aralıq və Qara dənizləri arasında yerləşən ölkələrlə ticarət əlaqəsində olmağa geniş imkan yaradırdı.

Yuxarıda göstərdiyimiz kimi, feodal istehsal münasibətlərinin genişlənməsi və inkişafı Albaniyada ilk orta əsrlərdə iqtisadiyyatın inkişafına böyük təkan verdi. Bunun nəticəsində də ölkənin daxilində iqtisadiyyatın bir sahəsi olan daxili ticarət də çiçəkləndi. Bununla əlaqədar çox güman ki, kənd təsərrüfatı malları – taxıl (buğda, arpa, darı və s.), pambıq, bostan məhsulları (qarpız, qovun və s.), marena, zeytun, zəfəran, bağçılıq məhsulları (üzüm, alma, armud, nar, gilas, gilənar, gavalı, qoz, fındıq, zoğal və s.), mal-qara (xırdabuynuzlu və iribuynuzlu), at, maldarlıq məhsulları (yağ, pendir, qatıq, ayran, süd, dəri, yun və s.), müxtəlif növ balıq daxili bazarlarda satılırdı.

İlk orta əsrlərdə Albaniyada sənətkarlığın və onun istehsalının inkişafı daxili bazarlara dulusçuluq məmulatının, şüşə qablarının, əmək alətlərinin (dəryaz, oraq, balta, yaba, toxa, qırxılıq və s.), müxtəlif formada hazırlanmış silahlar, habelə qızıldan, gümüşdən və müxtəlif metallardan düzəldilmiş bəzək əşyaları, toxucular tərəfindən istehsal olunmuş ipək, kətan, pambıq parçalar, xalçaların çıxarılmasına və satılmasına imkan yaradırdı.

Yuxarıda qeyd etdiyimiz kimi, kənd təsərrüfatının və sənətkarlığın Albaniyada ilk orta əsrlərdə inkişafı nəticəsində əmtəə mübadiləsi genişləndi və artdı. Əmtəə mübadiləsi, ticarət, çox güman ki, yerli şəhər və vilayət bazarlarında aparılırdı. Lakin tədqiq etdiyimiz dövrün yazılı mənbələri bu haqda bizə məlumat saxlamamışlar. Albaniyada olan bazarlar haqqında bizə sonrakı dövrün yazılı mənbələri qiymətli məlumat verirlər. Ərəb coğrafiyaçılarının verdiyi məlumatlardan aydın olur ki, Alban (Aran) şəhərlərində böyük bazarlar olmuşdur (30, s.7-9; 21, s.101-103; 156, s.154-156, 160). Yazılı mənbələrin məlumatları-

na görə Albaniyanın beynəlxalq ticarət dövriyyəsində böyük rol oynayan bu bazarlarda, xüsusilə bazar günlərində daha da çox canlanma olur və bura çoxlu miqdarda adam toplaşırmış (30, s.7-9,21, s.101-103, 156, s.154, 160). Ərəb coğrafiyaçısı İbn-Haukalın verdiyi məlumatdan aydın olur ki, bu bazarlarda sənətkarların hazırladığı müxtəlif növ sənət, kənd təsərrüfatı məhsulları satılırdı (21, s.102; 156, s.156).

Albaniya ərazisindən ilk orta əsrlərə aid arxeoloji qazıntıları zamanı yerli əhalinin bilavasitə ticarətlə məşğul olmasını göstərən maddi mədəniyyət qalıqları tapılmışdır. Mingəçevirdə qazıntılar zamanı ilk orta əsrlərə aid mədəni təbəqədən tunc tərəzi qolları aşkar edilmişdir (201, s. 91, t. 5, 6).

İlk orta əsrlərə aid asma tərəzinin hissələri eyni zamanda Çardaxlı kəndində də tapılmışdır (157, s.91, ş.25). Bu arxeoloji dəlillər və materiallar göstərir ki, ilk orta əsrlərdə Albaniyada yaşayan yerli əhali ticarət əlaqələrində, çəkidə işlədilən tərəzidən, çox güman ki, çəki daşlarından və ölçüsündən istifadə etmişdir.

Yazılı mənbələrdən aydın olur ki, Albaniyada yaşayan yerli əhali istehsal etdikləri məhsulların bir hissəsini qonşu ölkələrə ixrac edirdilər. Albaniyadan başqa ölkələrə qatır (48, s.14; 30, s.25; 21, s.88; 97, 156, s.57, 164), müxtəlif növ balıq (21, 9, 87; 30, s. 9), ipək və kətan parçalar, kətandan hazırlanmış geyim (30, s.7, 11; 21, s. 87, 89; 48, s. 14; 156, s. 157; 451, s. 181-182), zəfəran (48, s.14) ixrac olunurdu. Albaniyada marena o qədər çox və yüksək keyfiyyətdə istehsal olunurdu ki, o quru və su yolları vasitəsilə başqa ölkələrə ixrac edilirdi (21, s.93; 30,s.25; 156,s.164; 451, s.80).

Xarici ölkələrdən də (Yunanıstan, Roma, Bizans) Albaniyaya müxtəlif növ çoxlu mallar gətirilirdi. Bunu arxeoloji qazıntılar zamanı Albaniya ərazisində tapılmış maddi mədəniyyət qalıqları sübut edir.

İlk orta əsrlərdə Albaniyada ipək istehsalının olması və onun inkişafına baxmayaraq, çox ehtimal ki, başqa ölkələrdən bura ipək parçalar və ipəkdən hazırlanmış əşyalar gətirilmişdir. Bu gətirilmə ipək əşyalar və parçalar arxeoloji qazıntılar zamanı Mingəçevirdə tapılmışdır (201, s.130).

İlk orta əsrlər dövrünə aid olan gətirilmə bulla və qemmalar arxeoloji qazıntılar zamanı Mingəçevirdə, Xınıslıda, Qəbələdə, Torpaqqalada, Gəncədə və başqa yerlərdə tapılmışdır (162, s.12-13; 201, s.63-66; 149, s.63-72; 202, s.98; 203, s.137).

Bu gətirilmə mallar içərisində arxeoloji qazıntılar zamanı Mingəçevirin 3 №-li yaşayış yerinin mədəni təbəqəsindən aşkar edilmiş gil bulla xüsusi əhəmiyyətə malikdir. Bu, çox güman ki, rəsmi sənəd kimi təsdiq edilmiş ticarət müqaviləsidir (201, s.66, 90, 91; 203, s.131). Mütəxəssislərin fikrinə görə ilk orta əsrlərdə yerli şüşə istehsalı ilə bərabər başqa ölkələrdən də, o cümlədən Yaxın Şərq ölkələrindən Albaniyaya şüşə məmulatları gətirilmişdir (156, s.162, 390, s.16). Bu gətirilmə şüşə qablara arxeoloji qazıntılar zamanı Albaniyanın ərazisində tapılmış vazaya oxşar qablar (143, s. 34; 247, s.96; 390, s.6; 384, s.288, t.XI, ş.3), şüşə bardaqlar (247, s.72-82), qədəhlər(390, s.7; 462, s. 31-39, 147, s.129), piyalələr (393, s.90-94), ətir şüşəsi (302, s.42-51, ş.2; 451, s.189, ş.21-2; 390, s.11; 147, s.130), bəzək şüşələri (390, s.13-14) daxildir. Tədqiq etdiyimiz dövrə xarakterik olan gətirilmə sasani dekorativ gümüş qablar – torevtika (bədii metalişləmə) sənətinə aid əşyalar, arxeoloji qazıntılar zamanı Torpaqqalada (143,s.35, ş.5 a, b, v, 246, s.20-21), Xınıslıda (462, s.36, 45, ş.5), Mingəçevirdə (149, s.66, ş.2, 9(a, b, v); 451, s.170, 246, s.20), Laçında (144, s.43, t.13, ş.1), Lənkəranda tapılmışdır (144, s.43, t.12, ş.1).

Arxeoloji qazıntılar zamanı ilk orta əsrlərə aid əşyalar Azərbaycanın çox yerindən (201, s. 59; 413, 153, iş 1; 246, s. 21) və Dağıstandan (141, s.239-249, 427, s.248; 264; 246, s.22-23), başqa bir hissəsi isə Bizans və digər ölkələrdən gətirilmişdir (427, s.248-264, 246, s.23).

Beləliklə, yuxarıdakı materialların araşdırılması göstərir ki, Azərbaycanın ərazisində tapılmış ipək parçalar, qemmalar, bullalar, müxtəlif şüşə məmulatları, dekorativ gümüş qablar–torevtika (bədii metalişləmə) sənətinə aid əşyalar, habelə qadınlara məxsus bəzək əşyaları Albaniyanın ilk orta əsrlərdə Yaxın Şərq ölkələri ilə sıx ticarət mübadiləsinə və ticarət əlaqələrinin olmasına maddi sübutdur.

Qonşu ölkələrlə ticarət münasibətlərinin genişlənməsi və daxili ticarətin daha da yüksəlişi pul tədavülünün daha da artmasına səbəb oldu.

İlk orta əsrlərə aid Sasani şahlarına məxsus olan çoxlu miqdarda pul sikkəsi arxeoloji qazıntılar zamanı Azərbaycan ərazisinin hər yerində – Bakıda (411, s.12), Ağdamda (401, s. 37), Mingəçevirdə (406, V, f. s.31-32: VI f. s.34-35, 413, s.141-166), Şamaxıda (406, IX v. s. 26-27, 457, s. 218), Balakəndə (406, II v. s.20), Tovuzda (406, IX f. s.18), Şamxorda (406, VI f. s.337), Beyləqanda (412, s.90), İsmayıllıda (406, s.18), Örənqalada (429, s.351-350, 428, s.365; 412, s.90-107, 154, s.60-61) tapılmışdır. Albaniyanın ərazisindən ilk orta əsrlərə aid arxeoloji qazıntılar vaxtı eyni zamanda Bizans pulları – sikkələri də tapılmışdır (412, s.90, 246, s.24).

Ölkədə daxili ticarətin inkişafı nəticəsində Bərdə şəhərində və çox ehtimal ki, başqa alban şəhərlərində də Sasani hökmdarlarına məxsus pullar – sikkələr zərb edilməyə başladı (406, 156, s.153).

Albaniyanın ərazisində ilk orta əsrlər dövründə tapılmış pullar–sikkələr dövlətin ilk orta əsrlərdə Yaxın və Orta Şərq ölkələri ilə daha da sıx ticarət mübadiləsinə və çox geniş ticarət əlaqələrinə malik olmasına tutarlı maddi sübutdur.

Beləliklə, ilk orta əsrlər dövrünün yazılı mənbələrinin, arxeoloji qazıntıların materiallarının və tədqiqatların araşdırılması göstərir ki, ilk orta əsrlərdə Albaniyada ticarət geniş şəkildə inkişaf etmişdi. Materialların araşdırılması göstərir ki, Albaniyanın ərazisindən ümumdünya əhəmiyyətli beynəlxalq quru, su ticarəti yolları keçirdi ki, bu da ölkədə iqtisadiyyatın bütün sahələrinin, tranzit və daxili ticarətin geniş şəkildə inkişaf etməsinə böyük imkan yaradırdı. Albaniya tədqiq etdiyimiz dövrdə ümumdünya əhəmiyyətli tranzit ticarətinin mərkəzlərindən birinə çevrilmişdir. İlk orta əsrlər dövrünün yazılı mənbələrinin, məlumatların, arxeoloji materialların və tədqiqatların araşdırılması göstərir ki, Albaniya ilk orta əsrlərdə Hind okeanından tutmuş Qara dənizə qədər olan yerlərlə ticarət əlaqələrinə, Yaxın və Orta Şərq ölkələri ilə daha da geniş ticarət mübadiləsinə və sıx ticarət əlaqələrinə malik olmuşdur.

IV FƏSİL

İLK ORTA ƏSRLƏRDƏ YAŞAYIŞ MƏNTƏQƏLƏRİ VƏ ŞƏHƏRLƏR

İlkin orta əsr şəhərləri və şəhərlərin daxili həyatı, quruluşu və s. problemlər ən mürəkkəb və az öyrənilmiş məsələlərdən biridir. Bu, bir tərəfdən, yazılı mənbələrdə şəhərlər haqqında məlumatların çox az olması, digər tərəfdən, ilkin orta əsr Albaniya şəhərlərinin və yaşayış məntəqələrinin arxeoloji cəhətdən pis öyrənilməsindən və tədqiqindən irəli gəlir. Lakin qeyd etmək lazımdır ki, ilkin orta əsr Albaniya şəhərləri ümumi şəkildə çoxcildli «Azərbaycan tarixi»ndə, K.V.Treverin, Z.M.Bünyadovun, E.A.Paxomovun, S.B.Aşurbəylinin, T.M.Məmmədovun, Q.M.Əhmədovun, Q.Ə.Hacıyevin və b. alimlərin tədqiqatlarında araşdırılmışdır (bu haqda ətraflı bax I fəslə). İlkin orta əsr yazılı mənbələri ilk alban dövlətinin paytaxtı Qəbələ şəhərindən əlavə, tədqiq etdiyimiz dövrdə digər görkəmli şəhərlərin, o cümlədən Bərdənin (Partav), Çoranın (Çola), Dərbəndin, Paytakaranın, Xalxalın, Amarasın, Hunan (Xuiarakert), Siri, Beyləqan və s.-in adlarını qeyd edirlər və onlar haqqında bizə məlumat verirlər.

Məlumdur ki, ilk orta əsrlərdə ölkənin siyasi və iqtisadi həyatında mühüm rol oynayan yeni feodal şəhərləri birdən-birə meydana gəlməmişdir. Bu şəhərlərin iqtisadi əsasları hələ qədim dövrlərdə yaranmış, lakin bütün ilk orta əsr yaşayış yerləri iri feodal şəhərləri səviyyəsinə yüksələ bilməmişdir. İlk orta əsr şəhərləri əsas etibarilə qədim yaşayış yerlərinin bünövrəsi üzərində meydana gəlmişdir.

İnzibati və ticarət (yerli və tranzit) sənətkarlıq mərkəzləri olan bu ilk orta əsr Albaniyanın şəhərləri, çox güman ki, padşah və əyanların, knyazların torpaqlarında, təsərrüfatlarında, kənd icmalarının ərazisində, ticarət yollarının üzərində (451 s., 251; 185 s., 148), qonşu dövlətlərdə olduğu kimi, salınmış və inkişaf etmişdir (266, 17).

İlk orta əsr mənbələrinin müəllifləri Favstos, Yeqişe, Şirakasi (11, s. 19; 68, f. III; 76 k. V, f. 4; 333, s., 74; 341 s. 22) tədqiq

etdiyimiz dövrdə Albaniyada çoxlu şəhər-qalalar və digər yaşayış məntəqələrinin olduğunu öz əsərlərində göstərirlər. Digər yazılı mənbənin müəllifi M.Xorenasi Albaniyada çoxlu şəhərlərin mövcudluğunu və onların hər birinin öz «hökmdarı» olduğunu xüsusi qeyd edir (76 k. III, f. 3; 333, s. 71; 341, s.22). İlk orta əsr dövrünün müəllifləri Favstos Buzandasi alban şəhərlərində sarayların olduğunu göstərir (87, k., V, f. 4; 333, s. 71; 341, s.22). Yuxarıda adları çəkilən yabançı tarixçilərin məlumatlarını təsdiq edən yerli alban tarixçisi M.Kalankaytuklu Albaniyada ilk orta əsrlərdə çoxlu şəhərlərin və şəhər-qalaların olduğunu qeyd edir (79, k. II, f. 2; 10, 11; 333, s. 71; 341, s.22). Yuxarıda göstərilən bu məlumatları ərəb coğrafiyaçıları – İbn Xordadbeh, Müqəddəsi, Bəlazuri, İstəxri, İbn Haukal, Yaqut Həməvi, İbn əl-Fəqih, İbn Rusta, Kudama, Məsudi, Yaqubi də təsdiq edirlər (24, s.5, 15; 48, s. 6,7, 8, 9, 11; 13; s. 5, 6, 13, 30; 30, s. 11, 17, 19; 21, s. 92, 88, 89, 86, 85; 23, s. 51; 43, s 29; 47, s.40, 41, 58, 59; 64, s. 59, 61; 62, s. 13,14). Bu ərəb müəllifləri Albaniyada (Arranda) çoxlu şəhərlərin olduğunu qeyd edirlər. Ərəb coğrafiyaşünasları İbn Haukal (21, s. 92, 35) və İstəxri (30, s. 47, 19) Albaniyada bütün şəhərlərin gözəl, ərazi cəhətdən geniş, zəngin münbit torpaqlara malik olduğunu öz əsərlərində qeyd edirlər. Ərəb coğrafiyaçıları İstəxri, İbn əl-Fəqih, Müqəddəsi, Məsudi, İbn Haukal, Yaqut Həməvi öz əsərlərində yazırlar ki, Albaniyada şəhərlər hasarlarla müdafiə olunurdu (30, s. 11, 22, s. 89; 48, s. 9; 47, s. 58; 21, s. 88; 62, s. 18).

İbn Haukal, İbn əl-Fəqih, Bəlazuri, Müqəddəsi, İstəxrinin məlumatlarından o da aydın olur ki, alban şəhərləri şəhər darvazalarına malik idi (21, s.87; 22, s. 25; 13 s. 13, 48, s. 9; 30, s.8). Yaqut Həməvi, İbn Xordadbeh, Bəlazuri, İbn Rusta, Albaniyada tədqiq etdiyimiz dövrdə möhtəşəm qalaların olmasını da qeyd edirlər (62, s.89; 24, s. 13; 13, s.17; 23, s.59). Ərəb coğrafiyaçıları İbn Xordadbehdən, İbn əl-Fəqihdən, Yaqut Həməvidən, İbn Rustadan və İbn Haukaldan aydın olur ki, Albaniyada möhkəmləndirilmiş qalalar da mövcud idi (24, s. 15; 22, s. 11; 62, s. 21; 23, s. 54; 21, s. 102). Digər yaşayış məntəqələri – kəndlər haqqında bizə Bəlazuri, Yaqut Həməvi, İstəxri məlumat verirlər (13, s. 13; 62, s. 23; 30, s. 9, 25; 21, s. 92; 48, s. 6).

Ərəb coğrafiyaçıları İbn Haukal və Müqəddəsi Albaniya şəhərlərində sarayların olmasını da göstərirlər (21, s. 94; 48, s. 16).

İlk orta əsrlərdəki yazılı mənbələrdə məlumatların az olması, arxeoloji cəhətdən tədqiq etdiyimiz dövrün şəhərlərinin qeyri-bərabər şəkildə öyrənilməsi, ilkin orta əsr şəhərlərinin daxili həyatını geniş şəkildə işıqlandırmağa imkan vermir. Lakin az da olsa yerli alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatlardan aydın olur ki, ilkin orta əsr alban şəhərlərində başçılar (79, k. II, f. 10; 341, s. 23), hökmdarlar (79, k. II, f. 10, 341, s. 231), ruhanilər (79, k. II, f. 10; 341, s. 23), sənətkarlar, varlı adamlar, xüsusilə tacirlər yaşayırdılar (79, k. II, f. 16; 333, s. 71). Şəhərlərdə geniş istehlak şeyləri hazırlayan sənətkarlardan başqa, «qızıl, gümüş, dəmir filizi və mis çıxarmaqda biliyi olan müxtəlif sənətkarlar da» var idi (79, s. 131, 104). İlk orta əsr müəllifi Favstos Buzandasinin məlumatından aydın olur ki, ilkin orta əsr Albaniyanın şəhərlərində albanlar və başqa yerli tayfalardan başqa, xaricilər (yunanlar, suriyalılar və s.) yaşayırdılar və onlar sənətkarlıq və ticarətlə məşğul olurdular (87, k. IV, f. 55; 333. s. 71). Alban tarixçisi M.Kalankaytuklu Bərdə şəhəri haqqında verdiyi məlumatda yuxarıda göstərilən fikri təsdiq edir (79, k. II, f. 10; 333, s. 71). Alban tarixçisinin verdiyi məlumatdan aydın olur ki, ilkin orta əsr alban şəhərləri yerli hakimlər tərəfindən idarə olunurdu (79, k. I, f. 19, 23, 333, s. 23).

İlkin orta əsr yazılı mənbələrinin məlumatları və arxeoloji qazıntılar tədqiq etdiyimiz dövrdə Albaniyada köhnə şəhərlərin çiçəklənməsi və yeni şəhərlərin yaranması prosesinin getdiyini göstərir. İlkin orta əsr yazılı mənbələrin və arxeoloji qazıntıların araşdırılması Albaniyada ilk orta əsrlərdə üç şəhər tipinin olmasını tədqiqatçılara hələlik ehtimal etməyə imkan verir. Birinci tip – inzibati və ticarət-sənətkarlıq mərkəzi olan bu alban şəhərləri mənbələrdə «nəhəng» və «şöhrətli» şəhərlər kimi adlandırılmışdır (79, k. II, f. 4, 10; 185, s.148). İkinci tip alban şəhərləri mühüm ticarət yollarından uzaq salınmış sənətkarlıq və ticarət mərkəzləri idi (185. s. 148). Üçüncü tipə aid olan ilkin orta əsr alban şəhərləri feodal vilayətlərinin inzibati mərkəzləri olsalar da, sosial-iqtisadi baxımdan, əslində şəhər sayılmayan, şəhərkəndlər idi (185, s. 148).

Tədqiq etdiyimiz dövrdə Albaniya tarixində çox böyük rol oynayan, ticarət yollarının qovşağında yerləşən, ticarətdə, ölkənin həyatında mühüm rol oynayan ən əhəmiyyətli şəhərlərdən biri Bərdə şəhəri idi. Bu şəhərin V-VII əsrlərdə Albaniyanın mərkəzi olması haqqında coğrafiyaçı Şirakasi məlumat verir (11, s. 20; 333, s. 71; 341, s. 22). O, eyni zamanda Bərdənin (Partav) böyük Uti nahiyəsinin ərazisində yerləşdiyini və onun baş şəhəri olduğunu qeyd edir (11, s.20; 333, s. 71; 341, s. 22). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumata görə bu şəhər V əsrin ikinci yarısında alban şahı Vaçe tərəfindən salınmışdır. M.Kalankaytuklu yazır: «İran şahı Perozun (Pərviz– *T.M.*) əmrinə əsasən Vaçe böyük şəhər Perozapatı tikdirdi və adını da Partav (Bərdə – *T.M.*) qoydular» (79, k. I, f. 15, 372, s. 28; 451, s. 186; 333, s. 72; 341, s.23). Orta əsr erməni tarixçisi M.Ayrivanesi qədim erməni mənbələrinin məlumatlarına əsaslanaraq, alban tarixçisinin fikrini təsdiq edərək göstərir ki, Bərdə şəhəri alban şahı Vaçe tərəfindən tikilmişdir (78, s. 47; 333, s. 72).

Alban tarixçisi M.Kalankaytuklu alban şahı Cavanşirin hökmranlığı dövründə bu şəhər haqqında məlumat verərək onu böyük şəhər (Perozkavat) adlandırır. O, Alban şahı Cavanşirin yepiskop Uxtanes və əyanlarla burada yerləşdiyini qeyd edir (79, k.II, f. 31; 264, s. 89; 451, s. 266). Ərəb coğrafiyaçısı Bəlazuri Bərdə şəhərinin əsasının qoyulmasını və salınmasını Sasani şahı Kavadın (488-531-cü illər) adı ilə bağlayır. Bəlazuri yazır: «Kavad… Arranda bütün ölkənin (baş şəhəri) Bərdə şəhərini saldı» (13, s. 5,6; 333, s. 72). Buna nəzər-diqqət yetirən S.T.Yeremyan qeyd edir ki, Sasani şahı Kavad şəhərin ərazisini genişləndirir və ona görə də şəhər Peroz Kavad adlandırılır (271, s. 36). Həmdullah əl-Qəzvini öz növbəsində yazır ki, Bərdəni Makedoniyalı İsgəndər salmışdır, sonralar isə şəhəri Sasani şahı Kavad abadlaşdırmışdır (185. s. 158). Fars tarixçisi Mirxond Bərdə şəhərinin əsasının qoyulmasını V əsrə aid edir (185, s. 158). Yuxarıda qeyd etdiyimiz kimi, axırıncı bu tarix M.Kalankaytuklunun verdiyi belə bir məlumatla da təsdiq olunur ki, padşah III Vaçaqanın hökmranlığı dövründə – 487-488-ci illərdə, onun çağırdığı Aquen dini məclisində Partav (Bərdə) arxiye-

piskopu Şupxakişo və Bərdə (Partav) keşişi Mate iştirak edirdilər (79, k.I, f. 26; 185, s. 158). Belə bir səhv fikir də mövcuddur ki, Bərdə şəhəri ərəblər tərəfindən tikilmişdir. Akademik Z.M.Bünyadov haqlı olaraq yazır ki: «Bərdənin ərəblər tərəfindən salındığı barədə, əlbəttə, danışıq ola bilməz, çünki hələ Sasanilər dövründə tarixçi şəhəri «böyük» adlandırmışdı və bu şəhər Arranın paytaxtı idi» (185, s. 159). Q.Ə.Hacıyev nəşr etdirdiyi «Bərdə şəhərinin tarixi» əsərində əsasən arxeoloji materiallara, əski yazılı qaynaqlara əsaslanaraq, Bərdənin hələ antik dövrdə şəhər olmasını düzgün olaraq qeyd edir. (211 a, s.28-31).

628-ci ildə Bərdə şəhəri Bizansın müttəfiqi olan xəzərlər tərəfindən dağıdılmışdı (79, k. II, f. 11, s. 70; 407, s. 69-70; 186, s. 23; 188, s. 18). Bərdə şəhəri sonralar yalnız birinci Əməvi xəlifəsi Müaviyə dövründə (661-680-ci illər) Arran hakimi Əbu ül-Əziz ibn Hatəm tərəfindən bərpa edildi. O, «Bərdəni bərpa etdi, başqalarının dediyinə görə isə şəhəri tikdirdi və ətrafında möhkəm xəndək qazdırdı, çünki ondan əvvəl şəhər tamamilə dağıdılmışdı» (13, s. 15; 443, s. 57; 185, s.158-159).

Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatlardan aydın olur ki, Bərdə şəhəri alban Arşaki padşahlarının və Mehrani padşahlarının paytaxtı (79, k. II, f.4; 333, s. 72; 341, s. 23), ölkənin ən böyük şəhəri idi (79, k. II, f.10; 333, s. 729), dörd qapıdan ibarət qalaya malik idi (79, k. II, f.10; 333, s. 72). 552-ci ildə katolikos Abas tərəfindən Çoqadan köçürülmüş patriarx taxtının iqamətgahı Bərdə şəhərində yerləşirdi (79, k. II, f.4; 171, s. 24; 333, s. 72) və bu vaxtdan etibarən eyni zamanda Albaniyanın dini və mədəni mərkəzinə çevrilmişdir. Yuxarıda göstərilən bu məlumatları orta əsr erməni tarixçisi M.Ayrivanesi də təsdiq edir (78, s. 48-49; 333, s. 72; 341, s. 23). Ərəblərin Albaniyanı və onun paytaxtı Bərdə şəhərini işğal etmələrindən əvvəl Sasanilərin mərzbanlarının iqamətgahı bu şəhərdə yerləşirdi (79, s. 121, 96; 185, s. 52). Alban hökmdarı Varaz-Trdatın hakimiyyət illərində də alban şahlarının və katolikoslarının taxtı Bərdə şəhərində yerləşirdi (79, k. II, f.45).

İlk orta əsrlər dövründəki Bərdə şəhərinin əzəməti və daxili həyatı haqqında alban tarixçisi M.Kalankaytuklunun verdiyi yazılı məlumat istisna olmaqla, əlimizdə bu şəhərin daxili həyatı

barəsində başqa məlumat yoxdur. Onun verdiyi məlumatdan aydın olur ki, ilk orta əsrlərdə Albaniyanın dini, siyasi və mədəni mərkəzi şəhəri olan Bərdədə «hökmdarlar», «hakimlər», ruhanilər, sənətkarlar, dindarlar (xristianlar, digər dinə mənsub olanlar), tacirlər yaşayırdılar (79, k. I, f.10; 333, s. 72; 341, s. 22).

Bərdə şəhəri haqqında bizə eyni zamanda gürcü yazılı mənbələrində məlumat verilir və onun adını «Bardavi» kimi adlandırırlar (56, s. 137; 18, s. 8; 50, s. 22, 39; 50, s. 80). Bərdə şəhəri haqqında bizə məlumat saxlayan mənbələrdən biri də ərəb coğrafiyaçılarıdır. Bərdə şəhəri haqqında bizə ərəb coğrafiyaçılarından İbn Rusta, Yaqubi, Bəlazuri, İstəxri, İbn Haukal, Müqəddəsi, Yaqut Həməvi, İbn Xordadbeh, İbn əl-Fəqih, Kudama, Məsudi kimi müəlliflər məlumat verirlər. Ərəb coğrafiyaçıları Yaqubi, Bəlazuri, Müqəddəsi Bərdə şəhərini Albaniyanın paytaxtı adlandırırlar (64, s. 61; 13, s.6; 48, s. 6,7). Digər ərəb coğrafiyaçıları İstəxri və İbn Haukal isə Bərdə şəhərində alban şahlarının sarayının yerləşdiyini qeyd edirlər (30, s. 9, 25; 21, s. 92). Ərəb coğrafiyaçıları Bəlazuri, İstəxri və İbn Haukalın məlumatlarından aydın olur ki, Bərdə şəhəri qapıları olan hasarlarla əhatə olunmuşdur (13, s.13; 30, s. 9; 21, s.87). İbn Haukal, İstəxri, Müqəddəsinin məlumatlarından bəlli olur ki, Bərdə şəhəri Arranın ən böyük şəhərlərindən biri idi (21, s.92; 30, s.17; 48 s, 7). Ərəb coğrafiyaçısı Müqəddəsi bu şəhərin «gözəl» bir şəhər olduğunu qeyd edərək (48, s.7) göstərir ki, Bərdə şəhəri düzənlikdə yerləşir və onun qarşısında möhtəşəm istehkam da vardır (48, s. 7).

Ərəb coğrafiyaçıları, tarixçiləri, o cümlədən İbn Haukal Bərdə şəhərinin böyüklüyünü, əhəmiyyətini və əzəmətini, dövlətini, gözəlliyini ətraflı təsvir edirlər. «Bərdə şəhəri Arranın paytaxtı və bu ölkənin mərkəzidir. Bərdə qədim zamanlardan böyük şəhər olmuşdur; onun uzunluğu təqribən bir fərsəx, eni isə fərsəxdən bir qədər az idi. Əkin və meyvələri bol, ağac və suları çox olan sağlam, çiçəklənən bir şəhərdir. İraqla Təbəristan arasında Rey və İsfahandan sonra öz mövqeyinə görə, öz əkinləri, bazarları, karvansaraları, malları və ticarətinə görə ondan daha böyük, daha artıq çiçəklənən, daha gözəl bir şəhər yoxdur. Bər-

dədən çoxlu ipək ixrac edilir. Baramaqurdunu tut ağacı ilə bəsləyirlər. Onun (ipəyin) çoxu buradan Fars və Xuzistana göndərilir. Bərdənin [məşhur] darvazalarından biri «Kürdlər darvazası»dır, onun yanında sahəsi bir fərsax olub «əl-Kurkiy bazarı» (yunanca «kirakos» bazarı – bazar günü) adlı bazar vardır. Hər bazar günü bütün ölkələrdən gələn camaat bazara yığılır və alver edirlər» (21, s. 86; 443, s. 58-59; 185, s. 160). Bu məlumatları digər ərəb coğrafiyaçıları İstəxri və Müqəddəsi də təkrar edirlər (30, s. 9; 48, s. 7, 14, 15, 38; 156, s. 154-155).

Digər ərəb coğrafiyaçısı İstəxrinin Bərdə şəhərində hazırlanan malların və onların ixracı, onun ətrafında yetişdirilən kənd təsərrüfatı məhsulları haqqında verdiyi məlumatlar maraqlıdır: «(Bərdədən) bir fərsaxdan az uzaqlıqda Əl-Əndərəb adlı bir yer vardır ki, bu da Qarna, Lalub və Yəqtan arasında yerləşir və sahəsi bir günlük yoldan artıqdır. Bu yerin bağ və bostanları boldur. Burada hər cür meyvə yetişir, bunlardan əl-bunduq (fındıq) Səmərqənddəkindən yaxşıdır. Oradakı əş-şahibəllut (şabalıt) Suriyadakından gözəldir. Onlarda ərruqal (zoğal) adlı bir meyvə vardır ki, əl-ğubeyrə (zeytuna) oxşayır. Onun içərisində çəyirdəyi vardır. Bu meyvə yetişəndə şirindir, lakin kalı acıdır. Əş-şahibəllut qozun yarısı boydadır, dadı əl-bunduq və ərrutəb (təzə xurma) kimidir. Bərdədə Labusdan gətirilən əla keyfiyyətli ət-tin (əncir) vardır. (Bərdədən) çoxlu barama (əl-əbrişəm) aparılır, baramaqurdunu isə orada geniş tut ağaclıqlarında bəsləyirlər. Burdan Fars və Xuzistana çoxlu ipək ixrac edirlər.

Bərdənin üçdə bir fərsəxliyində əl-Kürr (Kür) çayı (axır). Əl-Kürr çayında isə əs-surmahi balığı vardır ki, duza qoyulmuş halda müxtəlif ölkələrə göndərilir. Əl-Kür çayından habelə əzzərəkan və əl-əşuba adlı balıq tutulur. Bu diyarda həmin balıqların hər ikisi (digər balıqların hər ikisi) digər balıqlardan üstün hesab edilir».

Bərdədən həmçinin qoşqu heyvanı və boyaq ixrac edilirdi. (48, s. 7,8,9; 185, s. 160-161). Bu məlumatları eyni zamanda İbn Haukal və Müqəddəsi də təkrar edirlər (21, s. 86, 87, 88; 48, s. 7,14). Bərdə şəhəri müxtəlif şəhərlərlə ticarət yolları ilə bağlı idi. Bərdə şəhəri İran, Gürcüstan, Ermənistan, Yaxın Şərq, Bizans və Şimali Qafqazın ticarət yollarının qovşağında yerləşirdi. Bu

şəhər beynəlxalq ticarət yollarının kəsişdiyi yerdə idi. Bərdə şəhərindən müxtəlif istiqamətlərdə ticarət yolları gedirdi. Bərdə şəhərindən ilk orta əsrlərdə keçən ticarət yolları haqqında qiymətli məlumatları ilk orta əsr yazılı mənbələri saxlamışdır. Bu haqda bizə məlumatı ilk orta əsr erməni coğrafiyaçısı A.Şirakasi verir (350, s. 253-258). Onun tərəfindən VI-VII əsrlərdə Bərdə şəhərindən keçən ticarət – karvan yolları aşağıdakı şəkildə təsvir olunur: «Dvindən Bertkunikə 60 mil; oradan da Partava (Bərdəyə) – 160; oradan da Kaspi dənizinə – 90. Naxçıvandan Ərbəbilə – 200 mil; oradan da Vardanakertə – 70, oradan da Paytakarana – 60; oradan da Kaspi dənizinə – 50. Divanidən Kulpa – 50; oradan da Kotakvehə – 120; oradan da Tbilisiyə – 140; oradan da Hunarikertə – 70; oradan da Partava (Bərdəyə) – 100» (350, s. 255).

Bərdə şəhərindən keçən ticarət yolları haqqında erməni coğrafiyaçılarının bu məlumatlarından əlavə, ərəb coğrafiyaşünaslarının əsərlərində də qiymətli məlumatlar vardır. Ərəb coğrafiyaçıları Bərdə şəhərindən şimala doğru – Şamaxı, Şirvan ərazisindən keçərək Dərbəndə (30, s. 29-33; 168, s. 151-152; 270, xər. V-VI əsr. 156, s. 155), cənub-şərqə doğru – Beyləqandan, Ərdəbildən keçərək Cənubi Azərbaycanın və İranın başqa şəhərlərinə gedən ticarət yollarını qeyd edirlər (30, s. 29; 168, s. 151-152; 270, xər. V-VII əsr; 156, s. 155). Digər ticarət yolu cənub-qərb istiqamətində Ermənistan ərazisindən keçərək Dvinə qədər, oradan da Suriyaya gedirdi (30, s. 33, 67; 168, s. 152; 270, xər. V-VII əsr; 156, s. 155). Başqa bir ticarət yolu – karvan yolu şimal-qərbə – Gəncəyə, Tiflisə–oradan da Qara dəniz sahillərinə gedən yol idi (30, s. 31-33; 168, s. 151-152; 270, xər. V-VII əsr; 156, s. 155).

Albaniyanın ilk orta əsrlərdə ən əhəmiyyətli şəhərlərindən biri də Qəbələ şəhəri idi. Bu şəhər tədqiq etdiyimiz dövrün ən iri siyasi-inzibati, dini (arxiyepiskopluq), ticarət, sənətkarlıq və mədəni mərkəzlərindən biri idi.

Qəbələ haqqında ilk yazılı məlumatlara antik müəlliflərin əsərlərində təsadüf olunur. Qay Plini Sekund özünün «Təbii tarix» əsərində Qəbələni «Kabalaka» adlandırmış və yazmışdır ki, o, Albaniyada digər şəhərlərdən «üstün olan şəhrdir» (Plini, k.

VI f.,10; 319, s. 293; 451, s. 138). Antik dövrün yazılı mənbələrində Kabalakadan başqa Xabala forması da məlumdur. Bu adı I əsrin sonu –II əsrin ortalarında yaşamış, «Coğrafiya» dərsliyinin müəllifi Ptolemey Albaniyadakı şəhər və digər yaşayış yerlərindən danışarkən çəkmişdir (Ptolemey, k. V, f. 11; 319. s.293; 415, s. 138). Qəbələ şəhəri haqqında ilk orta əsr tarixçisi M.Kalankaytuklu öz əsərində məlumat verir. O, 488-ci ildə çağırılmış Aquen dini məclisində hazırlanmış dini qanunnamədə, Qəbələ haqqında məlumat verərək bu şəhəri «Kapalaka» (Qəbələ) adlandırır. Bu sənəddə Bərdə arxiyepiskopunun imzasından sonra «Kapalaka» (Qəbələ) yepiskopu Manasın adı çəkilir (79, k. I, f.26; 451, s. 253; 333, s. 72-73; 341, s. 23,24). Alban tarixçisi öz əsərində daha başqa bir yerdə bu şəhərin adını «Kapalaka» (Qəbələ) kimi adlandırır. M.Kalankaytukluda alban xalkedonitlərin hərəkatı və onların başçısı, alban katolikosu N.Bəkirilə əlaqədar olaraq «Kapalaka» (Qəbələ) yepiskopluğunun adı qeyd olunur (79, k. I, f. 26; 451, s. 253; 333, 72-73; 341, s.23-24). Qəbələ şəhəri haqqında ilk orta əsr erməni coğrafiyaçısı A.Şirakasi (66, s. 28-29) və gürcü xronikası «Kartlis Sxovreba» da məlumat verir (89, t. III, s.314). İlk orta əsr alban şəhərlərindən biri olan Qəbələ haqqında ərəb coğrafiyaçıları – İbn Haukal, Müqəddəsi, İbn Xordadbeh, İstəxri, Bəlazuri, İbn əl-Fəqih, Yaqut Həməvi, Yaqubi məlumat verirlər (21,92; 48, s. 3,6,9; 24, s. 11, 13;15; 30, s. 17-19; 13, s. 5,14; 22,s. 13; 62, s.14; 64, s. 61). Bu ərəb coğrafiyaçılarının məlumatlarına görə Qəbələnin əsası guya İran şahı I Qubadın (488-531-ci illər) dövründə qoyulmuşdur. Bu haqda bizə ərəb coğrafiyaçıları Bəlazuri, İbn Xordadbeh, Yaqut Həməvi məlumat verirlər (13, s.5; 24, s. 13, 62, s. 14). Qəbələ şəhərinin İran şahı I Qubad tərəfindən əsasının qoyulması fikri yanlış və səhv fikirdir. Yuxarıda gətirilən məlumatlardan göründüyü kimi, Qəbələ şəhəri hələ antik dövrlərdə, Sasani şahı I Qubaddan xeyli əvvəl mövcud olmuşdur (Plini, k.V, f. 10; s. (s. 29); 451, s.138, 253). Bunu yazılı mənbələrdən əlavə, Qəbələ şəhərinin ərazisində aparılmış arxeoloji qazıntılar da bir daha təsdiq edir və burada qazıntılar zamanı əldə olunmuş əşyalar da buna sübutdur. (296, s. 72-73). Ona görə də Qəbələ şəhərinin İran şahı I Qubad tərəfindən əsasının qoyulması fikri ilə razı-

laşmaq olmaz. Ərəb coğrafiyaçılarının yuxarıda göstərilən səhv və yanlış fikirlərinə vaxtı ilə diqqət yetirən A.E.Krımski (319, s. 296) və T.Yeremyan (271, s. 36) belə hesab edirlər ki, I Qubad bu şəhərdə yalnız o zaman möhkəmləndirmə işləri ilə məşğul ola bilərdi. Beləliklə, çox güman ki, Sasani şahı I Qubad Qəbələ şəhərində öz dövründə bir sıra tikinti və bərpa işlərilə məşğul olmuşdur.

Ərəb coğrafiyaçıları Bəlazuri, Yaqut Həməvi, İbn Xordadbeh Qəbələ şəhərini «bütün ölkənin baş şəhəri» kimi qeyd edirlər (13, s.5; 24, s.14; 62, s.14). Ərəb coğrafiyaçısı Müqəddəsi bu şəhəri «möhkəmləndirilmiş şəhər» adlandırır (48, s.9). Ərəb mənbələrinin verdiyi məlumatlardan aydın olur ki, alban şahlarının iqamətgahı Qəbələ şəhərində yerləşmiş və Alban dövlətinin paytaxtı olmuşdur. Qəbələ şəhəri V əsrin ikinci yarısına qədər Albaniya Arşaki sülaləsindən olan şahların paytaxtı olaraq qalırdı. 461-ci ildə Alban şahı II Vaçenin Sasani şahı Peroza qarşı üsyanından və Albaniyanın çox qısa müddətdə öz müstəqilliyini müvəqqəti itirməsindən sonra, paytaxt Qəbələdən Bərdəyə (Partava) köçürülür. Lakin paytaxt Bərdəyə köçəndən sonra da Qəbələ ölkənin siyasi, mədəni, dini və mənəvi həyatında görkəmli rol oynamışdır (319, s.295; 451, s. 254). Albaniyanın keçmiş paytaxtı Qəbələdə xristian yepiskop kafedrası (yepiskopluğu) da yerləşirdi (79, k. I , f. 26; III k., f.3,8) və o zamanın dini mərkəzlərindən biri hesab olunurdu.

Qəbələ şəhərinin adı antik yazılı mənbələrindən iki formada bizə məlumdur. Qay Plini Sekund özünün «Təbii tarix» əsərində Qəbələni «Kabalaka» adlandırmışdır (319, s. 293-294). Bu forma da öz növbəsində qədim erməni dilində «ak» suffiksinə uyğun gəlir – Kabalaka (79, k. III, f. 3,8; 319, s.294). Digər ikinci forma isə «Xabala» şəklində bizə məlumdur ki, bu da yuxarıda qeyd etdiyimiz kimi, antik dövrün coğrafiyaçısı Ptolemeyin əsərində bu cür əbədiləşmişdir (319, s.294). Ptolemey tərəfindən çəkilən bu ikinci forma da, alban tarixçisi M.Kalankaytuklunun əsərində göstərilən adın «Kapalaka» formasına uyğun gəlir (79, k. I, f. 26).

Yazılı mənbələrdə olan məlumatlardan aydın olur ki, Qəbələ şəhəri qonşu dövlətlərlə sıx ticarət əlaqələrinə malik idi. Qəbələ şəhərinin ərazisindən həm şimala (503, s. 171-173; 451,

s. 260), eyni zamanda cənuba doğru tranzit ticarət yolları keçirdi (503, s.158; 451, s. 260-261; 275, s. 150).

Bu yaxınlara qədər bu Alban şəhərinin yerləşdiyi yer elmdə qaranlıq olaraq qalmış və onun yerləşdiyi ərazi aydınlaşdırılmamışdır. Arxeoloqların apardıqları ilk kəşfiyyat xarakterli qazıntılar bu barədə müxtəlif fikirlərin yaranmasına səbəb olmuşdu. Qəbələ bir arxeoloji abidə kimi hələ XIX əsrin ortalarından tədqiqatçıların diqqətini cəlb etmişdir. O vaxtlar, 1829-cu ildə A.Yanovski və B.Dorn (503, s. 62; 260, s. 345), sonralar E.Lalayan (320, s. 41-43), 1903-cü ildə R.Əfəndiyev (483), 1925-ci ildə D.Şərifov (474, s. 73-79), daha sonralar T.Ter-Qriqoryan, P.Baranovski, İ.Şeblikin (480, s. 90; 481, s. 225-227) və başqaları fasilələrlə Qəbələ şəhəri xarabalığında olmuş, hətta bəziləri burada qısa müddətli ilkin arxeoloji qazıntılar da aparmışlar.

Uzun müddətdən – 18 il keçdikdən sonra görkəmli arxeoloq S.M.Qazıyevin başçılığı ilə 1944-cü ildə Azərbaycan Respublikasının Elmlər Akademiyasının əməkdaşları Qəbələ şəhərində qazıntı işləri aparmış və burada qızıl və gümüş əşyalar, sikkə, saxsı qablar və s. tapılmışdır (297, s.75-105; 290, s.54; 74; 162a, s.29-102). O vaxtdan başlanan çoxillik axtarışlar və ilkin tədqiqatlar artıq çoxdan təsdiq etmişdir ki, Qəbələ şəhəri xarabalığı Azərbaycan Respublikasının indiki Qəbələ rayonunun Çuxur-Qəbələ kəndindən şərqdə, Qaraçay (Qəbələ çayı) ilə Covurlu çayı (Qala çayı) arasındakı yüksəklikdə və qonşu ərazilərdə yerləşir (480, s.90; 481, s.225; 162a, s.29-102; 159, s.32-35). Şəhər qalasının xarabalığı 25 hektar sahəni əhatə edir. Vaxtı ilə çəkilmiş bir xəndək həmin ərazini iki hissəyə ayırmışdır. Yerli əhali xəndəkdən şimal tərəfə olan hissəni Səlbir (Səlbirin ümumi sahəsi 12 hektardan bir az artıqdır) (481, s.223; 451, s.258-259; 159, s.32; 162a, s.29-102), cənub tərəfi isə «Qala» adlandırır. Onun ümumi sahəsi 13 hektara qədərdir (481, s.225; 162a, s.29-102; 162b, s.64-65). Səlbirdə qala divarlarının yerüstü hissəsi yaxşı qalmışdır. Səlbirdə qala divarlarının ümumi uzunluğu 1400 metrdən artıqdır. Burada 10 bürc yeri müəyyənləşdirilmişdir (481, s.227; 162b, s.64-65). Səlbirdə iki böyük və bir kiçik darvaza yeri vardır (481, s.227; 162b, s.64-65). Burada dərə ilə qala divarı arasında təxminən 30 m uzunluğunda süni müdafiə

xəndəyi vardır (481, s.227; 162b, s.64-65). Darvaza qapılarının qarşısında eni 4 m olan yaxşı inşa olunmuş yolun qalıqları indi də qalmaqdadır (481, s.227; 162b, s.64-65).

Qalanın (Govurqala) cənub tərəfində yarımdairəvi formada tikilən, biri digərindən 20-25 m aralı beş əzəmətli bürc və bürclər arasındakı divar qalıqlarının yerüstü hissəsi zəmanəmizədək nisbətən yaxşı qalmışdır (481, s.227; 162b, s.64-65). Bürclərin qalığının hündürlüyü 5-12 m, divarının eni 5 m, içərisinin diametri 5 m, içərisinin diametri 15 m, çöl üzdən yarımdairəsi 27 m-dir. Qala divarlarının qalığının hündürlüyü 3-7 m, eni isə 5 m-dir. Həm bürclər, həm də qala divarları kirəc məhlulu ilə düzbucaq formada kəsilmiş iri əhəngdaşından, çaydaşlarından, bişmiş kərpicdən hörülmüşdür (481, s. 227; 162 b, s.64-65; 162 a, s.62-102).

1958-ci ildən başlayaraq daha geniş vüsət alan arxeoloji qazıntılar nəticəsində çoxlu yaşayış evləri və ictimai binaların, sənətkarlıq məmulatının aşkar edilməsi (297, s. 75-103; 290, s. 54, 74; 162 a, s. 62-102; 162 b, s. 65), qədim Qəbələ və onun ətrafındakı zonada ictimai-iqtisadi və mədəni həyat haqqında biliklərimizi xeyli genişləndirir və şəhərlərin tarixinin qaranlıq məsələlərinin işıqlandırılmasına imkan verir.

Tədqiq etdiyimiz dövrdə arxeoloji qazıntılardan aydın olur ki, Qəbələ şəhərinin iqtisadi həyatında əkinçilik, maldarlıq və bağçılıq mühüm yer tutmuşdur. Şəhərin ilk orta əsr dövrünə aid mədəni təbəqəsindən, xüsusilə təsərrüfat quyularından çoxlu miqdarda iri və xırdabuynuzlu mal sümükləri, arpa, buğda dənələri, zoğal, alça çəyirdəkləri, fındıq, qoz qabıqları və s. tapılması bunu sübut edir (290, 54-74; 162 b, s. 63, 64; 159, s. 34-35). Eyni zamanda qazıntılar zamanı ilk orta əsr mədəni təbəqədən aşkar edilən dulus kürələri, zərgərliyə aid əmək alətləri (sırğa, üzük, medalyon qəlibləri, metal əridən qablar, lehim çırağı, qaşıq və s.), əczaçılığa aid istehsalat ocağı və əmək alətləri, bəzək şeyləri, metal əşyalar, şüşə qab qırıqları, iy başlıqları, metal pullar (290, s. 54-74; 162 b, s.64-65; 159, s. 34-35) və s. sübut edir ki, ilk orta əsrlərdə şəhər əhalisinin iqtisadi həyatında dulusçuluq, zərgərlik, əczaçılıq, toxuculuq, şüşəçilik, metalişləmə, daşişləmə və s. sənət sahələri inkişaf etmişdi.

İlkin orta əsrlər Albaniyasının ən əhəmiyyətli şəhərlərindən biri də Çora (Çoqa, Çola) olmuşdur. İlkin orta əsr yazılı mənbələri bu şəhərin ətraf rayonlarını da Çora və Çoqa adlandırdılar (76, k.II, f. 86; 68, f. IV; 81, b. III, f. 35; 84, k. I, f. 65). İlk orta əsr alban tarixçisi M.Kalankaytuklu bu şəhərin yerləşdiyi ərazini istehkam Çora (paxak – Çora) (79, k. I, f. 10), qapı Çora (Çora durn) (79, k. II, f. 1,11,12,23,39) adlandırır.

Gürcü yazılı mənbəsində də şəhərin yerləşdiyi ərazi «Çora» adlandırılır (51, s.24). İlk orta əsr tarixçisi M.Kalankaytuklu Albaniya dövlətinin tərkibində Çora vilayətinin olmasını da göstərir (79, k. II, f. 14). Digər orta əsr tarixçisi Favstos Buzandasi də Çoranı vilayət adlandırır (87, k. IV, f. 50). Lakin başqa bir ilk orta əsr tarixçisi Çoranı ölkə adlandırır (68, f. III) və həmin tarixçidən məlum olur ki, ölkənin özünün hökmdarı da varmış (68 f. III). İlk orta əsr tarixçisi Sebeos Çoranı (Çoqa) qala adlandırır (81, k. III, f. 35; 341, s.23). Alban tarixçisi M.Kalankaytuklu Çoranın şəhər olduğunu göstərir. Alban tarixçisi qeyd edir ki, Çora (Çoqa), «böyük şəhər» idi (79, k. II, f. 4; 333, s. 72; 341, s. 23) və «Dərbəndin yaxınlığında» yerləşirdi (79, k. II, f. 39; 341, s. 23), məhz buna görə də bəzi tarixçilər tərəfindən Çora şəhərinin Dərbənd şəhəri ilə eyniləşdirilməsi yanlış və doğru deyildir (171, s 24). Bu fikir yuxarıda qeyd etdiyimiz kimi alban tarixçisi M.Kalankaytuklu tərəfindən təkzib olunur və onun məlumatından aydın olur ki, Çora şəhəri Dərbənd şəhərinin yaxınlığında yerləşən bir şəhərmiş (79, k. II, f. 39). Çoranın ayrıca şəhər olmasını digər bir yazılı mənbə də qeyd edir (78, s. 369).

Yuxarıda qeyd etdiyimiz kimi, bir sıra ilk orta əsr mənbələri Çora şəhərinin ərazisini «Çora dərəsi» (76, k. II, f. 86), «Çora qapısı» (Çora durn) (76, k. II, f. 65), «Çora istehkamı» (paxak Çora) (68, f.4), «Çora keçidi» adlandırırlar (81, b. III, f.35; 341, s. 23). Bəzi tarixçilər bu mənbələrə əsaslanaraq Çoranı səhv olaraq mənşəcə qədim erməni dilinə aid edirlər (451, s.171). Lakin son zamanlarda aparılan tədqiqatlar bu fikirin yanlış olduğunu göstərir və «Çora», «Çola» sözünün mənşəcə türk ailə qrupuna mənsub olduğu sübut edilir (212, s.61-64; 217 b, s. 354).

İlk orta əsr Çora şəhəri tədqiqatçılar tərəfindən Dağıstan Respublikasının Bilici dəmiryol dayanacağının yaxınlığında yer-

ləşən, Torpaqqala adı ilə tanınan şəhər qalıqları ilə eyniləşdirilir. Bu şəhərdə 1924-cü ildə A.S. Başkirov (179, s. 235), 1937-ci ildə E.A.Paxomov (414, s. 34), daha sonralar burada arxeoloq M. İsakov tədqiqat aparmışdır. M.İsakov Bilici yaxınlığında yerləşən şəhərin təsvirini verir. O qeyd edir ki, bu şəhərin yerləşdiyi ərazi 100 h-a qədərdir, onun ətrafında qədim qala divarlarının yeri aydın görünür, burada olan səddin hündürlüyü 20 m, eni 12-15 m-dir. Şəhər dərin xəndəklə əhatə olunmuşdur, onun eni 20-25 m, dərinliyi 4-6 m-dir (289, s. 156; 401, c. I, s. 33; 451, s. 262).

1928-ci ildə Bilici dəmiryol dayanacağının ətraflarına baxan zaman meşəlikdə İ.A.Orbeli tərəfindən qəbiristanlıq aşkar edilmiş və o, orada iri daş plitələr üzərində yazılara da təsadüf etmişdir (451, s. 264). K.V.Treverin ehtimalına görə bu, Çora şəhərinin qəbiristanlığı olmuşdur (451, s. 264).

Çora Albaniyanın ən böyük şəhərlərindən və dini mərkəzlərindən biri idi. Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, Albaniyanın katolikosluğunun mərkəzi Çora şəhərində yerləşirdi. Alban katolikosu Abas (551-595-ci illər) xəzərlərin tez-tez etdiyi basqınlar nəticəsində daha Çoqa (Çora) şəhərində qala bilmədi və öz iqamətgahını Albaniyanın mərkəz şəhəri və paytaxtı olmuş Bərdə şəhərinə köçürdü. Alban tarixçisi bu haqda belə yazır: «Albaniya ölkəsi xəzərlər tərəfindən tutulmuş, kilsələr və müqəddəs kitablar yandırılmışdı. Şahənşah Xosrovun ikinci ilində erməni tarixinin əsası qoyulduğu zaman (552-ci il) Albaniya patriarxlığının taxtı Çoqa (Çora – *T.M.*) şəhərindən Partav (Bərdə) paytaxtına köçürüldü» (79, k. II, f. 4; 341, s. 70). Yuxarıda göstərilən dəlillərdən bir daha aydın olur ki, bu zaman Çoqa (Çora) şəhəri Albaniyanın dini mərkəzlərindən biri olmuşdur. 628-ci ildə Albaniyaya Çebu xaqanın və onun oğlunun başçılıq etdiyi Xəzər ordusu hücum edərkən birinci bu şəhərə daxil oldular. Şəhər və onun qala divarları darmadağın edildi (79, k. II, f. 11; 188, s. 17; 341, s. 87). Bu hücumdan sonra şəhərdə həyat öz məcrasından çıxdı və burada canlı həyat yenidən bərpa olunmadı, şəhər öz varlığını bir yaşayış məntəqəsi kimi itirdi.

İlkin orta əsrlərdə Albaniyada Kür çayının sağ sahilində Xalxal adlı daha bir şəhər yerləşirdi. Bu şəhər (Xalxal və s.

Xaqxaq) haqqında ilk orta əsr müəllifləri Aqafanqel (65, s.29; 333, s.72), Yeqişe (68, f. II; 333, s. 72), həmçinin alban tarixçisi M.Kalankaytuklu məlumat verirlər (79, k. I, f. 29; 333, s. 72; 341, s. 23). İlk orta əsr tarixçisi Aqafanqel (65, s. 29; 333, s. 72) və Yeqişenin (68, f. II, 333, s.72) verdikləri məlumatlardan aydın olur ki, Xalxal şəhəri Albaniyanın Uti vilayətində yerləşirdi. İlk orta əsr müəllifi M.Kalankaytuklu da bu fikiri və məlumatı bir daha təsdiq edir (79, k. I, f. 29; 333, s. 72; 341, s. 23). İlk orta əsr tarixçisi Yeqişe alban şəhəri Xalxalın Albaniya ilə İberiyanın sərhədində yerləşdiyini (68, f. III; 333, s. 72; 341, s.23) və onun alban şahlarının III əsrdə qış iqamətgahı olduğunu göstərir (68, f. III; 333, s. 72; 341, s. 23). Bunu təsdiq edən və təkrar edən alban tarixçisi M.Kalankaytuklu yazır: «…onunla görüşdü İberiyanın sərhədində, Xalxalla üzbəüz yerdə–alban şahlarının qış iqamətgahında» (79, k. II, f. 2; 333, s. 72). Mütəxəssislər bu şəhərin və onun qalıqlarının Qazax rayonunda, Ağstafa – Yerevan şosse yolundan 2 km aralıda, çayın kənarında yerləşdiyini qeyd edirlər (451, s. 265; 264, s. 84, 128; 546, s.232) və onu antik alban şəhəri Lala ilə eyniləşdirirlər (264, s. 84-85). Bu şəhərin yeri tədqiqatçılar tərəfindən digər şəhərlər kimi tam dəqiqləşdirilməmişdir. Burada arxeoloji qazıntı işləri də hələlik aparılmamışdır, çox güman ki, gələcək arxeoloji qazıntı işləri, tədqiqatlar buna imkan yaradacaq və onun qaranlıq səhifələri işıqlandırılacaqdır.

Tədqiqatçılar Xalxal şəhərinin adının etimologiyasına da toxunmuş və onu türk dili leksikonu əsasında təhlil edərək xalq arasında bu sözün «qışlaq», «mal ağılı», «tövlə» mənasında işləndiyini göstərirlər. Bununla Xalxal, Xalxalqışlaq, Daşxalxal adları meydana gəlmişdir. Yazılı mənbələrdə göstərildiyi kimi, Xalxal şəhəri alban şahlarının, eyni zamanda ölkənin qış iqamətgahına çevrilmişdir (245, s. 23).

Tarixçi Q.Ter-Mkrtçyan (Miaban) 1893-cü ildə bu qədim Alban şəhərlərinin ərazisində olmuş, hələ o zaman burada Xalxal adlı kəndin olduğunu və orada yaşayan əhalinin türk dilində danışdığını da xüsusi qeyd edir (531, s. 932). Cənubi Azərbaycanda orta əsrlərdə və hal-hazırda Xalxal şəhəri vardır (475, s. 90).

Vaxtı ilə sözsüz Albaniya dövlətinin tərkibinə daxil olmuş Kaspi dənizinin sahilində yerləşən qədim və ilk orta əsr möhtə-

şəm şəhərlərdən biri də Dərbənd şəhəri idi. Onun haqqında bizə ilk orta əsr tarixçilərindən alban tarixçisi M.Kalankaytuklu (79, k.II, f.39; 341, s. 72) və erməni tarixçiləri Gevond (82, f. 19; 333, s. 72-341, s. 23), M.Ayrivanesi (78, s. 48-49; 333, s. 72) məlumat verərək, onu şəhər adlandırırlar. İlk orta əsr tarixçilərinin verdiyi məlumatları eyni zamanda ərəb coğrafiyaçıları – Bəlazuri, Yaqubi, İbn Xordadbeh, İbn Rusta, İbn əl-Fəqih, İstəxri, Məsudi, İbn Haukal, Müqəddəsi (64, s. 61; 13. s.5; 24, s. 15; 23, s. 43; 22, s. 11, 15; 30, 11; 47, s.40; 21, s. 88; 48, s. 39), Yaqut Həməvi (62, s. 14-18) təsdiq edirlər. İlk orta əsrlərdə, VI əsrdə şəhərin mövcud olması haqqında yazılı mənbələrdə verilən məlumatları, Dərbəndin qala hasarlarındakı pəhləvi yazıları da təsdiq edir (416, s. 3-22; 395, s. 29). Dərbənd şəhərinin hələ çox qədim dövrlərdə mövcud olmasını arxeoloji qazıntılardan tapılan maddi mədəniyyət nümunələri də sübut edir (316, s. 18-20; 317, s.11-12). İlk orta əsr tarixçisi Gevondun verdiyi məlumatdan aydın olur ki, Dərbənd qala divarlarına və qala bürclərinə malik olmuşdur (82, f. 12, 333, s. 72; 341, s. 23). Bu məlumatı ərəb coğrafiyaçıları İstəxri, İbn Haukal, Müqəddəsi, Yaqut Həməvi təsdiq edərək yazırlar ki, Dərbənd (Bab-əl-Əlvab) daş qala divarları ilə əhatə olunmuş və Kaspi dənizinin sahilində möhkəm bir ərazidə inşa edilmişdi (30, s. 11; 21, s.78,89; 48, s.3; 62, s.18,19). Ərəb coğrafiyaçıları İbn əl-Fəqih, Müqəddəsi, Bəlazuri isə bu şəhərin qala divarları və bürclərlə əhatə olduğunu qeyd edirlər (22, s. 23, 24; 48, s. 9; 13, s. 7). Başqa ərəb coğrafiyaçıları yazırdılar ki, bu şəhər liman şəhəri idi (30, s. 11; 21, s. 88; 62, s. 18, 19). Dərbənd şəhəri haqqında bizə gürcü yazılı mənbələri də məlumat verərək onu «Darubandi» adlandırırlar (50, s. 26, 38-39). Dərbəndin adı və onun yerləşdiyi yer ərəb coğrafiyaçılarının əsərlərində «Bab-əl-Əbvab» (qapı), «Bab-əl-Əbvab» (qapılar qapısı), «Babül-Xədid» (dəmir qapı), «Əl-Bab» (qapı), «Bab-əlvan» (qızıl qapı), Səd-Əlvan» (gümüş qapı) kimi verilir (64, s. 61; 23, s. 43-51; 24, s.15; 13, s.5; 30, 11. 17; 22, s. 11, 15; 47, s.40,41, 58; 21, s. 88, 92, 48, s. 3, 9). Buradan çıxış edən bəzi tədqiqatçılar ilk orta əsr yazılı mənbələrində «Dərbənd» şəklində bizə gəlib çıxan bu adın yanlış olaraq iran mənşəli söz olduğunu hesab edirlər (372, s. 32). Onların fikrincə, bu söz iki

hissədən, farsca: Dər–qapı və bənd hissələrindən ibarətdir (372, s. 32). Bizim fikrimizcə bu yanlış fikir və baxış türk dilləri kontekstində baxılsa və aydınlaşdırılsa, başqa bir mənzərə alınar. «Dərbənd» sözünün birinci hissəsində olan «Dər»də «ə» saitinin «a» saitinə dəyişməsini və türkmənşəli sözlərdə belə halların tez-tez olmasını nəzərə alsaq və bunu qanunauyğun hal kimi qəbul etmiş olsaq, birinci hissədəki sözü «Dər» kimi yox, «Dar» kimi oxusaq, o zaman yuxarıda qeyd etdiyimiz kimi, bu sözün birinci hissəsi qapı şəklində yox, «dar» mənasında (dar geyim, dar yol, dar keçid, dar boğaz və s.) oxunar, ikinci hissədəki «bənd» (çayın qarşısına salınan bənd, dar keçidin qarşısına salınan bənd) sözünün də türkmənşəli olduğunu qeyd etsək, Dərbəndin adının türkmənşəli olduğu aydınlaşar. Bu şəhərin yuxarıda qeyd etdiyimiz kimi, gürcü yazılı mənbələrində «Darubandi» şəkilində bizə gəlib çatmış yazılış formasını nəzərə alaraq, onu bir yerin bəndi kimi qəbul edib tərcümə etsək və buranın həqiqətən də dar coğrafi bir yerdə yerləşdiyinə nəzər yetirsək, o zaman hər şey aydın olur.

İlk orta əsr tarixçisi Gevond da belə bir məlumat verir ki, Dərbənd şəhəri II Yezdəgerd dövründə bizans imperatoru tərəfindən inşa olunmuşdur (82, f.XII). Lakin bizə məlumdur ki, sasanilər, Dərbəndin yerləşdiyi ərazidə Xosrov I Ənuşirəvanın (531-578-ci illər) hakimiyyəti illərində tam möhkəmlənmişdilər. Ona görə də Gevondun yuxarıdakı bu məlumatını, çox güman ki, Dərbəndə deyil, Beşbarmaq səddinə aid etmək daha düzgün olardı.

Dağlardan başlayıb dənizə qədər gedən bu möhtəşəm Dərbənd səddinin tikilməsini yazılı mənbələr Sasani şahları II Yezdəgerdə, Kavada (Qubada) və onun oğlu Xosrov I Ənuşirəvana aid edirlər. Ərəb coğrafiyaçıları İbn əl-Fəqih, Yaqut Həməvinin, Bəlazurinin məlumatlarından aydın olur ki (22, 11; 62, s. 14; 13, s. 14), çiy kərpicdən tikilmiş Dərbənd səddinin əsasını Kavad qoymuşdur. Arxeoloq A.A.Kudryavsev belə hesab edir ki, Dərbəndin çiy kərpicdən tikilmiş hasarları Sasani şahı II Yezdəgerd dövründə inşa edilmişdir (316, s. 16; 317, s. 14). Ərəb coğrafiyaçıları Bəlazuri, İbn Xordadbeh, Məhsudi, Müqəddəsi, Yaqut Həməvi, İbn əl-Fəqih, Kudama Dərbənd şəhərinin və onun daş hasarlarının tikilməsini VI əsrdə Sasani şahı I Xosrov Ənuşirəvana aid edirlər (13, s.5; 24, s.15; 47, s. 40,41;

48, s. 9; 62, s. 14, 18; 22, s. 15; 43, s. 29). Ərəb coğrafiyaçılarının və tarixçilərinin VI əsrdə Dərbənd şəhərinin inşa edilməsi məlumatları, orada tapılan pəhləvi yazıları da bunu sübut edir (416, s. 3-22; 395, s. 29). Bunu eyni zamanda arxeoloji tədqiqatlar da sübut edir (317, s. 15). İlk orta əsrlərdə Dərbənd şəhərinin ölkədə tutduğu mövqe və onun təsərrüfat həyatında oynadığı rol haqqında ərəb coğrafiyaçılarının və tarixçilərinin verdiyi məlumatlar bu baxımdan nəzər-diqqəti cəlb edir: «Bab əl-Əbvab sahil şəhəridir və ortasında gəmilər üçün liman vardır. Bu liman ilə dəniz arasında, hər iki yandan qoşa divar çəkilmişdir; belə ki, gəmilərin giriş yolu dar və çox girintili-çıxıntılıdır. Giriş Tir və Beyrut şəhərlərində olduğu kimi zəncirlənmişdir, üstündə qıfıl asılmışdır, açarı dənizdəki vəziyyətə nəzarət edəndədir. Heç bir gəmi icazəsiz buraya nə daxil olur, nə də çıxır. Hər iki divar daş və qurğuşundan hörülmüşdür. Xəzər dənizinin, eyni zamanda Təbəristan dənizinin sahilindədir. Şəhər Ərdəbildən böyükdür, buranın çoxlu əkin torpaqları var, lakin başqa nahiyələrdən gətirilməsə – meyvəsi azdır. Şəhərin ətrafından daş, kərpic və palçıq divarlar çəkilmişdir, bu şəhər sərir və kafirlərin başqa ölkələrinin Xəzər dənizində limandır – Bura Curcan, Təbəristan və Deyləmin də limanıdır. Buradan kətan paltarlar ixrac edilir, Arran, Ərməniyə və Azərbaycanda bundan başqa heç bir yerdə kətan paltar olmur. Burada zəfəran da yetişdirilir, kafir ölkələrdən olan qullara da rast gəlmək olur» (21, s. 88-89; 156, s. 156-157). Burada güclü miqdarda yığılan boyaq bitkisi Xəzər dənizi vasitəsi və karvan yolu ilə çoxlu ölkələrə və hətta Hindistana qədər göndərilirdi. Bu məhsul öz keyfiyyətinə görə bütün digər boyaqlardan üstündür (48, s.14). Dərbənddən başqa ölkələrə eyni zamanda «Əla keyfiyyətli uzunqulaqlar da» ixrac olunurdu. (48, s. 14). Yuxarıda verilən bu məlumatları ərəb coğrafiyaçıları İstəxri və Yaqut Həməvi də təkrar və təsdiq edirlər (30, s. 11; 62, s. 18).

Dərbənd şəhəri quru və su ticarət yollarının qovşağında yerləşmişdi. Bu şəhər ilk orta əsrlərdə Bərdə, Şamaxı, Bərzənd və digər şəhərlər ilə sıx ticarət əlaqələrinə malik idi (30, s. 29-33; 24, s. 11; 43, s.29; 168, s.151-152; 156, s. 155). Dərbənd şəhəri eyni zamanda dəniz vasitəsilə Sərir, Cürcan, Təbəristan, Dey-

ləmlə ticarət yolları ilə bağlı idi (30, s. 11; 21, s. 89; 62, s. 18; 156, s. 156). Dərbənd şəhərində evlər daşdan tikilmişdi (48, s. 9). Dərbənd şəhəri talismana da malik olmuş və bu talisman qala darvazalarının üstündə həkk olunmuşdur (22, s. 25; 62, s. 18).

Dərbənd şəhəri dağlarda yerləşən bulaqlardan yerin altı ilə saxsı kəmərlə gətirilən sular ilə təchiz olunurdu (48, s. 9; 22, s. 25). Dərbənd şəhərinə gətirilən dağ bulaqlarının suyunun çəkilməsi sasani şahı Xosrov I Ənuşirəvanın adı ilə bağlıdır (451, s. 280).

Arxeoloji qazıntılardan və tədqiqatlardan aydın olur ki, Dərbənd şəhəri iki hissədən ibarət idi: içqala və şəhərin özü (316, s. 18; 317, s. 22). İlk orta əsrlərdə şəhərin möhkəmləndirilmiş hissəsi olan içqala 26-30 hektar, şəhərin özünün ərazisi isə 160 hektar olmuşdur (316, s. 19; 317, s. 27-28). Tədqiqatlardan aydın olur ki, içqala hissəsində, ilk orta əsrlərdə şəhər hakiminin iqamətgahı, saray əhli, qarnizon, eləcə də inzibati, hərbi-siyasi və mədəni mərkəz burada yerləşirdi (316, s. 19). Şəhərin ərazisində arxeoloji qazıntılar zamanı ilk orta əsr mədəni təbəqəsindən çoxlu miqdarda yüksək keyfiyyətli dulus məmulatı aşkar edilmişdir (316, s. 19; 317, s. 27-28). Burada tapılan yüksək keyfiyyətli dulus məmulatı və digər əşyalar tədqiq etdiyimiz dövrdə Dərbənd şəhərində dulusçuluq sənətinin yüksək inkişaf etdiyini göstərir (316, s. 20; 317, s. 28).

Arxeoloji qazıntıların nəticələri göstərir ki, ilk orta əsrlərdə Dərbənd şəhərinin əhalisi dulusçuluq sənətkarlığından başqa, digər sənətkarlıq növləri – toxuculuq (316, s.33), şüşə istehsalı (316, s. 30, 32), metal emalı və əlvan metal (316, s. 34) istehsalı, zərgərlik istehsalı (316, s. 35), sümükdən hazırlanan əşyaların istehsalı (316, s.35) ilə də məşğul olurdu.

İlk orta əsrdə Albaniyanın şəhərlərindən biri də Paytakaran şəhəri idi. Tədqiqatçılar Paytakaran şəhərinin adının etimologiyasına da toxunmuşlar. Paytakaran şəhərinin adı müxtəlif şəkildə təhlil və izah olunur. Y.A.Paxomov qədim erməni dilinə əsaslanaraq bu sözü iki hissəyə bölür: birinci hissədəki «Payt» sözünü ağac kimi tərcümə edir, ikinci hissəsini – «Kanın» yer mənasında olduğunu göstərir (409, s. 17). Digər bir tədqiqatçı isə K.V.Trever, Y.A.Paxomov tərəfindən araşdırılan bu izahı təkrar edərək Paytakaran sözünü «Ağac (şəhər)» kimi göstərir

və buranı «çoxlu meşə olan yer» kimi izah edir (451, s. 265). Kapansiyan isə onun birinci hissəsini «palan» tayfasının adı ilə bağlamağa çalışır, qədim İran dili – pəhləvi əsasında – ikinci hissəni Kara – «ordu», «xalq» kimi izah edir (306, s. 66).

Digər bir tədqiqatçı X.Hüyubşhman belə hesab edir ki, Paytakaran şəhərinin adı yerli kaspi tayfalarına məxsusdur (546, s. 270; 451, s.265). Başqa bir tədqiqatçı Paytakaran sözünü paytaxt (fars dilində) və Aran hissələrdən ibarət hesab edərək onun Arranın paytaxtı olduğunu qeyd edir (159, s.26). Biz də bu fikirlə tam şərik və razıyıq. Q.Qeybullayev də sonralar öz tədqiqatlarında Paytakaran şəhərinin adının etimologiyasına toxunmuş və onun yerli alban tayfalarından birinə məxsus olmasını izah etməyə çalışmışdır (217, s. 234-239).

İlk orta əsr yazılı mənbələri tədqiq etdiyimiz dövrdə Paytakaranın şəhər olduğu haqqında məlumat verirlər. İlk orta əsr tarixçiləri Aqafanqel, Parpesi, Favstos Buzandasi, Yeqişe, Xorenasi, Sebeos, Asoqik bu şəhər haqqında bizə məlumat verirlər (65, s. 485; 76, k. III, f. 3; 74, k. II, f. 33; 87, k. V, f. 11; 68, f. 4; 81, b. II, f. 1; 84, k. II, f. 1; 333, s. 73; 341, s. 24). Bu məlumatları ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu da təsdiq edir (79, k. I, f. 12; 333, s. 73; 341, s. 24). Aqafanqel yanlış olaraq Paytakaranı erməni şəhəri adlandırır (65, s.485; 333, s. 73), lakin digər ilk orta əsr tarixçiləri Favstos Buzandasi, M.Xorenasi, L.Parpesi və Sebeosun verdikləri məlumatdan aydın olur ki, Paytakaran alban şəhəri olub (87, k. V, f. 11; 81, b. III, f. 3; 76, k. III, f. 3; 74, k. II, f. 33; 333, s.73). İlk orta əsr tarixçisi Favstos Buzandasi əsərinin «Kaspilər haqqında» bölməsində IV əsrdə Paytakaran şəhərinin əhalisinin «erməni şahından ayrılmasını» (87, k. V, f. II; 451, s. 265) xüsusi olaraq göstərir. M.Xorenasi qeyd edir ki, kim ki Paytakaran şəhərinə sahib olurdu, başında tac gəzdirirdi (76, k. III, f. 3; 333, s. 73). Çox güman ki, dövlət kimi müstəqilliyə malik olmuşdur.

İlk orta əsr tarixçisinin verdiyi məlumatdan aydın olur ki, Paytakaran şəhərində ilk orta əsrlərdə xristianlıq geniş yayılmışdı (63, f. 13; 99, s. 180; 451, s. 265; 333, s.73). Tədqiq etdiyimiz dövrdə ilk orta əsr tarixçisi Yeqişe Paytakaranı bir şəhər kimi deyil, eyni zamanda onun vilayət olduğunu qeyd edir (68,

f. III; 333, s. 73). İlk orta əsr coğrafiyaçısı Şirakasi Paytakaranın nahiyə olduğunu göstərir və onun vilayətlərə bölündüyünü qeyd edir. Onun məlumatından aydın olur ki, Paytakaran nahiyəsi aşağıdakı 13 vilayətdən ibarət olmuşdur: Horakat-Peroz, Vardanakert, Yeron-Parakiyan, Bağink, Rotiboğa, Baaxanrot, Arospican, Qani, Atli, Baqovan, Snandaran-Perzot, Ormizd-Peroj, Alevan (11, s. 19; 341, s. 37). Görkəmli tədqiqatçı S.Aşurbəyli bu vilayətlərin yerləşdikləri yerləri və onların mənşələrini araşdırmağa səy göstərmişdir və müəyyən dərəcədə buna nail olmuşdur (159, s. 26-30).

İlk orta əsr tarixçiləri M.Xorenasinin və Asoqikin verdiyi məlumatlardan aydın olur ki, Paytakaran şəhərində şahlara məxsus saray və şah iqamətgahı yerləşirdi (79, k. III, f.5; 84, s.69; 409, s.17). Digər ilk orta əsr tarixçisinin məlumatından aydın olur ki, alban katolikosluğunun mərkəzi də bu şəhərdə yerləşirdi. Sebeosun verdiyi məlumatdan bəlli olur ki, bu şəhərdə şah arxivi də yerləşirdi (84, s. 69; 409, s. 17). İlk orta əsr tarixçiləri Favstos Buzandasi, Yeqişe və Parpesinin verdikləri məlumatlardan aydın olur ki, ilk orta əsrlərdə burada iri hərbi birləşmələr də saxlanılırdı (87, k. IV, f. 24; 68, f. III; IV; 74, k. II, f. 33).

Beləliklə, yuxarıda göstərilən yazılı mənbələrdən aydın olur ki, ilk orta əsrlərdə Qarqar düzündə (Mil düzü) yerləşən bu şəhər Albaniyanın iqtisadi, siyasi, ictimai, mədəni və dini mərkəzlərindən biri olmuşdur.

Paytakaran nahiyəsi və şəhəri bir neçə dəfə ilk orta əsrlərdə yadelli işğalçıların hücumlarına və basqınlarına məruz qalmışdır. Bu hücumlar və basqınlar zamanı şəhər böyük ziyana və dağıntıya məruz qalmışdır. IV əsrin 30-cu illərində Albaniyaya Şimali Qafqaz xalqlarının hücumu zamanı Paytakaran şəhəri böyük dağıntılara düçar olmuşdur (76, k. III, f. 36; 79, k. I, f. 12; 84, k. II, f.1; 73, s.43). Paytakaran şəhəri İran-Bizans müharibəsi zamanında dağıntılara və hücumlara məruz qalmışdır. Bizans imperatoru İraklinin Albaniyaya birinci hücumu zamanı həm ölkə, həm də Paytakaran şəhəri dağıdılmış və böyük ziyana məruz qalmışdır (81, b. III, f. 26; 354, s. 140; 451, s. 139).

İlk orta əsr alban şəhəri Paytakaranın yerləşdiyi yer haqqında yazılı mənbələr məlumat verirlər. İlk orta əsr yazılı mən-

bələrin verdikləri məlumatdan aydın olur ki, Paytakaran şəhəri Kür və Araz çaylarının aşağı axarında yerləşirdi. Coğrafiyaçı Şirakasi Paytakaran şəhərinin Uti nahiyəsindən şərqdə, Araz çayının aşağı hissəsində yerləşdiyini göstərir (11, s. 19). Bu şəhərin yerləşdiyi yer haqqında tədqiqatçılar da fikir söyləmiş və buna toxunmuşlar. A.E.Krımski bu şəhərin Araz və Kür çaylarının qovuşduqları yerin şərqində yerləşdiyini göstərir (319, s. 292). S.T.Yeremyan (403, c. II, s. 327) və K.V.Trever şəhəri Qarqar düzündə (451, s. 265), Y.A.Paxomov isə Paytakaran şəhərinin Kür və Araz çayları axınının aşağı hissəsində yerləşdiyini göstərir (409, s. 18). Y.A.Manandyan bu şəhərin Araz çayının aşağı axınında yerləşdiyini qeyd edir (354, s. 138-139).

Paytakaran şəhərinin dəqiq yerləşdiyi yer bu yaxınlara qədər müəyyən olunmamışdır. Hal-hazırda artıq Paytakaran şəhəri arxeoloqlar A.A.İyessen (280, s. 27-28; 279, s. 46-47; 281, s. 102; 284, s. 32-34) və Q.M.Əhmədov tərəfindən Mil düzündə, Örənqaladan 7-8 km cənub-şərqə doğru, Beyləqan rayonun Təzəkənd yaşayış məntəqəsinin ərazisində yerləşdiyini göstərirlər (154, s.29; 152, s. 16).

Arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi mədəniyyət qalıqları göstərir ki, ilk orta əsrlərdə Paytakaran şəhərinin möhkəmləndirilmiş iç qalası 5,5 hektara bərabər olmuşdur (154, s. 29). Şəhər müdafiə qala divarları və süni müdafiə xəndəyi (xəndəyin dərinliyi 3-4 m) ilə əhatə olunmuşdur (284, s. 33, ş. 14; 154, s. 29). Qazıntılar zamanı ilk orta əsr mədəni təbəqələrdən saxsı məmulatları və onların qırıntılarının qalıqları (284, s. 33; 154, s. 29), roma sikkələri (184, s. 33; 280, s. 28; 154, s. 29), daş sütunların bünövrəsi və onların forması (482, s. 255, ş. 3; 284, s. 33, ş.15; 154, s. 29), küp qəbirlər mədəniyyətinin qalıqları (280, s. 28; 284, s. 33-34; 154, s. 30), habelə daşdan hazırlanan dən daşları tapılmışdır (154, s. 30).

İlk orta əsr tarixçiləri M.Xorenasinin və Asoqikin verdikləri məlumatlardan aydın olur ki, Paytakaran şəhərinin əhalisinin əsasını albanlar təşkil edirdi (76, k III, f. 6; 84, s. 43).

Tədqiqatçılar arxeoloji qazıntıların nəticələrinə əsaslanaraq öz əhəmiyyətini itirmiş Paytakaran şəhərinin sonralar öz yerini dəyişməsini də ehtimal edirlər. Tədqiqatçılardan A.A.İyessenin

və Q.M.Əhmədovun fikrincə bu, o zaman Albaniyanın və qonşu Sasani dövlətinin ərazisində aparılan strateji əhəmiyyətli tikinti və quruculuq işləri ilə bağlı idi (279, s. 47; 154, s. 31). Bu, bilavasitə Paytakaran şəhərinin lap yaxınlığından keçən möhtəşəm Govurarx irriqasiya sisteminin tikintisi ilə əlaqədar olmuşdur (279, s. 47; 154, s. 31). Bununla əlaqədar olaraq şəhər – Paytakaran şəhərindən 7-8 km şimal-qərbdə – Mil düzünün mərkəzində yerləşən Beyləqan şəhərinin ərazisinə köçürüldü (279, s. 47; 154, s. 31). Bizim fikrimizcə, yuxarıda göstərilən faktlarla bərabər, şəhərin yerinin dəyişməsinə digər əsas bir səbəb də yadelli işğalçıların tez-tez hücumları və müharibələr nəticəsində ilk orta əsrlərdə Paytakaranın dağılması və bunun nəticəsində də tam tənəzzülə uğraması mühüm rol oynamışdır.

Beyləqanın yazılı mənbələrdə VI əsrin sonları və VII əsrin əvvəllərində dəfələrlə adı çəkilir. Beyləqan şəhəri haqqında bizə ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu (79, k. III, f. 19; 99, s. 215; 95, s. 456-458), İ.Drasxankertsi (80, s. 37), K.Qandzakesi (83, s. 104), Samuel Anasi məlumat (12, s.89) verirlər. Samuel Anasi Beyləqan şəhərini «Baxax» adlandırır (12, s.89). Yuxarıda göstərilən yazılı mənbələrdən əlavə bu şəhər haqqında ərəb coğrafiyaçıları da məlumat saxlamışlar. Beyləqan şəhəri haqqında bizə ərəb coğrafiyaçıları – İbn Haukal, İstəxri, İbn Xordadbeh, İbn Rusta, Bəlazuri, Yaqut Həməvi, Yaqubi, İbn əl-Fəqih, Kudama, Məsudi, Müqəddəsi məlumat verirlər (21, s. 85, 92; 30, s. 17, 19; 24, s. 15; 23, s. 39; 13, s. 15, 16, 19, 20; 62, s.13, 14; 64, s.57, 61; 22, s.9, 11, 13, 15, 31, 37; 43, s. 25, 27; 47, s. 58-59; 48, s. 9; 409, s. 23). Beyləqan şəhəri haqqında ilk orta əsr fars yazılı mənbəyi «Hüddud əl-Aləm» də məlumat verir (60, s. 4).

Ərəb coğrafiyaçıları Beyləqan şəhərinin inşa olunmasını sasani şahı I Kavadla (489-531) əlaqələndirirlər. Bu haqda ərəb coğrafiyaçıları – İbn Xordadbeh, Bəlazuri, İbn əl-Fəqih (24, s. 15; 13, s.5; 22, s.1; 63, s.9), Yaqut Həməvi (63, s.9) və başqaları məlumat verirlər. Fars dili yazılı mənbələrdə Beyləqan şəhərinin I Kavad tərəfindən inşa olunmasını yazırlar (165, s. 66; 307, s. 125). Beyləqan şəhərin V-VII əsrlərdə olmasını Örənqala şəhərində aparılan arxeoloji qazıntıların tapıntıları da təsdiq edir (280, s. 36; 284, s. 32; 151, s. 34).

Vaxtı ilə burada arxeoloqlardan İ.İ.Meşaninov (1933) (368), A.K. Ələkbərov (1936) (132), İ.M.Cəfərzadə (1951) (256), A.A.İyessen (280), A.L.Yakobson (488; 450), N.V.Minkeviç Mustafayeva (382), Q.M.Əhmədov (154, s. 151) və başqaları arxeoloji qazıntı işləri aparmışlar.

Bəyləqan şəhərinin adının mənşəyi mütəxəssislər tərəfindən müxtəlif halda aydınlaşdırılır. İ.Əliyev bu adın «palan» (balay) tayfasının adı ilə bağlı olduğunu göstərir (131, s.61). Ş.M.Cəmşidov onun – «Baylakan»ın fars sözü biləkandan əmələ gəldiyini qeyd edir (254, s. 51-54; 154, s. 10). Digər bir tədqiqatçı «Beyləqan» sözünün «bel» (tayfanın adı) sözündən və «kan» (tayfanın yerləşdiyi yer) əmələ gəldiyini göstərir (372, s. 83). Başqa bir tədqiqatçı isə Beyləqan şəhərinin adının türkmənşəli olduğunu sübut etməyə çalışır (217 b, s. 238).

Beyləqan şəhərinin yerləşdiyi yer bu yaxınlara qədər dəqiq aydınlaşdırılmamış olaraq qalırdı. Tədqiqatçılardan İ.P.Meşaninov (368, s. 28), A.K. Ələkbərov (133, s.67), A.A.İyessen (282, s. 127; 280, s. 28-29), Q.M.Əhmədov (152, s.11-14; 154, s.10) Beyləqan şəhərini Örənqala şəhərciyinin qalıqları ilə eyniləşdirirdilər. Vaxtı ilə A.A.Bakıxanov (165, s. 66), M.C.Qarabağı (307, s.12-13), A.Umenes (452, s. 45), V.Bezmenov (180, s. 145), N.Toronov (450, s. 127), M.Qersevanov və N. Zeydlis də (218, s. 257, 265) bu fikirdə olub, Beyləqanı Örənqala ilə bağlayırdılar. Digər tədqiqatçılar – N.A.Karaulov (21, s. 128) və İ.M.Cəfərzadə (256, s.135) Örənqalanın qalıqlarını qədim yunan şəhərinin qalıqları olduğunu göstərir və Beyləqan şəhərinin Araz çayının sol sahilində, Qaradonlu kəndinin ərazisində yerləşdiyini qeyd edirdilər. Yuxarıda qeyd etdiyimiz kimi, bir qisim tədqiqatçılar Beyləqanı Paytakaran şəhəri ilə eyniləşdirirdilər (409, s. 18-19; 271, s. 34; 319, s. 292).

1955-ci ildə nəhayət bu mübahisələrə son qoyuldu. Buna arxeoloji qazıntılar zamanı Örənqala şəhərindən tapılmış qabın üzərindəki «Beyləqanda Fədlun tərəfindən hazırlanmışdır» yazısı son qoydu (250, s. 342). Beləliklə, bu tapıntıdan sonra aydın oldu ki, indiki Beyləqan rayonunun Kəbirli kəndinin yaxınlığında yerləşən Örənqala şəhərinin qalıqları ilk orta əsr Beyləqan şəhərinə mənsubdur (154, s.8).

Arxeoloji qazıntılardan bəlli olur ki, Beyləqan şəhərinin ərazisi 40 hek.-dan artıq olmuşdur, o cümlədən içqala hissəsi 14 hek.-a qədər olan ərazidən ibarət olub, qala divarları və müdafiə xəndəyi ilə əhatə olunmuşdur (151, s. 5; 154, s.9; 185, s. 151, 481, s. 223-224; 256, s. 123-124; 381, s.174; 154, s. 39; 153, s. 380, 381).

Yazılı mənbələrin verdikləri məlumatlardan aydın olur ki, ilk orta əsrlərdə Beyləqan şəhərinin əhalisi sənətkarlıq, ticarətdən əlavə əkinçilik, bağçılıqla da məşğul idi (21, s. 85-92; 30, s. 18, 19; 11, s.19). Yazılı mənbələrin verdikləri bu məlumatları, eyni zamanda, arxeoloji qazıntılar zamanı əldə olunmuş maddi mədəniyyət qalıqları da təsdiq edir. Arxeoloji qazıntılar zamanı üzüm, albalı, gavalı qalıqları (154, s. 38), sənətkarlığa və maldarlığa aid maddi mədəniyyət qalıqları aşkar edilmişdir (282, s. 115; 380, s. 24-64; 154, s. 30, 44-61).

Albaniyanın ilk orta əsrlər dövründə, ölkənin dini, siyasi və mədəni mərkəzlərindən biri də Amaras şəhəri idi. Bu şəhər haqqında ilk orta əsr tarixçiləri Favstos Buzandasi, M.Xorenasi, alban tarixçisi M.Kalankaytuklu, orta əsr tarixçisi Asoqik məlumat verirlər (87, k. III, f. 6; 76, k. III, f. 3; 84, k. II, f. 11; 79, k. I, f. 14; 333, s. 73; 341, s. 24). İlk orta əsr tarixçiləri F.Buzandasi, M.Xorenasi və Asoqik Amarası öz məlumatlarında kənd adlandırırlar (87, k. III, f. 6; 76, k. III, f. 3; 84, k. II, f. 11; 341, s. 24). Alban tarixçisi M.Kalankaytuklu isə verdiyi məlumatda Amarası şəhər adlandıraraq onun Haband nahiyəsinin Arsax vilayətində yerləşdiyini qeyd edir (79, k. I, f. 14; 333, s. 72; 341, s. 24). Həmçinin ilk orta əsr tarixçiləri F.Buzandasi və M.Xorenasi də Amarasın Habanda yerləşdiyini göstərirlər (87, k. III, f. 6; 76, k. III, f. 3). Favstos Buzandasi IV əsrdə olan hadisələrdən bəhs edərək Haband nahiyəsini və Amarasın Ermənistanla Albaniyanın sərhədində –Albaniya ərazisində yerləşdiyini də qeyd edir (87, k. III, f.45). Yazılı mənbələrin ilk orta əsrlərdə Amaras şəhərinin varlığı haqqında məlumatlarını eyni zamanda Amaras ərazisində aparılan arxeoloji qazıntılar da təsdiq edir (227, s. 48). Azərbaycan MEA Tarix İnstitutu bu şəhərin ərazisində bir neçə il arxeoloji qazıntılar aparmışdır (227, s. 48-49). Aparılan qazıntılardan aydın olur ki, ilk orta əsrlərdə şəhərin ərazisinin

7-8 hektardan artıq hissəsi qala divarları içərisində yerləşirdi. Qala divarları 15-16 m məsafədə bir-birindən aralı yarımdairəvi bürclərə malik olmuşdur (272, s. 50). Yazılı mənbələrin məlumatları və arxeoloji qazıntıların qalıqlarından aydın olur ki, antik dövrdə çox ehtimal ki, burada yaşayış məskəni olmuşdur (273, s. 80-82; 195, s. 217). Bu baxımdan çıxış edən S.T.Yeremyan Amaras şəhərini antik alban şəhəri Anariakla eyniləşdirir (273, s. 51).

Amaras şəhərinin adı mütəxəssislər tərəfindən bir neçə formada müəyyənləşdirilmişdir. İlk orta əsr yazılı mənbələri də bu şəhərin adını öz növbəsində müxtəlif şəkildə vermişlər. Favstos Buzandasi bu şəhərin adını «Amaren» və «Amaras» kimi (87, k. III, f. 6), M.Xorenasi isə «Amare» (71, k.III, f. 3) kimi verirlər. Vaxtilə buranı yerli müsəlmanlar «Ağoğlan» adlandırmışlar (484, s. 135-136). Görkəmli tədqiqatçı Z.İ.Yampolski Ağoğlanın adının «Amaras»dan nisbətən daha qədim və yerli əhalinin astral dini görüşləri ilə bağlı olduğunu, həm də bu sözün günəşə sitayişlə əlaqədar meydana gəldiyini ehtimal edir (495, s. 217). Qədim erməni dilində Amaras sözü «yay iqamətgahı» və «yay istirahət yeri» şəklində tərcümə olunub və bu mənada işlədilir (139, s. 27-28). R.B.Göyüşov qeyd edir ki, «Amaras» qədim «Amare» sözünün ermənileşmiş formasıdır (227, s. 24).

Favstos Buzandasinin verdiyi məlumatdan aydın olur ki, Amarasda Qriqorisin babası Müqəddəs Qriqori tərəfindən kilsə tikilmişdir (87, k. III, f. 6). Yazılı mənbənin bu məlumatını Amarasda aparılan arxeoloji qazıntılar da təsdiq edir (227, s. 52-63, si. 1). Qriqoris məhv edildikdən sonra Haband vilayətindən onunla birlikdə gəlmiş adamlar, IV əsrin 30-cu illərində Qriqorinin cəsədini götürərək Amarasa gətirdilər və onu babası Qriqori tərəfindən tikdirilən kilsədə dəfn etdilər. Bu haqda bizə ilk orta əsr mənbələri, Favstos Buzandasi, M.Xorenasi, Asoqik Vardan (87, k. III, f. 1; 76, k. III, f. 3; 84, k III, f. 1; 73, s.43) və alban tarixçisi M.Kalankaytuklu (79, k. I, v. 14) məlumat verirlər. Yazılı mənbələrin verdiyi məlumatlardan aydın olur ki, alban çarı III Vaçaqanın dövründə Qriqorisin qəbri axtarılıb tapılır. Qriqorisə hörmət əlaməti olaraq alban şahı Amarasa gəlir, dizləri üstə çökərək yepiskoplarla birlikdə onun şərəfinə dua

oxuyur və Amarasda kilsə inşa edilir (79, k. I, f.23). Yuxarıda göstərilən yazılı mənbələrin bu məlumatlarını Amarasda aparılan arxeoloji qazıntılar da təsdiq edir (227, s. 38, 53-54).

Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatlardan aydın olur ki, Amarasda yepiskopluq kafedrasına malik kilsə (79, k.I, b. 14; 333, s. 73) və eyni zamanda monastır da var idi (79, k.7, f.20; 333, s. 73). Amaras şəhərində ilk orta əsrlərdə Amaras yepiskopluğunun dini iqamətgahı yerləşirdi, bura yepiskopluğun mərkəzi idi (79, k. II, f. 7).

Arxeoloji qazıntılardan bəlli olur ki, Amarasda yaşayan əhalinin müəyyən hissəsi ilk orta əsrlərdə sənətkarlıqla – dulusçuluqla, metal məmulatı (dəmirçilik), şüşə istehsalı və s. ilə məşğul olmuşdur (227, s. 65-67, s. 4, s. 70, t. III, ş.5, s.77-79, s. 5).

İlk orta əsr alban tarixçisi M.Kalankaytuklu Albaniyanın ərazisində yerləşən Siri adlı bir şəhər haqqında bizə məlumat verir, müəllif ilk orta əsrlərdə onu «qala şəhər Siri» adlandırır (79, k.I, f. 14; 333, s. 74; 341, s. 85). M.Kalankaytuklu bu şəhərin Alban ölkəsinin ən böyük şəhərlərindən biri olduğunu qeyd edərək, onun özünün ayrıca hökmdara malik olduğunu göstərir (79, k. I, f. 14; 341, s.25). Alban şahı III Vaçaqanın dövründə Siri şəhərinin hökmdarı Xorkar idi (79, k. I, f. 17). Alban tarixçisi M.Kalankaytuklu ilk orta əsrlərdə daha bir Albaniya şəhəri Sirxar haqqında da bizə məlumat verir (79, k. I, ф. 6; 341, c. 25). Onun verdiyi məlumatdan aydın olur ki, Sirxar şəhəri Uti vilayətində yerləşirdi. Alban tarixçisi bu haqda belə yazır: «Oradan o (Yeqişe) üç şagirdi ilə birlikdə Uti vilayətinə – Sirxar şəhərinə gəldi…» (79, k. I, f. 6; 333, c.74; 341, c. 25).

Albaniyanın ərazisində yerləşən ilk orta əsr şəhərlərindən biri də qala-şəhər Hunan (Xunarakert) olmuşdur. İlk orta əsr tarixçisi M.Xorenasi ilk orta əsr şəhəri Hunan haqqında bizə məlumat verərək onu Albaniyanın qala şəhəri Xunarakert (Hunan) adlandırır (76, k. II, f. 8; 341, s.25). Onun verdiyi məlumatdan aydın olur ki, Hunan şəhəri Kür çayının yaxınlığında – İberiya ilə Albaniyanın sərhədində, ölkəmizin ərazisində yerləşirdi (76, k. II, f. 8; 333, s. 74; 341, s. 25). Qala-şəhər Hunan (Xunarakert) haqqında alban tarixçisi M.Kalankaytuklu da məlumat verir (79, k. I, f. 4; 341, s.25). Bu şəhərin mövcud ol-

ması haqqında bizə gürcü mənbələri də bilgi verir və onu «Hunan» adlandırırlar (50 s. 23-28, 32, 39; 17, s.53). Həmən şəhər haqqında ərəb coğrafiyaçıları Bəlazuri, İstəxri, İbn Hövqəl, Yaqut Həməvi də məlumat verirlər (13, s. 13; 30, s. 17; 21, s. 92; 62, s. 105).

İlk orta əsr alban şəhəri Hunanın yerləşdiyi yer mütəxəssislər arasında mübahisələrə səbəb olmuş və hələ də mübahisəyə son qoyulmamışdır. Tədqiqatçılardan bəziləri Hunan şəhərinin şəhər tipli Torpaqqalanın yerində yerləşdiyini vaxtilə ehtimal etmişdir (416, s.72; 310, s. 702-713). Bəzi tədqiqatçılar isə Hunan şəhərinin Tovuzçay, gah da Zəyəmçayın üstündə yerləşdiyini göstərmişlər (379 a, s.31-34). Bu fikrə qarşı olan digər tədqiqatçılar isə arxeoloji qazıntılara əsaslanaraq bu şəhərin Torpaqqala şəhərinin yerində yerləşdiyini sübut etməyə çalışmışlar (246, a, s.,47; 246 b, s, 278-279). Bu fikirlə razılaşmayan digər tədqiqatçılar isə bəzi yazılı mənbələrə istinad edərək Hunan (Xunarakert, Hunani) şəhərinin Xram çayının Kürə töküldüyü yerə yaxın olan bir sahədə yerləşdiyini göstərməyə çalışırlar (206 a, s.,83) Bizim fikrimizcə, yazılı mənbələrdə adı çəkilən ilk orta əsr alban şəhəri Hunanın yerləşdiyi yer, maddi mədəniyyət qalıqları ilə zəngin olan bu ərazi yalnız arxeoloji nöqteyi-nəzərdən diqqətlə öyrənildikdən sonra aydınlaşacaq və bütün mübahisələrə son qoyacaqdır.

Hunan sözünün mənşəyi haqqında da mövcud ədəbiyyatda müxtəlif fikirlər söylənilir. L.M.Melikset-Bek yazılı mənbələrə istinad edərək Hunan qalasının adının Hun tayfasının adından əmələ gəldiyini göstərir (310, s. 711-713). Bu fikirlə razılaşan digər tədqiqatçı B.Qukasyan göstərir ki, «hun» etnonimi Altay dillərinə məxsus söz olub, qədim türk dillərində «gün», yəni xalq mənasında işlənmişdir. Onun fikrincə hunan, hunarakert, hun qalası oykonimlərinin hunların adı ilə bağlı olduğu bir çox tədqiqatçılar tərəfindən artıq sübuta yetirilmişdir (345, s. 48-49). O.Süleymenov öz tədqiqatında yazır ki, monqol dilində hun insan deməkdir (438 a, s. 215). Bir sıra digər tədqiqatçılar da Hunan (Xunarakert) şəhərini IV-V əsrlərdə Albaniyaya daxil olmuş və burada məskunlaşmış hun tayfalarının etnik adı ilə bilavasitə bağlı olduğunu göstərirlər (234, s. 192; 216, s. 87-91; 317, k. 126). Beləliklə, yuxarıda göstərilən araşdırmalardan və yazılı

mənbələrin verdikləri məlumatlardan aydın olur ki, Hunan (Hunan, Xunarakert) şəhərinin adı Albaniyada məskunlaşmış türkmənşəli hun etnik qrupunun adı ilə bağlıdır. Məlumdur ki, insanlar ən qədim zamanlardan əlverişli təbii şəraiti olan yerlərdə məskunlaşmışlar. Buna görə də yaşayış yerləri, kəndlər, bir qayda olaraq, çay kənarlarında, münbit torpaqların, sənətkarlığın müxtəlif sahələrinin inkişafı üçün təbii ehtiyatları olan, düşmən hücumları zamanı müdafiə olunmaq üçün strateji cəhətdən əlverişli yerdə, tranzit ticarət yolları üstündə meydana gəlirdi.

İlk orta əsr yazılı mənbələri Albaniyada şəhərlərdən və şəhər tipli qəsəbələrdən əlavə, ilk orta əsrlərdə ölkədə çoxlu miqdarda yaşayış məskənləri və kəndlərin varlığını da qeyd edirlər. Lakin yazılı mənbələr, demək olar ki, onların adları, yerləşdiyi yerlər və təsərrüfat həyatı haqqında heç bir məlumat verməmişlər. İlk orta əsr yaşayış yerləri və kəndlər haqqında bizə yalnız maddi mədəniyyət qalıqlarının araşdırılması və öyrənilməsi kömək edir. Bu sahədə ilk növbədə Albaniyanın ilkin orta əsrlərə aid maddi mədəniyyət qatlarında aparılan qazıntılar bizə köməyə çatır. Lakin arxeoloji qazıntılar və tədqiqat işləri bəzi yerlərdə qətiyyən aparılmamış, aparılan arxeoloji qazıntılar isə ayrı-ayrı dövrlərin bir-birini tamamlayan ardıcıl mədəni təbəqəsini aşkara çıxarmışdır.

Albaniyanın ilk orta əsrlərə aid tarixi-arxeoloji abidələri nisbətən zəif öyrənildiyinə görə, son illərdə bu dövrə aid abidələrin tədqiqinə xüsusi diqqət yetirilir. Bununla əlaqədar olaraq Azərbaycan Respublikası MEA Tarix İnstitutu Arxeologiya və Etnoqrafiya Sektoru (1993-cü ilin iyul ayından etibarən Arxeologiya və Etnoqrafiya İnstitutu) tərəfindən müxtəlif vaxtlarda təşkil olunmuş arxeoloji ekspedisiyalar və kəşfiyyat səfərləri zamanı vaxtı ilə Albaniya dövlətinin ərazisində olan Həftəran vadisi, Şirvan zonası (İsmayılı, Ağsu rayonları) (401b, s. 27-44) və digər yerlərində, Qərbi Azərbaycanın (Qazax, Ağstafa, Tovuz, Şəmkir, Gədəbəy, Daşkəsən, Samux rayonları) (229a, s. 42-44; 308a, s.8; 384a, s. 13-20) abidələrində (yaşayış məskənləri, kəndlərdə) maddi mədəniyyət qalıqları toplanmış və tədqiq olunmuşdur.

Çöl-tədqiqat işləri nəticəsində həmin ekspedisiyalar ilk orta əsr yaşayış yerləri, kəndləri–Həftəran vadisi və Şirvan zonasında (Qalagah, Mollaisaqlı, Nüyədi, Qışlaq, Hacatamlı, Talıstan,

Kənzə, Tircan və s.) (402b, s. 27-44), Albaniyanın digər yerlərində (Qərbi Azərbaycanda – Şəhərburun, Üzümlütəpə, Tatlı, Alıqoca və s.) (384a, s. 13-20) qeydə alınaraq tədqiq edilib. Arxeoloji ekspedisiyalar zamanı arxeoloqlar tərəfindən Şimali Azərbaycanın müasir Quba, Dəvəçi və Xaçmaz rayonlarının ərazisində ilk orta əsrlərə aid (Almastəpə, Qarğaqala, Canahar, Çinartəpə, Qayatəpə, Diqyah, İlantəpə, Sandıqtəpə, Xucbala, Xınalıq, Qündtəpə, Qızıltəpə, Şamiltəpə, Cələqir, Şəhərqiyak və digər) yaşayış məntəqələri aşkar və tədqiq edilib öyrənilmişdir (461b, s. 95; 461b, s. 119-127). Tədqiq edilən ərazidə aşkar edilən insan məskənlərində, yaşayış yerlərində, kəndlərdə tapılan maddi mədəniyyət qalıqlarından aydın olur ki, Albaniyanın burada yaşayan sakinlərinin təsərrüfat həyatını əkinçilik, maldarlıq və sənətkarlıq təşkil etmişdir. Arxeoloji qazıntılar nəticəsində əldə olunmuş maddi mədəniyyət qalıqları: taxıl, kirkirələr, dən daşları, dəmir oraqlar, təsərrüfat küpləri və s. burada məskunlaşan əhalinin əkinçilik mədəniyyətinin inkişafını tam aydınlığı ilə gözə çarpdırır (401b, s. 102-107; 384a, s. 14-20). Yaşayış yerlərindən, kəndlərdən əldə edilmiş müxtəlif əmək alətləri ilə yanaşı iri və xırdabuynuzlu heyvanların, həmçinin yük və minik heyvanlarının osteoloji qalıqları, onların gildən hazırlanmış fiqurlarının tapılması maldarlığın əkinçiliklə qarşılıqlı surətdə inkişaf etdiyini göstərir (401b, s. 107-110; 384a, s. 19-20). Arxeoloji tapıntılardan aydın olur ki, yaşayış yerlərində, sənətkarlığın ayrı-ayrı sahələri, dulusçuluq, şüşə istehsalı, metalişləmə, zərgərlik, toxuculuq və s. yüksək inkişaf edərək əhalinin iqtisadiyyatında mühüm rol oynamışdır (401b, s. 63, 107; 110-116; 384a, s. 21-23). Albaniyada ilk orta əsr yaşayış yerlərində – kəndlərdə aparılan arxeoloji tədqiqatlar ilk orta əsr sakinlərinin dininə aid bir sıra məlumatları da toplamağa imkan vermişdir. Tədqiq edilən dövrdə Albaniyada astral, bütpərəstlik, atəşpərəstlik, xristianlıq kimi dini təsəvvürlərin mövcudluğu da öyrənilmişdir (401b, s. 44-62; 119-123).

Beləliklə, öyrəndiyimiz dövrdə Albaniyada (Azərbaycanda) mövcud olmuş çoxsaylı kənd tipli yaşayış məskənləri nisbətən zəif öyrənilmişdir. Bu, əsasən yazılı qaynaqlarda ilk orta əsrlərdə olan yaşayış məskənlərinin, kəndlərin haqqında, demək olar

ki, cüzi, səthi, ümumi xarakterli məlumatlara malik olması ilə əlaqədardır. İlk orta əsr yaşayış məskənləri, kəndlər haqqında məlumat almaqda bizə yalnız maddi mədəniyyətin araşdırılması və öyrənilməsi kömək edir. Son illərdə aparılan arxeoloji qazıntılar da bizə köməyə gəlir. Bu arxeoloji qazıntılar Qafqaz Albaniyası ərazisinin şimalında, şərqində, qərbində, cənubunda aparılmış və müəyyən miqdarda yaşayış məskənləri, kəndlər aşkar olunaraq tədqiq edilib öyrənilmişdir. Aparılan arxeoloji qazıntılardan, maddi mədəniyyət qalıqlarının araşdırılmasından aydın olur ki, yaşayış məskənləri, kəndlər təbii şəraiti əlverişli olan yerlərdə, əsasən çay kənarlarında yerləşən münbit torpaqlarda, strateji cəhətdən əlverişli yerlərdə salınmış və meydana gəlmişdir. Araşdırmalar göstərir ki, Albaniyanın ilk orta əsr yaşayış məskənlərində, kəndlərdə yaşayan sakinlər əsasən əkinçilik, maldarlıq və qismən də sənətkarlıqla məşğul olmuşlar.

Beləliklə, yazılı mənbələrin məlumatlarından və arxeoloji qazıntılardan əldə olunmuş maddi mədəniyyət qalıqlarının tədqiqi göstərir ki, ilk orta əsrlər dövründə Albaniyada təsərrüfat həyatının inkişafı ilə əlaqədar olaraq mövcud şəhərlər inkişaf edərək genişlənir. Digər tərəfdən isə sənət və ticarət – yerli və tranzit ticarət mərkəzləri, həmçinin ölkənin ictimai-siyasi mərkəzləri olmaq etibarilə yeni şəhərlər meydana gəlirdi. Həmin şəhərlər ticarət yolları üzərində yerləşirdilər və ilk orta əsrlərdə ticarət yolları vasitəsilə qonşu ölkələrlə – Yaxın və Orta Şərq, Qara dənizdən Hind okeanı sahillərinə qədər bütün ölkələrlə sıx əlaqədə olmuşlar.

İlk orta əsrə aid yazılı mənbələrin və arxeoloji materialların araşdırılması, tədqiqi göstərir ki, tədqiq etdiyimiz dövrdə Albaniyada çoxlu şəhərlər, kəndlər, möhkəmləndirilmiş qalalar və başqa yaşayış məntəqələri, olmuşdur. Albaniya şəhərləri ərazi cəhətdən geniş, yararlı və gözəl yerlərdə yerləşirdi. Albaniya şəhərlərinin ətrafı yarımdairə bürclər və qala divarları ilə əhatə edilmiş və şəhərlər qala darvazalarına malik olmuşdur. Bu şəhərlərin hər birinin öz hakimləri («başçılar», «hökmdarlar») var idi. İlk orta əsr Alban şəhərlərində çoxlu saraylar mövcud idi. Tədqiq etdiyimiz dövrün Alban şəhərlərində əsasən hökmdar-

lar, əyanlar, iri feodallar, ruhani əyanları, ruhanilər, sənətkarlar, tacirlər yaşayırdılar. Yazılı mənbələr, habelə ilk orta əsr dövrü şəhərlərində ticarət və sənətkarlıqla məşğul olan yadellilərin (suriyalıların, yunanların və b.) yaşadıqlarını faktiki olaraq təsdiq edirlər. İlk orta əsr Albaniya şəhərlərinin böyük bazarları vardı. Şəhər sakinləri əsas etibarı ilə sənətkarlıq, ticarət, habelə əkinçilik-maldarlıq, bağçılıq və s. ilə də məşğul olurdular.

Yazılı mənbələrin və arxeoloji qazıntıların tədqiqi göstərir ki, ilk orta əsr şəhərləri adətən iki hissədən – iç qaladan (möhkəmləndirilmiş hissə) və şəhərin özündən ibarət olurdu. Arxeoloji materialların tədqiqi göstərir ki, ilk orta əsr şəhərlərinin möhkəmləndirilmiş hissəsi orta hesabla 20 h, şəhərin özü isə 40 hektar və ondan artıq sahəni tuturdu.

Araşdırmalar göstərir ki, ilk orta əsr dövründə mövcud olan alban şəhərləri ölkənin iqtisadi, mədəni və siyasi həyatında mühüm rol oynamışdır. Tədqiqat və araşdırmalardan aydın olur ki, Albaniyanın ilk orta əsr dövrünün ən böyük, ticarət-sənaye və inzibati-siyasi əhəmiyyətli mərkəzləri: Bərdə (Partav), Çola (Çoğa), Dərbənd, Paytakaran, Beyləqan, Qəbələ, Xalxal, Amaras, Siri, Hunan (Xunarakert) və başqa bu kimi şəhərləri mövcud idi.

V FƏSİL

ALBANİYANIN İLK ORTA ƏSRLƏRDƏ DÖVLƏT QURULUŞU

İlkin orta əsrlərdə Albaniyanın ictimai, iqtisadi həyatında geniş və əhəmiyyətli dəyişikliklər və irəliləyişlər baş vermişdi. Vətən tariximizin ən mühüm mərhələlərindən biri olan bu dövrdə istehsal alətlərinin təkmilləşdirilməsi, daha da inkişafı, köhnə istehsal münasibətləri məhsuldar qüvvələrin yeni inkişaf səviyyəsinə artıq uyğun gəlmirdi. Köhnə istehsal münasibətlərinin yeni, daha qabaqcıl münasibətlərlə əvəz edilməsi zəruriyyəti meydana çıxmışdı. Bu dövrdə erkən feodal münasibətləri yaranır və inkişaf edirdi.

Albaniyanın erkən orta əsrlər dövründə ictimai və feodal münasibətlərinin araşdırılması məsələlərinə dair qaynaqların çox azlıq təşkil etdiyinə, bunları üzə çıxarmaq çox çətin, mübahisəli olduğuna görə, bu problemin geniş və hərtərəfli öyrənilməsi özünün hələ gələcək həllini gözləyir.

İlk orta əsrlərdə Albaniyada ictimai münasibətlərin əsasını antaqonist ziddiyyətlərə malik feodal mülkiyyət formalarının mövcud olması təşkil edirdi. Erkən orta əsrlərdə Albaniyada ictimai münasibətlərin əsasını kəndlilər təşkil edirdilər (68, f.II; 331, s. 103; 341, s. 26; 389, s. 186-189). Yuxarıda verilən bu ilkin məlumatı təsdiq edən erkən orta əsrlərdə yaşamış alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumata görə, bu dövrdə kəndlilər üç qrupa–əkinçilərə, maldarlara (79, k. I, f. 26; 331, s. 103; 341, s. 26) və bağçılara bölünürdülər (79, k. I, f. 11, 26; 331, 803; 341, s. 7). Əməklə məşğul olan balıqçılar da var idi (79, k. II, f. 11, 14). Albaniyada erkən orta əsrlərdə kəndlilər öz ictimai vəziyyətlərinə görə aşağıdakı təbəqələrə, yəni kifayət qədər əmlakı olanlar (tuanik), ortabablara (tarapyal), yoxsullara (79, k. I, f. 26), heç bir əkin yerinə malik olmayan sadə adamlara (ramiklər) (79, k. I, f. 26; 331, s. 103; 341, s.26) bölünürdülər. Erkən orta əsrlərdə yazılı mənbələrin məlumatlarından aydın olur ki, Albaniyada adsız-sansız adamlar – (qara camaat) da mövcud idi (79, k. I, f. 26; k. II, f. 11,14). Hər bir kənd ilkin orta əsr-

lərdə özünün böyüyünə, sahibinə, başçısına malik idi (79, k. I, f. 26; k. II, f. 14). Beləliklə, ilkin orta əsrlərdə yuxarıda göstərilən yazılı mənbələrin məlumatlarından aydın olur ki, Albaniyada istehsalın əsasını kəndli əməyi təşkil edirdi.

İlkin orta əsr mənbələrinin məlumatlarından bəlli olur ki, erkən orta əsrlərdə Albaniyada sənətkarlıqla məşğul olan adamlar – sənətkarlar da mövcud idi (87, k.V, f. 4; 331, s. 103; 341, s. 21, 26). Bu məlumatı alban tarixçisi M.Kalankaytuklu da öz məlumatı ilə təsdiq edir (79, k. I, f. 19, 23; k. II, f. 10, 16; 331, s. 103; 341, s. 21-26). Ölkədə bu dövrdə tacirlər də fəaliyyət göstərirdi (79, k. II, f. 16; 341, s. 27). İlkin orta əsrlərdə çox güman ki, Albaniyada sənətkarlar təbəqəsinə yaxın olan arxitektorlar da var idi (79, k. II, f. 2; 341, s. 27).

Tədqiqatlar və araşdırmalar göstərir ki, ilkin orta əsrlərdə Albaniyada ağalıq edən siniflərdən ən mühümü hərbi feodal iyerarxiyası idi (332, s. 94-95; 341, s. 26, 27). Bu hərbi feodal iyerarxiyası haqqında bizə ilkin orta əsr tarixçiləri Yeqişe (68, f. I) və alban tarixçisi M.Kalankaytuklu (79, k. I, f. 17) məlumat saxlamışlar. İlkin orta əsr müəlifi Yeqişenin məlumatına görə bu dövrdə Albaniyada ordunun başında duran hərbi rəislər – «hazarapet» (hərfən: minbaşı) var idi (68, f. III). Bu məlumatı digər ilkin orta əsr müəllifləri M.Kalankaytuklu, Favstos Buzandasi, Sebeos, M.Xorenasi öz məlumatlarında təsdiq edirlər (79, k. II, f. 14; 87, k. V, f. 4, 5; 81, b. III, f. 35, 38; 76, k. I, f. 29; k.II, f. 22, 45; k. III, f. 37). Digər ilkin orta əsr tarixçisi L.Parpesinin məlumatına görə Albaniyada bu dövrdə adi hərbi əsgərlər də mövcud idi (74, k. III, f. 87; 331, s. 103). Bu məlumatı alban tarixçisi M.Kalankaytuklu da bir daha öz məlumatları ilə təsdiq edir (79, k. I, f. 8, 12; k. II, f. 21). İlkin orta əsr tarixçisi Yeqişenin məlumatına görə bu dövrdə Albaniyada eyni zamanda «görkəmli hərbi adamlar da» (68, f. III), «görkəmli adamlar da» var idi. (68, f. I, II). Bu məlumatları eyni zamanda alban tarixçisi M.Kalankaytuklu da öz bilgiləri ilə təsdiq edir (79, k. II, f. 21).

Yazılı mənbələrin verdiyi məlumata görə Albaniyada hakim sinfin öz daxilində feodal iyerarxiyası yaranmışdı. İlkin orta əsr yazılı mənbələrin ayrı-ayrı məlumatları əsasında Albaniyada

iqtisadi-ictimai quruluşun əsasını təşkil edən ilkin feodal münasibətlərinin inkişafı və onun spesifik xüsusiyyətlərini izləməyə imkan verir (451, s. 289; 331, s. 101-103; 341, s. 26-29; 387, s. 62-65; 75-82). İlkin orta əsr yazılı mənbələrin məlumatlarından – Aqafanqel, Koryun, L.Parpesi, Sebeos, Gevond, Asoqikdən aydın olur ki, ilkin orta əsrlərdə Albaniyada knyazlar, böyük knyazlar mövcud idi (65, s. 462, 69, s. 20; 74, k. II, f. 2; 81, b. III, f. I; 82, f. III, 84; k. II, f.2; 331, s.101-102). Yuxarıda göstərilən bu məlumatı alban tarixçisi M.Kalankaytuklu da öz məlumatları ilə təsdiq edərək Albaniyada ilkin orta əsrlərdə böyük knyazların olduğunu bildirir (79, k.I, f. 17; k. II, f, 10, 39; 331, s.102; 341, s. 26). Digər ilkin orta əsr tarixçisi L.Parpesi Albaniyada ilkin orta əsrlərdə kiçik knyazlar (sepuxlar) olduğunu göstərir (74, k. II, f. 25; 331, s. 102). İlkin orta əsr tarixçiləri M.Xorenasi (76, k. III, f. 6; k. II, f. 45; 331, 102), Gevond (82, f. III; 331, s.102) Albaniyada bu dövrdə zadəganların olduğunu öz əsərlərində göstərirlər. Alban tarixçisi M.Kalankaytuklu bu məlumatı təsdiq edərək öz əsərində qeyd edirdi ki, ilkin orta əsrlərdə Albaniyada zadəganlar (79, k. II, f. 3, 14, 34; 451, s. 289; 331, s. 102), şah nəslindən olan görkəmli adamlar, əsilzadələr, tayfa başçıları var idi (79, k. II, f. 3, 14, 36; 451, s. 289; 331, s. 102).

İlkin orta əsr tarixçiləri Yeqişe, M.Xorenasi, L.Parpesi və Asoqik ilkin orta əsrlərdə Albaniyada hökmdarların olduğunu qeyd edirlər (68, f. III; 76, k. III, f. 3, 54; 74, k.II, f. 25; 84, k.I, f.5; 331, s.102; 341, s.26). Digər bir tarixçi bu dövrdə Albaniyada canişinlərin olduğunu göstərir (84, k. I, f. 5). Bu tarixçinin məlumatını eyni zamanda alban tarixçisi M.Kalankaytuklu da öz məlumatı ilə təsdiq edir (79, k. II, f. 36; 341, s.26). İlkin orta əsr müəllifi F.Buzandasi də Albaniyada ilkin orta əsrlərdə hakimlərin – mülkədarların olduğunu öz əsərində qeyd edir (76, k.IV, f. 50; 331, s. 102). Alban tarixçisi M.Kalankaytuklu öz əsərində bu məlumatı təsdiq edir (79, k. II, f. 10; 451, s. 289; 331, s. 102; 341, s. 26).

İlkin orta əsr tarixçiləri Yeqişe, Koryun və L.Parpesi ilkin orta əsrlərdə Albaniyada feodal münasibətlərinin inkişafının əsas aparıcı hissəsi olan «azad adam (azad mərd)» – azadların olduğunu yazırlar (68, f. I, II; 69, s.19; 74, k. II, f. 27; 331,

s.106; 341, s. 26). Albaniyada feodal cəmiyyətinin başlıca qüvvəsi olan azadlar haqqında bu məlumatları eyni zamanda alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k. II, f. 27; 331, s. 106; 341, s. 26; 389, s. 197-198).

Feodal istehsal üsulunun qaynaqlarını indiki yazılı mənbələrin verdikləri məlumatların vasitəsi ilə üzə çıxarmaq çox çətin olsa da, feodal münasibətlərinin hakim mövqe tutduğu bu dövrdə Albaniyada əsas istehsal vasitəsi olan torpaq üzərində feodal mülkiyyəti formalarının ümumi şəkildə mövcud olmasını göstərmək mümkündür (494; 501; 403, c. II, s. 303-310; 451, s. 185; 331, s. 104-105; 341, s. 28-29). İlkin orta əsrlərdə Albaniyada feodal münasibətlərinin yaranması və inkişafı dövründə ölkədə torpaq üzərində dövlət (şahın şəxsində) və xüsusi feodal mülkiyyəti formaları mövcud idi. Erkən feodalizm dövründə torpaq üzərində mülkiyyətin dövlət forması üstünlük təşkil edirdi. Becərilən yararlı torpaqların çox hissəsi dövlətə (şaha) məxsus idi. Bu torpaqlar onlara irsən keçirdi (79, k. I, f. 10). Alban şahları bu torpaq mülkiyyətinin nəsildən-nəslə onlara keçən və onlara mənsub olan torpaq formasından əlavə, həmçinin hər bir şah ailəsinin üzvünə mənsub olan şəxsi torpağa – mülkə də malik idilər (79, k. I, f. 10). İlk orta əsr alban tarixçisi M.Kalankaytuklunun məlumatından aydın olur ki, alban şahı Vaçe xüsusi torpaq mülkiyyətinə sahib idi. Alban şahı Vaçe atası tərəfindən ona uşaq vaxtı bağışlanan özünə məxsus torpaq hissəsinə, min ailədən ibarət olan mülkə malik idi (79, k. I, f. 10; 331, s. 104-105; 341, s. 64). Alban şahı Vaçe V əsrdə ölkəni idarə etməkdən əl çəkən zaman «yalnız özünə məxsus, atasından ona qalan öz hissəsini – min ailəni özü üçün götürdü» (79, k. I, f. 10; 331, s. 104-105; 341, s. 64).

Alban tarixçisi M.Kalankaytuklunun digər bir məlumatından aydın olur ki, Qyutakan kəndi alban şahı Vaçaqana məxsus torpaq mülkü idi (79, k. I, f. 21; 331, s. 104-105; 341, s. 28). Hər bir alban şah ailəsinin üzvü də torpaq və mülk sahibiydi. Alban şahı III Vaçaqan öz qızı Xınçik üçün mülk inşa etdirmişdir (79, k. I, f. 23; 331, s. 105; 341, s. 28). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, Sasani hökmdarı III Yezdəgerd əmr edir ki, alban şahı Cavanşirə

«… kəndlər və balıqla dolu çaylar bağışlansın» (79, II, f. 18; 331, s. 104-105; 341, s. 28). İlkin orta əsr alban tarixçisinin digər bir məlumatından bəlli olur ki, Girdiman alban şahı Cavanşirin şəxsi mülkü idi. Bizans imperatorunun Albaniya şahı Cavanşirə göndərdiyi məktubdan götürülən aşağıdakı parça bunu aydın göstərir: «Girdiman hakimi və Albaniya knyazı cənab Cavanşirə» (79, s. 145, 148, 173). Yazılı mənbənin digər bir məlumatından aydın olur ki, alban şahı Cavanşir ölərkən varis təyin etməyib, öz mülkü olan Girdiman vilayətini öz oğulları arasında bölüşdürüb, «öz oğullarından hər birinə sərvət və titul verdi, hər birinə öz sahəsini ayırdı» (79, s. 181).

Albaniyada ilk orta əsrlərdə, feodalizmin yaranması, inkişafı dövründə torpaq üzərində dövlət mülkiyyəti formasının üstünlük təşkil etməsi dövlət hakimiyyətinin möhkəmlənməsinə, mərkəzləşməsinə, ictimai və iqtisadi sahədə şaha müstəsna hüquqlar verilməsinə səbəb olurdu.

İlkin orta əsrlərdə Albaniyada feodalizmin inkişafının ilkin xarakterinə uyğun olaraq alban şahlarına və ailə üzvlərinə məxsus torpaq mülklərindən sonra kilsələrə və məbədlərə məxsus iri torpaq mülkiyyətinə sahib alban kilsəsi idi (79, k. I, f. 11, 29; k. 6; 389, s.221-223, 246). İlkin orta əsrlərdə Albaniyada kilsə torpaqları böyük ruhani zümrəsinin bölünməz və irsi mülkiyyəti idi. İlkin orta əsrlərdə Albaniyada bu cür torpaqları, bir qayda olaraq, şahların, zadəganların, iri feodalların və onların ailə üzvlərinin nəzir və ianələri hesabına, bəzən ayrı-ayrı varlı kəndlilərin hesabına, habelə kəndli icma torpaqlarının satın alınması, yaxud tutulması nəticəsində genişlənirdi (79, k. I, f.11, 29; 389, s.221-223, 246). İlkin orta əsrlərdə feodal azad zümrəsi də torpaq mülkiyyətinə və mülklərə mənsub idi (79, k. I, f. 26; 331, s. 105; 341, s.28; 343, s. 32; 389, s.243), alban mülkədarları (zadəganlar) özlərinə məxsus mülkə sahib idilər. İlkin orta əsrlərdə Albaniyada kəndlilərin bir hissəsi xüsusi torpaq mülkiyyətinə malik idi, onların özlərinə məxsus «əkin sahələri və bağları» var idi (79, k. I, f. 26; 331, s. 105; 341, s.28; 389, s.246).

Albaniyada yazılı mənbələrin məlumatına görə feodal münasibətlərinin inkişafının erkən dövründə əsas istismar formasını natural rüsumlar şəklində toplanan dini və dünyəvi vergilər

təşkil edirdi. Bu haqda bizə çoxlu məlumatı alban tarixçisi M.Kalankaytuklu verir (79, k. I, f. 26; 331, s. 105; 341, s.29). Albaniyada ilkin orta əsrlərdə əhalidən toplanan vergilər aşağıdakılardan ibarət idi. Dövlət və əsasən ruhani təbəqəsi bu vergilər hesabına yaşayır və varlanırdı. Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumata görə alban şahı III Vaçaqanın (V əsr) dövründə ölkədə vergi verən silk əsasən əkinçiliklə, bağçılıqla, maldarlıqla məşğul olan kəndlilər idi, bunlar da öz növbəsində üç qrupa: «lazımınca varlı olanlar»a, «yoxsullar»a və heç bir şeyi olmayan kəndlilərə (79, k. I, f. 26; 185, s.83; 331, s. 105; 341, s.29) bölünmüşdülər. Alban tarixçisinin verdiyi məlumata görə: «Kim dövlətlidirsə, 4 vahid buğda, 6 vahid arpa və 16 kuzə şirin (çaxır)» (79, k. I, f. 26; 185, s.63; 331, s. 105; 341, s.29), ortabab və yoxsul adam «yarım kömbə çörək və imkanı olduğu qədər çaxır» (79, k. I, f. 26; 185, s. 63; 331, 105; 341, s.29), kimin ki, «nə əkin yeri var, nə də üzümlüyü, ondan heç bir şey alınmamalıdır» (79, k. I, f. 26; 185, s.63; 331, s 105; 341, s.29). Maldar kəndlilər vergini mal-qara ilə ödəyirdi. «… Evində qoyunu olanlar bir qoyun, üç qoyunun yununu və bir baş pendir verir; atı olanlar bir dayça, qaramalı olanlar isə bir buzov verir» (79, k. I, f. 26; 185, s.63; 331, s. 105; 341, s.29).

Müstəqil adamlar – «azadlar» öz gəlirlərinin onda bir hissəsini kilsəyə vergi şəklində verməli idilər. Bu verginin bir hissəsini «azadlar» mərkəzi kilsəyə, onun yarı hissəsini isə öz kilsəsinə verməli idilər (79, k. I, f. 26; 331, s. 105; 341, s.29; 345, s. 93). Albaniyada xristian dini qəbul olunandan sonra alban şahı Urnayrın əmri ilə əkinçiliklə və maldarlıqla məşğul olan kəndlilərdən kilsələrin xeyrinə əldə etdikləri məhsulun onda bir hissəsi vergi şəklində toplanırdı. «Onda bir gəlir əkin sahələrindən, bağlardan, üzümlüklərdən, çəmənliklərdən, mal-qara sürülərindən, bütün ev heyvanlarından yığılırdı» (79, k. I, f. 11; 331, s. 105; 341, s.29). Albaniyada əhalidən toplanan natural vergi rüsumları, sərvətlər kilsəyə verilirdi (79, k. I, f. 26; 331, s. 105).

Bundan əlavə, «azad» adamlar, kəndli və ya dindar olmayan hər bir adam, bütün Albaniyada yaşayanlar, öz ölənlərinə rəhmət oxutmaq üçün hər il öz imkanı daxilində keşişlərə və kilsəyə nəzir gətirməyi unutmamalıydılar. «Hər bir əsilzadə (azad),

kəndli və ya başqa bir adam ölənlərin xatirəsini yad etmək üçün ildə bir dəfə özünə layiq nəzirini verməyi unutmamalıdır. Onlar öz gəlirlərindən ölənlər üçün pay ayırmalıdır» (79, k. I, f. 26; 341, s. 73; 345, s.93). Şah nəslindən olan əsilzadələr, sərbəst adamlar–«azadlar» öz ruhlarını şad etməkdən ötrü kilsəyə öz gəlirlərindən verməli idilər. «Azad» adam və padşah ailəsinin üzvü olanlar öz ruhunu şad etmək xatirinə ömrünün axırınadək öz əlləri ilə (kilsəyə) yəhərlənib yüyənlənmiş bir at və bundan başqa arzu etdiyi şeyləri verməliydi. Əgər bu adam öz ömründə bunu verməmişdisə, öləndən sonra onun ailəsi bunu verməliydi (79, k. I, f. 26). Ölən adamdan qalmış var-dövlətin bir hissəsi monastıra və kilsəyə onun yaxın qohumları tərəfindən verilməliydi. «Əgər ölənin atı olmuşsa, kim isə (onun əvəzinə) istədiyi atı kilsəyə verməlidir; əgər onun qaramalı vardırsa, istədiyi öküzü verməlidir» (79, k. I, f. 26; 341, s. 74; 345, s.93).

İlkin orta əsrlərdə feodallara və kilsəyə can və torpaq vergisindən əlavə, Albaniyada əhalidən şəhər divarlarının tikilməsi və təmiri, kanalların təmizlənməsi və yenisinin çəkilməsi üçün vergilər: qızıldan qayrılmış boyunbağı, kəmərlər, qolbağı, paltar, mirvari, qızıl, parça, az tapılan heyvan, quş, zinət şeyləri və sairədən ibarət idi (79, k. II, f. 18, 22; k. III, f. 11; 185, s. 66).

İlkin orta əsrlərdə Albaniyada hakim siniflərin–feodalların (dini və mənəvi) əldə etdiyi gəlirləri, varı və xarici-daxili mənafelərini ölkədə qoruyan dövlət quruluşu fəaliyyət göstərirdi. Albaniyada dövlət probleminin tədqiq edilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu mövzuya çoxcildlik «Azərbaycan tarixi»nin I cildində, «SSRİ tarixinin oçerkləri»ndə, K.V.Treverin monoqrafiyasında, habelə Z.M.Bünyadovun, A.P.Novoselsevin, T.M. Məmmədovun və başqalarının əsərlərində (bu haqda I fəsildə daha ətraflı verilib) toxunulmuşdur. Lakin Albaniyada ilkin orta əsrlərdə dövlət problemi və məsələsi ilkin orta əsr mənbələri, materialları vasitəsilə hərtərəfli öyrənilməmişdir və gələcəkdə öz həllini gözləyir.

Məlum olduğu kimi, ilkin orta əsrlər dövründə sasanilər tərəfindən Zaqafqaziya işğal edildikdən sonra Albaniya ilə qonşu olan ölkələrdə yerli dövlət və hakimiyyət ləğv olunmuşdu. Məsələn, qonşu Ermənistanda belə olmuşdu, bura tutulduqdan

sonra Sasani dövlətinin bir vilayətinə çevrilmişdi (258, s. 79). Bununla əlaqədar olaraq bəzi tədqiqatçılar səhv olaraq belə fikir irəli sürürlər ki, Albaniya da ilk orta əsrlərdə Sasani dövlətinin tərkibinə daxil edilmiş və tamamilə ondan asılı bir vəziyyətdə idi (402, c. I, s. 314; 274, 63; 185, s. 38; 239, s. 126; 325, s. 33). Bu səhv və yanlış fikirlə heç cür razılaşmaq olmaz. İlkin orta əsr yazılı mənbələrin materialları bu fikrin tamamilə yanlış olduğunu və onun əksini göstərir.

İlkin orta əsrlərdə yazılı mənbələr Albaniyada dövlətin və «şah hakimiyyətinin» olduğunu göstərirlər (451, s. 289-291; 341, s. 30-31; 332, s. 91-95). İlkin orta əsr mənbələrinin verdiyi məlumatlardan aydın olur ki, bu dövlət «Alban şahlığı» adlanırdı və ilkin orta əsr tarixçiləri Aqafanqel, Koryun, Favstos Buzandasi, Yeqişe, M.Xorenasi, L.Parpesi (65, s. 113, 114, 117, 133, 135; 69, s. 18-19; 87, k. V, f.4, 5, 35, 43; 68, f.7; 74, k. II, f.35, 76, k. III, f. 38, 54), Ayrivanesi, Vardan, Asoqik Albaniyada (78, s. 45; 83, s.37, 100; 84, k. II, f. 2) ilkin orta əsrlərdə, VII əsr daxil olmaqla, müstəqil şahların olmasını öz əsərlərində göstərirlər. Bu məlumatları eyni zamanda ilkin orta əsr alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k. I, f.6, 7, 10, 11, 13, 15, 17, 18, 19, 21, 23, 26). Alban tarixçisinin verdiyi məlumatlardan aydın olur ki, alban hökmdarları və şahları bir qayda olaraq seçki yolu ilə seçilirdi. Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, bir başqa varis olmayan zaman şah adətən ölkədə yerli feodallar və zadəganlar, ruhanilər tərəfindən seçilirdi. Alban şahı Cavanşir öldürüləndən sonra xalq kütlələrini sakitləşdirmək üçün paytaxt şəhəri Bərdəyə zadəgan nəslinin başçıları, hökmdarlar, canişinlər, əyanlar və ölkənin hər yerindən knyazlar toplandılar; onlar katolikos Yelizarla birlikdə vəliəhd seçmək barəsində məsləhətləşməyə başladılar. Onlar «… razılaşdılar ki, (taxta) baş naxararalardan birini, imperatorun verdiyi eks-konsul olan bir şəxsi seçsinlər. Onun adı Cavanşirin qardaşı Varaz-Perojun oğlu Varaz-Trdat idi» (79, k. II, f. 31; 332, s. 92; 341, s. 30; 341 a, s.90). Albaniya şahları, hökmdarlarının seçilməsi təntənəli mərasimlə müşahidə olunurdu: «… elə buradaca bütün əyanlar müxtəlif heyvan şəkilləri olan bayraqlarını açdılar, şeypurlar çalındı və Varaz-

Trdatı qızıl qalxana otuzdurub onu tərifləyə-tərifləyə üç dəfə göyə atdılar. Belə bir böyük təmtəraqla onlar yüksək hakimiyyətin şərəfini–vətən hökmranının taxtını ona verib həmin gün bu münasibətlə çoxlu hədiyyə və bəxşişlər payladılar» (79, k. II, f. 4; 332, s. 92; 341, s. 30).

İlkin orta əsr mənbələrindən – Favstos Buzandasidən, M.Xorenasidən və Asoqikdən aydın olur ki, alban şahları başlarında tac gəzdirirdilər (87, k. V, f. 4; 76, k. III, f. 3; 84, k.II, f. 1; 332, s. 92; 341, s. 30; 341 a,s. 90). Bu məlumatı eyni zamanda ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu da öz əsərində bir daha təsdiq edir (79, k. I, f. 19; 332, s.92; 341, s. 30). Digər ilk orta əsr tarixçiləri Koryun, Yeqişe və M.Xorenasinin verdikləri məlumatlardan aydın olur ki, alban şahları özlərinə məxsus iqamətgahlara və saraylara malik idilər (69, s. 19; 68, f. III; 76, k. III, f. 54). Bu məlumatı da ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu öz əsərində təsdiq edir (79, k. I, f. 19, 26; k. II, f. 2, 3,28, 34; 332, s. 92; 341, s. 30).

Erkən orta əsr tarixçisi Yeqişenin verdiyi məlumatdan aydın olur ki, alban şahlarının qış iqamətgahı Xalxal şəhərində yerləşirdi. Bu məlumatı alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k. II, f. 2; 332, s. 92, 341, s. 30).

İlkin orta əsr yazılı mənbələrdən, arxeoloji materiallardan və araşdırmalardan aydındır ki, V əsrədək Albaniyanın paytaxtı Qəbələ şəhərində yerləşirdi (319, s. 295; 451, s. 254; 333, s. 79). V əsrdə yadellilərin hücumları ilə əlaqədar olaraq, Qəbələnin iqtisadi və siyasi əhəmiyyəti nisbətən azaldığına görə, Albaniya dövlətinin paytaxtı Bərdə (Partav) şəhərinə köçürüldü və Bərdə şəhəri, tədqiq etdiyimiz dövrün axırına – yəni VIII əsrin əvvəllərinə qədər Albaniya dövlətinin paytaxtı oldu (79, k. I, f. 5; k. II, f. 11; 333, s. 72; 341, s. 23, 39). Albaniya dövləti və şahları dövlətçilik simvollarından biri olan bayraqlara malik idi və bu bayraqların parçalarının üzərində müxtəlif heyvanların şəkilləri həkk olunurdu (79, k. II, f.31). Yazılı mənbələrin məlumatından aydın olur ki, müxtəlif rəngli bu bayraqlar qızılla, gümüşlə və qaş-daşla bəzədilirdi (79, k. I, f. 21).

İlkin orta əsr yazılı mənbələri tədqiq etdiyimiz dövrdə alban şahlarının saray həyatlarından çox cüzi məlumat verirlər. Yal-

nız ilkin orta əsr tarixçiləri Koryun və M.Xorenasinin verdikləri məlumatdan aydın olur ki, alban şahlarının sarayında ruhanilər var idi (69, s. 17; 76, k. III, f. 54; 332, s. 92; 341, s. 31). Bu məlumatı təsdiq edən ilkin orta əsr alban tarixçisi M.Kalankaytuklu bu haqda nisbətən geniş məlumat verir (79, k. I, f. 19, 26; k. II, f. III, 332, s. 92; 341, s. 30). Alban tarixçisinin verdiyi məlumatdan aydın olur ki, şah sarayında çoxlu keşişlər, diyakonlar (aşağı dərəcəli keşiş), dini kitab oxuyanlar, dini qiraətçilər var idi, onlar gecə və gündüz müqəddəslərə dua oxuyur və dini mərasimlər keçirirdilər (79, k. I, f. 19; 332, s. 92; 341, s. 31). İlkin orta əsr yazılı qaynaqların məlumatından bəlli olur ki, tədqiq etdiyimiz dövrdə alban şahlarının sarayını qoruyan əsgərlər, hərbi hissələr var idi, şahlar isə əyanlar və zadəganlarla əhatə olunurdular (79, k. II, f. 21; 332, s. 92; 341, s. 31), şah sarayında «ritor» (bəlağət müəllimi) vardı (79, k. II, f. 34; 332, s. 92; 341, s. 31).

İlkin orta əsr yazılı mənbələrin verdikləri məlumatdan aydın olur ki, alban şahları möhürlərə malik idilər. Bu möhürlər bir qayda olaraq əsasən üzük möhürlərdən ibarət olurdu, şahlar bu möhürlərlə rəsmi sənədləri möhürləyirdilər: «… qanunları Albaniya çarı Vaçaqan öz möhürüylə təsdiq etmişdir» (79, k. I, f. 23; 332, s. 92; 341, s. 31). İlkin orta əsr mənbələrin məlumatlarından aydın olur ki, alban şahları və hökmdarları müxtəlif titullara malik olmuşlar. Alban yepiskoplarından biri alban şahı Cavanşirə aşağıdakı sözlərlə müraciət edir: «… himayədar hökmdar, qüdrətli sərkərdə, eks-konsul və Patrik (proton Patrik), cənab Cavanşir, Albaniyanın knyazı» (79, k. II, f. 30; 451, s.289-290; 332, s. 92). Alban şahı Cavanşir Bizans imperatoru II Konstantinə yazdığı məktubda özünü «Albaniyanın sipəhsaları və knyazı» adlandırır (79, k. II, f. 20; 333, s. 92). Özünün cavab məktubunda Bizans imperatoru II Konstantin alban şahı Cavanşirə bu sözlərlə müraciət edir: «Sənə, hökmdar Cavanşirə, Girdiman sahibinə və Albaniya knyazına, apoipata və proton patrika və Şərqin hökmdarına» (79, k. II, f. 21; 451, s.290; 333, s.92). Sasani şahı Cavanşiri alban sərkərdəsi və asparapeti adlandırmışdı (79, k. II, f. 18; 451, s.290; 332, s. 92).

İlkin orta əsr yazılı mənbələrin məlumatlarından aydın olur ki, alban şahları, hökmdarları şahlara məxsus geyimə–libaslara

və şah taxtına malik idilər. İlkin orta əsr Alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «Dan ulduzu göylərə qalxanda, o (Cavanşir) çarlıq libaslarını geyib taxtına oturdu. Qapılar açıldı və içəri silahlı əsgərlər girib onun sağ-solunda durdular. Bundan sonra ehtiramla rütbələrinə görə Cavanşirin yanına əyanlar gəldilər» (79, k. I, f. 21; 451, s. 290; 332, s. 92; 341, s. 31). İlkin orta əsrdə alban şahlarının sarayında silahlı əsgərlər var idi və onlar sarayı qoruyurdular, alban şahları eyni zamanda rütbəli əyanlarla əhatə olunurdular (79, k. II, f. 21; 332, s. 92; 341, s.32), şah sarayında xüsusi bacarığa malik natiqlər də fəaliyyət göstərirdilər (79, k. II, f. 34; 332, s. 92; 341, s. 31).

Erkən orta əsr tarixçisi Yeqişenin verdiyi məlumatdan aydın olur ki, tədqiq etdiyimiz dövrdə bəzi alban şahları Sasani sülaləsilə qohum idilər (68, f.X; 332, s. 92; 341, s. 31-32). Bu məlumatı ilkin orta əsr alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k. II, f. 9; 332; s. 92; 341, s.32).

Alban şahlarının saraylarında ədalətli hökmdar məhkəməsi fəaliyyət göstərirdi. Albaniyada ilkin orta əsrlərdə iki cür məhkəmə vardı – dini məhkəmə və hökmdar məhkəməsi. Dini məhkəmədə dini qanunları pozan kilsə xadimlərinin və dini borclarını yerinə yetirməyənlərin işinə, saray məhkəməsində dindarlarla, zadəganlar, iri feodal və başqa zümrələr arasında baş verən münaqişələrə, eləcə də ağır cinayətlərə baxılırdı. Alban tarixçisi M.Kalankaytuklu belə yazır: «Onun (Cavanşirin) sarayında ədalətli məhkəmə fəaliyyət göstərir və o, ədalətli hökmlər çıxarıb xalqın etibarlı haqqını verirdi» (79, k. II, f. 21; 332, s.92; 341, s.32), ağır cinayətə görə verilmiş ölüm cəzası şahın hökmü ilə yerinə yetirilirdi (79, k. II, f. 26; 332, s.92; 341, s. 32).

İlkin orta əsr alban şahlarının çoxlarının adları bizə məlumdur, lakin onların bəzilərinin hökmranlıq işləri və fəaliyyəti mübahisəli və qaranlıqdır, özünün gələcək tədqiqi və araşdırmasını gözləyir. Tədqiq etdiyimiz dövrün ilkin illərində Albaniyada Arşakilər sülaləsindən olan alban şahları hökmranlıq edirdilər. Bu sülalədən olan alban şahları tədqiq etdiyimiz dövrdə V əsrin ikinci yarısına qədər ölkədə hökmranlıq etmişlər (79, k. I, f. 16; 341, s. 31-33; 451, s. 145). İlkin orta əsr yazılı mənbələrin məlumatlarından aydın olur ki, Arşakilər sülaləsindən 11 alban şa-

hı hökmranlıq etmişdir. İlkin orta əsr alban tarixçiləri M.Kalankaytuklu, K.Qandzakesi və erməni tarixçisi Ayrivanesi Arşaki sülaləsindən olan alban şahlarının adlarının siyahısını öz əsərlərində vermişlər: I (Qoçaq) Vaçaqan, I Vaçe, Sanatürk, Urnayr, II Vaçaqan, Sarqvan, Sato, Asay Yesvagen, II Vaçe, III (Mömün) Vaçaqan (79, k. I, f. 15, 16; k. III, f. 22; 78, s. 19; 83, s. 99-100; 341, s.33).

İlkin orta əsrlərdə fəaliyyət göstərən alban şahlarından biri də Sanatürk olmuşdur. Bu alban şahı haqqında bizə ilkin orta əsr tarixçiləri Favstos Buzandasi, M.Xorenasi, Asoqik, Vardan (87, k. III, f.6-7; 76, k III, f. 3, 4, 5, 6, 9; k. II, f. 1; 73, s.43; 451, s.188-190, 175; 329, s. 91) və erkən orta əsr alban tarixçisi M.Kalankaytuklu məlumat saxlamışlar (79, k. I, f. 12; 451, s. 188). Yazılı mənbələrin məlumatından aydın olur ki, Sanatürk Arşaki sülaləsinə mənsub olan şahlardan olmuşdur (87, k. III, f. 6; 79, k. III, f. 3). İlkin orta əsr tarixçilərindən M.Xorenasi, Asoqik, Vardan (76, k. III, f. 9; 84, k. II, f. 1; 73, s. 43; 451, s. 189; 329, s. 91) və alban tarixçisi M.Kalankaytuklunun (79, k. I, f. 12; 451, s. 180) verdiyi məlumatlardan aydın olur ki, alban şahı Sanatürk IV əsrdə Paytakaran şəhərini işğal etmiş və orada tacqoyma mərasimi keçirmişdir. Yazılı mənbələrin məlumatlarından bəlli olur ki, alban şahı Sanatürk İran şahı II Şapurun müttəfiqi olmuş və o, İran şahı ilə birlikdə bizans-erməni qoşunları ilə müharibədə vuruşmuşdur (76, k. II, f. 9; 79, k. I, f. 12; 451, s. 190-191). Alban şahı Sanatürkdən sonra ölkədə Qorxmaz II Vaçaqan və I Vaçe hökmranlıq etmişlər. Əfsuslar olsun ki, bu alban şahları haqqında alban tarixçisi M.Kalankaytuklunun və Ayrivanesin cüzi məlumatından (79, k.I, f. 15; k. III, f. 22; 78, s. 19) başqa heç bir mənbədə yazılı məlumat yoxdur.

Albaniyada Arşakilər sülaləsinə mənsub olan alban şahlarından biri də Urnayr idi. Bu alban şahı haqqında məlumatı bizə ilkin orta əsr tarixçiləri Aqafanqel, Favstos Buzandasi, M.Xorenasi, M.Ayrivanesi, alban tarixçisi M.Kalankaytuklu verirlər (65, s. 113; 87, k. V, f. 4,5, 35; 76, k. III, f.37; 78, s. 45; 79, k. I, f. 9, 11). Yazılı mənbələrin məlumatlarından aydın olur ki, alban şahı Urnayr Sasani şahı II Şapurun (310-379-cu illər) yeznəsi olub. «Alban şahı Urnayr İran şahı Şapurun bacısının

əri idi» (79, k. I, f. 9; 319, s. 295; 332, s. 93; 347, 31-32). Bu sülalə qohumluğu alban dövlətinin müstəqilliyinin qorunub saxlanmasına və alban şahlarının Sasani şahları ilə müttəfiq olmasına səbəb olurdu. Alban şahı Urnayr (306-371-ci illər) müttəfiq kimi Sasani şahı II Şapurla birlikdə bizans-erməni qoşunlarına qarşı vuruşmuşdur (87, k. V, f. 4; 76, k. III, f. 36-37; 79, k. II, f. 13). Alban tarixçisi Urnayrı «fədakar, Ermənistanın mərkəzinə qələbə bayrağı sancıb böyük müharibələrdə şərəfli ad çıxarmış xadim» kimi qiymətləndirir (79, k. I, f. 9). Alban şahı Urnayr öz hakimiyyəti illərində ölkədə bütpərəstliyə qarşı mübarizə aparmış və xristianlığı Albaniyada dövlət dini elan etmişdir (65, s. 114-115; 117, 333, 135; 79, k. I, f. 9, 11; 78, s. 45; 341, s. 49). Lakin Urnayrın dövründə xristianlıq Albaniyanın hər yerinə yayılaraq əhalinin ümumi dininə çevrilə bilməmişdir. Albaniyada o dövrdə əhalinin bir hissəsi hələ də bütpərəstliyə, digər hissəsi isə məzdəkiliyə etiqad edirdi.

Alban şahı Urnayrın dövründə Albaniya dövlətinin paytaxtı və alban katolikosluğunun yerləşdiyi yer Qəbələ şəhəri olmuşdur. Alban şahı Urnayr, yuxarıda qeyd etdiyimiz kimi, Sasani II Şapurla qohum olduğundan, onunla müttəfiq kimi Sasani-Roma müharibələrinə cəlb olunmuşdu. 359-cu ildə Amida yaxınlığında romalılarla sasanilər arasındakı döyüşdə alban şahı Urnayr Sasani şahı II Şapuru müttəfiq kimi müşayiət etmiş (451, s. 198), 371-ci ildə Dzirav çölündə Roma və erməni qoşunlarına qarşı vuruşda Sasani şahı II Şapura müttəfiq kimi kömək etmişdir (87, k.V, f. 4; 79, k. I, f. 13). Alban şahı Urnayr bu vuruşda erməni ordu başçısı tərəfindən yaralanmışdır (87, k. V, f. 4; 79, k. I, f. 13). Bu məlumatla alban şahı Urnayr haqqında yazılı mənbələrdə məlumatlar tükənir.

Alban Arşakilər sülaləsindən olan şahlardan biri də Asuagendir (Arsvaqen, Arsvaq). Bu alban şahı haqqında bizə məlumatı ilkin orta əsr müəllifləri – Koryun, M.Xorenasi və alban tarixçisi M.Kalankaytuklu, orta əsr tarixçiləri Asoqik, Vardan, M.Ayrivanesi verir (69, s. 18; 76, k. III, f. 54; 79, k. II, f. 3, 22; 78, s. 19; 84, k. II, f.1; 73, s. 51; 328, s. 93; 330, s. 104; 341, s. 33). Bu şahın hakimiyyəti dövründə, V əsrin əvvəllərində köhnə alban əlifbası islah edilmiş, yeni alban yazısı yaradılmış (69, s.

18; 76, k. III, f. 54; 330, s. 103) və həyata keçirilmişdir. Bu haqda bizə ilk orta əsr müəllifləri Koryun, M.Xorenasi, alban tarixçisi M.Kalankaytuklu və orta əsr tarixçiləri Asoqik, Vardan məlumat verirlər (69, s. 18; 76, k. III, f. 54; 79, k. II, f. 3; 22; 84, k. II, f.1; 73, s. 51; 330, s. 104; 341, s. 33).

İlkin orta əsr yazılı mənbələrin məlumatlarından aydın olur ki, alban şahı Asuagen öz hakimiyyəti dövründə alban uşaqlarına yazı öyrətmək üçün ölkədə ilk alban məktəbi açır. Alban şahı Asuagen tərəfindən «vilayət və yerlərdən uşaqlara yazı sənətini öyrətməyi, onları dəstələrlə məktəblərə göndərməyi, onların yeməklə təmin olunması üçün vəsait ayırmağı əmr etdi» (69, s. 19; 330, s. 103). Alban şahı Asuagenin hakimiyyəti dövründə yeni alban əlifbası qəbul edildikdən sonra, alban katolikosu İyeremiya tərəfindən dini kitablar, apostolların təlimi və digər kitabların alban dilinə tərcümə edilməsinə başlandı (69, s. 19; 330, s.103).

Alban Arşakilər sülaləsindən olan alban şahlarından digəri də Asuagenin oğlu II Vaçe atasından sonra 444-cü ildə hakimiyyətə gəldi. Bu alban şahı haqqında bizə ilkin orta əsr tarixçisi Yeqişe, orta əsr tarixçisi M.Ayrivanesi və alban tarixçisi M.Kalankaytuklu məlumatlar verirlər (68, f. X. 78, s. 19, 47, 48; 79, k. I, f. 10-11, 15-16, k. III, f. 22; 332, s. 93). İlkin orta əsr alban tarixçisi alban şahı II Vaçeni özünəməxsus mədh və tərif edərək onu belə xarakterizə edir: «… həddindən artıq vüsətli, hündürboy, şəfəq saçan, şad xəbər gətirən, mələyə bənzər, sevindirən, ruhlandıran, nurlu və öz tay-tuş dostlarından daha gözəl idi» (79, k. I, f. 11; 341, s. 33). Bu alban şahı sasani şahlarının qohumu idi. O, Sasani şahları Peroz və Örmüzdün bacısı oğlu idi (68, f. X, 341, s.33).

Alban şahı II Vaçe köhnə ənənəyə görə atası kimi əvvəllər xristian məzhəbində idi, lakin şahənşah II Yezdəgerd ona güclə məzdəkiliyi qəbul etdirdi (68, f. X; 341, s.63). Sasani şahı II Yezdəgerdin ölümündən sonra Arşakilər sülaləsindən olan alban şahı II Vaçenin rəhbərliyi ilə bütün alban əhalisi Sasanilərə qarşı mübarizəyə qalxdı. Sasani hökmdarının siyasətindən narazı olan alban şahı II Vaçe 457-ci ildə sasani hökmdarlarına qarşı üsyan etdi (68, f. X; 79, k. I, f. 10; 341, s. 63). Üsyanın zahiri əlaməti alban şahı II Vaçenin II Yezdəgerd tərəfindən bir

vaxtlar məcburi qəbul etdiyi məzdəki dinini inkar etməsi oldu (68, f. X, 79, k. I, f. 10; 341, s.63). Alban hökmdarı və üsyançılar Sasani ordusuna qarşı hərbi əməliyyatlarda lazımi qüvvəyə malik olmaq üçün Çola keçidini tutdular, maskut ordusunu şəhərə buraxdılar, on bir dağlı tayfasının başçısı ilə birləşərək və onlarla müqavilə bağlayaraq Sasani ordusuna qarşı hərbi əməliyyatları uğurla davam etdirdilər. «Lakin Albaniya çarı (II Vaçe –*T.M.*) ona asılı olmaqdan imtina edir və Çola keçidini açıb maskutları dəvət edir. II Vaçe on bir dağlı çarları ilə ittifaq bağlayaraq İran qoşunlarına hücum edir və onları böyük tələfata uğradır» (79, k. I, f. 10; 451, s.214; 430, s. 34; 401, c. I, s. 36). Sasanilərin II Vaçe ilə danışıqları boşa çıxdıqdan sonra, alban şahının mübarizəni davam etdirdiyini nəzərə alan Sasani şahı Peroz böyük miqdarda pul verməklə haylantürkləri köməyə çağırdı və 462-ci ildə alban üsyançılarına qarşı uzun sürən müharibə başlandı. «Biləndə ki, Vaçeni nə güclə, nə də ki, inandırma yolu ilə öz tərəflərinə çəkə bilməyəcəklər, iranlılar Haylantürk ölkəsinə çoxlu bəxşişlər göndərib, Alan darvazasını açıb hunların böyük ordusunu dəvət etdilər və bu ordu Alban çarı ilə bir il müharibə etdi» (68, f. X; 79, k.I, f. 10). Lakin Sasani ordusu və onun müttəfiqləri alban şahı II Vaçenin özünü və ordusunu tam məğlub edə bilmədilər. Alban tarixçisi bu haqda belə yazır: «Müharibə uzandı, ölkənin böyük hissəsi dağıldı, amma Vaçeni heç kəs tərk etmədi» (79, k. I, f. 10; 451, s. 216; 341, s. 64).

Bunu görən sasani şahı Peroz alban şahı II Vaçe ilə danışıqlara başladı ki, sülh müqaviləsi bağlasın. Lakin iranlıların alban şahı II Vaçe ilə danışıqları baş tutmadı (68, f. 7; 341, s. 64). Bundan sonra Peroz şah Vaçeyə məktub yazaraq demişdi «Sənin yanında qalan bacım və bacım qızını məcus olduqları üçün göndər yanıma, çünki siz onları xristian etməyə çalışırsınız. Ölkən isə qoy sənə qalsın» (68, f. 7; 341, s. 64). Alban şahı II Vaçe bu məktubu aldıqdan sonra : «O, anasını və arvadını İrana göndərir, sonra öz ölkəsinin idarəsindən əl çəkir və əlinə İncili alaraq xəlvətə çəkilməyə hazırlaşdı». (68, f. X; 341, s. 64).

Sasani şahı Peroz onun bu qərarını eşidəndə çox pərişan oldu və ona təklif elədi ki, nə istəyirsə özünə götürsün, ölkəni və hakimiyyəti tərk etməsin. Sasani şahı Peroz məktubla ona belə

müraciət etdi. «Mən nə desən etməyə hazıram, ancaq rica edirəm ölkəni tərk etmə» (68, f. X; 341, s. 64). Lakin alban şahı II Vaçe hakimiyyətdən əl çəkdi və Sasani şahı Perozdan xahiş elədi ki, «öz şəxsi mülkünü – atasından aldığı min kəndli ailəsini (evini) götürməyə razı oldu. Vaçe şahdan həmin payını alaraq ömrünü zahidlərlə bir yerdə keçirdi. Allah yolunda beləcə dərdsiz, qəmsiz həyat sürür və haçansa çar olduğunu heç yadına da salmırdı» (68, f. 10; 79, k. I, f. 10).

Beləliklə, yuxarıda yazılı mənbələrin məlumatından aydın olur ki, ilk orta əsrlərdə Sasani hökmdarları Zaqafqaziyada alban dövlətinin müstəqil və qüdrətli olmasını istəyirdilər. Onlar Albaniyanın güclü strateji əhəmiyyətini nəzərə alaraq Sasani imperiyasının şimal hissəsindən – Dərbənd keçidindən hücum edən köçəri tayfaların qarşısını almağa qadir olan müstəqil, qüdrətli Albaniya dövlətinin varlığına maraqlı idilər.

Beləliklə, 457-ci ildən başlayan bu üsyan 463-cü ildə yatırıldı, yuxarıda qeyd etdiyimiz kimi, alban şahı II Vaçe hakimiyyətdən əl çəkdi. O, hakimiyyətdən əl çəkəndən sonra onun haqqında alban tarixçisi M.Kalankaytuklunun əsərində adı çəkilən yepiskop Qutun yazdığı iki məktubda Vaçeyə aid məlumat saxlanmışdır. Bu məktublar əslində alban şahı II Vaçeyə həsr olunmuş himn, mədhnamədən və ilahi məziyyətlərdən ibarət idi. O yazırdı: «Sənin ölkənin məzhəbi olduğu kimi qalmış, kilsələrə toxunulmamış, ibadətgahlar sakitlik içində, keşişlər kilsələrdə, qurbanlar da qurbangahlarda» (68, f. 10; 79, k. I, f. 10; 341, s. 64). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, alban şahı II Vaçe arşakilər sülaləsindən idi (79, k. I, f.10). Alban tarixçisi M.Kalankaytuklunun və orta əsr tarixçisi M.Ayrivanesin verdikləri məlumatdan bəlli olur ki, alban şahı II Vaçe Bərdə (Partav) şəhərini inşa etmişdir (79, k. I, f. 10; 78, s. 47).

Alban şahı II Vaçe hakimiyyətdən əl çəkəndən sonra 463-cü ildə Albaniyada şahlıq müvəqqəti olaraq qısa müddətdə ləğv olundu. Lakin dövləti o zaman katolikos və iri feodallar idarə edirdilər. Albaniyada bu rejim 30 il davam etdi (79, k. I, f. 16; 171, s. 21; 451, s. 215; 403, c. II, s. 314; 341, s. 65).

Sasani şahı Perozun uğursuz müharibələri, albanlara qarşı cəza tədbirləri, vergilərin artması, iri feodalların irsi imtiyazlarının məhdudlaşdırılması, dini təqiblər yeni üsyan üçün zəmin yaradırdı. Üsyan Albaniyada, Ermənistanda və İberiyada təqribən 484-cü ilə qədər davam etdi. Bütün bunlar isə, onsuz da əldən düşmüş Sasani ordusunu Albaniyadan, İberiyadan və Ermənistandan çıxıb getməyə məcbur etdi. 485-ci ildə Perozun ölümündən sonra qardaşı Valarş (485-488-ci illər) hakimiyyət başına gəldi. Sasani dövlətində yaranmış ağır iqtisadi vəziyyət, müharibələrdə dağıdılmış ölkə və kənd təsərrüfatını bərpa etmək cəhdləri Sasani şahı Valarşı Albaniyada, İberiyada və Ermənistanda ata-babalarının yürütdüyü iqtisadi siyasətə, dini təqiblərə son qoymağa və bu ölkələrdə yaşayan xalqlarla sülh müqaviləsi bağlamağa vadar etdi. 485-ci ildə Nvarsak (Nuarsax, Nuarsak) kəndində üsyançıların təqdim etdikləri şərtlər əsasında müqavilə bağlandı (74, k. III, f.89). Bu, tarixə Nvarsak sülhü və müqaviləsi şəkildə daxil oldu. Bu müqavilənin şərtlərinə əsasən Sasani dövləti Albaniya, İberiya və Ermənistana çox mühüm güzəştlərə getməyə məcbur oldu. Albaniyada yenidən Arşaki sülaləsinin şahlıq hakimiyyəti bərpa edildi və alban şahına ölkənin daxili məsələlərini müstəqil həll etmək ixtiyarı verildi. Albaniyada ölkə əhalisinə vicdan azadlığı verildi, alban zadəganlarının imtiyazları bərpa olundu və iri feodal nəsillərinin iyerarxiya prinsipi saxlandı. Ölkənin baş hakimi və feodalların süzereni yalnız alban, alban şahı ola bilərdi. Sasanilər məzdəkiliyi zorla yaymayacaqlarına təminat verdilər, xristianlar isə öz dinlərini atəşpərəstlərə məcburi qəbul etdirə bilməzdilər. Albaniyanın verəcəyi xəracın miqdarı azaldılmışdı. Albaniya Sasani dövlətinə süvari ordu göndərməkdən azad olunmuşdu (74, k. III, f. 89). Albaniyada yenidən şahlıq hakimiyyəti bərpa olundu. Albaniya dövlətinin, alban taxtının yeni şahı II Vaçenin qardaşı, Alban Arşakilərinin sonuncu nümayəndəsi – III Mömin Vaçaqan (487-510-cu illər) hakimiyyət başına gəldi. Alban tarixçisi M.Kalankaytuklu bu haqda belə məlumat verir: «Vaçedən Mömin Vaçaqana qədər 30 illik bir dövrdə Albaniya hökmdarsız qalmışdır» (79, k. I, f. 17; 431, s. 225; 341, s. 65). İlk orta əsr Albaniya tarixçisinin verdiyi məlumata görə: «Bundan

sonra mülklərini geriyə alan Albaniya knyazları birləşib çar taxtına İran şahları nəslindən olan Vaçaqanı məsləhət gördülər. O, böyük şücaətə malik, müdrik, düşüncəli, hündürboy və qəddqamətli bir adam idi. O, Yezdəgirdin oğlu və Alban çarı Vaçenin qardaşı idi. Onlar Vaçaqanı qəbul edib İran şahı Valarşın vasitəçiliyi ilə çar taxtına layiq gördülər» (79, k. I, f. 17; 451, s. 225; 341, s. 65). Bununla bərabər göstərmək lazımdır ki, alban şahı III Vaçaqan da ixtiyarsız İran şahının zalım və qaniçən tələbinə tabe olaraq məcus dinini «qəbul etməyə məcbur oldu. Amma gizlində III Vaçaqan daim ibadətdə və pəhrizdə olub, İsanın dininə o vaxtadək etiqad edirdi…» (79, k. I, f. 17; 451, s. 225; 341, s. 65). Perozun ölümündən sonra alban şahı III Vaçaqan «Ən əvvəl o özü günahlı işlərdən və şərli yoldan əl çəkib çoxlu və müxtəlif səxavətli əməllərdə olub, bütün alban çarlığını mürtəd və iblisi bütpərəstlikdən Tanrıya, müqəddəs və həqiqi ibadətə döndərdi və öz səxavətini səmimi tövbələrlə tamamladı» (79, k. I, f. 17; 451, s. 225; 341, s. 65).

III Vaçaqan hakimiyyətdə olduğu dövrdə Albaniyada dövlətin siyasi-iqtisadi qüdrətini artırmaq, alban kilsəsinin sarsılmış əsaslarını möhkəmlətmək, onun iqtisadi qüdrətini artırmaq, onu özünə tabe etmək siyasəti aparırdı (79, k. I, f. 26). O, hər şeydən öncə, alban əhalisinin vahid dinə etiqad etməsinə nail olmağa, xristianlığı ümumi dövlət dininə çevirməyə çalışırdı.

Albaniya dövlətinin, ölkənin iqtisadi qüdrətini artırmaq, müstəqilliyini möhkəmləndirmək, xristian kilsəsini möhkəmləndirmək məqsədi ilə III Vaçaqan ölkədə savadlı zadəganların və ruhanilərin hazırlanması üçün xüsusi məktəblər və adi məktəblər açdırdı (79, k. I, f. 18).

Alban kilsəsinin sarsılmış əsaslarını möhkəmlətmək, onun iqtisadi qüdrətini artırmaq, müstəqilliyini təsdiq etməklə yanaşı dövlət hakimiyyətini gücləndirmək məqsədi güdən alban şahı III Vaçaqan 488-ci ildə Aquendə dini məclisin çağırılması əmrini verir. Bu dini məclisdə Albaniyanın iri feodalları və yüksək rütbəli ruhaniləri iştirak edirdilər. Bu məclisdə qəbul edilmiş və müxtəlif təbəqələrin sosial-hüquqi münasibətlərini əks etdirən Aquen qanunları erkən orta əsrlər Albaniyasına aid dövrümüzədək gəlib çıxmış yeganə tarixi-hüquqi sənəddir. Giriş və 21

maddədən ibarət bu qanun məcəlləsi kilsənin bütün təbəqələrindən olan təbələrlə münasibətini müəyyənləşdirdi, ailə, kəbin, məhkəmə işlərini baş kilsənin ixtiyarına verdi, kilsə xeyrinə vergilər təyin etdi. Xristianlığın feodal əsaslarını qaydaya salan Aquen qanunları Albaniyada feodal münasibətlərin inkişafını sürətləndirdi (79, k. I, f. 26). Bu məclis bir tərəfdən alban kilsəsinin müstəqilliyini möhkəmlətməli, digər tərəfdən özbaşınalıq edən feodalları bir növ itaətləşdirməli, ruhanilərlə kübar zadəganları bərabərləşdirməli, vergi verən zümrə ilə zadəganların və ruhanilərin münasibətlərini yoluna qoymaq, bütün təbəqələrin dini birliyinə nail olmaq istəyinin əsasını qoydu. Bu da ölkənin siyasi müstəqilliyinin saxlanması, yadellilərlə mübarizə apara bilməsi üçün zəruri idi (79, k. I, f. 26).

Alban şahı III Vaçaqan dini və kilsə ehkamına, öz dövrünün elminə diqqət yetirir və maraqlanırdı. O öz dövrünün yüksək rütbəli dindar alimləri ilə məktublaşırdı (79, k. I, f. 26). Xristian dinini ölkədə möhkəmlətmək məqsədilə alban şahı Mömin III Vaçaqan müqəddəslərin cəsədlərinin tapılmasına xüsusi fikir verirdi. Bu alban şahı dövründə müqəddəs Qriqorisin cəsədi Amaras şəhərində tapılmış (79, k. I, f. 23) və III Vaçaqanın əmri ilə Amarasda kilsə inşa edilmiş (79, k. I, f. 23), eyni zamanda Qriqorisin qəbri üzərində kiçik bir kilsə inşa etdirmişdir (79, k. I, f. 23). Alban şahı Mömin III Vaçaqan Albaniyada 365 kilsə inşa etdirmişdir (78, s. 48).

Beləliklə, yuxarıda göstərilən məlumatlardan aydın olur ki, ölkədə alban Arşakiləri sülaləsindən olan alban şahları müstəqil siyasət yürüdür, Alban dövlətinə, alban xalqına, Albaniyada yaşayan digər xalqlara, onun dini görüşlərinə sədaqətlə xidmət edir, İrani xüsusiyyətlərini itirərək yerli mədəniyyətə qaynayıb qarışır, albanlaşırdılar. Albaniyanı III-VII əsr siyasi quruluşun mərkəzləşdirilmiş feodal dövləti kimi təqdim etmək olar. Albaniyanın şahı ölkənin qanunvericisi və baş hakimi idi, mülki və dini hakimiyyətin qanunverici və məşvərətçi orqanlarına başçılıq edirdi, eləcə də ölkənin bütün silahlı qüvvələrinin baş komandanı idi (341, s. 40-41; 341a, s. 99).

Beləliklə, Albaniya dövləti alban Arşakilərinin hakimiyyəti dövründə qədim Albaniya dövlətinin ənənələrini davam etdirə-

rək öz müstəqil dövlət quruluşunu qoruyub saxladı. Alban şahları özlərinə yaxın olan qonşu dövlətlərdən asılı olmayan, müstəqil daxili və xarici siyasət yürüdərək özünün suverenliyini bir dövlət kimi qoruyub saxlamışdılar.

VI əsrin birinci rübünün sonunda Sasani dövlətində vəziyyət sabitləşəndə, Sasani hökmdarları Albaniyada, İberiyada (Gürcüstanda) yerli şah sülalələrinin hakimiyyətini ləğv etdilər. Sasanilər 510-cu ildə Albaniyada Arşakilər sülaləsinin hakimiyyətinə son qoydular. Ölkənin idarəsi yenidən Sasani mərzbanlarının əlinə keçdi. Ölkə qısa müddət ərzində Sasani mərzbanları və yerli feodallar tərəfindən idarə olunurdu. İran-Bizans müharibəsi nəticəsində vuruşan hər iki tərəfin zəifləməsi, ağır-siyasi-iqtisadi vəziyyət nəhayət üsyanla nəticələndi. 572-ci ildəki üsyandan sonra Sasani dövləti güzəştə getməyə məcbur oldu. Mərzbanların hərbi və siyasi nəzarətinin Albaniyadan götürülməsi ölkənin siyasi müstəqilliyinin bərpasına səbəb oldu. Albaniyanın idarə edilməsi yerli hökmdarların, feodalların, zadəganların ixtiyarına verildi.

VI əsrin sonlarına yaxın Albaniyada Mehranilər şah sülaləsi hakimiyyət başına gəlir (171, s. 25; 341, s. 84; 341a, s. 95). Yazılı mənbələrin məlumatına görə, bu sülalənin başçısı Mehran saray çevrilişində iştirak etdiyinə görə Sasani şahı II Xosrov Pərvizin (590-628) qisasından, qorxusundan baş alıb ölkədən Albaniyaya qaçmışdı. Alban tarixçisi M.Kalankaytuklu Mehrani sülaləsi haqqında belə yazır: «Bundan sonra Xosrovun qohumu Mehran qaçıb ona sadiq olan ölkənin vilayətlərini öz hakimiyyəti altına aldı və Albaniyaya getdi. O, özüylə 30 min ailə aparıb böyük Bərdə (Partav) şəhərinin yaxınlığında Uti vilayətinə daxil oldu və sonra xəzərlərin ölkəsinə gedərək İranın bu düşmənlərinə qoşulmaq istədi». (79, k.II, f. 17; 451, s. 234; 341, s. 84; 341 a, s. 95). Bundan narahat olan Sasani şahı II Xosrov onu qabaqlamağa tələsdi və Mehrana məktub göndərərək, ona Albaniyada qalmağa icazə verdiyini bildirdi. Alban tarixçisi M.Kalankaytuklu yazır ki, II Xosrov Mehrana belə bir məktub göndərdi: «Qardaşım! Mənim sadiq qardaşım (həzarat!). Düşmən kimi məndən uzaqlaşma. Əgər sən mənimlə bir yerdə yaşamağı xoşlamırsansa, bu məktub sənə çatanda nə qədər yol get-

mişsənsə, Albaniyada yaşamaq üçün özünə o qədər torpaq götür» (79, k. II, f. 17; 451, s. 234; 185, 58; 341, s. 84; 340 a, s.95). Bu məktub Mehrana «… dərəli-təpəli Girdiman vilayətində çatmışdı. O, məktubu oxuyub çox şad oldu və sevindi. Bu yerlərin mülayim təbiətinə nəzər salaraq Mehran böyük məmnuniyyətlə orada qapdı və orada şəhər salıb onu Mehravan adlandırdı» (79, k. II, f. 17; 451, s. 234; 185, s. 58; 341, s. 84; 341 a, s. 95). Mehran çox keçmədi ki, yerli hakimlərə qarşı hiylə və mübarizəyə başladı. Bu haqda alban tarixçisi belə məlumat verir: «O yaz mövsümü gələndə Girdiman vilayətinin yuxarı əyalətlərinə gedib, hiylə ilə oranın on iki yerli əyanını yanına dəvət edərək hamısını qılıncdan keçirib ölkəyə sahib olur». Mehranın sonrakı varisləri «… əlavə olaraq vəhşi Qafqaz qəbilələrini də özlərinə tabe etdilər» (79, k.II, f. 17; 451, s. 235; 185, s. 58-59; 341, s. 85; 341 a, s. 96).

Alban tarixçisi M.Kalankaytuklu daha sonra Mehranın nəslinin digər üzvlərini belə təqdim edir: «Onun (Mehranın– *T.M.*) Armayel adlı oğlu var idi. O, Vardı dünyaya gətirdi, Vard isə üç il ərzində Girdiman qalasını tikən cəsur Vardanı dünyaya gətirdi. O (Vardan) oğlu Vardı dünyaya gətirdi. Vard isə Varazmanı, şahzadə Şuşiki və Albaniyanın birinci knyazı Varaz-Qriqoru dünyaya gətirdi. Varaz-Qriqorun Varaz-Peroj, Cavanşir, Yezad-Xosrov və Varazman adlı dörd oğlu var idi (79, k. II, f. 17; 451, s. 235; 341a, 85; 341,a, s. 96). Bundan sonra Sasanilər Mehranilər vasitəsi ilə Albaniyada möhkəmlənərək yerli feodalları cismən məhv etmək, habelə qohumluq əlaqələri sayəsində yerli feodalları, zadəganları sıxışdırıb bütün Albaniyaya yiyələnmək üçün farslaşdırma siyasətinə ümid edirdilər. Lakin sasanilərin bu ümidləri Albaniyada özünü doğrultmadı. Mehrani sülaləsindən olanlar iki nəsildən sonra farslıqlarını itirib xristianlığı qəbul etdilər, yerli alban kübarları ilə qohum oldular, alban mədəniyyətinə, dininə, dilinə öyrəşdilər, bir sözlə, tamamilə albanlaşdılar. Alban əhalisi özlərinə məxsus xüsusiyyətləri qoruyub saxlamaq üçün kəskin mübarizə aparırdı və buna nail oldu. Məsələn, igid Vardanın nəvəsi Varaz-Qriqor (628-636) hökmranlığı qəbul edərkən sasani məhzəbliyindən çıxmış, alban katolikosu Viro tərəfindən xristianlığı (monofizitliyi)

qəbul etməli olmuşdur (79, k. II, f. 17). Bundan belə, yəni 628-ci ildən Varaz-Qriqor hökmran olduqdan sonra Albaniyada fəaliyyətdə olan mərzban rejimi tamam aradan götürüldü.

VII əsrin əvvəllərində İran ilə Bizans arasında müharibə başladı, bu çəkişmə zamanı bütün Qafqaz, o cümlədən Albaniya müharibə meydanına çevrildi və bunun nəticəsində ölkə çoxlu dağıntılara və iqtisadi cəhətdən itkilərə məruz qaldı. Bu hadisələr haqqında bizə ilkin orta əsr tarixçisi Sebeos, alban tarixçisi M.Kalankaytuklu və gürcü yazılı mənbəyi məlumat verirlər (81, b. III, f. 26; 79, k. II, f. 10-12, 14; 56, s. 42, 44, 127-128).

Bizans imperatoru İrakli xəzərlərlə birlikdə Albaniyaya hücumu zamanı alban şahı Varaz-Qriqor ölkəni məhrumiyyətlərdən və dağıntılardan qorumaq məqsədi ilə Bizans imperatoru ilə dostluq əlaqələri yaradıb özünü onun müttəfiqi elan edir (56, s. 126-127; 272, s. 27-28; 403, c. II, s. 319-320, 322). İkinci dəfə xristian dinini – xalkedonist məhzəbini qəbul etdi, bununla alban hökmdarı monofizitlikdən diofizit məhzəbinə keçdi (79, k. II, f. 18). Ancaq Alban şahı o zaman Sasani hökmdarları ilə də dostluq əlaqələrini qoruyub saxlayırdı (79, k. II, f. 18).

Varaz-Qriqordan sonra Mehranilər sülaləsinin ən görkəmli nümayəndəsi Varaz-Qriqorun oğlu Cavanşir (636-679) Albaniyanın şahı oldu. Onun hakimiyyəti illərində Alban dövləti daha da möhkəmləndi və genişləndi. Cavanşir «… İberiya sərhədlərindən hun keçidinə və Araz çayına qədər əsl şah kimi əzəmətli hökmdarlıq etmişdir» (79, k. II, f.21; 451, s. 246; 341, s. 93; 341a, s. 96). O çox bacarıqlı və görkəmli hərbi sərkərdə, gözəl qabiliyyətə malik həssas diplomat, müdrik siyasətçi, dövrünün görkəmli dövlət xadimi və başçısı idi (79, k. II, f. 18). Qonşu dövlətlərlə, ölkələrlə – Sasani, Gürcüstan və Ermənistan ilə geniş dostluq əlaqələri saxlayırdı (81, b. III, f. 35; 79, k. II, f. 19; 341, s. 93). Alban şahı Cavanşir Bizans imperatoru II Konstantin ilə öz dostluq münasibətlərini və əlaqələrini daha da gücləndirdi və genişləndirdi (79, k. II, f. 26; 341, s. 93). Alban şahı çox vaxt Xəzər xanlığı və Ərəb Xilafəti ilə yaxın dostluq münasibətləri və geniş əlaqələr saxlayırdı (79, k. II, f. 21, 27, 28).

Alban şahı Cavanşirin hakimiyyəti dövründə elm və mədəniyyət daha geniş şəkildə inkişaf etdi. Ölkədə məbədlər və gözəl

saraylar inşa olundu (79, k. II, f. 27; 330, s.105). Cavanşir şahın sarayında öz dövrünün çox görkəmli şairi Davdak yaşayırdı. «…bədii üslubu bilən, bilikli, şeir sənətində mahir və məşhur təfsirçi Davdak adlı bəlağət ustası ayağa qalxdı. O, məharətlə, təmtəraqla və mahir katib kimi yazaraq Cavanşiri tərif etdi. Bir neçə vaxtdır ki, o, saraya gəlib uzun müddət burada yaşadı» (79, k. II, f. 34; 330, s. 105). Alban şahı Cavanşir qətlə yetirildikdən sonra Davdak onun haqqında akroşer üslubda ağı yazdı (79, k. II, f. 34; 330, s. 105). Dövrünün görkəmli hökmdarı, Albaniyanın şahı Cavanşir müxtəlif titullara malik idi. Alban şahı Cavanşirə, alban yepiskoplarından biri aşağıdakı sözlərlə müraciət edir… «himayədar hökmdar, qüdrətli sərkərdə, eks-konsul və Patrik (proton Patrik), cənab Cavanşir, Albaniyanın knyazı» (79, k. II, f. 30; 332, s. 92; 341, s. 91). Cavanşir Bizans imperatoru II Konstantinə yazdığı məktubda özünü «Albaniyanın sipəhsaları və knyazı» adlandırır (79, k. II, f. 20; 332, s. 92; 341, s. 91). Bizans imperatoru II Konstantin özünün cavab məktubunda alban şahı Cavanşirə bu sözlərlə müraciət edir: «Sənə, hökmdar Cavanşirə, Girdiman sahibinə və Albaniya knyazına, apoipata və poton patrika və Şərqin hökmdarına» (79, k. II, f. 21; 332, s. 92; 341, s. 91). Sasani şahı Cavanşiri alban sərkərdəsi və asparapeti adlandırırdı (79, k. II, f. 18; 332, s. 92; 341, s. 31).

Alban şahı Cavanşir şahlara məxsus geyim-libasa və şahlara məxsus taxta malik idi. Alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «Dan ulduzu göylərə qalxanda, o (Cavanşir) çarlıq libaslarını geyib taxtına oturdu. Qapılar açıldı və içəri silahlı əsgərlər girib onun sağ-solunda durdular. Bundan sonra ehtiramla rütbələrinə görə Cavanşirin yanına əyanlar gəldilər» (79, k. II, f. 21; 341, s. 31).

Alban şahı Cavanşir Qafqazın ən hörmətli və görkəmli müdrik siyasətçilərindən və dövlət xadimlərindən biri idi. Alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «Otuz üç ildir ki, Allah-taala Albaniyanın knyazını hər şeydə qalib edirdi, xalqlar hökmdarı dörd çar ona böyük hörmət və ehtiram göstərirdi və Cavanşirin şöhrəti və əzəməti heç o çarlarınkından az deyildi. Qoy heç kəs uşaq kimi sadəlövh olub onun hökmranlığını o çarlarınkından aşağı görməsin» (79, k. II, f. 28). Alban

şahı Cavanşir 680-ci ildə siyasi qəsd nəticəsində öldürülmüşdür. «Cavanşir əlində qılıncı birinci dəfə qatilin üstünə atılanda o, qalxanını qabağa verib qabağında durdu. Knyazın qılıncı qalxana pərçim oldu və o, qılıncı daha çıxara bilmədi. Qəzəblənən qatil isə zəhərli ilan və qudurmuş vəhşi heyvan kimi zərbə üstə zərbə endirib Cavanşirin bədənini doğram-doğram edib öz ağasını yerə sərdi» (79, k. II, f. 34; 341, s. 99).

Cavanşirin ölümündən və yas mərasiminin keçməsindən bir az sonra alban feodalları, zadəganları, alban katolikosu Yelizarın iştirakı ilə alban dövlətinin başçısını seçmək üçün məsləhətə toplaşdılar. Bu haqda alban tarixçisi M.Kalankaytuklu belə yazır: «Qəm-qüsə keçəndən, dərd sovuşandan və əzablı fəlakət bir qədər yaddan çıxandan sonra ölkənin bütün knyazları, baş nəsillərin ağsaqqalları, valiləri, hakimləri və əyanları katolikos Yelizarın yanına gəlib Albaniya ölkəsinin taleyi və səadəti barəsində düşündülər. Ölkədəki hakimiyyətin qayğısına qalaraq onlar bir səslə Bizans imperatoru tərəfindən konsul və patrik rütbəsinə layiq görülən Cavanşirin Varaz-Peroj adlı qardaşı oğlu knyaz Varaz-Trdatı seçdilər» (79, k. II, f. 36; 341, s. 95). O əlamətdar gündə yeni alban şahı Varaz-Trdatın seçilməsi mərasimi çox təntənəli şəkildə aparıldı. «Elə buradaca bütün əyanlar müxtəlif heyvan şəkilləri olan bayraqlarını açdılar, şeypurlar çalındı və Varaz-Trdatı qızıl qalxana otuzdurub onu tərifləyə-tərifləyə üç dəfə göyə atdılar. Belə bir böyük təmtəraqla onlar yüksək hakimiyyətin şərəfini–vətən hökmdarının taxtını ona verib həmin gün bu münasibətlə çoxlu hədiyyə, bəxşişlər payladırlar» (79, k. II, f. 36; 341, s. 95). Varaz-Trdat (680-699) alban şahı seçildikdən sonra xəlifə I Yəzid (680-683) onu «Şərq vilayətlərinin, Albaniya şahlığının və Uti əyalətinin canişini» kimi tanıdı (79, k. II, f. 27; 341, s. 95).

Alban şahı Varaz-Trdat öz qardaşı Cavanşir kimi çox ehtiyatlı siyasət apararaq ölkəni yadellilərin hücumlarından və talanlarından müdafiə edərək onun müstəqilliyini qoruyub saxlamağa çalışırdı. 681-ci ildə Cavanşirin ölümündən az sonra Varaz-Trdatın hakimiyyətinin birinci ilində Xəzər xaqanı Alp-İlitverin komandanlığı altında çoxsaylı xəzər ordusu Albaniyaya hücum etdilər (79, k. II, f. 36). Öz qardaşının siyasətini davam

etdirən alban şahı Varaz-Trdat xəzərləri diplomatik yolla ələ almağa səy göstərdi.

Varaz-Trdat alban katolikosu Yelizarı sülh bağlamaq məqsədilə xəzərlərin yanına göndərdi, «sədaqətlə itaətdə olduğunu və məhəbbətini bildirdi» və onlarla sülh və dostluq müqaviləsi bağladı (79, k. II, f.36). Lakin Varaz-Trdatın hakimiyyətinin son illərində Albaniya dövləti öz müstəqilliyini xeyli zəiflətdi və üç dövlətdən asılı vəziyyətə düşdü. «O (Varaz-Trdat) üç dövlətə xərac verirdi–xəzərlərə, ərəblərə və yunanlara (Bizans)». (79, k.II, f.12; 372, s.36; 185. S.106). Alban şahı Varaz-Trdat xəzərlərlə əlaqəni yaxşılaşdırdıqdan sonra, Bizans dövlətinə vergi verməmək məsələsini həll etmək məqsədilə 699-cu ildə öz oğlanları Qaqik və Vardanla birlikdə Konstantinopola danışıq (79, k.III, f.12; 171, s.96; 403, c.II, s.533) aparmağa gəlir. Bizans imperatoru III Tiberi alban şahı Varaz-Trdatın Ərəb Xilafəti ilə yaxınlıq etdiyini bildikdə, onu oğlanları ilə həbs edir və onlar beş il müddətində –704-cü ilə qədər girov kimi burada qalırlar (79, k.III, f.12; 171, s.26; 403, c.II, s.533;451, s.250). 705-ci ildə II Yustinan ikinci dəfə hakimiyyət başına gələndə alban şahı Varaz-Trdat öz oğlanları ilə azad edildi. Konstantinopoldan Albaniyaya qayıdan Varaz-Trdat birdəfəlik ərəb təbəliyini qəbul edir: «həmin vaxtdan ölkəmizi taciklərin (ərəblərin) ixtiyarına verdi və yalnız onlara vergi verdi» (79, k.III, f.12). 705-ci ildə Ərəb Xilafətinin ordusu Məhəmməd ibn Mərvanın başçılığı ilə ölkəmizə hücum edib Albaniyanı zəbt etdilər. Mehranilər sülaləsinin axırıncı nümayəndəsi alban şahı Şeronu həbs edib Suriyaya apardılar (79, k.III, f.16; 451, s.250). O vaxtdan etibarən Albaniya həm faktik, həm də hüquqi baxımdan tamamilə Ərəb Xilafətinin əsarəti altına düşdü. Bundan sonra Albaniyanı ərəb əmirləri və canişinləri idarə etdilər. Albaniya bir dövlət kimi öz müstəqilliyini tam itirdi və ləğv olundu.

İlkin orta əsrlərdə Albaniya ölkəsinin, dövlətinin dayağı olan silahlı orduya malik idi. Bu haqda ilkin orta əsr tarixçiləri Favstos Buzandasi, Yeqişe, M.Xorenasi, Sebeos, Asoqikin məlumatlarından aydın olur ki, Albaniya dövləti güclü orduya malik idi (87, k. I, f.4, 5, 43; 68, f.I, II, III; 76, k.I, f.29; k.II, f.8; 22, 37, 45; 81, в.III, f.38, 35; 84, k.I, f.5; 332, s.94; 341, s.34). Bu

məlumatı eyni zamanda alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k.t, f.VIII, XII 21; k.II, f.18;332, s.94; 341, s.34). İlkin orta əsr tarixçisi Yeqişenin məlumatına görə alban ordusunun əsgərləri ağır qalxanlara malik idi (68, f.III; 451, s.287; 332, s.94; 341, s.34). Bu məlumatı təsdiq edən ilkin orta əsr alban tarixçisi M.Kalankaytuklu yazır ki, alban əsgərləri hətta «qızıl qalxanlara» da malik idilər (79, k.II, f.36; 332, s.94; 341, s.34). F.Buzandasinin məlumatlarından aydın olur ki, alban ordusunun əsgərləri nizə (mizraq) və qılıncla silahlanırdılar (87, k.V, f.43; 451, s.287; 332, s.94; 341, s.34). Yeqişenin verdiyi məlumatdan bəlli olur ki, alban ordusunun sərkərdələri və ordu başçıları qılınc və xəncərlərlə silahlanırdılar və başlarına dəbilqə (dəmir papaq) qoyurdular (68, f.III; 451, s.287; 332, s.94; 341, s.34). Bu mənbələrin verdikləri bu məlumatları alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k.I, f.12; 332, s.94; 341, s.34). Daha sonra o, məlumat verərək yazır ki, alban sərkərdələri nizəyə (mizraq) malik idilər və bədənlərini zirehli geyimlə qoruyurdular (79, k.I, f.12; 332, s.94; 341, s.34). İlkin orta əsr tarixçisi Yeqişenin məlumatlarından aydın olur ki, alban ordusunun tərkibində piyada hissədən əlavə süvari ordu hissəsi də var idi. (68, f.II; 332, s.94; 341, s.34). Bu tarixçi 451-ci ildə Sasani dövlətinə qarşı olan üsyanda iştirak edən birləşmiş ordunun və o cümlədən alban ordusunun tərkibini və qurluşunu gözəl təsvir edir. Onun vediyi məlumatlardan aydın olur ki, alban ordusunun piyada hissəsi əsasən oxatanlar və qalxan daşıyanlardan ibarət olub (68, s.96; 451, s.288, 289). Alban ordusu böyük bölmələrə və hissələrə bölünürdü (68, s.93; 341a, s.98). Ordunun hər bir böyük bölmə hissəsi özünəməxsus bayrağa malik idi (68, s.96; 341a, s.98). Ordunun böyük bölmələrində şeypur çalanlar var idi (68, f.96; 341a, 98). Alban ordusu hərbi yürüş zamanı geniş cəbhə boyu hücum edirdi (68, s.96; 341a, s.98). Ordu hissəsi vuruş zamanı müdafiə olunurdusa, bu zaman orduda möhkəmləndirilmiş hərbi düşərgə, istehkamlar yaradırdılar və hərbi düşərgədə ordugah halında yerləşirdilər (68, s.96; 341a, s.98). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumata görə hərbi yürüş zamanı alban sərkərdələri təmtəraqlı geyimə: qaş-daşla bəzədilmiş qılınca, iki qızıl mizrağa,

bədii formada müxtəlif relyeflərlə bəzədilmiş iki qızıl qalxana malik idilər. Alban sərkədələri həmişə hərəkət edərkən bunları onların qabağında aparırdılar. Sərkədələrin yanında həmişə bayraq daşıyanlar və şeypur çalanlar gedirdi. «… sərkərdələrin adına layiq ona bayraq, uca səsli şeypur, iki qızıl mizraq və iki qızıl qalxan bəxş etdi, bunları həmişə onun qabağında aparırdılar» (79, k.II, f.18; 341, s.34).

İlkin orta əsr müəllifi Yeqişenin verdiyi məlumata görə alban ordusunun əsasən tərkibi seçilmiş zadəganlardan, əyanlardan və şah nəslindən olan gənclərdən ibarət idi (68, f.I, 332, s.94; 341, s.34). Sebeosun məlumatına görə Alban dövləti «çoxlu miqdarda orduya və qarnizonlara malik idi» (81, b.III, f.37; 332, s.94; 341, s.34). İlkin orta əsr müəllifləri Yeqişenin, M.Xorenasinin, Asoqikin məlumatlarından aydın olur ki, alban dövlətinin ordusunun əsgərlərinin sayca miqdarı on minlərdən də çox olurdu (68, f.III, 76, k.II, f.8,9: 84, k.I, f.5; 332, s.94; 341, s.34). Bu məlumatı təsdiqləyən alban tarixçisi M.Kalankaytuklu (79, k.I, f.12; 29; 332, s.94; 341, s.34), əsərinin başqa bir yerində alban ordusunun əsgərinin «… miqdarının 30 mindən» çox olduğunu göstərir (79, k.I, f.12; 341, s.77). Tarixçi Yeqişe öz əsərlərində məlumat verərək yazır ki, albanlar «vuruşmağa gedən zaman özləri ilə keşişləri və dini kitabları aparırdılar» (68, f.I; 332, s.94; 341, s.34).

İlkin orta əsrlərdə Albaniya dövlətinin tarixi inzibati-ərazi bölgüsünün quruluşu, bir sıra ilkin orta əsr müəllifləri tərəfindən qeyd olunmuşdur (341, s.35-37; 341a, s.99). Erkən orta əsr tarixçiləri –Aqafanqel, Koryun, F.Buzandasi, A.Şirakasi, M.Xorenasi, Gevond və Vardanın verdikləri məlumatlardan aydın olur ki, Alban dövləti vilayətlərə bölünmüşdü (65, s.115; 11, s.17,19, 20; 761, k.II, f.74; k.III, f.54; 82 f.21; 73s.40). Bu məlumatı alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k.I, f.21; k.II, f.10, 11, 14, 17, 22, 36, 37). Coğrafiyaçı A.Şirakasinin verdiyi məlumatdan bəlli olur ki, Alban dövləti eyni zamanda nahiyələrə də bölünmüşdü (11, s.17, 19, 20; 341, s.36). Digər tarixçi – Vardandan məlum olur ki, Albaniya okruqlara da bölünmüşdü (73, s.40; 341, s.36).

İlkin orta əsr tarixçiləri Koryupun və F.Buzandasinin məlumatına görə ilk orta əsrlərdə Albaniya vilayətlərə bölünmüşdü (69, s.19; 87, k.III, f.3; k.IV, f.13, 50; 341, s.36).

İlkin orta əsr müəllifləri Aqafanqelin, F.Buzandasinin, M.Xorenasinin verdiyi məlumatlardan aydın olur ki Albaniya dövləti həmçinin ayrı-ayrı knyazlıqlara da bölünmüşdü (87, k.IV, f.50; 65, s.115; 76, k.II, f.8, 341, s.36).

Uti ilkin orta əsr müəllifi M.Xorenasi tərəfindən vilayət kimi qeyd olunur (76, k.II, f.55, 74; 341, s.36) və bu məlumatı, eyni zamanda alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k.I, f.6; 17; k.II, f. 10, 17, 36, 37). İlkin orta əsr coğrafiyaçısı A.Şirakasi öz əsərində Utinin nahiyə olduğunu qeyd edərək onu aşağıdakı vilayətlərə bölür: Aranrot, Tri, Rotpasian, Aque, Tuçkatak, Qardman, Şakaşen (11, s.20; 341, s.36). A.Şirakasi Uti nahiyəsinin Araz çayının qərbində Arsax ilə Kür çayı arasında yerləşdiyini göstərir (11, s.20; 341, s.36). A.Şirakasinin məlumatlarından aydın olur ki, alban dövlətinin vilayətlərindən biri də Qardman vilayəti idi (11, s.17; 341, s.36). Bu məlumatı eyni zamanda alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k.II, f.17, 22; 341, s.36). Lakin erməni coğrafiyaçısı A.Şirakasi anarxizmə yol verərək bu vilayətin Ermənistanın tərkibində olduğunu söyləyir (17, s.17; 341, s.36). İlkin orta əsr tarixçisi M.Kalankaytuklu öz əsərində məlumat verərək Qardmanın ilk orta əsrlərdə Alban dövlətinin tərkibində olduğunu göstərir (79, k.II, f.22; k.III, f.23;341, s.36). Qardman vilayəti başçıya da malik idi. Bu vilayətin alban şahı III Vaçaqan dövründə Vardan adlı başçısı var idi (79, k.III, f.22, k.III, f.23; s.341, s.36). M.Xorenasinin verdiyi məlumatdan aydın olur ki, Mesrop Maştos dövründə bu vilayətin başçısı Xurs olub (76, k.III, f.60; 341, s.76).

Qardman vilayətinin alban dövlətinin tərkibinə daxil olmasını eyni zamanda ilkin orta əsr tarixçiləri F.Buzandasi və Vardan da yazırlar (87, k.III, f.60; 73, s.52; 341, s.36). Qarqar da Albaniya dövlətinin vilayəti kimi orta əsr tarixçisi Vardan tərəfindən qeyd olunur (73, s.52; 341, s.36).

İlkin orta əsr tarixçisi Yeqişenin məlumatından aydın olur ki, Alban dövlətinin vilayətlərindən biri də Lpin vilayəti idi (68,

f.I, IV; 341, s.36-37). Bu məlumatı eyni zamanda alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir(79, k.II, f.14; 341, s.37).

İlkin orta əsr müəllifi F.Buzandasi Cora-Çoqanı Alban dövlətinin vilayətlərindən biri kimi göstərir (87, k.IV, f.50; 341, s.37). Lakin Yeqişe tərəfindən Cora-Çoqa ölkə kimi qeyd olunur (68, f.III; 341, s.37). Bu məlumatı eyni zamanda alban tarixçisi M.Kalankaytuklu da təkrar edir (79, k.II, f.14; 341, s.371). Bundan əlavə, Yeqişenin verdiyi məlumatdan bəlli olur ki, Cora (Çoqa) özünün hakiminə malik idi (68, f.III; 341, s.37). İlkin orta əsr tarixçisi F.Buzandasi öz əsərində Arsax haqqında məlumat verərək onun təbii şəkildə möhkəmləndirilmiş vilayət olduğunu göstərir (87, k.IV, f.50; 341, s.37). İlkin orta əsr coğrafiyaçısı A.Şirakasi Arsaxın nahiyə olduğunu göstərərək, o cümlədən aşağıdakı vilayətlərə bölür: Miyus-Haband, Vakunik, Baradzor, Böyük-Kuank, Böyük-İrank, Xarqlank, Muxank, Pisak, Panskank, Sisakan-vostan, Kusti-Parnay və Kolt (11, s.19; 341, s.37). Arsax nahiyəsi Sünik vilayəti ilə həmsərhəd idi. Coğrafiyaçı A.Şirakasi Paytakaranın da nahiyə olduğunu göstərərək, onun aşağıdakı vilayətlərdən ibarət olduğunu qeyd edir: Hrakot-Peroz, Vardanakert, Yeotnopakiyan-Baqnik, Rotiboğa, Baxanrot, Arospijan, Qani, Atli, Baqavan, Spandaran-Peroj, Ormizd-Peroj, Alevon (11, s.19; 341, s.37). A.Şirakasinin verdiyi məlumatdan aydın olur ki, Paytarakan nahiyəsi Uti nahiyəsindən şərqdə, Araz çayının sahillərində yerləşirdi (11, s.19; 341, s.37). Coğrafiyaçı A.Şirakasi Balasakanın da vilayət olduğunu göstərir (11, s.17; 341, s.37). İlkin orta əsr tarixçisi F.Buzandasi eyni zamanda Şakaşenin vilayət olduğunu yazır (87, k.IV, f.13; 341, s.37). M.Xorenasinin verdiyi məlumata görə isə Kaspi ölkə idi (76, k.II, f.53; 341, s.37). Bu məlumatı həmçinin alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k.I, f.27; 341, s.37). F.Buzandasinin verdiyi məlumatdan aydın olur ki, alban dövləti ərazisində Haband adlı vilayət var idi (87, k.III, f.6: 341, s.37). Öz növbəsində ilkin orta əsr tarixçisi M.Xorenasi Haband vilayətini kiçik Sünik adlandırır (76, k.III, f.3; 341, s.37).

Yuxarıda göstərilən nahiyələrdən əlavə erməni coğrafiyaçısı A.Şirakasinin verdiyi məlumatdan aydın olur ki, Albaniya döv-

ləti aşağıdakı nahiyələrə də bölünmüşdü: Yexin, Beh, Kambecan, Şake, Vostan Marspan, Daşti-Balasakan. Bunlardan əlavə coğrafiyaçı A.Şirakasinin məlumatına görə albanlar ermənilərdən Şakaşen, Qardman, Kolt, Zarle və daha 20 vilayət, Araz çayının Kürə töküldüyü yerə qədər olan ərazidə yerləşən yerləri almışlar (11, s.17; 341, s.37). Yuxarıda göstərilən erməni tarixçilərinin verdikləri məlumatlardan əlavə, alban tarixçisi M.Kalankaytuklunun əsərində olan məlumatdan aydın olur ki, Qəbələ alban dövlətinin vilayətlərindən biri olmuşdur (79, k.II, f.36; 341, s.38).

Albaniya dövlətinin ilkin orta əsrlərdə kilsə-dini ərazi bölgüsünün quruluşu haqqında məlumat da öz növbəsində nəzər-diqqəti cəlb edir. Bu haqda məlumatı az da olsa əsasən ilkin orta əsr tarixçisi M.Kalankaytuklu öz əsərində saxlamışdır. Onun əsərində verilən qiymətli məlumatdan aydın olur ki, Albaniya ilkin orta əsrlərdə yepiskopluqlara bölünmüşdü və onların hər birinin başında yepiskop dururdu (79, k. I, v. 26; k. II, V. 7; 341, s. 38.).

Onu da qeyd etmək lazımdır ki, çoxsaylı antik, ilk orta əsr yazılı qaynaqlarda əks olunan, bizə gəlib çıxan və tədqiqatçılar tərəfindən Albaniyanın antik, ilk orta əsrlərdə yaşamış çoxlu dini, ictimai alban şəxs adlarının (Ərbak, Ərnək, Əmbak, Parnak, Kornak, Qonaq, Xoçkarik, Pyorok, Asprakos, Bakur, Naraxçan, Arotan, Xosgen və sair), eyni zamanda alban şahlarının adlarının (Zober, Oroyus, Kozis, Urnayr, Asay, Vaçe, Vaçaqan və sair) üzərində aparılmış etimoloji izahlar, təhlillər göstərir ki, onlar türkmənşəli adlardır (217v, s.176-180, 182-183, 186; 304a, s.352, 380-383).

Beləliklə, ilkin orta əsr yazılı qaynaqlarının araşdırılması və tədqiqi göstərir ki, Albaniya dövləti tədqiq olunan dövrdə nahiyələrə, vilayətlərə, okruqlara, knyazlıqlara və sair kimi tarixi inzibati-ərazi bölgülərinə malik idi. İlkin orta əsrlərin yazılı qaynaqlarının araşdırılması və tədqiqi eyni zamanda ilkin orta əsrlərdə Alban dövlətinin kilsə-dini ərazi bölgüsünə–yepiskopluğa malik olduğunu və onların başlarında yepiskoplar durduğunu bizə qeyd etməyə imkan verir.

Beləliklə, ilkin orta əsrlərdə Albaniyada istehsal qüvvələrinin, istehsal münasibətləri xarakterinin araşdırılması və tədqiqi

göstərir ki, Albaniya dövlətində tədqiq olunan dövrdə feodal istehsal münasibətlərinin yaranması, inkişafı dövrü olmuşdur. Araşdırmalar göstərir ki, bu dövrdə yeni feodal torpaq formalarının (şahlara məxsus, nəsildən-nəslə keçən dövlət torpaq mülkiyyəti, kilsə torpaq mülkiyyəti, əyanların, zadəganların, iri feodalların, azatların torpaq mülkiyyəti) meydana gəlməsini və ağalıq edən feodal qrupunun nomenklaturasının yaranmasını, digər zəhmətkeş təbəqəsinin (kəndlilər, sənətkarlar, tacirlər, balıqçılar, sadə adamlar, başçılar) meydana çıxmasını görürük.

Tədqiq olunan dövrdə yuxarıdakı yazılı mənbələrin məlumatlarının araşdırılması və tədqiqi sübut edir ki, qədim Albaniyanın müstəqil dövlətçilik ənənələrini davam etdirərək, ilkin orta əsrlərdə də Albaniya müstəqil dövlətə, müstəqil şahlara malik olub, müstəqil siyasət aparan suveren dövlət idi.

Beləliklə, ilkin orta əsr yazılı mənbələrində olan məlumatlarda gətirilən sənədlərə, faktlara əsaslanaraq Albaniyada tədqiq etdiyimiz dövrdə ölkədə dövlətin siyasi strukturunun əsas qayəsini müəyyənləşdirmək mümkündür. Tədqiq etdiyimiz dövrdə Albaniya feodal dövləti müstəqil, suveren dövlət olaraq iri feodal zümrəsinə, iyerarxiyasına və dini feodal əyanları zümrəsinə əsaslanan, müstəqil şahlara malik olan (özünün paytaxtı, silahlı qüvvəsi–ordusu, bayrağı, möhürü, məhkəməsi) dövlət quruluşundan ibarət, müstəqil bir feodal dövlət idi.

VI FƏSİL

ALBANİYANIN İLK ORTA ƏSRLƏRDƏ DİNİNƏ DAİR

İlkin orta əsrlərdə Albaniyada din və dini görüşlər başqa ölkələrdə olduğu kimi əsasən siyasi quruluşun və siyasi tarixin ayrılmaz bir hissəsi kimi inkişaf etmişdir. Məhz buna görə də yazılı mənbələrdə siyasi tarixə dair məlumatlar və materiallar dini materiallarla üst-üstə düşür və eynilik təşkil edir.

Tədqiq etdiyimiz dövrdə Albaniyada din və dini baxışlar problemi Albaniyanın ilkin orta əsrlər tarixinin öyrənilməsində böyük əhəmiyyətə, marağa və nəzər-diqqətə malikdir.

İlkin orta əsr dini problemi hələ də tam lazımi, hərtərəfli öyrənilməmiş, elmi araşdırılmamış və öz yeni həllini gözləyir. Bununla bərabər qeyd etmək lazımdır ki, Qafqaz Albaniyasının dini və dini baxışları «Azərbaycan tarixi» toplusunda, K.V. Treverin, Z.İ.Yampolskinin kitablarında, Ə.Ələkbərovun, İ.M.Vahidovun, İ.İ.Meşaninovun, İ.P.Petruşevskinin, T.M.Məmmədovun, R.Göyüşovun və b. əsərlərində ümumi şəkildə xarakterizə edilmişdir (bu haqda daha ətraflı I fəsildə verilmişdir).

Din qədimdə, sinifli cəmiyyətdə, eyni zamanda ilkin orta əsrlərdə başqa ölkələrdə olduğu kimi Albaniyada da kütlələri mənəvi əsarətdə saxlamaq aləti olmuşdur. Başqa dinlər kimi, o cümlədən xristianlıq da Albaniyada kütlələri mənəvi əsarətdə saxlamaq aləti idi. Xristian ruhaniləri və iyerarxiyası ölkədə yaşayan xalqı şaha və feodallara tabe olmağa çağırırdılar.

Başqa dünya ölkələrində olduğu kimi Qafqaz Albaniyasında da müxtəlif formalarda ilk dini təsəvvürlər və baxışlar olmuşdur. İlkin orta əsrlərdə xristian dininin qəbul edilməsi dövrünə qədər albanlar və Albaniyada məskun olan digər tayfalar böyük allahlara: Günəş allahına, Göy allahına, Ay allahına və digər səma cisimlərinə inanır və sitayiş edirdilər (45, s. 221; 341a, s.116).

Albaniyada zərdüşt və xristian dininin qəbul edilməsinə qədər ölkədə yaşayan əhali arasında təbiət qüvvələrinə – suya, oda, torpağa, günəşə və s. inam və sitayiş geniş yayılmışdır (419, s. 16-24; 495, s. 40-41; 498, s. 17-19; 341 a, s.116).

Albaniyada baş allahlardan başqa eramızın I əsrində kiçik allahlara da sitayiş və inam var idi. Albaniyada yaşayan albanlar və digər yerli sakinlər müxtəlif təbiət qüvvələrini, bitki, heyvanat aləmini ilahiləşdirir, ayrı-ayrı heyvanlara, quşlara, ağaclara, müxtəlif bitkilərə və s. sitayiş edirdilər (419, s. 18-27; 495, s. 40-41; 402, c. I, s. 242; 341 a, s. 116). Bütün yuxarıda göstərilən dini baxışlar, inamlar nəinki atəşpərəstlik, xristianlıq dininin, islamın tam hökmran olduğu dövrlərdə, hətta bu gün də əhali arasında qalmaqdadır (419, 132; 256; 495).

İlkin orta əsr müəllifləri Aqafanqel, Koryun və Yeqişenin verdikləri məlumatlardan aydın olur ki, Albaniyada xristian dini qəbul olunana qədər orada yaşayan əhalinin bir hissəsi bütpərəst olmuşdur (65, s. 117; 69, 19; 98, f. III; 341, s. 47). Albaniyada bütpərəst dininə aid məbədlər mövcud idi və bu məbədlərdə bütpərəst kahinlər fəaliyyət göstərirdilər (65, s.117; 69, s. 19; 68, f. III; 341, s. 47). Bu tarixçilərin yuxarıda göstərilən yazılı məlumatlarını təsdiq edən alban tarixçisi M.Kalankaytuklu öz əsərində yazır ki, Albaniyada bütpərəstlik geniş yayılmışdır (79, k. I, qr. 27; 341, s.47).

Yuxarıda göstərilən yazılı mənbələrin bütpərəstlik və bütpərəst məbədlərin varlığı haqqında məlumatları arxeoloji axtarışlar zamanı əldə olunmuş materiallar da təsdiq edir. Azərbaycanın bir çox bölgələrinin ərazisindən məbədlərin qalıqları aşkar edilmişdir (219; 227, s. 80,84; 229, s. 20).

Görkəmli tarixçi Z.İ.Yampolski Albaniyanın ərazisində mövcud olmuş məbəd və məbəd təsərrüfatına həsr etdiyi monoqrafiyasında tarixi faktlara əsaslanaraq belə nəticəyə gəlmişdir ki, bu məbədlərin özlərinin böyük təsərrüfat sahələri olmuşdur. Məbədlərin başında kahin dururdu, məbədlərin təsərrüfat işlərini əsasən məbəd qulları görürdü. Məbədlər Albaniyanın ictimai-siyasi həyatında olduqca böyük rol oynayırdı (495, s. 39, 40, 41, 88-93).

Yuxarıda göstərilən ilkin orta əsr yazılı mənbələrin çoxallahlılıq, müxtəlif dini baxışlara inam, bütpərəstlik, atəşpərəstlik və s. haqda verdiyi bilgini Albaniyada arxeoloji materiallar, faktlar da, xüsusən qəbir abidələrinin və dəfn mərasimlərinin tədqiqi öyrənilməsi də təsdiq edir. Arxeoloqlar tərəfindən ta qə-

dim zamanlardan xristian dininin meydana gəlməsinə qədər olan dövrdə 10-dan çox dəfn mərasimi və eyni miqdarda qəbir tipinə təsadüf olunmuş və tədqiq edilmişdir. Albaniyada ta qədim zamanlardan xristianlıq dövrünə qədər aşağıdakı qəbir tipləri aşkar olunmuşdur: kurqanlar, sadə torpaq qəbirlər, təknə qəbirlər, təknə formalı saxsı sarkafaq qəbirlər, daş qutu qəbirlər, vanna tipli qəbirlər, katakomba qəbirlər, küp qəbirlər, çiy və bişmiş kərpicdən hörülmüş qəbirlər (219, s. 19-20; 227, s. 80-84; 229, s. 16; 401 a, s. 44-61).

İlk orta əsr alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, ilkin orta əsrlərdə Albaniyada cadugərlər, sehrbazlar, kahinlər var idi ki, onlar qurbankəsmə mərasimlərini həyata keçirirdilər (79, k.I, f. 17). Qurbankəsmə mərasimlərinin həyata keçirildiyi yerlərdə, qurbangahlar, bütxanalar, məbədlər inşa edilirdi. Onlar əsasən Arsaxın qalın meşələrində, ölkənin hündür bağlarında və həmişəyaşıl düzlərində inşa olunurdu (79, k.I, f. 17).

Qurbankəsmə mərasimi aşağıdakı şəkildə məlum olan formalarda həyata keçirilirdi: heyvanları ocaqda qızardıb, əvvəlcə onların başları ilə birlikdə dərilərini soyur, sonra onun içini saman, otla doldurub, ağacdan – hündür bir yerdən asırdılar. İnsanı qurbankəsmə mərasimi isə iki formada icra olunurdu: dərisini soyduqdan sonra başını kəsirdilər və ya öldürürdülər, ikinci halda isə zəhərləyib öldürürdülər (54, II,4,7; 451, s. 151; 495, s. 195 və s.). Albaniyada qurbankəsmə mərasiminin və qurbankəsmənin olmasını arxeoloji materiallar və qazıntılar da təsdiq edir (202, s. 91-94; 146, s. 245; 196, s. 247).

Xristian dini sinifli cəmiyyətin başqa dinləri kimi, o yerdə yayılırdı və inkişaf edirdi ki, orada ictimai-iqtisadi mühit, daha doğrusu, özündən qabaqkı formasiya – ibtidai-icma quruluşu dağılmaqda olsun. Yaranmaqda, ayrılmaqda olan feodal-zadəgan təbəqəsi cəmiyyətdə, ölkədə öz hökmranlığını və hakimiyyətini möhkəmlətmək üçün yeni mütərəqqi dini baxışlardan həmişə bacarıqla istifadə etmişdir. İlkin orta əsrlərdə Albaniyada feodal münasibətlərinin yaranması və inkişafı, ölkədə xristian dininin yayılmasına gözəl şərait yaradırdı.

Xristian dininin Albaniyaya daxil olması və yayılması haqqında ilkin məlumat yazılı mənbələrdə eramızın II əsrində olduğu göstərilir (79, k.I, f.6). Eramızın II əsrində xristian missionerləri, xristian dininin Albaniyada da əhali arasında yayılmasına təşəbbüs göstərdilər (341, s. 48). Xristian dinini səylə, çalışqanlıqla Albaniyada təbliğ edən, ənənəvi məlumata əsasən, müqəddəs Faddeyin şagirdi Yeqişe olmuşdur. Alban tarixçisi M.Kalankaytuklu bu haqda öz əsərində belə yazır: «Bundan sonra Yeqişe Qüdsün birinci patriarxı Ağamızın qardaşı müqəddəs Yakovun (Yaqub) tövsiyəsiylə müqəddəs Ruh naminə Şərqə təyin edilir. Yeqişe öz sərəncamına Şərqi (Albaniyanı) alır. Qüdsdən ayrılıb İrana gedir və oradan ermənilərin gözündən qaçaraq Maskut elinə keçir. Öz təbliğini o, Çolada başlayır və müxtəlif yerlərdə şagird toplayaraq, onlara xilaskarı (İsanı) andırmağa çalışırdı. Oradan o, üç nəfər şagirdi ilə Uti vilayətində olan Srxarana gedir» (79, k. I, f. 6; 341, s. 48). Xristian dinini – müqəddəs Yeqişe Albaniyada təbliğ edərkən onun şagirdlərindən biri yerli əhali tərəfindən qətlə yetirilir—şəhid olur, lakin buna baxmayaraq «Müqəddəs (Yeqişe–*T.M.*) – ilk xristian dininin təbliğatçısı Gisə gəlir, burada kilsə tikir və qansız qurban verir. Bu yer Şərqin bütün kilsələrinin və şəhərlərin başlanğıcıdır və biz Şərqlilərə xristianlığın qəbul edilməsi mənbəyidir» (79, k. I, f. 6; 341, s. 48).

Bundan sonra, alban tarixçisinin məlumatına görə, Müqəddəs Yeqişe Zərqun dərəsinə gedir və oradaca onu bütpərəstlər qətlə yetirirlər, şəhid olur (79, k.I, f. 6; 341, s. 48). Alban şahı Mömin III Vaçaqanın hakimiyyəti dövründə onun cəsədi tapılıb dəfn olunur, qəbiri üzərində kiçik bir kilsə inşa edilir (79, k.I, f. 7). Beləliklə, eramızın II əsrində Müqəddəs Yeqişe Albaniyanın «şərq» hissəsində xristian dinini yaydı və bu din ilə maarifləndirdi (79, k. I, f. 9). Alban tarixçisi bu məlumatı verərkən Albaniya ərazisinin şimal hissəsini nəzərə aldığını göstərmək lazımdır.

Qafqaz ilkin orta əsrlərdə iki böyük dövlətin – Bizans və Sasani dövlətlərinin kəskin mübarizə meydanına çevrilmişdi. Bu mübarizəyə bütün Qafqaz xalqları, o cümlədən Albaniya dövləti də cəlb olundu. Bu dövrdə Bizans dövlətində xristian dini ağalıq edirdi.

Alban dövlətinin ərazisində xristian dininin yayılmasında Bizans imperiyasının böyük rolu olmuşdur. Qafqazda özlərinin siyasi-ictimai mövqelərini möhkəmlətmək və xristian dinini yaymaq məqsədi ilə Bizans imperatorları Albaniya ərazisinə tez-tez xristian dini missionerlərini göndərirdilər.

Beləliklə, Albaniyada xristian dinini yaymaq üçün biz Bizans imperiyasında ocaq olduğunu görürük.

Bizans imperiyasının ərazisində yayılan xristian dini Albaniya dövlətinin ərazisinə daxil olmağa başladı. IV əsrin əvvəllərində xristian dinini rəsmi şəkildə alban feodalları, zadəganları alban şahı Urnayr başda olmaqla qəbul etdilər. Bundan sonra bu din güclə Albaniyada yaşayan bütün əhali arasında yayılmağa və təbliğ edilməyə başlandı.

Xristian dini Albaniyada feodal zümrəsinin və şəhər zadəganlarının gücü ilə yayılmağa başladı. Bu qrupların və torpaq sahiblərinin mənafeyinə uyğun olaraq, onların arzusu ilə fəal surətdə Albaniyada xristian dini təbliğ edilməyə başladı.

Xristian dini Albaniyada yayılarkən bir tərəfdən atəşpərəstlik, manixeyçiliklə, digər tərəfdən isə aşağı təbəqənin dini görüşləri ilə mübarizə aparırdı.

İlkin orta əsr mənbələrinin verdikləri məlumata görə xristian dini ilk dəfə dövlət dini kimi IV əsrin əvvəllərində Valarşapad şəhərində alban şahı Urnayr və alban feodalları, əyanları, zadəganları tərəfindən qəbul olundu, onlar Müqəddəs Qriqori tərəfindən xaçaquran olundular. Bundan sonra Albaniyanın əhalisi özlərinin şahı Urnayr vasitəsilə xristian dinini qəbul etməyə başladı. Bu haqda bizə ilkin orta əsr tarixçiləri Aqafanqel, Ayrivanesi və alban tarixçisi M.Kalankaytuklu geniş, hərtərəfli məlumat verirlər (65, s. 114-117; 133-135; 78, s. 45; 79, k. I, f.9, 11; 341, s. 50). İlkin orta əsr alban tarixçisi bu haqda öz əsərində belə yazır: «Müqəddəs Qriqorinin vasitəsilə o (Urnayr) təzədən dünyaya gəlmiş, Müqəddəs Ruhla örtülmüş və albanları imana gətirmişdir. O, əbədi işığın oğlu kimi yaşamış və axırda insan həyatını tərk etmişdir» (79, k. I, f. 9; 341, s.50). Alban tarixçisinin bizə verdiyi digər məlumata görə, xristian dinini qəbul etdikdən sonra «Urnayr aldığı hədiyyələrlə vətəninə – Albanlar ölkəsinə qayıtdı. Burada o, havarilərin qanunları əsasında əha-

liyə dərs verir və xaçpərəstliyə daxil edirdi. Camaat hamılıqla lazım olan mərasimdən keçirildi və adları həyat Kitabına yazıldı. Ölkədə olan iblislər qovuldu, qurbanlar və hədiyyələrin yandırılması adəti ləğv olundu, günahlar lənətləndi, həqiqət yüksəldi, gözə görünməyən Nur hökm sürdü, zülmət isə aradan götürüldü. Kilsənin payları və barları müəyyən olundu; xırman və şirəxanalardan, tarla və ərzaq anbarlarından toplanan və bütün ev heyvanlarından – onda bir hissəsi, Kilsənin payına torpaq da düşdü» (79, k. I, f. 11; 341, s. 50). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumata görə, Müqəddəs Qriqori Albaniyadan gələnlər üzərində dini mərasim – xaçaquranı apardıqdan sonra: «Şeytanın və onun bütün əməllərindən üz döndərib Müqəddəs Üç Uqnuma iman gətirmələrinin əllinci günündə Urnayr və onun bütün adamları müqəddəs suya girdilər (79, k. I, f. 11; 341, s. 50).

Bundan sonra Müqəddəs Qriqori tərəfindən Albaniyaya, Gürcüstana, Abxaziyaya və s. ölkələrə xristian dini təlimlərini öyrətmək üçün, kilsələr inşa etdirmək məqsədi ilə yepiskoplar göndərildi (65, s. 135; 341, s. 51). Albaniyaya Qriqori tərəfindən balaca alban şəhəri Sataldan olan Foma adlı bir nəfər göndərildi (65, s. 135; 341, s. 51). Bu haqda alban tarixçisi K.Qandzakasi də məlumat verir (83, s. 182; 341, s. 51).

Bundan sonra Albaniya ərazisində bütpərəstlik zamanı tikilən məbədlər dağıdıldı və məbədlərdə olan kahinlər güclə xristian dinini qəbul etdilər (65, s. 117; 341, s. 51).

İlkin orta əsr tarixçilərinin verdiyi məlumatlara görə Albaniyada ilk kilsənin başçısı müqəddəs Qriqorinin nəvəsi Qriqoris olmuşdur. Qriqorisin Albaniyaya yepiskop kimi gəlməsi haqqında M.Xorenasi məlumat verərək göstərir ki, alban hökmdarları erməni hökmdarı Trdatın yanına gəlib ona dedilər: «Əgər mümkündürsə bizim vilayətlərdə dini yaymaq və möhkəmlətmək xatirinə, arzu edirik ki, bizə Müqəddəs Qriqorinin nəslindən bir yepiskop göndərəsən… hörmətli Trdat bununla razılaşaraq ora Vartanesin oğlu gənc Qriqorisi yepiskop göndərdi» (76, k. III, f. 3; 341, s.51). Bu haqda bizə eyni zamanda ilk orta əsr tarixçisi Asoqik də öz əsərində məlumat verir (84, k. II, f. 1; 341, s. 51). İlk orta əsr alban tarixçisi M.Kalankaytuklunun

məlumatına görə alban şahı Urnayrın ölümündən sonra albanlar erməni hökmdarı III Trdatın yanına gəlib ondan Qriqorinin onların yanına katolikos göndərməsini xahiş etdilər: «Onun (Urnayrın) vəfatından sonra albanlar özlərinə katolikos gənc Qriqorisi seçdilər, çünki hələ çarımız Urnayr Müqəddəs Qriqoridən xahiş etmişdi ki, onu öz ölkəsinə yepiskop təyin etsin (79, k. I, f.9; 341, s. 51). Bununla razılaşan erməni hökmdarı III Trdat Qriqorinin nəvəsi Qriqorisi Albaniyaya yepiskop göndərdi» (79, k. I, f.9; 341, s. 51).

İlkin orta əsr tarixçisi F.Buzandasi öz məlumatında göstərir ki, Qriqoris Albaniyaya gəlib özünün babası Qriqorinin gördüyü işlər nümunəsində onun işlərini ləyaqətlə davam etdirdi (87, k. III, f.5; 341, s. 52). Bu məlumata uyğun olaraq digər ilkin orta əsr tarixçisi M.Xorenasi əlavə olaraq göstərir ki, «Buraya gələn Qriqoris yaxşı nümunə göstərdi, atalarının yolu ilə gedərək müdriklikdə onları da üstələdi və öz ciddi həyat tərzində şaha bərabər idi» (76, k. III, f.3; 341, s. 52).

Yuxarıda göstərilən tarixçilərdən əlavə alban tarixçisi məlumat verir ki, «Qısa müddətdə o (Qriqoris), babasının– Müqəddəs Qriqorinin ikiqat yüksək mənsəbini – taxtla patriarx tacını və saleh əməllərinə görə şahidliyinin ən yüksək mərtəbəsini qəbul edir» (79, k. I, f.17; 341, s. 52). Qriqoris ilkin orta əsr tarixçisi Favstos Buzandasi tərəfindən isə belə xarakterizə olunur: «O, xristianlığın əsl təbliğçisi idi və hamını özünün ciddiliyi, həmçinin dözülməz çətin həyatı ilə valeh edib, heyran qoyurdu» (87, k. III, f. 5; 341, s. 52).

Favstos Buzandasinin verdiyi məlumatdan bizə aydın olur ki, Qriqoris erməni hökmdarına yaxın idi, o və onun qardaşı «erməni şahının gözləri qarşısında tərbiyə olunmuşdular» (87, k. III, f.5; 341, s. 52) və burada oxumağı, yazmağı öyrənmişdi (87, k. III, f. 5; 341, s. 52). Buradan belə nəticəyə gəlmək olar ki, o, alban dilini bilmirdi və xristian dinini başqa dildə təbliğ edirdi. Ola bilsin ki, Suriya dilində.

Belə bir məlumat var ki, Qriqoris Vartanesin oğlu, İsuskin qardaşı Albaniyanın, İberiyanın katolikosu və yepiskopu olmuşdur (87, k.III, f. 5; 341, s. 52). Lakin Qriqorisin Albaniyanın katolikosluğunu qəbul etməsindən əvvəl yepiskop olması

məsələsi aydın deyil. İlkin orta əsr tarixçisi F.Buzandasinin məlumatında bu haqda qeyri-müəyyənlik vardır. «.... Yepiskop Qriqoris... hansı ki, katolikos idi» (87, k. III, f. 5; 341, s. 52). F.Buzandasidən fərqli olaraq alban tarixçisi öz məlumatında göstərir ki, Qriqoris Albaniyanın katolikosu deyil, «Albaniya və İberiya ölkəsinin yepiskopu idi» (79, k. I, f. 14; 341, s. 52). Qriqoris «...on beş yaşında ikən iber və alban ölkələrində yepiskopluq rütbəsinə yüksəlmişdi....» (87, k III, f.5,6; 341, s. 52). Alban tarixçisi M.Kalankaytuklu bu məlumatları dəqiqliklə təkrar edərək, bundan əlavə məlumat verərək yazır ki, «... hər iki ölkədə xristianlığı təbliğ və oralarda onu bərqərar edir. Dinin nizamına və şəhərlərin mövqeyinə görə o, kilsələr tikdirir, keşişləri təyin edib onları müqəddəs yerlərə xidmət etməyə və müqəddəs adamları yada salanda can yandırmağa çağırırdı» (79, k.I, f. 14; 341, s. 52). Alban tarixçisi daha sonra məlumat verərək yazır ki, Qriqoris «İohanın atası, görkəmli maarifçi və şəhid Zaxarinin qanından və Nikomediya şəhərində ömrünü başa vurmuş Müqəddəs Pantaleonun cəsədindən təbərrük götürdü. O, şəhidlərin müqəddəs təbərrükünü alban məmləkətinin nəhəng Siri şəhərinə gətirdi, burada kiçik bir kilsə tikdi, Zaxarinin qanını və Müqəddəs Pantaleonun cəsəd təbərrükünü ora qoydu» (79, k.I, f. 14; 341, s. 52).

İlkin orta əsr qaynaqlarının verdiyi məlumatlara görə Qriqoris öz missioner fəaliyyətini Dərbənd rayonunda maskutlar arasında davam etdirib. Bu haqda ilkin orta əsr qaynağı belə yazmışdır: «Bu ölkələrdə olan bütün kilsələri bərpa edib sahmana saldıqdan sonra o, adı Sanesan olan maskutların Arşagid çarının düşərgəsinə getdi» (87, k. III, f. 6). İlk orta əsr qaynağı daha sonra məlumat verərək yazır: «O (Qriqoris–*T.M.*) saysız-hesabsız Hun ordusunun başçısı Maskut çarının yanına gəlib özünü təqdim etdi və xristian ehkamını onlara təbliğ edərək dedi: «Allahı tanıyın!» (87, k. III, f.6). Qriqorisin missionerlik fəaliyyəti haqqında alban tarixçisi M.Kalankaytuklu da məlumat verərək bu haqda belə yazır: «Özü ilə əxlaqlı və Xristosun (İsanın) əmrlərinə sadiq olan şagirdləri və Müqəddəs Zaxarinin və şəhid Pantaleonun qaxac olmuş cəsədlərinin qalıqlarını götürərək Qriqoris maskutlar ölkəsinə gedib, orada Arşakilərin qohumu olan maskutlar çarı Sanesanın hüzuruna gəlir» (79, k. I, f. 14).

İlk orta əsr qaynaqlarının məlumatlarından aydın olur ki, gənc Qriqorisin maskutlar arasında xristianlıq barədə təbliğatı öncə uğurlu keçib. «Onlar, əvvəlcə, (Qriqorisi) eşidib, onun sözünü qəbul etdilər və ona tabe oldular» (87, k. III, f. 6; 341, s. 52). İlkin orta əsr qaynaqları daha sonra belə yazırlar: «Sonradan onlar (maskutlar–*T.M.*) xristian qanunlarından baş açdıqda öyrəndilər ki, allah talançılığın, vəhşiliyin, qatilliyin, xəsisliyin, özgəsinin əməyini mənimsəməyin, tüfeyliliyin, başqasının əmlakına göz dikməyin əleyhinədir, onda fikirləşdilər və (Qriqorisin) sözlərinə qarşı çıxaraq dedilər: «Əgər biz oğurluq və talançılıq etməsək, özgənin əmlakını əlindən almasaq, onda bu qədər ordunu nə ilə doyuzdura bilərik» (87, k. III, f 6). Gənc Qriqoris min cür xoş sözlərlə onlarda xristian dininə meyil yaratmağa çalışdısa da, onlar Qriqorisi eşitmək belə istəmədilər. «O (Qriqoris–*T.M.*) gəlib ki, öz nitqi ilə bizi xoşbəxtlikdən məhrum etsin, bizə talamağı qadağan etsin, halbuki biz bu talamağa görə yaşayırıq. Əgər biz onu eşidib xristianlığı qəbul etsək, onda nə ilə yaşayarıq» – deyə fikirləşdilər. Onlar deyirdilər ki, bu, erməni çarının öyrətməsidir. Bunu o(erməni çarı – *T.M.*) göndərib ki, ehkamla bizim onun ölkəsinə olacaq dağıdıcı hücumumuzun qarşısını kəssin» (87, k. III, f. 6). İlkin orta əsr qaynağından daha sonra məlum olur ki, onlar gənc Qriqorisi öldürməyi qərara alırlar. «Gəlin onu (Qriqorisi–*T.M.*) aradan götürək və Ermənistan üzərinə hücuma keçək. Çar (Sanesan) da öz fikrini dəyişdi və ordusunun dediklərinə qulaq asdı. Bu zaman onlar vəhşi bir at tutub gənc Qriqorisi onun quyruğuna bağladılar, böyük Şimal dənizi boyunca düzə – öz düşərgələrindən uzaqlara, Vatupan adlı çölə buraxdılar. Beləliklə də, onlar xoş arzulu, xristianlığın təbliğçisi gənc Qriqorisi məhv etdilər» (87, k. III, f.6; 341, s. 53). Bu məlumatları digər ilk orta əsr qaynaqlarının müəlliflərindən M.Xorenasi, Asoqik, Vardan da təkrar edirlər (76, k. III, f.3; 84, k. II, f. 1; 73, s. 43; 341, s. 53). İlk orta əsr alban tarixçisi M.Kalankaytuklu bu haqda məlumat verərək belə yazır: «Orada Qriqoris sözlə təsvir edilə bilməyən vahid yaratdığı Üç Uqnumun qüvvəsini və İlahi Kəlamın təcəssümünü təbliğ edir, yer üzündə İsa tərəfindən yaradılmış çoxlu müxtəlif möcüzələrdən, onun çarmıxa çəkilməsindən, ölümündən və iki

gündən sonra dirilməsindən, bütün vücudu ilə səmaya ucalmasından və sağlarla ölülər üzərində mühakimə etmək üçün Qiyamət günündə qayıtması haqda danışırdı.

Əvvəlcə maskutlar onun təbliğini böyük sevinclə qəbul edirdilər. Lakin qəlblərinə Şeytan daxil olur və onları Allahın xilasedici kəlamlarını rədd etməyə təhrik etdi. Onlar müqəddəsin həqiqətən ibrətamiz sözlərinə, yəni mərhəmətli Allahın əzmi olan: qarət etməmək, oğurlamamaq, özlərinə çörək qazanıb insan kimi zövq almaq və Allahı razı salmaq – bütün bunlara maskutlar böhtan atdılar və dedilər: «Bütün bunlar erməni çarının hiyləsidir, çünki o, özünün ölkəsini bizim qarətimizdən xilas etmək istəyir. Əgər biz qarət etməsək və oğurlamasaq onda biz nə cür dolana bilərik?» sonra onlar öz çarlarını yoldan edib öz hiylələrinə təhrik etdilər. Onlar gənc Qriqorisi xam atın quyruğuna bağlayıb onu Vatinian adlı çölə buraxdılar. Müqəddəs Qriqoris belə şəhid oldu» (79, k. I, f. 14; 341, s. 53).

Beləliklə, yuxarıda gətirilən yazılı qaynaqların məlumatlarından aydın olur ki xristian dini ilkin dövrlərdə (I-IV əsrlərdə) Albaniyada Yerusəlim xristian mərkəzləri vasitəsilə, xristian missionerləri Faddey, Yeqişe, Qriqori, Qriqoris və s. tərəfindən təbliğ edilir və yayılırdı. Bu əsasən aramey, yunan və suriya dilində təbliğ edilirdi. Lakin erkən orta əsrlərdə xristianlıq Albaniyada geniş yayılmadı və möhkəmlənmədi, əhali köhnə dinlərə etiqadı saxlayırdı. Xristian dininə düşmən olan yerli bütpərəst albanlar (türk tayfaları), hun-türk və digər etnoslar köhnə dini etiqadlarını qoruyub saxlamaq məqsədilə xristian dininin təbliğçilərinə hücum edib onları məhv edirdilər. Məhz gənc xristian təbliğçisi Qriqoris də həmin qüvvələr tərəfindən Vatinian çölündə şəhid olundu. İlk orta əsr alban tarixçisi M.Kalankaytuklu Vatinian çölünün Dərbənd yaxınlığında yerləşdiyini göstərir (79, k. I, f. 14; k. II, f. 39). Digər ilk orta əsr qaynağı Qriqorisin tələf olduğu yeri Kaspi dənizinin yaxınlığında yerləşdiyini qeyd edir. Xalq rəvayətinə görə Dərbənd yaxınlığında yerləşən yer (Mollaxəlil kəndi) Qriqorisin adı ilə bağlıdır. Burada yerləşən qülləyə ildə iki dəfə Dərbənd və ətraf yerdən gələnlər ibadətə yığışır, hətta bəziləri bu yerin yaxınlığında basdırılmalarını vəsiyyət edirdilər (314, s. 439; 477, s. 51).

Qriqoris Vatinian çölündə öldürüldükdən sonra onunla birlikdə Haband vilayətindən gəlmiş adamlar Qriqorisin cəsədini götürüb Amarasa gətirdilər, onun babası Qriqori tərəfindən tikdirilmiş kilsənin yaxınlığında onu dəfn etdilər. Bu haqda ilk orta əsr qaynağı belə yazır: «Sonra Haband vilayətindən onunla birlikdə gəlmiş adamlar Qriqorisin cəsədini götürərək alban ölkəsindən Ermənistan sərhədində olan öz vilayətlərinə – Habanda gətirib Amaras adlı kəndə apardılar. Onu birinci böyük Qriqori tərəfindən tikdirilmiş kilsədə dəfn etdilər» (87, k. III, f. 6; 341, s. 53). Kimlər tərəfindən Qriqorisin gətirilməsi və dəfn edilməsini qeyri-müəyyən şəkildə göstərən Favstos Buzandasidən fərqli olaraq, digər ilkin orta əsr qaynaqları – M.Xorenasi və Asoqik Qriqorisin cəsədinin diyakonlar tərəfindən gətirilib Amarasda dəfn edildiyi göstərilir (76, k. III, f. 3; 84, k. II, f. 1; 341, s. 53).

Lakin yuxarıda göstərilən ilkin orta əsr qaynaqlarından fərqli olaraq alban tarixçisi bu haqda belə məlumat verərək yazır: «Onun (Qriqorisin) şagirdləri meyitini tapıb Haband vilayətinin Amaras şəhərinə gətirdilər və o, oradakı kilsənin şimal tərəfində yerləşən sövmədə əbədi rahatlığını tapdı» (79, k. I, f. 14; 341, s. 54). İlkin orta əsr qaynağı daha sonra yazır: «Lakin onun dəfn edilən yeri heç bir işarə ilə qeyd olunmamışdı, çünki şagirdləri qorxurdular ki, ya quldurlar cəsədi məhv edər, ya da başqaları onu götürüb ayrı yerdə basdırarlar. Və bu əhvalatdan sonra çoxlu illər keçdiyi üçün müqəddəs cəsədin harada dəfn olunması hamının yadından çıxmışdı» (79, k. I, f. 20; 341, s. 54).

Qriqorisin dəfn edilmiş cəsədinin yeri, ilkin orta əsr qaynağının məlumatına görə, uzun illərdən sonra Amarasda Albaniyanın şahı III Vaçaqanın dövründə onun tərəfindən tapılmışdır (79, k. I, f. 23; 341, s. 54). Onun əmri ilə Amarasda kilsə tikdirilmiş və Qriqorisin qəbri üzərində sövmə inşa edilmişdir: «Müqəddəsin (Qriqorisin–*T.M.*) qəbri üstündə sövmə tikdirib ona «Müqəddəs Qriqoris sövməsi» adını verdi (79, k. I, f. 23; 341, s. 54). İlkin orta əsr qaynağının verdiyi məlumata görə hər il Albaniyada yaşayan xalqlar bu yerə yığışıb Qriqorisin «qəhrəmanlıq» gününü təntənəli şəkildə xatirə əlaməti olaraq yad edirdilər: «Hər il bu ölkənin və vilayətlərin adamları bura topla-

şaraq onun qəhrəmanlıq gününü təntənəli surətdə qeyd edirdilər» (87, k. III, f.6).

Yuxarıda göstərilənləri təsdiq edərək, ilkin orta əsr alban tarixçisi M.Kalankaytuklu məlumat verərək göstərir ki, Qriqorisin qəbri Amarasda çox müqəddəs yer hesab edilirdi. Uşağı olmayan qadınlar bura ziyarət etdikdən sonra onlar ana olurdular, başqa xəstəliklərə düçar olmuş adamlar sağalıb şəfa tapırdılar (79, k. I, f. 22; 341, s.54). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumata görə, Qriqorisin vəfatından sonra Albaniya əhalisi «...yenə də bütpərəstliyə qayıdır və xristianları təqibə başlayırlar» (79, k. I, f. 21, 27; 341, s. 54).

Albaniyanın ərazisində xristian dininin geniş yayılmasında alban şahlarının, katolikoslarının xüsusi rolları olmuşdur. Alban hökmdarları, katolikosları, ölkənin ərazisində kilsələr, monastırlar, dini məbədlər, sövmələr və s. inşa etdirirdilər. Alban şahları və katolikosları xristian dininə məxsus məbədləri, monastırları, kilsələri, sövmələri əsasən xristian dinindən əvvəl mövcud olan köhnə ibadətgahların, məbədlərin yerləri üzərində inşa edirdilər (495. s. 41; 498, s. 19; 451. s. 297). Albaniyanın ərazisində, xüsusən Böyük Qafqaz və Kiçik Qafqaz dağlarının ətəklərində xristian dini ilə əlaqədar çoxlu memarlıq abidələri mövcuddur.

İlkin orta əsr qaynaqlarının verdikləri məlumatlara görə, Albaniyanın ərazisində ilk orta əsrlərdə xristian dininə aid dini məbədlər, monastırlar, kilsələr, sövmələr mövcud olmuşdur. İlkin orta əsr qaynaqları Favstos Buzandasi, Yeqişe, Koryun, Gevond və Ayrivanesi Albaniya ərazisində ilk orta əsrlərdə kilsələrin mövcud olduğunu göstərirlər (87, k. III, f. 5,6; 68, f. III, 69, s. 19; 82, f.X; 78, s. 49; 341, s.69). Bu məlumatı, eyni zamanda ilkin orta əsr alban tarixçisi M.Kalankaytuklu da öz məlumatları ilə təsdiq edir (79, k. I, f. 6, 14, 16, 20, 23, 26, 27; k. II, f. 4, 48; 341, s. 69). İlkin orta əsr qaynaqlarının verdiyi məlumata görə, Albaniyada kilsələr Qriqorisdən öncə mövcud idi. Qriqoris Albaniyaya gəlib fəaliyyət göstərdiyi zaman mövcud kilsəni yenidən bərpa etdi (87, k. III, f. 5; 341, s. 69). İlkin orta əsr qaynağının yazdığına görə, Müqəddəs Qriqoris Albaniyada katolikosluq rütbəsini qəbul etdikdən sonra ölkənin «… şəhərlərində, kəndlərində kilsələr inşa etdirdi» (87, k. III, f. 6; 341, s. 69). İlk

alban kilsəsi Albaniyada Qriqorisin babası «Müqəddəs» Qriqori tərəfindən Arsaxda Amare kəndində inşa edilmişdir (87, k. III, f. 5; 341, s. 69). Belə bir məlumatı ilk orta əsr qaynağı alban tarixçisi M.Kalankaytuklu da öz əsərində saxlamışdır (79, k. I, f. 20; 341, s. 69). Qriqoris Albaniyanın Siri şəhərində «… balaca bir kilsə inşa etdirdi və sonra ora çox böyük həssaslıqla Zaxarinin qanının bir hissəsini və Müqəddəs Pantaleonun qaxımış cəsədinin bir hissəsini ora qoydu» (79, k. I, f.14). Hələ Qriqorisdən çox əvvəl başqa bir «müqəddəs» Yeqişe Albaniyaya gəlib xristian dinini təbliğ etmiş və orada – daha dəqiq Gis kəndində kilsə tikdirmişdir. «Həmin kilsə Şərq kilsələrinin anası, yəni metropoliya idi» (79, k. II, f. 48; 341, s. 70). Sonralar Gisdə olan bu kilsə dağıdılmışdır. Alban şahı Varaz-Peroj dövründə onun tərəfindən «köhnə kilsə bərpa edilmişdir» (79, k. I, f. 27; 341, s. 70).

Müqəddəs Qriqorisin cəsədi tapılandan sonra, deyilənlərə görə, Alban şahı III Mömün Vaçaqan zamanında onun tərəfindən Albaniyada 365 kilsə inşa edilmişdir (78, s.48; 341, s. 70). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumata görə müqəddəs Qriqorisin cəsədinin dəfn olunduğu yer tapıldıqdan sonra alban şahı III Mömün Vaçaqan Amaras şəhərində kilsə və Qriqorisin qəbri üzərində isə sövmə inşa etdirdi (79, k. I, f. 23; 341, s. 70). M.Kalankaytuklunun məlumatlarına görə ilk orta əsrlərdə hər bir alban kəndi kilsəyə malik idi (79, k. I, f.26; 341, s.70).

Xristian dininin Albaniyanın ərazisində ilk orta əsrlərdə olmasını, xristian dininə aid aşkar olunmuş III-VIII əsrlər maddi mədəniyyət qalıqları və tədqiqatları da təsdiq edir.

1948-ci ildə Mingəçevirdə Sudağılan yaşayış yerindən dağılmış xristian məbədləri və onun ətrafından V-VIII əsrlərə aid xristian qəbirləri aşkar edilmişdir (201, s.128-137). Bu xristian qəbirləri dövr, quruluş etibarı ilə iki yerə bölünür: çiy və bişmiş kərpicdən hörülmüş, V-VII əsr ilk xristian qəbirləri (201, s. 128, 135) və torpaqda qazılmış VIII-X əsrlərə aid son xristian qəbirləri (201, s. 128, 136). Albaniya ərazisində ilkin orta əsrlərə aid xristian qəbirləri Qəbələdə (305, s. 7-66), Amarasda (227, s. 80-84; 229, s. 108), Gavurqalada (205, s. 167-183; 224, s. 26-27; 229, s. 109) və eyni zamanda Yelisey (222, s. 394-395; 229, s. 110) kompleksində də aşkar edilmişdir.

Arxeoloq R.B.Göyüşov öz tədqiqatlarında xristian dininə aid olan qəbirləri quruluş etibarı ilə beş yerə bölür (229, s. 108-109).

Albaniyada ilk orta əsrlərə aid arxeoloji qazıntılar zamanı kilsəyə məxsus avadanlıqlar aşkar edilmişdir.

Mingəçevirdə məbədlər ərazisində qazıntılar zamanı çoxlu miqdarda buxurdan və dəmirdən hazırlanmış müxtəlif ölçüdə və quruluşda xaçlar aşkar edilmişdir (299, s.397; 196, s. 85, 94, sə. 5, 15,17; 201, şə.105-108, şə. 28-29). Görkəmli arxeoloq R.M.Vahidov bu dəmir xaçları quruluşuna görə beş yerə bölür (201, s.105-106; 196, s.94) və onların V-IX əsrlərə aid olduğunu göstərir (201, s.107). Mingəçevirdə qazıntılar zamanı kilsə və məbədlərlə bağlı müxtəlif əşyalar arasından məbədlərdə və kilsələrdə ibadət zamanı istifadə edilən, üç nazik zəncirdən asılmış buxurdanların qalıqları aşkar edilmişdir (299, s. 397; 196. s. 94; 202, s. 108).

Arxeoloji qazıntılar zamanı Qəbələdə tapılan misdən hazırlanmış buxurdan mütəxəssislər tərəfindən VII əsrə aid olunduğu qeyd edilir (295, s. 153; 201, s. 108). Buradan eyni zamanda digər bir buxurdanın dəstəyi tapılmışdır (229, s. 118). Gildən hazırlanmış buxurdanlar, qazıntılar zamanı xristian məbədləri ərazilərində –Bərdədə (22., s. 226-227; 229, şə. 119) və Örənqalada (491, s. 285, t.38, şə.1) aşkar edilmişdir. Bundan əlavə Mingəçevirdə xristian məbədlərindən, yaşayış yerlərindən müxtəlif quruluşlu çoxlu miqdarda şamdanlar aşkar edilmişdir. Arxeoloq R.M.Vahidovun fikrinə görə bu şamdanlar əsasən kilsə və xristian məbədlərində ibadət zamanı istifadə edilmişdir və kilsələrə məxsus əşyalardır (201, s. 45-47; t.VIII, şə. 11). Xaçlar daşların (201, s. 106, şə. 30; 196, s.94; 285. s. 928), gil şamdanların və təsərrüfat qablarının üzərində də (201, s.108) həkk olunmuşdur. Mingəçevirdə qazıntılar zamanı xristian məbədinin ərazisində ağac xaçların qoyulması üçün hazırlanan daş bazası (ağac xaç pedestalı) aşkar edilmişdir (299, s. 397; 203, s.133; 468, s. 38; 361, s. 66; 201, s. 140, şə. 32).

Arxeoloji qazıntılar zamanı Albaniyanın ərazisinin digər yerlərindən, ilk orta əsrlərə aid, kilsələrə və xristian məbədlərinə məxsus və orada işlədilən müxtəlif növlü buxurdanlar, şamdanlar, müxtəlif quruluşda və ölçüdə xaçlar, meyit saxlanılan yerlər,

möhürlər, müqəddəslərin şəkilləri həkk olunmuş əşyalar, müxtəlif avadanlıqlar aşkar edilmişdir (229, s. 119-127).

İlk orta əsrlərdə Albaniyada kilsələrdən əlavə monastırlar da mövcud olmuşdur. Onların ölkədə mövcud olması ilk orta əsr qaynaqlarının məlumatlarından aydın olur. Monastırların Albaniyada mövcud olması, orada qadın və kişi rahiblərin yaşaması haqqında məlumatı ilk orta əsr qaynağının müəllifi Yeqişe verir (68, f. II). Bu məlumatı ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k. I, f. 26).

Yeqişe monastırların Albaniyanın harasında yerləşdiyini göstərmir, alban tarixçisi M.Kalankaytuklu isə bu haqda məlumat verərək yazır ki, alban şəhəri Amarasda monastır var idi (79, k.I, f. 10).

İlkin orta əsr alban tarixçisinin verdiyi məlumatdan aydın olur ki, alban kilsələri eyni zamanda Yerusəlimdə də monastırlar inşa etdirmişdilər (79, k.II, f. 52; 374, s. 75). Bu haqda bizə ilk orta əsr alban tarixçisi məlumat verərək, qeyd edir ki, Yerusəlimdə 100-ə qədər alban və erməni monastırı mövcud idi. İlkin orta əsr alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «Qüds şəhərinin baş keşişləri paxıllıqlarına görə albanlarla ermənilərə öz monastırına yardım etməyi qadağan edirdilər, baxmayaraq ki, onların sayı yüzdən yuxarı idi» (79, k. II,f. 52; 374, s. 76,77). İlk orta əsr alban qaynağında albanlar tərəfindən Yerusəlimdə inşa edilmiş 10 monastırın (vənglərin) adları verilmişdir. Onlar aşağıdakılardır. «Zeytun (Ylon) dağının şərq tərəfində yerləşən Papd monastırını Albaniyalı Panon adlı bir rahib tikmişdir… Partav (Bərdə) monastırı … Kalankaytuk monastırı… Arsax monastırı, …Amaras monastırı, ərəblərin əlində olan üç başqa alban monastırlarının adları məlum deyil… Bazar tərəfdən, Aravsank monastırının yanında bir monastır da var» (79, k. II, f. 52; 374, s. 76-77).

Albaniya ərazisində ilk orta əsrlərdə monastırların olması haqqında ilk orta əsr yazılı mənbələrinin yuxarıda göstərilən məlumatlarını ilk orta əsrlərə aid arxeoloji qazıntılar zamanı aşkar olunmuş maddi mədəniyyət qalıqları da təsdiq edir (229, s.88, 89, 127-132). Albaniya ərazisində yerləşən bir sıra monastır kompleksləri arxeoloq R.B.Göyüşov tərəfindən aşkar edilmiş, onun tərəfindən öyrənilmişdir (229, s.88,89, 127-132).

Beləliklə, yuxarıda göstərilən materiallar alban kilsəsinin birbaşa Yerusəlim kilsəsi ilə yaxınlığına və daim əlaqədə olmasına dəlalət edir. Bundan əlavə alban kilsəsinin Yerusəlimdə monastır inşa etdirməsi faktı isə alban kilsəsinin avtokefal müstəqil olmasına gözəl sübutdur. Bu isə özlüyündə ilk vaxtlardan alban kilsəsinin Qafqazda, eləcə də xristian aləmində ən qədim və müstəqil kilsə olmasını göstərir.

İlkin orta əsr yazılı mənbələrinin məlumatlarına görə, Albaniyada kilsə və monastırlardan əlavə qeyri-müəyyən, müqəddəs yerlər də var idi ki, onlar müxtəlif bəzək əşyaları ilə bəzədilirdi. Bu haqda bizə ilk orta əsr qaynağı Yeqişe məlumat verir (68, f. 11). Bu məlumatı bir növ təsdiqləyən ilk orta əsr alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, alban şahı Cavanşir VII əsrdə Girdimanda xristian məbədi inşa etdirmiş və onu çox gözəl şəkildə bəzətdirmişdir. İlk orta əsr alban qaynağı bu haqda belə yazır: «Müdrik Cavanşir İsa Xaçı üçün layiq olan yer axtardı və öz doğma vilayətində – Girdiman qalasında onun üçün Allah evi tikdirdi, İsa peyğəmbər şərəfinə buranı həddindən artıq bəzədi» (79, k. II, f. 27). Qafqaz Albaniyasının ərazisində ilk orta əsrlərdə xristian məbədlərinin, kilsələrinin, sövmələrinin olmasını arxeoloji qazıntılar zamanı aşkar edilmiş maddi mədəniyyət qalıqları da təsdiq edir. A.S.Xaxanov Kaxetiya səfəri zamanı dağlıq yerdə yerləşən Qum kəndinin mərkəzində böyük xristian kilsəsinə məxsus məbədin qalıqlarını öz gözü ilə gördüyünü qeyd edir (463, s.33, 35). Bu məbəd yenidən elmə 1937-1938-ci illərdə D.İ.Şərifov tərəfindən aşkar edilmişdir (479, s.43). Qumda yerləşən bu məbəd P.D.Baranovski tərəfindən tədqiq olunmuş, onun tərəfindən bu məbədin dövrü VI əsrə aid olduğu göstərilmişdir (167, s. 29). 1892-1893-cü illərdə A.Xaxanov tərəfindən Qum kəndindən 8 km aralıda yerləşən Ləkit məbədi aşkar edilmişdir (463, s. 35). Ləkit məbədinin ərazisində P.D.Baranovski müəyyən qədər qazıntı işləri aparmışdır (167, s. 31-33). Bu məbədin dövrünün çətin təyin olmasını qeyd edən P.D.Baranovski belə ehtimal edir ki, Ləkitdə yerləşən məbədi dövr etibarı ilə VII əsrə aid etmək olar (167, s. 33).

Mingəçevirdə 1948–1952-ci illərdə arxeoloq R.M.Vahidov tərəfindən Kür çayının sol sahilində, Sudağılan adlı yaşayış ye-

rində aparılan arxeoloji qazıntılar nəticəsində müxtəlif dövrlərə aid dörd xristian məbədi aşkar edilmişdir (203, s.132, şə. 60;s. 94-104, şə.23-25-27). Bu xristian məbədləri mütəxəssislər tərəfindən əsasən dövr etibarı ilə VI-VII əsrlərə aid edilir (201, s. 113; 196, s. 99-100). Bu xristian məbədlərinin divarları çiy kərpicdən, müxtəlif ölçülü daşlardan hörülmüş, suvaqla malalanmış və memarlıq motivləri ilə bəzədilmişdir (196, s.100, şə.2; 201, s.121, şə.37, 38, 39). Bu daşlar əsasən sütun hissələrindən və dekorativ parçalardan ibarətdir (196, s.99-100, si.8 a,b,v, 9, 10), bu parçalar üzərində böyük ustalıqla bitgi, həndəsi və memarlıq motivləri verilmişdir. (196, s. 99-100, şə. 8 a,b,v,9,10; 201, s.121, şə.37-39). Dekorativ daşlar tərkib etibarı ilə əhəng daşından olub, bəzilərinin üzərində yazı da həkk olunmuşdur (201, s. 140-141, ş.48, 49, 50, 51, 52).

Qafqaz Albaniyasının ərazisində yerləşən, xristian dövrünə aid olan maddi mədəniyyət abidələrindən biri də böyük əhəmiyyətə malik olan qədim Dərbənd şəhərində yerləşən Cümə məscididir. Bu maddi mədəniyyət abidəsi haqqında məlumat verərək İ.N.Berezin yazır ki, yerli xristian rəvayətinə görə bu bina bizim dinə (xristian–*T.M.*) aid olduğunu göstərilir» (183, s. 143-145).

Cümə məscidi M.İ.Artamonov tərəfindən tədqiq edilmiş və bu binanın planı onun tərəfindən tərtib olunub nəşr edilmişdir (135, s. 141, si. 27). M.İ.Artamonov bu məscidi xristian məbədi hesab edərək onu dövr etibarı ilə VI əsrə aid edir. M.İ.Artamonov yazır: «Plana əsasən, bu bina bazalik» tipdədir, Dərbənddəki «Cümə-məscidinin xristian rəvayətinə görə xristian məbədi olması fikri ilə tam uyğunluq təşkil edir» (135, s. 143).

Tədqiqatçı R.M.Maqomedovun ehtimalına görə Cümə məscidi hər hansı bir bütpərəst dövrünün məbədi üzərində yerləşmişdir (235, s. 43). Həqiqətən də Albaniyada alban şahları əsasən köhnə bütpərəst məbədlərinin yerini xristian məbədlərinə verir və onun üzərində xristian məbədləri inşa edirdilər (235, s. 43).

Albaniya ərazisindən ilk orta əsrlərə aid xristian məbədləri həmçinin başqa yerlərdə: Xotavngdə (226, s. 65; 229, s. 86, 131) müqəddəs Yelise məbədi (223, s. 43; 229, s. 89-90), Kilsədağ məbədi (198, s. 487; 229. s. 95-96) və Amarasda (227, s.46-86; 229. s. 89) arxeoloqlar tərəfindən aşkar edilmiş və müəyyən qədər tədqiq olunmuşlar.

Yuxarıda göstərilən ilk orta əsr qaynaqlarının Qafqaz Albaniyasının ərazisində ilk orta əsrlərdə sövmələrin olması məlumatlarını ilk orta əsrlərə aid arxeoloji qazıntılar da təsdiq edir. Azərbaycan ərazisində aparılan arxeoloji kəşfiyyatlar və qazıntılar nəticəsində arxeoloqlar tərəfindən çoxlu miqdarda dövr etibarilə V-VII əsrlərə aid tiplərinə görə müxtəlif sövmələr aşkar olunmuş və tədqiq edilmişdir (229, s. 38).

Alban kilsəsinin başında, ilk orta əsrlərdə, yüksək mənsəbə–rütbəyə malik adam katolikos (arxiyepiskop, patriarx) dururdu (87, k. III, f. 5; 341, s. 66-70). Alban kilsəsinin başçısı olan katolikosları, erməni katolikoslarından fərqli olaraq, alban yepiskopları tərəfindən «əl qoyulurdu» (87, k. III, f. 5; 341, s.66-70). Alban katolikosları çağırılmış dini məclislərdə seçilirdilər, bu dini məclislərdə: hökmdarlar–şahlar, hər bir dini yeparxiyanın bütün nümayəndələri, feodallar və əyanlar iştirak edirdilər. Katolikosluğa seçilən adam şah nəslindən və ya tanınmış əyanlardan, çox halda isə əsasən tanınmış yepiskoplardan olurdu (87, k. III, ф.5; 341, c. 66-70).

Alban kilsəsi 705-ci ilə qədər öz katolikoslarını seçməkdə tam müstəqilliyə malik idi və müstəqil idi (79, k. I, f. 26; 341, s. 66-70). Alban katolikosları şahların, hökmdarların, feodalların və əyanların iştirakı ilə Alban kilsəsinin dini məclislərini çağırırdılar. Alban kilsə dini qanunları əsasında çağırılan bu dini məclislərdə ruhanilər, digər təbəqələrin hüquqi, iqtisadi imtiyazları hazırlanır və möhkəmlənir, Albanların kilsə qarşısında maddi və iqtisadi təhdidləri hazırlanır və təsdiq olunurdu. Belə bir dini məclis 488-ci ildə alban şahı III Vaçaqan tərəfindən Aquen şəhərində çağırılmışdır (79, k. I, f.26; 341, s. 66-70). Aquen məclisinin çağırılması dövrü məsələsinə öz münasibətini bildirən R.B.Göyüşov, əksəriyyət tədqiqatçılar (Y.A.Manandyan, M.Brosse, K.Patkanov, R.Açaryan, S.T.Yeremyan, K.V.Trever, Z.İ.Yampolski, T.M.Məmmədov və b.), tərəfindən 487-488-ci illərdə çağırılmasını qəbul edənlərin əleyhinə çıxaraq dini məclisin 493-cü ildən sonra çağırılmasını əsassız olaraq göstərir (229, s. 22-23). Lakin bu halda bu dini məclisin hansı vaxtda çağırılmasını R.B.Göyüşov dəqiq təyin edə bilmir. Beləliklə, Aquen məclisinin «dəqiq vaxtını» təyin etməyə çalışdığı bir za-

manda R.B.Göyüşov özü qeyri-müəyyən vəziyyətə düşür və Aquen dini məclisinin çağırılması vaxtını dəqiq təyin edə bilmir. Ona görə də biz belə hesab edirik ki, onun tərəfindən irəli sürülmüş dini məclisin vaxtı düzgün və dəqiq deyildir.

İlkin orta əsr qaynağının verdiyi məlumatlara görə ilk vaxtlarda alban dini kilsəsinin, katolikosluğunu mərkəzi Dərbənd şəhərinin yaxınlığında yerləşən Çoğa (Çoqa) şəhərində idi. Alban katolikosluğunun başçısı alban katolikosu Abbasın (551-599) dövründə məcburi olaraq, hunların, maskutların, xəzərlərin tez-tez basqınları nəticəsində, 552-ci ildə alban kilsəsinin katolikosluğunun iqamətgahının mərkəzini Çoqa şəhərindən, Albaniya dövlətinin o zamankı mərkəzi şəhəri və paytaxtı Bərdə (Partav) şəhərinə köçürüldü (78, s.48-49; 341, s. 70-81). Bu məlumatı eyni zamanda bizə ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu da verir (79, k. II, f. 4).

O ki qaldı alban katolikoslarının adları və dövlətləri ilə əlaqədar məsələyə, biz bu haqda yazılı mənbələrdən natamam məlumatlara malikik. İlk orta əsrlərdə olan alban katolikoslarının siyahısı və onların dövrləri ilk orta əsr qaynaqları və tədqiqatlarında olan məlumatlardan götürülərək, bizim tərəfimizdən onların siyahısı tərtib edilmiş və dərc olunmuşdur (341, s. 71-72). Buna görə də bu məsələ üzərində geniş, hərtərəfli söhbət açmayacağıq. Bu siyahıya Albaniyada IV-VII əsrlərdə olan katolikosların hamısı daxil edilmişdir. Bu siyahıya birinci alban katolikosundan başlayaraq, alban katolikosu Bəkirə qədər katolikoslar daxil olunmuşdur. Bu katolikosa (Bəkirə) qədər bütün alban katolikosluğu–kilsəsi və alban katolikosları müstəqil olmuşlar (341, s.70-72).

İlkin orta əsr qaynaqları natamam şəkildə olsa da alban kilsəsinin, ruhanilərin iyerarxiyası haqqında bizə məlumat saxlamışlar. Yuxarıda qeyd etdiyimiz kimi ilk orta əsr qaynaqlarının – Aqafanqel, Favstos Buzandasi, Sebeos və Ayrivanesinin verdikləri məlumatlardan aydın olur ki, alban kilsəsi iyerarxiyanın başında yüzillərlə müstəqil olan alban katolikosları (arxiyepiskop, patriarx) dururdu (65, s. 187; 81, b.III, f. 33; 87, k. III, f. 5,6; 78, s. 194-49; 341, s.27, 70-72). Bunu eyni zamanda ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu da öz əsərində məlumat

verərək təsdiq edir (79, k. I, f.9,14; k. II, f. 3,7,8,14,31,36,39,46; 331, s.104; 341, s. 27,70).

İlk orta əsr qaynaqları – Aqafanqel, Favstos Buzandasi, Yeqişe, Koryun, M.Xorenasi, Asoqik (65, s. 137; 87, k. III, f. 5; 68, f. III, 69, s.19; 76, k. II, f. 3,54; 84, k. II, f.1) ilk orta əsrlərdə Albaniyada yepiskopların olması haqqında məlumat verirlər. Bu məlumatları ilk orta əsr alban qaynağı M.Kalankaytuklu da təsdiq edir. (79, k.I, f. 14,17,19,26; k.II, f.7,8,32,39,41,43; 331, s.104,341, s.27, 72-73). İlk orta əsr qaynağı Yeqişe ilk orta əsrlərdə Albaniyada arxiyepiskopların olmasını göstərir (68, f.III; 331, s.104; 341, s.27, 72-73), bunu, enyi zamanda M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k.II, f. 36; 331, s.104; 341, s. 72-73). İlkin orta əsr qaynaqları Aqafanqel, Koryun, Yeqişe və M.Xorenasi Albaniyada keşişlərin olduğunu göstərirlər (65, s. 135; 69, s. 19-20; 68, f. I, II; 76, k. III, f. 54; 331, s. 104; 341, s.72-73). Bu qaynaqların məlumatlarını M.Kalankaytuklu da təsdiq edir və məlumat verir ki, şəhərlərdə, kəndlərdə, hətta şah sarayında keşişlər mövcud idi (79, k. I, f.26; k. III, f. 3,14; 331, s. 104). Daha sonra alban tarixçisinin verdiyi məlumatlardan aydın olur ki, hər bir kənd, şəhər, yaşayış məntəqəsi əhalinin sayından asılı olaraq bir və ya bir neçə yepiskoplar tərəfindən təyin olunmuş keşişlərə malik idilər (79, k. I, f. 26; 331, s. 104; 341, s. 28).

İlkin orta əsr qaynağı Yeqişenin verdiyi məlumatdan aydın olur ki, Albaniyada ilkin orta əsrlərdə rahib və rahibələr və magistrlar (dini elmi dərəcəsi olan) mövcud idi (68, f. I, II; 331. s.104; 341, s. 28). Albaniyada da rahib və rahibələrin olmasını eyni zamanda M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k.I, f. 26; 331, s.104; 341, s. 18). İlkin orta əsr qaynaqları M.Xorenasi və Asoqik (76, k. III, f. 3; 84, k. II, f.1; 341, s. 28) Albaniyada diakonların (aşağı rütbəli keşiş) olduğunu da göstərirlər, bunu eyni zamanda M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k. II, f.36; 331, s. 104; 341, s. 72-73). İlkin orta əsr qaynağı M.Xorenasi apostolların (nəvəriyun) Albaniyada olması haqqında məlumat verir (76, k. II, f.36; 331, s. 104; 341, s.28), bu məlumatı eyni zamanda alban tarixçisi M.Kalankaytuklu da öz əsərində təsdiq edir (79, k. II, f.48; 331, s. 104; 341, s.28)

İlkin orta əsr qaynağı M.Kalankaytuklunun verdiyi məlumatlardan aydın olur ki, Albaniyada ilk orta əsrlərdə iyereylər, dini qiraətçilər, dini-zəbur surəsi oxuyanlar, dini müşahidəçilər, rahiblər mövcud idi (79, k. I, f. 17, 19, 26; k. II, f. 14; 19, 26; 341, s.28; 331, s. 104).

İlkin orta əsr yazılı qaynaqları, ilk orta əsrlərdə Albaniyada əhalinin xristian kilsəsi tərəfindən vergi təyin edilməsi və kilsəyə vergi verməsi haqda heç bir məlumat vermir. Lakin bu haqda bizə ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu öz əsərində müəyyən miqdarda məlumat saxlamışdır (79, k. I, f. 17, 18,26; k. II, f. 14,19, 26,27; 331, s. 104; 341, s. 28). İlkin orta əsr alban tarixçisinin verdiyi məlumatdan aydın olur ki, əkinçiliklə və bağçılıqla məşğul olan kəndlilər kilsəyə məcburi olaraq vergi verməli idi. Alban tarixçisi M.Kalankaytuklu belə yazır: «Kim dövlətlidirsə, hər il 4 vahid buğda, 6 arpa və 16 kuzə şirin (çaxır)»; ortabablar «yarım kömbə çörək və imkanı olduğu qədər çaxır verir. Kimin ki, nə əkin yeri var, nə də üzümlüyü ondan heç bir şey alınmamalıdır». Maldar kəndlilər vergini mal-qara ilə ödəyirdilər: «Evində qoyunu olanlar bir qoyun, üç qoyunun yununu və bir baş pendir verir. Atı olanlar bir dayça, qara malı olanlar isə bir buzov verir» (79, k. I, f. 17, 19, 26, k. 14; k. II, f. 19, 26, 27; 341, s. 28).

Albaniyada ilk orta əsrlərdə alban əhalisi «azad adam»lar, məhsul ilə ödənilən vergidən əlavə kilsəyə gəlirinin onda birini verməli idilər. Alban şahı III Vaçaqan dövründə «onda bir vergini ödəyən azad adamlar, yarısını baş kilsəyə, ikinci yarısını öz kənd kilsəsinə verirdi» (79, k. I, f. 26; 341, s.73). Halbuki, əvvəllər onda bir verginin hamısı kənd kilsəsinə verilirdi. Alban şahı Urnayr dövründə xristian dini dövlət tərəfindən qəbul edildikdən sonra əkinçi kəndlilər və maldar kəndlilər kilsəyə öz gəlirlərinin onda bir hissəsindən vergi verirdilər. Bu haqda alban tarixçisi M.Kalankaytuklu belə yazır: «Kilsənin payları və barları müəyən olundu; xırman və şirəxanalardan, tarla və ərzaq anbarlarından və bütün ev heyvanlarından – onda bir hissəsi və kilsənin payına torpaq da düşdü…» (79, k. I, f. 11). İlkin orta əsrlərdə Albaniya əhalisindən məhsul əsasında toplanılan vergi baş kilsəyə verilirdi (79, k. I, f. 26; 341, s.73).

Bundan əlavə ölkədə dindar adamlar, «azad adamlar», əkinçi kəndlilər, bütün Albaniyanın əhalisi öz ruhlarını, öz ölənlərinin ruhunu şad etmək üçün kilsəyə məcbur idi ki, nəzir – «can vergisi» versin. «Hər bir əsilzadə–azad adam və yaxud kənd əhli və ya ruhani olmayan hər bir adam öz ölənlərinə rəhmət oxumaq üçün hər il öz imkanı daxilində nəzir gətirməyi unutmamalıdır» (79, k. I, f. 26; 341, s. 73).

İlk orta əsrlərdə kilsə nəzir verilən atları həvəslə alırdı. «Adlı-sanlı əyan və şah nəslindən olanlar öz ruhunu şad etmək xatirinə ömrünün axırınadək öz əlləri ilə kilsəyə yəhərlənib yüyələnmiş bir at və bundan başqa arzu etdiyi şeyləri verməlidirlər. Əgər bu adam sağlığında bunu verməmişsə, öləndən sonra onun ailəsi bunu verməlidir» (79, k. I, f. 26; 341, s. 73). Bundan əlavə «Heç bir əsilzadə (azad), kəndli və başqa bir adam ölənlərin xatirəsini yad etmək üçün ildə bir dəfə özünə layiq nəzirini verməyi unutmamalıdır. Onlar öz gəlirlərindən ölənlər üçün pay ayırmalıdırlar. Əgər rəhmətə gedən şəxsin atları var idisə, onlardan kilsə payı olaraq istədiyi bir at, əgər iribuynuzlu malqarası var idisə, bir öküz verməlidirlər (79, k I, f. 26; 341, s.74).

Beləliklə, yuxarıda göstərilən yazılı qaynaqların materiallarından aydın olur ki, Albaniyanın yerli əhalisindən xristian kilsəsi tərəfindən toplanılan vergi vasitəsi ilə ruhanilər zümrəsi heç də az olmayan həmişəlik gəlirə malik idilər. İlkin orta əsr qaynaqlarının məlumatlarından aydın olur ki, Albaniya ilk orta əsrlərdə kilsə inzibati vahidlərə bölünürdülər. İlkin orta əsr alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, ilk orta əsrlərdə kilsə hakimiyyəti, kilsə-inzibati cəhətdən ayrı-ayrı vahidlərə – yeparxiya və yepiskopluqlara bölünürdü (79, k. I, f.26; 341, s. 38) və bunların başında yepiskoplar dururdu (79, k. I, f. 26; k. II, f. 7). İlk orta əsr qaynaqlarının məlumatlarından aydın olur ki, yepiskoplar Albaniyada təyin olunurdular (87, k. III, f.5; 341, s. 38). İlkin orta əsr qaynaqlarının məlumatına görə yepiskoplar, çox güman ki, öz hüquqlarına görə şaha bərabər tutulurdular (69, s. 19; 76, k. III, f. 3; 341, s. 38). Yepiskopluqlar öz növbəsində xoroyepiskoplara, xoroyepiskoplar isə kiçik dairələrə bölünürdülər (79, k. I, f. 26; 229, s. 20). Albaniyada ilkin orta əsrlərdə yepiskopluğun ərazisi bəzi hallarda

vilayətin ərazisi ilə eyni olurdu. İlkin orta əsrlərdə Albaniyanın vilayətlərinin hamısında yepiskopluq yox idi. Məsələn, Arsax nahiyəsində–əyalətində 11 vilayət olduğu halda orada üç – Haband, Böyük-Koğman, Böyük-İrank yepiskopluğu var idi.

İlkin orta əsr alban tarixçisi M.Kalankaytuklunun əsərindən aydın olur ki, ilkin orta əsrlərdə alban şahı III Vaçaqan dövründə beş yepiskopluq var idi və Albaniya aşağıdakı yepiskopluqlara bölünürdü: Bərdə (Partav) yepiskopluğu, Qəbələ yepiskopluğu, Xaşya yepiskopluğu, Uti yepiskopluğu. Alban şahı III Vaçaqanın dövründə Bərdə yepiskopluğunun başında arxiyepiskop Şupxaqişa, Qəbələ yepiskopluğunun başında Manas, Xaşya yepiskopluğunun başında Hunan, Uti yepiskopluğunun başında Ananiya və Sahak, Siri yepiskopluğunun başında isə Mate dururdu (79. k. I, f. 26; 341, s. 38). Alban tarixçisi M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, katolikos Abbasın dövründə Albaniya ərazi cəhətdən aşağıdakı yepiskopluqlara bölünmüşdü: Bahaqot yepiskopluğu, Qəbələ (Kabala) yepiskopluğu, Amaras yepiskopluğu, Balasakan yepiskopluğu, Şəki yepiskopluğu, Qardman yepiskopluğu, Böyük Koğmanq yepiskopluğu (79, k.II, f.7; 341, s. 38). Öz növbəsində Bahaqot yepiskopluğunun başında o zaman Movses, Qəbələ (Kabala) yepiskopluğunun başında yepiskop Qriqoris, Amaras yepiskopluğunun başında Xromik, Balasakan yepiskopluğunun başında Timofey, Şəki yepiskopluğunun başında Ambakum, Qardman yepiskopluğunun başında İovannes, Böyük Koğmanqın başında isə yepiskop Gevond dururdu (79, k. II, 341, s. 38). Beləliklə, V-VIII əsrlərdə Albaniyada 12 yepiskopluq fəaliyyət göstərmişdir. Bunlar Qəbələ, Xaşua, Uti, Siri, Bərdə (Partav), Amaras, Balasakan, Şəki, Girdiman, Böyük-Koğmanq, Böyük-İrank, Haband yepiskopluqları idi.

İlkin orta əsr yazılı qaynaqlarından aydın olur ki, xristian dinini, ilkin orta əsrlərdə Albaniyada yaymaq üçün, dini kitablar mövcud olmuşdur. İlkin orta əsr qaynağı Koryunun verdiyi məlumata görə Albaniyada əlifba–yazı yaradılandan sonra dini kitablar, o cümlədən «İncil» də alban dilinə tərcümə edildi (69, s.19; 330, s.104; 341 a, s. 100-116). Bu barədə ilkin orta əsr qay-

nağı belə yazır: «Hörmətli yepiskop İyeremiya gecikdirmədən ilahi kitabların tərcüməsinə girişdi, onların köməyi ilə … Alban ölkəsinin adamları o saat peyğəmbərləri, əshabələri tanıdılar, «İncil»i mənimsədilər… » (69, s. 19; 330, s. 104). «İncil»in alban dilində olması və ondan Albaniyada yaşayan əhalinin istifadə etməsi haqqında ilkin orta əsr qaynağı Yeqişe şəhadət edərək məlumat verir ki, alban və lipinlər müharibəyə gedərkən özləri ilə dini kitabları və keşişləri aparırdılar» (68, f. I). Daha bir ilkin orta əsr qaynağı Gevondun məlumatından bizə aydın olur ki, «İncil» alban dilinə tərcümə olunmuş və albanlar xristian dininin təbliğində ondan istifadə etmişdir (82, f.14; 330, s. 104).

İlk orta əsr tarixçisi Gevond bu haqda belə yazır: «Elə həmin kitab, «İncil» bütün dillərdə sağ və salamat durur. Bir çox dillər haqqında susuram, bəzilərinin adını çəkirəm, birincisi, bizim yunan dili, ikincisi, Roma dili, üçüncüsü, badalı dili, … doqquzuncusu, fars dili, onuncusu erməni dili, on birincisi, iber dili, on ikincisi, alban dili» (82, f. 14; 330, s. 104).

Dini kitab «İncil»in V əsrdə alban dilində mövcud olması və ondan dini kitab kimi istifadə edilməsi haqqında ilkin orta əsr alban qaynağı M.Kalankaytukludan da aydın olur. Alban tarixçisi alban şahı II Vaçe haqqında danışaraq yazır: «sonra o (Vaçe).. öz ölkəsinin idarəsindən əl çəkir və əlinə «İncil»i alaraq xəlvətə çəkilməyə hazırlaşır…» (79, k.I, f. 10,11). Müqəddəs dini kitab «İncil»dən də alban şahı III Vaçaqan dövründə də xristian dininin təbliğində istifadə olunduğunu alban tarixçisindən də aydın olur: «Bütün bunlar dəstələrə bölünüb və hər dəstənin öz müqəddəs kilsə bayrağı və çox hörmətli «İncil»lə, çoxlu miqdarda xaçlar və günəş altında parlayan müxtəlif rəmzlərlə gedirdi» (79,k. I, f. 11). Başqa bir məlumatda alban tarixçisi yazır: «Təxti-rəvanla atları qorumaq üçün çar öz şəxsi əsgərlərini təyin etdi. Təxti-rəvana müqəddəs cəsədlər, «İncil» və «Əhdi-ətiq»dən başqa bir şey qoyulmurdu» (79, k. I, f. 21).

İlkin orta əsr alban qaynağı M.Kalankaytuklunun verdiyi məlumatdan bəlli olur ki, «Əhdi-ətiq» və «Əhdi-cədid» alban əhalisinə məlum idi. Alban tarixçisi belə yazır: «Bu hadisələrdən sonra xəzərlər Albaniya ölkəsini əsarət altına aldılar. Kilsələr və «Müqəddəs» kitablar yandırıldı (79, k. I, f.21, 330, s. 104). Bu

məlumata öz münasibətini bildirən akademik A.Q.Şanidze ehtimal edərək göstərir ki «Əhdi-ətiq» və «Əhdi-cədid» alban dilində olmuşdur (467, s.3). Biz də bu fikirlə tam şərikik.

Beləliklə, yuxarıda gətirilən ilkin orta əsr qaynaqları və alban tarixçisinin verdikləri məlumatdan aydın olur ki, Albaniyada ilk orta əsrlərdə xristian dinini alban dilində təbliğ etmək, yaymaq üçün dini kitablar mövcud idi. İlk orta əsrlərdə alban əhalisinə «İncil», «Əhdi-ətiq» («Bibliya»nın xristianlıqdan əvvəlki qədim hissəsi), «Əhdi-cədid» («İncil»in və başqa dini kitabların adı) məlum idi və onlar ölkədə xristian dinini yayarkən, onu təbliğ edərək bu dini kitablardan istifadə etmişlər.

Orta əsr qaynaqlarının məlumatlarından aydın olur ki, ilk orta əsrlərdə dini mərasimlər çox zəngin, gözəl, rəngarəng, təntənəli şəraitdə keçirilirdi (79, k. I, f. 21). Xristian dini mərasimlərində xor da iştirak edirdi və onlar dini mahnılar, zəbur surəsi oxuyurdular (79, k. I, f. 24).

Lakin bununla bərabər, xüsusilə qeyd etmək lazımdır ki, Albaniyada xristianlaşma hər yerdə müvəffəqiyyətə nail ola bilməmişdir. Bütün ilk orta əsr dövründə xristian dini və xristianlaşma, bir tərəfdən atəşpərəstliklə, manixeyçiliklə, digər tərəfdən isə yerli aşağı ictimai təbəqənin, zümrənin dini, bütpərəstliklə mübarizədə olmuşdur.

Alban şahı III Vaçaqanın hakimiyyəti dövründə cadugərlərə, fala baxanlara, murdar sənəmlərə sitayiş edənlərə, bütxana tikənlərə, bütxana kahinlərinə qarşı mübarizə aparıb və onlara ağır cəzalar verirdilər. Alban tarixçisi M.Kalankaytuklu yazırdı: «Hər gün Tanrıya xidmətdən ilham alaraq o (Vaçaqan – *T.M.*), müqəddəslərin xatirəsi üçün ibadət edirdi. Bundan sonra o, istehkamları çox olan və hakimiyyəti altında olan Arsaxın əhalisinə əmr etdi ki, onlar bütlərə ibadətdən, onlara qurban verməkdən və bütpərəst mərasimlərindən əl çəksinlər» (79, k. I, f. 17; 341,s. 47).

Alban şahı III Vaçaqanın əmri ilə bir sıra cadugərlər, fala baxanlar, bütxanaya baxan kahinlər, bütxana tikənlər və s. cəzalandırılırdı. «…şah Vaçaqan onları ağır işgəncələrlə, çubuqlarla döyməklə və buxovluyub onun hüzuruna gətirməklə ağır cəzalarla tərbiyələndirirdi. Belə cəzalarla o, sehrbazları, cadug-

ərlərin və kahinlərin çoxunu şikəst edir və ölkədən qovurdu. Bəzilərini qul edir, bəzilərini isə xaçpərəstliyə döndərib Allahı tanımaq yoluna qoyurdu» (79, k. I, f. 17; 341, s. 47).

Zor gücü ilə hakim dairələr və zümrələr aşağı təbəqələrə – kəndlilərə, əhalinin digər hissəsinə xristian elmi dinini qəbul etdirmək, ölkəyə yaymaq və təbliğ etmək məqsədilə hər bir vasitədən istifadə edərək, heç nədən çəkinmədən onların dünyagörüşlərini var gücü ilə dağıdır və məhv etməyə çalışırdılar.

Alban tarixçisi M.Kalankaytuklu öz əsərində Albaniyada çoxallahlıq, bütpərəstlik və onunla mübarizəni hərtərəfli işıqlandırmış və geniş məlumat vermişdir. O, ölkədə «ağrı verənlər» və «barmaqkəsənlər» təriqətlərinə qarşı gedən kəskin, qəti mübarizədən geniş bəhs edir (79, k. I, f. 18; 341, s. 48). İlkin orta əsrlərdə Albaniyada iki dini təriqət «ağrı verənlər» və «barmaqkəsənlər» mövcud idi (79, k I, f. 18; 341. s. 48). Bundan əlavə Albaniyada başqa bir təriqət – yaxın adamları (qocaları) öldürmək dini ayini də var idi (79, k. I, f.18; 341, s. 48). İlkin orta əsrlərdə Albaniyada «ağrı verənlər» təriqəti geniş yayılmışdı. Onların olması haqda alban şahları çoxdan məlumata malik idi: «Şah Vaçaqan eşitmişdi ki, bu bəla Albaniya ölkəsində çoxdan kök salmışdır. Ondan qabaqkı Alban şahları onları ya tuta bilmirdilər, ya da ki, ümumiyyətlə, onları saymırdılar. Lənətə gəlmiş və kinli İran mərzbanları onlardan bəzilərini tez-tez yaxalayırdılar, lakin rüşvət alıb azad edirdilər» (79, k. I, f. 18; 341, s. 48). Alban şahı III Vaçaqan «ağrı verənlər» və «barmaqkəsənlər» təriqətlərinə qarşı kəskin mübarizə aparırdı. Bu haq-da ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu belə yazır: «Bundan sonra Vaçaqan bəlalı barmaqkəsənlər və ağrı verənlər təriqətinə mənsub olanları axtardı, ifşa və istintaq etməyə başladı, çünki həmin təriqətlər insanları həlak edirdi» (79, k. I, f.18; 341, s.48).

Daha sonra alban tarixçisinin verdiyi məlumatdan aydın olur ki, Mömin şah III Vaçaqan tərəfindən «barmaqkəsənlər» və «ağrıverənlər» təriqətinə mənsub olanlar və digərləri məhv edildilər. «O, (Vaçaqan) Albaniya ölkəsində başqa zərərli təriqətləri və bütün quldurları kökündən qırdırdı…» (79, k I, f.18; 341, s.48).

Albaniyada xristianlığın və xristian dininin bütpərəstlik və başqa dini cərəyanlarla mübarizədə olmasını, yuxarıda gətirilən

ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarını, həmçinin arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş ilkin orta əsrlərə aid müxtəlif dəfn adətləri və qəbir tipləri də öz növbəsində bir daha tamamlayır və təsdiq edir. Mingəçevirdə (201, s. 156), Amarasda (227, s. 80-84; 229, s. 20-21), Qəbələdə (304, s. 251, t. IV) və Gavurqalada (224, s. 26-27; 221, s. 77-79) ilk orta əsrlərə aid arxeoloji qazıntılar zamanı xristian tipli qəbirlər ilə bərabər çoxlu miqdarda bir neçə cür qəbir adətləri və qəbirlər: sadə torpaq, katakomba, saxsı qab, gil, daş qutudan ibarət qəbir tipləri aşkar edilmişdir.

Albaniyanın əksəriyyətini təşkil edən aşağı təbəqənin dini görüşlərinə qarşı mübarizə xristian dini məclisinin – Aquenin qərarlarında öz əksini tapmışdır. Aquen dini məclisi bütpərəstlik dini ayinləri, adətləri – yas saxlayıb ağlamaq və digər köhnəlmiş dini adətlərə qarşı qanunlar qəbul etmişdir. Aquen dini məclisinin 12-ci maddəsində yazılır: «Əgər bir evdə ölü üçün yas saxlayıb ağlayırlarsa, evin sahibini ağıçılarla birlikdə əl-qolunu bağlayıb şahın divanına gətirmək və orada onları cəzalandırmaq lazımdır. Ev adamları qoy göz yaşlarını tökməsinlər» (79, k. I, f. 26; 341, s. 66). Dini məclisin 11-ci maddəsində isə cadugərlərə müraciət etmək qadağan olunurdu: «kim cadugərlərə müraciət edirsə, bunları və qatillə qanun pozanın əl-qollarını bağlayıb şah divanına gətirməli və işgəncələrdən sonra ölüm cəzasına məhkum olunmalıdır» (79, k. I, f.26).

Aşağı təbəqənin, xristianlığa qədər Albaniyada, o cümlədən bütün Zaqafqaziyada mövcud olan dini görüşlərinə – bütpərəstliyə qarşı Mesrop Maştos da V əsrdə mübarizə aparmışdır. İlkin orta əsr qaynaqlarından aydın olur ki, Mesrop Maştos Balasakanda hunlar arasında xristian dinini yaymış, təbliğ etmişdir. Bu işdə ona eyni zamanda Muşeq adlı bir nəfər də kömək etmişdir (76, k. III, f. 60; 341, s. 48). İlkin orta əsr yazılı qaynaqlarının verdiyi məlumatlardan aydın olur ki, Mesrop Maştos bütün ömrü boyu – qışda, yayda Albaniyada, İberiyada, Ermənistanda səyahət edərək, yerli əhali kütlələri arasında xristian elmi dini təlimini təbliğ edir və bu dini bütün kütlələr arasında yenidən bərpa etməyə çalışırdı (69, s. 19, 22; 341, s. 60).

Bu haqda bizə eyni zamanda ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu da bir qədər, digər qaynaqlardan fərqli şəkildə, geniş məlumat verir. Alban tarixçisi M.Kalankaytuklu yazır: «Öz şagirdlərilə, içində İsa xaçının zərrəciyi olan qızıla tutulmuş gümüş xaçla Qüdsdən qayıdanda Ermənivyəni keçir və Şərq ölkəsinin Uti vilayətinə gəlir. Burada onlar Kis (Kiş) adlanan kəndin yanında mamırlı və bataqlıq yerdə yaşayırdılar. O, xaçpərəstliyi burada yenidən canlandırıb möhkəmlədir və Uti vilayətində, Albaniya, Lipiniya, Kaspiya, Çola keçidinə qədər uzanan torpaqlarda və vaxtilə Makedoniyalı İsgəndər əsr edib buraya, Böyük Qafqaz dağları yaxınlığına köçürdüyü qarqarlar və kamiçik eftalitlər qəbilələri arasında «İncil»i təbliğ edir. Bunları xaçpərəst edib keçmişdə öyrəndikləri və sonradan yaddan çıxardıqları ibadət qaydalarını öyrədirdi» (79, k. I, f. 27, 341, s. 49). Müqəddəs kitab «İncil»də olan xristian dini təlimini Albaniyada təbliğ edərkən Mesrop Maştosa onun şagirdləri kömək edirdi (79, k. I, f. 27; 341, s. 49). Alban tarixçisinin daha sonra verdiyi məlumatdan aydın olur ki, Mesrop Maştos Albaniyanın Girdiman vilayətinə gəlib burada xristian dinini bütpərəst albanlar arasında, vilayətin başçısı Xursun köməyi ilə təbliğ edir və yayırdı. M.Kalankaytuklu yazır: «Qayıdıb öz şagirdlərilə səyahətə çıxır. Sonra xəbər alır ki, Girdimanda hələ bütpərəstlərdən qalan var. Sünikdən keçərək Girdiman knyazı Xursun yanına gəlir. Onun köməyilə Maştos bütpərəstləri müstəqil yola döndərir…» (79, k. I, f.27; 341, s. 49). Bu haqda eyni zamanda digər ilk orta əsr qaynağı da məlumat verir (76, k. III, f. 60; 341, s. 49).

Lakin xristian kilsəsinin cəhdlərinə baxmayaraq, V əsrdə də xristianlıq Albaniyada dərin kök sala bilmir. Albanlar, xüsusilə orta və yoxsul təbəqələr onların iqtisadi vəziyyətini yaxşılaşdırmayan xristian dininin yayılmasına müqavimət göstərirdilər.

Məlum həqiqətdir ki, Qafqazda Sasani hökmdarları öz hakimiyyətlərini möhkəmləndirmək məqsədilə dindən bir vasitə, alət kimi istifadə edirdilər. Sasani şahları özlərinin dövlət dini olan zərdüştlüyü (atəşpərəstlik) Albaniyada (Azərbaycanda) yaymaq məqsədi ilə Albaniyaya zərdüşt kahinlərini göndərirdilər. İlk orta əsrlər boyu – III–VII əsrlərdə Albaniyada xristian dini ilə

atəşpərəstlik arasında olan kəskin dini mübarizə, Sasani İran ilə Bizans arasında Albaniyada öz hakimiyyətlərinin təsir dairəsini genişləndirmək və möhkəmləndirmək vasitəsinə çevrilmişdi.

Albanlar dəfələrlə digər qonşu xalqlar ilə (gürcülər, ermənilər) birlikdə Sasani hökmdarlarının hakimiyyətinə və atəşpərəstlik dininə qarşı mübarizəyə qalxmış və dəfələrlə üsyan etmişlər.

Sasani hakimiyyətinə və zərdüşt dininə qarşı çevrilən ən böyük üsyanlardan biri Sasani hökmdarı II Yezdəgerdin (438-457-ci illər) hakimiyyəti dövründə, 450-451-ci illərdə baş vermiş və Avarayr çölündə (Maku) yaxınlığında döyüş ilə bitmişdir. Bu zərdüştlüyə və Sasani hakimiyyətinə qarşı Qafqaz (Albaniya, İberiya, Ermənistan) xalqlarının üsyanı, bütün ilkin qaynaqlardan hərtərəfli istifadə olunmuş və biz tərəfdən tədqiq edilərək çap olunmuş monoqrafiyada geniş şəkildə verilmişdir (Bax: 341, s. 56-63). Məhz buna görə də bu məsələ ilə əlaqədar olaraq burada geniş və hərtərəfli dayanmağı lazım bilmirik.

Avarayr döyüşündən sonra Sasani şahı II Yezdəgerd Zaqafqaziyaya bir neçə dəfə üsyançılara divan tutmaq məqsədilə hərbi dəstələr göndərmişdi. Bu haqda ilk orta əsr qaynağı Yeqişe bizə məlumat verir (68, f. VII; 341, s. 63).

Sasani hökmdarı II Yezdəgerd 451-ci il hadisələrindən nəticə çıxarmadı, üsyançıların əsas tələblərini yerinə yetirmək istəmədi. O, Ön Qafqazda olan bu azadlıq hərəkatını güc ilə əzmək və məhv etməyə çalışırdı. Lakin həyat göstərdi ki, mübarizəyə qalxan üsyançı xalqlar böyük əks-təzyiqə malikdirlər. O zaman Sasani şahı öz siyasətini dəyişdirməyə məcbur oldu: Vasak Süniklə dəyişdi və onun yerinə Atr-Hörmüzdü Arşakanı təyin etdi (74, k. II, f. 40; 68, f. VII, 168; 269, s. 60). O, Sasani hökmdarı II Yezdəgerd adından əhaliyə və üsyançılara müraciət etdi «… geri qayıdın və heç nədən qorxmayın, heç kimdən çəkinmədən yaşayın» (74, k. II, f.40; 269, s. 60). Sasani hökmdarı şah II Yezdəgerdin əmri ilə: 1. üsyançılara dini azadlıq verildi; 2. üsyançılar üsyan zamanı təyin olunmuş ver-gilərdən azad olundular; 3. atlı dəstələrinin yığılması miqdarı azaldıldı; 4. üsyan nəticəsində öz evlərindən qaçanlara mülkləri, var-dövlətləri qaytarıldı (68, f. VII, s. 170; 269, s. 60).

457-ci ildə II Yezdəgerdin vəfatından sonra onun oğlanları arasında Sasani dövlətində iki il hakimiyyət uğrunda mübarizə başlandı. Bundan istifadə edən alban şahı II Vaçe də 457-ci ildə üsyan etdi (68, f.X; 341, s. 63).

Albaniyada Arsvaqenin (430-440-cı illər) oğlu II Vaçe hökmranlıq edirdi. O, əvvəllər II Yezdəgerdin qızıyla evlənmiş, öz anası və arvadı ilə birlikdə sasani şahının əmri və göstərişilə zərdüştlüyü qəbul etmişdi. İlkin orta əsr qaynağı bu haqda məlumat verərək belə yazır, alban şahı II Vaçe «əvvəllər atası tərəfindən ənənəyə görə xristian idi, şahənşah II Yezdəgerd güclə onu maq (kahin) etdi» (68, f. 10; 341, s.64). Sasani şahı II Yezdəgerdin vəfatından sonra alban şahı II Vaçe Sasani hakimiyyətinə və onların dininə zərdüştlüyə qarşı üsyan etdi və xristian dininə qayıtdı. Bu haqda və Albaniyada olan bu üsyan haqda yuxarıda geniş və hərtərəfli qeyd olunmuşdur (341, s. 63-65).

Bir ildən artıq uzanan müharibədən sonra II Vaçe 463-cü ildə hakimiyyətdən əl çəkməyə məcbur oldu. Alban şahı II Vaçe hakimiyyətdən əl çəkdikdən sonra Sasani hökmdarı şah Firuzun (459-484-cü il) dövründə xristian dininə qarşı mübarizə daha da gücləndirildi (81, b. III, f. 1; 341. s. 65).

Bu haqda alban tarixçisi M.Kalankaytuklu daha geniş məlumat verərək yazır: «... İranın pozğun və rəhmsiz şahı Firuz quduz it kimi qəzəblənib özündən çıxaraq, yer üzündə bütün başqa məmləkətləri özünə tabe etmək, kilsələri dağıtmaq, xristian dinini ləğv etmək və bütün ondan asılı olan torpaqlarda ağılsız bütpərəstliyi bərqərar etmək istəyirdi. Elə buna görə də o, öz mürtəd əliylə İsaya sitayiş edən çoxlu müqəddəs və cəfakeş adamların pak qanlarını tökmüşdü. Bu caninin qılıncıyla çoxlu günahsız öldürülmüşdü. Hətta qadın və uşaqlar əsir alınıb göz yaşları və iztirabların içində özgə ölkələrə qul kimi sürgün olunmuşdular. O, erməni, gürcü və alban knyazlarının bir çoxunu, divlərə sitayiş edən məcusların dininə çevirərək canlarını bədbəxt etdi – kimləri zorla, kimləri də hədiyə və əzəmətli knyazlıq hökmranlığıyla. Bir çox yerdə o, bütxana tikdirərək atəş önündə murdar ilahilərə ibadətləri gücləndirdi. Şərdə doğulmuş İblisin müxtəlif bidətləri çoxdur və Alban ölkəsinin bədbəxt əhalisinə iztirablar gətirdi» (79, k. II, f. 16; 341, s.65).

Sasani şahı Firuzun dini siyasəti nəticəsində hamı ilə birlikdə alban şahı III Vaçaqan da xristianlıqdan imtina edib atəşpərəstlik etiqadını qəbul etmişdir. Alban tarixçisi M.Kalankaytuklu belə yazır: «Öz xalqıyla birlikdə şah III Vaçaqan da ixtiyarsız İran şahının (Firuz–*T.M.*) zalım və qaniçən tələbinə tabe olaraq maqların dinini qəbul etməyə məcbur oldu. Amma gizlində III Vaçaqan daim ibadətdə və pəhrizdə olub, İsanın dininə gizlincə pərəstiş edirdi» (79, k.I, f. 16; 341, s. 65).

484-cü ildə Sasani şahı Firuzun ölümündən sonra hakimiyyətə gələn Sasani şahı Balaş (484-488) ölkənin ağır iqtisadi vəziyyətini nəzərə alaraq üsyan etmiş Zaqafqaziya xalqları ilə sülh müqaviləsi bağladı, bu müqaviləyə görə Qafqaz xalqlarına güzəştə getdilər. Üsyan etmiş Qafqaz xalqlarına dini etiqadlarının «azad təliminə» icazə verildi. Albaniyada şahlıq bərpa olundu. III Vaçaqan (487-510) Albaniyanın şahı oldu (74, k.II, f. 89; 79, k. I, f.17; 341, s. 65).

Alban şahı III Vaçaqan Albaniyada xristian dininin fəal təbliğinə başladı. Bundan sonra şah III Vaçaqan «ən əvvəl o özü günahlı işlərdən və şərli yoldan əl çəkib çoxlu və müxtəlif səxavətli əməllərdə olub, bütün Alban çarlığını mürtəd və iblisi bütpərəstlikdən Tanrıya – müqəddəs və həqiqi ibadətə döndərdi və öz səxavətini səmimi tövbələrlə tamamladı» (79, k. I, f. 27; 341, s. 65-66). Alban şahı III Vaçaqan əhaliyə zorla xristianlığı qəbul etdirirdi. Köhnə din (bütpərəstlik) tərəfdarları, atəşpərəstlər və başqa etiqad sahibləri təqib olunurdu. Alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «Vaçaqan bütxana tikənlərə, cadu edənlərə, murdar sənəmlərə sitayiş edənlərə və xristian dininin ayinlərini bütöv və sarsılmaz saxlamayanlara ciddi cəza və cərimələr təyin etmişdi. Və əgər cadugərlər, sehrbazlar və bütpərəst kahinlər dəfələrlə xəbərdarlıqlara baxmayaraq yenə də öz çirkin əməllərini davam etdirirdilərsə, şah Vaçaqan onları ağır işgəncələrlə, çubuqlarla döyməklə və buxovlayıb onun hüzuruna gətirməklə, ağır cəzalarla tərbiyələndirirdi. Belə cəzalarla o, sehrbazları, cadugərləri və kahinlərin çoxunu şikəst edir və ölkədən qovurdu» (79, k. I, f. 17; 341, s. 65-66). Albaniyada xristian dininin nizam-intizamını və qayda-qanununu möhkəmlətmək məqsədilə alban şahı III Vaçaqan ölkənin

vilayətlərinə yepiskoplar, keşişlər və nəzarətçilər təyin edirdi. «Ölkənin çox yerində o, (Vaçaqan – *T.M.*) yepiskop, keşiş və nəzarətçilər təyin etdi» (79,k. I, f. 17; 341, s.68).

Alban şahı III Vaçaqan xristian dinini Albaniyada yaymaq, təbliğ etmək üçün digər bir vasitədən də istifadə edirdi, savadlı ruhanilər hazırlayırdı. Alban şahı III Vaçaqan məhz buna görə də adamları xristian dininə sövq etmək üçün Albaniyada dini məktəblər açırdı. İlk orta əsr alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «Allah tərəfindən taxta çıxarılan şah Vaçaqan əmr etdi ki, cadugər, sehrbaz, bütpərəst kahinlərin, barmaqkəsənlər və ağrı verənlərin uşaqlarını yığıb məktəblərə versinlər və orada ilahi imana və xaçpərəst həyat tərzinə öyrədib, onları müqəddəs Üç Uqnuma etiqad etdirib dinsizləri Allaha sitayiş yoluna yönəltsinlər» (79, k. I, f. 18; 341, s. 66).

Alban şahı III Vaçaqan dövründə dindar əhali ilə yepiskoplar arasında narazılıqlar baş verdi. Bu narazılıqları aradan götürmək və ölkədə xristian dininin əhaliyə təsirini artırmaq və onun qanunlarını möhkəmlətmək məqsədi ilə 488-ci ildə alban şahı III Vaçaqan Aquendə dini məclis çağırdı və xristian dininə aid qanunlar qəbul etdi. Aquen dini məclisinin kanonları alban kilsəsinin iyerarxiyasına, feodallarına istər iqtisadi, istərsə ictimai işlərininin həyata keçirilməsində hüquqi cəhətdən geniş imkanlar açırdı. Aquen dini məclisinin kanonlarını (21 bənd) bu baxımdan bir neçə qrupa bölmək olar. Aquen dini məclisinin kanonlarına görə: 1. Hətta azad adamlar öz məhsullarının gəlirlərinin 10-da bir hissəsini kilsəyə verməyə borclu idi: «Qoy əsilzadələr kilsəyə verdikləri onda bir hissəsinin yarısını Baş kilsəyə, yarısını da öz kilsələrinə versinlər» (79, k. I, f. 26; 341, s. 66). 2. Vətəndaşlıq hüquqları və cinayət işləri ruhanilərin tabeliyinə verilirdi; «Əgər hər hansı bir xaçpərəst kiminləsə dava edib onun qanını tökərsə həmən adamı yepiskopun yanına gətirib onu qanunlara əsasən cəzalandırmaq lazımdır» (79, k. I, f. 26; 341, s.66-67). 3. Məclis matəm saxlamağı, ağı deyib ağlamağı və digər köhnə bütpərəst qalıqlarına əməl olunmasını qadağan edirdi: «Əgər bir evdə ölü üçün yas saxlayıb ağlayırlarsa, evin sahibini ağıçılarla birlikdə əl-qolunu bağlayıb şahın divanına gətirmək və orada onları cəzalandırmaq lazımdır. Ev adam-

ları qoy göz yaşlarını tökməsinlər» (79, k. I, f.26; 341, s. 66-67). 4. Məclis əhalini müntəzəm surətdə kilsəyə ibadətə getməyə məcbur edirdi: «Hər bazar günləri həm ağa, həm də nökər bir yerdə ibadət üçün Baş kilsəyə gedib orada nahar ibadətini keçirsinlər. Hər bir qərib rəhmət paylarını kilsəyə verməlidir» (79, k. I, f. 26; 341, 67). 5. Məclis hətta üçüncü nəslinə qohumluq əlaqələrinə girməyi, evlənməyi qadağan edirdi: «Hər kəs öz qohumu olan əmi və bibi nəvəsi ilə evlənə bilməz və qardaşının da arvadını ala bilməz» (79, k. I, f. 26; 341, s. 67).

Alban şahı III Vaçaqan hər vəchlə, xristian kilsəsinin hərtərəfli ideoloji təsirini alban əhalisi üzərində genişləndirməyə çalışırdı. Kilsəyə böyük imtiyazlar verilməsinə, ruhanilər üçün maddi bazanın yaradılmasına, onların hüquqi və iqtisadi imtiyazlarının möhkəmlənməsinə, Albaniyada yaşayan əhalinin kilsə qarşısında maddi və iqtisadi öhdəliklərinin təsdiq edilməsinə səy göstərirdi. Bu tədbirlərə baxmayaraq, III Vaçaqanın hakimiyyətindən sonra xristianlıq Albaniyada dərin kök sala bilmədi.

Xristian dininin VI əsrdə Hun tayfaları arasında yayılması və təbliği haqqında bizə ilk orta əsr yazılı qaynaqları məlumat saxlamışlar. Xristian missionerləri Dağıstanın şimal-şərq hissəsində yerləşən əhali arasında xristian dinini yaymağa və təbliğ etməyə təşəbbüs göstərirdilər. İlkin orta əsr Suriya yazılı qaynaqlarından aydın olur ki, VI əsrin birinci yarısında, burada xristian dinini yaymaq və təbliğ etmək üçün iki xristian nümayəndəliyi göndərilmişdir (421, s. 113; 423, s. 96). Birinci nümayəndəlik 537-ci ildə Albaniyadan bura gəlmişdir (423, s. 96; 421, s. 113). Bu xristian nümayəndəliyinin başında alban yepiskopu Kardost dururdu (421, s. 113, 115; 423, s. 166). Albaniyadan gələn xristian nümayəndəliyinin tərkibinə yeddi nəfər keşiş də daxil idi (492, s. 113, 115; 423, s. 163). Bu xristian nümayəndəliyi «hunların torpağında» 14 il xristian dinini yayamaq, təbliğ etməklə, onları xaçquran etməklə və onların arasında xristian dini ayinlərini təbliğ etmək üçün keşişlər təyin etməklə məşğul oldu (421, s.113, 115; 423, s. 166). Bundan yeddi il sonra bura Bizans imperatorluğundan Probosun başçılığı altında nümayəndəlik gəldi (421, s. 113, 115; 423, s. 168). Bizans imperatorluğunun nümayəndəsi Probos alban yepiskopu Kardosta hərtə-

rəfli köməklik göstərirdi (421, s.113, 115; 423, s. 166). Suriya yazılı qaynağının məlumatından aydın olur ki, Bizans imperatoru alban yepiskopunun fəaliyyətindən xəbərdar olduqdan sonra, ona maddi yardım ilə köməklik göstərdi: «… yaxınlıqda yerləşən Bizans dövlətinin şəhərlərindən 30 qatır yükləndi, onlara taxıl, yağ, çaxır, kətan, digər ərzaq məhsulları və müqəddəs dini avadanlıq... Qatırları onlara hədiyə olaraq bağışladı» (421, s. 113, 115; 423, s 166).

Alban dini nümayəndəliyi hunlar arasında yazı da tətbiq etdilər. Suriya yazılı qaynaqlarının məlumatına görə, 544-cü ildə alban yepiskopu Kardostun və onun keşişləri hunların torpağında və onların arasında olduqları yeddinci ilində «hun dilində yazı yaratdılar və həyata keçirdilər» (421, s. 113, 115; 423, s. 166).

Alban dini səfirliyi buranı tərk edib getdikdən sonra bura digər bir dini səfirlik bu dəfə Ermənistandan gəldi (421, s. 113, 115; 423, s. 16). Bu dini səfirliyin başında erməni yepiskopu Makar dururdu. O, burada olan zaman kərpicdən kilsə inşa etdirdi (421, s. 115; 423, s. 167). Alban şahı Cavanşirin varisi Varaz-Trdat (680-699) Albaniya məmləkətinin xarici ölkələrə – ərəblərə xərac verməkdən, xalqın isə ağır vergilər vermək iqtidarında olmadığını, digər tərəfdən hun tayfalarının tez-tez basqınlarına məruz qaldığını görərək və bunların nəticəsində ölkənin ağır iqtisadi vəziyyətə düşdüyünü nəzərə alaraq əyanların, feodalların, dini rəhbərlərin, katolikos Yelizarın iştirakı ilə bu vəziyyətdən çıxmaq məqsədilə böyük məclis çağırır. Bu məclisdə alban şahı Varaz-Trdat demişdir: «Rəhmsiz Ərəbistan xalqının üzərimizə qoyduğu vergilər bizi möhkəm sıxır və ağır vəziyyətə salır. Eyni zamanda hunların hər il ölkəmizə etdiyi basqınlar da bizim üçün dəhşətli fəlakətdir. Buna görə də ölkəmiz ikitərəfli düşmən basqınlarından talan olub taqətdən düşür» (79, k. II, f. 39; 341, s. 67). Bu məclisdə Alban şahı Varaz-Trdat, Katolikos Yelizar və məclis iştirakçıları hunların yeni basqınlarının qarşısını almaq, hunlar arasında xristian dinini təbliğ etmək, onlarla sülh bağlamaq məqsədilə Böyük-Koğmanqın yepiskopu İsrailin başçılığı ilə ora elçilər göndərmək qərarına gəldilər (79, k. II, f. 39; 341, s. 72).

Alban şahı Varaz-Trdat yepiskop İsrailin başçılığı ilə hunların başçısı Alp İlitverin qərargahına – hunların mərkəzi Varçan şəhərinə elçilər göndərdi (79, k.II, f.39; 341, s. 67). 23 dekabr 681-ci ildə elçilər Bərdə (Partav) şəhərindən çıxıb 8 fevral 682-ci ildə Varçan şəhərinə gəlib çatdılar (275, s. 129; 538, s. 59). Bu dövrdə hunların yaşadığı ölkədə bütpərəstlik və onun ayinləri tam ağalıq edirdi. Onlar Kuar adlı ilahiyə sitayiş edirdilər. Alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «Əgər gurultuyla müşayiət edilən və fəzanı yandıran ildırım bir insanı və yaxud bir heyvanı vururdusa, hesab edirlər ki, bu, onların Kuar adlı ilahilərinə qurbandır və buna görə ona sitayiş edirdilər» (79, k.II, f. 40). Hunlar, Varçan əhalisi eyni zamanda oda, suya, ağaclara, «yollar ilahisinə, aya» sitayiş edirdilər (79, k.II, f. 40). İlkin orta əsr alban tarixçisi M.Kalankaytuklu yepiskop İsrailin elçilik missiyası haqqında bizə məlumat verir. Bu missiyanın Dağıstan ərazisindən keçdiyini göstərən alban tarixçisinin məlumatından aydın olur ki, onlar Kür çayını keçib Albaniyanın sərhədini aşıb, səfərin on ikinci günündə lpinlərin şəhərinə Lpnikə – çatdılar. Sonra onlar yola düşüb «möhtəşəm dağları» keçib onun ətəklərində olan Çilblər ölkəsinə gəldilər. «Onlar taqətdən, əldən düşmüş halda hələ bir çox gün yollarına davam etdilər və axırda böyük Qriqorinin nəvəsi, Albaniyanın katolikosu Qriqorisin şəhid çələnginə layiq görüldüyü qədim çar iqamətgahına çatdılar. Onlar bir neçə gündən sonra Dərbənd yaxınlığında olan Çola darvazasına çatdılar… 40 günlük Pəhriz bayramı ərəfəsində gəlib dəbdəbəli Varçan şəhərinə çatdılar» (79, k.II, f. 39).

Yepiskop İsrail hunlar ölkəsinə gəlib çatdıqdan sonra, burada xristian dinini təbliğ etməyə və yaymağa başladı. Hunların hakimi Alp-İlitver başda olmaqla hunların böyük bir hissəsi xristianlığı qəbul etdi. Alban tarixçisi M.Kalankaytuklunun məlumatına görə, hunların çoxu xristian dinini qəbul etdikdən sonra, yepiskop İsrailin əmrilə hündür və bol yarpaqlı, müqəddəs sayılan, bütün palıd ağacları kəsildi, onlardan Varçan şəhərində böyük xaç düzəltdilər. Bundan sonra bütün bütpərəstlərə məxsus məbədlər «… içindəki kələlərlə və dərilərlə birlikdə yandırıldı» (79, k. II, f.41).

Yepiskop İsrailin bu missiyası müvəffəqiyyətlə nəticələndi. Yepiskop İsrail hunların ölkəsində xristianlığı geniş yaymağa başladı. Yepiskop İsrail hunların hökmdarı Alp-İlitverdən icazə alıb onların bütpərəst məbədlərini dağıdır və yandırırdı. Bundan sonra «... onlar böyük sevinclə şəhərə qayıtdılar və nurlu xaçı suya salıb xaçpərəst oldular. Həmin gün knyaz və əyanlar üçün ən böyük bayramın bayramına və məclislərin məclisinə çevrildi» (79, k. II, f.41; 341, s. 67). Ərəb coğrafiyaçısının məlumatına görə həmən Varçan şəhərində (ərəblərdə Səməndər) X əsrdə xristian dininə aid məbəd var idi. (23, s. 114) Ərəb coğrafiyaçısı Müqəddəsinin məlumatına görə o zaman Səməndər şəhərinin əhalisinin bir hissəsi xristian idi (48, s.5; 464, s. 62-63). Bundan sonra hunlar yepiskop İsraildən xahiş etdilər ki, onların yepiskopu olsun. Belə halda yepiskop İsrail onlara cavab verib bildirir ki, bu böyük alban patriarxı–katolikosu Yelizardan asılıdır və onun icazəsi olmadan bunu edə bilməz. Onda hunların knyazı Alp-İlitver alban katolikosu Yelizara və alban şahı Varaz-Trdata məktubla müraciət etdi. O, bu məktubunda alban yepiskopu İsrailin köməkliyi ilə hunların xristian dinini qəbul etmələri haqqında məlumat verərək, İsrailin hunların yepiskopu təyin edilməsi xahişini və istəyini bildirirdi.

451-ci ildə Xolkidonda IV Ümumdünya xristian kilsə qurultayı çağırıldı və burada Nestoryan dini təlimi qəbul olundu (396, s. 315). Bununla da xristian aləmində şərq və qərb kilsələri arasında monofizitlərlə diofizitlər arasında mübarizə başlandı. Qafqaz katolikosları 451-ci ildə Xalkidonda çağırılmış qurultaya (diofizitliyə) qarşı çıxdılar. 506-cı ildə alban, iberiya, erməni kilsələrinin başçıları–katolikoslar Dvin şəhərində dini məclis çağırdılar və Xalkidon dini məclisinin qərarına qarşı çıxış etdilər və onu ləğv etdilər (160, s.4).

Sasani imperiyası Qafqaz ölkələrində öz hakimiyyətini möhkəmlətmək üçün diofizitlər və monofizitlər arasında olan bu dini mübarizədən öz məqsədləri üçün istifadə edirdilər. Məhz buna görə Sasani şahları monofizitləri müdafiə edirdilər. Bu məqsədlə, monofizit kilsəsini qüvvətləndirmək və onları birləşdirmək üçün 527-ci ildə Dvin şəhərində çağırılan dini məclisdə, Alban, İberiya və erməni kilsələri siyasi cəhətdən birləşərək xalke-

donizmə (diofizitlər) qarşı birlikdə mübarizəyə başladılar. Bu məclisdə xalkidonizim (diofizitlik) dini baxışları ləğv edildi və monofizit dini baxışları isə vahid dini təlim olduğu elan edildi (257, s. 445).

Bu dini məclisdən sonra Dvin şəhərinin Qafqaz ölkələrinin dini mərkəzinə çevrilməsi haqqında bizə ilk orta əsr Suriya yazılı qaynağının müəllifi Mitilenli Zəkəriyyə məlumat verir. Bu haqda o belə yazır: «Bu şimal tərəfdə özlərinin 24 yepiskopu olan beş dindar xalq vardır. Qurzan və Ermənistan torpağındadır, onların dili yunan dilinə oxşayır, onların İran şahına tabe olan xristian padşahı vardır. Arran torpağı da həmin Ermənistan torpağındadır, onların öz dili, dini və xaçpərəst xalqı vardır, onların da İran şahına tabe olan padşahı vardı» (423, s. 165; 403, c. II, s.325).

Bəzi tədqiqatçılar dərin və düzgün araşdırmalar aparmayaraq, faktlara saxtakarcasına yanaşaraq belə fikir irəli sürürlər ki, bu dini məclisdən sonra alban kilsəsi erməni kilsəsinin tam təsiri altına düşür (403, c. II, s. 328; 374, s. 16; 286, s. 129). Bu səhv və saxtalıqla yoğrulmuş fikir Z.M.Bünyadov tərəfindən rədd edilir. O öz əsərində belə yazır: «Qurzanın (İberiya, Gürcüstan) və Arranın VI əsrdə öz dilləri və öz padşahları olduğunu nəzərə alaraq qeyd etmək olar ki, nə Qurzan, nə Arran etnik və siyasi cəhətdən Ermənistanın bir hissəsi olmamışdır. Burada birlik sırf kilsə birliyi olmuş və 527-ci ildə Dvin şəhərində çağırılan Alban, İberiya və erməni kilsələrinin yığıncağında elan edilmişdi» (185, s. 93).

Bu yuxarıda göstərilən siyasi kilsə birləşməsi alban kilsəsinin – katolikosluğunun tam öz müstəqilliyini itirməsi deyildi. Bu fikirlə heç cür razılaşmaq olmaz. Bu iki kilsənin, erməni kilsəsi ilə alban kilsəsi arasında olan çoxəsrlik mübarizə tarixi bunun tam əksini göstərir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, yuxarıda göstərilən səhv və saxtakar fikri eyni zamanda ilk orta əsr yazılı qaynaqlarında olan məlumatlar da rədd edir.

Xalkidonizim dini görüşlərinin Qafqaz ölkələrinə daxil olması dövründən başlayaraq alban kilsəsi ilə erməni kilsəsi arasında dərin kilsə mübahisələri, dini baxışlarda fikir ayrılıqları əsrlər boyu davam etmişdir (120; 185, s. 93; 235, s. 92). Bu dini

mübahisələrdən istifadə edərək erməni kilsəsi həmişə hər vəchlə alban kilsəsini özünə tabe etməyə çalışmışdır. Lakin erməni kilsəsinin bu cəhdi və səyi heç bir nəticə verməmişdir, bunu ilk orta əsr alban tarixçisi gözəl və parlaq şəkildə təsvir edir. Alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «… alban arxiyepiskopunun onlara tabe olmasına çalışırdılar. Albanlar buna razılıq vermirdilər» (79, k. II, f. 48). Daha sonra alban tarixçisi yazır: «albanlar bildirirdilər ki, xristianlığı iberlərdən və ermənilərdən qabaq qəbul ediblər» (79, k. II, f. 48), başqa bir dəlil, «… Müqəddəs Yelisey orada (Albaniyada) xristianlığı Ermənistandan qabaq təbliğ etmiş və orada (Albaniyada), daha dəqiq Kis kəndində Ermənistandan qabaq kilsə tikdirmişdir. Həmin kilsə Şərq kilsələrinin anası idi, yəni metropoliya idi. Albanlar öz dəlillərini irəli sürüb ermənilərdən ayrıldılar ki, bundan sonra daha heç kəsə tabe olmasınlar» (79, k. II, f. 48).

Alban kilsəsinin VI əsrin ikinci yarısında da tam müstəqil olmasını alban tarixçisi M.Kalankaytuklu öz əsərində gətirdiyi çox dəyərli faktlarla gözəl şəkildə əks etdirir. Alban kilsəsinin paytaxtı 552-ci ildə katolikos Abbasın dövründə Çola şəhərindən Albaniyanın yeni təyin olunmuş paytaxtı Bərdəyə (Partav) köçürüldü. 552-ci ildən başlayaraq onun (Abbas–*T.M.*) vaxtında adəti üzrə məktubların üzərində «Albaniyanın, Lipinkin və Çolanın katolikosu yazırdılar» (79, k. III, f. 23). Başqa bir yerdə erməni katolikosu II İovannes məktubla alban katolikosuna bu cür müraciət etmişdir: «Mənim xeyirxah, ədalətli, Allahsevər və sevimli qardaş və peşə yoldaşlarıma–Albaniya katolikosu cənab Abbasa» (79, k. II, f. 7). Yuxarıda gətirilən bu faktlar və dəlillər bir daha sübuta yetirir ki, alban kilsəsi və katolikosluğu VI əsrdə tam müstəqil idi.

Alban kilsəsinin və katolikosluğunun tam müstəqil olmasını alban tarixçisi M.Kalankaytuklunun əsərində əks olunan digər faktlar da bir daha sübuta yetirir. Misal üçün 607-ci ildə Dvin şəhərində çağırılmış dini məclisdə Zaqafqaziya kilsələrinin bölünməsi zamanı Süniklər «… ermənilərdən ayrıldılar, albanlara müraciət etdilər, bundan sonra Sünik ildən ilə müqəddəs mərhəmi albanlardan alırdı» (79, k. II, f. 48).

Alban kilsəsinin və katolikosluğunun müstəqil olmasını erməni katolikosu III Saakın (667-703) hunların başçısı Alp-İlitverə yazdığı məktubdan da çox gözəl şəkildə görünür. Erməni katolikosu III Saak yazdığı məktubda belə cavab verirdi: «O ki qaldı yepiskop İsrailin sizə göndərilməsi məsələsinə, deməliyik ki, bu çox mürəkkəb məsələdir, çünki dindarlar öz dini başçılarından ayrı ola bilməzlər. Amma iş ondadır ki, İsraili bizim dini idarəmiz təyin etməyib. O, Albaniya katolikosluğunun sərəncamındadır. Biz istəyirik ki, o, həmişə sizinlə olsun, lakin bu barədə qərarı çıxarmaq üçün müstəsna hüquq yalnız Albaniya patriarxı katolikos Yelizarın ixtiyarındadır və bu məsələ onun şəxsi işidir» (79, k. II, f. 45; 341, s. 67-68). Buradan bir daha açıq şəkildə aydın olur ki, alban katolikosluğu tam müstəqil idi, albanlarla ermənilərin xristian dini məhzəbində birliyinə baxmayaraq, erməni katolikosu, Alban katolikosluğunun və kilsəsinin daxili işlərinə müdaxilə etməyə hüququ və ixtiyarı çatmırdı. Alban kilsəsinin avtokefallığını və alban katolikosluğunun müstəqil olmasını alban tarixçisi M.Kalankaytuklunun əsərində gətirilən daha digər bir mühüm, parlaq və inandırıcı fakt, Yerusəlimdə 10 alban monastırının inşa edilməsi təsdiq edir (79,k. II, f. 52). Hamıya məlumdur ki, yalnız müstəqil kilsəyə və katolikosluğa malik olan ölkə və dövlət bu şəhərdə monastır inşa etmək hüququna malik ola bilərdi. Yuxarıda göstərilən materiallar, faktlar, dəlillər bir daha sübut edir ki, alban kilsəsi ilk orta əsrlər boyu avtokefal olmuşdur.

Alban katolikosu Yelizar hunların hökmdarı tərəfindən göndərilmiş elçinin inadcıl xahişi və təkidi nəticəsində alban yepiskopu İsrailin hunların ölkəsinə getməsinə razılıq verdi: «Alicənab xasiyyətinə və təbiətinə görə yepiskop İsrail könüllü olaraq hunların yanına gedərək hər iki ölkəyə xoşbəxtlik gətirir və bağlanan müqaviləyə əsasən xaçpərəst dinini yeni qəbul etmiş xalqa öz köməyini əsirgəmirdi» (79, k. II, f. 45; 341, s. 67-68).

Qafqaz kilsə başçıları, katolikoslar xalkidonizmə qarşı siyasi cəhətcə birləşib birlikdə mübarizə aparmalarına baxmayaraq, qeyri-leqal formada bu dini təlim bu ölkələrə və o cümlədən Albaniyaya gizli şəkildə daxil olub yayılırdı. Bu haqda ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu çox parlaq şəkildə şəhadət

edir. Alban tarixçisinin verdiyi məlumatdan aydın olur ki, VI əsrin ikinci yarısında xalkidonizm Albaniyaya yenidən yayılırdı. Bu haqda ilk orta əsr qaynağı M.Kalankaytuklu belə yazır: «Hər tərəfdə acı qarışıqlıq salan Xalkedon ümumkilsə qurultayının lovğa, dəyərsiz və küfrlə dolu fitnəsi Allahın səbirli olmasından dolayı bütün dünyanı əhatə etdi, onun yalançı təlimi daha da qüvvətləndi və bu təlimin səthi ehkamlarına heyran qalanların çoxunun ruhu əbədi zülmətin içinə qərq olunmağa məhkum oldu. Bu təlimin alaq otları bu Albaniya torpağında da kök saldı. Bu zaman Albaniyada katolikos Abbas idi» (79, k. II, f. 8). Alban katolikosu Abbas onlara qarşı kəskin və ardıcıl mübarizə aparıb onları ölkədən qovdu. Bu haqda alban tarixçisi M.Kalankaytuklu belə yazır: «... məktubda adları çəkilən bütün yepiskopları ciddiliklə bu küfrü təftiş edib və onu yayan murdar Tovması, Zəbur surələrini oxuyan Binəti, İbası və başqalarını Albaniyadan ucqar torpaqlara qovdular. Beləliklə, Allahın mərhəməti sayəsində ruhanilər arasında əmin-amanlıq bərpa olundu» (79, k. II, f, 8; 451, s. 221). Lakin Xalkidon tərəfdarları ölkədən qovulduqdan sonra ilk orta əsr tarixçisinin şəhadətinə görə vəziyyət daha da gərginləşdi və ölkədə üsyan başladı. O belə yazır: «Lakin o zamanlar müharibələr alovunun ən qızğın çağları idi» (79, k. II, f. 18).

VI əsrin sonunda xalkidonizim (diofizim) ilə monofizlər arasında mübarizə daha da kəskin xarakter aldı və ölkədə üsyan başlandı. Albaniyada bu üsyanın başında o zaman katolikos Viro dururdu. O, Sasani şahı II Xosrov tərəfindən həbs olundu və üsyan yatırıldı. Sasani şahı II Xosrovun ölümündən sonra, 628-ci ildə 25 illik həbsdən sonra katolikos Viro azad olub Albaniyaya qayıtdı (79, k. II, f. 14; 188. s.15-20).

VII əsrin əvvəllərində 607-ci ildə gürcü katolikosu Kyuronun səyi ilə çağırılmış Dvin dini məclisində erməni, alban, iberiya kilsələri bir-birlərindən ayrıldılar (257, s.445; 185, s. 93).

VII əsrin sonlarında Albaniyada yenidən xalkidonizim (diofizit) təriqəti baş qaldırdı və yayılmağa başladı Alban katolikosları Uxtanes və Yelizarın vaxtında, Arsax vilayətinə Xalkidon (diofizit) təriqətinə qulluq edən dindarlar daxil olub, burada kütlələr və ruhanilər arasında geniş təbliğə başladılar. Alban

katolikosu Yelizarın vəfatından sonra keçmiş Girdiman vilayətinin yepiskopu Nerses-Bakur və onun tərəfdarları çalışırdılar ki, xalkidonizm (diofizit) təriqətini ölkədə əhaliyə qəbul etdirsinlər (87, k.II, f.2; 341, s. 68). İlk orta əsr qaynağı Asoqikin bu məlumatını alban tarixçisi M.Kalankaytuklu da təsdiq edir və bu haqda belə yazır: «Albaniya katolikosu Müqəddəs Yelizarın vəfatından sonra, vaxtilə Girdiman yepiskopu olmuş, Xalkedon diofizit təriqətinə mənsub olan Nerses adlanan Bakur Albaniya knyazı Varaz-Trdatın arvadı, həmin təriqətin tərəfdarı olan Albaniya çariçası Sparma ilə gizli razılaşmaya gəlib hökmranlıq şöhrətpərəstliyi naminə onunla belə qərara gəldi: «Əgər sən məni Albaniya katolikosluğuna seçdirsən, mən bütün Albaniyaya Xalkedon təriqətini qəbul etdirərəm» (79, k. III, f.3; 341, s.68). Lakin bəzi alban ruhaniləri, yepiskopları onlara qarşı çıxdılar: «Onların hamısı keşişlərin əksəriyyətilə kilsə qurultayını çağırıb orada Nerses-Bakuru və onun küfr saçan tərəfdarlarını lənətlədilər». (79, k.III, f.3; 341, s.68).

Alban dini məclisi ölkədə baş verən bu hadisə ilə əlaqədar olaraq erməni katolikosu İlyaya kömək üçün müraciət etdilər: «İndi bizim həmişə xeyirxah keşiş saydığımız Nerses canavara dönüb İsanın şüurlu dindarlarını parçalamağa başladı. Buna görə biz sən, zati-müqəddəsə xəbər göndəririk ki, sən buyurub bizə gələsən və bizim yaramızı sağaldasan» (79, k.III, f.4; 341, s.69). Erməni katolikosu İlya bu məktubu alandan sonra, Albaniyaya gedib, onlara bir din qardaşı kimi kömək etmək, Albaniyada xristianlar arasında parçalanmaya, bölünməyə, qarışıqlıqlara son qoymaq əvəzinə, müsəlman xəlifə Əbdül Malikə məktub yazır: «Bərdə taxtında oturan indiki Albaniya katolikosu Bizans imperatoru ilə sazişə girib, öz ibadətlərində onun adını çəkir və ölkəni məcbur edir ki, hamı dini etiqadda ona qoşulsun.

İndi qoy bu sizə məlum olsun və bu məsələni diqqətinizdən kənar etməyiniz, çünki bu bədəfkarlıqda onun bir əyan qadın həmfikri də vardır. Böyük hökmdar, siz öz hökmünüzlə əmr buyrun ki, onlar Allaha qarşı işlətdikləri günahlarına görə müstəhəqq olduqları cəzaya çatsınlar» (79, k.III, f.5; 341, s.69). İlk orta əsr qaynağının məlumatına görə bundan sonra erməni katolikosu İlya, xəlifə Əbdül Malikin əmri ilə Bərdə şəhərində dini

məclis çağırdı (84, k.II, f.2; 341, s.69). Erməni katolikosu İlyanın əmri ilə alban katolikosu Nerses-Bakur xəlifə Əbdül Malikin yanına göndərildi (84, k.II, f.2; 341, s.69). Bu yuxarıda gətirilən məlumatları eyni zamanda, digər ilk orta əsr qaynaqları da təsdiq edirlər (80, s.78, 73, s.92). İlk orta əsr alban yazılı qaynağı, M.Kalankaytuklu məlumat verərək göstərir ki: «Bu murdarı geniş məhkəməyə gətirib İlyanın qabağında dayandırdılar. Özünə bəraət qazandıra bilmədiyi üçün onu ağır işgəncələrə saldılar. Bundan sonra onu Sparma ilə ayaq-ayağa zəncirləyib uzaq qərib ölkəyə göndərməyə hazırladılar. Lakin o, səkkiz gün heç bir şey yemədiyi üçün vəfat etdi» (79, k. III, f.7; 341, s.69).

Alban katolikosu Nerses-Bakurun ölümündən sonra bu dini məclisdə alban katolikosluğu və ruhani əyanları xəlifə Əbdül Malik və erməni katolikosu İlya qarşısında intizam verdilər ki, erməni kilsəsinə tabe olacaqlar, bundan sonra alban kilsəsi müstəqilliyini tamamilə itirərək erməni kilsəsinə tabe oldu (79, k.III, f.8,9, 341, s.69). Belə vəziyyət 1836-cı ilə qədər, yəni rus çarının hökmü ilə alban katolikosluğu mənsəbinin ləğv edilməsinə qədər davam etdi (403, c.II, s.235).

Beləliklə, ilkin orta əsr yazılı qaynaqlarının və arxeoloji qaynaqların araşdırılması, tədqiqi göstərir ki, yeni ictimai münasibətlərin ölkədə feodalizmin bərqərar olması üçün feodalizmə qədərki köhnə dini baxışların, astral dinin ləğvi ilə nəticələnməli idi. Onun ləğvi isə ölkədə ictimai quruluşun dəyişməsində bir növ inqilabi formada baş verirdi.

İlkin orta əsr yazılı qaynaqların və arxeoloji qaynaqların, digər materialların tədqiqi göstərir ki, xristian dininin Albaniyada yayılmasından qabaq ölkədə astral dini baxışlar çox geniş yayılmışdır. Eramızın II əsrindən başlayaraq xristian dini, onun baxışları Albaniyada yayılmağa başladı. Xristian dininin baxışları Albaniyaya birbaşa yarandığı yerdən – yəni Yerusəlimdən gələn xristian missionerləri vasitəsilə yaylır və təbliğ olunurdu. IV əsrin əvvəlində isə xristian dini Albaniyada dövlət dini kimi qəbul edildi və dövlət dini elan olundu.

Lakin orta əsr qaynaqlarının və arxeoloji qazıntıların məlumatlarının araşdırılması və tədqiqi göstərirdi ki, şah, əyanlar, iri feodallar tərəfindən qəbul edilmiş xristian dini, tədqiq etdiy-

imiz dövrdə Albaniyada geniş xalq kütlələri arasında yayılıb ümumxalq dininə yüksələ bilmədi. Xristian dini Albaniyada hər yerdə eyni şəkildə yayılmadı. Bütün ilkin orta əsr dövründə, II-VII əsrlərdə Albaniyada xristian dini və xristianlaşma, bir tərəfdən zərdüştlüklə, manixeyçiliklə, digər tərəfdən isə çoxluq təşkil edən, yerli aşağı ictimai təbəqə zümrəsinin dini baxışları olan təbiət qüvvələrinə, ruhlara sitayiş edən bütpərəstlərlə mübarizədə olmuşdur. Araşdırmalar göstərir ki, Albaniyada bütpərəstlərlə və digər dini baxışlarla kəskin mübarizədə, şah başda olmaqla iri feodal iyerarxiyası dururdu.

Xristianlığın Albaniyada ilk orta əsrlərdə yayılmasını irəliyə atılmış addım kimi qəbul etmək lazımdır, çünki bu yeni feodal istehsal qüvvələrinin yeni istehsal münasibətlərinin inkişafına maneçilik göstərən bütpərəst qüvvələrə qarşı çevrilmişdi. Xristianlıq Albaniyanın siyasi, iqtisadi, mədəni cəhətdən Şərqin qabaqcıl xristian ölkələrinə yaxınlaşdırılmasına kömək göstərdi. Xristian dininin Albaniyada dövlət dini kimi qəbul edilməsi, onu yaxın qonşularla: ermənilər, gürcülərlə iqtisadi, siyasi, mədəni cəhətdən daha da yaxınlaşdırdı.

Albaniyada xristianlığın qəbul edilməsi nəticəsində meydana gəlmiş kilsə feodal iyerarxiyası ölkədə mühüm bir qüvvəyə çevrilərək, siyasi ideoloji təsirini Albaniyada yaşayan xristian əhali üzərində genişləndirir və xalq kütlələrinin istismar alətinə çevrilirdi.

İlkin orta əsr yazılı qaynaqlarının araşdırılması və tədqiqi göstərir ki, Albaniyada ilk orta əsrlərdə xristian dinini alban dilində təbliğ etmək, yaymaq üçün dini kitablar da mövcud idi. İlkin orta əsrlərdə alban əhalisinə müqəddəs dini kitablar – «İncil», «Əhdi-ətiq» (Bibliyanın xristianlıqdan əvvəlki qədim hissəsi), «Əhdi-cədid» («İncil»in və başqa dini kitabların adı) alban dilində məlum idi. Alban ruhaniləri ölkədə xristian dinini yayarkən, onu təbliğ edərkən bu müqəddəs dini kitablardan istifadə edirdilər.

İlkin orta əsr yazılı qaynaqlarının araşdırılması və tədqiqi parlaq şəkildə göstərir ki, Alban kilsəsi yarandığı və xristianlıq dövlət dininə çevrildiyi gündən – IV əsrdən başlayaraq VII əsr daxil olmaqla heç bir digər xristian kilsəsinə tabe olmayan tam müstəqil kilsəyə malik olmuşdur. Bu kilsənin işlərinə nə erməni,

nə gürcü, nə də başqa heç bir kilsə qarışmaq, müdaxilə etmək hüququna malik deyildi.

İlkin orta əsr yazılı qaynaqlarının araşdırılması göstərir ki, alban kilsəsinin başında ilkin orta əsrlərdə, yüksək mənsəbə–rütbəyə malik adam, katolikos (arxiyepiskop, patriarx) dururdu. Alban kilsəsinin başçısı olan katolikosları, başqa erməni katolikoslarından fərqli olaraq, alban yepiskopları tərəfindən «əl qoyulurdu» – seçilirdilər. Alban katolikosları çağırılmış dini məclislərdə seçilirdilər–şahlar, hökmdarlar, hər bir dini yepiarxiyanın bütün nümayəndələri, feodallar və əyanlar iştirak edirdilər. Alban kilsəsi 705-ci ilə qədər öz katolikoslarını seçməkdə tam müstəqilliyə malik idi və müstəqil idilər. İlkin orta əsr yazılı qaynaqlarının araşdırılması və tədqiqi göstərir ki, şahların, katolikosların, feodalların, əyanların iştirakı ilə alban kilsəsinin dini məclisləri çağırılırdı. Alban kilsəsinin dini qanunları əsasında çağırılan bu dini məclislərdə xristian ruhanilərinin, digər təbəqələrin hüquqi, iqtisadi imtiyazları hazırlanır, qəbul edilir və möhkəmlənirdi.

İlkin orta əsr yazılı qaynaqların araşdırılması və tədqiqi göstərir ki, alban şahları xristian kilsəsinin siyasi ideoloji təsirini geniş xalq kütlələri üzərində genişləndirirdilər. Onlar tərəfindən kilsə feodallarına, əyanlarına geniş hüquqi, iqtisadi imtiyazlar verilirdi.

İlkin orta əsr yazılı qaynaqlarının araşdırılması və tədqiqindən aydın olur ki, Albaniyada ilkin orta əsrlərdə əhali üzərinə xristian kilsəsi tərəfindən müxtəlif vergilər təyin olunurdu və əhali kilsəyə vergilər verirdi. Albaniyada kilsə təşkilatı, ilkin orta əsrlərdə yerli əhalidən gəlirin onda biri şəklində və digər formada toplanan vergilər vasitəsilə, ruhanilər zümrəsini təmin etmək, saxlamaq və öz funksiyalarını həyata keçirmək məqsədi güdüldüyü üçün möhkəm iqtisadi bazaya malik olurdular. Albaniyanın yerli əhalisindən xristian kilsəsinin xeyrinə toplanılan vergi vəsaiti vasitəsi ilə kilsə və ruhanilər zümrəsi heç də az olmayan həmişəlik iqtisadi gəlirə malik olurdular.

VII FƏSİL

YADELLİ İŞĞALÇILARA QARŞI MÜBARİZƏ VƏ MÜHARİBƏLƏR

Albaniya ölkəsi digər qonşu ölkələr kimi uzun müddət böyük dövlətlərin, imperiyaların, erkən orta əsrlərin başlanğıcından etibarən isə Sasani və Bizans dövlətini maraqlandırırdı. Albaniya dövləti öz ərazisini və mənafelərini qorumaq üçün regionun güclü dövlətləri ilə mütəmadi olaraq həmişə mübarizə aparmaq məcburiyyətində olmuşdur. Çünki varlanmaq, mal-dövlətə sahib olmaq ehtirası yadelli işğalçıları zəngin Albaniya ölkəsinin ərazilərinə cəlb edir və onları bura çəkib gətirirdi. Albaniya ölkəsinin malik olduğu strateji-coğrafi şərait və bu gözəl diyarın təbii sərvətləri daim xarici istilaçıları maqnit kimi bura cəlb edirdi.

Mövcud olduğu bütün tarixi boyu Albaniya dövlətinin ərazisi mütəmadi olaraq müharibələr meydanına çevrilmişdi. Əslində elə yadelli işğalçıları bura cəlb edən də Albaniya ölkəsinin zəngin təbiəti, inkişaf etmiş iqtisadi təsərrüfat həyatı idi. Bu ölkə də ilk orta əsrlərdə həm kənd təsərrüfatının, həm sənətkarlığın, həm şəhərlərin, həm də ticarətin genişləndirilməsi üçün zəruri olan bütün imkanlar və amillərə malik idi. Albaniyada iqtisadi təsərrüfat həyatının ilk orta əsrlərdə inkişafı və yüksək səviyyədə olması yuxarıda araşdırdığımız fəsillərdə öz əksini geniş şəkildə tapmış və işıqlandırmışdır.

İlk orta əsr alban tarixçisi M.Kalankaytuklu özünün əsərində bir neçə cümlə ilə Albaniyanın təbii sərvətlərinin və təbii zənginliklərinin geniş mənzərəsini yaratmışdır. O yazır: «Uca, böyük və Kiçik Qafqaz dağlarının qoynunda yerləşən Alban ölkəsi öz saysız-hesabsız təbii sərvətləriylə həddindən artıq gözəl və heyranedici bir məmləkətdir. Böyük Kür çayı sakit-sakit bu ölkənin düz ortasından axır və iri, xırda balıq gətirib sularını Xəzər dənizinə tökür. Çayın sahilləri boyu münbit çöllərində külli miqdarda taxıl, üzüm becərilir, neft, duz, ipək vardır, pambıq becərilir və çoxlu zeytun ağacları var. Onun dağlarında qızıl, gümüş, mis və oxra çıxarılır» (79, k. I, f.5; 341, s. 17-19).

Alban dövləti təcavüzkar siyasət yeritməkdən çox uzaq idi. Albanlar və Albaniyada yaşayan digər xalqlar müharibələrə əsasən müdafiə məqsədi ilə qoşulurdular. Dinc, yaradıcı əmək albanlar və Albaniyada yaşayan xalqlar üçün xarakterik idi. Əminamanlıq şəraitində yaşamaq və dolanmaq üçün Albaniyanın hüdudları daxilində albanlar və Albaniyada yaşayan xalqlar üçün zəruri şərait mövcud idi. Albanların və Albaniyada yaşayan digər xalqların iqtisadi həyat səviyyəsi, malik olduqları zəngin sərvətləri həmişə xarici istilaçıların diqqətini özünə cəlb edirdi. Buna görə də Albaniya ölkəsi əvvəlki əsrlərdə olduğu kimi, ilkin orta əsrlərdə də mütəmadi olaraq yadelli işğalçıların təcavüzünə məruz qalırdı (423, s. 68).

İlkin orta əsrlərdə Albaniya dövlətinin ərazisi şimaldan gələn yadelli işğalçıların – Bizans və Sasani imperiyalarının mübarizə meydanına çevrilmişdi. Bizans ilə Sasani imperiyaları arasında Albaniyanı ələ keçirmək üstündə gedən mübarizədə təkcə siyasi, strateji-coğrafi məqsəd deyil, həmçinin iqtisadi məqsəd də güdülürdü. Bu mübarizənin ən kəskin vaxtlarında şimaldan gələn köçəri xalqlar gah Bizansın, gah da sasanilərin təhriki ilə onların köməyinə gəlirdilər. Digər tərəfdən isə bu xalqlar Albaniyanın kəndləri və şəhərləri, zəngin iqtisadiyyatı, sərvətləri hesabına varlanmağa can atırdılar.

İlkin orta əsrlərin ilk dövrlərindən etibarən Albaniya ölkəsinə Sasanilərin və Bizans imperiyasının təhriki ilə şimal tayfalarının basqınları gücləndi. Onların hər yürüşü ilə Albaniyada olan zəngin şəhərlər, kəndlər dağıdılır, əhali talan edilir, ölkənin var-yoxu toplanıb şimala daşınırdı. Bu yürüşlər oturaq həyat tərzi keçirən Alban əhalisinə, onun yüksək əkinçiliyə malik təsərrüfatına, iqtisadiyyatın digər amillərinə və ölkənin mədəni həyatına ən böyük zərbə idi.

Yadelli işğalçıların Albaniya ölkəsinə, dövlətinə yürüşləri və müharibələr haqqında ilkin orta əsr mənbələri (bizans, qədim erməni, gürcü və ərəb coğrafiyaçıları) geniş məlumatlar saxlamışlar.

İlkin orta əsr mənbələrinin verdiyi məlumatlara görə II-III əsrlərdə müxtəlif şimal tayfaları, erməni hakimi Vaqarşaqın (197-215) hakimiyyəti dövründə, şah Vnasp – Surxanın başçılığı ilə Dərbənd keçidindən adlayaraq Albaniyaya və digər Zaqaf-

qaziya xalqlarına hücüm etmiş və bu əraziləri talan etmişlər (76, k. II, f. 65; 84, к. I, f. 45; 73, s. 36; 365, s. 114). İlkin orta əsr mənbələrinin məlumatlarından aydın olur ki, erməni hakimi Vaqarşaqın və müttəfiqlərin qoşunları şimal tayfalarına güclü müqavimət göstərmiş və onları Albaniyanın ərazisindən çıxarmışlar. Bu savaşda erməni hakimi Vaqarşaq öldürülmüşdür (76, k. II, f. 65; 365, s. 114).

Erməni hakimi III Trdatın (287-330) hakimiyyəti dövründə şimal tayfaları yenidən Albaniyaya Qarqar çölü (Mil düzü) istiqamətində yürüş etdilər. İlkin orta əsr mənbələrinin məlumatlarına görə, erməni hökmdarı III Trdat öz ordusunu sıraya düzüb Qarqar çölünə (Mil düzünə) endi və sərt bir döyüşdə şimallılarla üz-üzə gəldi (76, k. II, f. 84; 84, k. II, в-1; 341, s. 75). Bu döyüşdə III Trdat şimal tayfalarını Qarqar düzündə böyük məğlubiyyətə uğratdı (76, k. II, f. 85; 84, k. II, f.1; 341, s. 75). Trdat onları öz ölkəsinə qədər təqib etdi (76, k. II, f.85; 73, s. 43-34, s. 75). Şübhəsiz ki, albanlar da Albaniyanın ərazisində xarici istilaçılara qarşı aparılan bu döyüşlərə biganə qala bilməzdilər və onlar da bu savaşlarda yaxından iştirak edirdilər.

IV əsrin 30-cu illərində Albaniya, Ermənistan yenidən şimal tayfalarının hücumlarına məruz qaldılar. Bu haqda bizə ilk orta əsr qaynaqları F.Buzandasi, M.Xorenasi, Asoqik, Vardan, alban tarixçisi M.Kalankaytuklu məlumat saxlamışlar (403, c., II, f., s. 311; 451, s. 188; 409, s. 16).

Erməni çarı III Trdatın ölümündən sonra Albaniyanı və Ermənistanı yenidən müharibələr dalğası bürüdü. İlkin orta əsr qaynağının məlumatına görə Albaniyanın Paytakaran vilayətində Sanatürk (Sanatruk), yaxud Sanesan (298-338-ci illər) özünü hökmdar elan etdi (76, k. III, f. 3; 341, s. 75). Paytakaran şəhərində hakimiyyəti ələ aldıqdan sonra öz ərazilərini genişləndirmək üçün bir sıra planlara əl atmalı oldu. İlkin orta əsr mənbələrinin verdiyi məlumata görə, III Trdatın ölümündən sonra Paytakaran şəhərində albanlara hökmranlıq etməyə başlayan Sanatürk bütün Ermənistan torpağını ələ keçirib onun hakimi olmaq istəyirdi (76, k. III, f. 3; 73, s. 43; 84, k. II, f. 1, 341, s. 75). Sanatürk 337-ci ildə albanlardan ibarət 30 minlik ordu toplayaraq Ermənistan üzərinə hücuma keçdi. Vəziyyətin mürək-

kəbləşdiyini görən ermənilər Roma-Bizans imperatoru Konstantinə müraciət etdilər (76, k. III, f. 5; 347, s. 76). Roma-Bizans imperatoru Konstantin III Trdatın oğlu II Xosrovu (332-338-ci illər) erməni taxtına oturtmaqla həm də onlara kömək üçün qoşun göndərdi (76, k. III, f. 6; 84, k. II, f. 1). Bu qoşunlara Roma sərkərdəsi Antiox başçılıq edirdi. O, erməni aspeti Baqratunu və gürcü hakimi Mihranla birlikdə Sanatürkün (Sanesan) qoşunları üzərinə hücuma keçdi (76, k. III, f. 6; 84, k. II, f. 1; 341, s. 76). İlkin orta əsr alban tarxiçisi M.Kalankaytuklu bu hadisələri qısaca olaraq öz əsərində belə təsvir edir: «Trdatın oğlu Xosrov köməyinə Antioxu və onun yunan ordusunu, Baqratı qərb qoşunları ilə və gürcülərin hakimi olan Mihranı çağırır və onlarla birlikdə Albaniyaya hücum edir. Qoşunun böyük hissəsini Paytakaran şəhərində qoyub Sanatürk qalan alban ordusu ilə tələsik İran şahı Şapurun yanına gedir» (79, k. I, f. 12; 341, s. 76). Sanatürkün (Sanesan) Paytakaran şəhərində qoyub getdiyi qoşunlar onun köməyinə gəlmiş Sasani qoşunlarının olduğu güman edilir. Sanatürkün köməyinə Sasani qoşunlarının gəlməsindən və eləcə də onun üstünə hücum başlananda Şapurun yanına getməsindən aydın olur ki, bu döyüşdə Sanatürk Sasanilərlə ittifaqda idi və onların köməyinə arxalanırdı. Sanatürkün qoşunlarının parçalanması onların üstünə gələn müttəfiq qoşunlarına qarşı müqaviməti də xeyli zəiflətmişdi. Ona görə də Antioxun rəhbərliyi altında olan qoşunlar asanlıqla Albaniya ərazisinə soxuldular. Heç bir müqavimətə rast gəlmədən Albaniyadan çoxlu var-dövlət və sərvət toplayan Antiox bununla da öz vəzifəsini bitmiş bildi və yenidən öz ölkəsinə qayıtdı (76, k. III, f. 6; 84, k. II, f. 1; 341, s. 76).

Antioxun öz qoşunları ilə geri qayıtmasından sonra Sasani hakimlərinin yanında olan Sanatürk itirdiyi mövqelərini bərpa etmək üçün əlverişli şərait yarandığını güman etdi və Sasani çarı II Şapurun (309-379-cu illər) əmri ilə 30 minlik Alban ordusu toplayaraq Ermənistanın mərkəzinə hücum etdi. Sanatürk (Sanesan) Ermənistanın paytaxt şəhəri Valarşapatı tutdu (76, k. III, f. 9; 79, k. I, f. 12; 341, s. 76).

İlkin orta əsr mənbələrinin bəzisində Sanatürkün ordusunun sayı 20 min göstərilir və o da qeyd olunur ki, Sanatürkün ordu-

suna şimal tayfalarının dəstələri də daxil idi (76, k. III, f. 9; 341, s. 77). Elə həmin ilkin orta əsr mənbələrindən məlum olur ki, Sanatürkün qoşunları döyüşün başlanğıcında uğur qazanaraq ermənilərin şimal bölmələrini məğlubiyyətə uğratmağa nail olmuş və təxminən bir il ermənilərin ərazisində qalmışdılar (71, k. III, f. 9; 87, k. III, f. 1; 341, s. 77-78). Ancaq 338-ci ildə Oşakan qalası yaxınlığındakı döyüşdə erməni qoşunları yunan və iber qoşunlarının köməyi ilə alban qoşunlarına üstün gələ bilmişdilər (76, k. III, f. 9; 87, k. III, f. 7; 341, s. 78). II Şapur albanların köməyinə hərbi dəstələr göndərmədi. Bundan istifadə edən erməni qoşunları Alban «qoşunlarının qalıqlarını qabaqlarına qatıb balaşiçilər ölkəsinə qədər qovdular və böyük hökmdar Sanesanın başını erməni çarına gətirdilər» (76, k. III, f. 12; 341, s. 78).

İlkin orta əsr qaynaqlarının verdiyi məlumata görə, 338-ci ildə Albaniya yenidən müharibələr meydanına çevrildi. Bu dəfə şimal tayfaları birləşərək özlərinin çoxsaylı və güclü qoşunları ilə Albaniyaya hücum etdilər. Çola keçidindən keçən şimal tayfaları Albaniya ərazisində hərbi uğurlar qazandılar və təxminən dörd il ərzində Albaniya ərazisində qaldılar (76, k.III, f.1.2; 341, s.78).

Görünür şimal tayfaları Albaniya qoşunlarının müqavimətini qıraraq burada möhkəmlənə bilmişdilər. Çünki onlar Albaniya ərazisindən Ermənistan üzərinə hərbi yürüşlər həyata keçirirdilər (76, k.III, f. 12; 341, s.78). Bu zaman erməni hökmdarı Tiran (338-345-ci illər) II Şapur ilə sazişə girmişdi və Sasanilər ermənilərə kömək göstərirdilər (76, k.III, f.12; 341, s.78). Ancaq Albaniyanın təbii sərvətlərinə göz dikən, onun strateji mövqelərini nəzarət altında saxlamağa çalışan Sasani hökmdarları Albaniya ərazisinin şimal tayfaları tərəfindən ələ keçirilməsinə razı deyildilər və buna görə də II Şapur şimal tayfalarının üzərinə böyük bir qoşun göndərdi. Alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «Bundan sonra şahın sarayına xəbər çatdı ki, saysız-hesabsız xəzər qoşunları Çola keçidini aşaraq bizim ölkəyə daxil olub. Şapur Asuristan, Xorasan və Xarəzmdən çox miqdarlı qoşun, Atropatenanın vilayətlərindən çoxlu cəsur iranlıları, ermənilərdən, gürcülərdən, albanlardan və Qafqaz dağlarından on iki dildə danışan vəhşi qəbilələrdən misilsiz sayda ordular toplayaraq onların (xəzərlərin) üstünə hücum etdi» (76,

k.II, f.1; 341a, s.147) və beləliklə, dörd ildən artıq Albaniyada mövcud olan şimal tayfalarının qoşunları öz torpaqlarına qovuldular.

Bu vaxt eyni zamanda Albaniya ilə Sasanilər arasında müttəfiqlik əlaqələrinin olmasını ilk orta əsr qaynağı Amian Marseli də məlumat verir (451, s.168; 341 a, s.147). Sasani hakimləri Albaniyada öz nüfuzlarını möhkəmlətmək üçün müxtəlif yollara əl atırdılar. Əvvəllər onların Albaniya ilə əlaqələri ittifaq münasibətlərində əks olunmuşdu (87, k.V, f.4; 76, k.III, f.36-37; 79, k.I, f.13; 329, s.92). Sonradan bu ittifaq münasibətlərini daha da möhkəmləndirmək üçün Alban və Sasani şah ailələri arasında nigah əlaqələri yaradılmışdı.

Arşaki sülaləsindən olan Albaniya şahı Urnayır (313-371) Sasani şahı II Şapurun bacısı ilə evlənmişdi (79, k.I, f.9; 341, s.31-32). Sasanilərlə əlaqələrin güclənməsi erməni hökmdarlarını təmin etmirdi və ona görə də IV əsrin ikinci yarısından etibarən onların Albaniya ilə olan ənənəvi dostluq münasibətləri zəifləməyə başladı.

Erməni hökmdarları Sasanilərin Qafqazda möhkəmlənməsinin qarşısını almaq üçün silahlı mübarizəyə başladılar. Bu mübarizədə albanlar Sasanilərin müttəfiqi kimi çıxış edirdi. 369-374-cü illərdə alban şahı Urnayr Sasani şahı II Şapurla birlikdə ermənilərə qarşı vuruşurdu. İlkin orta əsr qaynaqlarının şah Urnayr haqqında olan məlumatlarından aydın olur ki, alban şahı bu döyüşlərdə şəxsən iştirak etmişdir (87, k.V, f.4; 341, s.79).

Ermənilərə bu savaşlarda romalılar kömək edirdi. Daha doğrusu, Sasani-alban hərbi ittifaqına qarşı erməni-roma hərbi ittifaqı dayanmışdı. Onlar arasında baş verən ən böyük döyüşlərdən biri 371-ci ildə Dzirav çölündə baş vermişdi (87, k.V. f.4; 76, k.III, f.36; 341, s. 79-80).

Sasani-alban ittifaqında qoşunlara ümumi rəhbərlik edən Sasani şahı II Şapur dəstələrin taktiki vəzifələrini müəyyənləşdirərkən, ilkin orta əsr mənbələrinə görə, alban çarı Urnayr Şapurdan alban qoşunlarına özü rəhbərlik etməsi barədə icazə istəyir (87, k.V, f.4; 341, s.79). Şapur alban şahı Urnayrın bu xahişinə əməl edir və qərara alınır ki, alban şahının rəhbərliyi altında olan alban qoşunları erməni qoşunları ilə vuruşsun, iranlılar isə romalılarla (87, k.V, f.4; 341, s.79).

İlkin orta əsr alban tarixçisi M.Kalankaytuklunun əsərində bu döyüş haqqında çox qısa məlumat vardır. Orada qeyd olunur ki, Sasanilərlə ittifaqda erməni-roma qoşunlarının üzərinə hücum edən alban şahı Urnayr erməni sparapeti Muşeq Mamikonyan tərəfindən yaralanmışdır (79, k.I, f.13; 341, s.80). Döyüşün gedişi və Urnayrın yaralanması barədə erməni mənbələrində daha müfəssəl məlumat vardır. Həmin mənbələrdə Roma qoşunlarının fəaliyyəti geniş təsvir olunmaqdan daha çox erməni qoşunları və onun rəhbəri Muşeq Mamikonyanın fəaliyyəti vəsf olunur (87, k. V, f. 4-5; 76. k.III, f.36; 341, s. 79-80). İlkin orta əsr mənbələrində göstərilir ki, M.Mamikonyanın qoşun dəstələri ağır döyüşlərdə fars qoşunlarını məğlub edir və sonra alban qoşunları ilə döyüşə girirlər. Bu döyüş ermənilərin xeyrinə nəticələnir və əlbəyaxa döyüşdə M.Mamikonyan hətta Urnayrla da qarşılaşıb vuruşur. Ancaq onu qəsdən öldürmür. Ona yaxınlaşıb nizəsinin ucu ilə onun dəbilğəsindən vurur və bildirir ki, Urnayr şah olduğu üçün onu öldürmək fikrində deyil və beləliklə onun sağ-salamat Albaniyaya qayıtmasına imkan verir (87, k.4. f.4; 76, k. III, f.36; 341, s. 79-80). Alban şahı Urnayr erməni sərkərdəsinin bu hərəkətini unutmur və yaxşılığın əvəzi olaraq bir müddətdən sonra M.Mamikonyanı və onun qoşunlarını real təhlükədən xilas edir (87, k.V, f.5; 76, k. III, f. 36; 341, s. 79-80).

İlkin orta əsr yazılı qaynaqların verdiyi məlumatlardan aydın olur ki, 371-ci ildə ermənilərə qarşı mübarizədə bir sıra ölkələr – Atropatenlər, Arsaxın (indiki Dağlıq Qarabağ) – Marların ölkəsi (87, k.V,f. 8,11,12; 341, s.80), Kaspilərin ölkəsi (87, k.V, f.12;13; 341, s.80), İberiyanın və Albaniyanın (87, k.V, b. 8; 341, s. 80) əhalisi Sasani şahı II Şapura qoşulmuşdular. Dzirav döyüşündə alban dəstələri ilə yanaşı başda Şerqir olmaqla lek tayfası da Sasani ordusu tərəfində çıxış edirdi (79, k.I, f. 13; 341, s.80).

Sasani şahı II Şapur Dzirav çölündə baş verən döyüşün nəticələrindən razı qalmamışdı və erməni-roma qoşunlarını məğlubiyyətə uğratmaq üçün yeni hücuma hazırlaşırdı. Çox güman ki, II Şapur bu döyüşə gizli hazırlaşırdı və ermənilərin üzərinə qəfil hücuma keçmək istəyirdi. Alban şahı Urnayr da erməni qoşun-

larını bu qəfil hücumdan xilas etmək üçün Sasani şahı II Şapurun niyyətləri barədə M.Mamikonyana xəbər göndərmişdi (87, k.V, f.5; 341, s.79-80).

İlkin orta əsr mənbələrinin məlumatlarından aydın olur ki, 371-ci ildə baş verən döyüşlərdən sonra M.Mamikonyan öz qoşunları ilə onlara qarşı müqavimət göstərmiş olan iberlərin, arsaxlıların, marların, kaspilərin, o cümlədən albanların üzərinə basqınlar etdilər, onların torpaqlarını viran qoydular (74, k.II, f.35).

Sasanilərin Qafqaz xalqlarının ərazilərinə olan iddiaları bununla sona yetmədi. Bu region uğrunda onların romalılarla baş verən döyüşlərindən birində Roma qoşunları məğlubiyyətə uğradı və 390-cı ildə bağlanmış sülh müqaviləsinə əsasən Ermənistan, İberiya və Albaniya Sasanilərin hakimiyyəti altına keçdi. Ancaq bu asılılıq Albaniya üçün mütləq deyildi, çox nominal xarakter daşıyırdı. Albaniyada yerli hakimlərin hakimiyyəti saxlanmışdı. Bununla belə Albaniyada müxtəlif vergilər toplanıb Sasanilərin xəzinəsinə göndərilirdi (68, f.III, 341, s.56). Albanlar Sasanilərin apardığı müharibələrə (68, f.II, 341, s. 55-56), böyük tikinti işlərinə, xüsusən də ağır zəhmət tələb edən böyük müdafiə divarlarının tikintisinə cəlb edilirdilər (68, f.II; 341, s. 55-56). Sasanilərin Qafqaz xalqlarına, o cümlədən albanlara qarşı zülmü getdikcə güclənirdi və V əsrin birinci yarısında bu zülm dözülməz hal almışdı. Bizansla Atilla arasında olan döyüşlərin genişlənməsindən və Qafqaz xalqlarının siyasi zəifliyindən istifadə edən Sasani şahı II Yezdəgerd (438-457) Albaniyaya qarşı təzyiqləri daha da gücləndirdi və onların asılılığını daha da genişləndirmək üçün zərdüştlüyün Albaniyada dövlət dininə çevrilməsi və yayılması üçün qəti tədbirlər həyata keçirməyə cəhd göstərdi. Bu barədə o, Ermənistana, İberiyaya və Albaniyaya xüsusi məktublar və fərmanlar da göndərdi (74, k.III, f.22, 341, s.56). Sasanilər məqsədlərinə nail olmaq üçün müxtəlif vasitələrlə albanların iradəsini qırmağa çalışırdılar. Onlar zərdüştlüyü qəbul edənlərin bütün vergilərdən azad olunacağını və əksinə, bu işə müqavimət göstərənlərin ölümə məhkum ediləcəklərini, arvad-uşaqlarının isə sürgünə göndəriləcəklərini vəd edirdilər (74, k.II, f.25; 68, III; 341, s.56). Bundan sonra məzdəki məzhəbini yaymaq üçün İrandan Qafqaza 700 nəfər

məzdəki kahinləri göndərildi ki, onların da 300 nəfəri Albaniyada fəaliyyət göstərməli idi (68, f.II, III; 341, s.57). Bu təhlükənin qarşısını birgə almaq üçün albanlar ermənilərin yanına nümayəndələr göndərdilər. Ermənilər albanlarla birlikdə Sasanilərə qarşı mübarizə aparmağa razı oldular. Alban nümayəndələrindən xahiş edildi ki, çıxış yolu tapılana qədər iranlıların kilsələri dağıtmasına yol verməsinlər (68, f.III; 79, k.II; 341, s. 59-60).

Yaxınlaşan təhlükənin qarşısını almaq üçün erməni sərkərdələri ilk növbədə kömək üçün Bizans imperatoru Feodosiyə müraciət etdilər. İmperator Feodosi Qafqaz xalqlarına kömək göstərməyə söz verdi. Ancaq onun qəfil ölməsilə vəziyyət dəyişdi. Onun yerinə taxta çıxan Markian kömək göstərməkdən imtina etdi. Belə olduqda, Qafqaz xalqları özləri Sasanilərə qarşı mübarizəyə qalxdılar. Ermənistan və İberiya ilə müqayisədə Albaniyada üsyançılar daha ağır şəraitdə mübarizə aparmalı idilər. Çünki bir tərəfdən Paytakaranda Sasani qoşunları var idi, o biri tərəfdən isə hun tayfalarına qarşı yürüşdən qayıdan on min nəfərlik Sasani qoşunları Çolada dayanmışdılar və sözsüz ki, onlar istənilən vaxt Albaniyada qalxmış üsyanın yatırılmasına cəlb oluna bilərdilər (68, f.III, 74, k. II f. 35; 79, k. II, f.2).

Sasanilərə qarşı cəbhə tutan üç xalqın üsyançı qoşunları üç dəstəyə bölünmüşdülər. Üsyançı qoşunların birinci dəstəsi Atropatena ilə Ermənistan sərhəddində dayanıb bu istiqamətdən hücum edə biləcək Sasani qoşunlarının qarşısını almalı idilər. İkinci dəstə Albaniyaya İran mərzbanı Mehrsebuxtun rəhbərliyi ilə Çoladan gələ biləcək Sasani qoşunlarının qarşısını almalı idi. Qoşunların bu dəstəsi İberiya qoşunları ilə birləşməli idi. Qoşunların üçüncü dəstəsi isə Ermənistanın daxilində qalmalı idi. Onlara erməni mərzbanı Vasak rəhbərlik edirdi (68, f. III; 341, s.60). Ancaq o, üsyançılara xəyanət etdi və Çoladakı İran qoşunlarının rəhbəri Mehrsebuxta xəbər göndərdi ki, üsyançı qoşunların bir hissəsi onun üstünə hücuma keçmək üçün hazırlıq görür. Vasak onu da çatdırdı ki, qoşunlar üç dəstəyə bölündüyü üçün onun üstünə hücuma hazırlaşan dəstənin elə böyük gücü yoxdur və məsləhət görür ki, Sasani qoşunları daha tez tərpənsələr və üsyançıları qabaqlasalar uğur qazana bilərlər (68, f.III, 74, II, f.36; 79, k.II, f. 2; 341, s.60).

Mehrsebuxt bu xəbəri eşidən kimi Çoladan hərəkət etdi və Kür çayını keçərək Xalxal (alban şahlarının qış iqamətgahı) şəhəri yaxınlığında üsyançı qoşunlarla qarşılaşdı (74, k.II, f.35; 68, f.III, 79, k.II, f.2). Onların döyüşü 450-ci ildə baş verdi. Sasani qoşunları bu döyüşdə say üstünlüyünə malik idilər. Buna görə də cəbhə xətti boyu qarşı-qarşıya aparılan döyüş Sasanilərin xeyrinə qurtara biləcəyini hiss edən üsyançılar maraqlı taktiki üsullara əl atdılar. Onlar Sasanilərin üzərinə cinahlardan hücum etdilər. Ola bilsin ki, üsyançılar cinahdan zərbə endirməmişdən qabaq yayındırıcı manevrlər etmişdilər. Sasani qoşunlarının əvvəlcə sağ cinahı güclü zərbəyə məruz qaldı. Burada üsyançılar hərbi təşəbbüsü ələ aldıqdan sonra Sasanilərin sol cinahına güclü zərbə endirdilər və bu zərbə Sasani qoşunlarının məğlub olmasına gətirib çıxardı (74, k.II, f.35; 68, f. III, 79, k.II f.2; 341, s.60-61). İlkin orta əsr alban tarixçisi M.Kalankaytuklunun yazdığına görə məğlubiyyətin şübhəsiz olduğunu görən Sasani qoşunları qaçmağa üz tutdular. Onların bir hissəsi də Lubnas çayını keçərkən suda boğulub öldü (74, k.II, f.35; 68, f.III; 79, k.II, 341, s. 60-61).

Sasani qoşunları ilə ilk döyüşdə uğur qazanan üsyançılar Albaniya ərazisində Sasanilərin əlində olan qalalara və şəhərlərə hücum etdilər. Qısa vaxt ərzində bir çox qalalar və şəhərlər Sasani qoşunlarından təmizləndi (68, f.II, 79, k.II; 341, s.67). Sasanilərin zülmündən və əsarətindən baş götürüb ev-eşiyindən qaçmış və Qafqaz dağlarında gizlənmiş albanlar üsyançıların uğurlarını eşidib geri qayıtdılar və onların arasında silah tutmağı bacaranlar üsyançıların sıralarına qoşuldular (74, k.II, f.35; 68, f.III; 79, i.II, f. II, 341, s. 67).

Albaniyanın daxilində hərbi uğurları genişləndirən üsyançılar Dərbənd keçidinə doğru hərəkət etdilər. Bu keçid Sasani qoşunlarının nəzarəti altında idi və orada müəyyən sayda qoşun hissəsi də saxlanmışdı. Keçidin strateji əhəmiyyətə malik olması üsyançıları həmin istiqamətdə hərəkət etməyə sövq etmişdi. Bu keçidə nəzarəti ələ keçirəndən sonra üsyançılar Sasani qoşunlarına qarşı mübarizəni genişləndirmək üçün şimal tayfaları ilə ittifaq da yarada bilərdilər (68, f.4. 451, s.210).

Üsyançılar Dərbənd keçidini tutaraq orada olan Sasani qoşunlarının hamısını məhv etdilər. Bu mühüm nöqtədə nəzarət

ələ keçirildikdən sonra oranın komandanı alban şahının nəslindən olan Vahan təyin edildi (68, f.III; 74, k.II, f.35; 79, k.II, f.2; 341, s.62).

Bir müddətdən sonra Vahan üsyançıların nümayəndəsi kimi danışıqlar aparmaq və ittifaq bağlamaq üçün hunlar ölkəsinə göndərildi (74, k.II, f.35; 68, f.III, 341, s.68). Görünür, Vahanın ittifaq bağlamaq təklifini eşidən hunlar üsyançıların gücünə şübhə ilə yanaşırdılar. Vahanın danışıqlarına, üsyançıların əldə etdikləri uğurların doğruluğuna yəqinlik hasil etmək üçün hunlar Albaniyaya nümayəndələr göndərdilər. Vahanın dediklərinin yalan olmadığını, Sasani qoşunlarına qarşı uğurlu döyüşlərin aparıldığını gördükdən sonra hunlar üsyançılarla ittifaq bağladılar və onlar kömək göstərməyə söz verdilər (68, f.III, 79, k.I, f.2; 341, s.62).

Üsyanın geniş vüsət almasından qorxuya düşən II Yezdəgerd qəti tədbirlərə əl atdı. O, öz vəziri Mehrnersexin rəhbərliyi altında çox böyük qoşun dəstəsini üsyançıların üzərinə göndərdi. Bununla yanaşı üsyançılar arasında danışıqlar apararaq onların müəyyən hissəsini vədlər və hədiyyələrlə tutduqları yoldan döndərə bildilər (68, f.IV, 341, 62-63). Üsyançıların qoşunlarının bir hissəsi öz mülklərinə, iş-güclərinə qayıtdılar. Hətta üsyana rəhbərlik edən V.Mamikonyan Albaniyada və İberiyada olan üsyançılar arasında müəyyən müxalifət yaradırdı. Sözsüz ki, bu cəhətlər üsyançıların ümumi gücünə də təsir göstərdi. Bununla belə 451-ci il iyunun 2-də Artaz vilayətindəki Avaray düzündə (indiki Maku ilə Xoy vilayətləri arasında) üsyançılarla Sasani qoşunları arasında böyük döyüş oldu (68, f.VI; 341, s.63). Sasani hakimlərinin bu döyüşə ciddi hazırlıq görmələrindən yəqin etmək olar ki, onlar üsyançıların silahlı qüvvələrinə nisbətən say üstünlüyünə malik idilər. Onların silahları və təchizatı da daha mükəmməl idi. Bu isə döyüşün taleyinin həll edilməsində mühüm amil oldu. Ancaq üsyançılar sayca az, silah və sursat baxımdan daha zəif olsalar da döyüşə böyük ruh yüksəkliyi ilə başladılar (68, f.VI, VIII, 341, s.63).

Üsyançıların bu döyüşdə də cinah taktikasına əl atmasından və ondan istifadə etməsindən güman etmək olar ki, onların arasında təcrübəli sərkərdələr var idi. Çoxsaylı düşmənə daha çox

itkilər vermək üçün üsyançılar onların zəif nöqtələrini müəyyənləşdirərək ilk əsas zərbəni də həmin nöqtəyə istiqamətləndirdilər. Bunun nəticəsində Sasani qoşunlarının sağ cinahı geri çəkilməyə məcbur oldu. Şah qvardiyasının seçilmiş dəstələri belə, üsyançıların təzyiqinin qarşısını ala bilmədilər. Vəziyyətin arzuolunmaz istiqamətdə inkişaf etdiyini görən Sasani sərkərdələri döyüşə yeni qüvvələr və döyüş filləri cəlb etdilər. Yaxşı təchiz olunmuş yeni qüvvələrin döyüşə cəlb olunması və ola bilsin ki, döyüş filləri ilə mübarizə üçün lazımi təcrübəyə malik olmamaları üsyançılar arasında böyük itkilərə gətirib çıxardı. İlk orta əsr erməni tarixçisi Yeqişe bu döyüş barəsində belə yazırdı: «Qəzəblə dolu olan hər iki tərəf hazır olduqdan sonra böyük qızğınlıqla və təsəvvüredilməz qeyzlə bir-birinin üstünə atıldılar. Hər iki tərəfdən qopan səslər qaralmış buludlarda səslənən göy gurultusu dalğalarını xatırladırdı. Dəhşətli hay-küydən dağ mağaraları titrəyirdi. Saysız-hesabsız dəbilqələrdən və silahlardan gözlərə batan qamaşdırıcı şüalar saçılırdı… Döyüş uzun çəkdi, axşamçağı idi, qaranlığın düşməsinə az qalırdı. Çoxlarına ölüm üz verdi… Sağ qalanlar isə dağlara çəkilərək qalın meşələrdə möhkəmlənir, düşmənlə rastlaşdıqda döyüşü davam etdirirdilər (68, f.VI, 341, s.63).

Yuxarıda göstərilənlərdən aydın olur ki, üsyançılar geri çəkilmək məcburiyyətində qalsalar da hələ uzun müddət dağlarda, meşələrdə möhkəmlənərək partizan müharibəsi aparırdılar, Sasani qoşunlarına itgilər yetirirdilər. Onlar buradan hunların yanına elçilər göndərib onlardan kömək dilədilər. Lakin hunlar bir il sonra böyük ordu ilə Sasanilərin torpağına hücum etdilər. Hunların yardımı dağılmış üsyançılara bilavasitə çatmadı (68, f.VII, 341, s.63). Lakin onlarda zülmə, istismara qarşı mübarizə əzmi heç də zəifləməmişdi. Buna görə də Sasani qoşunları üsyançıların müqavimətini qırsalar da onların iradəsini qıra bilməmişdilər və bir neçə ildən sonra alban xalqı təklikdə Sasani ağalığına qarşı üsyan qaldırdı.

451-ci ildə geniş vüsət almış üsyan yatırıldıqdan sonra Sasanilər Qafqaz xalqlarını, o cümlədən alban xalqını cəzalandırmaq üçün çoxlu cəza dəstələri göndərdilər. Xalqın vəziyyəti daha da pisləşdi. Vəziyyətin və yaşayışın daha da ağırlaşması, Sa-

sanilərin zülmünün hədsiz dərəcədə artması alban xalqının Sasani ağalığına qarşı narazılığını son həddə çatdırdı və Yezdəgerdin ölümündən sonra bu narazılıq dərhal Sasanilər əleyhinə üsyana çevrildi.

Üsyanın başlanması üçün əlverişli məqam sasani şahı Yezdəgerdin ölümündən sonra yarandı. Onun iki oğlunun hakimiyyət uğrunda bir-biri ilə mübarizə aparması, daxili didişmələr İranı da gücdən salmışdı. Belə bir əlverişli məqamın yetişməsindən istifadə edən Albaniya şahı II Vaçe 457-ci ildə üsyan qaldırıb Sasani vassallığını (hökmranlığını) tanımaqdan imtina etdi (68, f.7; 79, k. I, f. 10-XI; 451, s.214). Sasanilərin daxilində gedən çəkişmələr Firuzun (459-484) hakimiyyətə gəlməsinə qədər davam etdi. Yalnız onun hakimiyyəti illərində albanların İrana qarşı başladığı üsyanın yatırılması barədə əməli tədbirlərə əl atıldı. Bu da ölkə daxilində müəyyən sabitliyin əldə edilməsindən sonra mümkün oldu. Ona görə 457-ci ildə başlanan üsyan 459-cu ildə daha böyük vüsət aldı. Alban şahı II Vaçe Sasanilərə tabe olmaqdan imtina etdi və onu müdafiə edən qoşun hissələri ilə şimala doğru hərəkət edib Cola keçidini və dərəsini tutdular (68,f.X, 79, k.I, f.10). Keçidi tutmaqla II Vaçe Sasanilərin köməyinə gələ biləcək hunların hücum təhlükəsini aradan qaldırdı. Bundan sonra alban şahı II Vaçe Sasani qoşunlarının müqavimətini qırmaq və Albaniyada müstəqil dövlətçiliyin daha da möhkəmlənməsini təmin etmək üçün şimal tayfaları ilə danışıqlar apardı. O, on bir dağlı çarı ilə ittifaq bağladı, maskutlar ordusunu ölkəyə dəvət etdi (68, f.X; k.I, f.10; 430, s.34). Bu müttəfiqlərin köməyi ilə şah II Vaçenin qoşunları iki il ərzində Sasani qoşunlarına qarşı uğurla müqavimət göstərdilər və onlara böyük tələfat yetirdilər.

Sasani şahı Firuz albanların silahlı üsyanını silah gücünə yatırmağın çox mürəkkəb olduğunu başa düşüb bir-neçə dəfə onlara müraciət etdi, onları Sasanilərin hakimiyyətinə tabe olmağa çağırdı (68, f.X, 79, k.I, f.10; 341, s.64). Alban şahı II Vaçe isə bu müraciətlərə rədd cavabı verdi, tutduğu yoldan dönməyəcəyini bildirdi. Bunu görən Sasani şahı Firuz hunları alban şahına qarşı müharibəyə cəlb etdi. O, haylantürk (onoqur) tayfalarını öz tərəfinə çəkdi. Bu haqda alban tarixçisi M.Kalan-

kaytuklu belə yazır: «Biləndə ki, II Vaçeni nə güclə, nə də ki, inandırmaq yolu ilə öz tərəflərinə çəkə bilməyəcəklər, iranlılar Haylantürk ölkəsinə çoxlu bəxşiş göndərib, Alan darvazasını açıb hunların böyük ordusunu dəvət etdilər və bu ordu Alban şahı ilə bir il müharibə etdi. Vaçenin ordusu zəiflədi, gücdən düşdü və dağıldı da, lakin iranlılar onun öhdəsindən gələ bilmədilər. Əksinə, Vaçe də öz tərəfindən onlara təsirli zərbələr endirdi… Müharibə uzandı, ölkənin böyük hissəsi dağıldı, amma Vaçeni heç kəs tərk etmədi» (79, k.II, f.10; 341, s.64).

İlkin orta əsr yazılı qaynaqdan götürülən bu sətirlərdən aydın olur ki, Sasani hakimləri Albaniyada genişlənən xalq hərəkatının qarşısında aciz qalmışdılar. Onlar, hətta Alan keçidindən haylantürklərin böyük bir ordusunu Albaniya ərazisinə çağırsalar da albanlar Sasanilərin və hunların birləşmiş qoşunlarına qarşı mərdliklə vuruşaraq, bir il müddətində hərbi təşəbbüsü öz əllərində saxlaya bilmişdilər (68, f.10; 79, k.2, f.10). Ancaq uzunsürən müharibədən sonra ölkənin dağılması, ordunun gücdən düşməsi, görünür Sasani-Hun qoşunlarına nəhayət üstünlüyü ələ almaq imkanı vermişdi. Çünki alban şahı II Vaçenin silahı yerə qoyması və hakimiyyətdən imtina etməsi yalnız bununla bağlı ola bilərdi.

463-cü ildə alban xalqının Sasani ağalığına qarşı qaldırdığı üsyan yatırıldı və II Vaçenin hakimiyyətdən əl çəkməsilə başa çatdı (68, f.X; 79, k.II, f.10; 341, s.64). II Vaçenin xahişi ilə atasının miras qoyduğu mülk Sasani şahı Firuz tərəfindən onun sərəncamına verildi. II Vaçe min evdən ibarət təsərrüfata sahib oldu (68, f.X; 79, k.II, f.10; 341, s.64).

Bundan sonra Sasanilərin Albaniya üzərindəki ağalığı yenidən bərpa olundu. Burada möhkəmlənmək üçün Sasanilər albanların dövlət quruluşunu ləğv etdilər. Onların Albaniyadakı hökmranlığı bu dövrdə xalqın vəziyyətini daha da ağırlaşdırdı, üsyançılara qarşı cəza tədbirləri gücləndi, xristian dininin ləğv edilməsi üçün əməli tədbirlər, təqib və təzyiqlər gücləndi (81, b.III, f.1; 79, k.II, f.16; 341, s.65). Bütün bunlar da öz növbəsində ölkədə yeni üsyan üçün zəmin yaratdı.

481-ci ildə Sasani ağalığına qarşı üsyanlar dalğası yenidən Qafqazı bürüdü. İlkin olaraq iberlər Sasanilərə tabe olmaqdan

imtina etdilər (74, k.II, f.89, 81, b.III, f.1). Onların ardınca isə albanlar və ermənilər sasani mərzbanlarına qarşı üsyanlar qaldırdılar (74, k.II, f.89; 81, b.III f.1). Albaniyada bu üsyan xüsusilə daha geniş vüsət aldı. Xalq Albaniya ölkəsində yenidən öz müstəqilliyini bərpa etmək üçün ayağa qalxdı. Bu üsyanın 484-cü ilə kimi, yəni üç il ərzində davam etməsi, onun qarşı tərəfin kəskin mübarizəsi şəraitində getməsindən xəbər verir.

Uzun sürən mübarizə albanların əzmini qıra bilmədi və onlar birləşərək Sasani ağalığına qarşı vahid cəbhə təşkil etdilər. 484-cü ildə İranın eftalitlər tərəfindən məğlubiyyətə uğraması və Sasani şahı Firuzun öldürülməsi, görünür, Sasaniləri çox zəiflətmişdi. Sasani şahı Firuzun ölümündən sonra şah taxtına çıxan Valarş (484-488) üsyançılara qarşı müqavimət göstərməyi dayandırdı və onların irəli sürdüyü bir çox şərtlərini qəbul etməklə Nvarsaq sülh müqaviləsini imzaladı (74, k.III, f.89; 79, k.I, f.17; 451, s.219; 341, s.65). Müqavilənin şərtinə görə Qafqaz xalqları, o cümlədən Albaniya itirilmiş dövlətçiliyini yenidən bərpa etdi. Albaniyanın verəcəyi xəracın miqdarı azaldıldı. Ölkə əhalisinə vicdan azadlığı verildi, alban zadəganlarının imtiyazları bərpa olundu. Məzdəkiliyin zorla yayılmayacağına təminat verildi, xristianlar isə öz dinlərini atəşpərəstlərə məcburi qəbul etdirə bilməzdilər. Albaniya ölkə daxilində müstəqil siyasət hüquqlarını qazandı və Sasani qoşunlarına süvari dəstələrinin göndərilməsinə son qoyuldu (451, s.219; 341, s.65).

487-ci ildə Albaniyada Arşakilər sülaləsinin son nümayəndəsi III Mömin Vaçaqan (493-510) hakimiyyət başına gəldi (79, k.I, f.17; 341, s.65-66). O, şah taxtına əyləşən kimi ölkənin bütün vilayətlərinə fərmanlar göndərib Albaniyada Sasanilərin hakimiyyətinə son qoyulduğunu elan etdi, quruculuq işlərinə başladı, məktəblər açıldı, ölkənin daxili həyatını nizamlayan fərmanlar qəbul edildi (79, k.I, f.17,18, 26; 341, s.65-67). Onun sələflərinə nəsib olmayan var-dövlətə, xəzinəyə sahib olması isə Albaniyanın təsərrüfat həyatının inkişaf etməsinin məntiqi nəticəsi idi.

Ancaq albanların dinc həyatı uzun sürmədi. VI əsrin ilk illərində şimal hun-sabir xaqanlıqlarının böyük qoşun dəstələri Qafqaza soxuldular və bu yerləri talan etməyə başladılar. Bu

yerlərin var-dövlətini soyub-talamaq hərisliyi ilə yanan hun-sabir tayfaları 503-cü ilin noyabr ayının sonlarında Çola keçidini qoruyan Sasani qarnizonunu əzərək Albaniya ərazilərinin içərilərinə doğru irəlilədilər (46, s.97; 423, s.150; 171, s.22-23; 451, s.219). Hücumun gözlənilməzliyi, ən başlıcası isə Sasani şahlarının başlarının yenidən istilaçılıq müharibələrinə qarışması Çola keçidində və eləcə də Albaniya ərazisində onun kiçik qarnizonlar saxlamasına səbəb olmuşdu. Buna görə də güclü müqavimətə rast gəlməyən hun-sabir qoşunları tez bir zamanda Albaniyanın içərilərinə doğru irəlilədilər (46, s.126; 123, s.160-155). Albaniya ərazisinin Sasanilər üçün böyük strateji əhəmiyyətə malik olduğunu bilərək Sasani şahı öz qoşunlarının əsas hissəsini Bizans cəbhəsindən çəkərək Albaniyaya gətirdi və burada şimal qoşunları ilə müharibə yeni bir vüsət aldı. Albaniya torpaqlarına və alban xalqına yeni böyük dağıntılar gətirən bu müharibə 508-ci ilədək davam etdi. Sasani qoşunları nəhayət ki, şimal qoşunlarına üstün gələrək onları Albaniyadan çəkilməyə məcbur etdilər. Qafqaz dağlarında olan Çola və Dərbənd keçidlərinə nəzarət yenidən albanların və Sasanilərin əlinə keçdi (46, s.126; 423, s.160, 165). Albaniya ərazisində gedən bu müharibə qələbə ilə başa vurulduqdan sonra 510-cu ildə Albaniyada Arşakilər sülaləsinin hakimiyyətinə də son qoyuldu.

VI əsrin əvvəllərində şimal-şərqi Qafqazda yerləşən tayfalar yenidən Albaniya ərazisinə yürüş etdilər. Bu haqda ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu məlumat verərək belə yazır: «Həmin bu vaxt öz ordularını toplayan rosmosokların çarı, Tubal və hunların bütün qoşunlarını çağıraraq Kürün bu sahilinə keçib Uti vilayətinə daxil olur və Xalxal şəhərinin ətrafında düşərgə salır» (79, k.I, f.29; 341, s.83). Burada hun tayfalarının hökmdarı «…üç sərkərdə seçərək onları böyük qoşunlara başçı təyin edir. Özünün bütün on bir ordusunu onlara tabe edib əmr edir ki, üç dəstəyə bölünüb Albaniya, Ermənniyyə və İberiyaya hücum edib oraları talan etsinlər» (79, k.I, f.29; 341, s.83).

Tubalın başçılığı altında olan qoşun dəstəsi «…Pasxa bayramının əvvəlində Arsax vilayətinə basqın edib Böyük Qayanı qarət etməyə başladı» (79, k.I, f.30, 921, s.83). Bundan sonra Tubal öz qoşun dəstəsilə «Uti vilayətinə gedir. Burada Kür çayının

üzərində salınmış müvəqqəti körpünün yanında Zomaktakda ordugahını qurur» (79, k.I, f.30; 341, s.83). İlk orta əsr yazılı qaynağının məlumatından daha sonra aydın olur ki, «Rosmosokların böyük şahı əsrlər yığını və böyük qənimətlə qarətdən qayıdan ordusu ilə şərq tərəfdən Kürü keçərək Teofilin ordugahı ilə üzbəüz öz düşərgəsini salır» (79, k.I, f.30, 341, s.83).

Hunların şahı eşidəndə ki sərkərdə Tubal xristian dinini qəbul edib və sərkərdə Teofil öz ilahilərinə qurban verməkdən imtina edir. «…qeyzə gələrək böyük qəzəblə əmr etdi ki, sərkərdə Teofil və onun otuz silahdaşı və iki keşişi ən əzablı ölümlə cəzalandırsınlar. Onlar bu şəhidlik meydanındakı döyüşü mərdliklə keçirdilər və qaliblər tacını İsanın əlindən aldılar. Beləliklə də müqəddəs Teofil və otuz silahdaşı və keşişləri ilə göylərdəki iqamətgahlarına köçdülər» (79, k.I, f.30; 341, s.83).

VI əsrin birinci yarısının əvvəllərində şimal-şərqi Qafqazda yerləşən hun tayfalarına mənsub olan etnoslar iki böyük imperiya, Bizans və Sasani arasında gedən siyasi və ideoloji mübarizədə iştirak edirdilər (46, s.130, 136-137). Onlar Bizans və Sasani ordusunun tərkibində Qafqaz ölkələrinin ərazilərinə, o cümlədən Albaniyaya tez-tez basqınlar edirdilər (46, s.138-160, 191-192; 421, s. 192, 423, s.67-68). Bu etnoslar Albaniyada müxtəlif məqsədlər güdürdülər. Onların bir qismi Albaniyada məskunlaşır və yerli, dil cəhətdən qohum olan alban əhalisi ilə qaynayıb-qarışırdı, digər qismi Albaniyada düşərgə salaraq qonşu ərazilərə hücum edirdilər.

Bizansların Sasanilərə qarşı müharibəsində laz tayfaları Bizanslıların müttəfiqi idilər (46, s.131; 341, s.151). Bizans ordusunun tərkibində laz tayfaları Albaniyanın ərazilərinə hücumda iştirak edirdilər (46, s.131, 341, s.151).

VI əsrdə Xəzər tayfalarının Qafqaz ölkələrinə Çola və Dərbənd dağ keçidlərindən hücumları artdı və genişləndi. Sasani hökmdarı şah I Qubadın (446-531-ci illər) hakimiyyəti dövründə Albaniya ərazisi xəzərlərin şiddətli hücumuna məruz qaldı və buna görə Sasani şahı Qubad şimal tayfalarının Albaniyaya soxulmasını eşidən kimi dərhal hazırlıq görmək barədə əmr verdi və sərkərdə Şapurun başçılığı ilə 12 minlik süvari dəstəsini şimal qoşunlarına qarşı göndərdi. Sərkərdə Şapur Dinavərədək gəlib

çıxan xəzərləri təqib edərək Curzan (Gürcüstan) və Albaniyanı (Arranı) onlardan geri aldı. «O, Arran (Albaniya) ölkəsinə daxil oldu və ər-Rac (Araz) adı ilə məşhur olan çayla Şirvan arasında olan (bütün torpaqları) tutdu» (13, s.5; 319, s.296; 136, s. 60-64; 85, s. 40-41).

Albaniya, I Qubadın oğlu Sasani şahı I Xosrov Ənuşirəvanın (531-578-ci illər) dövründə də şimal tayfası xəzərlər tərəfindən Çola, Dərbənd dağ keçidlərindən hücuma məruz qalmışdı. Xəzərlərin bu hücumları haqqında ərəb coğrafiyaçıları Bəlazuri və Yaqubi məlumat verirlər (64, s.59; 13, s.7; 136, s.60; 185, s.41-42).

VI əsrin ortalarında Albaniya yenidən şimal tayfalarının böyük hücumuna məruz qaldı. Şimal tayfaları tərəfindən şəhərlər, kəndlər dağıdıldı. Bu haqda məlumat verən ilk orta əsr yazılı qaynağı belə yazır: «...Xəzərlər Albaniya ölkəsini əsarət altına aldılar. Kilsələr və müqəddəs kitablar yandırıldı» (79, k. II, f.4; 78, s.369; 99, s.477; 185, s. 42-43; 347, s.83).

552-ci ildə xəzərlər Albaniyaya soxulub ölkəni talan etdilər. Bu hücum o qədər dağıntılara səbəb olmuşdu ki, hətta Alban katolikosluğunun Çoladakı iqamətgahı nisbətən təhlükəsiz yer olan Partav (Bərdə) şəhərinə köçürülmüşdü. İlk orta əsr alban tarixçisi M.Kalankaytuklu bu haqda belə məlumat verir: «Sonra şahlar şahı Xosrovun padşahlığının iyirminci, erməni təqviminin ikinci ilində ölkəyə soxulmuş İsa Xaçının düşmənlərinin talanları nəticəsində Albaniya katolikosluğunun taxtı Çola şəhərindən ölkənin paytaxtı olan Partav (Bərdə) şəhərinə köçürüldü» (79, k.II, f.4; 78, s. 369; 341, s.84). Talan və soyğunçuluq Albaniyanın hər tərəfini bürüdü. Sasani şahı I Xosrov Ənuşirəvan Xəzər qoşunlarına qarşı böyük qüvvə göndərdi. Qanlı döyüşlərdə Xəzər qoşunları məğlub edildi. Ərəb coğrafiyaçılarının məlumatına görə I Xosrov köçərilərə güclü zərbə vurmaqla bərabər 10 min nəfəri əsir götürdü və onlar Albaniya ərazisində yerləşdirildi (81, s.30; 185, s.43).

Arşakilər sülaləsinin süqutundan, Mehranilərin Albaniya taxtına çıxmasına qədər olan dövrdə də Albaniya ardı-arası kəsilməyən müharibələr meydanına çevrilmişdi. Xüsusən, Ön Asiyada möhkəmlənmək uğrunda Bizansla İran arasında gedən

döyüşlərin böyük bir hissəsi Albaniya torpaqlarında cərəyan edirdi. 571-591-ci illər arasında 20 il müddətində davam edən İran-Bizans müharibələri alban xalqına böyük dağıntılar gətirdi.

586-cı ildə Bizans qoşunları Albaniyaya soxularaq burada sabirlərlə və digər tayfalarla qarşılaşdılar. Təhlükəyə məruz qalmamaq üçün Bizans qoşunları sabirləri və albanları əsir götürüb Kürün o tayına, Roma imperiyasının nəzarəti altındakı ərazilərə köçürdülər (46, s.411-412; 1.85, s.44). Sözsüz ki, bu cür təqib olunan albanlar təkcə nəzarət altında saxlanmırdılar, həm də zülm və istismarla qarşılaşırdılar.

VII əsrin əvvəllərində İranla Bizans imperiyası arasında müharibə yeni vüsət aldı. 603-628-ci illər arasında yenidən vüsət alan İran-Bizans müharibələri zamanı alban torpağı və xalqı daha bir müsibətlə üzbəüz gəldi, iki imperiya arasında olan müharibə meydanına çevrildi. Bu müharibə əvvəlcə İranın üstünlüyü şəraitində keçirdi. İranlıların müvəffəqiyyətləri 623-cü ilədək davam etdi. Həmin il Bizans imperatoru İrakli böyük ordu toplayıb, dolama yol ilə Kolxoida və İberiyadan keçərək İran üzərinə getdi. Bizans qoşunları Dvini tutdu, Naxçıvanı işğal etdikdən sonra Arazı keçdi, Qazaka şəhərini tutdu və atəşpərəstlərin bu şəhərdəki baş məbədi onlar tərəfindən dağıdıldı (81, b.III, f.26; 341, s.85). Bu hadisələr haqqında ilk orta əsr yazılı qaynağı alban tarixçisi daha geniş məlumat verir: «İmperator özü ordusuna rəhbərlik edib yola düşdü. Öz sarayını oğluna tapşırıb onun başına tacını qoydu və öz taxtına oturtdu. İrakli onun ölkəsini və şəhərlərini alan və onları itaətdə saxlayan İran qoşunlarına hücum etmir, onların yanından keçmir və döyüşə təhrik etmirdi. İranlıları öz ölkəsinə buraxıb, ordusuyla dənizi keçir və yolunu Egerlərin torpaqlarından salaraq Ermənniyyəyə daxil olub, Araz çayını keçdi və Böyük Xosrov şahın üzərinə qəfildən hücum etmək istədi… Görəndə ki, İran şahı onun əlindən çıxıb qaçdı, böyük imperator İrakli onu təqib etməyib, Atropakan ölkəsinə hücum edir və İran şahlarının yayın istisində havasının sərin olduğuna görə özlərinə iqamətgah seçdikləri, Midya sərhədində yerləşən möhkəmləndirilmiş Qayşavan adlı yerə çatdı» (79, k.II, f.10; 46, s.229-230; 68, s.78; 451, s.238; 341, s.85).

Bizans imperatoru İraklin bu hərbi yürüşü haqqında gürcü mənbəyi də məlumat verir, lakin gürcü mənbəyi onu bir qədər başqa şəkildə təsvir edir: «Stepanozun padşahlığında (600-619) imperator İrakli Ermənistan, Azərbaycan və Şirvanı istila etdikdən sonra Gürcüstana girdi, gürcülərə qalib gəldi və onların padşahı Stepanozu öldürdü» (18 s.23; 89 s. 225-229; 185, s.44).

Atropatenanı tutduqdan sonra Bizans imperatoru İrakli gələcək hücuma yaxşı hazırlaşmaq məqsədi ilə qışı Albaniya, İberiya və Ermənistan ərazilərində keçirmək qərarına gəldi və ona qarşı başlana biləcək narazılıqların qarşısını əvvəlcədən almaq üçün imperator İrakli: «Bu ölkələrin hakim və əyanlarına məktublar yazıb tələb etdi ki, onlar könüllü olaraq onun qabağına çıxaraq, onu qarşılasınlar və bütün qış boyu onun özünə və ordusuna xidmət etsinlər. Əgər onlar bu tələblərə əməl etməsələr, onları bütpərəst hesab edəcək və ordularına əmr edəcək ki, bu ölkələrin qalalarını alıb torpaqlarını viran etsinlər» (79, k.II, f.10; 451, s.238; 341, s.85).

Sasani şahı II Xosrov bundan xəbər tutaraq Bizans imperatoru İraklinin bu tələbinə əməl etməmək barədə göstəriş verdi. «Bunları eşidən Albaniyanın sahib və əyanları Xosrovun əmrilə böyük Bərdə (Partav) şəhərini tərk edib müxtəlif yerlərdə istehkam qurub yerləşdilər. Amma şəhərin xaçpərəst və bütpərəst sakinlərinin çoxu, o cümlədən sənətkarları xəstəlik və başqa səbəblərə görə şəhərdən çıxıb qaça bilməyib evlərində qaldılar» (79, k.II, f.10; 451, s.328; 341, s.85). Bizans qoşunları qışlamaq üçün Albaniyanın ərazisinə daxil oldu, ölkənin içərilərinə doğru hərəkəti davam etdirdilər. İlk orta əsr yazılı qaynağı bu haqda belə yazır: «Saysız-hesabsız Bizans orduları öz düşərgələrini Uti vilayətinin Kalankaytuk kəndinin yanındakı axan çayın sahilində saldılar. Yanlarından keçdikləri kəndlərin özlərini, gözəl bağ və üzümlükləri tapdalayıb xaraba qoydular. Sonra onlar yerlərini dəyişib düşərgələrini Tərtər çayının sahilində Divtakan kəndinin yanında saldılar (79, k.II, f.10; 56, s.42; 46, s.230-231; 341, s.86).

Bizans imperatoru İrakli Albaniyadan keçərək İberiyaya doğru hərəkət etmək istəyirdi. Onlara güclü hərbi zərbə vurmaq üçün hazırlıq görən Sasani şahı II Xosrov bizanslıların bu hərə-

kəti zamanı onlara hücum üçün əlverişli şərait yarandığından Şəhri-Varaz adlı sərkərdəsinin rəhbərliyi altında böyük qoşun dəstələri göndərdi (81, b.III f.26; 341, s.86). Bu qoşunlar Tiqranakert şəhəri yaxınlığında döyüş qabağı mövqe tutdular. İran qoşunları ilə bərabər erməni qoşunları da Bizansa qarşı hərbi əməliyyata başladılar. Şahenin komandanlığı altında olan 30 minlik erməni qoşunları Bizans düşərgələrinin arxa tərəfində özlərinə mövqe tutdular (81, b. III, f.26; 451, s.239; 341, s.86). Onlar Sasani qoşunları ilə birləşərək Bizans qoşunlarını mühasirə etmək istəyirdilər və ona da qismən nail oldular (81, b.III, f.86; 341, s.86). Bu döyüş bizanslıların məğlubiyyəti ilə nəticələnsə də Sasani qoşunları da böyük itgilər verdi. Bizans imperatoru şah İrakli mühasirədən çıxdı və getdi (81,b. III, f.26; 451, s.239; 341, s.86).

Bizans imperatoru İrakli məğlubiyyətə uğradıqdan sonra Qafqaz ölkələrinə, o cümlədən Albaniyaya soxulmaq üçün və Sasanilərə qarşı müharibəni davam etdirmək üçün özünə müttəfiq axtarırdı, onu xəzərlərin timsalında tapdı.

625-ci ildə Bizans şahı İrakli «öz əyanlarından ağıllı və bacarıqlı bir xadim olan Andreni səfərə hazırlayıb ona təlimat verdi və (Xəzərlərin) yanına göndərərək onlara çoxlu var-dövlət vəd verib dedi: «Əgər onlar (iranlılardan) qisas almağa səylə yardım etsələr, onların ürəyi nə istəsə mən verərəm» (79, k.II, f.12; 136, s.52-53). Xəzərlərin nümayəndəsi Cebu xaqan elçiyə cavabında belə dedi: «Onun (İraklinin) düşmənlərindən qisas almağa mən özüm çıxaram və öz igid ordum ilə özüm onun yanına gələrəm. Mən onun arzusuna uyğun olaraq, onun istədiyini vuruşmaqla, öz qılıncım və yayımla yerinə yetirrəm» (79, k.II, f.12; 341 a, s.153).

627-ci ildə Bizans ilə Xəzər xaqanlığı arasında sasani İranına qarşı birlikdə mübarizə aparmaq haqqında müqavilə imzalandı. Xəzərlər ilə Bizans imperatoru arasında bağlanılan bu müttəfiq müqaviləsi haqqında bizə Bizans yazılı mənbələri də məlumat verir (46, s.235; 341 a, s.153).

627-ci ildə, İran-Bizans müharibəsinin qızğın çağında Bizans imperatoru İrakli, xaqanın qohumu Zizbəylə mühasirəyə alınmış Tiflis şəhərinin hasarları yanında yeni müttəfiq kimi görüşürlər (89, s.225; 94, s.252, 372, s.37). Bundan sonra xəzərlər

Qafqaz ölkələrinə, o cümlədən Albaniyaya hücumlarını artırdılar. 627-ci ildə «İraklinin təhriki ilə saysız-hesabsız Xəzər orduları ölkəmizə soxuldular» (79, k.II, f.XI; 548, s.133; 341, s.86). Onlar Albaniyaya gəlmişdilər ki, «şimal-şərq ölkələrinə yolu bağlayan Böyük Qafqaz dağlarında yarıq açmaq üçün kömək etsin və Çola qapılarını açdırıb çoxlu barbar qəbilələrini içəriyə buraxaraq onların köməyilə məğrur İran şahı Xosrova qalib gəlsin» (79, k.II, f.12; 451, s.239; 341, s.86). Xəzərlər Albaniyaya hücum edərkən «Onlar qəflətən Çola qapısından keçir və şəhərin keşikçiləri və İran şahının keçidin ətrafında yerləşdirdiyi başqa qoşunlarına əhəmiyyət vermədən qartallar kimi başıaşağı hücum edərək Kür çayı tərəfə yönəldilər» (79, k.II, f.12; 451, s.239-240; 341, s.86-87). Xəzərlərin bu hücumu haqqında bizə bizans yazılı mənbəsi Feofan məlumat verir (46, s.236; 341 a, s.154). Onların Albaniyaya soxulması və burada ölkəni talan etməsi barədə xəbər Sasani şahı II Xosrova çatan kimi o, xəzərlərin başçılarının yanına öz elçilərini göndərdi. Sasani şahı Albaniyaya soxulduğu üçün onları hədələyir və xəzərlərə ağır zərbə vuracağı ilə qorxudur (79, k.II, f.XI; 341, s.87). Sasani şahı II Xosrovun hədələyici xəbərlərindən müəyyən qədər ehtiyatlanan xəzərlər Albaniyadakı talanlarına son qoydular və Çola keçidindən keçərək öz vətənlərinə qayıtdılar (79, k.II, f.11; 341, s.87).

Geri çəkilən zaman xəzərlər Albaniyadan külli miqdarda qarət etdikləri qənimət apardılar: «Lakin xəzərlərin bu basqınlarda əldə etdikləri böyük qənimətləri–əsirləri, heyvanları, qızıl qabları və dəbdəbəni görən onların hakim şahzadəsi özlüyündə qərara gəldi ki, gələn il bu yerlərə özü basqın etsin» (79, k.II, f.II; 341, s.87).

628-ci ildə xəzərlər yenidən Albaniyaya iki dəfə basqın etdilər. Saysız-hesabsız xəzər qoşunlarının bu birinci yürüşünə, onların xaqanı Cebu xaqan və onun oğlu rəhbərlik edirdi. Şimaldan gələn qoşunlar ilk zərbəni Dərbənd şəhərinin sakinlərinə və burada yerləşən Sasani qoşunlarına vurdular. «Bu əzəmətli divarları İran şahları tikdirmişdi. Bu möhtəşəm tikinti üçün, bu hasarları çəkmək üçün memarları səfərbərliyə alıb bir çox müxtəlif materiallar axtarmaqla ölkəmizi (Albaniyanı) taqətdən

salmışdılar» (79, k.II, f.II; 493, s.74; 341, s.87). Onlar «şəhəri uzun müddət mühasirəyə alandan sonra Dərbəndin gözəl hasarlarını dağıtdılar» (79, k.II, f.XI; 185, s.50; 341, s.87). Xəzər qoşunları şəhərə daxil olarkən əhaliyə qarşı o qədər rəhmsizlik göstərdilər ki, Albaniya əhalisi arasında çaxnaşma başladı. Çoxlu adam öz evi və əmlakını buraxıb ölkənin paytaxtı Partav (Bərdə) şəhərinə üz qoydu. Bu xəbər Partav (Bərdə) şəhərinə çatanda onu idarə edən mərzbanı Qayşak, yaxınlaşan böyük təhlükədən çıxmaq üçün, tədbir görmək üçün iç qalasında qorxudan sığınan qoşun dəstəsi ilə məsləhətləşmək istədi» (79, k.II, f.XI; 451, s.240; 41, s.87). Lakin Sasani mərzbanı xəzərlərin Bərdə şəhərinə yaxınlaşmasını eşidib qorxaqlıq göstərdi. Bunu görən paytaxtın zadəganları, əyanları «…gecənin qaranlığında xilas olub Arsax vilayətinin əlçatmaz dağlarında nicat tapdılar» (79, k.II, f.11; 341, s.87). Ölkədə olan Sasani mərzbanı da İrana qaçdı: «Həmin yolla knyaz Qayşak və onun ailəsi qaçıb İran torpağında xilas oldular. Özü isə bundan sonra bu yerlərdə keçmiş vəzifəsini daha qaytara bilmədi» (79, k.II, f.11; 341, s.87).

Xaqanın qoşunları Partav (Bərdə) şəhərini alıb «baş verən əhvalatdan xəbərdar olan kimi, qaçanları təqib edərək onların bir hissəsinə çatdılar» (79, k.II, f.11; 188, s. 18; 341, s.154). Xəzərlər Albaniyanın ərazisini ələ keçirdikdən sonra Tiflisə doğru hərəkət edib onu mühasirəyə aldılar, Bizans imperatoru İraklinin qoşunları Tiflis ətrafında xəzərlərin qoşunları ilə birləşdilər (56, s.44, 125-132; 79, i.II, f.11). Qışın yaxınlaşması ilə əlaqədar olaraq imperator İraklinin məsləhəti ilə köçərilər Tiflisin mühasirəsindən əl çəkərək geri qayıtdılar (46, s.236; 186; s.23). Lakin qırx minlik Xəzər ordusu Tiflisdən çəkiləndən sonra Qafqaz dağlarının ətəklərində, Qəbələ rayonunda qışlayaraq, Albaniyada qalmaqda davam edirdi.

628-ci ildə aradan bir neçə ay keçmədi ki, ikinci dəfə xəzərlər yenidən Qafqaza və o cümlədən Albaniyaya basqın etdilər. Xəzər xaqanı Cebu xaqan çoxminlik ordusu ilə Tiflis şəhərinə doğru istiqamət götürdü. Bu dəfə onlar iki ay mühasirədə saxladıqdan sonra Tiflis şəhərini tutdular. Bundan sonra xəzərlər xaqanı Cebu ordusunu oğlu Şatın rəhbərliyi altında Albaniyaya göndərdi və ona belə bir göstəriş verdi: «Əgər onların ölkəsinin

(Albaniyanın) hakim və əyanları mənim oğlumu qarşılayıb öz ölkələrini onun tabeliyinə verərlərsə, şəhərləri, qalaları və ticarəti mənim qoşunlarıma təslim edərlərsə, siz də imkan verin onlar yaşayıb mənə qulluq etsinlər. Yox əgər onlar belə etməsələlər, onda qoy sizin gözləriniz 15 yaşından yuxarı kişi nəslinə rəhm etməsin və onları qadınlarla bərabər mənə və özünüzə qul və kəniz kimi saxlayın» (79, k.II, f.14; 451, s.241; 341; s.88).

Xəzər xaqanının oğlu Şat atasının bu tələbini Partav (Bərdə) şəhərində olan Sasanilərin Albaniyadakı mərzbanı Sema Vişnaspa və yenicə həbsdən qayıtmış Albaniya katolikosu Viroya çatdırdı və elçilər göndərib tələb etdi ki, ölkəni onun tabeliyinə versinlər. Albaniyanın və eləcə də albanların təhlükəsizliyinin təmin edilməsinə laqeydcəsinə yanaşan Sasani mərzbanı Sema Vişnasp «Onları qəbul edib: «Axı siz kimsiniz ki, mən bu Albaniyaya görə sizə tabe olum?» – dedi, bütün malını və ölkədən oğurladığı bir çox şeyləri özü ilə götürüb canını qurtarmaq üçün İran ölkəsinə qaçdı» (79, k.II, f.14; 451, s.242; 341, s.88).

Sasani mərzbanı Albaniyadan qaçdıqdan sonra alban ölkəsinə rəhbərlik etmək məsuliyyəti katolikos Vironun çiyninə düşdü. O, «Ölkəni dağıntı və fəlakətdən xilas etmək üçün onlarla danışığa girdi» (79, k.II f.14; 451, s.242, 341, s.88).

Viro Sasani şahının xəbəri olmadan xəzərlərlə gizli danışıqlar aparmasından narahatçılıq keçirirdi. Digər tərəfdən, katolikos Viro ehtiyatlanırdı ki, xəzərlərlə danışıqlar aparılması Sasani hakimləri tərəfindən onların asılılığından çıxmaq cəhdi kimi qiymətləndirilər və zəifləmiş olan Albaniya üçün ağır nəticələrə gətirib çıxara bilər. Viro xəzərlərlə danışıqlara getsə də, onu yubadaraq və danışıqlar barədə Sasani şahının münasibətini bilmək üçün onlardan cavab gözləyirdi.

Xəzərlər danışıqların yubanmasından şübhələnib Vironun taktikasını tez başa düşdülər, buna görə də danışıqları kəsib hücuma keçdilər. «Albaniyadakı müxtəlif vilayət və kəndləri, su arxları və çayları, bulaq və meşələri, dağ və dərələri qabaqcadan püşk ilə öz aralarında bölüşdülər və hamılıqla müəyyən bir vaxtda, dağıdıcı basqınlarına başladılar. Ölkəmiz başdan-başa lərzə içində titrəyirdi» (79, k.II, f.14; 451, s.242, 341, s.88). Katolikos Viro gördü ki, çıxılmaz vəziyyət yaranıb, İrandan cavab yox-

dur, əlverişli vaxt tapıb Arsax vilayətinin keçilməz dağlarında yerləşən və alban feodallarının yığışdığı Coraberdə qaçdı (79, k.II, f.14; 451 s. 242; 341, s.88). Elə bu zaman savaşın qızğın çağında xəzərlərin başçısı ikinci dəfə Vironun yanına elçilər göndərdi. Elçilərin başçısı Şadın adından katolikos Viroya belə dedi: «Mənim dediklərimə əməl etsən onda sən özün də, sənin ölkən də və ölkədə kim sağ qalıbsa – hamınız xilas olunarsız. Əgər rədd cavabını versən, onda mənim əmrimlə səni tutub istəyindən asılı olmayaraq yanıma gətirəcəklər» (79, k.II, f.14; 451, s.242; 341, s.88). Katolikos Viro ölkənin taleyi ilə bağlı bu məsələdə daha müdrik qərar qəbul edilməsi üçün «…ölkənin bütün adlı-sanlı adamları, şah nəslindən olan bütün zadəganları, vilayət valilərini, kəndxudaları, keşişləri və məmurları Coraberd qalasına…» (79, k.II, f.14; 451, s.242; 185, s.51) toplayıb onlarla ölkənin gələcək taleyi haqqında məsləhətləşdi. Viro tezliklə qərar qəbul olunmasını onlardan tələb etdi, «çünki gələn elçi Vironu buna məcbur edirdi» (79, k.II, f.14; 451, s.242; 185, s.51). Coraberdə yığıncağa gələnlər, bütünlüklə katolikosun etibar və müdrikliyinə əmin olduqlarını bildirib, onun xəzərlərlə ittifaq bağlamağına razılıq verdilər. Onda patriarx Viro toplananların hər birinə təklif etdi ki, öz maddi vəziyyətinə uyğun olaraq onun yanına «qızıl, gümüş və paltar» gətirsinlər (79, k.II f.14; 451, s.242; 185, s.51).

Katolikos Viro Xəzər ordusunun bütün rütbə sahibləri və əyanları üçün çoxlu hədiyyələri arabalara yükləyib, ölkənin adlı-sanlı adamlarını məcbur etdi ki, onunla birlikdə xəzərlərin düşərgəsinə getsinlər, onlara bildirdi ki, «Mən hesab edirəm ki, bu rəiyyətlərdən başqa, siz əyanlar da məni yadlar düşərgəsinə müşayiət etməlisiniz ki, onlarda bir şübhə oyatmasın və hesab etsinlər ki, biz onlara doğrudan da tabe olmuşuq» (79, k.II, f.14; 341, s.88).

Alban katolikosu alban əyanları ilə birlikdə çoxlu hədiyyələrlə Şatın Partav (Bərdə) yaxınlığında ordugahına sağ-salamat çatdılar (79, k.II, f.14; 341, s.809). Burada xəzər mənsəb sahibləri «hədiyyələri əllərinə alıb, təkcə katolikosu şahzadənin oturduğu içəri çadıra apardılar» (79, k.II, f.14). Şahzadə hədiyyələri alıb, alban katolikosu Viroya çox böyük hörmət göstərib, ona

ata deyərək müraciət etdi: «Sən mənim atamsan və sənin siman Allaha bənzərdir. Nə üçün sən mənim yanıma gəlməyə yubanırdın? Axı onda mənim qoşunum sənin ölkəndə bu qədər fəlakət törətməzdi. İndi sən gələndən sonra, mən qoşunlarımın bütün hissələrinə əmr edəcəyəm ki, onlar basqınları dayandırsınlar. Bütün qoşun mənim sözlərimə tabedir» (79, k.II, f.14; 341, s.89). Lakin katolikosdan tələb etdi ki, «Sən də ölkənin bütün əhalisinə əmr et ki, hamı öz evinə, işinə-gücünə və məşğuliyyətinə qayıtsın» (79, k.II, f.14).

Katolikos Viro Şatın şərtlərini qəbul etməyə hazır olduğunu bildirdi və alban əyanları adından ona müraciət edərək dedi: «Biz sənin atanın və sənin bəndələrinik və həmçinin bu ölkənin bütün sakinləri. Gəl bundan sonra öz bəndələrinə rəhm elə və qılıncını bizdən uzaq et ki, biz necə qabaqlar Sasanilərə xidmət edirdiksə, indi də sənin atana və sənə edək» (79, k.II, f.14; 185, s.52). Danışıqlar zamanı Viro Şatdan xahiş etdi ki, «Qoşunlarına əmr et ki, öz çadırlarında saxladıqları bütün əsirləri – kişi və qadınları, oğlan və qızları azad etsinlər. Qoy atalar oğullarından, analar qızlarından ayrı düşüb, bütün ölkədə, sanki ovçulardan qorxan və balasını atıb qaçan ceyran kimi pərən-pərən düşməsinlər» (79, k.II, f.14; 185, s.52). Şat Vironun bu xahişinə müsbət cavab verib əsirlərin azad edilməsi barədə göstəriş verdi və albanlardan alınan bütün əsirlər buraxıldı (79, k.II, f.14; 185, s.52).

Xəzərlərin bu hücumları və dağıdıcı basqınları nəticəsində Albaniya əhalisinin çox hissəsi öz evlərini, təsərrüfatlarını qoyub Böyük Qafqaz dağlarının ətəklərində və dağlıq Arsaxda gizlənmişdilər (79, k.II. f.11; 341, s.89). Ölkənin düzən hissəsində yaşayan əhalinin bir hissəsinin məhv edilməsi, digər hissəsinin kütləvi surətdə sürülüb əsir aparılması nəticəsində, ölkədə heç kəs torpağı becərmirdi, gəmiricilər bütün bitkiləri məhv edirdi. 630-cu ilin yazında ölkəni «… üç sərkərdə – aclıq, qılınc və onların köməkçisi–ölüm Albaniyanı» bürümüşdü (79, k.II, f.15; 451, s.243; 341, s.89). Ölkəni bunun nəticəsində epidemiya bürüdü. Əzab çəkən alban xalqına kömək məqsədilə katolikos Viro yenidən öz səy və bacarığını işlətməli oldu və özü də xəstəliyə tutuldu. Alban katolikosu Viro 630-cu ildə bu epidemiyadan öldü (79, k.II, f.15; 341, s.89).

Xəzərlər bu zaman ölkədə tam ağalıq edirdilər, üz vermiş dəhşətli fəlakətə baxmayaraq, Albaniyadan bac almaqda və vergi yığmaqda davam edirdilər. «O (Xaqan–*T.M.*) qızıl axtarıb tapmaq ustalığına malik olan, gümüş əridən, dəmir və mis çıxaran sənətkarlar üstünə nəzarətçilər təyin edib, tacirlərdən və Böyük Kür və Araz çaylarında balıq tutanlardan İran şahlarının vergi dəftərlərinə əsasən didrahm məbləğində vergi tələb etdi» (79, k.II, f.16; 451, s.243; 341, s.89).

Cebu xaqan bundan sonra çalışdı ki, Qafqazın digər hissələrini də tutub özünə tabe elətdirsin. 629-630-cu illərdə Xəzər xaqanı, sərkərdəsi Çorpan Tarxanın başçılığı altında üç min nəfərlik qoşun dəstəsini Ermənistana göndərdi və sonra özü də onlara qoşulub hücuma keçdi. Xəzərlər Sevan (Göyçə – *red.*) gölü yaxınlığında 10 minlik erməni qoşununu məğlub etdilər və onların hamısını qılıncdan keçirdilər. «Xəzərlər meyitləri soyandan, iranlıların atlarını, yəhər-qayışlarını, nizələrini və qızıl qəbzəli qılınclarını, təmtəraqlı və yunan ustaların əlləriylə bəzənmiş libaslarını yığandan sonra bütün qənimətləri öz aralarında bölüşürdülər» (79, k.II, f.16; 451, s.244).

Çox keçmədi ki, Xəzər Xaqanlığının daxilində başlanan çaxnaşmalar onların zəifləməsinə səbəb oldu. VII əsrin 30-cu illərinin əvvəllərində bu çaxnaşmaların nəticəsində xəzərlərin Albaniyada ağalığına son qoyuldu. Onların Albaniyadan çəkilib getməsi və digər tərəfdən də Sasani və Bizansın zəifləməsi Albaniyanın siyasi müstəqilliyinin bərpasına əlverişli şərait yaratdı. Yuxarıda qeyd etdiyimiz kimi, Sasani şahı II Xosrovun hakimiyyəti illərində yaranmış bu şəraitdən Albaniya knyazı titulu almış Girdiman hakimi Varaz-Qriqor (628-630) bacarıqla istifadə etdi və onun şəxsində Mehranilər sülaləsindən biri olan ilk nümayəndəsi Albaniyada hakimiyyət başına gəldi.

Albaniyada Mehranilər sülaləsinin hakimiyyət başına gəlməsinin elə ilk illəri Yaxın Şərqdə Ərəb Xilafətinin güclənməsinə təsadüf edir. Bu Xilafət az bir vaxtda böyük qüdrətə sahib oldu və öz sərhədlərini genişləndirmək üçün yaxın ölkələr üzərinə hücumlara başladı. Ərəb Xilafətinin sərkərdələri 632-ci ildə öz qoşunları ilə Sasani imperiyasının sərhədlərinə yaxınlaşdılar və İran dövlətinə basqın etdilər.

Xilafət qoşunlarının Sasani imperiyasının varlığına böyük təhlükə yaratdığını görən şah III Yezdəgerd ölkənin sərhədlərini qorumaq üçün xeyli qoşun topladı. Bu qoşunun tərkibinə «…İranın müxtəlif vilayətlərinin sərkərdələri, əyanları, hakimləri və azadgahları və İrana tabe olan bütün ölkələr yad düşmənə müqavimət göstərmək üçün oz qoşunlarını topladılar» (79, k.II, f.18, 341, s.89-90). Ərəb Xilafətinə qarşı toplanılan Sasani qoşunlarının tərkibində Varaz-Qriqorun oğlu Cavanşir də iştirak edirdi. «O, (Varaz-Qriqor–*T.M.*) belə qənaətə gəldi ki, onu şah sarayında təmsil etmək üçün oğullarından Cavanşir bacarıqlıdır» (79, k.II, f.18; 341, s.89-90).

26 noyabr 634-cü ildə Xilafət ilə Sasanilər arasında döyüş başlandı, Xilafətə qarşı bu savaşda alban qoşunları da Sasani ordusunun tərkibində iştirak edirdi. Alban qoşun dəstəsinin başında Cavanşir dururdu. İlk orta əsr yazılı qaynağı bu haqda belə yazır: «Cavanşir Dəclə çayını keçərək Beh Kubad dairəsinə gəldi və o, öz çoxsaylı qoşununa güvənərək qürurla hesab etdi ki, bütün cənub qoşunlarını ayaqlayacaq. O öz düşərgəsini Ölü suların sahilində düşmənlə üzbəüz saldırdı. Ərəblər irəliləyəndə Albaniya sərkərdəsi onları qarşılayıb hücumlarını müvəffəqiyyətlə dəf edirdi. Elə birinci döyüşdə o, düşmənlərin bir neçəsini öldürüb daha da ürəkləndi, çünki gördü ki, Allah-taala onunladır». (79, k.II, f.18; 341, s.89-90).

Bu savaşdan sonra yenidən ərəblərlə vuruş başlandı. İlk orta əsr alban yazılı qaynağı, Albaniya sərkərdəsi Cavanşirin bu savaşda iştirakını belə təsvir edir: «Bir neçə gündən sonra, Meheran ayında, İsanın Mövlud günündə 30 min atlı və 20 min piyada yaxşı silahlanmış iranlı və müttəfiq qoşunlar ərəblərin üzərinə hücuma keçməyə hazırlaşdılar. Lakin Qadisiyyədən gələn çoxlu-çoxlu atlı və 20 min piyadaçı həcər oğulları (ərəblər) qalxanlarını birləşdirib İran qoşunlarını darmadağın etmək üçün özləri qabaqcadan hücuma keçdilər. Albaniya sərkərdəsi Cavanşir öz igid döyüşçüləri ilə onların səfləri içərisinə soxulub düşmənlərdən ikisini yerə sərdi, özü üç ağır yara aldı, atı isə dörd yerdən yaralandı. Düşmən onu quduz bir kinlə Fərat çayınadək təqib etdi, o isə həmlələri dəf edərək çayı üzüb keçdi» (79, k.II, f.18; 341, s.90).

Yaraları sağaldıqdan sonra Sasani şahı III Yezdəgerd bu döyüşün nəticələrinə və igidliyinə görə Cavanşiri yüksək mükafatlarla mükafatlandırdı. «...o cümlədən sərkərdə kəranayları, iki qızıl nizə və iki qızılla süslənmiş qalxanla fərqlənirdi. Bu qalxanları bundan sonra Cavanşiri o biri sərkərdələrdən fərqləndirən şan-şöhrət əlaməti kimi həmişə onun qabağında daşıyırdılar. Şah onun belinə mirvarilə işlənmiş qızıl kəmər və qızıl saplı qılınc bağladı, qollarına qolbağlar saldırdı, başına isə qaşdaşlı tac qoydurdu. Onun boynuna ağır mirvari boyunbağı aldılar, çiyninə taftadan tikilmiş şah geyimi saldılar və zərli ipək parçasından tikilmiş dörd qotazlı mavi rəngli şalvar geydirdilər» (79, k.II, f.18; 341, s.90).

Bir müddətdən sonra, III Yezdəgerdin şahlığının 8-ci ilində, yəni 640-cı ildə Xilafət qoşunları ilə Sasani qoşunları arasındakı savaşda alban sərkərdəsi Cavanşir üç minlik öz ordusu ilə iştirak etdi, burada da yenidən fərqləndi. Bir müddətdən sonra Sasanilərin son günlərinin gəlib çatdığını hiss edən Cavanşir, əvvəlcə, Atropatenaya, oradan isə öz vətəninə qayıtdı. O, Sasanilərin yeddi il Ərəb Xilafətinə qarşı aparılan müharibələrində iştirak etdi və on bir dəfə ağır yara aldı (79, k.II, f.18).

Cavanşir vətənə qayıtdıqdan sonra atası Varaz-Qriqor ölkənin idarə işlərini ona tapşırmışdı. O, həm də Albaniyanın sipəhsaları olaraq qalmaqda idi. Cavanşir Sasani dövlətinin tamamilə zəiflədiyini və məhvinin labüdlüyünü görərək ona tabe olmaqdan imtina etdi. Bu hal Sasanilər tərəfindən onlara qarşı üsyan kimi qiymətləndirildi. Sasanilərin ərəblər tərəfindən məğlub edilmiş qoşun hissələri geri çəkilərək şimal rayonlarında möhkəmlənmək istəyirdilər. Onlar Cavanşirin Sasanilərə tabe olmaqdan imtina etməsi xəbərini eşitcək Albaniya ərazisinə soxuldular. «Düşmənin qabaqda gedən qoşun dəstəsi tələsə-tələsə onun (Cavanşirin) əyalətinin son hududuna girəndə, o, təcili surətdə silahlanıb ordunun başçısı məşhur Geçmazgi (Gelani) özü şəxsən vurdu. Özü və onun qoşunu əldə qılınc onları (iranlıları) dəhşətli surətdə qırdı. Onlar düşməndən çoxlu əsir, at, qatır və xeyli qənimət alıb qayıtdılar. Dağlarda onlar bir daha toqquşdular və bu gün qələbə ona nəsib oldu» (79, k.II, f.19; 185, s.73).

Alban sərkərdəsi Cavanşirin ölkənin başqa yerində digər Sasani qoşun dəstələri ilə mübarizəyə başı qarışdığı, bir vaxtda ona xəbər çatdı ki, onun paytaxtda olmamasından istifadə edərək Sasani qoşunlarının başqa bir hissəsi Bərdə (Partav) şəhərini tutmuş və onun anasını, qardaşını əsir götürmüşdür. Bundan hiddətlənən Cavanşir öz ordusu ilə: «O, qəmli-qəmli tezliklə Kambeçan vilayətində və Kürün o biri sahilində yerləşən öz atababa mülkünə gəldi. Burada o, iranlıların qüvvələrinə laqeydlik göstərməyərək onlarla döyüşə hazırlıq gördü və qoşunlarını düşmənlə üzbəüz çox düzgün yerləşdirdi. O, çox qızğın döyüşdə başından yaralandı, lakin Allahın köməyi ilə yenə özünə gəldi və düşmənlə o vaxtadək vuruşdu ki, onlardan heç biri sağ qalmadı. Bundan sonra o, şan-şöhrətilə Gürcüstan tərəfə getdi. Qaldığı yerdə onun yanına ölkənin knyazı Adırnerseh gəldi. O, çox hörmətli insan idi və Bizans imperatorundan üç hökmranlıq ünvanı almışdı. Adırnerseh öz əllərilə Cavanşirin yaralarını sarıdı və onun qələbələrilə fəxr etdi» (79, k.II, f.19; 341, s.91). Cavanşirlə gürcü knyazı Adırnerseh arasında gedən danışıqlar zamanı iki ölkə arasında sülh müqaviləsi bağlanması qərara alındı (79, k.II, f.19; 341, s.91). Bu sülh müqaviləsinə görə gürcü qoşunları Albaniya ərazilərini İran qoşunlarından təmizlənməsində Cavanşirə kömək etməli idi. Tezliklə Cavanşir onunla müttəfiq olan gürcü qoşunlarını da götürüb Albaniyaya gəldi. Müttəfiq qoşunlarının İran qoşunları ilə döyüşləri Uti vilayətində baş verdi. Bu döyüş də Cavanşirin qələbəsi ilə başa çatdı. Cavanşir Bərdə şəhərini Sasani qoşunlarından təmizləyərək anasını və qardaşlarını da əsirlikdən xilas etdi (79, i.II, f.19). Dalbadal məğlubiyyətə uğrayan Sasani sərkərdələri Albaniyadan geri çəkilməyə məcbur olsalar da, öz nüfuzlarını yenidən bərpa etmək niyyətlərindən əl çəkməmişdilər. Bunun üçün onlar Atropatena ərazisinə soxuldular, alban ordusuna güclü zərbələr vuraraq bu ölkəni özlərinə tabe etməyə çalışırdılar. Ardı-arası kəsilməyən təcavüzkar hücumların qarşısını almaq üçün alban sərkərdəsi Cavanşir düzgün taktika seçdi. Sayı Sasani ordusunun sayına bərabər ordunun Albaniyada toplamağın artıq mümkün olmadığını görən alban sərkərdəsi Cavanşir öz azsaylı qoşun dəstələrinin uğurlu fəaliyyəti üçün daha səmərəli yollar

axtarıb tapırdı. Heç şübhəsiz ki, igid Cavanşir düşmənin zəif nöqtələrini müəyyənləşdirir və ora qəfil zərbələr endirirdi. İlk orta əsr yazılı qaynağının müəllifi alban sərkərdəsi Cavanşirin bu döyüşləri barədə belə yazırdı: «…Atropatenadan onun (Cavanşirin–*T.M.*) ölkəsinə tez-tez çoxsaylı iranlı dəsətələri soxuldu. Lakin Cavanşir onlardan qorxmadı, çünki o, azsaylı düşmən dəstələrdən daha çox böyük qoşun dəstələri ilə döyüşməyi xoşlayırdı. Belə ki, o, Şakaşen vilayətində iki döyüşdə əlində qılıncı çoxlu iranlı dəstələrini qırıb məhv etdi və bunların içində döyüşçüləri ilə birlikdə bir neçə minbaşı da öldürdü» (79, k.II, f.19).

Növbəti uğursuzluqdan sonra Sasanilər Cavanşirin nikah əlaqələri yaratdığı Sünik vilayətinin hakiminin vasitəsilə danışıqlar aparılmasına cəhd göstərdilər. Xeyli itki verən və zəifləyən Sasani tərəfi görünür, sülh müqaviləsi bağlamaqla yeni qüvvələr toplamaq, Albaniya üzərinə yeni yürüşlər etmək üçün hazırlıq görmək istəyirdi (79, k.II, f.19).

Sasani tərəfi ilə sülh müqaviləsi bağlanması əslində Albaniyanın da mənafelərinə cavab verirdi. Çünki uzun sürən müharibələrdən sonra albanlar nəhayət ki, ölkənin dirçəlməsi, onun müstəqil inkişafı üçün zəruri olan vaxt əldə edə bilərdi. Cavanşir Sasanilərlə bağlanan sülh müqaviləsinə müvəqqəti dinclik yaradılması və ya müharibələrə son qoyulması tədbiri kimi baxmırdı. O, bu müqavilə vasitəsilə Albaniyanın Sasanilərin vassallığından çıxmasını, ölkənin tam dövlət müstəqilliyinin rəsmiləşdirilməsinə çalışırdı. Sasanilər isə Albaniyadakı nüfuzlarını heç bir vəchlə itirmək istəmirdilər və müqavilə bağlamaqla Albaniyanın onlardan aralanmasının qarşısını almaq istəyirdilər. Sülh müqaviləsinə qarşı belə müxtəlif münasibət tezliklə onun pozulması ilə nəticələndi. Sasani ordusunun baş sərkərdəsi Cavanşirin atasını yanına çağırtdıraraq onu əsir götürdü və ona İran tərəfinin şərtlərini qəbul etdirməyə çalışdı. Onu razı sala bilmədikdə İran sərkərdəsi Albaniyanın vilayətlərinə öz valilərini təyin etdi və onların hakimiyyətini möhkəmlətmək üçün yerlərə İran qoşunlarının dəstələrini göndərdi (79, k.II, f.19).

Alban qoşunları ilə İran qoşunları arasında silahlı mübarizənin yeni bir mərhələsi başlandı. Bu dəfə alban qoşunlarına Cavanşir öz qardaşı ilə birlikdə rəhbərlik edirdi. Onlar İran qo-

şunlarının yenidən Albaniyanın içərilərinə doğru irəliləməsini və atalarının əsir götürülməsini eşidən kimi dərhal hazırlığa başladılar. Onlar süvari qoşun dəstələri ilə Bərdə (Partav) şəhərinə gəldilər. Yaxşı silahlanmış alban dəstələri Sasani qoşunlarına ağır zərbə vuraraq onları məğlubiyyətə uğratdılar (79, k.II, f.19).

Bu döyüşlər albanların Sasani qoşunları ilə sonuncu döyüşləri idi. Bu zaman ərəblərlə müharibədə Sasani qoşunları ərəb ordusu tərəfindən darmadağın edildi. Sasani şahlığına və imperiyasına son qoyuldu. İlk orta əsr alban yazılı qaynağı bu haqda belə yazır: «Yezdəgerdin şahlığının iyirminci ilində İran şahlığı tamamilə məhv edilmişdi. Bu əhvalat həcərilərin (ərəblərin) bütün dünyada məşhur olan müharibələrinin otuz birinci və sahibim Cavanşirin hakimiyyətinin on beşinci ilində baş vermişdi». (79, k.II, f.19).

Ancaq Sasani imperiyası süqut etdikdən sonra da Albaniyanın müstəqil varlığı və inkişafı üçün sakit zəmin yaranmamışdı. Çünki Sasanilər imperiyası dağılandan sonra Albaniya daha güclü bir təhlükə qarşısında dayandı. Bu da öz hüdudlarını genişləndirməyə çalışan Ərəb Xilafəti idi. 642-643-cü illərdə artıq ərəb qoşunlarının Qafqaz ərazilərinə, o cümlədən Albaniya ölkəsinin ərazilərinə hücumları başladı. 642-ci ildə ərəb qoşunları Naxçıvan vilayətinə hücum etdilər, onu dağıtdılar, talan etdilər, əsir götürüb Araz çayından, Culfa tərəfdən keçib getdilər (82, f.II, 341, s.91).

642-ci ildə Xilafət ordusu Ermənistana hücum etdikdən sonra ərəb qoşunları Ordubaddan keçib (81, b, III, f.30), 645-ci ildə Atropatenaya daxil oldular. Xilafət qoşunları burada üç hissəyə bölündülər, onların bir hissəsi Osman və Ağbəyin başçılığı altında Albaniyaya hücum etdi (81, b, III, f.32; 341, s.91). Naxçıvan şəhərini hücum edib tutdular (82, f.II; 341, s.91). Lakin onlar alban ölkəsini və əhalisini özlərinə tabe edə bilmədilər (81, b.III, f.35; 341 s.91). Albanların mübarizliyini və məğlub etmək mümkün olmadığını görüb, ölkənin müəyyən hissəsindən talan nəticəsində ələ keçirdiklərini götürüb geri qayıtdılar (81, b.III, f.35; 341, s.91).

Albaniya, iberlər, ermənilər Xilafət qoşununa qarşı birgə mübarizə aparmaq məqsədi ilə ittifaq yaratdılar (81, b.III, f.35;

341, s.91). Ərəb xəlifəsi bu ittifaq haqqında xəbərdar olduqda, öz qoşununu Albaniya, İberiyaya və Ermənistana göndərdi ki, bu ölkələrin ittifaqını pozsun (81, b.III, f.36, 341, s.91). Bunun müqabilində bu ittifaqın başçısı Teodoros Rştuni ərəblərin Zaqafqaziya ölkələrinə hücumunun qarşısını almaq üçün hər ölkənin daxilində müdafiə tədbirləri görülməsi haqqında əmr verdi (81, b, III, f.36; 341, s.21). Bundan sonra müttəfiqlər hər biri öz ölkəsində müdafiə tədbirləri gördülər və möhkəmləndilər (81, b.III, f.36; 341, s.91).

652-ci ildə Qafqaz ölkələrində ağır iqtisadi vəziyyəti nəzərə alaraq, bu vəziyyətdən çıxmaq üçün müttəfiqlər Xilafətlə münasibətləri tənzim etmək, ölkələrini ərəb hücumlarından qorumaq üçün, onlarla danışıqlara başlamaq qərarına gəldilər. Bu məqsədlə Teodoros Rştuni xəlifə Müaviyyənin yanına gedib onunla müqavilə bağladı (81, b.III, f.35; 341, s.91).

Lakin sülh uzun sürmədi və tezliklə yenidən pozuldu. 654-cü ildə ərəb qoşunları Salman ibn Rəbiənin başçılığı altında Azərbaycana, o cümlədən Albaniya ərazilərinə yeni hücumlara başladılar. Onlar Cənubi Azərbaycanı və Naxçıvanı işğal etdilər (13; s.11; 185, s.82). Albaniya torpaqlarının işğal edilməsində sərkərdə Salman ibn Rəbiə əl-Bəhilinin komandanlığı altında olan ərəb qoşunları daha böyük fəaliyyət göstərdi. Ərəb qoşunları irəliləyərək Albaniya ərazisinə çatanda, Beyləqan istiqamətinə üz tutdu. Salman ibn Rəbiə «sülh müqaviləsinə görə Beyləqanı tutdu və yenə də bu müqaviləyə görə əhalini xərac və cizyə verməyə məcbur edib onun həyatını, əmlakını, şəhər hasarlarını qorumağı təmin etdi. Sonra Salman Bərdəyə gəldi və şəhərdən bir fərsəxdən az aralı olan Tutur (Tərtər) çayı sahilində ordugah çadırları qurdu. Şəhər əhalisi darvazaları onun üzünə bağladığına görə Salman bir neçə gün şəhəri mühasirədə saxlamalı oldu. Eyni zamanda şəhər ətrafında əkini biçilmiş kəndlərə basqınlar edirdi. Bu hal əhalini məcbur etdi ki, Beyləqan əhalisinin Salmanla bağladığı sülhə oxşar sülh bağlasın. Əhali şəhər darvazalarını onun üzünə açdı və Salman şəhərə daxil olub (bir müddət) orada qaldı. Buradan öz atlarını götürüb yürüşə başladı. Şakşin (Şakeşen), Meskean (Meskuenk), Ud (Uti), Mesiran (Mesarans), Xarxilyan (Xarcilank), Tabar (Tri) mahallarının

kəndlərini və Arranın (Albaniyanın) digər yerlərini tutdu» (13; s.13; 64, s.5; 403, c.II, s.370).

Salman ibn Rəbiə bir müddət Bərdədə qaldıqdan sonra digər əraziləri tutmaq üçün şəhəri tərk etdi. Onun başçılıq etdiyi qoşunlar bir çox yaşayış məntəqələrini, o cümlədən qədim şəhər hesab olunan Şəmkiri də tutdular. Ərəb coğrafiyaçısının yazdığına görə Şəmkir şəhərini ərəblər tutduqdan sonra da çiçəklənən şəhər kimi qalmaqda idi (43, s.13; 64, s.5; 403; c.II, s.370). Çox güman ki, çoxsaylı ərəb qoşunları burada da güclü müqavimətə rast gəlmədən şəhəri ələ keçirmişdilər və ona görə də Şəmkirdə heç bir dağıntı olmamışdı.

Xilafət qoşunları Albaniya ərazilərini işğal altına almaqda davam edirdi. Salman ibn Rəbiə «Bardinc arxasında Arazın Kürə qovuşduğu yerə getdi, Kürün o tayını keçib Qəbələni tutdu, Şakkan və Kamibran hakimləri ilə bac vermək şərti əsasında sülh bağ-ladı. Xeyzan əhalisi, Şirvan padşahı, qalan dağların padşahları, Məsqət, Şabran və Bab (Dərbənd) şəhərinin əhalisi də onunla (Salmanla) eyni məzmunda sülh bağladılar» (13; s.13; 64, s.5; 403, c.II, s.370; 185, s.83).

Ərəb coğrafiyaçısının qeydlərindən o da məlum olur ki, alban şəhərlərinin əhalisi ərəb qoşunları ilə sülhü məcburiyyət üzündən bağlamışdılar. Bu müqavilələri pozmaq imkanı ələ düşən kimi albanlar ondan istifadə etmişlər. Ərəb qoşunları şəhərləri tərk edən kimi şirvanlılar və dərbəndlilər şəhər qalalarını onların üzünə bağladılar. Salmanın qoşunları yenidən Dərbəndə daxil oldu və şəhəri tutmaqla bərabər dərbəndliləri ərəblərə qarşı üsyana qaldırmağa sövq edən xəzərlərə ağır zərbə vurmaq üçün şimala doğru irəlilədilər. Ancaq ərəblər özləri xəzərlər tərəfindən güclü zərbə aldılar, qanlı vuruşmadan sonra dörd min nəfərlik dəstə qırıldı və sərkərdə Səlman ibn Rəbiə də bu döyüşlərdə öldürüldü (13; s.13; 64, s.5; 403, c.II, s.370).

Xilafət qoşunlarının Albaniyaya 654-cü ildə bu hücumları haqqında digər ilk orta əsr yazılı qaynaqlarında məlumat verilir (81, b.III, f.37, 341, s.92).

Xilafət qoşunlarının Albaniya ərazilərinin işğalına və işğalçılara münasibətdə bu yerlərin hakim dairələrinin tutduqları mövqe birmənalı deyildi. Yüksək mövqeli əyanların bir hissəsi,

o cümlədən Cavanşirin atası Varaz-Qriqor qüdrətli ərəb qoşunlarına qarşı müqavimət göstərməyin mənasız olduğunu görərək, onlara təslim olmağı lazım bilirdilər (79, k.II,f.19). Lakin Cavanşir və onun tərəfdarları isə əks mövqedə, ərəb işğalçılarına qarşı mübarizə etmək mövqeyində dururdular. Xalq kütlələrinin böyük əksəriyyəti də ərəb istilasına qarşı fəal müqavimət göstərirdilər (79, k.II, f.19). Məhz buna görə də ərəblər Albaniya ərazisini uzun müddət tam nəzarət altına ala bilmədilər.

Cavanşir ərəb xilafətinə qarşı barışmaz mövqe tutmuşdu. Öz ölkəsinin müstəqilliyini qorumaq və ərəb işğalçılarına qarşı mübarizə aparmaq üçün Cavanşir özünə güclü müttəfiq axtarırdı. O, ermənilərlə, gürcülərlə dostluq əlaqələrini möhkəmlətdi (79, k.II, f. 21 34; 341, s.93). Ərəb istilasından qorunmaq üçün Bizans dövləti ilə ittifaq bağlamağa təşəbbüs göstərdi. O, Bizans imperatoru II Konstantinə (641-668) məktubla müraciət etdi, ondan Albaniya ölkəsini öz təbəəliyinə qəbul etməsini xahiş etdi. Bizans imperatoru II Konstantin alban hökmdarı Cavanşirin bu məktubunu böyük sevinclə qarşıladı və ona yazdığı cavab məktubunda yazırdı: «Sənə, hökmdar Cavanşirə, Girdiman sahibinə və Albaniya knyazına, apoipata və proton patrika və Şərqin hökmdarına – Xilaskar Xaçının ilahi qüvvəsindən mərhəmət və bərəkət, bizim imperator şəxsimizdən isə salam və məhəbbətimiz! Sənin Allaha məhəbbət və itaətinlə dolu təbrik məktubunu aldıq və biz şadıq ki, sən və sənin Şərq məmləkətin bizə tabe olmağa razı oldunuz. Buna görə də biz və bizim oğlanlarımız əbədi olaraq nəsildən-nəslə gələn oğullarına sevgi, səmimiyyət və sarsılmaz məhəbbətlə münasibət bəsləyəcəyik» (79, k.II, f.21; 341, s.93).

660-cı ildə Bizans imperatoru II Konstantin ilə Cavanşir bir neçə dəfə görüşdülər. Bu görüşlərdə hər iki tərəfi maraqlandıran ən ciddi məsələlər həll olundu. Bizans imperatoru II Konstantin bu ittifaqı Albaniya hökmdarına qiymətli hədiyyələr göndərməklə möhkəmləndirdi. «O, Cavanşirə çox qiymətli hədiyyələr göndərdi. Onların arasında zərli söykənəcəyi olan gümüş taxt, qızıl saplarla tikilmiş geyimlər və mirvarilə bəzədilmiş qını olan öz şəxsi qılıncı var idi. İmperator Cavanşiri birinci patrik (proton patrik) rütbəsinə qaldırdı və əmr etdi ki, albanlardan 1200 nəfə-

rə patrik, konsul (hivnat), eks-prefekt (apahivpark), general (stratelat) və elist rütbələrini vermək üçün fərmanlar göndərsinlər və bu rütbələri Cavanşir istədiyi şəxslərə paylasın» (79, k.II, f.21; 341, s.93). Cavanşir «…Qafqaz dağlarında vəhşi həyat sürənləri də müdrikliyilə yola verirdi. Beləliklə, o, öz ölkəsini və İberiya sərhədlərindən Dərbənddən və Araz çayına qədər olan torpaqları hakimi-mütləq kimi idarə edirdi» (79, k.II, f.21; 341, s.93).

662-ci ildə xəzərlər şimaldan Albaniya ərazisinə basqın etdilər. Onlar Balancar yaxınlığında Xilafət qoşunlarını məğlubiyyətə uğradaraq, yenidən «qənimət və qarət üçün» Albaniyaya (79, k.II, f.23; 341, s.196) soxuldular. Lakin xəzərlər Albaniya ərazisində öz uğurlarını genişləndirə bilmədilər. Cavanşirin rəhbərliyi altında olan qoşun hissələri Xəzər qoşunlarını qarşıladılar və bu vuruşmada o, böyük qələbə qazandı, onlara dedi: «Get və Çola darvazasından geriyə çəkil və bir daha buraya qayıtma, çünki Allahın özü sənin buraya yolunu kəsdirib» (79, k.II, f.23; 341, s.94).

Lakin bundan sonra da xəzərlər Albaniya ölkəsinə yenidən hücum etmək niyyətindən əl çəkmədilər. 664-665-ci illərdə onların Albaniya ərazisinə hücumu təkrar olundu. Onlar bu hücumu əvvəlki hücuma nisbətən daha uğurla başladılar, ölkənin içərilərinə doğru xeyli irəlilədilər. «Kür çayının bu tərəfinə keçərək Araz sahilinədək getdilər və təkcə yerli əhalini əsir etmək deyil, habelə Ararat və Sünik vilayətləri əhalisini də qış otlaqlarına gətirdiyi qoyun və mal-qara sürüləri ilə birlikdə toplayıb öz ordugahlarına apardılar» (79, k.II f.26; 341, s.94).

Albaniyanı şimaldan cənub sərhədlərinədək qarət edən hun hakimi çoxlu var-dövlət ələ keçirdikdən sonra Cavanşirlə görüşmək istədiyini bildirdi. Alban hökmdarı hun hökmdarı ilə görüşməyə razı oldu və onların bu görüşü Kür çayı sahilində baş verdi. Danışıqlar nəticəsində sülh müqaviləsi imzalandı və hər iki hökmdar qarşılıqlı narazılıqlara son qoymaq qərarına gəldilər. Hun hökmdarı ilə Cavanşir arasında olan münasibətlər nikah əlaqəsi ilə daha da möhkəmləndi. Alban şahı hun hökmdarının qızına evləndi. Alban hökmdarı Cavanşir hun hökmdarı ilə münasibətləri sahmana saldıqdan sonra, hunların hücumu zamanı Albaniya ərazilərindən yığdığı qənimətləri «…əsarətdən

yüz iyirmi min baş qoyun, səkkiz min at və öküz qurtardı və min iki yüz əsir azad etdi» (79, k.II, f.26; 185, s.77; 341, s.94).

Müharibə alovlarının qarşısının alınması üçün alban hökmdarı Cavanşir hunlarla münasibətləri yaxşılaşdırdığı vaxtlarda Bizansla olan əlaqə və münasibətlərə də yenidən baxılması zərurəti ortaya çıxdı. Çünki bir vaxtlar arxalanmaq üçün güclü müttəfiq olan Bizans imperiyası Ərəb Xilafətilə mübarizədə xeyli zəifləmişdi. Onun əlində olan ərazilər ərəblərin işğalı altına düşmüşdü. Daha güclü olan Ərəb Xilafətinin Albaniyaya soxulacağı və onun müstəqilliyinin məhv ediləcəyi təhlükəsi Alban hökmdarı Cavanşiri ərəblərlə yeni münasibətlər yaratmağa sövq edirdi. Albaniya üçün məsuliyyətli olan bu dövrdə «…O, (Cavanşir) türküstanlıların (xəzərlərin–*T.M.*) saysız-hesabsız qoşunlarını öz köməyinə çağıra bilərdi; lakin Cavanşir buna baxmayaraq, yenə də bu qərara gəldi ki, cənub hökmdarının vassalı boyunduruğuna tabe olsun» (79, k.II, f.27; 451, s.247; 341, s.94). Bunun üçün də alban hökmdarı Cavanşir iki dəfə xəlifə Müaviyyə ilə görüşmək üçün Dəməşqə getdi. O, birinci dəfə 667-ci ildə xəlifə Müaviyyə ilə görüşmək üçün Dəməşqə gəldi (79, k.II f.27; 341, s.94). Alban hökmdarı Cavanşir Xilafət sarayında çox böyük ehtiramla qarşılandı və xəlifə Müaviyyə ilə danışıqlarında, o, Xilafətdən asılılığı qəbul edərək Albaniyaya qarşı hərbi əməliyyatın keçirilməməsinə təminat aldı. Alban hökmdarı Cavanşir qiymətli hədiyyələrlə geri qayıtdı. Ərəb Xilafətilə bağlanan müqavilədən sonra Albaniya ərazisi üç il müharibə alovlarından xilas oldu (79, k.II, f.27; 341, s.94).

670-ci ildə, yəni üç il sonra xəlifə Müaviyyə özü, Alban hökmdarı Cavanşiri Dəməşqə, ikinci dəfə yanına çağırdı (79, k.II, f.27; 341, s.94). Onlar arasında olan bu görüş də böyük ehtiram, hörmət və izzətlə başa çatdı. Alban hökmdarı Cavanşir Ərəb Xilafətilə müqavilə bağlamaqla ölkəsinin təhlükəsizliyini təmin etdi. İkinci görüşləri zamanı xəlifə Cavanşirə heç bir qonağa göstərmədiyi ehtiramı göstərdi. «…Xəlifə Cavanşirə quşların ən gözəlini–tutu quşunu bağışladı. Keçmiş zamanlarda belə quşlardan yalnız bizanslar ölkəsində görmək olardı. Bundan əlavə xəlifə ona başqa hədiyyələr də bəxş etdi: qızıl qınlı polad qılınc, mirvarilə süslənmiş kaftan, qızıl xaçlar, ipək parçalar,

əba və cürbəcür qiymətli geyimlər. Bundan başqa ona özü mindiyi atlardan əlli ikisini bağışladı» (79, k.II, f.27-28; 341, s.94,95). Ona hətta Sünik və Atropatenanın hakimliyini də təklif etdi. Ancaq məlumdur ki, Cavanşir Sünik və Atropatenanın hakimliyindənsə öz xalqının vergilərinin azaldılmasına daha üstünlük verdi. «Buna görə o, xəlifədən xahiş etdi ki, onun ölkəsinə təyin olunmuş bacın miqdarını azaltsın. Cənubun hökmranı buna razı olub əmr etdi ki, vergi onun üçdə biri qədər yüngülləşdirilsin» (79, k.II, f.28, 341, s.95).

680-ci ildə Alban hökmdarı Cavanşir gizli sui-qəsd nəticəsində aldığı ağır yaralardan öldü (79, k.II, f.34; 341, s.95). Az sonra 681-ci ildə, alban hökmdarı I Varaz-Trdatın (680-630) hökmranlığının birinci ilində böyük hissədən ibarət Xəzər ordusu Alp-İlitverin komandanlığı altında Cavanşirin ölümündə I Varaz-Trdatın günahkar olduğunu hesab edərək intiqam almaq bəhanəsi ilə Albaniyaya basqın etdi (79, k.II, f.36; 341, s.95-96). Bu haqda ilk orta əsr alban yazılı qaynağı belə yazır: «Elə bu vaxt hunların sərkərdəsi və böyük knyazı Alp-İlitver saysız-hesabsız ordusunu, yağu ölkəsinin müxtəlif-müxtəlif yerlərindən gəlmiş cəsur adamları, bayraqları ilə birlikdə silahlı sərkərdələrini, oxatan və qalxandaşıyan dəstələrini, zirehli və dəbilqəli atlılarını toplayaraq Cavanşirin qanını almaq niyyətilə Qafqaz dağları ətəklərində yerləşən vilayətləri və Qəbələ vilayətinin kəndlərini talan etdi. O, öz böyük şəxsi dəstəsiylə düzənlikləri aşaraq Kür çayını keçdi və Uti vilayətinə daxil olaraq buradakı insanları öz mal-qarasıyla birlikdə əsarətə apardı. Sonra onlar qayıtdılar və Lpnik yaxınlığında olan düzənlikdə düşərgə saldılar» (79, k.II f.36; 341, s.95-96).

681-ci ildə bu vəziyyətdən təşvişə düşən alban hökmdarı I Varaz-Trdat Albaniyanın hökmdarı Cavanşirin ölümündə albanların əli olmadığını bildirmək və bununla da ölkəyə yeni basqınların qarşısını almaq üçün Albaniyanın böyük katolikosu Yelizarı Xəzər xaqanının yanına göndərdi (79, k.II, f.36; 185, s.103). Onunla danışıqlar zamanı alban katolikosu Yelizar Xəzər xaqanını Cavanşirin qətlinin səbəbləri ilə tanış etdi, xaqanın ürəyini yumşalda bildi. Xaqanla ittifaq münasibətlərinin qüvvədə qalmasına nail oldu. Yepiskop, İsrail va-

sitəsilə «sülh və pozulmaz dostluq» əldə etməyə nail oldu (79, k.III, f.36; 341. s.96).

Bundan sonra I Varaz-Trdat «…tərəfindən Şərq diyarlarının canişini, bütün Albaniyanın və Uti vilayətinin hökmdarı hüququnu almışdır. Varaz-Trdat hamıya qalib gəlib və hamını özünə tabe edib, ona tabe olan torpaqları həvəslə və əzmlə idarə edirdi» (79, k.II, f.37).

Albaniya ilə xəzərlər arasında sülh uzun çəkmədi və tezliklə pozuldu, ölkə yeni hücumlara məruz qaldı. 684-cü ildə şimal tayfaları Qafqaz ölkələrinə güclü hücum etdilər. Onlar Ermənistanı, İberiyanı, Albaniyanı işğal etdilər. Bu ölkələrin çoxlu əyan və knyazlarını öldürdülər. «Onun (Bizans imperatoru II Yustinianın – 685-711-ci illər padşahlığının) birinci ilində xəzər adlanan şimal xalqı Ermənistan, İberiya və Albaniyanı ələ keçirdi. Onlar vuruşmada knyaz Qriqorinin, bir çox gürcü və alban əyan və knyazlarını öldürdülər. Yenə onlar Ermənistanı talan etdilər, çoxlu vilayət və kəndləri tutdular, qənimət və çoxlu əsir ələ keçirib, öz ölkələrinə getdilər» (82, f.IV 84, k.II, f.II 73, s.90, 84, s.1, 341, s.96).

Bu zaman Ərəb Xilafətində xəlifə taxtı üstündə daxili çəkişmə və vuruşmalar gedirdi. Qafqaz xalqları – ermənilər, gürcülər və albanlar bu qarışıqlıqdan istifadə edərək otuz illik itaətdən sonra ərəblərə tabe olmaqdan imtina etdilər. Məhz «bu zaman ərəb qarşıdurmasından istifadə edərək ermənilər, gürcülər və albanlar 30 illik itaətdən sonra (ərəblərə) daha vergi vermədilər. Onların bu qarşıdurması 3 il davam etdi…» (82, f.III, 341 s, 16).

688-ci ildə xəlifə Əbdül Məlik ilə Bizans imperatoru II Yustinian arasında müqavilə bağlandı. Həmin müqavilənin şərtlərinə əsasən Albaniya, İberiya, Ermənistandan alınan vergilər Xilafətlə Bizans arasında bərabər bölünməyə başladı (554, s.85; 185, s.105, 233, s.42,72). Bu isə həmin ölkələrin xalqlarının ikitərəfli əsarət altına düşməsinə səbəb oldu. Bundan sonra bu ölkələr hər iki qüdrətli rəqib üçün nüfuz dairəsinə çevrildi. Onlar bu ölkələrə tez-tez hücum və qarət edir, əhalini əsarət altına alırdılar. 688-ci ildə Bizans imperatoru II Yustinian Ermənistana çox böyük qoşun göndərdi, onlar 25 mahalı talan etdi və 8 min ailəni qul kimi satdılar (82, f.III 84, k.II, f.2; 341, s.96). So-

nrakı 689-cu ildə Ermənistana yenidən hücum etdilər. Bu dəfə hücum iki tərəfdən: həm Bizans, həm də Ərəb Xilafəti tərəfindən edildi və Ermənistana yenidən dəhşətli fəlakət üz verdi (82, f.III, 84, k.II, f.2; 185, s.103).

690-cı ildə Bizans imperatoru II Yustinian Ərəb Xilafəti ilə olan müqavilənin əksinə gedərək Qafqaz üzərinə yeni böyük hücum təşkil etdi. Bu ikinci hücuma şəxsən imperatorun özü rəhbərlik edirdi. O, Albaniya, İberiya və Ermənistana eyni vaxtda hücum etmək üçün ordusunu üç dəstəyə böldü. Bizans imperatoru II Yustinian «bu ölkələrin bütün knyazlarını öz yanına çağırdı; onlar da heç istəmədikləri halda onun yanına gəlməyə məcbur oldular: II Yustinan bəzi knyazları özü ilə apardı, digərlərindən tələb etdi ki, öz oğullarını onun yanında girov qoysunlar. Bəzi knyazlara isə hədiyyələr verib, onları adı çəkilən ölkələrin hökmdarı təyin etdi: Nersesi… Ermənistan hökmdarı, ikinci knyaz Alban padşahı, patrisi Varazdatı (Varaz-Trdatı) ekzarx etdi, onlara kömək üçün 30 min qoşun verdi, özü isə Konstantinopola qayıtdı» (84, k.II, f.2; 341, s.96).

Alban hökmdarı I Varaz-Trdatın hakimiyyətinin son illərində ölkə özünün müstəqilliyini tam zəiflətdi və Albaniya dövləti üç ölkədən: ərəblərdən, xəzərlərdən, bizanslardan asılı vəziyyətə düşdü. Alban hökmdarı I Varaz-Trdat «üç xalqa: xəzərlərə, taciklərə (ərəblərə–*T.M.*) və yunanlara (Bizansa) bac verirdi» (79, k.III, f.12; 185, s.106). Yaranmış bu ağır vəziyyəti nisbətən yumşaltmaq üçün Albaniya hökmdarı I Varaz-Trdat xəzərlərlə münasibətləri yumşaltdıqdan sonra Bizansa vergi verilməsinə son qoymaq qərarına gəldi (79, k.III, f.12; 451, s.250). Həmin məsələni həll etmək üçün I Varaz-Trdat iki oğlu – Haqiq və Vardan ilə birlikdə danışıqlar aparmaq məqsədilə 699-cu ildə Konstantinopola yola düşdü (79, k.III, f.12; 451, s.250). Bizans imperatoru III Tiber Varaz-Trdatın Bizansdan uzaqlaşmağa çalışmasını və Xilafətə yaxınlaşmasını eşitdiyi üçün onu həbsxanaya saldırdı və 704-cü ilə qədər, 5 il həbsdə saxladı (79, k.III, f.12; 451, s.250; 341 a, s.163). Alban knyazı – hökmdarı I Varaz-Trdat 704-cü ildə həbsdən azad oldu, Albaniyaya qayıtdı və geri qayıtdıqdan sonra Albaniya yalnız ərəblərə vergi vermirdi (79,k.III, f.12; 185, s.106, 341 a, s.163). Bu zaman Ərəb-Bizans

müharibəsinin yenidən başlanması ilə əlaqədar olaraq Məhəmməd ibn Mərvanın başçılığı altında olan Xilafət qoşunları Ermənistana göndərildi və oradan da Albaniyaya hücum edib ölkəni işğal etdilər və I Varaz-Trdatın Konstantinopolda olduğu vaxt Albaniyanı idarə edən Mehranilər sülaləsindən olan sonuncu hökmdar Şeroyu tutub Suriyaya apardılar (79, k.III, f.16; 451, s.250, 341 a, s.163). Albaniya bununla da dövlət müstəqilliyini tamamilə itirdi və bütünlüklə ərəb canişinlərinin hakimiyyəti altına düşdü.

Beləliklə, Albaniyanın ilk orta əsrlərdə xarici siyasəti, yadellilərə qarşı mübarizəsi və hərbi tarixinə dair ilk orta əsr müxtəlif ölü dilli qaynaqlarda olan materialların araşdırılması bizə bütün aydınlığı ilə imkan verir qeyd edək ki, Albaniya dövləti bütün ilk orta əsrlər dövründə müxtəlif yadelli işğalçılara, əsasən isə Sasani, Roma-Bizans imperiyalarının və Ərəb Xilafətinin kəskin irticaçı hücumlarına və onların xarici ideoloji siyasətlərinə qarşı daim siyasi və hərbi mübarizə aparmışdır. Bu mübarizələrdə Albaniya dövləti həmişə müstəqil xarici siyasət aparır, yeri gəldikdə isə qonşu ölkələrlə, o cümlədən İberiyanın və Ermənistanın hakim dairələri ilə sıx ittifaqa girib, həm şimaldan, həmçinin də cənubdan olan yadelli işğalçılara qarşı mübarizə aparmalı olmuşdur.

Qafqaz ölkələrinin bu mübarizəsində Azərbaycanın (Albaniya) ərazisi əsas hərbi və siyasi arenaya çevrilmişdi, ona görə ki, Albaniyanın ərazisinin çox hissəsi indiki Azərbaycanın əsas hissəsini təşkil edirdi və digər tərəfdən isə bura Böyük Qafqaz dağlarından və Çola-Dərbənd keçidindən keçən, strateji cəhətdən çox əhəmiyyətli yolu özündə yerləşdirmişdi.

Beləliklə, yuxarıda ilk orta əsr yazılı qaynaqların materiallarının tədqiqi və araşdırılması tam aydınlığı ilə göstərir ki, ilk orta əsrlərdə Qafqaz ölkələrinin yadelli işğalçılara qarşı mübarizəsində və xarici siyasətində alban şahları Urnayr, II Vaçe, III Vaçaqan və Cavanşir böyük nailiyyətlərə və aparıcı rola malik olmuşlar. İlkin orta əsr yazılı qaynaqların materiallarının tədqiqi göstərir ki, istər hərbi ittifaqların bağlanmasında, istərsə də ölkənin mənafelərinə cavab verən bütün hərbi-strateji məsələlərin həyata keçirilməsində alban şahları xüsusi rola malik idilər.

Dövlətdə tutduqları yeri və mövqeləri ilə bağlı, digər tərəfdən baş komandan olaraq qoşunların təşkil olunmasında, onların təchizi və möhkəmləndirilməsi üçün ölkənin bütün imkanlarının səfərbər edilməsində, xarici siyasətin düzgün qurulmasında, qanunların möhkəmləndirilməsində, bütünlüklə hərbi işin məqsədyönlü nizamlanmasında alban şahları üzərlərinə düşən böyük məsuliyyəti şərəflə yerinə yetirirdilər. Dövlət və hərbi rəhbərliyi özündə birləşdirən alban şahlarının təşkilatçılıq qabiliyyətləri, dövlətçilik və hərbi təcrübələri alban xalqının mütəmadi olaraq başı üzərində olan hərbi təcavüzlərin dəf edilməsində böyük rola malik idi. İlkin orta əsr yazılı qaynaqlarında alban şahları həm də cəsur sərkərdələr kimi xarakterizə olunurdular. Hərbi yürüşlərə əsasən özləri başçılıq edən alban şahları öz döyüş bacarıqları ilə qoşunları da mübarizəyə ruhlandırır, şəxsi qəhrəmanlıq nümunələri göstərirdilər.

Beləliklə, ilkin orta əsr yazılı mənbələrin materiallarının araşdırılması göstərir ki, alban şahlarının dövlət siyasətində, o cümlədən hərbi siyasətdə uğur qazanmalarının əsas səbəblərindən biri də onların xalqa arxalanması, xalqın gücünü düzgün təşkil və istiqamətləndirə bilmələri ilə bağlı olmuşdur. Ümumxalq mənafelərinin müdafiə edilməsində, ölkə ərazisinin bütövlüyünün və dövlətçiliyin qorunmasında xalqın arzu və istəklərinin alban şahlarının iradəsi və fəaliyyət istiqamətləri ilə üst-üstə düşdü. Onlar real qüvvəyə çevrilərək xarici təcavüzə qarşı mübarizədə xalqın aparıcı gücünü görürdülər və buna görə də genişmiqyaslı hərbi fəaliyyətlərdə başlıca ümid xalqa bağlanırdı.

İlkin orta əsr yazılı qaynaqların materiallarının tədqiqi və araşdırılması göstərir ki, alban şahlarının xarakterik cəhətlərindən biri də bu idi ki, onlar Albaniya dövlətinin, xalqının güclü və qüdrətli olması üçün onun daxili quruculuq işlərinə də diqqət yetirirdilər. İlkin orta əsr yazılı qaynaqlarda alban şahlarının, xüsusən III Vaçaqanın və Cavanşirin bu istiqamətdəki fəaliyyətləri barədə materiallar daha çox əhəmiyyətə malikdir.

İlkin orta əsr yazılı qaynaqlarında olan materialların araşdırılması göstərir ki, alban şahı Cavanşir ölkənin xarici siyasətində və yadellilərə qarşı mübarizədə xüsusi rola malik olmuşdur. Alban hökmdarı və sərkərdəsi Cavanşir ölkənin müstəqilliyinin

qorunması işində güclü hərbi müttəfiqlərin tapılmasına xüsusi diqqət yetirirdi. O, hələ atasının hakimiyyəti illərində komandanı olduğu qoşunlarla Sasanilərlə ittifaqda ərəb qoşunlarına qarşı vuruşmuşdu. Sasanilərin zəifləməsindən istifadə edərək ölkənin tam müstəqilliyinə nail olmaq üçün o, İberiya ilə ittifaq bağlamış və bu mübarizədə onların gücündən istifadə etmişdi. Alban hökmdarı Cavanşirin hərbi-diplomatik tədbirləri, xüsusilə Bizans və Ərəb Xilafəti ilə münasibətlərdə daha qabarıq şəkildə əks olunur. Bu iki imperiyaların gücündən və nüfuzundan müxtəlif vaxtlarda bacarıqla istifadə edən alban şahı Cavanşir ölkəsinin müstəqilliyini qorumaqla bərabər özü də bir təcrübəli dövlət xadimi kimi ölkənin daxilində və xaricində hörmət və ehtiram qazanmışdı. Regionda yaranmış hərbi siyasəti düzgün qiymətləndirməyi bacaran Cavanşir Ərəb Xilafətinin güclü bir dövlət kimi regionda meydan oxumağa başladığı ilk vaxtlar Bizans hökmdarı ilə ittifaq bağlamışdı. Bizansla ittifaqın yaradılması Albaniyanın mövqelərinin güclənməsinə, daxili sabitliyin möhkəmlənməsinə xeyli kömək etmişdi. Sonralar isə Bizansın getdikcə zəifləməsini görən alban hökmdarı Cavanşir, güclənməkdə olan Ərəb Xilafəti ilə öz münasibətlərini sahmana salaraq, onlarla ittifaq bağlayaraq ölkəni hücumlardan və dağıntılardan qoruya bilmişdir.

İlkin orta əsr yazılı qaynaqların materiallarının araşdırılması göstərir ki, alban şahları, demək olar ki, hamısı işgüzar, müdrik, səriştəli, təcrübəli, güclü və qüdrətli olmuşlar. Alban dövlətinin və xalqının xarici istilaçılara qarşı inamla mübarizə aparması, onların əldə etdikləri daxili və xarici uğurlar başlıca olaraq alban şahlarının adı ilə bağlanır. Ölkənin şahı və ali baş komandanı kimi Cavanşir bütün fəaliyyətinin əsasını ölkənin müstəqilliyinin, Albaniya dövlətçiliyinin, alban xalqının əmin-amanlığının qorunub saxlanması təşkil edirdi. Cavanşirin siyasi, mənəvi keyfiyyətlərini fiziki keyfiyyətlər tamamlayırdı. O öz gücü, qüvvəti, döyüşkənliyi ilə ad çıxarmışdı. Dövrün ən görkəmli diplomatlarından, sərkərdələrindən birinə çevrilmişdi. O, igidliyi və cəsurluğu ilə öz döyüşçülərini və sərkərdələrini də mübarizəyə səfərbər etməyi, ruhlandırmağı bacarırdı.

İlkin orta əsr yazılı qaynaqların tədqiqi göstərir ki, alban xalqının və dövlətinin mənafelərini əks etdirən hərbi-strateji məsələlərin həllində dövlətin şahları ilə bərabər ölkədə yüksək mövqe tutan din xadimləri də böyük əməli işlər görürdülər. Xalq arasında olan nüfuzundan istifadə edən yüksək mənsəbli din xadimləri şərait tələb edəndə xarici işğalçılara qarşı xalqı səfərbər edir, onların mübarizəsinə, hərbi-siyasi ittifaqların yaradılması işinə rəhbərlik edirdilər.

Beləliklə, ilkin orta əsr yazılı qaynaqlarının materiallarının araşdırılması və tədqiqi tam aydınlığı ilə göstərir ki, Albaniyanın şimal hissəsində dağ ətəklərində və dəniz sahilində yaşayan müxtəlif şimal tayfaları, Roma-Bizans, Sasani imperiyalarının təhriki ilə Böyük Qafqaz dağları, Dərbənd, Çola keçidindən keçərək ardı-arası kəsilmədən Albaniya dövlətinin ərazilərinə dağıdıcı basqınlar edirdilər.

İlkin orta əsr yazılı qaynaqların materiallarının araşdırılması göstərir ki, xəzərlər və basillər III-IV əsrlərdə Albaniya ərazilərinə hücumlar və basqınlar etmişlər. Albaniyanın ərazisi IV əsrdə şimal tayfaları: tavasparların, xermatakların, icmaxların, qluarların, şiçbilərin, maskutların, alanların və başqa çoxlu tayfaların dağıdıcı hücumlarına məruz qalmışdır.

İlkin orta əsr yazılı qaynaqlarının materiallarının tədqiqi göstərir ki, IV-V əsrlərdə hunlar Albaniya ərazisinə hücumlar etmişlər. İlkin orta əsr yazılı qaynaqlarının araşdırılması göstərir ki, V əsrin axırı, VI əsrin əvvəllərində Albaniyanın ərazisinə və Qafqaz ölkələrinə hunların hücumları güclənir. VI əsrin axırlarında xəzərlərin Dərbənd, Çola keçidi ilə Albaniya ərazisinə və Zaqafqaziya ölkələrinə hücumları daha da genişlənir. İlkin orta əsr yazılı qaynaqların materiallarının araşdırılması göstərir ki, 627-ci ildə Bizans imperatoru İraklinin göstərişi və təkidi ilə xəzərlər Albaniya ərazisinə hücum edirlər. Xəzərlər 628-ci ildə Albaniya ölkəsinin ərazisinə iki dəfə hücum edərək Zaqafqaziyanı işğal etdilər. Xəzərlərin Zaqafqaziya və Albaniya ərazisinə hücumları 629, 664, 665, 681, 684-cü illərdə də olmuşdur.

VIII FƏSİL

MÜDAFİƏ TİKİNTİLƏRİ

Albaniyanın (indiki Azərbaycanın) coğrafi nöqteyi-nəzərdən çox mühüm bir bölgədə yerləşməsi, ölkənin təsərrüfat cəhətdən çox inkişaf etməsi, quru, su ticarət yollarının kəsişdiyi bir bölgədə bərqərar olması, yaxın qonşuların, uzaq yadelli işğalçıların həmişə nəzər-diqqətini özünə cəlb etmişdir. Yuxarıdakı fəsillərdə göstərdiyimiz kimi, Albaniyaya ardı-arası kəsilməz hücumlar, müdaxilələr olmuşdur. Məhz buna görə də yuxarıda göstərilən fəsillərdə hərtərəfli izah olunmuşdur ki, Azərbaycanı (Albaniyanı) xarici müdaxilələrdən qorumaq, onun hüdudlarını, xüsusilə şimal hissəsini müdafiə etməyə ehtiyac vardı. Bu məqsədlə, burada hərbi müdafiə istehkamları inşa etmək və oranı daha da möhkəmlətmək lazım gəlirdi.

Albaniya ölkəsinin strateji cəhətdən daha da əhəmiyyətli bir yerdə yerləşməsi və xüsusilə onun şimal hissəsində dar Dərbənd adlanan keçidinin varlığı bu əlverişli keçid vasitəsilə yuxarıda göstərildiyi kimi, Şimali Qafqaz düzənliklərindən hələ çox-çox qədimlərdə, əski dövrlərdə ölkənin və Qafqazın içərilərinə doğru yadellərin kəskin dağıdıcı hücumları və basqınları olurdu. Sonralar da, ilk orta əsrlər dövründə belə basqınlar, hücumlar baş vermişdi. Alban şahları və hökmdarları Dərbənd keçidini möhkəm bağlamaq, şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək məqsədilə burada müdafiə məqsədi ilə hərbi istehkamlar tikmək qayğısına qalırdılar.

Azərbaycanın (Albaniyanın) şimal bölgəsində çox ehtimal ki, müdafiə məqsədi ilə inşa edilmiş istehkamlar əski dövrlərdə də olmuş və tikilmişdir. Qonşu dövlətlər, xüsusilə Albaniya dövləti ilə müttəfiq olan Sasani dövləti Albaniya ərazisində yerləşən Dərbənd keçidini möhkəm bağlamaq, öz şimal sərhədlərinin və ölkəsinin təhlükəsizliyini yadelli basqınlarından qorumaq, təmin etmək üçün tədbirlər görürdülər. Orta əsr ərəb coğrafiyaçısının məlumatlarından aydın olur ki, Sasani dövləti I Xosrov Ənuşirəvan dövründə Albaniyada yerləşən ilk möhtəşəm istehkamları möhkəmlətdi və Qafqaz dağ silsiləsinin yuxarılarına,

Tabasarana qədər hərbi istehkamın divarlarını uzatdı. Ərəb coğrafiyaçısı Məsudi bu haqda belə yazır: «Qabh (Qafqaz–*T.M.*) böyük sahəni tutan əzəmətli dağdır; bir çox məmləkəti və xalqı əhatə edir… Əl-Bab və əl-Əbvab (Dərbənd–*T.M*) şəhəri Kəsrə (Xosrov–*T.M.*) Ənuşirəvanın dağ ilə Xəzər dənizi arasında çəkdirdiyi sədd keçidlərindən birindədir. Dənizin içərilərinə 1 milə qədər girmiş bu divarların (özülü) suyun dibindədir. Onlar Qabh (Qafqaz–*T.M*), onun ziravə, keçid və düzləri ilə 40 fərsəx boyunca uzanaraq, nəhayət Tabasaran adlı qalada qurtarır. (Ənuşirəvan) yoldan asılı hər üç mindən az, ya bir az çox məsafədə dəmir darvaza qoydurmuş, içəri tərəfdə darvazanın və ona bitişən divarları qorumaq üçün adamlar yerləşdirmişdi. Bütün bu (tədbirlər) dağın yaxınlığında yaşayan xalqların, xüsusilə xəzərlərin, alanların, müxtəlif türklərin, sərirlilərin və başqa kafirlərin basqınından qorumaq üçün görülmüşdü…» (47, s.40,41).

Sasani və alban hökmdarları ölkədə müdafiə cəhətdən əlverişli yerlərdə müdafiə hərbi tikintilərinin inşasını aparırdılar.

İlkin müdafiə istehkamları və hərbi müdafiə xarakterli hasarlar Abşeron yarımadasının şimal hissəsində Beşbarmaq adlı yerdə inşa edilmişdir. Beşbarmaq hərbi istehkamından 23 km şimala doğru Gilgilçay hərbi istehkamı (Şabran) inşa edilmişdir; Dərbənd keçidində, şimalda yerləşən, bu gün də möhtəşəm divarlarının qalıqları duran Dərbənd hərbi müdafiə istehkamı; Tarku şəhərinin şimal hissəsinin üç verstliyində Torpaqqala şəhərciyinin yaxınlığında hərbi istehkamın divarlarının qalıqları bu günə qədər durur.

Bu hərbi müdafiə tikintilərinin və onların divarlarının inşasının ağırlığı Alban dövlətinin və ölkəsinin əhalisinin üzərinə düşürdü. Bu möhtəşəm tikintilərin və qalaların inşasına on minlərlə yerli əhali–kəndli, sənətkar cəlb olunurdu və onları burada işləməyə məcbur edirdilər. Bu möhtəşəm müdafiə istehkamlarının – tikintilərinin inşa edilməsi üçün böyük maddi vəsait tələb olunurdu. Tikinti üçün lazım olan böyük maddi vəsaiti Sasani şahları Albaniyanın və digər ölkələrin əhalisinin kürəyindən çıxarırdılar. Alban tarixçisi Musa Kalankaytuklunun bu haqda yazdığı sözlər çox məqsədəuyğun səslənir. İlk orta əsr alban tarixçisi belə yazır: «İran şahları ölkəmizi (Albaniya–*T.M.*) taqət-

dən saldılar; bu qəribə binanı tikmək üçün memarları səfərbərliyə alan və çoxlu müxtəlif material axtarıb tapan İran şahları həmin tikinti vasitəsi ilə Qafqaz dağı ilə Şərq (Xəzər) dənizi arasındakı keçidləri qapalı saxlayırdılar» (79, k.II, f.11, 341, s.98).

Yuxarıda adları çəkilən və göstərilən, Albaniya ərazisində yerləşən müdafiə istehkamlarının qalıqları bir sıra tədqiqatçıların və səyyahların nəzər-diqqətini vaxtilə özünə cəlb etmişdir. Özlərinin araşdırmalarında vaxtilə V.V.Bartold, E.Eyxvald, A.V.Komarov, P.İ.Spaski, Y.A.Paxomov, M.İ.Artamonov, S.T.Yeremyan, İ.P.Şeblıkin, K.V. Trever, A.A.Kurdryavsev və başqaları nəzər-diqqət yetirmişlər. Müdafiə istehkamlarının divarlarının qalıqlarını XVII əsr səyyahları A.Oleari və E.Kempfer, XVIII əsr səyyahı İ.Lerxe də öz qeydlərində göstərmişlər. Bu haqda yuxarıda I fəsildə daha geniş və ətraflı məlumat verilmişdir.

İlk orta əsr yazılı qaynaqlarının məlumatları Albaniya ərazisində inşa edilmiş müdafiə istehkamlarını Sasani hökmdarları II Yezdəgerdin (438-457-ci illər), I Gavadın (Qubadın) (438-531-ci illər) və I Xosrov Ənuşirəvanın (531-578-ci illər) adı ilə bağlayır, onların hakimiyyət dövrü ilə əlaqələndirirlər.

Birinci Beşbarmaq hərbi müdafiə istehkamının Baş Qafqaz dağlarının ətəklərində yerləşdiyi haqda ilk orta əsr yazılı qaynağı Ananiya Şirakasi məlumat verərkən bu istehkamı qədim erməni dilində «Xors-vem» adlandırır, bu da qədim erməni dilindən hərfi mənada «Xursan qalası» kimi tərcümə olunur (406, s.30-31; 341, s.98). Bu qədim sərhəd istehkamına – Beşbarmağa, vaxtilə tədqiqatçılar K.V.Trever (451, s.268-270) və S.T.Yeremyan (211, s.34-35; 403, s.316) nəzər-diqqət yetirmişlər. S.T.Yeremyanın fikrincə bu müdafiə istehkamı Xursan ölkəsini Şirvandan ayıran yerdə yerləşirdi (271, s.35).

Hal-hazırda cənuba doğru Baş Qafqaz dağlarının ətəklərində, Kaspi dənizinə yaxın yerdə yerləşən dağ silsiləsi Beşbarmaq adı ilə adlandırılmaqdadır. Bu istehkamın yerüstü divarlarından, demək olar ki, heç bir şey qalmamışdır. Ərəb coğrafiyaçıları Bəlazuri, Yaqubi Beşbarmağı «Bibliya»da adı çəkilən «Moisey qalası» ilə eyniləşdirirlər (13; s.19; 63; s.9; 271; s.35).

İlk orta əsr yazılı qaynağının müəllifi Yeqişe (V əsr) Zaqafqaziya xalqlarının Sasani hökmdarlığına qarşı 451-ci ildə üsyanı zamanı hunlara qarşı «naxak» müdafiə istehkamı tikintisinin varlığından bəhs edir (68, f.III). Üsyançılar tərəfindən bu müdafiə istehkamının – «naxak»ın vuruş zamanı dağıldığını qeyd edərək daha sonra göstərir ki, bu müdafiə istehkamını ələ keçirdikdən sonra, istehkamın rəhbərliyini alban şahı nəslindən olan Vahana tapşırdılar (68, f.III). Digər ilk orta əsr yazılı qaynağının müəllifi Lazar Parpesi də bu haqda daha geniş məlumat verərək, qeyd edir ki, Albaniyanın daxilində Sasanilərə qarşı üsyançılar hərbi uğurlarını genişləndirərək böyük Kür çayını keçdikdən sonra «naxak» müdafiə istehkamının tikintisinə doğru hərəkət etdilər və o zaman müdafiə istehkamını qoruyan Sasani qoşun hissələrinin hamısını burada məhv etdilər, bu nöqtəyə nəzarəti ələ keçirdikdən sonra, strateji əhəmiyyətə malik bu müdafiə istehkamın və keçidin başçısı onlar tərəfindən alban şahları nəslindən olan Vahan təyin olundu (74, k.II, f.25; 451, s.209).

Albaniyanın şimal hissəsində yerləşən bu müdafiə istehkamının divarları haqqında bəhs edərək ilk orta əsr yazılı qaynağının müəllifi Yeqişe Sasani şahı II Yezdəgerd dövründən də əvvəllər inşa edilmiş və yenicə bərpa edilmiş sərhəddə yerləşən bu hərbi istehkamın üsyançılar tərəfindən alınıb dağıdılmasından, Sasani şahının bundan çox mütəəssir olmasından bəhs edir (68, f.VII; 341, s.99).

Beləliklə, yuxarıda gətirilən ilk orta əsr yazılı qaynağının məlumatından belə aydın olur ki, bu hərbi istehkam Sasani şahı II Yezdəgerdin hakimiyyəti dövründən öncə inşa edilmiş, onun dövründə isə yenicə bərpa olunmuşdur. Lakin bizə məlumdur ki, Dərbənd istehkamı Sasani şahları Qubadın (488-531) və onun oğlu I Xosrov Ənuşirəvanın (531-578) hakimiyyəti illərində daha da möhkəmləndirilmişdir. İlk orta əsr yazılı qaynağı Yeqişenin istehkam haqqında yuxarıdakı bu məlumatını çox güman ki, Dərbənd istehkamına deyil, Beşbarmaq müdafiə səddinə aid etmək daha düzgün olardı. Çox ehtimal ki, bu sədd 452-ci ildə bərpa və inşa edilib başa çatdırılmışdır. II Yezdəgerd dövründə bərpa olunub başa çatdırılmış bu müdafiə istehkamının divarlarının dağıdılması haqqında ilk orta əsr alban yazılı

qaynağının müəllifi alban tarixçisi M.Kalankaytuklu da məlumat verir (79, k.II, f.2, 451, s.271).

Digər ilkin orta əsr tarixçisi Gevond belə bir məlumat verir ki, Dərbənd şəhəri və onun müdafiə istehkamının hasarları Bizans imperatoru Markian (451-457) dövründə onun tərəfindən inşa olunmuşdur (182, f.XII; 341, s.98-99). Lakin digər yazılı qaynaqların məlumatından bizə məlumdur ki, Dərbəndin yerləşdiyi ərazidə I Xosrov Ənuşirəvanın hakimiyyəti illərində tam möhkəmlənmişlər. Ona görə də ilk orta əsr yazılı qaynağı Gevondun yuxarıdakı bu məlumatını da Dərbənd müdafiə istehkamına deyil, məhz Beşbarmaq müdafiə səddinə aid etmək daha düzgün və məqsədəuyğun olardı.

İlkin orta əsr yazılı qaynağı Gevondun müdafiə hasarının Bizans imperatoru Markian tərəfindən inşası məlumatına diqqət yetirən tədqiqatçılar–S.T.Yeremyan, K.V.Trever də bu məlumatı Dərbənd müdafiə istehkamına deyil, Beşbarmaq müdafiə divarlarına aid edirlər (271, s.37; 403, s.315; 451, s.273-274).

İlkin orta əsr yazılı qaynağı Gevondun müdafiə istehkamının hasarının Bizans imperatoru Markian tərəfindən inşa olunması faktına nəzər yetirən tədqiqatçı K.V.Trever, Sasanilərlə bizansların bu sahədəki xidmətlərini müdafiə hasarlarının inşasına kömək kimi qiymətləndirir (451, s.273-274).

Ərəb coğrafiyaçısı Məsudi (X əsr) bu bölgədə sərhəddə yerləşən yeri «.....daş divarlar Barmak adlandırır» (47, s.59; 271, s.35; 456, s.369). Bu fakta nəzər-diqqət yetirən K.V.Trever hesab edir ki, ərəb coğrafiyaçısı Məsudinin bu məlumatı Barmağa (Beşbarmaq divarına) deyil, Şabran istehkam səddinin divarına aiddir (451, s.269).

Azərbaycanın şimal bölgəsində yerləşən bu müdafiə istehkam səddi ilkin orta əsr yazılı qaynaqları Yeqişe və Parpesin əsərlərində onlar tərəfindən «hun qapısı», «naxak hun» (hun istehkamı) və ya «hunlardan müdafiə» kimi adlandırılır (63, f.III; 74, k.II, f.35; 341, s.99). Bundan əlavə ilkin orta əsr yazılı qaynaqları Yeqişe və Sebeos bu müdafiə səddini «hun qapısı» da adlandırırlar. Bunu eyni zamanda ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu da belə adlandırır (68, f.III, 81, b.III, f.37; 79, k.II f.2, 21; 341, s.99). Digər ilk orta əsr yazılı qaynağı Par-

pesi qeyd edir ki, bu «naxak» müdafiə istehkamı (hasarı) albanlarla hunlar arasında inşa edilmişdir (74, k.II, f.35; 341, s.99). İlk orta əsr yazılı qaynaqları Yeqişenin və Parpesin məlumatlarına görə bu müdafiə istehkamının səddi Sasani ordusu tərəfindən qorunurdu (68, f.III, 74, k.II, f.35; 341, s.99).

Beləliklə, ilk sərhəd müdafiə səddi olan Beşbarmaq haqqında qiymətli məlumatları ilk orta əsr yazılı qaynaqları Yeqişe, Lazar Parpesi – V əsr, VII əsr müəllifi Şirakasi və VIII əsr yazılı qaynağının müəllifi Gevond, ilk orta əsr yazılı qaynağının müəllifi M.Kalankaytuklu, həmçinin onun haqqında ərəb coğrafiyaçıları Bəlazuri, Yaqubi, Məsudi saxlamışlar. Bu yazılı qaynaqlardan aydın olur ki, sərhəd müdafiə istehkamının səddi Beşbarmaq, Sasani və Albaniya hökmdarları tərəfindən V əsrin birinci yarısında albanlar ilə hunlar arasında inşa olunmuşdur. Bu müdafiə istehkamının divarları Sasani ordusu tərəfindən qorunurdu. İlk orta əsr yazılı qaynaqlarından aydın olur ki, Beşbarmaq müdafiə istehkamının hasarları hunlar tərəfindən Sasani şahı Yezdəgerd (438-457) dövründə – 452-ci ildə dağıdılmışdır və sonra yenidən bərpa edilmişdir.

Beşbarmaq müdafiə istehkamının hasarlarının qalıqlarına səyyahlar da vaxtı ilə nəzər-diqqət yetirmişlər. XVIII əsr səyyahları A.Oleari (554a, s.552, 542-543; 451, s.69) və İ.Lerxe (549a, s.40, 308; 451, s.269) Beşbarmaq müdafiə səddinin qalıqlarına baxdıqdan sonra, onların çox qədim tikinti olduğunu qeyd etmişlər.

Beşbarmaq müdafiə istehkamı arxeoloji nöqteyi-nəzərdən, arxeoloq-numizmat Y.A.Paxomov tərəfindən öyrənilmişdir. 1925-ci ildə Beşbarmaq müdafiə səddinin divarlarının qalıqlarını tədqiq edərkən Y.A.Paxomov müəyyən etmişdir ki, bu sədd Abşerondan şimal hissədə yerləşərək, sahil boyu 1,75 km uzunluğunda məsafəni əhatə edərək dənizə yaxın yerdə yerləşir. Bu yerdə dağın ətəyindən başlayaraq biri-birindən 220 m aralı iki paralel sədd uzanır (408a, s.10-13; 408, s.37-47; 491, s.269). Y.A.Paxomov arxeoloji tədqiqat apararkən burada III-VII əsrlərə aid çoxlu kərpic qalıqları aşkar etmişdir (408, s.10-12; 408, s.37-47).

Sasani hökmdarı Perozun varisi Qubad hunlar tərəfindən dağıdılmış Beşbarmaq müdafiə istehkamının tikintilərinin yerində yeni müdafiə istehkamları inşa etməyə başladı.

Yeni müdafiə istehkamının xətti şimala doğru istiqamətləndirildi. Şirvan ölkəsinin, Gilgilçayın boyunca yeni müdafiə xətti çəkildi. Bu müdafiə istehkamı xəttinin divarları haqqında ilk orta əsr coğrafiyaçısı A.Şirakasi məlumat verərək, onu «Anzut-Kavat» adlandıraraq, onun yerləşdiyi yer haqqında belə yazır: «…Anzut-Kavad divarı Alminon gölünə və dənizə doğru uzanır» (11, s.16; 271, s.35; 341, s.100). Şabran (Gilgilçay) müdafiə istehkamının tikintisinə nəzər-diqqət yetirən S.T.Yeremyan belə hesab edir ki, müdafiə istehkamının tikintisi Sasani şahı Qubad tərəfindən həyata keçirilmişdir (271, s.35).

Şabran müdafiə istehkamı 1931-1932-ci illərdə arxeoloji nöqteyi-nəzərdən Y.A.Paxomov tərəfindən tədqiq edilmişdir. Şabran müdafiə istehkamının divarlarının uzunluğu 30 km-ə qədər olmuş, bu divarın başlanğıcı Gilgilçayın mənsəbindən 5 km aralı, şimalda yerləşirdi (408, s. 40-43. ş 40, 41; 451, s. 270). Müdafiə istehkamı səddi dənizdən başlayaq 1 km Kelanı kəndinə qədər uzanır, onun burada hündürlüyü 5-6 m-ə çatır. Bu kənddən sonra müdafiə istehkamı səddinin istiqaməti dəyişərək dördküncdən ibarət tikinti qurğusunun küncündə tamamlanır. Müdafiə tistehkamının divarları gildən bərkidilmiş bünövrə üzərində çiy kərpiclə – 42x42x12 ölçüdə inşa edilmişdir. Burada divarın hündürlüyü 8 m-ə çatır. Dənizdən başlayaraq dağın ətəklərinə qədər uzanan müdafiə səddinin qalıqları boyunca bişmiş kərpicin və qırmızı rəngdə bişmiş saxsı qablarının qalıqları Y.A.Paxomov tərfindən III-VII əsrlərə aid edilir (408, s. 40, 43, ş. 40-41; 451, s. 270).

Y.A.Paxomov bu müdafiə istehkamının Çıraqqalaya qədər uzanan dağ hissəsini də arxeoloji nöqteyi-nəzərdən araşdırmışdır. Bu səddin dağ hissəsində yerləşən divarlarının bir hissəsi çiy kərpicdən, qaya üzərində yerləşən Çıraqqala qülləsinə qədər digər hissəsi isə daşdan hörülmüşdür (408, s.43, ş, s.43; 451, s.270).

Şabran (Gilgilçay) müdafiə istehkamında 1747-ci ildə səyyah İ. Lerxe də olmuşdur. O, müdafiə istehkamının divarına baxdıqdan sonra onu qısa şəkildə təsvir etmişdir (549a, s. 307-308; 451, s.270).

Beləliklə, yuxarıdakı araşdırmalardan aydın olur ki, hunların hücumu zamanı dağıdılmış Beşbarmaq müdafiə istehkamı-

nın əvəzinə Sasani şahı Qubadın (488-531) hökmranlığı dövründə Gilgilçayı boyunca yeni Şabran müdafiə istehkamı inşa olundu. Bu haqda bizə ilk orta əsr yazılı qaynağının müəllifi, coğrafiyaçı Ananiya Şirakasi məlumat verir. Bu Gilgilçay (Şabran) müdafiə istehkamının qalıqları bu günə qədər durmaqdadır.

Samur çayından şimala doğru bir yerdə dağın bir hissəsi dənizə çox yaxınlaşır, burada daha bir müdafiə istehkamı yerləşir. Bu müdafiə istehkamının qalıqları arxeoloqlar tərəfindən tədqiq edilməmişdir. Lakin bəzi tədqiqatçılar yalnız onun varlığı haqqında məlumat verməklə kifayətlənmişlər (408, s. 43; 479, s. 8; 451, s.271). Samurun sağ sahilində yerləşən xalq tərəfindən «Torpaqqala» adlanan bir qala durur. Bu müdafiə istehkamının qalıqlarına XVIII əsr səyahı İ.Lerxe də nəzər-diqqət yetirərək orada olmuşdur. «1747-ci ildə Kaspi dənizinin sahilindən – Bunakdan Kürə qədər» adlanan və İ. Lerxe tərəfindən tərtib olunan xəritədə bu müdafiə istehkamının divarlarının uzunluğu 80 verst olduğu qeyd edilir (549 a, s. 304; 45 I s. 271). Bu müdafiə istehkamının divarları haqqında səyyah İ.Lerxe belə yazır: «Ərəblər kəndində yerləşən Rubatər çayını keçdikdən sonra, harada ki, guya qədimdən burada ərəblər yaşayırdılar, biz 15 verst, daha sonra isə 5 verst getdikdən sonra, meşəyə qədər uzanan hündür qədim divar hasarın yanına çatdıq, hansı ki, verst dənizdən aşağı yerdən başlayaraq, Mollakənd yaxınlığında yuxarıya–hündür dağlara doğru qalxırdı. Bəzi yerdə onun hündürlüyü 20 sajena qədər çatırdı» (549a, s. 304; 451 s. 272). Səyyah İ.Lerxe bu divarın uzunluğunu burada bir qədər şişirtmişdir.

Vaxtı ilə görkəmli tədqiqatçı K.V.Trever bu müdafiə istehkamının divarları məsələsinə toxunaraq onun Kavad (Qubad) tərəfindən inşa edilməsini ehtimal etmişdir (451, s.272.).

Digər müdafiə istehkamının hasarlarının divarları, öz şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün Sasani şahları tərəfindən indiki Dağıstanın ərazisində yerləşən möhtəşəm Dərbənd istehkamı inşa olundu.

V əsrin ortalarında, xüsusilə Şimali Qafqazda böyük Xaqanat dövlətinin yaranmasından sonra Qafqaz Sasani imperiyası üçün böyük əhəmiyyət kəsb etməyə başladı (173 a, s. 3; 171, s. 22-23).

Ona görə öz şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün strateji cəhətcə böyük əhəmiyyət kəsb edən Dərbənd keçidində Sasani dövləti və hökmdarları daha çox əhəmiyyət verirdilər. Bura müdafiə səddinin çəkilməsi üçün çox əlverişli bir yer idi. Böyük Qafqaz dağlarının bir qolu dənizə qədər uzanaraq burada dar bir keçid əmələ gətirirdi, burada əgər bu keçid süni şəkildə istehkam ilə tikilmiş olarsa, o zaman Şimal-Şərqi Qafqaz düzənliyindən Qafqaza gələn yol bərk bağlanmış olardı. Məhz buna görə də bu yerdə –Dərbənd keçidində müdafiə istehkamının tikilməsinə başlandı.

Sasani dövləti bu səddi tikməklə özünü yalnız xəzərlərin hücumlarından deyil, eyni zamanda Şimali Qafqazda yaşayan digər köçəri tayfaların və ya yadelli işğalçıların hücumlarından qorumaq imkanı əldə etdi. Bu niyyət yazılı qaynaqlarda da öz əksini tapmışdır. Bu haqda bizə alban tarixçisi Moisey Kalankaytuklu belə yazır: «Külli miqdarda xəzər Çoqay qapısından keçib, bizim ölkəyə girmişdi. Şapur Assuriya, Xorasan və Xarəzmdən saysız-hesabsız ordu və Atrapatakan əyalətindən çoxlu qoçaq iranlıları (azərbaycanlıları – *T.M.*), albanları və Qafqaz dağlarının vəhşi xalqlarından 12 tayfa toplayıb bu böyük qüvvə ilə yürüşə başlayaraq onların qarşısına çıxdı» (79, s. 80-81, 62; 365, s. 112: 136, s. 116). Bu hücumlar, yadelli işğalçıların basqınları haqqında ərəb coğrafiyaçıları da məlumat verirlər. Bəlazuri bu haqda belə yazırdı: «Xəzərlər tez-tez öz ölkələrindən hücum edərək qonşu vilayətlərə soxularaq, hətta Dinavərə gedib çıxırdılar» (13, s. 5 ; 271 s. 36). Sasani şahı I Qubadın sərkərdələrindən biri Dinavərədək gəlib çıxan xəzərləri təqib edərək Albaniyanı onlardan geri aldı. «O, Arran (Albaniya – *T.M.*) ölkəsinə daxil oldu. Ər-Ras (Araz) adı ilə məşhur olan çayla Şirvan arasında olan bütün torpaqları tutdu» (13, s. 5 ; 271. s. 35). Digər ərəb coğrafiyaçısı Məsudi belə yazır: «Bütün bu tədbirlər dağın yaxınlığında yaşayan xalqların, xüsusilə xəzərlərin, alanların, türklərin, sərirlilərin və başqa kafirlərin basqınlarından qorunmaq üçün görülmüşdü» (47. s. 40-41).

Dərbənd müdafiə istehkamı və onun divarları haqqında digər yazılı qaynaqlar da bizə məlumat verirlər.

Hələ çox qədim zamanlardan Dərbənd keçidi yunan-roma yazılı qaynaqlarına məlum idi. Onlar öz məlumatlarında bu keçidi Kaspi və alban qapıları adlandırırdılar (451, s. 122-124, 274).

I və II əsr qədim yunan-latın yazılı qaynaqları Dərbənd keçidi haqqında məlumat verərkən onu yalnız «qapı», «darvaza» kimi deyil, eyni zamanda «tıxac», «arakəsmə», «sədd», «sərhəd qalası» mənalarında işlətmişlər (451, s. 276). K.V.Trever ehtimal edərək belə bir fikrə gəlir ki, I əsrin ikinci yarısında burada divarlar və ya istehkam olmuşdur. Onun tərəfindən ehtimal olunan bu fikir arxeoloji qazıntıların tədqiqi nəticəsində artıq təsdiq edilmişdir. Arxeoloq A.A.Kudryavsevin apardığı arxeoloji qazıntılar və tədqiqatlar nəticəsində bu keçiddə möhtəşəm divar qalıqları aşkar olunmuşdur. Bu möhtəşəm divar qalıqları 4,5-5 m enində böyük çay-daşlarından hörülmüş və o eramızdan əvvəl VII-III əsrlərə aid edilir (316, s. 11. 21). Suriya yazılı qaynaqlarında bu Dərbənd keçidi Kaspi qapısı adlandırılır (421, s. 109-114).

Dərbənd müdafiə istehkamının divarları haqqında ilk orta əsr yazılı qaynaqları: Yeqişe, Xorenasi, Sebeos, Şirakasi, Gevond, Asoqik, Vardan məlumat verirlər (68, f. 1, 4, 10 ; 76, k. II, f. 86; 11, s. 16; 82, f. 9; 84, k. I, f. 5; 81, b III f. 2; 73, s. 36; 341, s. 100). İlk orta əsr yazılı qaynaqları bu keçidə müxtəlif adlar verirlər. Dərbənd keçidini Xorenasi, Sebeos, və Gevond «Kaspi qapısı» adlandırırlar (76, k. II, f. 86; 81, b. III, f.37; 341, s. 100). İlk orta əsr yazılı qaynağı Sebeos eyni zamanda onu «Çora keçidi» də adlandırır (81, b. III, f.9; 341, s. 100). Digər ilk orta əsr yazılı qaynağı Yeqişe isə Dərbənd keçidini «Çora istehkamı», «paxak Çora» adlandırır, eyni zamanda bu keçidi orta əsr alban tarixçisi M. Kalankaytuklu da belə adlandırır (68, f. IV; 79. k. I, v. 10; 341, s. 100). Aqafangelin əsərinin yunan versiyasında isə bu keçid «möhkəmləndirilmiş Zuar istehkamı… keçidi» adlandırılır (451, s. 275). İlk orta əsr yazılı qaynaqları Xorenasi, Asoqik və Vardan Dərbənd istehkamını eyni zamanda «Çora qapısı», «Çora durn» adlandırırlar. Bu istehkamı, eyni zamanda ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu da belə adlandırır (75, k. II, f. 65; 84, k. I, f. 5; 73, s. 36; 79, k. II, f. I, 12, 23, 341, s. 101). VI əsr bizans yazılı qaynağının müəllifi Pra-

kopi Kesariyski isə Dərbənd keçidini Sur adlandırır (451, s. 27 b). Bu keçid haqqında gürcü yazılı qaynağı da məlumat verir. Gürcü yazılı qaynaqları bu keçid haqqında məlumat verərkən onu gah «dəniz qapısı», ya da «Darubandi qapısı» adlandırırlar (50, s. 25, 26; 51, s. 81).

İlk orta əsr yazılı qaynağı Dərbənd müdafiə istehkamının divarlarının möhkəm bir yerdə inşa olduğunu göstərir (11, s. 16; 341 s. 100). Bu fikri və məlumatı həmçinin ilk orta əsr alban tarixçisi M. Kalankaytuklu (79, k. II, f.39), ilk orta əsr yazılı qaynaqlarının müəllifləri Gevond və Ayrivanesi də təsdiq edirlər (82, f. XIX; 78, s. 48-49). Bu məlumatı ərəb coğrafiyaçıları İstəxri, İbn Haukal, Müqəddəsi, Yaqut Həməvi də təsdiq edərək yazırlar ki, Dərbənd (Babəl-əlvab) daş qala divarları ilə əhatə olunmuş və Kaspi dənizinin sahilində möhkəm bir yerdə inşa edilmişdir (30, s. 11; 21.s. 88, 89; 48, s.3; 61, s. 18, 20).

Dərbənd keçidinin adı və onun yerləşdiyi yer ərəb coğrafiyaçılarının əsərlərində «Bab-əl-əbvad» (qapılar qapısı), «Babül-Xədid» (dəmir qapı), «Əl-Bab» (qapı), «Bab-əlvan» (qızıl qapı), «Səd-əlvan» (gümüş qapı) kimi verilir (64, s.61; 23, s.43, 51; 24, s.15; 13, s. 5; 30. s.5; 30, s.11, 17; 22, s.11, 15; 47, S.40, 41,58; 21, s.88, 89, 92; 48, s.3,9). Buradan çıxış edən bəzi tədqiqatçılar ilk orta əsr yazılı qaynaqlarda bizə gəlib çıxan Dərbənd adının yanlış olaraq İran mənşəli söz olduğunu hesab edirlər (372, s.32). Onların səhv fikrincə, bu söz farsca iki hissədən: «Dər»–qapı və «bənd»–kəsmə hissələrindən ibarətdir (372, s.32). Bizim fikrimizcə, bu yanlış fikir və baxış, türk dilləri kontekstində baxılsa və aydınlaşdırılsa, başqa bir mənzərə alınar. «Dərbənd» sözünün birinci hissəsində olan «Dər»də «ə» saitinin «a» saitilə dəyişməsini və türkmənşəli sözlərdə belə halların tez-tez baş verməsini və olmasını nəzərə alsaq, bunu qanunauyğun hal kimi qəbul etmiş olsaq, birinci hissədəki söz «Dər»–qapı kimi yox, «Dar» kimi oxunsa, o zaman bu sözün yuxarıda qeyd etdiyimiz kimi, birinci hissəsi qapı şəklində deyil, «Dar» mənasında (dar geyim, dar yol, dar keçid, dar boğaz və s.) oxunardı, ikinci hissədəki «bənd» (çayın qarşısına salınan bənd, dar keçidin qarşısına salınan bənd) sözünün də türkmənşəli olduğunu qeyd etsək, Dərbəndin adının türkmənşəli olduğu aydınlaşar. Bu şəhərin,

bu keçidin yuxarıda qeyd etdiyimiz kimi, gürcü yazılı qaynaqlarında onun «Darubandi» şəklində bizə gəlib çatmış, yazılmış formasını nəzərə alaraq, onu dar yerin bəndi kimi qəbul edib, tərcümə etsək və buranın həqiqətən də dar coğrafi bir məskəndə, yerdə yerləşdiyini nəzərə alsaq, o zaman hər şey daha da aydın olar.

Dərbənd hərbi istehkamının, onun divarlarının möhtəşəmliyi və nəhəng daşlardan inşa edilməsi, digər tərəfdən strateji cəhətdən böyük əhəmiyyət kəsb edən bir yerdə yerləşməsi, onun haqqında xalq arasında müxtəlif rəvayətlərin yaranmasına səbəb olmuşdur. Belə rəvayətlərdən birində qeyd edilir ki, guya Dərbənd qapısı Makedoniyalı İsgəndər tərəfindən inşa edilmişdir (426, s.15; 171, s.23; 234, s.189).

Dağlardan başlayıb dənizə qədər uzanıb gedən bu möhtəşəm Dərbənd hərbi istehkamının divarlarının tikilməsini yazılı qaynaqlar isə Sasani şahları II Yezdəgerd, I Qubad (488-531) və onun oğlu I Xosrov Ənuşirəvana (531-579) aid edirlər. Ərəb coğrafiyaçıları İbn əl-Fəqih, Yaqut Həməvi, Bəlazurinin məlumatlarından aydın olur ki, çiy kərpicdən tikilmiş Dərbənd istehkamının əsasını Qubad qoymuşdur. Daha sonra bu məlumata əlavə edərək, ərəb coğrafiyaçıları qeyd edirlər ki, Dərbəndin daş divarları inşa edilərkən, çiy kərpicdən tikilmiş hərbi müdafiə istehkamı məhv edilmişdir (22, s.15; 13, s.7; 62, s.14; 135, s.136-137). İlk orta əsr yazılı qaynaqları Yeqişe və Gevond isə Dərbənd müdafiə istehkamının divarlarının inşasını II Yezdəgerdin adı ilə bağlayırlar (68, f.VII; 82, f.XII). İlk orta əsr yazılı qaynaqlarının Dərbənd müdafiə istehkamının ilkin dövrlərdə əvvəl çiy kərpicdən inşa edilməsi faktını 1932-ci ildə tədqiqatçı B.N.Zasıpkin (408, s.44; 135, s.135,137), sonralar isə arxeoloq A.A.Kudryavsev öz arxeoloji tədqiqatları ilə bir daha təsdiq edir(316, s.16,22).

Görkəmli tədqiqatçı K.V.Trever Dərbənd hərbi müdafiə istehkamının çiy kərpicdən tikilmiş hasarlarının Sasani şahı Qubada və onun dövrünə aid olduğunu göstərir (451, s.277-278). Lakin arxeoloq A.A.Kudryavsev yazılı qaynaqlara və özünün arxeoloji tədqiqatlarına əsaslanaraq, Dərbəndin çiy kərpicdən inşa edilmiş divarlarını Sasani şahı II Yezdəgerdin adı və dövrü ilə bağlayır (316,s.16).

İlk orta əsr yazılı qaynaqları Dərbənd keçidində inşa edilmiş möhtəşəm müdafiə hərbi istehkamın daş divarlarını Sasani şahı I Xosrov Ənuşirəvanın adı ilə bağlayırlar. Dərbəndin möhtəşəm istehkamının daş divarlarını ilk orta əsr yazılı qaynağı Sebeos Sasani hökmdarı I Xosrov Ənuşirəvana aid edir. İlk orta əsr yazılı qaynağı bu haqda belə yazır: «Xosrov öz şahlığı dövründə Çora və alban keçidlərini möhkəmləndirdi» (81, b.III, f.2; 271, s.36; 341, s.100). Eyni zamanda ərəb coğrafiyaçıları Bəlazuri, İbn Xordadbeh, Məsudi, Müqəddəsi, Yaqut Həməvi, İbn əl-Fəqih, Kudama Dərbənddə müdafiə hərbi istehkamının daş divarlarının inşasını VI əsrdə Sasani şahı I Xosrov Ənuşirəvana aid edirlər (13, s.5; 24, s.15; 47, s.40-41; 62, s.14; 18; 22, s.15; 43, s.29). İlk orta əsr yazılı qaynaqlarının, ərəb coğrafiyaçılarının VI əsrdə Dərbənd hərbi müdafiə istehkamının daş divarlarının inşa edilməsi məlumatlarını daş divarlar üzərində tapılan pəhləvi yazılar da təsdiq edir (416, s.3-22; 416 a, s.15). Dərbəndin şimal hissəsindəki daş divarlarının üzərində həkk olunmuş pəhləvi yazılarından aydın olur ki, bu istehkamın daş divarları 567-ci ildə başa çatdırılmışdır. Dərbəndin hərbi müdafiə istehkamının daş divarlarının inşasına Albaniyada Sasani vergilərini toplayan Barziş rəhbərlik etmişdir (416, 3-22; 416a, s.15; 395, s.25-32).

İlk orta əsr yazılı qaynağının müəllifi, VII əsr coğrafiyaçısı A.Şirakasi Dərbənd hərbi istehkamının divarlarının yerləşdiyi yer haqqında belə yazır: «… Kaspi dənizinin sahilində, Qafqaz sıra dağlarının qolunun ətəyində möhkəm, böyük Dərbənd divarları dənizin içində» (11, s.16; 341, s.100). Digər orta əsr yazılı qaynağının müəllifi alban tarixçisi M.Kalankaytuklu bu haqda belə yazır: «… Qafqaz sıra dağları böyük şərq dənizi arasında» (79, k.II, f.17; 341, s.100). Onun yerləşdiyi yer eyni zamanda X əsr ərəb coğrafiyaçısı Məsudinin məlumatında öz əksini tapmışdır. Məsudi bu haqda belə yazırdı: «Əl Bab və əl-Əbvab (Dərbənd–*T.M.*) şəhəri Kəsrə (Xosrov–*T.M.*) Ənuşirəvanın dağ ilə Xəzər dənizi arasında çəkdirdiyi sədd keçidlərdən birindədir. Dənizin içərilərinə 1 milə (2 km) qədər girmiş bu divarların (özülü) suyun dibindədir. Onlar Qabh (Qafqaz–*T.M.*) dağı, onun zirvə, keçid və düzləri ilə 40 fərsax boyunca uzanaraq, nəhayət Tabasaran adlı qalada qurtarır. (Ənuşirəvan) yol-

dan asılı hər üç mildən az, ya bir az çox məsafədə dəmir darvaza qoydurmuş...» (47, s.40-41).

Ərəb coğrafiyaçıları İbn əl Fəqih, Bəlazuri, Müqəddəsi və b. Dərbənd istehkamının inşasının texnikasının təsvirini də vermişlər. Onların məlumatlarında göstərilir ki, Dərbəndin divarlarını, qala bürclərini inşa etmək üçün nəhəng daşlardan istifadə olunurdu (22, s.23, 25; 13, s..7; 48, s.9). Hərbi istehkamın divarlarını tikmək üçün nəhəng daşlardan istifadə edilmiş, bu nəhəng daşları bir-birilə qurğuşunla birləşdirmişdilər. İstehkamın divarlarını inşa edərkən, nəhəng daşları deşərək ona qalın dəmir çubuqlar keçirir və həmin dəlikləri əridilmiş qurğuşunla doldururdular (22, s.23,25; 13,s.7; 48, s.9; 72, s.4; 171, s.22-24). Paralel şəkildə biri digərinə birləşdirilmiş bu nəhəng daşlar o qədər ağırdır ki, onların hər birini əlli adam belə birlikdə qaldırmağa aciz idi (22, s.23; 271, s.39).

Dərbənd hərbi müdafiə istehkamının divarlarının bir hissəsi bu günə qədər durmaqdadır. Dərbənd istehkamının müdafiə divarları hamarlanmış və yonulmuş böyük daş plitələrdən hörülmüşdür, bu nəhəng daşların hər biri, bir metr uzunluğunda, 70 sm enində, 25-30 sm qalınlıqdadır (439, s.273-276; 135, s.129-130; 451, s.279, t.10). Dərbənd istehkamının divarlarının hündürlüyü 18-20 m-ə çatır, divarların eni isə 2-4 metrə qədərdir (439,s.273-276; 135, s.122; 451, s.279). Dərbənd müdafiə istehkamının divarları bir neçə yerdən qapılara malikdir (22, s.23; 48, s.9; 13, s.7; 135, s.122-123, ş.9-11; 451, s.279). Onun ən qədim qapısı cənubda yerləşən Orta Qapıdır (439, s.55; 135, s.123, ş.12-14; 451, s.279, 164, ş.20-24). Onun şimal divarları yaxşı qorunub saxlanmışdır, bu divar 30-a qədər dairəvi və yarımdairəvi bürclərlə əhatə olunmuşdur, bunlar biri digərindən 50-70 m aralıda yerləşir. Burada bürclərin hündürlüyü 8 m, eni isə 15 m-ə çatır (135, s.129, ş. 22, 23; 451, s. 280, m.9, 11, 13.). Vaxtı ilə Dərbənd hərbi istehkamının divarları üç hissədən: yuxarı, orta və dəniz sahilindən ibarət olmuşdur.

Dərbənd müdafiə istehkamının yuxarı hissəsində yerləşən Dağ-barı adlanan divarlar, şimaldan dərələrdən, aşırımlardan hücum edərək, ölkənin içərisinə daxil olan şimal tayfalarından qorunmaq məqsədi daşıyırdı. Bu hissə Tabasaran adlı dağa qə-

dər uzanırdı. Yuxarıda qeyd etdiyimiz kimi bu haqda bizə ərəb coğrafiyaçıları məlumat verirlər (47, s.40,41; 22, s. 23.). Dərbənd hərbi müdafiə istehkamının yuxarı hissəsini təsvir edərək onun haqqında ərəb coğrafiyaçısı İbn əl-Fəqih belə yazır: «…divarın son hissəsi elə bir yerə qədər uzanır ki, burada ona qarşı heç nə etmək olmaz, bura dağ, dərin dərədən ibarət olub, 7 farsax (1 farsəng-6 km–*T.M.*) uzanaraq meşə ilə örtülmüş dərin dağ-dərədən ibarətdir və ondan keçmək qeyri-mümkündür» (22, s. 234.).

Ərəb coğrafiyaçısı Məsudi Dərbənd müdafiə hərbi istehkamının yuxarı hissəsi haqqında məlumat verərək onun divarlarının uzunluğunun burada 40 farsax olduğunu qeyd edir (47, s. 40-41; 172, s. 967). Ərəb coğrafiyaçıları Məsudi, Bəlazuri, İbn Xordadbeh, Müqəddəsi və İbn əl-Fəqih Dərbənd müdafiə istehkamını təsvir edərkən onun divarları boyu biri-birindən aralı bir çox yerdə dəmir darvazalar qoyulduğunu göstərirlər (13, s.7; 24, s. 11; 22, s. 23; 47, s. 40, 41; 48, s.9). X əsrin ərəb tarixçisi, coğrafiyaşünası və səyyahı əl-Məsudi bu haqda belə yazırdı: «… Ənuşirəvan yoldan asılı hər üç mildən az, ya bir az çox məsafədə dəmir darvaza qoydurmuş, içəri tərəfdə darvazanı və ona bitişən divarları qorumaq üçün adamlar yerləşdirmişdi» (47, s. 40-41).

Dərbənd müdafiə hərbi istehkamının divarlarının Dağ-barı hissəsini 1770-ci ildə səyyah S.Q.Qmelin tədqiq etmişdir (543 a, s. 12.). XIX əsrdə bu müdafiə səddinin divarlarının yuxarı hissəsinə alim-səyyah İ.N.Berezin də nəzər-diqqət yetirmişdir (183, s. 134). 1928-ci ildə müdafiə istehkamının divarlarının bu hissəsini Y.A.Paxomov da tədqiq etmişdir. O, burada müdafiə istehkamının divarlarının uzunluğunun 40 km-dən artıq olduğunu göstərir (408, s. 45; 451, s.284). Arxeoloq-numizmat Y.A.Paxomov istehkamın qala bürclərini tədqiq edərkən və öyrənərkən, onların divarlarının diş şəkildə olmasını görmüşdür (408, s. 451). M.İ.Artamonov Dağ-barı hissəsini tədqiq edərkən qeyd edir ki, bu hissədə divarlar iki cərgədə mişarlanmış nəhəng daşlardan–bloklardan hörülmüşdür, bu daşların hər birinin uzunluğu bir metrdən çox, 70 sm-ə yaxın enə və 25-30 sm qalınlıqdadır, onlar əhənglə qarışdırılmış, möhkəmləndirilmiş, məhlulla biri digərinə yapışdırılmışdır (135, s.129; 132, ş.18, s. 133, ş.20-21; 451, s. 284). M.İ.Artmanov daha sonra yazır ki, Cal-

qan dağ silsiləsi yanında dərədən Mitağı kəndi arasında 15 km-dən çox uzunluqda divarlar yerləşir ki, bura bağlanmış, qapanmış bürclər və qala istehkamlardan ibarətdir (135, s.129-131; 451, s. 284).

Dərbənd hərbi istehkamının divarlarının bir hissəsi şəhərdə dənizin içərilərinə qədər uzanır. Burada müdafiə istehkamı iki qoşa divardan ibarət olub Dərbənd keçidini bağlayır. Bu hərbi istehkamın dənizə daxil olan divarların hissəsi haqqında ərəb coğrafiyaçıları – Bəlazuri, Məsudi, İstəxri, İbn Haukal, İbn əl-Fəqih və digərləri məlumat saxlamışlar (13, s.7; 47. S. 30, s.7; 21 a, s. 88; 22, s. 23).

Yuxarıda ərəb coğrafiyaçısı Məsudinin verdiyi məlumatdan aydın olur ki, «Ənuşirəvanın çəkdirdiyi dəniz içərilərinə 1 milə qədər girmiş bu divarların (özülü) suyun dibindədir» (s. 47, s.40). Bu haqda digər ərəb coğrafiyaçısı Bəlazuri məlumat verərək onun bu hissəsinin inşa olunması texnikasını belə təsvir edir: «O (Xosrov I) əmr etdi ki, gəmilərdə daşları gətirib dənizin dibinə töksünlər, onlar suyun üzərinə çıxdıqdan sonra o, onların üstündə divarları hördürdü, bu inşa edilmiş divarları dənizdə üç mil uzatdırdı» (13, s.7; 43. s. 33). Ərəb coğrafiyaçıları dənizin içərisində olan Dərbənd hərbi istehkamının uzunluğunu müxtəlif ölçüdə, müxtəlif cür verirlər: bir mildən–üç mil uzunluqda (47, s.40; 13, s.7). Buna vaxtilə diqqət yetirən tədqiqatçı V.V.Bartold bu dəniz içərisində olan divarın uzunluğunu 600 dirsəkdən ibarət olduğunu ehtimal etməyin məqsədəuyğun olduğunu qeyd edir (172, s.967; 451, s. 281). Dənizin dibində olan Dərbənd hərbi istehkamının divarlarının qalıqları haqda vaxtı ilə səyyahlar A.Oleari (554a, s. 542-543), İ.N.Berezin (183, s.187) və N.Xanıkov da (62 a, s.499) yazmışlar.

Dərbənd keçidində dəniz ilə divar arasında gəmilər üçün dəniz reydi və liman vardı. Buradakı limana gəmilər icazəsiz nə daxil olub, nə də oradan icazəsiz çıxa bilməzdilər, çünki giriş yolu zəncirlə bağlanmışdı. Bu haqda ərəb coğrafiyaçıları İstəxri, İbn Haukal və Yaqut Həməvi bizə məlumat saxlamışlar (30, s. 11; 21, s. 88; 62, s. 18-19). İstəxri bu haqda belə yazır: «Bab-əl-Əbvab sahil şəhəridir. Ortasında gəmilər üçün liman vardır. Bu liman ilə dəniz arasında, hər iki yandan qoşa divar çəkilmişdir.

Belə ki, gəmilərin giriş yolu dar və çox girintili-çıxıntılıdır. Giriş (Tir və Beyrut şəhərlərində olduğu kimi) zəncirlənmişdir (üstündə qıfıl asılmışdır, açarı dənizdəki vəziyyətə nəzarət edəndədir). Heç bir gəmi icazəsiz buraya nə daxil olur, nə də çıxır. Hər iki divar daş və qurğuşundan hörülmüşdür» (30, s.11; 451, s. 282).

Dərbənd müdafiə istehkamı Sasani ordusunun qarnizonu tərəfindən qorunurdu (68, f. 24; 74, k.II, f.35). İlk orta əsr alban yazılı qaynağının müəllifi M.Kalankaytuklu bu haqda belə yazır: «Onlar qəflətən Çola qapısından keçir və şəhərin keşikçiləri və İran şahının keçidin ətrafında yerləşdirdiyi başqa qoşunlara əhəmiyyət vermədən qartallar kimi başıaşağı hücum edərək Kür çayı tərəfə yönəldilər» (79, k.II, f.11.). Dərbənd müdafiə səddinin divarlarının Sasani qoşunları tərəfindən qorunması haqqında həmçinin ərəb coğrafiyaçıları Bəlazuri, Məsudi, İbn əl-Fəqih də məlumat verirlər (13, s.7; 47, s.40; s. 23-25). Bəlazuri bu haqda belə yazır: «Ənuşirəvan divarın inşasını bitirdikdən sonra onun qapısına dəmirdən darvaza qoydurdu, onun qorunmasını yüz atlıya tapşırdı, qabaqlar isə buranı 50 min əsgərdən ibarət qoşunla qorumaq lazım gəlirdi» (13, s.7; 451, 283). Ərəb coğrafiyaçısı İbn əl-Fəqih Dərbənd hərbi müdafiə istehkamının divarlarını qoruyan Sasani ordusunun hərbçiləri içərisində sisyanlıların olduğunu xüsusi olaraq öz əsərində göstərir. İbn əl-Fəqih bu haqda belə yazır: «7 farsax uzunluğunda olan divar boyunca yeddi keçid qoyulmuşdu, bu hər bir keçidlərdə şəhərlər salmış, bu şəhərlərdə fars (sasani–*T.M.*) əsgərləri–sisyanlılar yaşayırlar (22, s. 23-25)». Tədqiqatçı S.T.Yeremyan vaxtı ilə ərəb coğrafiyaçısının bu məlumatına qeyri-obyektiv yanaşaraq Sunidən olan bu ordunun əsgərlərini–sisyanlıları erməni adlandırır (271, s. 38-39). Vaxtı ilə S.T.Yermyanın bu səhv və qeyri-obyektiv fikirinə nəzər-diqqət yetirən tədqiqatçı V.F.Minorski onu tənqid etmiş, haqlı olaraq onunla razılaşmadığını bildirmişdir (372, s. 30-31). Biz V.F.Minorskinin fikri ilə tam razılaşaraq Albaniya dövlətinin tərkibində olan Suni vilayətindən sisyanlı əsgərlərin erməni deyil, daha dürüst, onların Albaniya dövlətinin ərazisində yaşayan sisyanılı olduğunu məqsədəuyğun hesab edərdik. Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, yuxarıda göstərilən məlumatda ərəb coğrafiyaçısı İbn əl-Fəqih Albani-

ya dövlətinin ərazisində vaxtilə yaşayan sisyanlıları yanlış olaraq fars (sasani) adlandırır (22, s.25).

Dərbənd şəhəri və müdafiə istehkamı dağlarda yerləşən bulaqlardan, yerin altı ilə saxsı kəmərlə gətirilən su ilə təchiz olunurdu. Yazılı qaynaqlar Dərbənd istehkamına və şəhərinə dağ bulaqlarından suyun çəkilib gətirilməsini Sasani şahı I Xosrov Ənuşirəvanın adı ilə bağlayırlar (22, s. 25; 48, s.9).

Dərbənd sərhəd hərbi istehkamının və keçidinin divarlarının inşası uzun bir vaxtda başa gəlmişdir. Onun inşası yüz illər boyu davam etmişdir. Bu nəhəng, möhtəşəm tikinti böyük maddi vəsait və qüvvə tələb edirdi. Onun inşasına minlərlə insanlar cəlb olunaraq onların qüvvəsindən istifadə olunmuşdur. Dərbənd istehkamının tikintisinin ağırlığı digər tabe edilmiş Qafqaz ölkələrinin əhalisinin, birinci növbədə isə Albaniya dövlətinin əhalisinin üzərinə düşür və onların kürəyindən çıxırdı. İlk orta əsr alban yazılı qaynağının müəllifi, tarixçi M.Kalankaytuklu bu haqda belə yazır: «İran (Sasani–*T.M.*) şahları ölkəmizi (Albaniya–*T.M.*) taqətdən saldılar; bu qəribə binanı tikmək üçün memarları səfərbərliyə alan və çoxlu müxtəlif material axtarıb tapan İran (Sasani–*T.M.*) şahları həmin tikinti vasitəsi ilə Qafqaz dağı ilə Şərq (Xəzər–*T.M.*) dənizi arasındakı keçidləri qapalı saxlayırdılar» (79, k. II, f.11; 341,s. 98).

Beləliklə, yazılı qaynaqların və arxeoloji materialların araşdırılması göstərir ki, Dərbənd hərbi istehkamının möhtəşəm divarları Sasani hökmdarı II Yezdəgerd, I Qubad və onun oğlu I Xosrov Ənuşirəvan dövründə onlar tərəfindən inşa olunmuşdur. Yuxarıda gətirilən yazılı qaynaqların materillarının araşdırılmasından, tədqiqatlardan və arxeoloji qazıntıların materiallarından aydın olur ki, Dərbənd keçidində hərbi istehkam çox erkən dövrlərdə – e. ə. VII-III əsrlərdə olmuşdur. Bu keçiddə o zaman hərbi müdafiə istehkamının divarları 4,5-5m enində böyük çaydaşlarından hörülmüşdür. Araşdırmalar göstərir ki, ilk orta əsrlərdə Dərbənd sərhəd hərbi istehkamının divarları çiy kərpicdən inşa olunmuş müdafiə hasarlarını II Yezdəgerd inşa etdirmişdir. Lakin hərbi savaşlar, yürüşlər zamanı bu hərbi istehkamın çiy kərpicdən inşa olunmuş divarları II Yezdəgerd dövründə yadellilər tərəfindən dağıdılmışdır. Dərbənd hərbi

müdafiə istehkamının bu günə qədər bizə gəlib çıxan möhtəşəm daş divarları isə Sasani hökmdarları I Qubad və onun oğlu I Xosrov Ənuşirəvan tərəfindən inşa olunmuşdur. Yazılı mənbələrin və arxeoloji qazıntıların materiallarının araşdırılması, bu müdafiə divarlarının tikilmə texnikası, onun yerləşdiyi yer haqqında bizə məlumat verir və onlar haqqında bizdə təsəvvür yaradır. İlk orta əsr yazılı qaynaqlarının məlumatlarının araşdırması göstərir ki, Albaniya ərazisində Sasanilər tərəfindən inşa edilmiş hərbi müdafiə istehkamları alban və sasani hərbi hissələri tərəfindən qorunurdu. Dərbənd sərhəd hərbi müdafiə istehkamının divarlarının inşası yüz illər davam etmişdir. Bu möhtəşəm hərbi müdafiə istehkamının inşasına böyük maddi vəsait, qüvvə sərf olunmuşdur. Onun inşasına minlərlə insanlar cəlb olunmuş və onların qüvvələrindən istifadə edilmişdir. Dərbənd müdafiə istehkamının divarlarının inşasının ağırlığı Qafqaz və digər tabe olunmuş ölkələrin əhalisinin, birinici növbədə isə albanların və Albaniya dövlətində yaşayan əhalinin üzərinə düşmüşdü.

Bu möhtəşəm baş hərbi müdafiə istehkamının inşasından sonra, Sasanilər dövründə Albaniya ərazisində daha bir qoruyucu hərbi müdafiə istehkamı inşa olundu. Bu hərbi müdafiə istehkamı Dərbənd şəhərindən şimala doğru 6-7 km aralıda yerləşən «Dağıstan İşıqları» adında olan dəmir yolu dayanacağının yaxınlığında yerləşirdi (408, s. 46; 451, s. 286; 403, s. 318). Bu hərbi müdafiə istehkamının qalıqları bu günə qədər hərtərəfli öyrənilməmişdir. 1928-ci ildə Y.A.Paxomov bu istehkamın divarlarının qalıqlarına nəzər-diqqət yetirərək, onun Sasani hökmdarları vaxtında inşa olunmasını ehtimal etmişdir (408, s. 46; 451, s. 286; 403, s. 318). Bu müdafiə istehkamına vaxtı ilə toxunan görkəmli tədqiqatçı K.V.Trever də bu qala divarlarının inşasını I Xosrov Ənuşirəvanın vəliəhdliyi dövründə, onun tərəfindən inşa edilməsini ehtimal edir (451, s. 286-287).

Sasani hökmdarları yalnız müdafiə istehkamlarının inşası ilə kifayətlənmirdilər. Onlar şimaldan özlərini və Albaniya dövlətinin sərhədlərini möhtəşəm müdafiə istehkamları ilə təmin etməklə bərabər, eyni zamanda şimal hərbi müdafiə istehkamları ətrafında, yanında onları qorumaq üçün Albaniyada hərbi mühafizə dəstələri üçün hərbiləşdirilmiş yaşayış məskənləri salırdı-

lar. Bunu həyata keçirərkən onlar yerli zadəgan və feodalları da bu işlərə cəlb edirdilər. Sasani şahlarının bu siyasəti, əməli barəsində ərəb coğrafiyaçıları Yaqut Həməvi, Məsudi ətraflı məlumat verərək, qeyd edirlər ki, Sasani hökmdarları sərhədlərdə yerləşən müdafiə istehkamlarına nəzər-diqqət yetirir, onların qorunması və mühafizəsi qeydinə də qalırdılar. Burada müxtəlif yerlərdən, vilayətlərdən köçürülüb gətirilənlərdən ibarət mühafizə dəstələri və hərbi yaşayış məskənləri yaradılırdı. Bunların hamısı yerli hökmdarların, feodalların, yerli əhalinin hesabına edilirdi. «Bütün bu tədbirlər dağın yaxınlığında yaşayan xalqların, xüsusilə xəzərlərin, alanların, müxtəlif türklərin, sərirlilərin və başqa kafirlərin basqınından qorunmaq üçün görülürdü» (372, s. 30-31; 13, s. 7; 47, s. 40-41; 166, s. 35: 271, s. 37-39).

İlk orta əsr yazılı qaynaqlarının müəllifləri Yeqişe və L.Parpesi də (68, f. III; 74, k. II, f.35; 341, s. 99) sərhəddə yerləşən hərbi müdafiə istehkamlarının divarlarının Sasani hərbi hissələri tərəfindən qorunduğu haqda məlumat verirlər.

Qafqazın şimalında yerləşən köçəri tayfaların basqınları Bizans imperiyasına da qorxu törətdiyinə və onlara böyük ziyan vurduğuna görə Dərbənd hərbi müdafiə istehkamının möhkəmləndirilməsində Bizans dövləti də maraqlı idi (46, s. 188; 422, s. 82, 131). Sərhəddə yerləşən hərbi müdafiə istehkamlarının qorunmasına, möhkəmləndirilməsinə, mühafizəsinə çoxlu miqdarda maddi vəsait tələb olunurdu. 422-ci ildə Sasani dövləti ilə Bizans dövləti arasında bağlanan müqaviləyə görə hərbi müdafiə istehkamları hər iki dövlətin hesabına qorunub saxlanırdı (46, s. 188). Bu müqaviləyə əsasən Bizans dövləti hərbi müdafiə istehkamlarını qorumaq üçün Sasani dövlətinə hər il müəyyən miqdarda məbləğ verməyi öz öhdəsinə götürür və onu qızıl pulla ödəyirdi (46, s. 188; 423, s. 159; 269, s. 44; 422, s. 82, 131).

Beləliklə, yuxarıda araşdırılan ilk orta əsr yazılı qaynaqlardan, arxeoloji materiallardan və digər faktlardan tam aydın olur ki, Sasani dövləti ilə Albaniya dövləti şimal sərhədlərini müdafiə etmək və qorumaq üçün həmişə birlikdə tədbirlər görürdülər. Bu müdafiə istehkamları, qalalar, hərbi müdafiə hasarları Şimali Qafqazdan Albaniya dövlətinin ərazisinə yadelli işğalçıların basqınlarının qarşısını almağa, onların hücumları-

nın arasının kəsilməsinə müəyyən qədər kömək edir və imkan yaradırdı.

Göründüyü kimi, ilk orta əsr yazılı qaynaqları Qafqaz və Albaniya dövlətinin tarixində mühüm əhəmiyyət kəsb edən, ölkənin şimalında yerləşən hərbi müdafiə istehkamlarının varlığından yan keçməmişdir.

Beləliklə, yuxarıda araşdırılan, ilk orta əsr yazılı qaynaqlarından gətirilən faktlar və arxeoloji materiallar birinci sərhəd hərbi müdafiə istehkamı Beşbarmaq haqqında bizə söz deməyə imkan verir. Beşbarmaq hərbi müdafiə istehkamı haqqında ilk orta əsr yazılı qaynaqlarının müəllifləri V əsr – Yeqişe, Lazar Parpesi, VII əsr coğrafiyaçısı Şirakasi və VIII əsrdə Gevond, eyni zamanda ərəb coğrafiyaçıları: Bəlazuri, Yaqubi, Məsudi qiymətli məlumatlar verirlər. İlk orta əsr yazılı qaynaqlarının və arxeoloji materiallarının araşdırılmasından aydın olur ki, hərbi müdafiə istehkamı – Beşbarmaq V əsrin birinci yarısında Sasani və Albaniya dövlətləri tərəfindən, albanlar ilə hunlar arasında inşa edilmişdir. Bu hərbi müdafiə istehkamı Sasani ordusunun qüvvələri vasitəsilə mühafizə edilir və qorunurdu. İlk orta əsr yazılı qaynaqlarının araşdırılmasından aydın olur ki, Beşbarmaq müdafiə istehkamının divarları Sasani hökmdarı II Yezdəgerd (438-457) dövründə – 452-ci ildə hunlar tərəfindən hücum zamanı dağıdılmışdır.

Yuxarıda araşdırılan və tədqiq edilən ilkin orta əsr yazılı qaynaqların, arxeoloji materialların məlumatlarından, digər faktlardan aydın olur ki, hunlar tərəfindən dağıdılmış Beşbarmaq müdafiə istehkamının divarları əvəzinə Sasani şahı Kavad (Qubad) tərəfindən yeni Gilgilçay boyunca Şabran müdafiə istehkamı inşa edildi. Bu yeni müdafiə istehkamının – Şabranın qalıqları bu günə qədər bizə gəlib çıxmışdır. Bu hərbi müdafiə istehkamı haqda bizə ilk orta əsr yazılı qaynağının müəllifi, coğrafiyaçı Ananiya Şirakasi məlumat verir.

Bu araşdırmalardan aydın olur ki, Samur çayından şimala doğru, o yerdə ki dağın bir hissəsi dənizə çox yaxınlaşır, burada «Torpaqqala» adlanan yerdə daha bir müdafiə istehkamı yerləşirdi. Bu müdafiə istehkamının qalıqları hələ arxeoloji cəhətdən öyrənilməmişdir. Bu müdafiə istehkamı hələ öz tədqiqini gözləyir.

Beləliklə, yuxarıda araşdırılan və tədqiq olunmuş ilkin orta əsrlərin yazılı qaynaqların, arxeoloji materialların məlumatlarından və digər faktlardan aydın olur ki, Albaniya dövləti və Sasani hökmdarları öz şimal sərhədlərini möhkəmlətmək üçün Dərbənd keçidində möhtəşəm hərbi müdafiə istehkamı inşa etdirdilər. Dərbənd müdafiə istehkamını inşa edərkən Sasani dövləti və Albaniya hökmdarları hər şeydən əvvəl Dərbənd keçidini möhkəm bağlamaq, şimaldan arası kəsilməyən yadelli işğalçıların basqınlarının qarşısını almaq, şimal sərhədlərinin təhlükəsizliyini təmin etmək istəyində olmuşdular.

İlk orta əsr yazılı qaynaqların məlumatlarının, arxeoloji materialların və digər faktların araşdırılmasından bəlli olur ki, Dərbənd hərbi müdafiə istehkamını Sasani şahları II Yezdəgerd, Kavad (I Qubad) və onun oğlu I Xosrov Ənuşirəvan dövründə, onlar tərəfindən inşa olunmuşdur. Yuxarıda yazılı qaynaqların, arxeoloji qazıntıların materiallarının araşdırılmasından və tədqiqindən aydın olur ki, Dərbənd keçidində hərbi istehkam çox erkən dövrlərdə – e. ə. VII-III əsrlərdə də mövcud olmuşdur. Bu keçiddə o zaman müdafiə istehkamının divarları 4,5-5 m enində, böyük çaydaşlarından hörülmüşdür. Araşdırmalar göstərir ki, Dərbənd sərhəd hərbi müdafiə istehkamının çiy kərpicdən ibarət olan divarların hasarları ilk orta əsrlərdə II Yezdəgerd tərəfindən inşa olunmuşdur. Lakin hərbi savaşlar, yürüşlər zamanı bu hərbi müdafiə istehkamının çiy kərpicdən inşa olan divarları yadellilər tərəfindən dağıdılmışdır.

Dərbənd hərbi müdafiə istehkamının bu günə qədər bizə gəlib çıxan möhtəşəm daş divarları isə Sasani hökmdarı Qubad və onun sələfi I Xosrov Ənuşirəvan dövründə, onlar tərəfindən inşa olunmuşdur.

İlk orta əsr yazılı qaynaqların, arxeoloji qazıntılarının materiallarının araşdırılması, bu müdafiə istehkamının divarlarının tikilmə texnikası, yerləşdiyi yer və onlar haqqında bizdə tam təsəvvür yaradır. İlkin orta əsr yazılı qaynaqlarının materiallarının araşdırılması göstərir ki, Albaniya ərazisində Sasanilər tərəfindən inşa edilmiş hərbi müdafiə istehkamları alban və Sasani hərbi hissələri tərəfindən qorunurdu. Dərbənd sərhəd hərbi müdafiə istehkamının divarlarının inşası yüz illər boyu davam et-

mişdir. Onun tikilməsinə minlərlə insanlar cəlb edilmiş və onların əməyindən, qüvvəsindən istifadə olunmuşdur. Dərbənd müdafiə istehkamının möhtəşəm divarlarının inşasının ağırlığı Qafqaz və digər tabe olunmuş ölkələrin əhalisinin, birinci növbədə isə Albaniya dövlətinin əhalisinin üzərinə düşürdü.

Beləliklə, yazılı qaynaqların araşdırılması göstərir ki, Sasani hökmdarları yalnız müdafiə istehkamlarının inşası ilə kifayətlənmirdilər. Onlar özlərini və Albaniyanı möhkəm, möhtəşəm hərbi müdafiə istehkamının tikintiləri ilə təmin etməklə bərabər, eyni zamanda şimal hərbi müdafiə istehkamlarının tikintiləri ətrafında, yanında, keçidlərdə, onları qorumaq üçün Albaniyada hərbi mühafizə dəstələrinin yerləşməsi naminə hərbiləşdirilmiş yaşayış məskənləri salırdılar. Bunu həyata keçirərkən onlar yerli zadəgan və feodalları da bu işlərə cəlb edirdilər. Sərhəd hərbi müdafiə istehkamları və keçidlər yerli və Sasani hərbi ordu hissələri ilə qorunurdu.

İlkin orta əsr yazılı qaynaqların araşdırılması göstərir ki, şimalda Albaniya ərazisində yerləşən keçidlərin, müdafiə istehkamlarının möhkəmləndirilməsində, eyni zamanda Bizans dövləti də maraqlı idi. Hərbi müdafiə istehkamları və keçidləri hər iki dövlətin vəsaiti hesabına saxlanılırdı. Məhz buna görə də Bizans dövləti hərbi müdafiə istehkamlarının divarlarının, keçidlərin mühafizəsi və qorunması üçün 422-ci ildə Sasanilərlə bağlanmış müqaviləyə əsasən hər il Sasani dövlətinə müəyyən miqdarda pul verirdi və onu qızıl pulla ödəyirdi.

Beləliklə, yuxarıdakı ilkin orta əsr yazılı qaynaqların və arxeoloji qazıntılarının materiallarının araşdırılması, tədqiqi göstərir ki, hərbi müdafiə istehkamlarının divarları ilkin dövrlərdə çaydaşlarından, çiy, bişmiş kərpicdən, sonralar isə yaxşı yonulmuş, hamarlanmış nəhəng daşlardan inşa olunmuşdur.

İlkin orta əsr yazılı qaynaqlarının və arxeoloji qazıntılarının materiallarının araşdırılması və tədqiqi göstərir ki, sərhəd hərbi müdafiə istehkamlarının divarları məsafə cəhətdən nəhəng və uzun olmuşdur. Qürur hissilə deyə bilərik ki, Şabran hərbi müdafiə istehkamının divarlarının uzunluğu 30 km, möhtəşəmliyi ilə bu gün də bizi heyran edən Dərbənd hərbi müdafiə istehkamının divarlarının uzunluğu isə 40 km-dən artıq olmuşdur.

Beləliklə, yuxarıdakı araşdırmalardan aydın olur ki, yurdumuzun minillər, əsrlər boyu şərq ilə qərb arasında çox əlverişli coğrafi bir məkanda yerləşməsi, digər tərəfdən zəngin sərvətlərə, mədəni irsə, təbiətə malik olması yadelli işğalçıların, o cümlədən Yunan, Bizans, Əhəməni-Sasani imperiyalarının nəzər-diqqətini həmişə özünə cəlb və sövq etmişdir. Onu da qeyd etmək lazımdır ki, məmləkətimizin mövqe tutduğu məkanda çox mühüm, şərqlə qərbi birləşdirən Qafqaz keçidi mövcud idi. Bu keçid vasitəsilə–qərb beynəlxalq quru, su ticarət yolları vasitəsilə əlaqələr saxlayırdılar. Məhz bu səbəbdən və digər tərəfdən, öz daxili ərazi hüdudlarını qorumaq üçün Yunan-Bizans, Əhəməni-Sasani imperiyaları bu keçidin hərbi istehkam cəhətdən möhkəmlənməsi, qorunması qayğısına qalmaqla bərabər, bu ərazidə, məkanda Qafqazda yerləşən müstəqil Albaniya dövlətinin qorunub saxlanmasını, möhkəmlənməsini və onun varlığını lazım, məqsədəuyğun hesab edirdilər.

IX FƏSİL

MƏDƏNİYYƏT

Yuxarıdakı fəsillərdə göstərdiyimiz kimi, ölkədə feodal istehsal münasibətlərinin inkişafı və bərqərar olması istehsal münasibətlərinin, istehsal alətlərinin daha da inkişafı, iqtisadiyyatın yüksəlməsi, öz növbəsində elmin, incəsənətin, bir sözlə, mədəniyyətin ilk orta əsrlərdə daha da yüksəlməsinə və inkişafına səbəb oldu. Ölkədə erkən orta əsrlərdə mədəniyyət çox mürəkkəb siyasi bir şəraitdə inkişaf edirdi.

İlkin orta əsr yazılı qaynaqlarının və maddi mədəniyyət qalıqlarının materialları Albaniyada ilkin orta əsrlərdə elm və mədəniyyət haqqında bizə az da olsa məlumat verirlər. İlkin orta əsr yazılı qaynaqlarından aydın olur ki, alban şahı Arsvagenin şahlığı dövründə, V əsrin əvvəllərində ölkədə yeni alban əlifbası yaradıldı və Albaniyada yazı həyata keçirilməyə başladı.

Albaniyada yaradılmış yazının tarixi geniş şəkildə, hərtərəfli araşdırılmamışdır. Bu məsələyə bir sıra tədqiqatçılar (İ.Abuladze, A.Q.Şanidze, R.Açaryan, A.Kurdyan, L.M.Melikset-Bek, A.Abramyan, K.V.Trever, A.Anasyan, V.Qukasyan, Q.M.Klimov, A.Ş.Mnasakanyan, T.M.Məmmədov və b.) (330, s. 101-106; 341, s. 42-47; 341 a, s.105) öz tədqiqatlarında müəyyən qədər diqqət yetirmişlər. Lakin bu tədqiqatçıların əksəriyyəti saxtalaşdırılmış yazılı qaynaqlara uyaraq bu məsələni düzgün təhlil və tədqiq etməmişlər.

Hətta bəzi tədqiqatçılar alban dilində yazının olmasına şübhə ilə yanaşmış (511, s.318; 374, s. 14), digərləri isə alban dilində yazının olmasını tam inkar etməyə çalışmışlar. N. Akinyan tarixi həqiqətləri və ilk orta əsr yazılı qaynaqları saxtalaşdıraraq və təhrif edərək sübut etməyə çalışır ki, heç bir vaxt Albaniyada Mesrop Maştos alban xristianlarına əlifba tərtib etməmiş, onun tərtib etdiyi əlifba sadəcə olaraq Qafqaz albanlarına deyil, Avropa qatlarına məxsus olmuşdur (511, s. 318).

Lakin ilkin orta əsr yazılı qaynaqları Qafqaz albanlarının dili, yazısı və əlifbası haqqında, heç bir mübahisə doğurmayan, qiymətli məlumatlar saxlamışdır. İlkin orta əsr qaynağı Koryun

alban əlifbası və yazısının olması haqqında bizə məlumat verir (69, s. 18; 330, s. 107; 341, s. 42). Digər bir ilk orta əsr yazılı qaynağı isə bu haqda məlumat verərək, boğaz səsləri ilə zəngin olan qarqar ləhcəsində alban dilində yazının olmasını tam aşkarlıqla göstərir (76, k. III, f. 54; 330, s. 101; 341, s.43). Daha bir əski yazılı qaynağı alban dilində yazının olmasını qeyd edir (67, s. 40-51; 467, s. 3; 451, s. 309; 330, s. 101).

İlkin orta əsr yazılı qaynaqlarından aydın olur ki, Albaniyada əlifba, yazı yarandıqdan sonra dini kitablar, o cümlədən də «İncil» alban dilinə tərcümə edildi. Bu barədə ilkin orta əsr qaynağı belə yazır: «Hörmətli yepiskop İyerermiya gecikdirmədən ilahi kitabların tərcüməsinə girişdi, onların köməyi ilə… Alban ölkəsinin adamları o saat peyğəmbərləri, əshabələri tanıdılar, İncili mənimsədilər…» (69, s.19; 330, s. 104). «İncil»in alban dilində olması və ondan Albaniyada yaşayan əhalinin istifadə etməsi haqqında ilkin orta əsr qaynağı Yeqişe də şəhadət edir (68, f. I; 330, s. 104).

İlkin orta əsr tarixçisi Gevondun gətirdiyi qiymətli sənəddən aydın olur ki, Albaniyada xristianlıq yayılmağa başlayan zaman ölkədə müqəddəs kitab «İncil»in alban dilində tərcüməsi olmuşdur (82, f.XIV; 330, s. 101). İlk orta əsr tarixçisi Gevond bu haqda belə yazır: «Elə həmin kitab «İncil» bütün dillərdə sağ və salamat durur. Bir çox dillər haqqında susuram, bəzilərin adını çəkirəm, birincisi bizim yunan dili, ikincisi roma dili, üçüncüsü badali dili, … doqquzuncusu fars dili, onuncusu erməni dili, on birincisi iber dili, on ikincisi alban dili» (82, f. XIV; 330, s. 101). Albaniyada yazının olması haqqında digər ilk orta əsr tarixçiləri də məlumat verirlər (84, k. II, f. 1; 73, s. 51; 330, s. 101).

İlkin orta əsr alban tarixçisi bu haqda məlumat verərək göstərir ki: «Yazıya malik olan xalqlar budur: yəhudilər, romalılar (bunların yazısından bizanslılar da istifadə edirlər), ispanlar, yunanlar, midiyalılar, ermənilər və albanlar» (79, k. I, f. 3; 330, s.101; 341, s. 44).

Alban dilində tərcümələr və alban dilində yazının olması Matenadaranda saxlanılan beş əlyazmasında tam dəqiqliklə əks olunmuşdur (39, № 2080, 118a, 120a, № 2136, v.26-36, 2618,

v.95-96a, 96, №3070, v. 43-49, №2127, v.340-342; 1089/127, v.358; 110, v.6; 330, v.101-102; 341, s.44).

Uzun müddət alban yazısı, əlifbası və dili haqqında yuxarıda göstərilən yazılı qaynaqların məlumatlarından başqa heç bir məlumat olmamışdır. Nəhayət 1838-ci ildə fransız şərqşünası E.Bore fransız elmlər akademiyasına yazdığı məktubda məlumat verərək göstərirdi ki, o, Matenadarandan Qafqaz albanlarına məxsus alban əlifbasını aşkar etmişdir (537,c.II, s. 18; 110, s. 5-6). Lakin sonra aydın olur ki, bu, ermənilərə məxsus şərti gizli yazıdır. Bundan 50 il keçdikdən sonra 1886-cı ildə ermənişünas N.Y.Karamyans çap etdirdiyi məlumatda göstərir ki, 1535-ci il əlyazmasında o, albanlara məxsus yazının əlyazmasının mətnini aşkar etmişdir (547, s. 317-319). Lakin sonrakı araşdırma göstərdi ki, bu, ermənilərə məxsus şərti işarələrlə yazılmış gizli yazıdır (110, s. 6).

Uzun müddət ərzində alban əlifbasının, yazısının olmasını təsdiq edən və onun haqqında ümumi anlayış verən heç bir inandırıcı sənəd tapılmamışdır. Nəhayət 1937-ci ildə bu böyük və elmi cəhətdən qiymətli olan kəşf filologiya elmləri doktoru, professor, erməni dili mütəxəssisi İ.V.Abuladzeyə müyəssər oldu. Gürcü alimi İ.V.Abuladze 1937-ci ildə Matenadaranda işləyən zaman alban əlifbasının əlyazmasını 7117 №-li XV əsrə məxsus əlyazmanın içərisindən aşkara çıxardı (117, s. 69-71). Bundan bir az sonra daha iki (3124 və 2013) nömrəli alban əlifbasına məxsus əlyazmanın siyahısını Matenadaranda T.İ.Ter-Qriqoryan tədqiq edərək aşkara çıxardı (447, s.1). Bu XV əsrə məxsus əlyazma keşiş Mkrtıçın sifarişi ilə rahib Foma Metsopski tərəfindən monastır məktəbinin şagirdləri üçün tərtib olunmuş erməni dilində dərsliyin içərisindən aşkara çıxmışdı. Bu yuxarıda göstərdiyimiz dərslikdə yunan, suriya, latın, gürcü, kont, ərəb əlifbaları ilə birlikdə 52 hərfdən ibarət alban əlifbası da verilmişdir. Aşkar olunmuş alban əlifbası görkəmli akademik, rəhmətlik A.Q.Şanidzenin nəzər-diqqətini özünə cəlb etdi. Qafqaz dilləri mütəxəssisi və bilicisi akademik A.Q.Şanidze alban əlifbasının əlyazmasını diqqətlə araşdıraraq və başqa Qafqaz xalqlarının əlifbaları ilə müqayisə edərək, birinci olaraq bu əlifbanı elmi cəhətdən şərh etmiş, 1938-ci ildə alban əlifbasına dair

qiymətli əsər nəşr etdirmişdir (467). Görkəmli gürcü alimi akademik A.Q.Şanidze bu alban əlifbası haqqında 1957-ci ildə daha bir əsər nəşr etdirdi (468, s. 33-34). Bu qiymətli kəşf akademik R.Açaryanın da nəzər-diqqətini özünə cəlb etdi. O bu haqda məqalə nəşr etdirərək bu əlifbanın həqiqətən alban əlifbası olmasını və onun albanlara məxsus olduğunu göstərdi (513, s. 11). Bu əlifbanın həqiqətən albanlara məxsus olmasını digər alimlər də öz əsərlərində bir daha təsdiqlədilər (541, s.125-132; 545, s. 427-432; 341a, s.101-102).

Qafqaz albanlarına məxsus tapılmış alban əlifbası o zaman qiymətə, əhəmiyyətə malik ola bilərdi ki, alban dilində onu təsdiqləyən inandırıcı sənəd və yazı tapılmış olsun. Bu haqda 1938-ci ildə gürcü akademiki A.Q.Şanidze öz tədqiqatında belə yazmışdır: «Mən hesab etmişəm və indi də hesab edirəm ki, heç ola bilməz ki, orta əsrlərdə Qafqazın mədəni və siyasi həyatında görkəmli rol oynayan bütün bir xalqın yazısı izsiz olaraq itmiş olsun. Qazıntılar bizə alban yazısının olması haqqında erməni mənbələrinin məlumatlarını təsdiq edən inandırıcı epiqrafik material verməlidir» (467, s. 62).

Akademik A.Q. Şanidzenin uzaqgörənliklə qabaqcadan deyilmiş bu sözləri 10 ildən sonra həqiqətə çevrildi. Alban epiqrafik yazısı aşkar olundu. 1948-ci ildə Azərbaycan EA Azərbaycan Tarixi Muzeyi görkəmli qocaman arxeoloq, rəhmətlik S.M.Qazıyevin rəhbərliyi altında (299, s. 395-403) Mingəçevir yaşayış yerində təşkil edilmiş arxeoloji qazıntılar zamanı Kür çayının sol sahilində 2 və 3 nömrəli ilk orta əsr Sudaqılan yaşayış yerlərində arxeoloq R.M.Vahidov (201, s. 137-147; 203, s. 133, s.61) tərəfindən üzərində alban əlifbasının hərfləri cızılmış abidələr aşkar olundu.

Mingəçevir yaşayış yerində aparılan arxeoloji qazıntılar zamanı 1,2, 3, 4 nömrəli dördbucaqlı kəsik piramida şəkilli saxsıdan hazırlanmış şamdanların üzərində həkk olunmuş digər alban yazıları aşkar olunmuşdur (№ 1 (195, s. 81-85), № 2 (197, s. 113, 114), № 3 (197, s. 113), № (231, s. 234-236). Bu böyük və elmi cəhətdən çox qiymətli olan kəşf akademik A.Q. Şanidzenin qabaqcadan deyilmiş sözlərini həqiqətə çevirməklə, eyni za-

manda Qafqaz xalqlarının mədəniyyət tarixində, həyatında həqiqi bayrama çevrildi (467, s.62).

Mingəçevirdə arxeoloji qazıntılar nəticəsində aşkar olunmuş alban əlifbasından azacıq sonra, 1956-cı ildə ermənişünas amerikalı alim A.Kurdyan yeni alban əlifbasının siyahısının tapılması haqqında məlumatla çıxış etdi. Ermənişünas alimin kolleksiyasında saxlanılan bu yeni alban əlifbasının siyahısı Matenadaranda tapılan 7117 №-li əlyazmanın eyni surətindən ibarət idi (549, s. 81-83). Tapılmış alban əlifbasının əlyazmasının Matenadaran nüsxəsi və A.Kurdyanın kolleksiyasında olan nüsxələr hərflərin sayının çoxlu miqdarda – 52 hərfdən ibarət olması, digər tərəfdən isə fit verən fışıltılı samitlərin çoxluq təşkil etməsi ilə səciyyələnir (471, s. 204-205).

1970-ci ilin sentyabr ayında Dağıstanın Levaşen rayonunun yuxarı Labko kəndinin kənarında, çox güman ki, alban əlifbası ilə yazılmış mətn əldə edilmişdir (240, s. 130). Bu tapıntı daş kitabçadan ibarətdir və onun üzərində alban hərfləri həkk olunmuşdur. Onların miqdarı 45 işarədən ibarətdir və bu tapıntı X.Arslanbəyov, V.Qukasyan tərəfindən nəşr olunmuşdur (240. s. 132-133). Bu alban əlifbasını qabaqlar tapılmış alban əlifbası ilə müqayisə edərək V.L.Qukasyan belə hesab edirdi ki, bu tapıntıda qabaqlar tapılmış alban əlifbasında olan işarələrdən 10 işarə azdır və eyni zamanda daş kitabədə olan üç işarə yoxdur (240, s. 132-133).

Beləliklə, yuxarıda gətirilən ilk orta əsr yazılı qaynaqlarının qiymətli materiallarının araşdırılması və tədqiqi alban dilində Matenadaranda alban əlifbasının tapılmış əlyazması, Mingəçevirdə və başqa yerlərdə arxeoloji qazıntılar zamanı əldə olunmuş dəlillər, alban yazılarının fraqmentləri, tapıntılar əksər tədqiqatçılara alban dilində yazının və albanların yazıya malik olmaması fikrinin doğru olmadığını, bu fikri rədd edərək alban dilində yazının olmasını, onun varlığını bizə tam qətiyyətlə sübuta yetirmək imkanı verir. Beləliklə, albanlar başqa mədəni xalqlar kimi müstəqil yazıya və əlifbaya malik xalqlardan biri olmuşlar.

İlk orta əsrlərdə albanlar üçün yenidən tərtib olunmuş alban əlifbasını, bəzi tədqiqatçılar ilk orta əsr yazılı qaynaqlarında olan məlumatlarını bayağılaşdıraraq və səhv olaraq mifik bir

şəxsiyyətin – Mesrop Maştosun adı ilə bağlayırlar (112, s. 59-61; 11, s. 3-4; 374, s. 67-73; 171, s. 15). Alimlərin əksər hissəsi, o cümlədən – M.Abeqyan (106, s. 311-312), Q. Açaryan (513, s. 3-11; 514, s. 45), Q.Sevak (432), A.Melik-Aqacanyan (40) və digərləri öz tədqiqatlarında ilk orta əsr yazılı mənbələrində olan faktları saxtalaşdıraraq V əsrin əvvəllərində yenidən tərtib olunmuş alban yazısının probleminə toxunaraq, onu yanlış olaraq Mesrop Maştosun adı ilə bağlayırlar.

İlkin orta əsr yazılı qaynaqlarında alban əlifbasının, yazısının Mesrop Maştos tərəfindən tərtib olunması haqqında gəlib bizə çıxan materiallar olduqca ziddiyyətli və müəmmalıdır. Bu fikrə cüzi şəkildə vaxtı ilə A.Q.Perixanyan da toxunmuşdur (418, s. 126-127). İlkin orta əsr yazılı qaynaqlarında, bu haqda olan materialların dəqiq araşdırılması, göstərilən tədqiqatçıların saxtakarlığı və onların səhv fikirdə olmasına, yanlış mövqedə durmalarına tam aydınlıq gətirilir. Alban yazısının alban şahı Arsvagen zamanında yaranması haqqında ilk məlumat verən ilkin orta əsr qaynaqlarından birincisi Koryundur (69, s.18; 330. s.103). V əsr erməni tarixçisi Koryunun verdiyi məlumatlardan aydın olur ki, M.Maştos Albaniya ölkəsinə gəlməzdən qabaq, hələ orada olmadığı və ora getməyə hazırlaşdığı zaman «təsadüfən Benyamin adlı mənşəcə alban olan bir keşiş onun yanına gəldi. O andan (Maştos – *T.M.*) alban dilinin yadelli (əcnəbi – *T.M.*) bir şivəsi haqqında məlumat alıb, allahın köməyi ilə əlifba düzəltdi» (69, s.18; 330, s. 103). İlkin orta əsr yazılı qaynağı Koryunun əsərində olan məlumatdan aydın olur ki, Mesrop Maştos Albaniyaya gəlməzdən əvvəl mənşəcə alban olan keşiş Benyamindən alban dilini öyrənməyə çalışmış, onun vasitəsilə alban dilinin bir şivəsi ilə tanış olmuşdur. Sonra o, Albaniyaya gəlmişdir (69, s. 18; 330, s. 103). Beləliklə, buradan tam aydın olur ki, Mesrop Maştos Albaniyaya gəlməzdən əvvəl alban dilini bilmirdi. Belə halda sual olunur, alban dilini bilməyən bir şəxs alban dilinin əlifbasını və yazısını necə tərtib edə bilərdi?

Daha sonra Koryun yazır ki, Mesrop «…Albaniyaya yollandı və bu ölkəyə gəldi. Çar iqamətgahına gəlib, Yeremiya adlı müqəddəs yepiskopla və onların Arsvaq adlı şahı və bütün əyanları ilə görüşdü… O (Maştos) onların sorğusuna əsasən nə üçün gəl-

diyini bildirdi və onlar hər ikisi–yepiskop və şah yazının hazırlanmasına itaətlə razılaşdılar» (69, s. 18-19; 341, s.43; 330, s. 103).

Bundan sonra alban şahı və yepiskopunun «əmri ilə ölkənin müxtəlif vilayətlərindən, yerlərindən yazının (əlifbanın) öyrənilməsi üçün uşaqlar yığıldı, onları əlverişli yerlərdə yerləşdirib qruplara böldülər, onların saxlanması üçün təqaüd də kəsildi» (69, s. 19; 330, s. 163; 341, s. 43).

Alban əlifbasının, yazısının V əsrin əvvəllərində alban şahı Arsvagenin zamanında tərtib olunması haqqında digər ilk orta əsr yazılı qaynağının müəllifi M.Xorenasi də məlumat verir (76 k.III, f. 54; 330, s. 103; 341, s. 43). Bu yazılı qaynağın məlumatları Koryunun verdiyi məlumatlardan müəyyən qədər fərqlidir. M. Xorenasi yazır: «Mesrop öz yolunu Albaniyaya – Arsvagenin (bu ölkənin çarının) və yepiskoplarının başçısı Yeremiyanın yanına salır. Onlar onun təlimini məmnuniyyətlə qəbul edirlər və ona seçilmiş oğlan uşaqları verirlər. Və öz yepiskopu Ananiyanın vasitəsilə Sünik hakimi gənc Vasakı təcili göndərib istedadlı tərcüməçi Benyamini öz yanına çağıraraq, Mesrop onların köməyi ilə qarqar şivəsi, boğaz səsləri ilə zəngin olan kobud, barbar, yüksək dərəcədə yöndəmsiz qarqar şivəsi üçün yazı düzəltdi» (76, kp. III f. 54; 330, s. 103; 341, s. 43). Bu qaynağın araşdırılmasından aydın olur ki, alban şahı Arsvagenin dövründə Albaniyada yeni yazının yaradılmasında mənşəcə alban olan tərcüməçi sünikli Benyamin və alban yepiskopu Yeremiya əsas rol oynamışlar (75, k. III, f. 54; 330, s. 103; 341, s. 43). Bu qaynaq tam aydınlıqla qeyd edir ki, alban əlifbası, boğaz səsləri ilə zəngin olan, Albaniyada yaşayan qarqar tayfasının ləhcəsinə uyğunlaşdırılaraq onun əsasında alban yazısı yaradıldı (76, k.III, f. 54; 330; 103; 341, s. 43). Bu yazılı qaynaqdan da tam aydınlıqla məlum olur ki, Mesrop Maştos albanlarla tərcüməçi vastəsilə əlaqə saxlayırdı (75, k. III, f. 54; 330, k. 103; 341, s. 43). Beləliklə, bu faktdan da bir daha bəlli olur ki, Mesrop Maştos alban və qarqar dillərini bilmirmiş. Belə olan halda o, nə cür alban əlifbasını və yazısını tərtib edib yarada bilərdi? Alban yazısı Mesrop Maştos tərəfindən deyil, mənşəcə alban olan tərcüməçi Benyamin və alban yepiskopu Yeremiya tərəfindən tərtib olunmuşdur.

Yuxarıda göstərilən bu iki ilk orta əsr yazılı qaynağının alban əlifbasının V əsrin əvvəllərində tərtib olunması haqqında məlumatlarını müqayisə edərkən aydın olur ki, onlar biri digərindən müəyyən qədər fərqlidir. Koryundan fərqli olaraq, ilk orta əsr müəllifi M.Xorenasi tam aydınlıqla göstərir ki, alban dilinin əlifbası və yazısı, mənşəcə alban və Sünikdən olan tərcüməçi Benyamin, alban yepiskopu Yeremiya tərəfindən tərtib olunmuşdur. Koryun Benyamini «ruhani» adlandırır, M.Xorenasi isə onu Sünikdən olan «tərcüməçi» adlandırır. Hər iki yazılı qaynaqdan tam aydın olur ki, Mesrop Maştos alban və qarqar dilini bilmirdi. Və o, albanlarla tərcüməçi vasitəsi ilə danışırdı, onlarla əlaqə saxlayırdı. Koryun, M.Xorenasidən fərqli olaraq qeyd edir ki, Mesrop Maştos Albaniyaya gəlməzdən öncə alban dilini öyrənməyə səy göstərmişdir. M.Xorenasi, Koryundan fərqli olaraq qeyd edir ki, alban yazısı–əlifbası, Albaniyada yaşayan tayfalardan biri boğaz səsləri ilə zəngin olan qarqarların ləhcəsinə uyğunlaşdırma əsasında tərtib olundu. M.Xorenasidən fərqli olaraq ilk orta əsr yazılı qaynağı Koryun qeyd edir ki, «yazını öyrənmək üçün» «müxtəlif vilayətlərdən və yerlərdən uşaqlar» yığıldı və «onların saxlanması üçün təqaüd» kəsildi. İlk orta əsr yazılı qaynağı M.Xorenasi isə öz əsərində qeyd edir ki, alban yazısını öyrənmək üçün «seçilmiş uşaqlar» yığıldı (341a, s.104).

Albaniyada ilk orta əsrlərdə V əsrin əvvəllərində yeni alban yazısının tərtib olunması haqda M.Xorenasiyə uyğun ilk orta əsr alban qaynağının müəllifi M.Kalankaytuklu da məlumat verir. İlk orta əsr alban yazılı qaynağı yazır: «Albaniyaya bizim patriarxımız Yeremiya və çarımız Arsvagenin yanına həmin Mesrop gəldi. Onların hər ikisi (Arsvagen və Yeremiya) ona maarifçilik fəaliyyətində kömək etməyə razılıq verib, o, müqəddəs Ruhun köməyilə erməni və gürcülərə əlifba yaradıb və məmnuniyyətlə ona şagirdliyə fərasətli gəncləri təhkim etdilər. Onlar Sünikdən Benyamin adlı tərcüməçini dəvət etdilər və onu Sünikin gənc knyazı Vasaq yepiskop Ananiyanın xahişi ilə Albaniyaya göndərdi. Onlar Mesropun yanına gəlib, onunla birlikdə çırtlaq, qaba və çətin səslənən qarqar dilinin əlifbasını yaratdılar» (79, k.II, f. 3; 330, s. 103-104; 341, s. 43-44).

Beləliklə, bu alban yazılı qaynağının məlumatından bir daha tam aydın olur ki, alban yazısı mənşəcə alban olan Benyamin, alban yepiskopu Yeremiyanın əsaslı köməyi və bilavasitə onların iştirakı ilə qarqar ləhcəsi əsasında alban yazısı tərtib olundu.

Alban yazısının tərtib olunması haqqında digər ilk orta əsr yazılı qaynaqları da məlumat verirlər (84, k. II, f. 1; 330, s. 104; 341, s. 44).

Beləliklə, ilk orta yazılı qaynaqları–Koryun, M.Xorenasi, ilk orta əsr alban yazılı qaynağı M.Kalankaytuklunun bir-birinə ziddiyyətli məlumatlarının araşdırılmasından tam aydın olur ki, V əsrin əvvəllərində yeni tərtib olan alban əlifbasının və yazısının yaradılmasında əsas rolu albanlar özləri oynamışlar. Bəzi tədqiqatçıların yanlış, saxtalaşdırılmış fikirlərinin əksinə olaraq, tam qətiyyətlə demək olar ki, V əsrin əvvəllərində yaradılan alban yazısı bilavasitə mənşəcə alban olan tərcüməçi Benyamin və alban yepiskopu Yeremiya tərəfindən tərtib olunmuşdur.

Alban yazısı Albaniyada yaşayan yerli türkmənşəli, boğaz səsləri ilə zəngin olan qarqar tayfasının ləhcəsinə uyğunlaşdırılaraq tərtib olunmuşdur. Mesrop Maştos alban və qarqar dilini bilmirdi, o, albanlarla və qarqarlarla bilavasitə tərcüməçi Benyamin vasitəsilə əlaqə saxlayırdı və ünsiyyətdə olurdu, məhz belə olan şəkildə o, alban yazısının, əlifbasının yaradılmasında, tərtib edilməsində mühüm rol oynaya bilməzdi.

V əsrin əvvəllərində Albaniyada yaradılan yeni alban əlifbası həyata keçirilməyə başlandı. İlkin orta əsr yazılı qaynaqlarından aydın olur ki, başqa dillərdə olan kitablar alban dilinə tərcümə edilməyə başlandı. Bəzi tədqiqatçılar saxtakar yazılı mənbələrə əsaslanaraq, ilkin orta əsr yazılı qaynaqlarını daha da saxtalaşdıraraq alban dilində olan ədəbiyyatın varlığını inkar edir. Belə üzdəniraq tədqiqatçılardan biri də A.Ş.Mnasakanyandır. O, alban dilində olan ədəbiyyatın olmasını var qüvvəsi ilə inkar etməyə çalışır (532; 374). Biz onun bu haqda yazdığı əsərin təhlili və tənqidi üzərində dayanmaq fikrində deyilik, çünki onun nöqteyi-nəzəri, saxtakar fikirləri V.Qukasyan tərəfindən tənqid və elmi şəkildə təhlil edilərək, onun kitabının elmdən çox-çox uzaqda, kənarda durmasını tam qətiyyətlə sübuta yetirmişdir (235, s.85-100). İlkin orta əsr yazılı qaynaqlarının

materiallarına obyektiv şəkildə yanaşılanda və onlara müraciət ediləndə alban dilində ədəbiyyatın varlığı tam aydınlığı ilə sübuta yetirilir. İlk orta əsr yazılı qaynağı Koryunun verdiyi məlumatdan aydın olur ki, dini kitab «İncil» alban əlifbası tərtib olunan kimi alban dilinə tərcümə edilibdi (69, s.19; 330, s.104; 341, s.46). Digər ilk orta əsr qaynağı Yeqişenin verdiyi məlumatdan da tam aydın olur ki, «İncil» alban dilində tərcümə olunmuşdur və alban dilində bu dini kitabdan istifadə edilirdi (68, b.1; 330, s.104).

Daha bir ilkin orta əsr yazılı qaynağı Gevondun əsərindən bizə belə aydın olur ki, «İncil» alban dilinə tərcümə olunmuş və albanlar xristian dininin təbliğində ondan istifadə etmişlər. İlk orta əsr tarixçisi bu haqda belə yazır: «Elə həmin kitab – «İncil» bütün dillərdə sağ və salamat durur. Bir çox dillər haqqında susuram, bəzilərin adını çəkirəm, birincisi bizim yunan dili, ikincisi roma dili, üçüncüsü badalı dili, … doqquzuncu fars dili, onuncusu erməni dili, on birincisi iber dili, on ikincisi alban dili» (82, f.XIX, 330, s.104; 341, s.45).

Dini kitab «İncil»in V əsrdə alban dilində olması və ondan dini kitab kimi istifadə olunması haqqında ilkin orta əsr alban yazılı qaynağının müəllifi M.Kalankaytuklu da məlumat verir. Alban tarixçisi alban şahı II Vace haqqında danışaraq yazır: «Sonra o (Vace)… öz ölkəsinin idarəsindən əl çəkir və əlinə «İncil» alaraq xəlvətə çəkilməyə hazırlaşır…» (79, kI, f.10, 11). Müqəddəs dini kitab «İncil»dən alban şahı III Vacaqan dövründə istifadə olunması haqqında da alban tarixçisi məlumat verir: «Bütün bunlar dəstələrə bölünüb və hər dəstənin öz müqəddəs kilsə bayrağı və çox hörmətli «İncil»lə, çoxlu miqdarda xaçlar və günəş altında parlayan müxtəlif timsallarla gedirdi» (79, k.I, f.3; 467, s.3; 171, s.14; 330, s.104; 341, s.45). Başqa bir məlumatda alban tarixçisi yazır: «Təxti-rəvanla atları qorumaq üçün şah öz şəxsi əsgərlərini təyin etdi. Təxti-rəvana müqəddəs cəsədlər, «İncil» və «Əhdi-ətiq»dən başqa bir şey qoyulmurdu» (79, k.I, f.21). İlkin orta əsr alban yazılı qaynağı M.Kalankaytuklunun verdiyi məlumatdan aydın olur ki, «Əhdi-ətiq» və «Əhdi-cədid» alban əhalisinə məlum idi. Alban dilində çoxlu miqdarda dini ədəbiyyat var idi. Alban tarixçisi daha sonra belə

yazır: «Bu hadisələrdən sonra xəzərlər Albaniya ölkəsini əsarəti altına aldılar. Kilsələr və müqəddəs kitablar yandırıldı» (79, k.II,f.4). Bu məlumata vaxtilə öz münasibətini bildirən akademik A.Q.Şanidze ehtimal edərək qeyd edir ki, «Əhdi-ətiq» və «Əhdi-cədid» alban dilində olmuşdur (467,s.3). Biz də hörmətli akademik A.Q.Şanidzenin bu fikirlərilə tam şərikik. Beləliklə, alban yazılı qaynağı M.Kalankaytuklunun verdiyi bu məlumatlardan tam aydın olur ki, alban dilində ilk orta əsrlərdə çoxlu miqdarda dini kitablar və ədəbiyyat mövcud idi.

Geniş yayılmış alban dilində ədəbiyyatın mövcud olmasına ən gözəl sübut A.S.Anasyan tərəfindən Matenadaranda aşkar olunmuş beş əlyazmasıdır. Bu beş əlyazma siyahısında erməni dilinə tərcümə olunmuş alban dilində olan mətnlər aşkar olunmuşdur. Bunlardan biri belə başlıq altında verilmişdir: «Müqəddəs və ilahi mərhəmətin tarixi haqqında; bunu müqəddəs keşiş babalar Şərqdə (yəni Albaniyada–*T.M.*) alban dilində tapmış və erməni dilinə tərcümə etmişlər» (39, № 2080, v.118a, 120a, №2136, v.2b, 3b, № 2618, v.95a, 96a; №3070, v.43-49; №2121, v.340b, 342a; 110, s.5; 330, s.101-102).

Alban dilində ədəbi abidələrin mövcud olmasını erməni dilində olan «Yazı haqda kitab» da məlumat verir. Babkenin (490-516) 506-cı ildə Dvin məclisindən sonra yazdığı və göndərdiyi məktubda belə deyilir: «Bizim dini elmimiz haqda sizə əvvəllər də, gürcülər və albanlarla birlikdə, hər kəs öz dilində yazmışdır» (67, s.51; 467, s.3; 513, s.4; 451,s.309; 110, s.5; 330, s.101).

Alban əlifbasında yazının, ədəbiyyatın geniş yayılmasını və çiçəklənməsini akademik A.Q.Şanidze (467,s.309), E.T.Yeremyan (403,c.II, s.329), K.V.Trever (451, s.309) V-VII əsrlərə aid edirlər. Hələ 1938-ci ildə akademik A.Q.Şanidze belə yazırdı: «Alban yazısının çiçəklənməsi dövrünü V-VII əsrlərə aid etmək olar, albanlar Qafqazın bütün siyasi və mədəni həyat sahələrində gürcü və ermənilərlə bərabər fəal surətdə iştirak etmişlər (467,s.3)».

Alban dilində V-VII əslərdə çoxlu miqdarda ədəbiyyatın olmasını, ilk orta əsr yazılı qaynaqlarında bizə gəlib çıxan digər materiallar da bir daha bu fikrlərin düzgünlüyünü tam qətiyyətlə təsdiq edir. İlkin orta əsr yazılı qaynaqların araşdırılmasından

tam aydın olur ki, alban şahları dövrün görkəmli elm və din xadimləri ilə yazışmalar aparmışlar. İlkin orta əsr alban yazılı qaynağı M.Kalankaytukludan bəlli olur ki, alban şahı II Vaçe erməni katolikosu Qyutla dini məsələlərə dair yazışma aparmışdır. Erməni katolikosu Qyut alban şahı II Vaçeyə iki məktub göndərmişdi (79, k.I, f. II, 38, № 2966; 119b, № 3062). Bu məktublar Matenadaranda (2960№-li, s. 119 b və № 3062) əlyazması şəkilində qorunub saxlanmışdır (374, s. 87-90). Bu məktubların birində erməni katolikosu Qyut belə yazır: «Camaat hamılıqla lazım olan mərasimdən keçirildi və adları həyat Kitabına yazıldı. Ölkədə olan iblislər qovuldu, qurbanlar və hədiyyələrin yandırılması adəti ləvğ olundu, günahlar lənətləndi, həqiqət yüksəldi, gözə görünməyən Nur hökm sürdü, zülmət isə aradan götürüldü» (79, k. I, f. II, 374, s. 88). Erməni katolikosu Qyutun məktubları alban dilinə tərcümə olunmuşdur (235, s. 93-94).

Digər alban şahı III Vaçaqan ilə yepiskop Abram arasında da dostcasına məktublaşma olmuşdur. Bu haqda bizə ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu məlumat saxlamışdır. Bu yazılı qaynaqda bu məktub belə başlıq altında verilmişdir: «Xoşbəxt yepiskop Avramın Albaniya çarı Vaçaqana ölənlər barəsində yazdığı məktub» (79, k. II, f. 15, 374, s. 91). İlkin orta əsr yazılı qaynağı eyni zamanda alban şahı III Vaçaqan ilə keşiş Matfey arasında yazışmasını da verir. İlkin orta əsr alban tarixçisi M. Kalankaytuklu onu öz əsərində belə başılıq altında verir: «Alban şahı Vaçaqanın bilikli keşiş Matfeyə sualı» (79, k. I f. 14; 374, s. 91). Abramın məktubu və alban şahı Vaçaqanın sualı İoan Odzneti tərəfindən tərtib olunmuş «Erməni qanunları kitabı»na sonradan daxil olmuşdur. Lakin burada sualın müəllifinin alban şahı Vaçaqanın olması qeyd edilməmişdir (70, s. 501).

Alban şahı III Vaçaqanı elmi, dini məsələlər çox maraqlandırırdı. Məhz buna görə də o, öz məktubları ilə dövrün din xadimlərinə bu məsələlər barəsində müraciətlər edirdi. İlk orta əsr yazılı qaynağı Stepanos Orbeliyandan aydın olur ki, alban şahı III Vaçaqan ilə Petros Syuni arasında dostcasına yazışma olmuşdur (85, s. 89-90, 374, s. 97, 341 a, s. 107). Alban şahı III Vaçaqanın suallarının və Petros Syunin cavablarının əlyazmalarının surəti əlyazmalar institutu Matendaranda (36 №-2679,

№3074, v, 110b, (1307-ci il); № 4381, v. 17a (XIV əsr); № (6228v. 141a, 19) qorunub saxlanmışdır (374, s. 96-98; 341a, s. 107).

İlk orta əsrlərdə geniş yayılmış alban dilində ədəbiyyatın mövcud olmasına ən parlaq və gözəl sübut V əsrdə alban şahı III Vaçaqanın zamanında alban dilində tərtib olunmuş «III Vaçaqanın qanunnaməsi»dir. Bu qanunnamə alban şahı III Vaçaqan dövründə dindar əhali ilə yepiskoplar arasında narazılıqlar baş verdiyi zaman hazırlanmışdır. Bu narazılıqları aradan götürmək məqsədi ilə 488-ci ildə alban şahı III Vaçaqan Aquendə dini məclis çağırdı (79, k.I, f. 26; 341 s.66-67). Aquen dini məclisi ölkədə xristian dininin əhaliyə təsirini artırmaq və onun qanunlarını möhkəmlətmək məqsədilə 21 bəndən ibarət qanunlar məcəlləsi qəbul etdi (79, k.I, f.26, 331, s. 102-105, 341, s. 66-67). Alban şahı III Vaçaqanın qanunları qədim erməni dilinə tərcümə olunmuş (344, s. 29) və erməni əlyazmalarında (71; 344, s.29), habelə alban tarixçisi M.Kalankaytuklunun əsərində qorunub saxlanmışdır (79, s. 65-69, 33, 99). Alban şahı III Vaçaqanın qanunları sonralar «Erməni qanunları kitabı»na daxil edilmişdir (70).

VII əsrdə alban və erməni kilsələri arasında dini görüşlər, məsələlər üstündə mübahisələr gedirdi və bununla əlaqədar olaraq alban kilsə xadimləri ilə erməni kilsə xadimləri arasında yazışmalar olurdu. Bu cür yazışmaların nəticəsindən tam aydın olur ki, Albaniyada yazı və yazılı ədəbiyyat alban dilində mövcud idi. Belə bir yazışma bu cür başlıq altında idi: «Albanların məktubuna, ermənilərin Vranes Kertoq tərəfindən tərtib olunmuş cavabı» (67, s. 196-211, 374, s. 104). Bu məktub hazırlanıb göndərildi «Amaras hökmdarı və yepiskopu Mxitara və Mes-Koqman yepiskopu Simona, müqəddəs kilsənin başqa həmfikir yepiskoplarına, azad adamlar və Albaniyanın başqa nümayəndələrinə» (67, s. 196). Bu yuxarıda gətirilən yazılı sənəddən tam aydın olur ki, alban kilsəsinin din xadimləri ilə erməni kilsəsinin din xadimləri arasında yazışmalar olmuş və eyni zamanda bəlli olur ki, alban dilində ədəbiyyat olmuşdur.

Ermənilərin din xadimləri tərəfindən göndərilmiş bu məktub ilk orta əsr alban tarixçisi M.Kalankaytuklunun əsərində qorunub saxlanılmışdır. Bu məktub yazılı qaynaqda belə başlıq al-

tında verilmişdir: «Amaras yepiskopu Mxitarın məktubuna ermənilərin cavabı» (79, k. II, f. 49).

Alban dilində geniş yayılmış ədəbiyyatın mövcud olmasına ən parlaq və gözəl sübut, Azərbaycanın ilk orta əsr və orta əsr tarixşünaslığının nadir yazılı abidəsi M.Kalankaytuklunun bizə gəlib çıxan «Albaniya tarixi» əsəridir (79).

M.Kalankaytuklunun «Albaniya tarixi» bizə qədim erməni dilində (qrabar) gəlib çıxmasına baxmayaraq, bu əsərin ilkin olaraq alban dilində yazılmasına dəlalət edən izlərin olması göstərir ki, əsər sonralar qədim erməni dilinə (qrabara) tərcümə edilmişdir (500, s. 149-159, 337, s. 47-52, 445, s.4). M.Kalankaytuklunun əsərinin mətnində elə izlər, faktlar var ki, bunlardan tam aydın olur ki, bu əsər qrabar dilini və ya alban dilini çox pis və az bilən bir şəxs tərəfindən, alban dilindən qədim erməni dilinə tərcümə edilmişdir (337, s. 48, 235, s. 94).

Alban tarixçisi M.Kalankaytuklu özündən əvvəl yaşamış erməni tarixçilərinin əsərlərindən və digər yazılı qaynaqlardan çoxlu istifadə etmişdir. O, xüsusilə erməni tarixçisi Favstos Buzandasinin əsərindən geniş bəhrələnmişdir. Lakin tədqiqatdan və araşdırmalardan tam aydın olur ki, bu istifadə zamanı, alban tarixçisi tarixi faktlara – o dövrün digər mənbələrinə, qədim erməni məxəzlərinə alban nöqteyi-nəzərindən yanaşır və onu təhlil edir (337, s. 47-52, 341, s. 15).

Alban tarixçisi M.Kalankaytuklu öz əsərində Favstos Buzandasidən istifadə edərkən alban tarixinə bilavasitə dəxli olmayan faktlardan yan keçərək, bu və digər tarixi hadisələri alban nöqteyi-nəzərindən işıqlandırır və təhlil edir. Bu halda M.Kalankaytuklu Favstos Buzandasinin istifadə etmədiyi və ya başqa şəkildə istifadə etdiyi, ona məlum olmayan çoxlu (yazılı və şifahi) yerli materiallardan geniş istifadə etmişdir (337, s. 47-52, 341, s.15).

VII əsrin sonlarından Zaqafqaziyada, o cümlədən Albaniyada yenidən xalkidonizm (diofizit) təriqəti baş qaldırdı və yayılmağa başladı. Alban dini məclisi ölkədə baş verən bu hadisə ilə əlaqədar olaraq erməni katolikosu İlyaya kömək üçün məktubla müraciət etdi və ondan Albaniyaya gəlməsini xahiş etdi (79, k.III, f.3-4; 84, k.II, f,2; 80, s.99; 341, s.68-69).

Alban dilində yazılan bu məktub ədəbiyyatın olması nöqteyi-nəzərdən böyük əhəmiyyət kəsb edir. Bu məktub VII əsrin sonlarında albanların özlərinə məxsus müstəqil yazıya və alban dilində ədəbiyyata malik olmasını bir daha sübuta yetirir. Albanların erməni katolikosuna məktubla müraciəti ilk orta əsr alban tarixçisi M.Kalankaytuklunun əsərində bizə qədim erməni dilində gəlib çıxmışdır (79, k.III, f.4). İlk orta əsr yazılı qaynağı «Albaniya tarixi» əsərində bu məktub belə bir başlıq altında yazılmışdır: «Albaniya kilsə məclisinin erməni katolikosu İlyaya məktubu» (79, k.III, f.4; 374, s.121). Alban kilsəsinin dini məclisinin erməni katolikosu İlyaya göndərdiyi məktubda yazılırdı: «Erməni katolikosu İlyaya Albaniyanın dini kilsə məclisindən ehtiram! Atalarımız sizin atalarla birlikdə öz canlarının xilası haqqında düşünərək bir mənsəbə bağlı idilər. Bizim ölkəmiz son vaxtlaradək bütün kainatı zay edən murdar Xalkadon küfründən kənar idi. Allah-taalanın dözümünə görə bu küfr hər tərəfə yayıldı. İndi, bizim həmişə xeyirxah keşiş saydığımız Nerses canavara dönüb İsanın şüurlu dindarlarını parçalamağa başladı. Buna görə biz sən zati-müqəddəsə xəbər göndəririk ki, sən buyurub gələsən və bizim yaramızı sağaldasan. Allah adı ilə salamat qal» (79, k.III f.4; 341, s.68).

İlk orta əsr alban tarixçisi M.Kalankaytuklu öz əsərində alban dilində yazılmış kitabların məhv edilməsi haqqında bizə qiymətli məlumat verir. Alban katolikosu Nerses-Bəkirin ölümündən sonra alban katolikosu Simeon «.....bədbəxt Nersesin bütün küfrlə dolu kitablarını sandıqlara qoyub öz yay iqamətgahı Bərdə yaxınlığında Tərtər çayına atdırdı» (79, k.III, f.7; 337, s. 104; 341, s.45). Alban tarixçisinin bu qiymətli məlumatı bir daha göstərir ki, VII əsrdə alban dilində çoxlu miqdarda kitablar–ədəbiyyat mövcud olmuşdur.

Beləliklə, yuxarıda gətirilən ilkin orta əsr yazılı qaynaqlarının araşdırılması, tədqiqi tam aydınlıqla göstərir ki, alban dilində çoxlu miqdarda ədəbiyyat mövcud idi. Bəzi tədqiqatçıların – alban dilində olan ədəbiyyatın varlığını inkar edənlərin əksinə olaraq, ilkin orta əsr yazılı qaynaqlarının qiymətli materiallarının obyektiv araşdırılması göstərir ki, yeni alban əlifbası yaradıldıqdan sonra alban yazısı həyata keçirilməyə başlandı. Al-

ban dilinə ilk növbədə çoxlu miqdarda dini kitablar: «İncil», «Tövrat» – «Əhdi-ətiq», «Əhdi-cədid», eyni zamanda başqa dildə olan elmi, bədii əsərlər tərcümə olundu. Alban dilində çoxlu miqdarda bədii və elmi əsərlər yazıldı. V-VII əsrlərdə alban dilində çoxlu miqdarda ədəbiyyatın olmasına digər gözəl sübut alban kilsə xadimlərinin, alimlərinin, alban şahlarının qonşu xalqlarla, o cümlədən erməni din xadimləri ilə yazışması və onların ilkin orta əsr yazılı qaynaqlarda bizə gəlib çıxmasıdır. Geniş yayılmış alban dilində ədəbiyyatın mövcud olmasına ən dəyərli sübut V əsrdə alban şahı III Vaçaqan dövründə alban dilində 21 maddədən ibarət tərtib olunmuş «III Vaçaqanın qanunları» və Azərbaycanın ilk orta əsr və orta əsrlər tarixşünaslığının nadir yazılı abidəsi M.Kalankaytuklunun bizə gəlib çıxan «Albaniya tarixi» əsəridir.

Sual oluna bilər ki, V-VII əsrlərdə Albaniyada geniş yayılmış və mövcud olmuş elmi, dini, bədii ədəbiyyat niyə bizim günlərə alban dilində gəlib çıxmamışdır? Bu suala az da olsa bizə ilk orta əsrlər yazılı qaynaqları məlumat saxlamışlar. İlkin orta əsr yazılı qaynaqlarından aydın olur ki, bu ədəbiyyatın bir hissəsini yadelli işğalçılar ölkəni işğal edən zaman onlar tərəfindən məhv edilmişdir. Bu haqda ilk orta əsr alban tarixçisi M.Kalankaytuklu bizə məlumat verərək, öz əsərində belə yazır: «Bu hadisələrdən sonra xəzərlər Albaniya ölkəsini əsarət altına aldılar. Kilsələr və müqəddəs kitablar yandırıldı» (79, k.III, f.4; 337, s.104; 341, s.45; 467, s.3). İlkin orta əsr alban yazılı qaynağı M.Kalankaytuklu Ərəb Xilafətinin ordusunun Albaniyaya hücumları və istilası zamanı alban ədəbi abidələrinin məhv edildiyini göstərir

Alban dilində geniş yayılmış ədəbiyyatın–mənbələrin, elmi, bədii və dini əsərlərin digər hissəsi isə başqa dillərə tərcümə olunmuşdur (403, c.II, s.329; 445, s.4; 500, s.150; 237, s.47-48). Alban dilində mövcud olan ədəbiyyatın başqa bir hissəsi və alban yazısı sıxışdırılıb aradan çıxarılması, dövlət divanxanalarında ərəb yazısına, dilinə üstünlük verilməsi, xalqın bir hissəsinin ərəb dilinə keçməsinə, əhali içərisində savadlı təbəqələrin azalması, qriqoryan kilsəsinin təzyiqi nəticəsində tədricən kilsədə alban dilini erməni dilinin əvəz etməsinə səbəb oldu (470, s.2).

Məhz yuxarıda göstərilən səbəblər nəticəsindən alban yazısı və geniş yayılmış ədəbiyyat tədricən aradan çıxdı.

İlkin orta əsr yazılı qaynağı Koryunun əsərinin fransız variantında olduqca qiymətli məlumat vardır. İlk orta əsr yazılı qaynağı Koryunun əsərindən aydın olur ki, Mesrop Maştos Albaniyaya gəldikdən sonra albanlara məxsus köhnə əlifbanı, yazını bərpa etdi (100, c.II, s.10). Bu qiymətli məlumatdan aydın olur ki, Mesrop Maştos Albaniyaya gəlməzdən çox-çox əvvəllər də albanlar özlərinə məxsus müstəqil köhnə əlifbaya və yazıya malik olmuşlar (337, s.102-103; 341, s.42).

Koryunun bu məlumatına vaxtilə diqqət yetirən mərhum K.V.Trever V əsrdən çox-çox əvvəllər də albanların öz köhnə yazılarına və əlifbaya malik olmasını qeyd etmişdir (451, s.307). Bununla əlaqədar K.V.Trever antik müəlliflərin əsərlərində olan iki məlumatı: alban hökmdarlarının e.ə. I əsrdə və eramızın III əsrində romalılara yazdıqları məktublarını misal gətirir (451, s.307-308).

İlk orta əsr yazılı qaynağı daha sonrakı məlumatında qeyd edir ki, Mesrop Ermənistanda, Gürcüstanda və Albaniyada… bütün ömrü boyu – yaz-qış, gecə-gündüz yorulmadan yeni yazını öyrətmək ilə məşğul oldu (100, c.II, s.12). Beləliklə, Mesrop Maştos Ermənistanda, Gürcüstanda və Albaniyada köhnə yazının əvəzinə yeni əlifba və yazını həyata keçirirdi. Beləliklə, ilk orta əsr yazılı qaynağının qiymətli məlumatından aydın olur ki, V əsrin əvvəllərində qarqar ləhcəsi əsasında tərtib olunmuş yeni əlifbadan çox-çox əvvəllər, digər mədəni xalqlar kimi albanlar da başqa bir yazıya malik olmuşlar. Ola bilsin ki, bu yazı aramey, yunan və ya başqa əlifbada olmuşdur. Bəzi tədqiqatçılar belə hesab edirlər ki, alban əlifbasının adlarında aramey, yunan əlifbasının bəzi formalarına yaxın əlifba adları qorunub saxlanmışdır (238, s.62). Alban əlifbasının bəzi hərfləri öz formalarına görə aramey hərflərinə oxşardır (311, s.73-74; 432, s.33-35; 418, s.128-132; 110, s.39). Tədqiqatçılar öz araşdırmalarında göstərir ki, V əsrdə yaradılmış yeni yazıdan çox-çox əvvəllər Qafqazda yazıdan istifadə olunmuşdur (310, s.92). Bu bir daha bizə imkan verir ki, qeyd edək və göstərək ki, albanlar V əsrdə yaradılmış əlifbadan, yazıdan əvvəl başqa yazıya, əlifbaya malik olmuşlar.

Bir sıra tədqiqatçılar, o cümlədən A.Q.Şanidze (467, s.36), Z.M.Bünyadov (185, s.55-56), A.Ş.Mnasakanyan (374, s.71) belə hesab edirlər ki, Albaniyada bir neçə növdə əlifba, yazı olmuşdur. A.Q.Şanidze bu haqda belə yazır: «Çox ehtimal, Arranda təkcə bir xalqın deyil, bir neçə xalqın öz milli yazısı olmuşdur» (467, s.56).

Alban əlifbasının hərflərinin sayı, miqdarı haqqında bir neçə fikir vardır. Amerika alimi, mənşəcə erməni N.Karamyans belə hesab edir ki, alban əlifbasının hərflərinin sayı 21 işarədən (547, s. 315) ibarət idi, digər tədqiqatçı Ellis Minns belə güman edir ki, onların sayı 32 imiş (540, s. 327; 185, s. 55). A.Q.Şanidze və digər tədqiqatçılar isə belə hesab edirlər ki, alban əlifbasının hərflərinin sayı 52 işarədən ibarət olmuşdur (467, s. 28; 27-40; 468, s.37; 471, s. 201; 469, s. 9; 116, s. 69-71; 361, s. 45-68; 513, s. 3; 372, s. 56).

Arxeoloji qazıntılar zamanı Mingəçevirdə Kür çayının sol sahilində Sudaqılan şəhərinin yaşayış yerindən mədəni təbəqədən müxtəlif fraqmentlərin üzərində alban yazısı olan əşyalar tapılmışdır. Bunlardan ən qiymətlisi və birincisi dördüncü xristian məbəddə aşağı mədəni təbəqədən böyük yazılı daşın tapılmasıdır. Onun üzərində 62 hərfin işarəsi vardır (201, s. 137-138). Mingəçevirdə bundan başqa üzərində alban yazısının – 21 hərfin işarəsi olan kirəmit parçaları (231, s. 234 236), 49 hərfin işarəsi olan dördbucaqlı gil şamdan aşkar edilmişdir (195, s. 4; 201, s. 138-139, 196, s.92).

Bu cür gil parçaların üzərində yazılar Mingəçevirdən əlavə, Azərbaycanın başqa yerlərindən də aşkar olunmuşdur. Mütəxəssislər başqa yerlərdən tapılmış bu cür yazıların alban yazısı olmasını ehtimal edirlər (356, s. 8; 467, s. 53, 54, 60; 361, s. 65; 438, s. 2. 48, 517, s. 119).

İlkin orta əsr yazılı qaynaqları öz növbəsində Albaniyanın əhalisinin çoxdilli olmasını da qeyd edirlər. İlk orta əsr alban yazılı qaynağı M.Kalankaytuklu III Vaçaqanın hakimiyyəti dövründən bəhs edərkən dindarların xorla dini ayinləri ifa edərkən «müxtəlif dillərdə» oxumalarını xüsusi olaraq qeyd edir. O, bu haqda öz əsərində belə yazır: «Şahin özü böyük səylə İsa naminə şəhid olunmuşların cəsədlərinə dua edirdi. Müxtəlif dillər-

də oxunan duaların səsi o qədər izdihamlı idi ki, sanki yerin özü bu duaları şirin səslə oxuyurdu. Allah xalqlarının çoxluğundan, müxtəlif bayraqların rəngarəngliyindən, xalqların üstündəki qızıl, gümüş və qiymətli daşların parıltısından insana elə gəlirdi ki, yerin üzü parlaq buludlarla örtülüb» (79, k.I, f. 21; 235, s. 90).

Beləliklə, ilkin orta əsr alban tarixçisi M.Kalankaytuklunun verdiyi bu məlumatdan tam aydın olur ki, V əsrdə Albaniyanın ərazisində yaşayan əhali çoxdilli olmuşdur. Onlar müxtəlif dillərdə danışırdılar, dini duaları da müxtəlif dillərdə, hər kəs öz dilində oxuyurdu. IX-X əsr ərəb coğrafiyaçıları da öz əsərlərində Albaniyanın ərazisində yaşayan əhalinin çoxdilli olduğunu qeyd edirlər. Ərəb coğrafiyaçılarının məlumatına görə ən çoxdilli əhali Böyük Qafqaz dağları sırasının yerləşdiyi ərazidə idi (499, s. 66). Ərəb coğrafiyaçıları İbn əl-Fəqihin və Məsudinin (22, s. 33; 47, s. 40) məlumatına görə onların burada sayı 72, İstəxri isə burada 70-dən çox dil olduğunu göstərir (30, s. 13). Ərəb coğrafiyaçısı İbn Haukal isə burada 360 dil olduğunu qeyd edir (21, s.97).

VI əsr müəllifi Mitilenli Zaxarinin VI əsrə aid olan «Suriya xronikasında» deyilir: «… Aranın (öz) dili, dini və xaçpərəst xalqı vardır…» (421, s. 109-114; 423, s. 165). Yuxarıda göstərilən bu məlumatdan tam aydın olur ki, VII əsrdə Arran (Albaniya) öz dilinə mənsub idi və Arranda aran dilində danışırdılar. IX-X əsr ərəb coğrafiyaçıları İstəxri, İbn Haukal və Müqəddəsi məlumat verərək qeyd edirlər ki, Arranda ən çox yayılmış dil aran dili idi (30, s. 29; 21, s. 100; 48, s. 12).

Beləliklə, yuxarıda gətirilən ilk orta əsr yazılı qaynaqların və arxeoloji qazıntılarının qiymətli materiallarının araşdırılmasından məlum olur ki, V əsrin əvvəllərində qarqar ləhcəsi əsasında tərtib olunmuş yeni əlifbadan çox-çox əvvəllər digər mədəni xalqlar kimi albanlar da başqa bir yazıya, başqa bir əlifbaya malik olmuşlar. Araşdırmalar göstərir ki, ölkədə yeni alban əlifbası (qarqar ləhcəsi əsasında) tərtib olunduqdan sonra da, Albaniyada əhali çoxdilli olduğuna görə, çox ehtimal ki, orada başqa dillərdə olan əlifbalar, yazılar olmuş və onlardan yerli əhali istifadə etmişdir. Məhz bu səbəbdən də, çox ehtimal ki,

alban dilində olan yazının açılmasına çətinlik yaranır və alban dili bu günə qədər açılmamışdır.

Erməni tədqiqatçısı prof. A.Q.Abramyan öz əsərlərində (112, 505) və öz monoqrafıyasında alban dilində olan yazıları udin dilinin əsasında açmağa cəhd göstərmişdir. Lakin onun göstərdiyi bu səy heç bir nəticə verməmişdir (236, s. 392-400, 238, s. 52-74).

İlkin orta əsr yazılı qaynaqları çox az olsa da, Albaniyada ilk orta əsrlərdə uşaqların bilik alması, dərs oxuması, savadlanması üçün açılmış məktəblərin varlığı haqda məlumat verirlər. İlkin orta əsr yazılı qaynağı Koryunun verdiyi məlumatdan aydın olur ki, alban şahı Arsvagenin dövründə, V əsrin əvvəllərində Albaniyada məktəblər mövcud idi. Bu məktəblərdə müxtəlif vilayətlərdən yığılmış uşaqlar qruplara bölünüb savad öyrənir və biliklərə yiyələnirdilər, hətta onların yeməklərinə pul ayırılırdı (69, s. 19; 451, s. 308-309, 341, s. 43).

Albaniyada V əsrin axırlarında da məktəblərin olması haqqında yazılı qaynaqlar məlumat verirlər. Bu haqda bizə ilk orta əsr yazılı qaynağı, alban tarixçisi M.Kalankaytuklu məlumat verərək qeyd edir ki, alban şahı Vaçaqanın (487-510) hakimiyyəti dövründə onun tərəfindən xüsusi məktəblər açıldı. M.Kalankaytuklu bu haqda belə yazır: «Allah tərəfindən taxta çıxarılan çar Vaçaqan əmr etdi ki, cadugər, sehrbaz, bütpərəst kahinlərin, barmaqkəsənlər və ağı verənlərin uşaqlarını yığıb məktəblərə versinlər və orada ilahi imana və xaçpərəst tərzinə öyrədib, onları müqəddəs Üç Uqnuma etiqad etdirib dinsizləri Allaha sitayiş yoluna yönəltsinlər. Həmin gənclərin bir çoxunu öz şəxsi Rustak adlı kəndinə toplayıb, onların yeməklərinə pul ayırdı və müəllimlər təyin edib əmr etdi ki, uşaqlara dərs desinlər və onlardan xristian dininin bələdçiləri hazırlasınlar.

Hər dəfə çar öz kəndinə müqəddəslər xatirinə ibadət üçün gələndə o, məktəbə gəlib cadugər və bütpərəst kahinlərin uşaqlarını ətrafına yığırdı və bu uşaqlar əllərində kitab və qrifel taxtaları çarı dövrələrinə alırdılar. O zaman çar onlara əmr edirdi ki, hamı birdən ucadan oxusun, özü isə qulaq asıb sevinir və xəzinə tapmış insandan daha çox onlarla fəxr edirdi» (79, k.I, f.18; 451, s. 313; 330, s. 104, 341, s. 46). Buradan tam aydın olur

ki, alban şahı III Vaçaqan və dövlət tərəfindən açılan xüsusi məktəblərdən əvvəl ölkədə adi məktəblər mövcud olmuşdur. (341, s. 46). Beləliklə, yazılı mənbələrin məlumatlarından aydın olur ki, alban şahı III Vaçaqanın əmri ilə ölkədə adi məktəblərdən fərqli olan xüsusi məktəblər açıldı və bu məktəblərə cadugər, sehrbaz, bütpərəst kahinlərin uşaqlarını cəlb edib, yığıb, onlara xristian dinini, xaçpərəst həyat tərzini, savad, yazı öyrədirdilər. Bu məktəblər alban şahı III Vaçaqanın xüsusi nəzarəti altında idi. Xüsusi olaraq bu məktəbdə oxuyan uşaqların yeməkləri üçün pul da təyin edilmişdi. Albaniyada fəaliyyət göstərən məktəblərdə uşaqlara müəllimlər–rahiblər dərs deyirdilər və bunun üçün də əməkhaqqı, «maaş» alırdılar (79, k.I f. 22, 451, s. 3, 341, s. 112).

İlk orta alban yazılı qaynağı M. Kalankaytuklunun məlumatlarından aydın olur ki, alban şahı Cavanşirin dövründə ölkədə elm, mədəniyyət geniş inkişaf etdi. Onun dövründə ölkədə məbədlər, saraylar inşa olundu. Alban hökmdarı Cavanşirin sarayında Davtak adlı saray şairi fəaliyyət göstərirdi (79, k. II, f. 34, 330, s. 105, s. 341, s. 46). Onun haqqında ilk orta əsr yazılı qaynağı belə yazır: «elə bu vaxt bədii üslubu bilən, bilikli, şeir sənətində mahir və məşhur təfsirçi Davtak adlı bəlağət ustası ayağa qalxdı. O, məharətlə, təmtəraqla və mahir katib kimi yazaraq Cavanşiri tərif etdi. Bir neçə vaxtdır ki, o, saraya gəlib uzun müddət burada yaşadı» (79, k.II, f.34; 330, s.105; 341, m.46). Alban şahı Cavanşirin ölümündən sonra onun haqqında şair Davtak «akroşer üslubunda ağını yaratdı» (79, k.II, v.34; 451, 314, 341, s.46). Bu şair Davtakın şeirlə yazdığı ağı «…yaşadığımız günlərədək mühafizə olunub qalan yeganə qədim poemadır» (107, s.311).

Şair Davtakın yazdığı bu ağı-poema bizə qədim əlyazması şəklində qədim erməni (qrabar) dilində gəlib çatmışdır. Bu poema bütöv şəkildə (79, s.354-359; 79-83) və yarımçıq halda nəşr edilmişdir (79, s.180-182; 33, 182-184). 1938-ci ildə T.İ.Ter-Qriqoryan tərəfindən bu əsərin çatışmayan hissəsi Matenadaranda tapılmışdır (187, s.8-9; 451, s.13; 235, s.95).

Alban şahı Cavanşirin ölümünə həsr olunmuş bu poema saray şairi Davtak tərəfindən alban dilində yazılmış və sonralar

isə qədim erməni (qrabar) dilinə tərcümə olunmuşdur (185, s.57, 98; 235, s.94-96). Bəzi tədqiqatçılar vaxtilə saxtalaşdırılmış yazılı qaynaqlara istinad edərək, bir daha onları saxtalaşdıraraq, qeyri-obyektiv mövqe tutaraq, Davtakın yazdığı poemanın qədim erməni dilində yazıldığını iddia edirlər (403, c.II, s.236-237, 451, s. 314; 374, s.131-134). Bu məsələyə vaxtı ilə diqqət yetirən V.Qukasyan buna öz münasibətini bildirərək, bu cür qeyri-obyektiv fikir və mövqedə olan tədqiqatçıların əsassız baxışlarını haqlı olaraq tənqid etmiş və onların baxışlarının əsassız olduğunu sübuta yetirmişdir (235, s.94-96).

Bəzi tədqiqatçılar–M.Abeqyan (107, c.1, s.311-314), S.T.Yeremyan (403, c.III, s.237), A.Ş.Mnasakanyan (374, s.132-134) kimilər şair Davtakın mənşəcə alban olmadığını, onun Ermənistandan gəlmə erməni şairi olduğunu əsassız olaraq iddia edirdilər. Bu yanlış və səhv fikir üzərində ətraflı dayanan V.Qukasyan, bu qeyri-obyektiv fikrin əsassız olduğunu tam kəskinliklə, inandırıcı şəkildə vaxtilə sübuta yetirmişdir (235, s.96).

O ki qaldı Davtakın alban şairi olması, onun Albaniyadan və mənşəcə də alban olması fikri onun özünün yazdığı «Ağı» poemasında tam aydınca əks olunmuşdur. Alban şahı Cavanşir haqqında şair Davtak öz poemasında belə yazır:

«Ey ilahi kəlamları xəlq eyləyən ulu Tanrı,
Özün nəğmə-ağı söylə, yad et **bizim hökmdarı,**
Elə nəğmə-ağı qoş ki, bu əvəzsiz itki üçün
Gözümüzdən gecə-gündüz axsın odlu göz yaşları.
Bu **Gündoğan ölkəmizi** tutan kədər çox böyükdür,
Yer üzünü hərtərəfli hıçqırıqlar bürümüşdür.
Fəryadımıza qulaq assın bütün ellər, qəbilələr,
Mənimlə bir bütün bəşər qoy ağlasın hönkür-hönkür
Təməlindən qopub getdi əzəmətli canlı qaya,
Parçalandı **bizi** qucan, hifz eləyən yüksək divar.
Qüllələri göyə çatan bir imarət yıxıldı, ah,
Sındırılıb məhv edildi möhkəm qala, hündür hasar.
Dincliyimiz yoxa çıxdı, qara gəldi ağ günümüz,
Üstümüzə hücum çəkdi basqınlar sürü-sürü.
Heyrətamiz bir dövləti xarabaya çevirdilər,
Möcüzəli səltənətin al şəfəqi söndürüldü» (79, k.II, f.35; 235, s.96).

Yuxarıda gətirilən alban şahı Cavanşirə həsr olunmuş «Ağı» poemasının bir hissəsindən tam aydın olur ki, alban şahı Cavanşir şair Davtak üçün adi tanış deyil, o eyni zamanda onun yerlisi, həmvətənlisidir. Alban şahı Cavanşirin ölümünü şair Davtak dərin hüznlə yad edərək, onu öz ölkəsi, dövləti, xalqı üçün böyük və əvəzsiz itki olduğunu ürək ağrısı ilə yazır və kədərlənir. Şair Davtak gəlmə erməni şairi olmuş olsaydı, ölmüş özgə xalqın, başqa ölkənin, dövlətin hökmdarını, şahını özününkü adlandırmazdı (235, s.95, 341, s.113).

Beləliklə, bəzi saxtakar tədqiqatçıların alban əhalisinin alban dilində yazıya malik olmaması fikrinin doğru olmadığına və tam bu fikrin əksinə olaraq, ilk orta əsr yazılı qaynaqlarının qiymətli materiallarının obyektiv araşdırılması və tədqiqi, alban dilində, alban əlifbasının Matenadaranda tapılmış əlyazması, Mingəçevirdə və başqa yerlərdə arxeoloji qazıntılar zamanı əldə olunmuş tapıntılar, alban yazısının fraqmentləri alban dilində yazının mövcudluğunu, albanların yazıya malik olmasını, onun varlığını bizə tam qətiyyətlə sübuta yetirmək imkanı verir. Beləliklə, albanlar ta qədimdən başqa mədəni xalqlar kimi, özlərinin müstəqil yazılarına və əlifbalarına malik olmuş xalqlardan biri olmuşlar.

İlk orta əsr yazılı qaynaqları–Koryun, M.Xorenasi, ilk orta əsr alban yazılı qaynağı M.Kalankaytuklunun biri-birinə ziddiyyətli məlumatlarının araşdırılmasından tam aydın olur ki, V əsrin əvvəllərində yeni tərtib olunan alban əlifbasının və yazısının tərtibində, yaradılmasında, məhz əsas rola albanlar özləri malik olmuşlar. Bəzi tədqiqatçıların saxtalaşdırılmış, yanlış fikirlərinin əksinə olaraq tam qətiyyətlə demək olar ki, V əsrin əvvəllərində meydana gələn yeni alban əlifbası və yazısı bilavasitə mənşəcə alban olan tərcüməçi Benyamin və alban yepiskopu Yeremiya tərəfindən tərtib olunmuşdur, alban yazısı–əlifbası Albaniyada yaşayan yerli türkmənşəli, boğaz səsləri ilə zəngin olan qarqar tayfasının ləhcəsinə uyğunlaşdırılaraq onların dili əsasında tərtib olunmuşdur.

Mesrop Maştos alban və qarqar dilini bilmirdi, o albanlarla və qarqarlarla bilavasitə tərcüməçi Benyamin vasitəsilə əlaqə saxlayırdı və ünsiyyətdə olurdu. Məhz belə olan şəkildə, o, alban yazısının, əlifbasının yaradılmasında, tərtib edilməsində heç cür mühüm rol oynaya bilməzdi.

Beləliklə, yuxarıda gətirilən ilkin orta əsr yazılı qaynaqlarının qiymətli materiallarının obyektiv araşdırılması, düzgün tədqiqi tam aydınlıqla göstərir ki, alban dilində çoxlu miqdarda ədəbiyyat mövcud idi. Bəzi alban dilində olan ədəbiyyatın varlığını inkar edənlərin, saxtakar tədqiqatçıların tam əksinə olaraq, ilkin orta əsr yazılı qaynaqlarının qiymətli materiallarının tənqidi, araşdırılması sübut edir ki, yeni alban əlifbası tərtib olunduqdan sonra, o, həyata keçirilməyə başlandı. Alban dilinə ilk növbədə çoxlu miqdarda dini kitablar, o cümlədən «İncil», «Tövrat», «Əhdi-ətiq», «Əhdi-cədid», eyni zamanda başqa dildə olan elmi, bədii əsərlər tərcümə olundu. Alban dilində çoxlu miqdarda bədii və elmi əsərlər yazıldı. V-VII əsrlərdə alban dilində geniş yayılmasına və çiçəklənməsinə digər gözəl və qiymətli sübut alban kilsə xadimlərinin, alimlərinin, alban şahlarının, hökmdarlarının qonşu xalqların, o cümlədən erməni din xadimləri ilə yazışması və onların ilkin orta əsr yazılı qaynaqlarda bizə gəlib çıxmasıdır. Geniş yayılmış alban dilində ədəbiyyatın mövcud olmasına ən gözəl sübut V əsrdə alban şahı III Vaçaqanın dövründə alban dilində 21 maddədən ibarət tərtib olunmuş «III Vaçaqanın qanunları» və Azərbaycanın ilk orta əsr və orta əsrlər tarixşünaslığının nadir yazılı abidəsi Kalankaytuklunun bizə gəlib çıxan «Albaniya tarixi» əsəridir.

Geniş yayılmış alban dilində ədəbiyyatın mövcud olmasına daha ən gözəl sübut alban katolikosu Bəkir tərəfindən yazılmış çoxlu miqdarda kitablardır.

Lakin V-VII əsrlərdə Albaniyada geniş yayılmış və mövcud olmuş ədəbiyyatın çox hissəsi bizim günlərə gəlib çıxmamışdır. İlkin orta əsr yazılı qaynaqların araşdırılması göstərir ki, alban dilində olan bu ədəbiyyatın bir hissəsi yadelli işğalçıların hücumu və ölkənin işğalı zamanı onlar tərəfindən məhv edilmiş, digər bir hissəsi başqa dillərə tərcümə olunmuş, başqa bir hissəsi isə itmişdir.

Beləliklə, yuxarıda gətirilən ilkin orta əsr yazılı qaynaqlarının qiymətli materiallarının və arxeoloji materialların araşdırılmasından aydın olur ki, V əsrin əvvəllərində qarqar ləhcəsi əsasında tərtib olunmuş yeni əlifbadan çox-çox əvvəllər digər mədəni xalqlar kimi albanlar da başqa bir yazıya və başqa bir əlifbaya malik olmuşlar. Ola bilsin ki, alban dilində olan bu yazı

aramey, yunan və ya başqa bir əlifbada olmuşdur. Araşdırmalar göstərir ki, ölkədə yeni alban əlifbası (qarqar ləhcəsi əsasında) tərtib olunduqdan sonra da Albaniya əhalisi çoxdilli olduğuna görə, çox ehtimal ki, bir əlifba–yazı azlıq təşkil etdiyindən, ölkədə başqa dillərdə olan əlifbalar, yazılar da olmuş və bundan da çoxdilli yerli əhali istifadə etmişdir. Çox ehtimal ki, məhz bu səbəbdən də alban dilində olan yazının açılmasına çətinlik yaranır və bizə məlum olan alban yazısı, dili bu günə qədər açılmamış qalır.

İlkin orta əsr yazılı qaynaqların yuxarıda gətirilən materiallarının araşdırılması tam aydınlıqla göstərir ki, ölkədə yazının tərtib olunmasından sonra ilkin orta əsrlərdə Albaniyada uşaqların bilik alması, dərs oxuması, savadlanması üçün məktəblər açıldı və onlar ölkədə mövcud idi. İlkin orta əsr yazılı qaynaqlarının araşdırılması göstərir ki, bu yeni məktəblərdə ölkənin müxtəlif vilayətlərindən yığılmış uşaqlar qruplara bölünüb savad öyrənir və biliklərə yiyələnirdilər. Hətta onlar yeməklə təmin olunurdular və yeməklərinə dövlət tərəfindən pul verilirdi.

Beləliklə, ilkin orta əsr yazılı qaynaqların məlumatlarının araşdırılmasından aydın olur ki, alban şahı III Vaçaqanın əmri ilə ölkədə V əsrin axırlarında, adi məktəblərdən fərqli olaraq, xüsusi məktəblər açıldı, bu məktəblərə cadugər, sehrbaz, bütpərəst kahinlərin uşaqlarını cəlb edib, yığıb, onlara xristian dinini, xaçpərəst həyat tərzini və savad, yazı öyrədirdilər. Bu məktəblər alban şahı III Vaçaqanın xüsusi nəzarəti altında idi. Xüsusi açılmış bu məktəbdə oxuyan uşaqların yeməkləri üçün pul da təyin edilmişdi. Albaniyada fəaliyyət göstərən məktəblərdə uşaqlara müəllimlər–rahiblər dərs deyirdilər və bunun üçün də əməkhaqqı – «maaş» alırdılar.

İlkin orta əsr yazılı qaynaqların materiallarının araşdırılması göstərir ki, alban şahı Cavanşirin dövründə Albaniyada elm, mədəniyyət geniş inkişaf etmişdi. Onun hakimiyyəti dövründə ölkədə məbədlər, saraylar inşa olundu. Alban hökmdarı Cavanşirin sarayında Davtak adlı saray şairi fəaliyyət göstərirdi. Alban şahı Cavanşirin ölümündən sonra onun haqqında şair Davtak ağı poema yazmışdır, bizim günlərə gəlib çıxan, Qafqazda yeganə olan qədim ağı-poemada alban hökmdarı Cavanşir, dövrün əvəzolunmaz görkəmli sərkərdəsi, hökmdarı, diplomatı kimi tərif və təsvir olunmuşdur.

NƏTİCƏ

Beləliklə, yuxarıdakı, ilkin orta əsr yazılı qaynaqların məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, Qafqaz Albaniyasının III-VII əsrlərdə ərazisi olduqca geniş olmuşdur. Albaniya şahlığının, dövlətinin ərazisi şimalda Böyük Qafqaz sıra dağlarının şimal ətəklərindən başlayaraq, cənubda Muğan və Mil düzənlikləri daxil olmaqla Kür və Araz çaylarının aşağı qovşağına qədər ölkənin ərazisi uzanırdı. Albaniya dövlətinin III-VII əsrlərdə ərazisinin tərkibinə Uti, Arsax, Paytakaran və s. nahiyələri, Cora, Lpiniya, Qardaman, Kambiçena, Şakaşen və digər vilayətlər daxil oldu.

İlkin orta əsr yazılı qaynaqların məlumatlarının və tədqiqatçılarının əsərlərinin araşdırılması göstərir ki, Qafqaz Albaniyası şimalda Böyük Qafqaz sıra dağlarının şimal ətəklərində yerləşən Sarmatiya ilə birləşərək, onunla həmsərhəd idi. Cənub-qərbdə isə Albaniyanın ərazisi Araz çayının yuxarı hissəsi və bu çayın sol sahil hissəi də daxil olmaqla uzanırdı, cənubda isə ölkənin ərazisi Araz çayı ilə Kür çayının qovuşduğu yerə qədər– Paytakaran daxil olmaqla, Muğan və Mil düzənliklərinin ərazisinə qədər uzanırdı. Şərqdə Albaniya dövləti Kaspi dənizi ilə həmsərhəd idi. Qərbdə isə Albaniya dövləti İberiya ölkəsi ilə həmsərhəd idi.

Beləliklə, yuxarıda qeyd edilən ilkin orta əsr yazılı qaynaqların məlumatları və tədqiqatçıların əsərlərinin araşdırılması, tədqiqi göstərir ki, ilkin orta əsrlərdə Qafqazın və Qafqaz Albaniyasının əhalisinin tərkibində əvvəlki əsrlərdə olduğu kimi, qafqaz mənşəli, türkmənşəli, iran mənşəli komponentlər mövcud olmuşdur.

Yuxarıda qeyd edilən ilkin orta əsr yazılı qaynaqlarının məlumatlarının və eyni zamanda toponomik, dilşünaslıq, antropoloji materialların və tədqiqatçıların əsərlərinin araşdırılması göstərir ki, qədim dövrlərdə və ilkin orta əsrlərdə (III-VII əsrlərdə) Qafqaz Albaniyasının əhalisinin etnik tərkibinin başlıca tərkib hissəsini türk ailə qrupuna daxil olan, türkmənşəli tayfalar təşkil edirdi.

Beləliklə, qədim erməni, yunan, bizans, suriya, gürcü və ərəb yazılı qaynaqlarının məlumatlarının araşdırılması və tədqiqi göstərir ki, Qafqaz Albaniyasının qədim yerli (avtoxton) tayfaları–albanlar, utilər, lpinlər, kaspilər, çilblər, qarqarlar, leqlər, qardmanlar, savdeylər və digərlər idilər.

Qafqaz Albaniyasının bu yerli tayfalarının az bir hissəsi «Qafqaz» deyilən dil qrupuna daxil idilər, onların digər bir çox hissəsi isə türk mənşəli tayfalardan ibarət idi.

İlkin orta əsr yazılı qaynaqları Qafqaz ərazisində, eyni zamanda daha bir sıra etnik birləşmələrin: tavasparların, xeçmatakların, ijmaxların, qatların, qluarların, şiçbilərin, balasiçilərin, yeqersvanların və digər bir sıra etnosların adlarını da qeyd edirlər.

İlkin orta əsr yazılı qaynaqları yerli (avtoxton) etnoslara bərabər Qafqaz Albaniyasının ərazisində türk mənşəli–sakları, maskutları və digər mənşəli etnosların olmasın da qeyd edirlər.

Beləliklə, ilkin orta əsr yazılı qaynaqların məlumatlarının və tədqiqatçıların əsərlərinin araşdırılması, tədqiqi göstərir ki, Qafqaz Albaniyası ərazisində elə etnik birləşmələr, etnoslar mövcud idi ki, onlar türk dilləri qrupuna daxil olan dildə və ləhcələrdən birində danışırdılar, eyni zamanda onlar türkmənşəli tayfalar idilər. Onlar albanlar, qarqarlar, utilər, kəngərlər, kaspilər, savdeylər, ijmaxlar, saklar, maskutlar, basilər, sabirlər, xəzərlər, eyni zamanda hunlar və digər etnoslardan ibarət idilər.

Beləliklə, yuxarıdakı ilkin orta əsr qaynaqların və tədqiqatçıların əsərlərinin araşdırılması, bir sıra saxtakar tarixçilərin, guya Albaniyanın yerli əhalisinin (etnosların, tayfaların) III-VII əsrlərdə qonşuluqda yaşayan tayfalar tərəfindən assimilyasiyaya məruz qalması fikrinin tam əsassız, yanlış və uydurma olduğunu bizə qəti şəkildə israr etmək imkanı verir.

Digər tərəfdən onu da qeyd etmək lazımdır ki, araşdırdığımız dövrdə Qafqaz Albaniyasının daxilində assimilyasiya prosesi güclə və zorakılıqla deyil, qanunauyğun, təbii şəkildə assimilyasiya prosesi cərəyan edir və gedirdi.

Bu proses bir neçə istiqamətlərdə cərəyan edirdi: 1.Yerli tayfalar arasında (qafqaz mənşəli, qafqaz dilli və türkmənşəli, türk qruplu dillər). 2. Gəlmə tayfalar arasında. 3. Gəlmələr (iran

mənşəlilər, iran dillilər və türk mənşəlilər, türk dillilər) və yerli tayfalar (qafqaz dillilər, türk dil qrupuna daxil olan) arasında. Yuxarıda göstərilən proseslər nəticəsində araşdırdığımız dövrdə ölkədə iki əsas istiqamətlərin getdiyi müşahidə olunur, yerli türkmənşəli tayfaların, gəlmə türk qrupuna daxil olan tayfalarla qarışması, birləşməsi, qovuşması və türk mənşəli, türk dil qrupuna daxil olan tayfalar tərəfindən, təbii şəkildə qafqaz mənşəli və iran dilli tayfaların assimilyasiyaya uğraması, bu proses nəticəsində araşdırdığımız dövrdə türkmənşəli, türk dil qrupuna daxil olan tayfaların dillərinin Albaniyada nəhayət tam qələbəsi ilə nəticələndiyini və müşahidə olduğunu görürük. Yuxarıdakı tədqiqatlar, araşdırmalar bir daha göstərir ki, ölkənin etnik tərkibində türk dillər qrupuna daxil olan yerli etnoslar, etnik daşıyıcılar mövcud idi və onlar gəlmə deyildilər.

Beləliklə, yuxarıda göstərilən materiallardan, araşdırmalardan aydın olur ki, ilk orta əsrlərdə Qafqaz Albaniyasında iqtisadiyyat çox geniş şəkildə inkişaf etmişdi.

İlk orta əsr yazılı qaynaqların, arxeoloji materialların və etnoqrafik müşahidələrin araşdırılması, tədqiqi, ilkin feodalizm dövründə Albaniyada əkinçiliyin və əkinçilik mədəniyyətinin çox yüksək inkişaf etdiyini göstərir. İlk orta əsr yazılı qaynaqları və arxeoloji materialların, etnoqrafik müşahidələrin öyrənilməsi, araşdırılması göstərir ki, gözəl, münbit, geniş torpaqlarda Albaniyanın əhalisi, tədqiq edilən dövrdə, geniş miqyasda əkinçilik, bağçılıq və üzümçülüklə məşğul olurdu.

Yazılı qaynaqların və arxeoloji materialların öyrənilməsi və tədqiqi göstərir ki, tədqiq edilən dövrdə, geniş, münbit torpaqlara malik olan Albaniya əhalisinin əsas məşğuliyyəti əkinçilik olmuşdur. Əhali əkinçiliklə Kür çayının hər iki sahili boyunda, Araz çayı boyunca, Muğan və Mil düzlərində və başqa yerlərdə məşğul olur-du. Əkinçilikdə əsas becərmə şumlama ilə aparılırdı. Yerin şumlanmasında geniş işlədilən alət–ağır kotan, dəmir bel və xışdan ibarət olmuşdur. Araşdırdığımız dövrdə əkinçilikdə süni suvarmadan da geniş istifadə edilmişdir.

İlk orta əsr yazılı qaynaqları, arxeoloji materiallar və etnoqrafik müşahidələrin tətbiqi Albaniyada ilk orta əsrlər dövründə suvarma əkinçiliyinin geniş tətbiq edildiyini və yüksək sə-

viyyədə olduğunu göstərir. Arxeoloji qazıntılar nəticəsində əldə edilmiş əkinçilikdə istifadə edilən çoxlu miqdarda əmək alətləri albanların və Albaniyada yaşayan digər tayfaların əkinçilik mədəniyyətinin ilk feodalizm dövründə yüksək inkişafının tam aydınlığı ilə gözə çarpdırır, əmək məhsuldarlığının inkişafının xeyli artımını göstərir.

Yazılı qaynaqların materiallarının, ilk orta əsrlərə aid mədəni təbəqələrdən arxeoloji qazıntılar zamanı əldə olunmuş, bağçılıq və bostançılıqda istifadə edilən əmək alətlərinin araşdırılması, Albaniyada tədqiq edilən dövrdə bağçılıq, bostançılığın xeyli inkişaf etdiyini göstərir. Gözəl coğrafi şərait, münbit torpaq, çoxlu çayların varlığı, habelə gözəl süni suvarma sisteminin olması ilk orta əsrlərdə ölkədə çoxlu miqdarda taxılın, bostan və bağ məhsullarının yetişməsinə şərait yaradırdı.

Albaniyanın əhalisi tədqiq edilən dövrdə taxıl (buğda, arpa, darı və s.), bostan məhsulları (qarpız, qovun, balqabaq, xiyar və s.), texniki bitkilər (zeytun, zəfəran, marena və s.) yetişdirirdi. Bu dövrdə əhali pambıqçılıqla, üzümçülüklə, bağçılıqla (zoğal, şaftalı, albalı, gavalı, ərik, nar, qoz, fındıq, badam, şabalıd, əncir və s.) məşğul olurdu.

Tədqiq etdiyimiz dövrdə üzümçülüyün inkişafı, şərabçılığın inkişafı üçün geniş imkan yaradırdı. İlk orta əsrlərdə Albaniyada şərabçılıq çox inkişaf etmişdir. Tədqiq etdiyimiz dövrdə üzümdən yalnız şirə və şərab deyil, digər ləzzətli içki–turşa-şirin (boza), sirkə, qoraba, abqora və digər yemək şeyləri–doşab, riçal, kişmiş və başqa məhsullar da hazırlanaraq geniş istifadə edilmişdir.

Beləliklə, yazılı qaynaqların, arxeoloji materialların, etnoqrafik müşahidələrin araşdırılması, tədqiqi göstərir ki, ilk orta əsrlərdə Qafqaz Albaniyasının iqtisadi həyatında heyvandarlıq böyük əhəmiyyət kəsb etmiş və yüksək inkişaf etməklə durmadan artmışdır. Tədqiq edilən dövrdə maldarlıqda əsas yeri xırdabuynuzlu (qoyun, keçi), iribuynuzlu (inək, öküz), atçılıq, dəvəçilik tutmuşdur. Coğrafi şərait ölkənin ərazisində maldarlığın geniş inkişafı üçün alp çəmənliklərinin və düzənliklərinin varlığı, heyvanların qışlamaq və yaylaq şəraitində bəslənib inkişaf etməsi üçün həmişə gözəl imkan yaratmışdır.

Yuxarıda araşdırılan materialların tədqiqi göstərir ki, ilk orta əsrlərdə Albaniyada xırdabuynuzlu heyvandarlığın inkişafı, maldarlıq məhsulunun daha da artmasına, ondan əhalinin daha çox istifadəsinə səbəb olmuşdur. İlk orta əsrlərdə maldarlığın Albaniyada inkişafı əhalinin ət, süd, pendir, qaymaq, ayran, yağ, digər süd məhsullarından, göndəridən geniş istifadə etməsinə və onlarla təmin olunmalarına imkan yaratmışdı.

Tədqiq etdiyimiz dövrdə maldarlığın inkişafı öz növbəsində toxuculuq və digər sənətkarlıq sahələrində xammal mənbəsinin artmasına gözəl şərait yaratmış və onu çoxlu miqdarda xammalla təmin etmişdir. Atçılıq və dəvəçiliyin genişlənməsi ilk orta əsrlərdə yük daşınmasının və nəqliyyatın daha da artmasına, inkişafına səbəb olmuşdur.

Albaniyada tədricən feodal münasibətlərinin, istehsal vasitələrinin inkişafı, məhsuldar qüvvələrinin və istehsal alətlərinin inkişafına təkan verdi. Bu da öz növbəsində iqtisadiyyatın bütün sahələrinin, o cümlədən sənətkarlığın daha da genişlənməsinə, inkişafına imkan və təkan verdi.

Yazılı qaynaqların məlumatları, arxeoloji qazıntılardan tapılan materialların və etnoqrafik müşahidələrin araşdırılması, tədqiqi göstərir ki, ilk orta əsrlərdə Albaniyada sənətkarlıq xeyli inkişaf etmişdi və yerli əhalinin iqtisadiyyatında mühüm yerlərdən birini tutmuşdur. Yuxarıda göstərilən materialların araşdırılması, tədqiqi göstərir ki, Albaniyada tədqiq edilən dövrdə müxtəlif sənət sahələrinin istehsalı–dulusçuluq, zərgərlik, toxuculuq, o cümlədən ipəkçilik, xalçaçılıq, şüşə istehsalı, metallurgiya və metalişləmə (dəmir, gümüş, qızıl), daş, sümük və ağac üzərində nəqqaşlıq, əmək alətlərinin istehsalı (dəmir oraqlar, dəryazlar, xışlar, qırxlıqlar, bıçaqlar, qayçılar, dəmir toxalar, xalça toxuyan dəzgahlar, toxuculuqda və əyiricilikdə işlədilən alətlər və dəzgahlar və s.), silah istehsalı (qılınc, xəncər, ox, yay, dəbilqə, ox ucları, nizə, qalxan), inşaatla məşğul olan istehsal sahələri xeyli inkişaf etmişdi.

Beləliklə, yuxarıda araşdırılan yazılı qaynaqların və arxeoloji materialların tədqiqi göstərir ki, ilk orta əsrlərdə Albaniyada balıqçılıq da inkişaf etmişdi və mühüm təsərrüfat sahələrindən birinə çevrilmişdir. Balıq ölkədə o qədər çox istehsal olunurdu

ki, onu başqa ölkələrə də ixrac edirdilər. Yazılı qaynaqların məlumatlarının, habelə arxeoloji qazıntılar zamanı əldə olunmuş materialların, etnoqrafik müşahidələrin araşdırılması göstərir ki, istehsal münasibətləri, istehsal vasitələri, sənətkarlıq ilk orta əsrlərdə çox yüksək səviyyədə inkişaf etmiş və öz inkişafına görə qonşu ölkələrin sənətkarlıq, istehsal vasitələrin istehsalından geridə qalmamış, Yaxın və Orta Şərq ölkələrin istehsal vəsaitləri səviyyəsində durmuşdur.

Yazılı qaynaqların və arxeoloji materialların araşdırılması, tədqiqi göstərir ki, Albaniyada ilk orta əsrlərdə toxucular, dulusçular, zərgərlər, metalişləmə ilə məşğul olan ustalar, nəqqaşlar, əmək alətləri, silah istehsalı ilə məşğul olan ustalar, inşaatla məşğul olan bənnalar, daş yonanlar, memarlar və s. var idi.

Beləliklə, ilk orta əsrlər dövrünün yazılı mənbələrinin, arxeoloji qazıntıların materiallarının və tədqiqatların araşdırılması, tədqiqi göstərir ki, ilk orta əsrlərdə ticarət Albaniyada geniş şəkildə inkişaf etmişdi. Yuxarıda göstərdiyimiz kimi, feodal istehsal münasibətlərinin genişlənməsi və inkişafı Albaniyada ilk orta əsrlərdə iqtisadiyyatın inkişafına böyük imkan və təkan verdi. Bunun nəticəsində də ölkə daxilində iqtisadiyyatın daha bir sahəsi olan daxili ticarət də çiçəkləndi. İlk orta əsrlərdə Albaniyanın daxili bazarlarında kənd təsərrüfatı mallarının–taxıl (buğda, arpa, darı və s.), texniki bitkilər (pambıq, marena, zeytun, zəfəran), bostan məhsulları (qarpız, qovun və s.), bağçılıq məhsulları (üzüm, alma, armud, nar, gilas, gilənar, gavalı, qoz, fındıq, zoğal və s.), mal-qara (xırdabuynuzlu və iribuynuzlu), at, maldarlıq məhsuları (yağ, pendir, qatıq, ayran, süd, dəri, yun və s.), müxtəlif növ balıq satılırdı. İlk orta əsrlərdə Albaniyada sənətkarlığın və onun istehsalının inkişafı daxili bazarlara ölkədə istehsal olunmuş dulusçuluq məmulatının, şüşə qablarının, əmək alətlərinin, habelə qızıldan, gümüşdən və müxtəlif metallardan hazırlanmış bəzək əşyaların, toxuculuq (ipək, kətan, pambıq parçalar, xalçalar, palazlar və s.) məmulatları çıxarılıb satılırdı. Yazılı qaynaqların araşdırılması, tədqiqi göstərir ki, Albaniyada ilk orta əsrlərdə yerli əhali istehsal etdikləri məhsulların bir hissəsini qonşu ölkələrə ixrac edirdilər. Araşdırmalar göstərir ki, Albaniya ilk orta əsrlərdə xarici ölkələrlə də

ticarət mübadiləsinə və sıx ticarət əlaqələrinə malik olmuşdur. Tədqiqat və araşdırmalar göstərir ki, qonşu ölkələrlə ticarət münasibətlərinin genişlənməsi və daxili ticarətin daha da yüksəlişi ölkədə pul tədavülünün artmasına səbəb olmuşdu.

İlk orta əsrlər dövrünün yazılı mənbələrinin, arxeoloji materiallarının və tədqiqatların araşdırılması, tədqiqi göstərir ki, ilk orta əsrlərdə Albaniyanın ərazisindən ümumdünya əhəmiyyətli beynəlxalq quru, su ticarət yolları keçirdi ki, bu da ölkədə iqtisadiyyatın bütün sahələrinin, tranzit və daxili ticarətin geniş şəkildə inkişaf etməsinə böyük imkan yaradırdı. Albaniya tədqiq etdiyimiz dövrdə ümumdünya əhəmiyyətli tranzit ticarətinin mərkəzlərindən birinə çevrilmişdir. İlk orta əsrlər dövrünün yazılı qaynaqların, məlumatların, arxeoloji materialların və tədqiqatların araşdırılması, tədqiqi göstərir ki, Albaniya ilk orta əsrlərdə Hind okeanından tutmuş Qara dənizə qədər olan ölkələrlə, eyni zamanda Yaxın və Orta Şərq ölkələri ilə daha geniş ticarət mübadiləsinə və sıx ticarət əlaqələrinə malik olmuşdur.

Beləliklə, yazılı mənbələrin məlumatlarının və arxeoloji qazıntılardan əldə olunmuş maddi mədəniyyət qalıqlarının tədqiqi göstərir ki, ilk orta əsrlər dövründə Albaniyada təsərrüfat həyatının inkişafı ilə əlaqədar olaraq mövcud şəhərlər inkişaf edərək genişlənir və çiçəklənirdilər. Digər tərəfdən isə sənət və ticarət– yerli və tranzit ticarət mərkəzləri, həmçinin ölkənin ictimai-siyasi mərkəzləri olmaq etibarilə yeni şəhərlər meydana gəlirdi. Həmin şəhərlər ticarət yolları üzərində yerləşirdilər. Onlar ilk orta əsrlərdə ticarət yolları vasitəsilə qonşu ölkələrlə–Yaxın və Orta Şərq ölkələri, Qara dənizdən Hind okeanı sahillərinə qədər ölkələr ilə sıx əlaqəli olmuşlar.

İlk orta əsr yazılı qaynaqların və arxeoloji materialların araşdırılması, tədqiqi göstərir ki, tədqiq etdiyimiz dövrdə Albaniyada çoxlu şəhərlər, möhkəmləndirilmiş qalalar, başqa yaşayış məntəqələri, çoxsaylı kəndlər olmuşdur. Albaniya şəhərləri ərazi cəhətdən geniş, yararlı və gözəl yerlərdə yerləşirdilər. Albaniya şəhərlərinin ətrafı yarımdairəvi bürclər və qala divarları ilə əhatə olunmuşlar. İlk orta əsr şəhərləri qala darvazalarına malik idilər. Bu şəhərlərin hər birinin öz hakimləri («başçılar», «hökmdarlar») var idi. Araşdırmalar, tədqiqatlar göstərir

ki, ilk orta əsr Alban şəhərlərində çoxlu saraylar, dini məbədlər var idi. Yazılı qaynaqların materiallarının araşdırılması, tədqiqi göstərir ki, tədqiq etdiyimiz dövrün Alban şəhərlərində əsasən hökmdarlar, əyanlar, iri feodallar, ruhani əyanları, ruhanilər, tacirlər, sənətkarlar yaşayırdılar. Yazılı qaynaqlar, habelə ilk orta əsr dövrünün şəhərlərində ticarət və sənətkarlıqla məşğul olan yadellilərin (suriyalıların, yunanların və b.) yaşadıqlarını da faktik olaraq təsdiq edir. Araşdırmalar göstərir ki, ilk orta əsr Albaniya şəhərləri böyük bazarlara malik idilər. Şəhər sakinləri əsas etibarilə sənətkarlıq, ticarət, habelə qismən əkinçilik, bağçılıq, maldarlıq və s. ilə də məşğul olurdu.

Yazılı qaynaqların və arxeoloji qazıntıların araşdırılması, tədqiqi göstərir ki, ilk orta əsr şəhərləri, adətən iki hissədən–iç qaladan (möhkəmləndirilmiş hissə) və şəhərin özündən ibarət olurdu. Arxeoloji materialların tədqiqi, araşdırılması göstərir ki, ilk orta əsr şəhərlərinin möhkəmləndirilmiş hissəsi (iç qalası) orta hesabla 20 hektar, şəhərin özü isə 40 hektar və ondan artıq sahəni tuturdu.

Araşdırmalar göstərir ki, ilk orta əsr dövründə mövcud olan alban şəhərləri ölkənin iqtisadi, mədəni və siyasi həyatında mühüm rol oynamışlar. Tədqiqatlardan, araşdırmalardan aydın olur ki, Albaniyanın ilk orta əsr dövrünün ən böyük ticarət-sənaye və inzibati-siyasi əhəmiyyətli mərkəzləri: Bərdə (Partav), Çora (Çola), Dərbənd, Paytakaran, Beyləqan, Qəbələ, Xalxal, Amaras, Siri, Hunan (Xunarakert, Xunan) və başqa bu kimi şəhərlər idi.

İlk orta əsr yazılı qaynaqların və tədqiqatların araşdırılması göstərir ki, ilkin orta əsrlərdə Albaniyada yeni istehsal qüvvələrinin, istehasal münasibətlərinin inkişafı Albaniya dövlətində tədqiq olunan dövrdə feodal istehsal münasibətlərinin yaranması, inkişafı, bərqərar olması dövrü olmuşdur. Araşdırmalar göstərir ki, bu dövrdə feodal torpaq formalarının (şahlara məxsus, nəsildən-nəslə keçən dövlət torpaq mülkiyyəti, kilsə torpaq mülkiyyəti, əyanların, zadəganların, iri feodalların, azadların torpaq mülkiyyəti) meydana gəlməsini və ağalıq edən feodal qrupunun zümərsinin yaranması, digər zəhmətkeş təbəqəsinin

(kəndlilər, sənətkarlar, tacirlər, balıqçılar, sadə adamlar, başçılar və s.) yaranması və meydana gəlməsini görürük.

Beləliklə, tədqiq olunan dövrdə yuxarıdakı yazılı qaynaqların məlumatlarının araşdırılması və tədqiqi sübut edir ki, qədim Albaniyanın müstəqil dövlətçilik ənənələrini davam etdirərək, ilkin orta əsrlərdə də Albaniya müstəqil dövlətə, müstəqil şahlara, hakimlərə malik olub, müstəqil siyasət aparan suveren feodal dövlət idi.

İlkin orta əsr yazılı qaynaqlarında, qiymətli məlumatlarda hifz olunan sənədlərə, faktlara əsaslanaraq Albaniyada tədqiq etdiyimiz dövrdə ölkədə dövlətin siyasi strukturunun əsas qayəsini müəyyənləşdirmək mümkündür. Tədqiq etdiyimiz ilk orta əsrlər dövründə Albaniya feodal dövləti müstəqil, suveren dövlət olaraq iri feodal zümrəsinə, iri iyerarxiyasına və dini feodal əyanları zümrəsinə malik (özünün paytaxtı, silahlı qüvvəsi–ordusu, bayrağı, möhürü, məhkəməsi) dövlət quruluşundan ibarət idi.

Beləliklə, ilkin orta əsr yazılı və arxeoloji qaynaqların araşdırılması və tədqiqi göstərir ki, ölkədə feodalizmin bərqərar olması üçün feodalizmə qədərki köhnə dini baxışların, astral dinin ləğvi, dəyişməsilə nəticələnməli idi. Onun ləğvi, dəyişməsi isə ölkədə ictimai quruluşun dəyişməsində bir növ inqilabi formada baş verirdi.

İlkin orta əsr yazılı qaynaqların və arxeoloji qaynaqların, digər materialların tədqiqi və araşdırılması göstərir ki, xristian dininin Albaniyada yayılmasından öncə ölkədə astral dini baxışlar çox geniş yayılmışdır. Eramızın II əsrindən başlayaraq xristian dini və onun baxışları Albaniyada yayılmağa başladı. Xristian dininin baxışları Albaniyada birbaşa yarandığı yerdən – yəni Yerusəlimdən gələn xristian missonerləri vasitəsilə yayılır və təbliğ olunurdu. IV əsrin əvvəlində isə xristian dini Albaniyada dövlət dini kimi qəbul edildi və dövlət dini elan olundu. Lakin ilkin orta əsr qaynaqlarının və arxeoloji qaynaqların məlumatlarının araşdırılması və tədqiqi göstərir ki, şah, əyanlar, iri feodallar tərəfindən qəbul olunmuş xristian dini, tədqiq etdiyimiz dövrdə ölkədə geniş xalq kütlələri arasında yayılıb, ümumxalq dininə yüksələ bilmədi. Xristian dini Albaniyanın hər yerində eyni şəkildə yayılmadı.

Bütün ilkin orta əsr dövründə – II-VII əsrlərdə, Albaniyada xristian dini və xristian anlaşılması, bir tərəfdən atəşpərəstliklə, manixeyçiliklə, digər tərəfdən isə, çoxluq və əksəriyyəti təşkil edən yerli, aşağı ictimai təbəqənin–dini baxışları olan təbiət qüvvələrinə, ruhlara sitayiş edən bütpərəstlərlə mübarizədə olmuşdur. Araşdırmalar, tədqiqat göstərir ki, Albaniyada tədqiq etdiyimiz dövrdə bütpərəstlərlə və digər dini baxışlarla kəskin mübarizədə, şah başda olmaqla iri feodal iyerarxiyası dururdu.

Lakin xristinalığın Albaniyada ilk orta əsrlərdə yayılmasını irəliyə atılmış addım kimi qəbul etmək lazımdır, çünki bu yeni feodal istehsal qüvvələrinin, yeni istehsal münasibətlərinin inkişafına maneçilik göstərən bütpərəst qüvvələrə qarşı çevrilmişdi. Xristianlıq Albaniyanın siyasi, iqtisadi, mədəni cəhətdən Şərqin qabaqcıl xristian ölkələrinə yaxınlaşdırılmasına köməklik göstərirdi. Xristian dininin Albaniyada dövlət dini kimi qəbul edilməsi, onu yaxın qonşularla iqtisadi, siyasi, mədəni cəhətdən daha da yaxınlaşdırdı.

Yuxarıdakı araşdırmalar, tədqiqat göstərir ki, Albaniyada xristianlığın qəbul edilməsi nəticəsində meydana gəlmiş kilsə feodal iyerarxiyası, tədqiq etdiyimiz dövrdə ölkədə mühüm bir qüvvəyə çevrilərək, siyasi ideoloji təsirini ölkədə yaşayan xristian əhali üzərində hərtərəfli genişləndirir və xalq kütlələrinin istismar alətinə çevrilirdi.

İlkin orta əsr yazılı qaynaqlarının araşdırılması və tədqiqi göstərir ki, Albaniyada ilk orta əsrlərdə xristian dinini alban dilində təbliğ etmək, yaymaq üçün dini kitablar da mövcud idi. İlkin orta əsrlərdə Albaniyada yaşayan xristian alban əhalisinə müqəddəs dini kitablar – «İncil», «Əhdi-ətiq» («Bibliya»nın xristianlıqdan əvvəlki qədim hissəsi), «Əhdi-cədid» («İncil»in və başqa dini kitabların adı) alban dilinə tərcümə edilmiş və onlar alban dilində xristian əhaliyə məlum idi. Alban din nümayəndələri, xristian ruhaniləri ölkədə xristian dinini yayarkən və onu təbliğ edərkən bu müqəddəs dini kitablardan geniş istifadə edirdilər.

İlkin orta əsr yazılı qaynaqlarının araşdırılması və tədqiqi par-laq şəkildə göstərir ki, Alban kilsəsi yarandığı və xristianlıq dövlət dininə çevrildiyi gündən–IV əsrdən başlayaraq VII əsr daxil olmaqla, heç bir digər xristian kilsəsinə tabe olmayan, tam

